AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M. FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 14

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).
Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2019

REDAKSİYA HEYƏTİ: akademik İsa Həbibbəyli, akademik Teymur Kərimli, akademik Möhsün Nağısoylu, akademik Nizami Cəfərov, AMEA-nın müxbir üzvü, f.ü.e.d., prof. Əbülfəz Quliyev, f.ü.e.d., prof. Vilayət Əliyev, f.ü.e.d., prof. Fəxrəddin Veysəlli, f.ü.e.d., prof. Qəzənfər Kazımov, f.ü.e.d., prof. Rüfət Rüstəmov, f.ü.e.d., prof. Əsgər Rəsulov, f.ü.e.d., prof. Nadir Məmmədli, f.ü.e.d., prof. Əbülfəz Rəcəbli, f.ü.e.d., prof. İsmayıl Məmmədli, f.ü.e.d., prof. Məsud Mahmudov, f.ü.e.d., prof. Nizami Xudiyev, f.ü.e.d., prof. Həbib Zərbəliyev, f.ü.e.d., prof. İlham Tahirov, f.ü.e.d., prof. Tofiq Hacıyev, f.ü.e.d., prof. Sevil Mehdiyeva, f.ü.e.d., prof. Buludxan Xəlilov, f.ü.e.d., f.ü.e.d., prof. Mübariz Yusifov, f.ü.e.d., prof. Qəzənfər Paşayev, f.ü.e.d., prof. Cəlil Nağıyev, f.ü.e d., prof. Kamilə Vəliyeva, f.ü.e.d., prof. Azadə Musayeva, f.ü.e.d. Paşa Kərimov, f.ü.f.d., dos. Nəzakət Məmmədli

Redaktor: akademik Teymur Kərimli
Buraxılışa məsul: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2019, № 14

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2019

www. filologiyameseleleri.net

DİLÇİLİK

NADİR MƏMMƏDLİ
Filologiya elmləri doktoru, professor
Ayna Sultanova küçəsi, 5
elm.ve.tehsil@mail.ru

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN DİL SİYASƏTİ VƏ PARLAMENTİN NİTQ MƏDƏNİYYƏTİ

Xülasə

Azərbaycan Xalq Cümhuriyyətinin ilk islahatlarından birincisi dövlət dili ilə bağlı olmuşdur. Cümhuriyyət hökuməti 1918-ci il 27 iyun tarixli qərarı ilə türk dilini Azərbaycan tarixində ilk dəfə dövlət dili elan etdi. Parlamentdə dillərin işlənməsi məsələsi, təbii olaraq, qanunverici hakimiyyətin üzvlərinin öhdəsinə buraxılmışdı. Digər millətlərin nümayəndələrinin rus dilində çıxış etmələri məqbul hesab edilsə də, yalnız Azərbaycan dili dövlət dili statusuna malik idi. Şifahi nitqdə sərbəstliyə imkan verilirdi, lakin sənədlərin, təkliflərin dilinin Azərbaycan dilində olması məcburi bir prinsipə əsaslanırdı.

XX əsrin əvvəllərində dil məsələsi Azərbaycan ictimai-siyasi və mədəni həyatında vacib bir göstərici olmaqla yanaşı, həm də siyasi səciyyə daşıyırdı. Müxtəlif siyasi təmayüllü və ya əqidəli ziyalılar Azərbaycan dilini osmanlılaşdırmağa, ruslaşdırmağa yaxud farslaşdırmağa meyil göstərirdilər. Azərbaycan xalqını müstəqil bir xalq, dilini müstəqil Azərbaycan dili hesab etməyənlər osmanlı türklərinin dilində danışıb-yazmağı təklif edirlər. İkinci qisim islam dinindən uzaqlaşmamaq üçün ərəb və fars dillərinin təsirindən qopa bilmirdilər. Rus təhsilli ziyalılar ədəbi dili ruslaşdırmağa çalışır, hətta mətbuatı, ədəbiyyatı yuxarı siniflərə məxsus bir "nemət" hesab edirdilər. Demokratik qüvvələr vahid bir cəbhədə – xalq dilinə əsaslanan ədəbi dil uğrunda mübarizədə birləşirdilər. Azərbaycan parlamentinin dilində də bu üç cəhət özünü aydın göstərir. Lakin bir tərəfdən Azərbaycan ümumxalq dili üzərində yüksələn, o biri tərəfdən daha çox osmanlı dilinə meyillənən dil daha aparıcı olsa da, ədəbi dilimizin parlament üslubunda onun tam bu şəkildə qəliblənmiş formaları əvəzinə, vəziyyətlə, mövzu ilə, şəraitlə bağlı daha çevik milli ifadə tərzləri vardı.

Uzun zaman məsafəsində həmin dövr dil yaddaşımızın uca zirvələrindən biri olaraq qalacaq.

Açar sözlər: Azərbaycan Xalq Cümhuriyyəti, parlament, rəsmi sənədlərin dili, nitq etiketləri, "Möhtərəm parlament əzası", "Möhtərəm məbuslar", "Möhtərəm Azərbaycan parlamenti əzası", "Möhtərəm parlament üzvləri", siyasi nidalar.

Şərq tarixinə daxil olmuş ilk demokratik respublika və parlamentli dövlət, 23 aylıq hakimiyyəti olan Azərbaycan Xalq Cümhuriyyətinin ilk islahatlarından birincisi dövlət dili ilə bağlı olmuşdur. Cümhuriyyət hökuməti 1918-ci il 27 iyun tarixli qərarı ilə türk dilini (*Azərbaycan dili*, bundan sonra belə oxunacaq – *red. N.M.*) Azərbaycan tarixində ilk dəfə dövlət dili elan etdi.

"Dövləti lisan türkcə qəbul edilərək müvəqqətən hökuməti müəssisələrdə rus lisanı istemalına müsaidə edilməsi haqqında Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı (27 iyun 1918):

Dövləti lisan türk dili qəbul edilərək, ilərıdə bütün məhkəmə, idareyi-daxiliyyə və sair dəvair vəzifələri başında duranlar bu lisanı bilənlər olana qədər hökuməti müəssisələrdə rus dili istemalına da müsaidə edilsin".

Həmin tarixdən sonra bu məsələ parlamentdə bir daha qaldırılmır; qanun səviyyəsində dil haqqında qərar və fərmanlar qəbul edilməsə də, parlament üzvləri ana dilimizə vaxtaşırı münasibət bildiriblər. Azərbaycan parlamentinin ömrü böyük olmayıb –1918-ci ilin 7 dekabrında başlamış, 1920-ci ilin 27 aprelində başa çatmışdır.

Məlumdur ki, hələ Səfəvilərin hakimiyyəti dövründə Azərbaycan dili dövlət dili kimi işlənmişdir. XV-XVI əsrlər Azərbaycan dövlətçilik tarixinin intibah dövrüdür. Bu dövrü Azərbaycan tarixində dövlətçilik ənənələrinin bərpası, inkişafı və möhkəmlənməsi kimi xarakterizə etmək olar. Qaraqoyunlu, Ağqoyunlu, Şirvanşahlar və Səfəvi dövlətlərinin yaranması və fəaliyyəti nəticəsində ölkəmizin beynəlxalq münasibətlər sistemində siyasi, iqtisadi mövqeyi və rolu güclənmiş, Avropa və Şərq ölkələri ilə qarşılıqlı münasibətləri daha da genişlənmişdir. Lakin Azərbaycan dövlətçilik tarixi və bu tarixin ən parlaq dövrlərindən biri olan Səfəvilər hakimiyyətinin dilimizə münasibəti birmənalı izah olunmur. Məsələn, Ə.Dəmirçizadə yazır: "XVI əsrdə Şah İsmayıl Xətainin başçılıq etdiyi Səfəvilər dövləti zamanından başlayaraq Azərbaycan dilinin mövqeyi, nüfuz dairəsi daha da genişlənməyə başladı və Azərbaycan ədəbi dili dövlət idarələrində, sarayda, hərbi hissələrdə işlənilən rəsmi dillər sırasında yer tutdu, o zaman islamiyyətin dini dili sayılan ərəb dili və bədii ifadə vasitəsi kimi modalaşmış fars dili ilə yanaşı işlənən bir dil hüququ qazanmış oldu. Lakin, bütün bunlara baxmayaraq, demək lazımdır ki, bu dövr Azərbaycan dilinin rəsmi dövlət dili hüququ tam olmamışdır. Çünki tam rəsmi dövlət dili hüququ yeganə rəsmi dövlət dili olmaq deməkdir. Madam ki, Səfəvilər dövləti sarayında, idarələrində, rəsmi yazışma işlərində ərəb və fars dilləri də eyni dərəcədə işlənilmişdir, deməli burada tam hüquqlu Azərbaycan dövlət dilindən danışmaq olmaz. Bundan başqa, belə bir əlaməti nəzərə almalıyıq ki, hər hansı bir dilin rəsmi dövlət dili hüququnda olması həmin dilin əsas təlim-təhsil vasitəsi və tədris fənni olması deməkdir. Məlum olduğu üzrə, XVI əsrdə Azərbaycan dili hələ belə bir dil hüququna malik deyildi" (1, 167).

Həmin qərar ana dilinin dövlət dili kimi işlədilməsinə aid ilk sənəddir. Lakin bu qərara əsasən, ölkədə məhkəmə, inzibati idarəçilikdə, ümumiyyətlə hökumət müəssisələrində vəzifəli şəxslərin dövlət dilini lazımi səviyyədə öyrənənədək rus dilini də işlətməsinə yol verilirdi; parlament bu siyahıya daxil deyildi. Ona görə də parlamentdə dillərin işlənməsi məsələsi, təbii olaraq, qanunverici hakimiyyətin –parlamentin üzvlərinin öhdəsinə buraxılmışdı. Lakin rəsmi sənədlərin hamısı dövlət dilində tərtib edilirdi, əks halda təsdiq üçün verilən sənədlərin üstündə parlamentin sədr müavini Həsən bəy Ağayev belə bir məzmunda dərkənar qoyurdu: "Ərizə türkcə lisanda olmadığı üçün əncamsız qalır". Qərar real şəraitdən doğan müvəqqəti tədbir kimi yalnız idarəçilikdə milli kadrların yetişməsinə qədər olan müddət üçün nəzərdə tutulmuşdu. Cəmi bir il sonra F.Xoyski yazır: "İmdi şükürlər olsun bir çox ədliyyə idarələrinə turk dili bilən adamlar təyin edilmişlər".

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1918-ci il avqustun 28-də ibtidai və orta təhsil müəssisələrində təhsilin ana dilində aparılması haqqında icbari qərar qəbul edir, bu, təhsil müəssisələrinin milliləşdirilməsi üçün ən vacib məsələlərdən idi.

"Birinci və ikinci dərəcə ibtidai məktəblərin, həmçinin orta təhsil müəssisələrinin milliləşdirilməsi haqqında Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı (28 avqust 1918):

1.Bütün birinci dərəcə ibtidai təhsil müəssisələrində təhsil, dövlət dili olan türk dilini artırılmış həcmdə məcburi qaydada tədris etməklə, şagirdlərin ana dilində aparılsın;

2.İkinci dərəcə ibtidai məktəblərdə və orta təhsil müəssisələrində tədris dövlət dili olan türk dilində aparılsın. Lakin ikinci dərəcə ibtidai məktəblərin milliləşdirilmiş siniflərində tədris şagirdlərin ana dilində davam etdirilsin və eyni zamanda 1918-1919-cu illərdə, lazım gələrsə, ondan sonrakı tədris ilində də türk dilinin həcmi artırılmış tədrisi də tətbiq edilsin ki, həmin

müddət başa çatanda dövlət dilində təhsil almayan şagirdlər bütünlüklə türk dilində tədrisə keçə bilsinlər;

3.Orta tədris müəssisələri siniflərinin bütünlüklə erməni dilində (milliləşdirilmiş) dərs keçilən paralel şöbələri, habelə həmin tədris müəssisələrinin kiçik və böyük yaşlı uşaqlar üçün olan hazırlıq siniflərinin bütünlüklə rus dilində (milliləşdirilmiş) dərs keçilən paralel şöbələri ləğv edilsin;

4.Həmin tədris müəssisələrinin birinci, imkan olduqda həmçinin ikinci sinifləri milliləşdirilsin və tədris türk dilində aparılsın; bununla belə, əgər həmin siniflərdə türk dilini bilməyən şagirdlər olsa, onlar üçün paralel şöbələr açılsın və həmin şöbələrdə tədris rus dilində aparılsın. Həm bu siniflərdə, həm də 4-cü sinif daxil olmaqla sonrakı siniflərdə dövlət dili elə həcmdə tədris olunsun ki, iki il sonra bütün şagirdlər türk dilində təhsilə keçə bilsinlər;

5. Orta tədris müəssisələrinin 5-ci sinfindən etibarən isə şagirdlər həmin tədris müəssisələrinin kursunu bitirənədək tədris rus dilində aparılsın; bununla yanaşı xalq maarif nazirinə bir vəzifə olaraq tapşırılsın ki, orta təhsil müəssisələrinin bütün siniflərində türk dilinin artırılmış həcmdə tədris olunmasına nəzarət etsin.

6. Bütün orta məktəblərdə qeyri-müsəlman tələbələr üçün dini dərslərin tədrisinə imkan yaradılsın".

Bu islahatları əlifbaya da şamil etmək olar, təəssüf ki, AXC hökuməti latın qrafikasına keçidə hazırlıq mərhələsində süqut etdi.

Cümhuriyyətin hərbi naziri Səməd bəy Mehmandarovun 1918-ci il 27 dekabr əmri ilə Azərbaycan dili orduda da dövlət dili kimi qəbul edilir. Parlamentdə digər millətlərin nümayəndələrinin rus dilində çıxış etmələri məqbul hesab edilsə də, yalnız Azərbaycan dili dövlət dili statusuna malik idi. Şifahi nitqdə sərbəstliyə imkan verilirdi, lakin sənədlərin, təkliflərin dilinin Azərbaycan dilində olması məcburi bir prinsipə əsaslanırdı. Azərbaycan dilinin öyrənilməsi üçün hökumət xeyli vəsait ayırır, kurslar təşkil edir. Maarif nazirinin müavini Həmid ağa Şahtaxtinskinin qubernatorlara göndərdiyi müraciətdə deyilir: "Nazirlik bütün səyləri ilə qısa zamanda yeni məktəblər, müəllim kursları və s. açmaqla ölkədə maarifi lazımi səviyyəyə qaldırmaq istəyir, belə ki, müasir dövrdə yalnız maariflənmiş xalq müstəqil mövcud olmaq imkanına ...malikdir. Xalqda təhsilə maraq və vətənə məhəbbət oyatmaq lazımdır, yalnız bu halda biz digər xalqlar arasında müstəqil yaşamaq imkanları əldə edə bilərik".

Bir çox maneələrə baxmayaraq, AXC hökuməti BDU-nun təsis edilməsi haqqında 1 sentyabr 1919-cu il tarixdə (67-ci iclas) qanun imzalayır. İlk dövrlərdə universitetdə dörd fakültənin – şərq şöbəsi olan tarix-filologiya, fizika-riyaziyyat, hüquq və tibbin açılması qərara alınır. Bütün fakültələrdə mütləq Azərbaycan dilinin tədrisi nəzərdə tutulurdu. Həmin ilin 21 avqustunda keçirilən iclasda açılması nəzərdə tutulan Bakı Universitetində təhsilin hansı dildə aparılması məsələsi qızğın müzakirələrə səbəb olur. Bu da səbəbsiz deyildi. Əhrar partiyasının üzvü, deputat Muxtar Əfəndizadə məsələni bir qədər kəskin qoyur: "Məmməd Əmin əfəndi əyi təsvir etdi ki, ülum bitərəfdir. Hanki dildə olmuş ola, elmdir. Lakin onu bilməlidir ki, tarixi-ədibə bir elmdir ki, onu ana dilindən başqa bir dildə öyrətmək olmaz. Və yenə Məmməd Əmin əfəndi qayət qəvi bir misal gətirdi ki, bizim Moskov darülfünunlarında oxumuşlarımız dillərini və milliyyətini unutmamışlar. Bu söz balaca qəbihdir. Mən də deyə bilərəm ki, öylədir. Çünkü bizimkilər Moskva misyonerlərinin ruslaşdırmaq təzyiqi siyasəti altında gözləri açılıb, onun əvvəl gündən ziddinə qalxırdılar. Amma deyə bilərəm ki, təmamən ruhlarını itirməyiblər. Öylələri var ki, türk lisanı var deyəndə istixfaf ilə baxır, öylə bilir ki, ədəbiyyat rus dilindədir, bəlkə, bir qədər alman, firəng ədəbiyyatına darülfünunda bələd olurlar. Bundan səmərəli odur ki, hökumət dairələrində bu vaxta qədər hər iş rus dilində gedir. Qonşularımız erməni və gürcülər bizə gülürlər ki, bizim məmləkətdə ana dili işləndiyi halda, Azərbaycanda hənuz rus dili işlənir" (2, 14). Tədrisdə ana dili məsələsinə böyük əhəmiyyət verən məclis üzvü Abdulla bəy Əfəndizadə: "O müəllimlər ki, rus darülfununu qurtarıb rus dilində dərs deyəcəklərsə, lazım deyildir. Biz gərək hamı məktəbləri milliləşdirək, sonra az müddət içərisində edadiləri də milliləşdirin. İndiki darülfünun

yetişdirən müəllimlər, gərək türk dilinə aşina olsunlar. Ona görə də lazımdır ki, darülfünuna öylə müəllimlər dəvət edək ki, türk dilini yaxşı bilsin. Türk ədəbiyyatına dara olsun. Böylə professoru çox aramalıyıq. Hər şöbədə necə ki, qeyd olunubdur, türk dili məcburi olsun. Bir məcburi deməklə olmaz. Gərək bunun proqramı olsun. Bir şəxs ki, darülfünun icmal etdi, edadi də tədris edəndə darülfünundan özülə götürdüyü 12 elmi lazımdır ki, gözəl, ədəbi türk dilində tədrisə müqtədir olsun, islahatifənniyəyə aşina olsun. Doğrudur, gərək bunları edadilər hazırlasın, darülfünuna versin. Bu olmayıb, çünki mümkün deyil idi, yetişdirməyib. Bu indi darülfünun divarları içərisində olmalıdır. Mən deyərdim, o tələbələr ki, orada təhsil edəcəklər, türk dilini də öyrənəcəklər, gərək bir kaç vəzifələr ifa etsinlər. Ruscadan-türkcəyə məqalələr tərcümə etsinlər. Vəzifələri var. Bu da məcburi bir vəzifə olsun. Əgər bu cəhəti nəzərə alırıqsa, bunlara əhəmiyyət veririksə, indidən bu barədə çalışmalıdır. Buna fikir verməlidir. ...Darülfünunu istədiyimizə və rus dilində keçilməsinə söhbət ola bilməz. Çünki başqa bir dildə ola bilməz. Ansaq bu məsələyə ətraflı baxılandan sonra açılsın. Biz bunu deyirik" (2, 11-12). M.Ə.Rəsulzadənin münasibəti: "Əlbəttə, yaxşı olardı bu fənn ocağı, bu elm mənbəi öz lisanımızda ola idi və orada ki, professor və müdərris türkcə tərbiyə verəydilər. Məəttəssüf felən bunu tətbiq etmək böylə bir fənn ocağı açmaq imkanı bizdə hələlik yoxdur. Başqa məmləkətlərdə olduğu kimi heç bir zaman elmin, fənnin başqa lisanlarda illərlə olsa da ehtiyacı lüzumsuz olduğunu təcrübə göstərmişdir. Madam ki, biz hamımız bir nöqteyi-nəzərdəyik ki, ülum, finun bizə lazımdır. Etiraf etməliyik ki, darülfünun da bizə lazımdır. Başqa bir lisana müraciət edirkən bu xüsusda nə üçün yalnız Rus lisana iltizam edilir və buna imkan verilir. Bu nə üçün belə – cavabı aşkardır. Bu öylə bir məsələ deyil ki, onu həll etmək olmasın. İlk dəfə içimizdə bir çox tədrisə hazırlanmış tələbələr vardır ki, yalnız rusca tədris etməyə dərsləri və imkanları vardır. Binaən-ileyh Avropa məmləkətlərindən başqa birinin lisanında mümkün olsa idi, o lisanda götürərdik. Bu olmayacaqdır, çünki tələbələrimiz rus məktəblərində rusca dərs almışlar. Bu nöqteyi-nəzərdən bir dəlalət var. Ülum və finunun darülfünunda rusca tədris edilməsinə gəldikdə əlbəttə, bizə söyləyə bilərlər ki, vaxtaki darülfünun milli olmayacaq, orada keçirilən dərslər türkcə olmayacaq, bu surətdə tələbələrimizi xarici məmləkətlərə göndərib, bu surətdə təhsil etmələri mümkündür" (2, 8). Müxalifətçi Səmədağa Ağamalıoğlunun dil məsələsində fikirləri onlarla səsləşir: "O kişi (keşiş – red. N.M) bura (tribunaya – red. N.M.) çıxmışdı ki, universitetnən xalqı qorxutsun. O elə bilirdi ki, Azərbaycan milləti ona yaxın durmaz. Vanseviç yaxşı cavab verdi. Onda keşiş deyir ki, çox yaxşı oldu ki, universitet açılır, özü də rus dilində. O elə bilir ki, onun məmləkətində olmuş rus "samoderjaviya"si bu məmləkətdə diriləcək. Böylə çıxır ki, rus professorları 13 elmi qoyub, rus padışahından, samoderjavasından, pravoslavyasından öyrədəcəklər. O keşişin adəti var. ...Burada söylənildi ki, onun özü də böyük dəlildir ki, bizim ibtidai məktəbimiz və öz gimnaziyamız yoxdur ki, universitet üçün yem olub onu saxlasın. Bu bizdə yoxda degil idi, var idi. Əgər indi səs gəlmir isə onda da təqsir hökumətdədir. Biz tələb etdik ki, bu məktəblər açılsın, şkol yoxdur, deyirlər ki, sən də darülfünun açmayasan? Sonra bir vacib məsəl var, deyirlər ki, türkün öylə qüvvətli dili yoxdur ki, onun darülfünunu olsun. Əvvəlcə dili qüvvətləndirib, sonra darülfünun açmaq lazımdır. Darülfünun olmasa dil də qüvvətlənməyəcəkdir. Darülfünun olan yerdə dil də böyüyür. İnandırıram ki, revolyusiyadan əvvəl dil bilməyənlər şimdi yavaş-yavaş məcbur olub dil öyrənib, öz köçünü sudan çıxarır" (2, 13-14).

Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin sənədlərinin dili həmin dövrün nitq mədəniyyəti barədə tam təsəvvür yaradır. Qeyd etdiyimiz kimi, XX əsrin əvvəllərində dil məsələsi Azərbaycan ictimai-siyasi və mədəni həyatında vacib bir göstərici idi, həm də siyasi səciyyə daşıyırdı. Müxtəlif siyasi təmayüllü və ya əqidəli ziyalılar Azərbaycan dilini osmanlılaşdırmağa, ruslaşdırmağa yaxud farslaşdırmağa meyil göstərirdilər. Azərbaycan xalqını müstəqil bir xalq, dilini müstəqil Azərbaycan dili hesab etməyənlər osmanlı türklərinin dilində danışıb-yazmağı təklif edirlər. İkinci qisim islam dinindən uzaqlaşmamaq üçün ərəb və fars dillərinin təsirindən qopa bilmirdilər. Rus təhsilli ziyalılar ədəbi dili ruslaşdırmağa çalışır, hətta mətbuatı, ədəbiyyatı yuxarı siniflərə məxsus bir "nemət" hesab edirdilər. Demokratik qüvvələr vahid bir cəbhədə –

xalq dilinə əsaslanan ədəbi dil uğrunda mübarizədə birləşirdilər. Azərbaycan parlamentinin dilində də bu üç cəhət özünü aydın göstərir. Lakin bir tərəfdən Azərbaycan ümumxalq dili üzərində yüksələn, o biri tərəfdən daha çox osmanlı dilinə meyillənən dil daha aparıcı olsa da, ədəbi dilimizin parlament üslubunda onun tam bu şəkildə qəliblənmiş formaları əvəzinə, vəziyyətlə, mövzu ilə, şəraitlə bağlı daha çevik milli ifadə tərzləri vardı. Parlament üzvlərinin çıxışlarından gətirilən aşağıdakı nümunələrə diqqət edək.

Maliyyə naziri Əliağa Həsənov: "Dövlət bankı barəsində olmuş və olacaq bil-cümlə etirazlara cavab verməyə hazıram. Əvvəla, etiraz böylə olur ki, açılacaq bankın qıraq sözləri var. Naməlum əhvalatları, intriqaları var. Halbuki, bu xüsusda qaranlıq və qapalı bir şey yoxdur. Bank təşkili xüsusunda qəbul etdiyimiz nizamnamə sənədlərdən biri böyük Rusiya daxilindəki, banklarda işlənən nizamnamələrdən alınmışdır. Biz bunu qəbul edirik. Bank bir müəssisədir ki, onda qaranlıq olmaz, doğrudur, ticarət işlərində bir çox təsadüfü ziyanlar olur. Fəqət, bu məsələlər banklara məxsus deyildir. Şimdiyə qədər Rusiyada minlərcə bank olduğu halda böylə bir şey olmamışdır. Ya xüsusi bizim açmaq istədiyimiz bank hökumət bankıdır ki, böylə intriqalara qətiyyən meydan verilməz. Bəli, xüsusi banklarda münafiqlər ola bilər və yəni bizim açdığımız banka şəxsi bir mənfəət üçün deyil ümum cəmaətə xeyir və mənfəəti üçün açılır. Cəmaətimizin əksəriyyəti demokratiya sinfinə mənsubdur" (2, 41).

Məmməd Əmin Rəsulzadə: "Burada mətbuat qanununun əleyhinə türkcə söylənilən sözləri rusca, bəlkə daha məntiqə müvafiq bir tərzdə müdafiə etdilər. Hamı söylədilər ki, hürriyyəti-mətbuat lazımdır, fəqət buna bir əndazə, qanun təyin etmək də icab edər. İştə mətbuat qanununu müdafiə edənlər ilə əleyhdarları arasında başlıca fərq bundan ibarətdir. Burada bir adam bulunmaz ki, hürriyyəti-mətbuata zidd olsun. Dedilər ki, bir adam da bulunmaz ki, bir əndazə istəməsin. Burada Qarayevin müdafiə etdiyi hürriyyəti-mətbuat deyil, anarşiye-mətbuatdır. Mətbuata bir əndazə və nizam lazımdır. Bunu istəməyənlər hürriyyəti-mətbuatı deyil, anarşiye-mətbuatı müdafiə edirlər. Hər kəs bu cür hürriyyəti-mətbuat tərəfdarı isə, onlar mətbuat mənsəbləri deyillər. Burada danışanlar hürriyyəti-mətbuata zidd maddələr tapdıqlarından qanunun əleyhinə səs verəcəklərini və qanunu rədd edəcəklərini söylədilər. Madam ki, anarşı mətbuat tərəfdarı deyillər, o vaxt məntiq icab edir ki, əsasən qanunu qəbul edib, sonra maddə-maddə müzakirə olunarkən təshih eyləsin. Fəqət bunu da etmək istəmirlər. Görünür, burada məntiqsizlik vardır. Təbiidir, müzakirə açılarkən təshih üstündə hər kəs kəndi nöqteyi-nəzərini söyləyəcəkdi" (2, 247).

Şəfi bəy Rüstəmbəyov: "Məruzəçiyə bir söz qalmadı. Bu ustavda heç elə bir şey yoxdur ki, hürriyyəti-mətbuata sədd çəksin. Rusiya mətbəə açanda böyük zaloqlar alınardı. Buna görə də kasıblar mətbəə aça bilməzdi. Bizdə ancaq izn alırlar. Bir də administrasiya ona bir politiçeski blaqonadejnost barəsində vəsiqə verər idi. Görək bu da bizdə varmı? Və yoxmı? ...Əcəba, göstərilən şeylərin hangisi mətbuatı boğur, oqraniçeniye edir. Burada deyilir, bu məlumatlarda yeddi gün əvvəl gərək xəbər verilsin, görək naşir qramotnıdır, savadı var, ya yoxdur. Bir maddədə deyilir ki, uşaq olmasın. Deməli, bu maddələrdə hürriyyəti-mətbuat əleyhinə gedən bir şey yoxdur. Sonra, ayrıca deyilir, hər qəzetə çıxaran qəzetçilik qanunundan xəbərdar olmalıdır. Qəzetin bir texnikası mövcibincə müdir borcludur, doğru vermədiyi məlumatı dərhal təkzib etsin, etməyənləri hətta suda çəkirlər. Bu maddələrin heç birində bir oqraniçeniye yoxdur. Heç qanun yoxdur ki, onun qeydi olmasın. Siz də bu qanunların redaksiyasına öz tərəfinizdən qeyd qoya bilərsiniz. Sonra 16-cı maddəyə böyük məna verirlər. Onda da ətraf məsələsi vardır. 6 maddəyə isə bir fakt gətirə bilmədilər. Bunların heç birisinin hürriyyəti-mətbuata bir zərəri yoxdur. Axırıncı natiq nəzarətdən bəhs elədi, bunda da bir böyük cəhət görmədik. 3-cü maliyyəyə etiraz olundu ki, qanun ixtiyarı inspektora, yaxud qubernatora tapşırmaq lazım deyil. Səmədağa, burada çastnı pravovoydan bəhs eylədi. Hər kəsin ixtiyarı var ki, şikayət eyləsin və o adamı suda çağırsın. Hökumətin də dediyi budur. Burada məmləkət interesi var. Bu gün elə qəzetlər var ki, vətənimiz və hökumətimiz əleyhinə gedir" (2, 258).

Səmədağa Ağamalıoğlu: "Mətləbdən kənara çıxmıram. Qanun gözləyər ki, yer rəiyyətin əlindən çıxmasın. Mülkədarlar həmişə çalışırlar ki, rəiyyətin yerini əlinə keçirsin. Bu sporlara xəzinə yerinin üstündə oturan rəiyyətlər qarışmırdı. Əgər suda getsələrdi otvod olunurdu. Xozeyinlər bu yerlərdən ixtiyarlarını itirməyirdilər. Yerlər rəiyyət əlindən çıxmayırdı. Mülkədarlar o yerlərdən ancaq mənfəətə çatırdı. Necə yerlərdə ustavnaya qramota vardı. Haman bu rəiyyətlər şikayət eylədi ki, yerlər demstrovay olunmuş yerlərdir ki, nə Sultan bəy aparıb. Metrovay köhnə qanun idi. Bu gərək Sultan bəy bəhrə verə idi. Amma, çünki 1913-cü ildə vıkup zakonı onu puç elədi. Ona görə krepostnoye pravo deyilirdi. O, pis qanun idi ki, götürüldü. Belə daha heç kəsin bəhrə almağa ixtiyarı qalmadı. Bizim rəiyyətlər də azad oldular. Azad olanda o nadel olacaq yerlərdə gərək bu cəmaətə qala idi. Yəni bəyliklər kənd cəmaətinə qalaydı. Əgər ustavnaya qramota bağlanmayıb, bundan o çıxır ki, bunlar ixtiyarlarını itiriblər. Bəs nəyin üstündə bizim müavini-nazir öz qətnaməsini tikibdir və olunmuş qərarı dəyişibdir. Burada göstərir ki, Süleyman bəy bir çox doqovor götürüb. O doqovorlardan görünürdü ki, Süleyman bəy bu yerləri verib, əkdirib, biçdiribdir, bununla da onillik qanun davnost düzəldibdir və bu yeri özü üçün mülkədar yeri edibdir, tainki əli yerdən çıxmasın" (2, 327).

Əliheydər Qarayev: "Mən hərçəndi sorğunu imza etmişdim, amma sorğu verəndə gərək biləsən ki, sorğunu kimə verirsən və ondan nə gözləməlisən. Mən bilirəm ki, bu saat hər bir adam öz mənfəətini gözləyir, hər kəs istəyir [odu] öz tərəfinə çəksin. Bir adam görməzsiniz ki, beş şahı mənfəətini başqasına vermək istəsin. Biz Hidayət bəyə sorğu veririk ki, Süleyman bəyin işi necə olmuş, amma bunu bilməliyik. Süleyman bəy onun qohumu olmasa da, o onun gərək tərəfini saxlasın. Çünki, bəydir, bəy bəyin mənfəətini, rəiyyət–rəiyyətin mənfəətini həmişə gözlər. Hidayət bəy Sultanov bu saat köhnə Nikolay qanunlarını öz qabağına qoyubdur. Yeni qanunları Zaqafqaziya seymi vremenni pravitelstvo qanunlarını nəzərə almaq istəməyib. Yoldaşlarımıza təəccüb edirəm, böylə adamlar mejavoy sözləri danışırlar" (2, 331).

Sultan Məcid Qənizadə: "Parlament nakazına görə rusları milli şura tərəfindən dəvət etdirdik. Hala da milli şuraya istinad etdikdə, Parlament qeyri obşestvolardan çağırmaq məcburiyyətində qaldı. Nakazımız yoxdur ki, hər bir uyezdən bir nəfər gəlsin. O uyezdən hər kəs gələcək gəlsin, hər kəs olacaqsa olsun, bir nəfəri biz qəbul etməliyik. Burada milliyyət gözləyibdə rus, müsəlman, ya erməni olması nahaqdır. Bir yerdə hər kəs seçilirsə, gələr. Mənim xatirimə gəldi ki, Şamaxıda ermənilər də Naçarov nam mühəndisin Şamaxıdan göndərilməsini istəyirdilər, fəqət biz onları otkaz eylədik. Zira qərar böylədir ki, nə millət olursa-olsun, ancaq bir nəfər gəlsin" (2, 338).

Əhməd Cövdət: "Bu üzvlərdən etimadnamələrinə baxanda mərkəzi milli şura zamanında qanuna riayət edirdik. Milli şura bir sənə əqdəm Parlament və hökumət təşkili üçün bir qanunu qəbul etdi. Bu xəyalla ki, məclis müəssisan bir azdan sonra əmələ gələr, məəttəssüf tabehal yaman yaxşı işləyibki də, məclis müəssisanımız əmələ gəlməmişdir" (2, 341).

Mustafa Mahmudov: "Mən bir şey anlaya bilmirəm, büdcə komisyonunun vəzifəsi nədir? Parlamentin vəzifəsi nədir? Büdcə komisyonunun vəzifəsi odur ki, hökumət tərəfindən gəlmə layihələrə baxır, düzəldir, Parlamentə göndərir. O da bir kiçik Parlamentdir ki, hər firqədən orada nümayəndə var. Əgər bir şey lazım olsa idi, o kiçik Parlament təqyir və təbdil edər idi. Madam ki, o qəbul edib göndərib, bir böyük Parlamentdə aradan bir şey çıxarmağınız, bu məbləğ yetər-yetməz bu bizim işimiz deyil (2, 356).

Muxtar Əfəndizadə: "Möhtərəm məbuslar! Biz yəqin ki, əmir vaqiə qarşısındayıq. Bu saat dokladdan məlum oldu ki, pullar kəsilib qurtarıb, biz ancaq təsdiq etməliyik. Gərək təsdiq edək. Qarayevin dediyi sözlərin bəzisi bir onun deyil, bunlar cəmaətin fikridir. Bu sözlər yalan deyil. Pulumuzun qiyməti düşmüş. Buna çarə lazımdır. Əhalinin halı təmin edilməlidir.

Mehdi bəy Hacınski: "Burada xalq məktəbləri müəllimlərindən bəhs edilir. Və müəllimlər ikiyə ayrılırlar. Bu fəsildə senzavik, yəni darülmüəllimin və rüşdiyyə məzunları qeyd edilmişlərdir. Aşağıda bir maddə dəxi vardır ki, orada senzavik olmayan müəllimlərdən bəhs olunur. ...Ona görə mən təklif edirəm 5 il müəllimlik etmiş xalq müəllimləri də 13-cüyə daxil edil-

sinlər. Çünki doğrudur onların məzuniyyət şəhadətnaməsi yoxdur; amma haman 5 il müəllimlik etməklə onlar öylə təcrübə hasil edirlər ki, senzaviklər dərəcəsinə gələ bilərlər".

Baş nazir Fətəli Xan Xoyski: "Möhtərəm Azərbaycan parlamenti əzası! Bugünkü gün Azərbaycan üçün böyük, əziz, mübarək gündür ki, yuxumuzda görməzdik, əqlimizə gəlməzdi. Bu gün o gündür ki, muxtariyyəti əlinizə aldınız, hökumət vəkaləti ilə özümüzü də sizinlə bərabər təbrik edirəm (*alqışlar*). Hökumətin borcudur, hüzurunuzda olsun, əski fəaliyyəti və hanki övza altında işlədiyini sizə ərz etsin. Mən bu gün hər nəzarət haqqında sizə məlumat verə biləram. Mən bu gün hökumətin tarixini və nə kimi övza altında təşkil etdiyini sizə ərz edəcəyəm" (2, 377).

Aslan bəy Səfikürdski: "Gözəl təklif edildi. Şükürlər olsun ki, şimdi biz burada yığılıb danışa biliriz. O qanlar ki, tökülməliydi, bizi bu günə çıxarmışdır və bayrağımızı qaldırmışdır – onları unutmayalım. Hürriyyət və inqilab şühədasının istirahət ruhları üçün təvəqqe edirəm ayağa durasınız (*hamı qalxır*)" (3, 151-152).

Diqqət etsək, çıxışçıların nitqi ümumi bilik və mədəni, dil və üslub səviyyələri, eləcə də subyektiv amillərlə bağlıdır. Bəzilərinin nitqi dilimizə yad görünən alınma sözlər, izafət tərkibləri ilə zəngindir, bəzilərində Azərbaycan dilinin morfoloji normaları türk dili normaları ilə əvəz edilir. "Sosialistlər"in, "Əhrar" və "İttihad" fraksiyasından olan parlament üzvlərinin nitqi Abdulla Şaiq, Seyid Hüseyn, Cəfər Cabbarlı, Cəlil Məmmədquluzadə, Yusif Vəzir Çəmənzəminlinin dililə, eləcə də sadəliyi və milliliyi ilə müasir dilimizlə səsləşir, lakin qrammatik cəhətdən çox vaxt onlar da osmanlı dili quruluşundan istifadə edirlər. Parlament iclaslarında müraciət formaları, nitq etiketləri mənsub olduqları fraksiyaların məramına uyğundur: "Həzarat" (Q.Qarabəyov), "Möhtərəm parlament əzası" (A.Əfəndizadə), "Əfəndilər" (M.Ə.Rəsulzadə, H.Sultanov, B.Kiçikxanov), "Möhtərəm məbuslar", "Möhtərəm əzalar", "Möhtərəm məclis əzaları", "Möhtərəm Azərbaycan parlamenti əzası!" (Ə.Şeyxülislamov, F.Xoyski, M.Əfəndizadə, Q.Qarabəyov), "Möhtərəm parlament üzvləri" (H.Ağayev) və s.

Terminologiya sahəsində çox böyük sərbəstlik olmuşdur, belə ki, parlamentin adı, vəzifə bildirən terminlərin hələ formalaşmadığı aydın görünür: *parlament –parlaman, məclis–məclisi məbusan, rəisi-vükəla–hükumət, rəisi-vükəla rəisi-baş, nazir–nazirlər sovetinin sədri, məbusan–parlament üzvləri, parlament əzası, parlament nümayəndəsi.* Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan ədəbi dili tarixində ayrıca bir dövrdür: AXC-nın dövlət dili, başqa sözlə, sənədlərin və parlamentin dili XX əsrin birinci rübündə Azərbaycan ədəbi dilinin hakim sinif yönlü mətbuatın dili və rəsmi – dəftərxana üslubu fonetik, leksik və qrammatik xüsusiyyətləri ilə seçilən bir dildir, əksər cəhətlərdən osmanlı dilinə olduqca yaxındır, bəlkə də həmin dilin eynidir.

Fonetik cəhətdən AXC-nin dövlət dili iki xüsusiyyəti ilə fərqlənir: sait və samit əvəzlənmələri və fonetik hadisələr. Müşahidələr bunu deməyə əsas verir ki, *ə//e* müvaziliyi o dövrün parlament dili üçün sanki norma olmuşdur. Bəzi natiqlərin nitqində *ə*, bəzilərininkində isə *e* saiti işlənmişdir: "Halbuki xaricə gedən tələbəmiz üçün bu mümkün dəgil" (M.Ə.Rəsulzadə); "Mən o qədər xəbərdar dəgiləm" (Ağa Axundov). Fonem müvaziliyi nəzərdən keçirilən mətnlərdə samitlərə, *n//m, m//b* dodaq samit paralelliyinə daha çox təsadüf olunur: "...imdi yavaş-yavaş məçbur olub dil öyrənib, öz köçünü sudan çıxarar" (S.Ağamalıoğlu); "...bən çox bir şey əlavə etməyəcəyəm" (R.Kaplanov); "...bən də iştirak edirəm" (Ə.Pepinov). M.Ə.Rəsulzadənin nitqindəki *bən* sözünün çox işlənməsi osmanlı dilinin təsiridir. Eyni sözləri *x//q, q//k, k//s, y//g, y//n* samit müvazilikləri haqqında da söyləmək olar: "Məsələni sədr cənabları çox düz qoydu" (M.Məmmədov); "Yaşasın Kafkaz millətlərinin dostluğu" (Ə. Pepinov); "Kafkaziya millətləri içində milli şovinizm baş qaldırır" (Ə.Şeyxülislamov); "Hansı sinfi nə qədər artırmaq – onu bən türkcə başa düşməmişəm" (Ağa Aşurov); "Hər iki tərəfin gətirdigi məvadları mülahizə edəndə..." (A.Əfəndiyev); "Hanki dildə olmuş ola elmdir", "...ana dilindən başqa bir dildə öğrətmək olmaz" (M.Əfəndizadə); "...bir çox pullar buraxdıq denildi" (Hacı Hüseyn Əfəndiyev). Fonetik xüsusiyyətlərdən biri də alınma sözlərdə ahəng qanununun pozulmasıdır: *dəvam, cəmaət, cəvab* kimi sözlər dilimizdə artıq tamamilə azərbaycancalaşmışdır. İsmin yönlük və çıxışlıq

hallarının iki şəkilçisindən yalnız birindən istifadə edilməsi də (*ittifaqa gəlmək, ittihada dəvət, namindən danışmaq* və s.) dilin ahəng qanununun pozulmasına səbəbdir. AXC-nin dövlət dilinin qrammatik cəhətdən özünəməxsusluğu qrammatik ifadə vasitələrinin sinonimliyi və osmanlı dilinin güclü təsiri ilə bağladır. Bu xüsusiyyət nitq hissələrindən isim və əvəzliklərdə daha çox müşahidə edilir; isimlərdə qrammatik sinonimlik özünü daha çox ismin təsirlik hal şəkilçisində göstərir, ismin təsirlik halının qrammatik mənası həm *-yi,* həm də *-ni* şəkilçisi ilə ifadə olunur: "Qara bəy: Mən təklif edirəm birinci *məsələyi* sonraya qoyaq", "Mustafa Mahmudov: *Məsələni* sədr cənabları çox düz qoydu". AXC-nin dövlət dilində fərqli əvəzliklərə də rast gəldiyini qeyd edir: "Bu, *böylə* deyil" (M. Rəfiyev); "...o *öylə* səhvdir ki, ...", "Mən *öylə* bilirəm ki,..." (M.Vəkilov); "*Öylə* başa düşürəm..." (A.Aşurov); "...*şu* surətdə bəyan ediriz" (Ə.Pepinov); "Darülfünunun tarixi *böylədir*" (M.Hacınski); "...Xalqın dili dilimdən, dini dinimdən" deyə *kəndinə* məxsus sağlam hiss ilə dərk etdiyi düsturda görüyoruz" (M.Ə.Rəsulzadə). Bu misallardakı *öylə, böylə, şu, kəndi* əvəzlikləri o zamanlar hələ osmanlı dili adlanan türk dilindən alınmışdı və parlamentdə çıxış edənlərin dilində öz paralelləri olan *elə, belə, bu, mən, öz* əvəzlikləri ilə müvazi surətdə işlənmişdir. Məlumdur ki, Azərbaycan və türk dilinin feil sistemindəki əsas fərq dilimizdəki əmr formasının birinci şəxsinin cəmi *-aq//-ək*, türk dilində isə *-alım//-əlim* şəkilçisi ilə yaranmasıdır. AXC-nin dövlət dilində bəzi deputatlar türk formasından istifadə edir: "...baş müavini, intixab edəlim" (M.Ə.Rəsulzadə). Felin indiki zaman şəkilçisindən istifadə də eyni vəziyyətdir: "...şəhərli-kəndli denilmiyor" (R.Ağabəyov); "...məsələdən sui-tənhim olacığını görüyor və bundan qorxuyoram" (R.Kaplanov); "Güman ediyoram ki, hər bir təsisat öz dilimizdə ola" (Y.Əhmədov). Lakin feilin indiki zamanında milli *(-ir//-ır//-ür//-ur)* şəkilçisinin parlament dilində qat-qat çox işlənir.

Parlament çıxış və nitqlər, müzakirələr, sual və cavablar, münasibətlər dili olduğundan cümlələrin intonasiya baxımından çeşidli növləri işlənmişdir. Müasir nida cümlələrinə, başqa sözlə siyasi nidalara dilimizin tarixində legitim surətdə ilk dəfə məhz AXC-dən başlayaraq rast gəlinir. Parlamentdə səslənən şüarlardan: "Yaşasın Azərbaycan Demokratik Cümhuriyyəti! Yaşasın cəmiyyəti-əqvam!" (Ə.Pepinov); "Yaşasın Azərbaycan Cümhuriyyəti! Yaşasın demokratiya! Yaşasın... millətlərin qardaşlığı!" (A.Səfikürdski). Sual cümlələrindən alternativ ritorik sual cümlələri: "Xalq yeni işlərə razı olacaqmı, yoxmu? Təzə yolla getmək istəyəcəkmi?" (F.Xoyski); "Bu ağır vəzifəni ifa edə biləcəkmiyəm, yoxmu?.." (H.Ağayev).

Parlamentdə dövlət dilinin lüğət tərkibində çox böyük rəngarənglik vardır: Azərbaycan, osmanlı, ərəb, fars və rus sözləri. Azərbaycan və osmanlı sözləri arasında sərhəd qoymaq, bəziləri nəzərə alınmazsa, çətindir. Həmin fərqlərə, yuxarıda qeyd etdiyimiz *kendi*, *şu, işbu* işarə*,hanki* sual*, şimdi* və *imdi* zaman zərfləri, *əvət, iştə* ədatları və bir neçə termin səciyyəli (*anarşi "*anarxiya" mənasında, *çete* "ordu birliyindən olmayan silahlı kiçik dəstə" mənasında və s.) sözlər daxildir. Azərbaycan sözləri qrupu deyəndə, əsas etibarilə, leksik və semantik neologizmləri nəzərdə tutulur: *vergi, yer vergisi, gəlir, azadəlik, qardaşlıq, beynəlmiləllik, parlament nümayəndələri, qərar layihəsi sosialistlər fraksiyası, hökumət rəisi, sinif ayrılığı, sinif mübarizəsi, rəislik, daxiliyyə naziri, pulun qiyməti, məclis rəisi, məclis katibi, sədr müavini, baş nazir, alqış, sürəkli, millət, nümayəndələri, oxunmuş (birinci, ikinci), bağlıq yeri, əkin yeri, maliyyə nəzarəti, gömrük, inqilab bayrağı, seçki, seçki qanunu, bəyannamə, birər, ikişər müştərək müqavilə, ticarət nəzarəti, müsavat fraksiyası* və s. Ərəb və fars sözləri qrupu müasir dilimiz üçün artıq arxaikləşmiş sözlər və izafətlərdir: *məbus, məvad, vükəla, rəisivükəla, mənbər (xitabət kürüsü mənasında), ricu, istizah, məclisi- məbusan, haiz, mövqeyi-sədarət, ittifaqi-ara, icab etmək, sui-tənhim, müstəhziyanə, məhfuz, ati, vüquat, istinkaf, məcib olmaq, layiheyi-qanuniyyə, mühəvvəl, bəratülqovl (protokol)* və s. Rus sözləri qrupu dedikdə, əsasən rus dili vasitəsi ilə Avropa dillərindən keçən sözləri hesab edilir: *doqovor, kollektivnıy doqovor, komissiya, inspektor, podatnı inspektor, ustav, universitet, desyatin, fraksiya, demokratiya, deklarasiya, proqram, smeta, büdcə, revolyusiya, uyezd, teleqram, teleqraf, ministr, sosialist, kapital, mandat, nadelni, sud, doklad, porom, zemlyaçestvo, zakon, akop, şkol* və s. Bu sözlərdən bəzisinin qarşılığı yox-

dur: *inspektor, podatnı inspektor, desətin, demokratiya, smeta, büdcə, uyezd, teleqram, teleqraf, sosialist, nadelni, zemlyaçestvo* və s.

Uzun zaman məsafəsində həmin dövr dil yaddaşımızın uca zirvələrindən biri olaraq qalacaq (ətraflı bax: 4)

Ədəbiyyat

1.Ə.Dəmirçizadə. Azərbaycan ədəbi dilinin tarixi. I hissə. Bakı, "Maarif", 1979.
2. Azərbaycan Cümhuriyyəti (1918-1920). Parlament. Stenoqrafik hesabatlar. II c., Bakı, "Azərbaycan", 1998.
3. A.Axundov. Parlamentin dili / Azərbaycan Xalq Cümhuriyyəti (ədəbiyyat, dil, mədəni quruculuq) - Azərbaycan Respublikasi Prezidentinin İşlər İdarəsi Prezident Kitabxanasi. Bakı, "Qoliot Qkup" QSC, 2009, s.151-152.
4. Ətraflı bax: http://bilasuvar.cls.az/front/files/libraries/525/books/170093418.pdf

N.Mammedli

The language policy of the azerbaijan nation's council and the culture of speech of the parliament

The first reform of the Azerbaijan nation's council was known to be relating to the state language. The nation's authority declared the Turkish language as a state language in the history of Azerbaijan for the first time by the order of 27th of July in 1918. The issue of using the languages in the parliament was left on the responsibility of the legislature, of course. Although it was considered to be acceptable that speakers of other nationalities may speak Russian, but only Azerbaijan had the status of the state language. The oral speech was allowed to be used freely, but the language of documents and proposals was forced to be in the Azerbaijani language. At the beginning of the twentieth century, language was not only an important indicator of the socio-political and cultural life of Azerbaijan, but it had political nature as well. Different politically motivated or persuasive intellectuals tried to make the language full of the signs of the Ottomans, the Russians as well as the Persians. Those who do not consider the Azerbaijan people to be an independent nation, and those who do not consider their language to be an independent one, propose to speak and write in the language of the Ottoman Turks.

The second part was that they could not get rid of the influence of the Arabic and Persian languages in order not to stay away from Islam. Russian educated intellectuals try to translate literary language, even the press and literature regard it as a 'blessing' for the upper classes. The democratic forces were united in a single front - the struggle for a literary language based on the language of the people. These three aspects are also observed in the language of the Azerbaijan parliament. But on the one hand, Azerbaijan was a dominant language, and on the other, a more Ottoman language, but instead of its fully formed forms of literary language in the parliamentary style, there were more flexible national expressions about the situation, the subject and the conditions. In the long distance, that period will be one of the highest peaks of our memory.

Key words: the Azerbaijan nation's council, parliament, the language of official documents, speech etiquette, "Honorable parliament organ", "Honorable Azerbaijan parliament organ", "Honorable parliament members", political interjections.

Н.Мамедли

Языковая политика азербайджанской демократической республики
и культура речи парламента

Резюме

Первые реформы Азербайджанской Демократической Республики были связаны с языком. Правительство Республики по указу от 27 июня 1918 года впервые в истории Азербайджана объявило тюркским язык государственным языком. Вопросы, связанные с использованием языка в Парламенте, естественно, были переданы членам законодательного правительства. Хотя выступления на русском языке представителей других народов и считалось удовлетворительным, статус государственного языка был присущ только азербайджанскому языку. Хоть и допускалась вольность в устной речи, документы и предложения писались на принципиально на азербайджанском языке.

В начале XX века вопросы языка помимо того, что были важным показателем в социально-политической и культурной жизни Азербайджана, носит политический характер. Интеллигенция с разными политическими уклонами и идеями пытались османизировать, русизировать или же персизировать азербайджанский язык.

Не воспринимающие азербайджанский народ и азербайджанский язык как независимый предлагали использовать османо-тюркский язык. Другие же чтобы не удаляться от исламской религии были сторонниками арабского и персидского языков. Русскоязычная интеллигенция пыталась русизировать литературный язык, и считали прессу, литературу «даром». Демократические силы объединяла единая борьба за литературный язык, основывающийся на язык народа. В языке парламента эти три элемента ярко выражены. Хотя с одной стороны, развивающийся на основе азербайджанского национального языка, с другой стороны пристрастие к османскому языку – в парламентском стиле литературного языка оставались национальные средства выражения, связанные с темой, ситуацией, условиями вместо застывших форм.

Этот период для нас по истечении веков останется как высшая точка языковой памяти.

Ключевые слова: Азербайджанская демократическая Республика, парламент, язык официальных документов, речевые этикеты, «Почетный депутат парламента», «Почетный протокол», «Почетный депутат парламента Азербайджана», «Почетный член парламента», политические лозунги.

Redaksiyaya daxil olma tarixi: 21.05.2019
Çapa qəbul olunma tarixi: 25.09.2019
Filologiya elmləri doktoru, professor İlham Tahirov tərəfindən
çapa tövsiyə olunmuşdur

QULU MƏHƏRRƏMLI
filologiya elmləri doktoru, professor
Bakı Dövlət Universiteti
meherremli@gmail.com

RADİO DİLİNİN ÖZƏLLİKLƏRİ VƏ ARAŞDIRILMASININ BƏZİ PROBLEMLƏRİ

Xülasə

Bir sənət sahəsi və media vasitəsi kimi radionun dilinin öyrənilməsi iki cəhətdən maraq doğurur. Əvvəla, radio dilinin özəlliyindən danışarkən efirin akustik (səsli) təbiətinə istinad edilir. İkincisi, elmi araşdırmalar sözü və dili milli mədəniyyətin önəmli elementi kimi nəzərdən keçirir. Bu baxımdan radio dilinin özəllikləri və ifadə vasitələrinin funksionallığının araşdırılması ilə bağlı problemləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1.İnsan zəkasının meydana çıxardığı möcüzələrdən biri kimi radio yeni dil situasiyası və yeni mədəniyyət yaradıb. Televiziya (TV) meydana çıxana qədər bəşəriyyətə misilsiz xidmət göstərmiş radio, müasir texnoloji dəyişikliklərə çevikliklə uyğunlaşaraq cəmiyyəti məlumatlandırmaq missiyasını davam etdirir.

2.Şifahi nitq tribunası sayılan radio dilini araşdırmaq, ilk növbədə nitq mədəniyyətinin aktual məsələlərini gündəmə gətirmək deməkdir. Radio ədəbi dil normalarının və nitq mədəniyyətinin təbliğatçısı, dilin bir çox qatlarında, o cümlədən leksik və sintaksis layda gedən proseslərin ifadəçisidir.

3.Radio dilində həm yazılı (kitab üslubu da daxil olmaqla), həm də danışıq dilinin müxtəlif elementləri birləşir, verilişlər şifahi ədəbi dildə reallaşır. Amma bununla yanaşı, onu sırf şifahi dil hesab etmək olmaz.

4.Bəzən hadisənin baş verdiyi məkanı və şəraiti "təsvir" etməkdə, situasiyanın xarakterini müəyyənləşdirməkdə, əlavə məna çalarları yaratmaqda sözlə yanaşı efirdə səslənən səs lövhələri və musiqi də önəmli rol oynayır. Bu ifadə vasitələri həm illüstrasiya kimi, həm də müstəqil şəkildə işlədilir.

5.Radioda dil deyərkən təkcə linqvistika, söz və cümlə nəzərdə tutulmur, burada intonasiya kimi dildənkənar amil də əhəmiyyətli rol oynayır. Dinləyici bəzən eşitdiyinin mənasını səsin ahəngi, intonasiya ilə dəqiqləşdirir.

Açar sözlər: dil, element, ifadə vasitələri, linqvistika, intonasiya, linqvistika, nitq, özəllik, radio, radio dili, situasiya, veriliş.

Radio dilinin araşdırılmasının ümumi məsələləri haqqında

Bu gün televiziya və internetin coşqun inkişafına baxmayaraq, radio insanların həyatında öz yerini, cazibə qüvvəsini qoruyub saxlayır. Təkcə televiziya siqnallarının çatmadığı ucqar məkanlarda deyil, iri şəhər və qəsəbələrdə də radio bu gün insanların həmsöhbəti və qulaq yoldaşıdır. Hələ də evdə və avtomobillərdə radio milyonlarla insanın etibarlı xəbər mənbəyidir. Radio bədii verilişləri, ədəbi tamaşaları, müxtəlif janrlı musiqiləri ilə yüksək zövq mənbəyi olaraq qalır. Bütün bunlarla yanaşı, şübhəsiz ki, radio həm də müasir ədəbi dilin daşıyıcısı və milyonlar üçün nümunəvi nitq mədəniyyəti tribunasıdır.

Biz radio radio dili ilə bağlı təqdim etdiyimiz araşdırmaya iki aspektdən yanaşırıq. Əvvəla, radio dilinin özəlliyindən danışarkən efirin akustik (səsli) təbiətinə istinad edir, ikincisi isə qloballaşan dünyada sözü və dili milli mədəniyyətin önəmli elementi kimi

nəzərdən keçirir, efirin dil mənzərəsinin formalaşmasında təkcə ədəbi normaların, qrammatika qaydalarının deyil, həm də sözün canlı orqanizm kimi fəaliyyətdə olmasını önə çəkirik.

Efirdə söz – müasir linqvistikanın mürəkkəb problemlərindən biridir, hətta müəyyən mənada problemlər kompleksidir. Bizim ayrı-ayrı görkəmli alimlərimiz dilçiliyin müxtəlif problemlərindən bəhs edərkən radio dili mövzusuna da toxunmuşlar. Xüsusən şifahi nitq, ədəbi tələffüz, vurğu, səhnə dili, orfoepiya normaları, efir və ekranda dil mədəniyyəti məsələlərindən danışan müəlliflər bu və ya başqa şəkildə radio dilinə də istinad etmişlər (1, s.6-7) Lakin bununla yanaşı indiyədək "radio dili"nin ümumi, hamılıqla qəbul edilən nəzəriyyəsi yaradılmayıb. Ona görə də biz son araşdırmalarımızda efir dili ilə bağlı bir çox fundamental məsələlərə aydınlıq gətirməyə və radio dili nəzəriyyəsinin əsas müddəalarını təqdim etməyə çalışmışıq. Qeyd edək ki, televiziya dili sahəsində də eyni proseslər gedir və ekran dili ilə bağlı son tədqiqatlar da bunu bir daha təsdiq edir (2;3;4). Həmin araşdırmaların elmi dəyəri bundadır ki, müəlliflərin istinad etdiyi nəzəri müddəalar sistemli xarakter daşıyır, birbaşa radionun və televiziyanın spesifikliyinə əsaslanır.

Müəlliflər təkcə radio dili ilə bağlı qarşıya çıxan problemləri təsvir etmir, həm də onun akustik təbiətindən çıxış edərək bu problemləri diqqətlə araşdırır, efir dilinə daha çox ifadə, məzmun və qavrayış planında yanaşaraq, radio nitqinin özəlliyinin, efirdəki üslub rəngarəngliyinin elmi izahını verirlər (1, s.7). Eyni zamanda bir çox mübahisəli problemlərə də aydınlıq gətirilir, radio nitqinin danışıq dilindən əsas fərqləri göstəril, bu nitqin normaları, strukturu, sintaktik quruluşunun xüsusiyyətləri, fonetik, leksik və morfoloji vasitələrin funksiyası, həmçinin intonasiya-tələffüz məsələləri haqqında da elmi baxışlar əsaslandırılır.

Radio dili KİV dili ilə qarşılıqlı əlaqə kontekstində

Bəri başdan deyək ki, kütləvi kommunikasiya və kütləvi informasiya sistemində dil anlayışı çoxmənalıdır. Yəni biz burada "qəzet dili", "radio dili", "televiziya dili", "kino dili", "internet dili" terminlərini işlədərkən üç əsas anlayışı nəzərdə tuturuq: 1)dövri mətbuat, televiziya, radioyayım, internet və kino sahələrinin spesifik xüsusiyyətlərini; 2)teleradio verilişinin, internet "məhsulu"nun, nümayiş etdirilən filmin dilini; 3) qəzet və sayt materialının, televerilişin və radioyayımın, həmçinin kino əsərinin dil və üslub özünəməxsusluğunu.

Bu informasiya kanalları bir-birindən fərqlənməklə yanaşı, həm də kütləvi kommunikasiyanın xüsusi sahəsi kimi dövri mətbuatdan, eləcə də bədii ədəbiyyatdan seçilir: radio, kino və televiziya eyni tipə – audiovizual sahəyə aiddir. Amma bəzilərinə elə gəlir ki, bu prosesdə dil aydınlığı baxımından radionun vəziyyəti heç də "qibtəediləsi" deyil. Bu yanaşma nə dərəcədə doğrudur?

Radio bəşər tarixində insan zəkasının yaratdığı möcüzələrdən biri kimi əslində *radio yeni mədəniyyət və yeni dildir***.** Bu möcüzəni kəşf etmiş (1894) italiyalı mühəndis Q.Markoni radionu "Tanrının səsi" adlandırmışdı. Radionun təbiətini araşdırmış sosioloq M.Maklüen (ABŞ) isə onu elektrik cərəyanı ilə səsin birləşməsindən yaranmış möcüzə saymışdı. Bütün hallarda bu möcüzənin meydana çıxması hələ qədimdən insanların "danışan qutu" ilə bağlı xəyallarını gerçəkləşdirmişdir. Beləliklə, Tanrı möcüzəsi sayılan sözlə insan zəkasının məhsulu olan radiotexnikanın vəhdəti yüz ildən çoxdur ki, yeni dil situasiyası və yeni mədəniyyət yaradıb.

TV yaranandan sonra "artıq radio yaşamağa qadir deyildir" tezisi özünü doğrultmadı. Çünki dünyanın səs yaddaşını ərsəyə gətirən radio heç də teletexnikanın inkişaf sürətindən geridə qalmadı. Əksinə, indi dünyanın ən aparıcı ölkələrində (ABŞ, İngiltərə, Fransa, Almaniya, Yaponiya və s.) kifayət qədər geniş auditoriyası olan və reklam üçün cazibədarlığını saxlamış radio az xərc tələb edən əlverişli informasiya vasitəsi hesab olunur.

Radionun internet və televiziya ilə çətin rəqabətdə "sağ" qalmasının əsas səbəbi onun

insan təxəyyülündə möcüzələr yaradan, haqqında danışılan hadisəni "bütün rəngləri ilə göstərən", bununla da dinləyiciləri maqnit kimi özünə çəkən səsindədir. Təbii ki, radio buna, ilk növbədə, özünün fərqli ifadə vasitələrinin (nitq, musiqi və səs lövhələri) sayəsində nail olur. Həmin ifadə vasitələri isə haqqında danışdığımız və müəyyən qədər mücərrəd olan "radio dili" anlayışını formalaşdırır. Amma araşdırma "mücərrəd" və yayğın olmasın deyə biz bu vasitələrdən birinin – nitqin (sözün) üzərində daha geniş dayanmış, şifahi ədəbi dilin qanunlarına əsaslanan bu nitqi əsas tədqiqat predmetinə çevirmişik. Aydındır ki, tədqiqat məhz radionun səsli (akustik) təbiətinə, bu KİV kanalının özəl xüsusiyyətlərinə istinadən aparılmışdır. Təbii ki, predmet olaraq dil faktına belə yanaşma dilçiliyin ənənə və standartlarından müəyyən qədər kənara çıxır (2, s.10-11). Hətta belə bir sual yaranır ki, hadisələri göstəmək imkanı olmayan, məlumatı yalnız səslə çatdıran radio dilini öyrənmək müasir dilçilik elmi üçün nə dərəcədə ciddi maraq doğurur?

Radio dilini öyrənmək nəyə görə aktualdır?

Bu gün çox ciddi problemləri həll etməli olan dilçilik elmi üçün belə bir sualın cavabı birbaşa efir dilinin təbiəti, burada səslənən nitqin xarakteri ilə sıx bağlıdır. Digər tərəfdən şifahi nitq tribunası sayılan radio dilini araşdırmaq, ilk növbədə, nitq mədəniyyətinin aktual məsələlərini gündəmə gətirmək deməkdir. Geniş bir auditoriya olan radio ədəbi dil normalarının təbliğatçısıdır, daha çox danışıq dilinə əsaslanır, dilin bir çox qatlarında, o cümlədən leksik layda və sintaksisdə gedən prosesləri dolğun əks etdirir. Məhz bu amillər dilçilik elminin efir dilini öyrənməsini zəruri edir (2, s.11).

Digər tərəfdən efir dilinin araşdırılması danışıq dilinin öyrənilməsinə artan maraq, ehtiyac və tələblə bağlıdır. Bu maraq və tələbin artmasını kommunikasiya prosesinin danışıq dilinin aparıcı elementi olması ilə izah etmək olar. Həm də "normativ qrammatikalarda göstərilən və verbal kommunikasiya formasında mövcud olaraq fəaliyyət göstərən linqvistik təzahürlərin korpusları arasında olan ziddiyyətlər məhz danışıq dilində meydana çıxır" (4, s.3).

Efir, ədəbi dilin tətbiqinin yeni sahəsi olduğu, həm də sistemli öyrənilmədiyi üçün onun araşdırılması xüsusi aktuallıq kəsb edir. Yəni dilçilik elminin yeni istiqaməti kimi audiovizual dilin tədqiqini dərinləşdirmək, bu kontekstdə həm yazılı dilin, həm də daha çox şifahi dilin problemlərini nəzərdən keçirmək eyni zamanda ədəbi dilin bu qollarının efirdə qeyri-adi şəkildə birləşərək yeni linqvistik mənzərə yaratmasını öyrənmək deməkdir.

Efir təkcə dil materialından istifadə etmir, həm də dili cilalayır. Ədəbi dili, onun normalarını, qaydalarını təbliğ edir. Burada sözlər adi yazı kimi gözlə oxunmur, ucadan deyilir və hər hansı bir sözün məna tutumundan ta estetikasınadək səsdə, tələffüzdə güzgü kimi əks olunur. Verilişlərin dilində normaların pozulmasından irəli gələn nöqsanlarla bağlı narazılığın çox olması da məhz bu sözlərin ucadan deyilməsi, aydın eşidilməsi ilə əlaqədardır. İnsan çox şey düşünüb yaza bilir, amma sözləri ucadan deyəndə mütləq seçir, dəqiqləşdirir, fikrən redaktə edir, yalnız "deməli" olanı deyir. Bu baxımdan radio, məhz ucadan deyilməyə layiq sözlərin, yəni mədəni nitqin, düzgün danışığın tribunasıdır.

Efir: yazılı, şifahi dil, yoxsa adi danışıq dili?

Araşdırmalar bu suala dəqiq aydınlıq gətirməlidir ki, radio dili dedikdə nə başa düşülür? Efirdə eşitdiyimiz nitq, danışıq ədəbi dilin hansı qoluna aiddir: yazılı dilə, yoxsa şifahi ədəbi dilə? Problemin zahirən çətin görünən tərəfi burasındadır ki, radio dilində həm yazılı (kitab üslubu da daxil olmaqla), həm də danışıq dilinin müxtəlif elementləri birləşir. Verilişlər şifahi ədəbi dildə reallaşır, yəni radio nitqinin əsasını səs təşkil edir, lakin bununla yanaşı, onu sırf şifahi dil hesab etmək olmaz. Ümumiyyətlə, radio dilinin bütünlüklə danışıq dilindən ibarət olması mülahizəsi yanlışdır. Radio dili ayrılıqda yazılı dil də deyildir. Efirə gedən verilişlərin əksəriyyətinin mətninin (qəzetdə olduğu kimi) əvvəlcədən hazırlanıb redaktə olunması da radio dilini yazılı dil hesab etməyə əsas vermir.

XX əsrin böyük linqvistlərindən olan A.Peşkovski ədəbi dil barəsində danışarkən qeyd edirdi ki, həm yazılı nitqin qanunlarına tam əməl etmək, həm də şifahi nitqin xüsusiyyətlərini

nəzərə almaq ədəbi nitqin xüsusi, ayrıca bir növüdür. O, haqqında danışdığı bu xüsusi növü "yazılı nitqin şifahi təzahürü" kimi səciyyələndirirdi. Bu fikir sanki bütövlükdə radio nitqi haqqında deyilmişdir. Çünki radio danışığı struktur-konstruksiya baxımından yazılı, intonasiya, tələffüz baxımından isə şifahi nitqin xüsusiyyətlərini özündə əks etdirir. Radio jurnalisti, diktor, reportyor, bir sözlə, mikrofon qarşısında çıxış edən hər kəs bunu bilməli, düzgün deyim qaydalarına, orfoepiya prinsiplərinə əməl etməlidir.

Deməli, ayrılıqda nə yazılı nitqin (qrafika və üslubla bağlı problemlərə görə), nə də şifahi dilin (ilk növbədə, konkret situasiyanın məhsulu olan mimika və jestlərə görə) mexaniki şəkildə radioya tətbiqi özünü doğrultmur. Burada yazılı və şifahi dilin sintezindən formalaşan bir qol özünü göstərir ki, bunu *audio dil* adlandırmaq olar (4).

Radioda səslənən dil tələffüz normalarına əməl olunmaqla işlədilən nizamlanmış ədəbi dildir. Lakin bu dil nə tamamilə rəsmi dildir, nə də ayrılıqda götürülmüş bədii dildir, bu dil canlı danışıqla, ümumxalq dili ilə zənginləşmiş ədəbi dilin dolğun bir formasıdır; "... qəzet və jurnallarda publisistik üslub, mətbuat üslubu üstünlük təşkil edirsə, televiziya və radioda bununla bərabər, canlı danışığa güclü meyil hiss olunur" (6, s.7). Ona görə də biz belə hesab edirik ki, radio dilinin (nitqinin) yaranmasında daimi və həlledici amil kimi şifahi nitq qanunları əsas götürülməlidir.

İntonasiya – efir dilini gerçəkləşdirən əsas vasitə

Radioda dil deyərkən təkcə linqvistika, söz və cümlə nəzərdə tutulmur, burada dildənkənar amillər, ilk növbədə, intonasiya olduqca əhəmiyyətli rol oynayır. Dinləyici bəzən eşitdiyinin mənasını danışanın səsinin ahəngindən, emosional intonasiyasından, necə səslənməsindən dərk edir, buna görə də dinləyən zaman eşitmə hisləri sanki görmə hislərindən ayrıca, ideal şəkildə yaranır.

Biz efirdə səslənən intonasiyanın xarakterinə, nitqin fonetik üslubuna görə danışanın temperamenti, xarakteri, onun dünyagörüşü, əhvali-ruhiyyəsi, nəhayət, səmimiliyi və qeyri-səmimiliyi barədə mühakimə yürüdürük. Gümrahlıq və əzginlik, zirəklik və süstlük, qətiyyət və acizlik, maraq və laqeydlik – şifahi nitqi müşayiət edən bütün bu psixoloji məqamlar, bir növ, onun məzmununu müəyyən ahəngə uyğunlaşdırır, səs axınında özünün düzgün ifadəsini tapır.

Deməli, yazılı dildən fərqli olaraq, efir danışığının əsasını təşkil edən şifahi nitqin ən müxtəlif emosional və ekspressiv halları ifadə etmək gücü vardır. Hər hansı fikrin ifadə edilməsi, informasiyanın çatdırılması anında diktor, yaxud aparıcı nitqin ümumi ahəngini yaradan fövqəlxətti fonetik vahidlərə müraciət edir. Yəni mənanın dəqiq və dolğun ifadəsi üçün vurğu, ritm, temp, pauza, tembr və bu kimi səslə bağlı olan prosodik ünsürlər danışanın karına gəlir. Həmin ünsürlər kompleks şəkildə müxtəlif sintaktik məna, kateqoriya və emosional münasibət ifadə edir. İntonasiya fono-qrammatik vasitə kimi efir dilinin gerçəkləşməsində həlledici rol oynayır və bu dilin ayrılmaz əlaməti kimi çıxış edir.

Müxtəlif verilişlərdə, xüsusən informasiya buraxılışlarında və ictimai-siyasi proqramlarda, publisistik səciyyə daşıyan materiallarda intonasiya təkcə nitq sistemini təşkil edən vasitə kimi çıxış etmir, həm də cümlənin kommunikativ mənasına, onun emosional-ekspressiv çalarlarının dolğunlaşmasına təsir göstərir. Konkret hallarda efirdən səslənən hər hansı sözün, cümlənin mənası böyük əhəmiyyət (daha çox psixoloji cəhətdən) daşıdığı üçün dinləyici intonasiyaya və onun tərkib hissələrinə (vurğuya, tembrə, pauzaya və s.) olduqca həssas münasibət göstərir.

Səs lövhələri və musiqinin semantik gücü

Bəzən hadisənin baş verdiyi məkanı və şəraiti "təsvir" etməkdə, situasiyanın xarakterini müəyyənləşdirməkdə, əlavə məna çalarları yaratmaqda sözlə yanaşı, efirdə səslənən səs lövhələri və musiqi də önəmli rol oynayır. Radionun bu ifadə vasitələri həm illüstrasiya kimi, həm də müstəqil şəkildə işlədilir. İkinci halda tətbiqi xarakterli həmin vasitələr xüsusi semantika daşıyır. Əlbəttə, radionun akustik təbiətindən doğan bu xüsusiyyət ayrı-ayrı mövzu və janrlarda olan verilişlərin dil materialına, dialoqların quruluşuna, efirdə danışanların nitqinə, intonasiya-tələffüz çalarlarına, həmçinin fonetik, leksik və sintaktik hadisələrə xüsusi tələblə

yanaşmağı şərtləndirir. Səs lövhələri (küylər) və musiqi hər hansı verilişin, xüsusən bədii parçanın ideya məzmununun açılmasında, hadisələrin reallaşdırılmasında və inkişafında, məkan şəraitinin "görünüb" qavranılmasında mühüm rol oynayır. Sənətşünaslıq ədəbiyyatında səs effektləri adı ilə qəbul olunmuş bu ifadə vasitələrini əslində "sənədli səslər" adlandırmaq daha doğru olardı. Çünki məhz bu səslərin mövcudluğu hadisənin harada, necə baş verməsinin konkretləşməsinə kömək edir və dinləyicini buna inandırır.

Dünyada radio dili necə öyrənilir?

Vaxtilə dünyanın ən inkişaf etmiş ölkələrində, o cümlədən SSRİ-də və digər sosialist ölkələrində radio dili müəyyən sistem üzrə öyrənilmişdir. Hazırda ABŞ-da bu işlə ölkənin bir neçə universitetində məşğul olurlar. Bu cəhətdən Yaponiya təcrübəsi daha maraqlıdır. Ölkədə yaradılmış Radio mədəniyyəti elmi-tədqiqat institutu ayrı-ayrı verilişlərin, o cümlədən radiopyeslərin dil və üslubunu tədqiq edir, eyni zamanda radio dilinin ayrı-ayrı inteqrasiyalara mənsub dinləyici auditoriyasına təsirini də öyrənir (7, s.288-299). Şərqi Avropanın keçmiş sosialist ölkələrində, o cümlədən Macarıstan, Polşa və Çexoslovakiyada radio dili daha çox bədii verilişlərin (radiotamaşalar, radiofilmlər, iri bədii kompozisiyalar və s.) materialları əsasında öyrənilərək təhlil edilmişdir (8).

Radio dilinin, bütövlükdə çevik informasiya vasitəsi kimi radionun mürəkkəb təbiətinin, o cümlədən efir dilinin araşdırılmasında Böyük Britaniya alimləri ciddi uğurlar əldə etmişlər. Bu baxımdan BBC radiostansiyasının tədris və araşdırma mərkəzinin çap etdirdiyi kitab və metodik tövsiyələrin ciddi əhəmiyyəti olmuşdur. Bundan başqa, Almaniya və Fransada F.Miller və Jan Kokto kimi tanınmış müəlliflərin qələmindən radionun estetikası və efir dilinin incəlikləri barədə qiymətli əsərlər çıxmışdır (8, s.255-262).

Dünya elmində radio dilinin öyrənilməsinin özəlliyi burasındadır ki, xarici ölkə alimləri problemə bir neçə aspektdən yanaşmışlar. Bu ədəbiyyatları təxminən belə qruplaşdırmaq olar: 1) media qurumu kimi radioya sosial rakursdan yanaşanlar; 2) radionun təbiətini və radio dilini digər elmlərin qovşağında araşdıranlar; 3) informasiya kanalı kimi radio üçün necə yazmaq, ayrı-ayrı janr və formatlarda (xəbər, reportaj, tok-şou və s.) dil materialından necə istifadə etmək haqqında tövsiyələri əks etdirən elmi-metodik əsərlər.

Sovet dilçiliyində problemə yanaşmanın əsas meyilləri

Əslində burada söhbət keçmiş SSRİ-də efir dilinin necə və hansı istiqamətlərdə araşdırılmasından gedir. Məsələ burasındadır ki, radioya misilsiz təbliğat vasitəsi kimi baxan sovet hakimiyyəti hələ radioyayımın ilk illərində auditoriyaya təsirin gücünü artırmaq üçün efir dilinin incəliklərinin öyrənilməsini mühüm vəzifə hesab etmişdir. Həmin dövrdə (ötən əsrin 30-cu illərində) keçmiş Sovetlər İttifaqında ilk dəfə radio dilinin spesifikliyini elmi cəhətdən araşdıran görkəmli linqvist, professor S.Bernşteyn olmuşdur. Onun "Язык радио" adlı monoqrafiyası elmi-kütləvi verilişlərin dilinin tədqiqinə həsr olunsa da, burada, ümumiyyətlə, radio nitqinin bir sıra aktual məsələləri işıqlandırılmışdır. S.Bernşteynin radio dilinin ümumi məsələlərinə, qrammatik formaların işlədilməsi və ifadələrin sintaktik quruluşuna, həmçinin şifahi dilin tələffüz-qavrama sisteminin spesifik elementləri olan vurğu və intonasiyanın roluna dair fikirləri bu gün də aktualdır (9).

Daha sonralar radio dilinin bir sıra mühüm xüsusiyyətləri sovet linqvistləri S.Boquslavskinin, A.Şneyderin, V.Vakurovun, M.Marşakın, L.Krısinin əsərlərində şərh olunmuşdur. Onlar radio dilinin ümumi təbiəti, onun özünəməxsusluğu, verilişlərin leksik-semantik və sintaktik xüsusiyyətləri haqqında bir sıra maraqlı elmi fikirlər irəli sürmüşlər. Lakin bu müəlliflərin tədqiqatları kifayət qədər ardıcıl olmamış, bir çox hallarda təsviri xarakter daşımış, ən başlıcası isə radio dili probleminə kompleks yanaşılmamış, hər hansı dilçilik faktı başqa cəhətlər nəzərə alınmadan işıqlandırılmışdır (2, s.17).

Nəhayət, uzun elmi axtarışlardan sonra – ötən əsrin 70-ci illərində radionun akustik təbiətindən çıxış edərək onun dilinin nəzəri əsaslarını yaradan, ən başlıcası isə danışıq dili ilə radio dili arasındakı mühüm prinsipial fərqləri üzə çıxaran sanballı tədqiqat əsəri meydana

gəldi. Bu, radio dili üzrə tanınmış mütəxəssis M.Zarvanın "Слово в ефире" kitabı idi (10). Onun tədqiqatında diqqəti cəlb edən başlıca cəhət bu idi ki, müəllif radio dili ilə bağlı bütün məsələləri əhatə etmiş, bir çox mübahisəli problemləri aydınlaşdırmış, radio nitqinin informativ dəqiqliyi, onun strukturunun, sintaktik quruluşunun xüsusiyyətləri, fonetik, leksik və morfoloji vasitələrin funksiyası, həmçinin intonasiya-tələffüz məsələləri, səsli nitqin qavranılması və s. haqqında obyektiv elmi nəticələr çıxarmışdır. M.Zarva radio dili haqqında tərif səviyyəsinə yüksələcək belə bir doğru qənaətə gəlmişdir: "Radio dili müasir şifahi ədəbi dilin elə bir qoludur ki, burada kütləvi kommunikasiyanın yalnız bu növünün dinləyiciyə maksimum təsir göstərmək məqsədi daşıyan prinsipləri mövcuddur. Həmin prinsiplər fonetik, morfoloji, leksik-frazeoloji və sintaktik konstruksiyaların seçilməsində, tərtibində və işlənməsində bilavasitə özünü göstərir" (10, s.40-42).

Azərbaycan dilçiliyində radio dilinin öyrənilməsi

Müntəzəm yayıma başlamasından uzun illər keçməsinə baxmayaraq, müasir şifahi dilin geniş işləndiyi mühüm sahə kimi radionun dili yalnız müstəqillik illərində ayrıca elmi tədqiqat obyekti olmuşdur. Bu mövzunu dolayısı ilə işıqlandıran nəşrlərə rast gəlinsə də, sırf radio dilinə həsr olunmuş, efir dilini bütün parametrləri ilə üzə çıxaran monoqrafik əsərlər məhz bu dövrdə üzə çıxmışdır.

Əlbəttə, radio dili mövzusunun tamamilə diqqətdənkənar qaldığını da iddia etmək çətindir, çünki müxtəlif problemlərdən, o cümlədən ədəbi redaktə məsələlərindən (6) kütləvi kommunikasiya sistemində dilin işlənilməsi və ekran-efir dilində gedən proseslərdən (11) yazan ayrı-ayrı müəlliflər öz əsərlərində efir dilinin bu və ya başqa xüsusiyyətləri barədə dəyərli fikirlər söyləmişlər. Bundan başqa, Ağamusa Axundov, Musa Adilov, Müseyib Məmmədov, Tofiq Hacıyev, Fəxrəddin Veysəlli kimi görkəmli alimlər vaxtaşırı ekran-efir dilində gedən prosesləri təhlil edərkən, xüsusən şifahi nitq, ədəbi tələffüz, vurğu, səhnə dili, orfoepiya normaları, efir və ekranda nitq mədəniyyəti məsələlərindən danışarkən radio dilinin problemlərinə də toxunmuşlar (2, s.20).

Bu baxımdan professor A.Axundovun tədqiqatları diqqəti daha çox cəlb edir. O, radio dilinə müasir şifahi ədəbi dilin önəmli qolu kimi yanaşaraq belə bir cəhəti qeyd edir ki, radio və televiziya ədəbi dilimizi nitq mədəniyyəti cəhətdən inkişaf etdirdiyi kimi, onu tamamilə yeni formalarla da zənginləşdirir. Əgər bizdə radiohekayə, radiofilm, radiooçerk, radiopovest, radiopyes... yaranırsa, şübhə yoxdur ki, onların ifadə forması olan dilin də yeni cəhətləri meydana çıxmış olur (12). Ümumiyyətlə, A.Axundovun "Azadlıq" radiosunun verilişlərinin dilinə həsr etdiyi məqaləsi də daxil olmaqla (12, s.174), bir çox araşdırmalarını radio dili probleminin öyrənilməsi üçün faydalı başlanğıc hesab etmək olar.

Radio dilinin öyrənilməsi dilçiliyimizə nə verir?

Efir dilinin xüsusiyyətlərinin öyrənilməsi həm nəzəri, həm də praktik baxımdan dilçiliyimizin hüdudlarını genişləndirir. Mövzunun araşdırılması şifahi ədəbi dilin bəzi mübahisəli məsələlərinə aydınlıq gətirir, bu dilin radio sahəsində tətbiqinin incəliklərini üzə çıxarır və efirin dil mənzərəsini elmi cəhətdən ümumiləşdirərək praktika üçün faydalı tövsiyələr verir. Eyni zamanda radio dilinin özəllikləri ilə bağlı irəli sürülmüş bir sıra nəzəri müddəalar gələcəkdə kütləvi kommunikasiya və KİV dilinin problemlərinin araşdırılması üçün elmi baza yaradır. Digər tərəfdən radio dilinin öyrənilməsi indi çox aktual olan media dilinin sistemli şəkildə tədqiqata cəlb edilməsi üçün ciddi impuls verir.

Hazırda radio kütləvi kommunikasiya vasitəsi kimi sürətlə inkişaf edir və onun dili şifahi nitqin mühüm bir sahəsi kimi daha da cilalanır. Yeni dil hadisələri, maraqlı qrammatik formaların təzahürü, rəngarəng informasiya-tələffüz çalarları, çevik sintaktik konstruksiyaların tətbiqi, ümumiyyətlə, ədəbi dilin zənginləşməsi və sözlərin leksik-semantik tutumu baxımından faydalıdır.

Deməli, radionun ifadə imkanlarından çıxış edən və canlı danışığa əsaslanan efir dilinin öyrənilməsi qayda və prinsiplərin sistemləşdirilməsi, həm burada səslənən nitqin spesifik

xüsusiyyətlərini, eləcə də KİV sisteminin dil-üslub xüsusiyyətlərini, şifahi dilin problemlərini, həm də ümumən şifahi nitqin bır sıra aktual məsələlərini işıqlandırmağa imkan yaradır.

Ədəbiyyat

1.Məmmədli N. Efir dili haqqında qiymətli tədqiqat.// Məhərrəmli Q. Radio verilişlərinin dili və üslubu. B., Elm və təhsil, 2011, s.3-7.
2. Məhərrəmli Q. Radio verilişlərinin dili və üslubu// B., Elm və təhsil, 2011.
3. Hacıyeva A. Azərbaycan televiziyasında ictimai-siyasi verilişlərin dili. B., Elm və təhsil, 2019.
4. Шерба Л.В. Современный русский литературный язык. В кн.: Избранные работы по русскому языку. М., Учпедгиз, 1957.
5. Məhərrəmli Q. Audiovizual nitq. B., Elm, 2000.
6. Rüstəmov T. Ədəbi redaktənin nəzəriyyəsi və təcrübəsi. B., Maarif, 1981.
7. Неверов С. Обезличенная или личностная? (на примере радиокоммуникация в Японии). В кн.: В диапазоне современности. М., Искусство, 1985.
8. В диапазоне современности. М., Искусство, 1985.
9. Бернштейн С.И. Язык радио, М., Наука, 1977.
10. Зарва М. Слова в ефире. М., Искусство, 1977.
11. Məmmədov İ. Ekran, efir və dilimiz. B., Elm, 1989.
12. Axundov A. Azərbaycan dili "Azadlıq" dalğalarında. //Dil və ədəbiyyat. 2 cilddə. B., 2003. I cild, s. 171-178.

G.Maharramli

Some problems of characteristics
and researching of radio language

Summary

Learning of radio language as an art field and media is interesting in two reasons. Firstly, while talking about the characteristics of radio language, it is refered to acoustic (sounding) nature of broadcast. Secondly, words and tongue are analyzed as a significant element of national culture in scientific researches. In this regard, the problems of researching of the characteristics of radio language and functionality of expression tools can be divided these groups:

1.Radio has created a new language situation and culture as one of the miracle, which was created by human intelligence. Radio, which had given unexampled service to the humanity until the TV apperared, adopts to the modern differences operativly, and continues to the mission of enlighten of society.

2.Researching of radio language, which is considered as a verbal speech tribunal, means, first of all, talking about actual problems of speech culture. Radio is the preacher of norms of literary language and speech culture, and the expressor of process, which is in many of layers of language, and the layer of lexicology.

3.Different elements of both written, and verbal language join in radio language, and programs realise in verbal literary language. However, it is not just a verbal language.

4.Sometimes sound effects and music to play a significant role with words to describe story and condition, determine the characteristics of situation, make additional meaning elements. These elements of expression are used either as illustration, or independently.

5.Intonation is also have a substantial role in radio language as well as linguistics, words and sentences. Sometimes audience determine the meanings of words with the harmony of sound, and intonation.

Key words: language, element, expression tools, linguistics, intonation, speech, characteristics, radio, radio language, situation, program.

Г. Магеррамли

Особенности и некоторые проблемы исследования языка радио

Резюме

Изучение языка радио как одной из сфер искусства и СМИ вызывает интерес с двух сторон. Прежде всего когда речь идет об особенностях языка радио, ссылаются на акустическую (звукавую) природу эфира. Во-вторых, научные исследования рассматривают слово и речь как важный элемент национальной культуры. С этой точки зрения проблемы связанные по изучению особенностей языка радио и функциональности средств выражения, можно сгруппировать следующим образом:

1.Радио, как одно из чудес человеческого интеллекта, создало новую языковую ситуацию и новую культуру. До появления телевидения (ТВ) радио оказало огромную услугу человечеству, и в настоящий момент адаптируясь современным технологическим изменениям, продолжает свою миссию информирования общественности.

2.Изучение языка радио, считающегося устным речевым трибуналом, прежде всего означает актуальные проблемы речевой культуры. Радио, как пропагандист норм литературного языка и культуры речи, выражает процессы во многих слоях языка, в том числе лексические и синтаксические.

3. В языке радио объединяются различные элементы как письменного (включая книжную), так и разговорного языка, программы реализуются на устном литературном языке. Но наряду с этим, его нельзя считать чисто устным языком.

4. Иногда, для «представления» места и обстоятельства события, определения характера ситуации, в созданиии дополнительных значений, наряду со словом важную роль играют звуковые платы и музыка, звучащая в эфире. Эти средства выражения используются как в качестве иллюстраций, так и независимо.

5. Язык в радио означает не только лингвистику, слово и предложение, также здесь огромную роль играет внеязыковые факторы как интонация. Слушатель, смысл услышанного порой уточняет посредством интонации и тембром голоса.

Ключевые слова: лингвистика, речь, средства выражения, радио, язык радио, ситуация, программа.

Redaksiyaya daxil olma tarixi: 21.03.2019
Çapa qəbul olunma tarixi: 25.06.2019
Filologiya elmləri doktoru, professor Nadir Məmmədli
tərəfindən çapa tövsiyə olunmuşdur

SVETLANA MƏMMƏDOVA
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
İngilis dili kafedrasının dosenti

İNGİLİS DİLİNİN İNKİŞAF TARİXİ

Bu göstərilən dialektlərdən heç biri qədim ingilis dili dövründə standart bir dil kimi qəbul edilməlidir. Vaxtaşırı onlardan biri öz dövrünün yazı dili olmuşdur. Məsələn, VIII əsrdə Nortumbriya dialekti, IX əsrdə Yesseks dialekti ölkənin yazı dili olmuşdur. Tarixçilər VIII əsri Notumbriya mədəniyyətinin çiçəklənməsi dövrü adlandırırdılar. Nortumbriya dialektinin həmin dövrün əsas yazı dili olmasına səbəb ölkədə xristianlığın yayılması idi.

Tarixdən məlum olduğu üzrə xristianlğın mərkəzi Roma olmuşdur. Təxminən eramızın 597-ci ilində müqəddəs Avqustinin rəhbərliyi altında bir qrup missioner atəşpərəst İngiltərəni xristianlaşdırmaq məqsədilə Britaniyaya gəldi. Onlar Kent krallığındakı Kepterberi adlı yeri öz dini mərkəzlərinə çevirdilər. İrlandiyadan göndərilən missionerlər də onlara kömək etdilər.

Bütün ölkə boyunca monastrlar və onların nəzdində monarxist məktəblər təşkil olundu. Qədim ingilis yazısı da ilk dəfə monastrlarda yaradıldı və yayıldı.

Nortumbriya krallığındakı məşhur Lindisfarne monastrı monarxist təlimin böyük mərkəzlərindən birinə çevrildi. Bu isə öz növbəsində Nortumbriya dialektinin və mədəniyyətinin çiçəklənməsinə səbəb oldu. Lakin bu çiçəklənmə dövrü uzun sürmədi. VIII əsrin sonlarında təxminən 793-cü ildə Lindisfarne monastrı skandinavlılar tərəfindən darmadağın edildi. Bu da Nortumbriya mədəniyyətinin tənəzzülünə səbəb oldu.

İşğalçı skandinavlıların ardıcıl hücumuna və işğalına məruz qalan anqlo-saksonlar düşmənə qarşı ciddi müqavimət göstərməyə başladılar. Bu müqavimətin əsas mərkəzi IX əsrdə Yesseks krallığı idi ki, onun da başında kral Alfred dururdu. Odur ki, IX əsrdə Yesseks krallığının paytaxtı Vinçestr ingilis mədəniyyətinin əsas mərkəi oldu. Kral Alfredin (849-890) hakimiyyəti dövründə ingilis ədəbiyyatı, ingilis mədəniyyəti çox inkişaf etdi və Yesseks dialekti ölkənin əsas dili oldu.

Qədim dövrün sonlarına yaxın İngiltərədə mövcud olan tayfa quruluşu tənəzzülə uğradı, torpaq iri zadəganların, torpaq sahiblərinin əlində cəmləndi və kəndlilər köləyə, qula çevrildilər. Beləliklə, Britaniya feodal dövlətinə çevrildi ki, bu da dilin inkişafına öz təsirini göstərmiş oldu.

Açar sözlər: ingilis dili, qədim, orta əsr, yeni dövr, german, tarix, era

Hazırda ingilis dili dünyada ən geniş yayılmış dillərdən biridir. Birləşmiş Millətlər Təşkilatında istifadə olunan 5 əsas dildən ən çox işlək olanı ingilis dilidir. İndi ingilis dili dünyada diplomatiya, kommersiya, dənizçilik, elmi - texniki və kütləvi informasiya dili kimi məşhurdur. Zəmanəmizdə nəşr olunan ədəbiyyatın və kütləvi mətbuatın əksəriyyəti ingilis dilində dərc olunur. Bütün bu deyilənlərə görə, ingilis dilinin öyrənilməsi hər kəs üçün həyati zərurət kimi qarşıda durur. Zaman keçdikcə bu dil özünəməxsus inkişaf qanunlarına əsasən daha da təkmilləşmişdir. Müasir ingilis ədəbi dilinin əsasını London dialekti təşkil edir.

Yer üzündə elə bir dil yoxdur və elə bir dil təsəvvür etmək mümkün deyil ki, başqa dillərlə qarşılıqlı münasibət və əlaqədə olmasın. Qonşu xalqların qarşılıqlı münasibətləri öz əksini bilavasitə dildə də tapır.

Dillərin qarşılıqlı əlaqə və təsiri dedikdə isə birinci növbədə sözalma, yaxud sözvermə prosesi başa düşülür. B.Y.Çernıx göstərir ki, dillərin qədimliyini müəyyən dərəcədə təsəvvür etməyə yardım göstərən vasitələrdən biri də bir dilin başqasından aldığı və ya əksinə, başqa bir dilə verdiyi sözlərdir. Doğrudan da, sıx qonşuluq şəraitində yaşayan xalqların dillərində alınmaların kəmiyyəti onların bu əməkdaşlıq münasibətlərinin tarixi köklərini, deməli, müəyyən mənada, dilin özünün tarixini göstərə bilir.

Dildə alınmalar, alınma sözlər mövzusunda çoxlu əsərlər meydana çıxsa da, mövcud prosesin anlaşılmasında, daha doğrusu, prosesin terminoloji ifadəsinə münasibətdə müxtəliflik yenə qalmaqdadır. Hər hansı bir dildə kənar dil elementlərinə münasibət zamanı müxtəlif fikirlər daha çox bu dil elementlərinin adlandırılmasında, habelə alınma söz, beynəlxalq məsələlərində özünü göstərir.

Dildəki sözlərin mənşəyini bilmənin dil öyrənənlər üçün böyük əhəmiyyəti vardır. Tələbələr sözləri məna, tələffüz və orfoqrafik baxımından fərqləndirməyi bacarırlar. Sözlər onların yaddaşında tez və uzun müddət qalır.

İngilis dilinin tarixini, adətən 3 dövrə bölürlər: (Аракин, 2003. Смирницкий, 1998).

Qədim ingilis, yaxud anqlo-sakson dil dövrü.

1. Orta ingilis dili dövrü.

2. Yeni ingilis dili dövrü .

Qədim ingilis, yaxud anqlo-sakson dil dövrü. V əsr – XI əsrə qədər olan vaxtı əhatə edir. (449 – 1100) Bu dövr german tayfalarından Britaniyanı zəbt etməsi ilə başlayır.

Orta ingilis dili dövrü. XI əsrdən XV əsrə qədər olan vaxtı əhatə edir. (1100 – 1500)

Yeni ingilis dili dövrü . XV əsrdən indiyə kimi olan vaxtı əhatə edir. (1500 – indiyə kimi). Bir dövrdən başqa bir dövrə keçid qəflətən, sıçrayışla deyil, tədricən dilin yavaş- yavaş inkişaf edərək yeni xüsusiyyətlər, keyfiyyətlər kəsb etməsi yolu ilə olur.

Dilin kəsb etdiyi yeni səciyyəvi xüsusiyyətlər onu əvvəlki dövrlərdən fərqləndirir. Məsələn: Qədim ingilis dilini orta ingilis dilindən fərqləndirən mühüm əlamətlərdən biri onda (yəni qədim ingilis dilində) vurğusuz sonluqda hər cür saitin (a, o, u, an, e) işlənə bilməsi idi, halbuki orta ingilis dili dövründə bütün vurğusuz saitlər zəiflənərək “e” çevrilirlər.

Dilin öz inkişafı prosesində kəsb etdiyi müəyyən fonetik-morfoloji əlamətlərə əsaslanaraq, ingilis dilçisi Henru Cyut (Henry Sweet 1845 – 1912) dövrləri aşağıdakı şəkildə adlandırmışdır: (Расторгуева, 1972: 4)

1. Qədim ingilis dili dövrü – tam (dolu) sonluqlu dövr (full endings); vurğusuz sonluqda hər cür sait səs dayana bilər, məsələn: sunu – oğul, drincan – içmək, duru – qanı.

2. Orta ingilis dili dövrü – zəifləmiş sonluqlu dövr (leveled endings); vurğusuz sonluqda işlənən saitlərin hamısı zəifləyərək (ə) səsinə çevrilir.(yazıda “e” hərfi ilə ifadə olunurdu) Məsələn: sune, dure, drinken.

3. Yeni ingilis dili dövrü – sonluqları itirilmiş dövr (lost endings); sonluqdakı zəif sait səs yox olur. Məsələn: son, drink, door.

Qədim ingilis, yaxud anqlo-sakson dil dövrü daxilində iki mərhələni ayırmaq lazım gəlir:

a) Yazısı olmayan dövr – V-VII əsrləri əhatə edir.

b) Yazısı olan dövr – VII-XI əsrləri əhatə edir.

Qədim dövr öyrənilərkən, adətən, yazılı mənbələrə müraciət edilir, onların əsasında həmin dövrdə onun dili öyrənilir və o haqda mühakimə yürüdülür.

V-VII əsrlər arasında mövcud olan qədim ingilis dili haqqında əlimizdə ədəbi abidənin olmaması üzündən çox az məlumat vardır. Daha doğrusu, bu dövrə aid olan yazılı abidələr bizə gəlib çatmamışdır. İngilis dilinin bizə gəlib çatan ən qədim yazılı abidəsi VII əsrin sonuna təsadüf edir. Onlar run kitabələrindən və Latın hərifləri ilə yazılmış abidələrdən ibarətdir.

Orta ingilis dili dövrü vurğusuz qrammatik sonluqların zəifləməsindən başqa tarixi bir hadisə, normanların İngiltərəni zəbt etməsi, ingilis dili lüğət tərkibinin fransız sözləri ilə zənginləşməsi, fransız dilinin təsiri nəticəsində ingilis sözlərinin orfoqrafiyasının dəyişməsi ilə xarakterizə olunur.

1. Yeni ingilis dili dövrü daxilində də 2 mərhələni fərqləndirmək lazım gəlir: (Nağıyeva, Cənizadə, Popova , Barsuk, 1971: 315).

a) Erkən yeni ingilis dili dövrü (Early New English) 1500 – 1660-cı illəri əhatə edir. Bu dövr ingilis dili tarixində “saitlərin böyük dəyişikliyi” adlı fonetik hadisə ilə səciyyələnir.

b) Yeni ingilis dili dövrü (Date New English) 1660-cı ildən indiyə kimi olan müddəti əhatə edir. Yeni ingilis dili dövrü orta dövrdən feodalizmin süqutu, mütləq Tüdorlar monarxiyasının təşkili ilə ingilis millətinin yaranması ilə fərqlənir.

Qeyd etdiyimiz kimi, V əsrin ortalarından başlayraq Britaniya adaları normanların hücumuna məruz qaldı. Artıq V əsrin sonuna yaxın Britaniyanın əksər hissəsi Qərbi German tayfaları tərəfindən tutulmuşdu. Ölkənin işğalı VI əsrin sonuna qədər davam etdi.

tayfalarından Britaniyanı zəbt etməsi məsələsinə gəlməzdən əvvəl orada kimlərin yaşadığını, əvvəlcə yerli əhalinin kimlərdən ibarət olduğunu xatırlamaq yerinə düşərdi.

Arxeoloji qazıntılar və sair nəticəsində məlum olmuşdur ki, britaniyalıların ən qədim məskunları eramızdan əvvəl 3000-ci ildən orada yaşayan iberlər olmuşdur. İberlər artıq o zaman torpağı xış və bellə becərmək üsulunu bilirdilər. Ölülərini daşla tikilmiş kollektiv qəbirlərdə basdırırdılar.

Eramızdan əvvəl 3000-ci ildə Britaniyaya qitədən başqa bir qəbilə də gəldi. Bunlar artıq mis və büründən silah qayırmağı, kasalar hazırlamağı bacarırdılar. Onlar ölünü təklikdə, öldüyü daxmacığının üstünü torpaqlamaqla basdırırdılar. Tarixçilərin göstərdiyinə görə onlar sonra iberlərlə qaynayıb – qarışıblar.

Britaniyanın sonrakı işğalı eramızdan əvvəl VII əsrdə kelt tayfaları tərəfindən oldu. Onlar brittlərdən, qallardan, belqlərdən, niktlərdən və skotlardan ibarət idilər. Kelt tayfaları içərisində britlərdən çox yüksək mədəniyyətə malik idilər. Onlar dəmirdən oraq və sair qayırmağı bacarırdılar. Boyunduruqdan istifadə edirdilər. Təpəciklərinin üstündə yaşayış yerləri tikirdilər. Uelsdə onlar qurğuşun çıxarır və onunla alver edirdilər.

Kelt tayfaları oraq və kətməndən istifadə etməyi, vedrə, qazan və s. qayırmağı da bacarırdılar. Onlar iberlərdən fərqli olaraq ölülərini yandırırdılar.

Eramızdan əvvəl 55-ci ildən başlayaraq Britaniya romalıların işğalına məruz qaldı. Həmin tarixdə məşhur Roma imperatoru Yuliy Sezarın qoşunları Britaniyanı işğal etməyə başladı.Lakin bu müdaxilə uzun sürmədiyindən keltlərin həyatına, yaşayış tərzinə təsir etmədi.

Britaniyanın romalılar tərəfindən əsil işğalı eramızın 43-cü ilindən, Roma imperatoru Klavdişin dövründən başlayır. Bu işğal bir neçə əsr davam etmişdir. Britaniya demək olar ki, Roma imperiyasının müstəmləkəsinə çevrilmişdi. Ölkənin ən mühüm torpaq hissələri romalıların əlində idi. Özlərini şimalda yaşayanların hücumundan qorumaq üçün romalılar tarixdə məşhur olan 2 sədd – Adrian və Antonin səddlərini çəkdilərBundan əlavə, onlar ölkədə tikinti işləri də apardılar. Camaatı öz itaətlərində saxlamaq üçün hərbi yollar (via strata) çəkməyə, düşərgələr (castra) salmağa, özləri üçün qəsrlər tikməyə və s. başladılar. (Аракин, 2003; Смирницкий, 1998. ISBN 5-89042-047-X.3)

Britaniya artıq romalıların həm də gəlir mənbəyinə çevrilmişdi. Onlar bu ölkədən bir taxıl mənbəyi kimi istifadə edir və hətta taxılı qitəyə də ixrc edirdilər. Yerli əhali, yən keltlər artıq Roma mədəniyyətini, adət və ənənəsini mənimsəməyə, onlar kimi özlərinə qəsrlər, villalar tikməyə başladılar.

Beləliklə, roma hökmranlığının sonuna yaxın bir Britaniyada artıq iri və zəngin şəhərlər mövcud idi. Onlardan Verulamiy – indiki York şəhərini, Londonu – indiki London şəhərini göstərmək olar.

Yerli əhalinin romalaşması prosesi tam sürətlə getdiyi bir zamanda yəni 410-cu ildə gözlənilmədən roma qanunları İtaliyadan geri çağırıldı. Beləliklə, bir neçə əsrdən sonra o, roma işğalına son qoyuldu. Lakin Britaniyanı yeni işğal gözləyirdi.

Roma qanunlarının Britaniyadan qəflətən geri çağırılmasının əsl səbəbi bu dövrdə artıq german tayfalarının Avropaya, o cümlədən süqut etməkdə olan Roma imperiyasına meydan oxuması idi.

V əsrin ortalarından, yəni qədim ingilis salnaməsində göstərildiyinə görə, 449-cu ildə Hengest və Horsa Hengest adlı 2 sərkərdənin başçılığı altında german tayfaları Britaniyanı da işğal etməyə başladılar.

German tayfalarının Britaniyaya gəlməsi əslində belə olmuşdu. Kelt tayfalarından olan qüvvətli Brit kralı öz düşmənləri Skot və Piktlərlə mübarizə aparmaq üçün qitələrdən öünə köməkçi və dost sifəti ilə bir qrup german tayfasını ölkəyə çağırmışdı. Germanlar britlərə öz düşmənlərini məğlub etməkdə kömək etdikdən sonra ora yeni döyüşçü dəstələri çağırmağa başladılar. Çünki iqtidarda yeni German dəstələri Britaniya axıb gəlməyə və ölkəni işğal etməyə başladı. İşğalçılar german tayfalarının qərb yarımqrupunun bölgüsündən idilər. Tarixçilərin qeyd etdiyinə görə, onlar germanların 3 qüvvətli tayfasından idi – saksanlardan, anqllardan və yutlardan ibarət idilər. Göstərildiyinə görə friz tayfaları da bu işğalda iştirak etdirmişdir.

Yutlanyadan Britaniyaya ilk dəfə gəlməsi güman edilən yutlar ölkənin cənub-şərq hissəsində Kent krallığı adlanan ərazidə və Yayt adasında yerləşdilər. Aşağı Almaniya ərazisindən gəlmiş saksanlar isə Temza çayının hər 2 sahili boyunca yerləşdilər. Onlar bir sıra Yesseks, İsseks, Susseks adlı kiçik krallıqlar yaratdılar. Bunların içərisində Yesseks krallığı çox qüvvətli idi. Sonuncu olaraq Elba çayının aşağı hövzəsindən (low land – düzənlik) və Cənubi Danimarkadan anqllar deyilən 3-cü bir german tayfası da Britaniyaya gəldi. Anqllar Hamber (Nitveç) çayı boyunca ondan şimala doğru olan ərazini tutdular. Onlar Nortumbriya, Mersiya, Anqliya deyilən krallıqlar yaratdılar ki, onların da içərisində ən böyüyü Nortumbriya krallığı idi. Bu 3 tayfa içərisində anqllar miqdar etibarilə çox idilər. Bəlkə elə o səbəbdəndir ki, V əsrdən sonra ölkə "England" (Engle – land) adlanmağa başladı (Аракин, 2003; Смирницкий, 1998).

İşğalçılar Britaniyanın bəzi yerlərində demək olar ki, heç bir müqavimətə rast gəlmədilər. Digər yerlərdə isə onlar yerli əhali tərəfindən çox ciddi müqavimətə rast gəldilər. German tayfaları ölkənin mərkəzi hissəsini tutaraq yerli əhaliyə divan tutur, onları qırıb məhv edir, kəndlərini və şəhərlərini yerlə-yeksan edirdi.

German işğalçıları Keltlərin bir qismini Britaniyanın qərb və şimal hissəsinə doğru sıxışdırıb çıxartdı. Beləliklə, bu vaxtdan etibarən ölkənin sahibi germanlar oldu. Onların dili, yəni german dialektləri Britaniyanın hər yerində danışılmağa başlandı. Yerli əhali olan keltlərin dili isə yalnız Uelsdə, Kornueldə və Şotlandiyada saxlanıldı, çünki yalnız həmin yerlərdə kelt tayfaları özlərinə sığınacaq tapa bilmişdilər.

Ölkə əhalisinin çox hissəsini yeni gəlmələr təşkil edirdi. Qərbi german tayfaları olan yutlar, anqllar və saksanlar qitədə olan german tayfalarından tamamilə ayrıldı. Onlar sonralar tədricən vahid bir xalqa çevrildilər.

VII-IX əsrlərin arasında olan dövr İngiltərənin tarixində yeddihakimiyyətlilik dövrü adlandırılır. Bu dövrdə yuxarıda göstərildiyi kimi Nortumbriya, Mersiya, Kent, Şərqi İngiltərə, Esseks, Susseks və Yesseks adlı krallıqlar yaradılmışdı. Bu krallıqlar arasında dəfələrlə çəkişmələr olmuş və müxtəlif dövrlərdə bunlardan biri hakim mövqe tutmuşdur. Məsələn, VII əsrdə Nortumbriya krallığı, VIII əsrin başlanğıcında Mersiya, IX əsrdə Yesseks hakim rol oynamışdır. Bu göstərilən krallıqlarda yaşayan german tayfalarının dialektlərindən yerli dialektlər yerləşdikləri ərazilərin adı ilə, yəni Nortumbriya, Mersiya, Yesseks və Kent deyə adlanmışlar. Sonralar həmin dialektlər əsasında milli ingilis dili yaranmışdır.

X əsrdən etibarən İngiltərə vahid bir krallıq halında birləşdi. İdarə etmək işini asanlaşdırmaq məqsədi ilə bütün ölkə inzibati ərazilərə - tayfalara bölünürdü ki, bunların da başında kral rəisləri – şəriflər dururdu. Bir neçə tayfaya isə aldorman başçılıq edirdi. Tədricən aldorman yarımasılı iri zədagana çevrildi ki, buna da sonra erl ləqəbi (titulu) verildi. Beləliklə, qədim qəbilə quruluşu getdikcə yeni bir ictimai quruluş, feodalizmlə əvəz olunmağa başladı ki, bu da iri feodal malikanələrinin əmələ gəlməsinə, tayfa bölgüləri əvəzinə yeni ərazi bölgülərinin yaranmasına səbəb oldu.

Anql, saks və yut adlı german tayfaları Britaniyada yerləşdikdən sonra onların dili qitədəki german dialektlərindən ayrılaraq xüsusi inkişaf yolu keçmişdir.

İngilis dilinin tarixi həmin tayfaların Britaniyaya gəldiyi dövrdən, yəni V əsrdən başlayır. Ingilis dili əvvəlcə çox məhdud sahədə işlənmişdir. Kornuel, Uels və Stratklayd ərazilərində o dövrdə hələ kelt dialektində danışırdılar. Kornueldə IX əsr, Stratklaydda XI əsr və Uelsdə XIII

əsrdən başlayaraq ingilis dili yayılmağa başlayır. Şotlandiyanın Şimal dağlıq hissəsində Britaniyanın ən qədim məskunları, yəni piktlər və skotlar yaşayırdılar.

Kelt dilləri qrupun aid olan skot dili hələ indi də Şotlandiyanın şimali-qərb hissəsində saxlanmaqdadır.

Qədim ingilis dili V əsrdən XI əsrə qədər olan bir müddəti əhatə edir. Bu dövrdə hamının başa düşəcəyi vahid, ümumxalq ingilis dili mövcud deyildi. Britaniyada yerləşmiş german tayfaları qərbi german yarımqrupuna aid olan qədim german tayfa dialektlərində danışırdılar. Bu tayfalar bir-biri ilə qan qohumluğu telləri ilə bağlı olduqlarından onların dialektləri arasındakı fərq də çox cüzi idi. Lakin zaman keçdikcə bir-birinə çox yaxın olan qohum tayfa dialektləri arasındakı fərq artmağa başladı. Qədim ingilis dili dövrü ərzində tayfa dialektləri yeni oxşar və fərqli keyfiyyətlər kəsb etdilər. Tədricən tayfa dialektləri yerli dialektlərlə əvəz olundu.

Qədim ingilis dilində əsasən aşağıdakı dialektin mövcud olduğu göstərilir: (Расторгуева, 1972: 4).

1) Nortumbriya dialekti. Bu dialektdə Hamber çayının şimal hissəsində yaşayan anqllar danışırdılar. Nortumbriya dialektinin erkən yazısı eramızın VII əsrinə təsadüf edir.

2) Mersiya dialekti. Bu dialektdə də mersiya krallığındakı anqllar danışırdılar. Mersiya krallığı Hamber çayı ilə Temza arasındakı ərazidə yerləşmişdi.

3) Kent dialekti. Bu dialekt Kent krallığındakı yut tayfalarının nitqindən yaranmışdı. Bunların da yarısı VII əsrə təsadüf edir.

4) Yesseks / Qərbi Sakson dialekti. Bu dialekt Sakson tayfalarının nitqindən törəmişdi. Bunun erkən yazısı eramızın IX əsrinə təsadüf edir.

Qədim ingilis dili dövrü məlum olduğu üzrə V əsrdən XI əsrə qədər olan bir müddəti əhatə edir. Bu dövrün özü də əslində 2 mərhələdən ibarətdir.

1. Erkən qədim ingilis dili (Early Old Eng), yaxud yazısı olmayan dövr (V-VII əsrə qədər).
2. Sonrakı qədim ingilis dili (Late Old Eng.) yaxud yazısı olan dövr (XII-XI əsrə qədər).

V-VII əsrə qədər olan müddət ərzində ingilis dilində heç bir yazılı abidəyə təsadüf edilmir. Odur ki, bu dövrdə mövcud olan qədim ingilis dilinin inkişafı çox çətindir. Qədim ingilis dilinin zəmanəmizə qədər gəlib çatan ilk yazılı abidəsi eramızın XII əsrinə təsadüf edir.

Əslində qədim ingilis dilində 2 cür yazı olmuşdur. 1. Rum yazısı. 2. Latın yazısı. German dialektlərində işlədilən runların miqdarı müxtəlifdir. İngiltərədə işlədilən runiki hərflərin miqdarı qitədə işlədilən hərflərdən çox idi. Qədim ingilis dilində 29, halbuki, qitədə 16, yaxud, 24 işarə işlədilirdi.

Rum yazıları latın hərfləri ilə yanaşı qədim ingilis dili dövrünün sonuna qədər işlənmişdir.

Roma mədəniyyətinin təsiri, xristian dilinin yayılması, latın dilinin kilsə və tədris dili hesab edilməsi və s. nəticəsində İngiltərədə latın hərflərindən geniş şəkildə istifadə olunmağa başlandı. Tədricən run yazısı latın yazısı ilə əvəz olundu. İngilis sözləri latın hərfləri ilə yazılmağa başlandı. Lakin ingilis dilinin səs sistemi latın dilindəkindən əhəmiyyətli dərəcədə fərqlənirdi. Latın hərfləri sayca az olduğundan qədim ingilis dilindəki bütün səsləri ifadə edə bilmirdi.

Qədim ingilis dilinin nəsr ədəbiyyatının əsl inkişafı demək olar ki, kral Alfredin hakimiyyəti dövründən başlayır. Dövrünün savadlı adamı hesab olunan kral alfred Vinçestrdəki sarayında öz ətrafına bir qrup alimləri toplayaraq tarix, fəlsəfə, coğrafiyaya aid əsərlər yazmağa, tərcümə etməyə başladı. Bu da öz növbəsində o dövrdə Yesseks krallığının ölkənin mədəni mərkəzinə çevrilməsinə səbəb oldu.

Kral Alfred özü latın, yunan dillərində yazılmış bir sıra əsərləri qədim ingilis dilinə tərcümə etmişdir. Lakin o təkcə tərcümə etməklə kifayətlənməmiş, özü də həmin kitablara bədii əlavələr etmişdir.

ƏDƏBİYYAT:

1. Nağıyeva N.M., Cənizadə S.S., Popova P.V., Barsuk R.Y.. English, Bakı: Maarif, 1971, 315 s.
2. Аракин В.Д. История английского языка. М.: Физматлит, 2003. Смирницкий А. И. Древнеанглийский язык. М. МГУ, Филологический факультет, 1998. ISBN 5-89042-047-X.
3. Мелвин Брэгг. Приключения английского языка . Melvyn Bragg. The Adventure of English: The Biography of a Language. М.: Альпина нон-фикшн, 2017. 418 с.
4. Расторгуева Т.А., Жданова И.Ф. History of the English language. М.: Высшая школа, 1972, 175 s.

С.Мамедова

История развития английского языка

Резюме

Статья посвящена истории развития английского языка. История английского языка анализируется в разних периодах.

Английский язык имеет корни в языках германских народов Северной Европы. Во времена Римской империи большинство германских поселений (Германия) оставалось независимыми от Рима, хотя некоторые юго-западные районы находились в составе империи. Некоторые германцы служили в римской армии. Войска германских племён, таких как тунгры, батавы и фризы, служили в Британии под римским началом. Германские поселения расширились в период Великого переселения народов с падением Западной Римской империи.

Языки, на которых говорили германские народы, изначально поселившиеся в Великобритании, входили в состав западно-германской ветви германской языковой семьи. Они состояли из диалектов ингвеонской группы языков (названо в честь большой группы германских племён ингевоны), на которых говорили северные народы современной Дании, Северо-Западной Германии и Нидерландов. Из-за некоторого сходства между старым английском и старым фризским языками эта группа получила название Англо-фризские языки.

При разделении истории английского языка ученые учли особенности языка, а также историю английского народа. По словам лингвиста Б. Илии, важно определить принцип языковой истории. Это показывает, что правильность, помимо особенностей языка, должна также учитывать связь между историей людей, которые говорят на языке, и историей языка. История английского языка полностью соответствует этому принципу.

Следует отметить, что немецкие племена, поселившиеся в Британии, создали независимые, экономически и социально независимые королевства, такие как Кент, Суссекс, Эссекс, Джесси, Мерсия, Нортумбрия, Северная Англия. Эти королевства почти не имели экономических или социальных связей друг с другом и находились в конфликте. Таким образом, древние диалекты английского языка, не могли объеденится друг с другом. Таким образом, древний английский язык был группой западногерманских диалектов.

Когда речь идет о письменных памятниках, написанных древними английскими латинскими буквами, следует отметить, что эти рукописи были написаны на разных диалектах.

Первые английские слова, написанные латинскими буквами, состояли из специальных названий и топонимов, найденных в латинских текстах.

S.Mamedova

History of english language development

Summary

The article is devoted to the history of the development of the English language. The history of the English language is analyzed in different periods.

English has its roots in the languages of the Germanic peoples of Northern Europe. During the Roman Empire, most of the German settlements (Germany) remained independent of Rome, although some southwestern districts were part of the empire. Some Germans served in the Roman army. Troops of Germanic tribes, such as the Tungras, Batavians, and Friezes, served in Britain under the Romans. German settlements expanded during the Great Migrations with the fall of the Western Roman Empire.

The languages spoken by the Germanic peoples, who originally settled in Great Britain, were part of the West Germanic branch of the Germanic language family. They consisted of dialects of the Ingwean language group (named after a large group of German tribes of the Ingevons) spoken by the northern peoples of modern Denmark, North-West Germany and the Netherlands. Due to some similarities between the old English and the old Frisian languages, this group was called the Anglo-Frisian languages.

When dividing the history of the English language, scientists took into account the features of the language, as well as the history of the English people. According to linguist B. Elijah, it is important to determine the principle of language history. This shows that correctness, in addition to the characteristics of the language, must also take into account the connection between the history of people who speak the language and the history of the language. The history of the English language is fully consistent with this principle.

It should be noted that the German tribes who settled in Britain created independent, economically and socially independent kingdoms such as Kent, Sussex, Essex, Jesse, Mercia, Northumbria, Northern England. These kingdoms had almost no economic or social ties with each other and were in conflict. Thus, the ancient dialects of the English language could not unite with each other. Thus, ancient English was a group of West Germanic dialects.

When it comes to written monuments written in ancient English Latin letters, it should be noted that these manuscripts were written in different dialects.

The first English words written in Latin letters consisted of special names and toponyms found in Latin texts.

Redaksiyaya daxil olma tarixi: 21.02.2019
Çapa qəbul olunma tarixi: 25.03.2019
Filologiya elmləri doktoru, professor Nadir Məmmədli tərəfindən çapa tövsiyə olunmuşdur

GÜNAY RƏFİBƏYLİ
Filologiya üzrə fəlsəfə doktoru, dosent
refibeyli77@bk.ru
BDU-nun dosenti
NƏRMİN AXUNDOVA
narmin@mail.ru

COLORED IDIOMS OF THE ENGLISH LANGUAGE

Summary

This article deals with colour idioms in English language. One of the most popular themes for idioms is colour. People constantly use colours to express their understandings and thoughts . Colour is used everywhere in the world to convey meaning, and symbolizes different things in different countries. For example, in the US the color of death and mourning is black whereas in China it's white. Quite often a colour symbolizes a feeling or state of mind. Other times, we simply use colour in expressions to brighten up our language and make it more interesting.

So I collected a lot of examples on colourful idioms and divided them into the groups according to their colour. I started to find out the origin and history of the idiomatic expressions because it is easier to learn and understand the idiom when you know the etimology of it. The main thing is that teaching students about the etymology of idioms can help to remember them easier and to use idioms correctly in speech. The more idioms students learn and use correctly, the more will they sound native-like, and in that way improve their language proficiency. By learning idiomatic expressions, students also become aware of cultural differences, but also similarities between countries and nations.

This article is intended to be an attempt of representing a learning material which may promote the access to the English which is a language rich in idioms. Without them English would lose variety and humor, especially in speaking.

But how to learn English idioms in easy way ? As we know English idioms are often a stumbling block for students of English. And this is not surprising! Indeed, remembering a persistent expression , the words in which are not combined with each other in meaning, is not an easy task. And there is no need to talk about the fact that at the right moment to recall such a phrase and successfully use it.

However, if you want native speakers to take your speech seriously, consider you theirs in an English-speaking environment, communicate on equal terms, you need to know the English idioms. I am quite sure that you will be satisfied and enjoy the article. I advise you to start learning these amazing idioms by easy ways which were mentioned in the paper.

Key words: history of idiom, original meaning, idioms with colour component, phrasal verbs, thesaurus, etimology, derivation of idioms

One of the most important aspects in the study of the English language is the study of English idioms. In any language there are expressions in which the individual words that make up this expression lose their original meaning. Everyone strives to express ideas and thoughts expressively and it is impossible without idioms which are present in every language of the world. They strengthen the speech and improve understanding cultural norms of the community. Using idioms can help you to establish contact with the people you are talking to and to avoid the reputation of a "very serious" person. The more you use idioms in your speech in the right context the better people think of you. It can witness your good knowledge of the language and the culture. Studying phrasal verbs enriches the speech, widens thesaurus, promotes effecti-

ve communication and generalizes knowledge about the country and its culture. This article is undoubtedly relevant as it contains idioms of the modern English language which reveal the beauty of the language. And a great significance is given to the etymology of the idioms' origin, as it is easier to learn and understand the idiom when you know the origin of it.

Knowing the derivation of idioms can help us remember words and phrases, form certain associations with them. It greatly increases the knowledge of the language and broadens thesaurus. The point is that teaching students about the etymology of idioms can help to remember them easier and to use idioms correctly in speech.

Bu tədqiqat işində Azərbaycan dilində terminoloji sistemin qurulmasında leksik vahidlərin rolu təhlil edilir. Elm və texnika ilə əlaqədar yeni kəşflər və ixtiralar meydana gəlir və bununla bağlı yeni anlayışlar yaranır. Yaranan yeni adlar dildə müəyyən dəyişikliklərə uğrayır. Dilin öz daxili imkanlarıəsasında və alınma sözlər əsasında yaranan bu terminlər tədqiqat işində özünəməxsus şəkildə təhlil olunub. Məqalədə edilən sistemləşmə təhlil və nümunələr əsasında aparılmışdır.

Elm və texnikanın inkişaf etdiyi belə bir dövrdə terminlər dilimizdə xüsusi rol oynayır. Terminlər biliklərimizin möhkəmlənməsində vasitə rolunda çıxış edir. Terminlərin rol və funksiyasına tədqiqatçıların vahid yanaşması vardır.

Azərbaycan və rus dillərində XX əsrin əvvəllərindən başlayaraq xeyli dilçilik tədqiqatları aparılıb. 1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji Qurultaydan Azərbaycan terminologiyasının elmi araşdırılması tarixinin başlanmasını qeyd etmək olar. Bu qurultay türkdilli xalqların hamısının elmi terminologiyasının yaranmasına demək olar ki,baza yaratdı. Bu qurultayın ayrıca bir bölməsi türk dillərinin terminologiya məsələlərinə həsr edilmişdir. Burada terminoloji sistemin vəziyyəti göstərilmiş, gələcək inkişaf istiqamətləri müəyyənləşdirilmişdir.

Azərbaycan dilçiliyi sahəsində terminologiyaya aid qiymətli fikirlər irəli sürən görkəmli alimlərdən biri də Bəkir Çobanzadə olmuşdur. O, bu qurultayda demişdir ki, terminlər həm elmi, həm də pedaqoji əhəmiyyətlidir.

Açar sözlər: elm və texnika, biliklərimizin möhkəmləndirilməsi, funksiya, anlayış, dilçilik

Elm və texnikanın inkişafında terminlər xüsusi rol oynayır. Terminlər biliklərimizin möhkəmlənməsində vasitə rolunda çıxış edir. Terminlərin rol və funksiyasına tətqiqatçıların vahid yanaşması vardır. Lakin termin anlayışının müəyyənləşdirilməsində fikir ayrılıqları müşahidə olunur.

V.F.Asmus termini belə izah edir; “Elmdə tətbiq olunmağa yararlı və müəyyən dəqiq anlayışın sözlə ifadəsi termin adlanır.

Rus dilçiliyində “termin”in mənası belə açıqlanır: “İncəsənət, texnika və elmin hər hansı sosial sahəsinin anlayışını dəqiq adlandıran söz və ya söz birləşməsidir”. Digər rus dili lüğətlərində də qeyd olunur ki, termin elm və texnikanın xüsusi sahəsinə aid olur.

A.M.Ovçarenkonun verdiyi tərifdə anlayışın termində ifadə spesifikası vurğulanıb. "Elmi-texniki niqin əsas leksik vahidi olan elmi-texniki terminlərin özünəməxsusluğu bir tərəfdən ifadə etdiyi elmi və texniki xüsusiyyətlərlə, digər tərəfdən isə bu anlayışların ifadəsi kimi onların fəaliyyət xüsusiyyətləri ilə şərtlənir"

A.A. Reformatski terminin mühüm xarakteristikasını bu cür verir: "Hər terminologiyanın termini bu və ya digər anlayışlarla bağlıdır" .

A.M. Qepiqorov termini belə səciyyələndirir: "Texniki termin texniki anlayışı ifadə edən söz, yaxud söz birləşməsidir."

İ.Qasımov hesab edir ki, ümumi dilçiliyin bir qolu kimi Azərbaycan dilçiliyində XX əsrin əvvəllərindən başlayaraq xeyli dilçilik tədqiqatları aparılıb. 1926-cı ildə Bakıda keçirilmiş Birinci Türkoloji Qurultaydan Azərbaycan terminologiyasının elmi araşdırmalar tarixinin başlanmasını qeyd etmək olar. Bu qurultay türkdilli xalqların hamısının elmi terminologiyasının yaranmasına baza yaratmış oldu. Bu qurultayın ayrıca bölməsi türk dillərinin terminologiya məsələlərinə həsr edilmiş, burada maraqlı və orijinal fikirlər söylənmiş, terminoloji sistemin vəziyyəti göstərilmiş, gələcək inkişaf istiqamətləri müəyyənləşdirilmiş, intensiv araşdırmalar aparılması üçün təkliflər irəli sürülmüşdür. Məruzələrdə qeyd olunurdu ki, cəmiyyətin müxtəlif sahələrinin inkişafı nəticəsində insanların təfəkküründə yeni-yeni anlayışlar yaranır ki, onların dildə ifadə olunması zəruri və labüd xarakter daşıyır. Bu anlayışları dildə ifadə etmək üçün ana dilində lazım olan söz olmadıqda onların başqa dillərdən alınması zəruriliyi meydana çıxır. (Первый Всесоюзный тюркологический съезд).

Azərbaycan dilçiliyi sahəsində terminologiyaya aid qiymətli fikirlər irəli sürən görkəmli alimlərdən biri olan Bəkir Çobanzadə bu qurultayda çıxış edərək, termini ikili xarakter daşıdığını, yəni həm elmi, həm də pedaqoji baxımdan əhəmiyyətli olduğunu göstərmiş, terminologiyanın inkişafını həm elmin ayrı-ayrı sahələrinin inkişafı, həm tədris prosesinin yaxşılaşdırılması üçün mühüm əhəmiyyət kəsb etdiyini vurğulamışdır. B.Çobanzadə yazır ki, elmi terminologiya, qeyd etdiyimiz kimi, əlifba prinsipində hər səsə uyğun ayrıca hərfin olmasını tələb etdiyi kimi, hər bir anlayış üçün də mənası dəyişilməyən və bir-biri ilə əvəz edilməyən ayrıca sözlər – terminlər tələb edir.

İnformatikada ingilis dilindəki calculator, computer, rus dilindəki vıçislitelğ sözlərinin tərcüməsi olan «hesablayıcı» termini qurğu və blokun adını ifadə edir: 1) verilmiş proqram üzrə və ya istifadəçinin əmrlərinə hesablama aparan qurğu (EHM, prosessor, kalkulyator); 2) rus dilində ifadənin qiymətini hesablayan blok [12, s. 170].

Terminləşmə prosesində mənanın köçürülməsi əlamət və keyfiyyətin ümumiliyinə görə də reallaşır. Bu cəhət də zahiri oxşarlığa əsaslanır. İnformatika terminologiyasında özünə yer tutmuş *-lıq (4)* şəkilçili bir sıra terminlərin (məsələn, *bərklik, sərtlik, yorğunluq, kövrəklik, möhkəmlik, dözümlülük, etibarlılıq, asılılıq, doğruluq, düzgünlük*) əmələ gəlməsində qeyd olunan xüsusiyyət başlıca rol oynamışdır. Bunlar xassələrə görə terminləşmə kimi qeyd oluna bilər.

R.A.Budaqov "xrupkostğ" (kövrəklik) və "ustalostğ" (yorğunluq) sözlərini təhlil edərkən yazır ki, müasir rus ədəbi dilində xrupkostğ (kövrəklik) sözü – xrupkiy (kövrək) sifətindən əmələ gəlmiş mücərrəd isimdir. Xrupkiy isə "tez sınan, davamsız, asanlıqla dağılan, hissələrə parçalanan" kimi şərh edilir. Məcazi mənada xrupkiy – "əsaslandırılmamış, həddindən artıq zərif, zəif" deməkdir (xrupkoe zdorovğe). Texniki dildə isə (informatika da texniki dilə aiddir – S.İ.) xrupkostğ – kövrəklik sözü ayrıca, xüsusi terminoloji məna kəsb edir: "kövrəklik – materialın öz şəklini plastiki surətdə, gözə çarpacaq dərəcədə dəyişmədən dağılmaq qabiliyyəti". Əlbəttə, şübhə yoxdur ki, kövrəkliyin texniki mənası müəyyən dərəcədə sözün əsas mənası ilə ("davamsızlıq") bağlıdır, lakin bununla birlikdə ondan fərqlənir (davamsızlıq, dağılma, ancaq «öz şəklini plastiki surətdə, gözə çarpacaq dərəcədə dəyişmədən». "Ustalostğ" (yorğunluq) ədəbi dildə – "yorulmaq hissi, üzvlərin işləmədən hərəkət mənada və s. zəifləməsi" deməkdir. Texniki mənada ustalostğ – çox təkrar dəyişkən gərginliyin təsiri ilə materialın tədricən dağılması» deməkdir.

Bu sonuncu halda ustalostğ sanki yorulmaq haqqındakı təsəvvürlə əlaqəni kəsir və yeni məna sırasına daxil olur [6, s. 19].

"Bərklik" sözünün informatika termininə çevrilməsi. Bu sözün ümumişlək mənası: 1) sərt şeyin halı; 2) xəsislik, cimrilik kimi göstərilir. [14, s. 120]. Terminologiyada kəsb etdiyi məna: bərk surət – EHM-dən kağıza və ya nazik plyonkaya çıxarılan informasiya [10, s. 181].

"Sərtlik" sözünün informatika termininə çevrilməsi. Bu sözün ümumişlək mənası: 1) Sərt şeyin halı, keyfiyyəti, bərklik, möhkəmlik, qayanın sərtliyi; 2) xasiyyətdə tündlük, tündməcazlıq, kəskinlik; 3) möhkəmlik, səbir, mətanət, ciddilik, sarsılmazlıq [4, s. 64].

İnformatikada yuxarıda qeyd olunan əlamət, keyfiyyət nəzərə alınaraq, diskin sərtliyinə (sərt disk – jestkiy disk), sərt maqnit diski (jestkiy maqnitnıy disk) köçürülmüşdür.

"Dözümlülük" sözünün informatika termininə çevrilməsi. İnformatikanın xassələrinə aid olan terminlərdən biri də «dözümlülük" sözüdür. Bu sözün ümumişlək mənası dözmə, tab gətirmə, davam gətirmə qabiliyyəti; cismani və mənən möhkəmlik, davamlılıq, səbirlilik, səbir, mətanət [5, s. 144].

İnformatika terminologiyasındakı mənası: sistemin xarici təsirlər şəraitində öz işləmək qabiliyyətini saxlamaq xassəsi [10, s. 57].

"Asılılıq" sözünün informatika termininə çevrilməsi. Sözün ümumişlək mənası: 1) birincisinin iradəsinə, qərarına, hökmünə bağlı olma, birinin yardımına möhtac olma; 2) bir hadisənin başqa bir hadisənin sonuc və ya səbəbi ilə olan bağlılığı [14, s. 56].

"Asılılıq" termininin informatikadakı mənası: 1) funksiya və onun arqumenti arasında əlaqə; 2) verilənlər bazasında verilənlərin assosiasiyası [10, 58].

"Dayanıqlıq» sözünün informatika termininə çevrilməsi. Sözün ümumişlək mənaları: sabitlik, davamlılıq, möhkəmlik, səbat, mətanət, dözüm [5, s. 21].

Sözün terminoloji mənası: sistemin dayanıqlıq vəziyyətdən çıxdıqda özünün ilkin vəziyyətə qayıda bilməsi qabiliyyəti [10, s. 190].

"Doğruluq", "dəqiqlik" sözlərinin informatika terminlərinə çevrilməsi. Sözlərin ümumişlək mənası: 1) düzgünlük, dəqiqilik, düzlük; sədaqət, səmimiyyət; 2) gerçəklik, səhihlik, düzgünlük, həqiqətə uyğunluq [5, 126]; dəqiqlik. Dəqiq bir şeyin halı, tam düzgünlük, mükəmməllik, həqiqətə tam uyğunluq [5, s. 56].

Hər iki söz terminləşərkən informatikada informasiyanın düzgün qavranılması xassəsini, səhvlərin olmaması ehtimalını ifadə edir [10, s. 53]. Bundan əlavə, "dəqiqlik" termini: 1) sürüşən nöqtəli ədədlərin maşında təsvir etdikdə mərtəbələrin sayını göstərən xassə; 2) verilənin ümumi və kəsr hissəsinin uzunluqlarını ifadə edən göstərici (atribut) mənalarında da istifadə edilir [10, s. 185].

Qeyd edək ki, "dərinlik", "eynilik", "kütləvilik", "müstəqillik", "nasazlıq" və "çeviklik" kimi sözlər də zahiri oxşarlığa görə insana məxsus əlamət və keyfiyyətin informatikanın xassələrinə tətbiq etməklə və s. terminləşmişdir.

Məna köçürülməsi prosesi yerinə yetirilən texniki funksiyanın ümumiliyinə görə baş verir. Azərbaycan dilinin lüğət tərkibindən əldə edilmiş "ayırıcı", "sazlandırıcı", "verici", "qoşucu", "daşıyıcı", "yığıcı", "istifadəçi", "köməkçi", "öyrədici" və s. düzəltmə sözlər texniki funksiyasına görə terminləşmişdir. Bu sözlərin informatikada məna yükü aşağıdakı kimidir:

"Ayırıcı" – verilənlər elementlərini və dil konstruksiyalarını bir-birindən ayıran işarə və ya simvol (məsələn, aralıq, nöqtə, nöqtəli vergül, vergül);

"Verici" – 1) fiziki kəmiyyəti texniki vasitələrlə emal etmək məqsədilə siqnallara çevirən qurğu. 2) təsvirin və ya elementin konkret hissəsini göstərmək üçün istifadə olunan daxiletmə qurğusu;

"Qoşucu" – dizfunksiya əməliyyatına uyğun məntiqi funksiya;

"Daşıyıcı" – informasiya daşıyıcısı;

"Yığıcı" – verilənləri yığan registr. Xarici yaddaş qurğusu;

"Sazlandırıcı" – digər proqramın işini təhlil etmək üçün təyin olunmuş proqram. Bu zaman aşağıdakılar təmin edilir: izləmə, göstərilən nöqtələrdə və ya şərtlərin ödənilməsi halında proqramın dayandırılması, yaddaş kanallarının və s. yoxlanılması və dəyişməsi [10, s. 127].

Azərbaycan dilinin lüğət tərkibindən götürülmüş bəzi sözlər (açar, verilən, yazı, söz) kommunikativ vəzifəsinə görə məna yükünü informatikada dəyişmişdir. Daha doğrusu, mənanın funksional köçürülməsi əsasında qeyd edilən terminoloji vahidlər formalaşmış və əlavə ünsiyyət mənaları qazanmışdır. Məsələn:

"Açar" – Yazını adlandırmaq və ona müraciəti tezləşdirmək üçün istifadə olunan işarələr yığımı;

"Verilənlər" – insanın iştirakının mümkünlüyünü nəzərə alaraq avtomatik vasitələrlə emal olunmaq üçün yararlı şəkildə olan informasiya;

"Yazı" – tətbiqi proqram vasitəsilə tam hesab edilən, verilənlər sahəsinin qarşılıqlı əlaqələndirilmiş qrupu; bir neçə fiziki sahənin yığımı;

"Söz" – təbii dilin leksik vahidi; işarə kimi istifadə edilən liter zənciri; törəyən qrammatikanın əsas əlifbasının simvol zənciri və s.

Qeydetmə – müəyyən maşın informasiya daşıyıcısının xüsusi informasiyaların qeyd etmək üçün hazırlanması, yəni həmin informasiyaları yazmaq üçün asintrop və ünvan cığırlarının və sahə ayırıcılarının müəyyən edilməsi.

Tədqiqat göstərir ki, ümumişlək sözlərin terminləşməsi prosesi 3 istiqamətdə özünü göstərir:

1) transterminləşmə istiqaməti;
2) reterminləşmə istiqaməti;
3) determinləşmə istiqaməti.

İnformatika üzrə transterminləşmə istiqaməti əsas sayılır. Transterminləşmə terminyaradıcı üsullardan biridir. Bu üsulla yaranan terminlər forma cəhətdən olduğu kimi qalır. Belə ki, əvvəlki dövrlərdə elmin bir sahəsində istifadə olunan termin yeni yaranmış elmin anlayış və məfhumlarını bildirməyə istiqamətləndirilir. Beləliklə, omonim termin elmin bir sıra sahələrində müxtəlif mənalarda işlənməyə başlayır. Daha doğrusu, bir termin bir çox elm sahələrinə mübadilə edilir. Buna sahələrarası omonimləşmə konversiyası hadisəsi də deyilir. İnformatikada transterminləşmə istiqamətini daha aydın dərk etmək üçün misallara müraciət edək:

"Əmsal" – (fizika-riyaziyyat) – əmsal informatikada koeffisient.

İnformatika faylın aktivlik əmsalı, faylın istifadə olunma əmsalı mənalarında işlədilir.

"İnteraktiv" – (pedaqogikada) – interiaktiv – (informatikada). Pedaqogikada yeni təlim metodlarının ümumi cəhəti interaktivlikdir. İnteraktiv termini fəal, aktiv əlaqə deməkdir. Pedaqoji üsul kimi interaktivlik müəllimin rəhbərliyi altında şagirdlərin müxtəlif informasiya mənbələri (kitab, sxem, videomaqnitofon, bədii əsərlər, nitq nümunələri və s.) üzərində «tədqiqat» apararaq, özünün müəyyən nəticəyə gəlməsi, müvafiq bilik və bacarıqlar əldə etməsinə xidmət edən üsul, yol və metodların məcmusudur.

İnformatikada «interaktiv» termini sistem və ya rejim üçün operator tərəfindən daxil edilən əmrlərə cavab verilməsinin xarakterik olmasını göstərən xassə. Bu zaman cavab reaksiyası çox tez yaranır, belə ki, EHM operatoru praktiki olaraq fasiləsiz işləyir [10, s. 72].

"Qovşaq" – (rabitə və radioelektronikada) – "qovşaq" informatikada – qurğunun hissəsi; rabitədə radioqovşağı.

"Abonent" – (rabitədə) – abonent – informatikada hesablama sisteminin xidmətlərindən istifadə edən şəxs, şəxslər qrupu və ya təşkilat.

"Avtomat" – (hərbidə) – avtomat – informatikada insanın bilavasitə iştirakı olmadan məqsədyönlü əməliyyatlar aparan qurğu.

"Aqreqat" – (texnikada) – aqreqat – informatikada informasiya obyektlərinin vahid tipi kimi təyin olunmuş strukturlaşdırılmış toplusu.

"Akkumulyator" – (texnikada) – akkumulyator – informatikada yığıcı registr.

"Arbitraj" – (hüquqda-latın mənşəli "arbitr" sözü olub, vasitəçi, münsiflər hakimi mənasında – [8, s. 16].

"Arbitr" – informatikada bir neçə proqramın (sistemin, qurğunun) müştərək istifadə edilən resursa eyni vaxtda müraciət zamanı yaranan mübahisəli halı həll edən proqram. "Arbitraj" termini isə mini və mikro EHM-də mültiprosessorun ümumi işinə müraciətin idarə olunması mənasındadır [10, s. 21].

"Arqument" – termini latın mənşəli «arqumentum» sözündən olub, "məntiqi dəlil», "sübut» anlamındadır. İnformatikada bu termindən 3 mənada istifadə olunur: 1) müstəqil dəyişən; 2) müstəqil dəyişənin qiyməti; 3) proseduranın həqiqi parametri [10, s. 21].

"Arxiv" – (hüquqda) – arxiv xarici yaddaşda saxlanan və nisbətən az istifadə olunan verilənlər və ya proqramlar toplusu [10, s. 22].

"Versiya" – (ədəbiyyatşünaslıqda – rəvayət, variant) – informatikada – 1) proqram məhsulunun variantı; 2) faylın dəyişməsindən yaranan fayl.

"Virus" – (tibbdə) – virus – informatikada kompüter virusu.

"Generator" – (texnikada) – generator – informatikada: 1) giriş dili problemyönlü dil olan translyator tipi; 2) translyatorun maşın əmrlərinin generasiya edən tərkib hissəsi.

"Qraf" alman sözüdür – (hüquqda – qraf-zadəgan rütbəsi) – informatikada «bir-biri ilə tellər vasitəsilə birləşən sonlu təpələr çoxluğu».

"Dialoq" – (dilçilikdə - iki nəfərin söhbəti; dialoji nitq) informatikada insanla EHM arasında sual-cavab formasında aparılan ikitərəfli informasiya mübadiləsi.

"Diaqnostika" – (tibbdə – tibbi mərkəz) – informatikada – obyektin halının nəzarəti, yoxlanılmasının məqsədi, nasazlıqların aşkar edilməsi və bu nasazlıqların baş verməsinə səbəb olan elementlərin tapılmasıdır.

"Domen" – (hüquqda – lat.terra, dominica – ağa torpağı [8, s. 61] informatikada verilənlərin realyasiya modelində nisbətin bir və ya bir neçə atributun qiymətini təyin edən sahə.

"İnversiya" – (dilçilikdə – sintaktik hadisə, cümlə üzvlərinin yerini dəyişməsi), informatikada - inkaretmə.

Qeyd etmək lazımdır ki, transterminləşmə üsulu ilə informatika terminlərinin yaranma şəbəkəsi çox genişdir. Yuxarıdakı çoxsaylı misalların təhlili də göstərir ki, transterminləşmə üsulu ilə əmələ gələn sözü gedən elmlərin terminoloji vahidlərinin konversiyasının – mübadiləsinin əsas prinsipi müəyyən xüsusiyyətə görə oxşarlıq təşkil edir. Burada texniki, zahiri və funksional oxşarlıqlar aparıcı yer tutur.

Dilimizdə informatika termin və birləşmələri aşağıdakı üsulların köməyi ilə yaranır:

1. Semantik üsul;
2. Morfoloji üsul;
3. Sintaktik üsul;
4. Kalka üsulu;
5. Abreviaturlar.

Ədəbiyyat

1. Abdullayev S. Müasir alman və Azərbaycan dillərində inkarlıq kateqoriyası. Bakı: Maarif, 1998.
2. Azərbaycan dialektoloji lüğəti. I cild. A-L, 1999.
3. Azərbaycan dialektoloji lüğəti. Bakı, 1964.
4. Azərbaycan dialektoloji lüğəti. IV cild. Bakı, 1987.
5. Azərbaycan dialektoloji lüğəti. II cild. Bakı, 1980.
6. Budaqov R.A. Dilçiliyə dair oçerklər. Bakı, 1956.
7. Dəmirçizadə Ə.M. Azərbaycan dilinin üslubiyyatı. Bakı: Azərnəşr, 1962.
8. Hüquq terminləri lüğəti. Bakı: Elm, 1961.

9. İsmayılova M. Azərbaycan dili terminologiyasının linqvistik təhlili. Bakı: Ozon, 1997.
10. Kərimov S.Q. və b. İnformatika üzrə rusca-ingiliscə-azərbaycanca izahlı lüğət. Bakı, 1993.
11. Kərimov S.Q., Babanlı Ə.Y., Məmmədxanov R.Q., Vəliyev N.N., İbrahimova S.H. İnformatika üzrə rusca-ingiliscə-azərbaycanca-türkcə izahlı lüğət. II cild, R-Ə, Bakı, 1996.
12. Rüstəmov Ə.M., Hüseynov E.M. İnformatika, Azərbaycan, rus, ingilis dillərində. İzahlı terminlər lüğəti. Bakı: Bakı Universiteti nəşriyyatı, 1996.
13. Sadıqova S. Azərbaycan dili terminologiyasının nəzəri problemləri. Bakı: Elm, 2002.
14. Seyfettin Altaylı. Azerbaycan türkçesi sözlüyü. İstanbul, I, 1994.
15. Xudiyev N. Azərbaycan ədəbi dilinin sovet dövrü. Bakı, "Maarif", 1989.
16. İ.Qasımov. Azərbaycan terminologiyasının əsasları, Bakı, 2011.

Rus dilində

1. Даняров Р. Формирование и развитие технической терминологии узбекского языка. АКД, Баку, 1982.
2. Asmus В.Ф. Логика – М.Госполитиздат, 1947.
3. Овчеренко В.М. Формально-семантическая структура английских научно-технических терминов. Автор, дис. … канд. филол. наук. М., 1983. – С. 18.
4. Реформатский А.А. Что такое термин и терминология // Вопросы терминологии. – М. Изд-во АН СССР, 1961.
5. Терпигорев А.М. Об упорядочении технической терминологии. Вопросы языкознания. – М., 1953, - с. 71-76. - № 1.
6. Чобанзаде Б. О системе научной терминологии – Стенографический Отчет Первого всесоюзного Тюркологического съезда. Баку, 1926.

З.Авилова
З.Маммадова

Определение терминологии и способы создания терминов на азербайджанском языке

Резюме

В исследовательской работе была решена роль лексической единицы настроении терминологической системы на Азербайджанском языке. В связи с развитием науки и техники выявляются новые открытия и изобретения, которые образуют новые понятия. Сформированные новые названия приводят к некоторым изменениям в языках. Термины, образованные на основе в заимствованных слов, анализируются в исследовательской работе.

Систематизация в статье проделана на основе анализов и примерах.

В развитии науки и техники термины играют важную роль. Они выступают в роли посредника и укреплении наших знаний. В исследовании роли и функции терминов у исследователей единая форма отношений. Но для определения терминов выявляются отдельные мысли.

В 1926 году в Баку быль проведён 1 съезд тюркологов и с этих времён можно считать началом тюркологических расследований. Этот съезд открыл базу научного открытия тюркологии для тюрко-язычных народов. На этом съезде была создана отдельная секция, посвящённая тюрко-язычной терминологии. В области азербайджанского языкознания были ценные высказывания о терминологии. Б.Чобанзаде выступная на этом съезде указал, что термины носят двойной характер: научный и с педагогической точки зрения имеют большое значение в деятельности.

Ключевые слова: наука и техника, расширяющие наши знания, функции, понимание, языкознание

Z.Avilova
Z.Mammadova

Definition of terminology and ways of creation of termines
in Azerbaijani language

Symmary

In this article analyses the role of lexical units in the formation of terminological system of Azerbaijan linguistics. According to the science and technical development so many words are appeared. These new conceptions bring a lot of new names and words to our native language. It made new differences in the language. According to the internal possibilities of language there new terms are used in the research works. Systematization in this article is carried according to the analysis and samples. There terms play an important role in the consolidation of our knowledge. Researches have their awn approach to the terms and their functions.

They have some differences of opionions in the terminological conceptions. In the linguists of Azerbaijan and Russian languages in the beginning of XX century considerable linguistic researches were carried.

The first turkological congress which was held in Baku in 1926 was about the history of linguistical and scientific investigations of Azerbaijan terminology. It was about turkological terminology and was analyzed in the congress. In this congress systematization of terms were determined. Bekir Chobonzade was one famous scientists who told his valuable thoughts about Azerbaijan linguistic. He told about the pedagogical and scientific sides of the terminology at the congress. Bekir Chobanzade indicated the development of terminology would improve the training process its significance.

Key words: science and technology, enhancing our knowledge, function, understanding, linguistics

Redaksiyaya daxil olma tarixi: 21.02.2019
Çapa qəbul olunma tarixi: 15.08.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Məfkurə Hüseynova tərəfindən çapa tövsiyə olunmuşdur

MƏFKURƏ HÜSEYNOVA
ATU-nun dosenti
huseynova.10@mail.ru
S.Vurğun, 167

ZƏNGİLAN - QUBADLI ŞİVƏLƏRİNİN LEKSİK XÜSUSİYYƏTLƏRİ

Xülasə

Zəngilan rayonu Kiçik Qafqazın cənub, Qubadlı rayonu isə Kiçik Qafqazın cənub-şərqində yerləşir. Hər iki rayon 1930-cu ildə təşkil olunmuşdur. 1931-ci ildə Qubadlı 18 kənd sovetliyi ilə Zəngilana birləşdirilsə də, sonradan ayrılmışdır. Hər iki rayonun ərazisi dağlıq və düzənliklərdən ibarətdir. Bu da əhalinin məşğuliyyətində böyük rol oynayır.

1993-cü ilin avqustun 31-i Qubadlı, oktyabrın 29-u Zəngilan erməni təcavüzü nəticəsində işğal olunmuşdur. Öz əzəli torpaqlarından didərgin düşən əhali müxtəlif bölgələrimizdə məskunlaşmışdır. Buna görə də şivə daşıyıcılarını toplamaq, əlaqə yaratmaq, dil faktlarını yazıya almaq o qədər də asan deyildir. Lakin çətinliklərə baxmayaraq, işğal altında olan bölgələrimizin əhalisindən dialekt faktlarını toplamaq, yazıya almaq olduqca vacibdir. Bu bölgələrin şivələrinin öyrənilməsinə ciddi ehtiyac vardır.

Zəngilan – Qubadlı şivələrinin lüğət tərkibi özünəməxsus şivə sözləri ilə zəngindir. Şivə sözləri bölgəyə məxsus folklor örnəklərində diqqəti tez çəkir.

Məqalədə şivəyə məxsus olan sözlər tədqiqata cəlb edilir. Buradakı termin səciyyəli sözlər, arxaizmlər, mərasim sözləri qruplaşdırılır. “Dədə Qorqud” dastanında işlənmiş sözlər xüsusi qeyd olunur. Bu sözlərdən bir neçəsi - “bağır”, “al”, “iraq”, “aş” kimi arxaizmlər araşdırmaya cəlb edilmişdir. Həmçinin ədəbi dillə eyniyyət təşkil edən sözlər də vurğulanır ki, belə sözlərin şivələrdə necə işlənməsi aydın olsun.

Bu araşdırma Azərbaycan dilinin lüğət tərkibini izləmək baxımından əlverişli olacaqdır.

Açar sözlər: şivə, lüğət, arxaizm, folklor örnəkləri, bayatı, dil tarixi.

Dilimizin tarixini, etnoqrafiyamızı, xalqımızın həyat tərzini, adət və ənənələrini, məişətini və s. öyrənmək üçün dialekt və şivələrimizdə bu günədək öz izlərini saxlayan və uzaq keçmişimizdən xəbər verən söz və ifadələrin tədqiqata cəlb edilməsi olduqca əhəmiyyətlidir. Xüsusilə də bu gün işğal altında olan torpaqlarımızın Azərbaycanın müxtəlif bölgələrində məskunlaşan əhalisindən yerli şivəyə məxsus sözlər toplanaraq tədqiqata cəlb edilməlidir. Qeyd edək ki, Sefi Behbudov Zəngilan şivələrinin araşdırılması istiqamətində, Roza Abbasova Qubadlı şivələrinin öyrənilməsi işlərində xeyli araşdırma aparmışlar. Bu istiqamətdə işlər görülmüş və görülməkdə davam edir. Yeri gəlmişkən qeyd edək ki, akademik Tofiq Hacıyevin 1962-ci ildə müdafiə etdiyi "Azərbaycan dilinin Cəbrayıl şivəsi" əsərinin çap edilməsi, işıq üzü görməsi (Seçilmiş əsərləri. III cild, Bakı, 2018, 412 s.) də olduqca əhəmiyyətli və təqdirəlayiqdir. Biz də məqaləni hazırlayarkən erməni işğalına məruz qalmış Zəngilan-Qubadlı bölgəsinin lügət tərkibinin araşdırılmasını nəzərə aldıq və tədqiqatda bölgədən toplanmış bayatı mətnlərindən istifadə etmişik. Bu da təsadüfi deyildir. Bayatılarımız, M.Həkimovun yazdığı kimi, "Azərbaycan və həmçinin türk xalqlarının məskən saldığı ərazidə qanlı-qadalı güzəran keçirən, yadelli işğalçılara qənim kəsilən, dosta yaxşı münasibət bəsləyən, acılı-şirinli ömür sürən babaların adət-ənənəsini, psixologiyasını əsrlərlə nəsillərdən-nəsillərə yaşadan tarixi salnamə kimi əvəzsiz qiymətə malik təsdiqlərlə zəngindir" (2, 10). Odur ki, bayatı mətnlərindən bölgəyə məxsus olan dialekt sözlərinin işləndiyi mətnləri seçərək diqqətə çatdırırıq:

Dağlar, səni *əndərim,*
Səni *bəri* döndərim.
Sənə müşkül işim düşüf,

Dalınca kimi göndərim? (5, IV, 335)

Qəbrimi üjə qoyun,
Götürün üjə qoyun.
Anamın yolu düşər,
Üsdünnən *baja* qoyun (5, IV, 335).

Gedən boz atdı, getmə,
Yolun uzaxdı, getmə,
Anayın bu göz yaşdarı,
Sənə *duzax*dı, getmə (5, IV, 334).

Tədqiqata cəlb edilmiş Zəngilan və Qubadlı bölgəsinin erməni tapdağı altında olması səbəbindəndir ki, yazıya alınmış bayatıların əksəriyyəti bu faciənin əks olunduğu ifadələrlə doludur. Yurd-yuvasından didərgin salınmış insanlar qəlblərdəki ağrı acını, niskili bayatılara köçürərək bəyan etmişlər.
Mən aşıx yuvasızlar,
Quş yoxsa, yuva sızlar.
Elinnən ayrı düşən,
Qaşqınnar, yuvasızlar (5, IV, 352).

Əziziyəm, əsirdi,
Küləh çox sərt əsirdi.
Kimə dərdimi deyim?
*Zəngilan*ım əsirdi (5, VI, 342).

Qaçqın, köçkün həyatı yaşayan insanlarımız yerinin, yurdunun adını bayatılarda çağırmaqla təskinlik tapmağa çalışır. Bu gün erməni işğalında olan yer-yurd adlarımızın baytılarda qalması da tutarlı faktdır və yazıya alınaraq gələcək nəsillərə ötürülməlidir.
*Qarabağ*da ilan olmaz,
Gizlin dərdi bilən olmaz.
Mən ağlaram gizlin-gizlin
Göz yaşımı silən olmaz (5, IV, 335).
*Əsgəran*a bağ sallam,
Bosdan əkif bağ sallam.
Ya öldürrəm özümü,
Ya gözümə tağ sallam (5, IV, 343).
Mən aşıq, *Kür*dən gələ,
At minib *Kür*dən gələ.
İmran dilli aşiqi,
Salıbdı kürd əngələ (5, IV, 351).
Qaragöl buz bağlar,
Qıraxları *yarpuz* bağlar.
Qardaşsız bajıların
Cinazasın qız bağlar (5, IV, 352).

Qeyd edək ki, bölgəyə məxsus olan bayatı mətnləri termin səciyyəli sözlərlə zəngindir. Burada heyvan və bitki adlarının qruplaşdırılmasına, adət-ənənələrlə bağlı işlənmiş sözlərə, məişət leksikasının tərkibinə daxil olan sözlərin yer aldığı mətnlərə üstünlük vermişik. Bütün bu mətnlər bölgədə insanların məşğuliyyəti, məişəti, adət-ənənələri haqqında təsəvvür yaradır.

Bitki adları. Bölgənin özünəməxsus bitki örtüyü vardır. Bu, mətnlərdə də öz əksini tapmışdır:

Mən aşığam, dağda qan,
Dağda bitər *dağdağan*.
Pirim balasın vuruf
Göl-göl oluf dağda qan (5, IV, 333).
Dağlar başı *qarağat*,
Apar meylim, yara qat.
Gedin düşmana deyin,
Day otursun farağat (5, IV, 334).
Bağda *üzüm* ağajı,
Üzüm-gözüm ağajı.
Bağa baltalı gəldi,
Kəsdi bizim ağajı(5, IV, 335).
Dağlar, mana tut göndər,
*Gila*s göndər, *tut* göndər.
Bir tərlan qaşırmışam,
Onu mana tut göndər (5, IV, 336).
Çağalat çiçəhlədi,
Çiçəyi qöçəhlədi.
Yatdığın yalan oldu,
Ölümün gerçəhlədi (5, IV, 340
Savalan buz bağladı,
Yanı *yarpız* bağladı.
Qapıya qonax gəldi,
Atını qız bağladı (5, IV, 341).

Heyvandarlıq terminləri. Bölgədə işlənən heyvan adlarının əksəriyyəti ədəbi dillə eyniyyət təşkil edir.

Çobanam, *qoyun*a mən,
Düşmüşəm oyuna mən.
Qumralı qoş bəzədim,
Baxmadım boyuna mən (5, IV, 333).
*Kəhər at*ın cığası,
Qırıldı qancığası.
Milləti gör kim qırdı
Bir erməni dığası (5, IV, 336).
Öküz-öküz, xan *öküz*,
Boynu qızıl qan öküz.
*İnəhl*ər dağda yaylar
Sən aranda yan, *öküz* (5, IV, 337).
Şərə, yalana lənət,
Talan salana lənət.
Yəhər verib *ula*ğa,
Tamax salana lənət (5, IV, 350).
*Kəkliy*im səkdi getdi,
Mana dərd əkdi getdi.
Odunu, yalovunu
Üsdümə tökdü getdi (5, IV, 342).

Məişət sözləri. Məişət leksikasına xalqımızın gündəlik işlətdiyi sözlər daxildir. Bu qrupda da ev avadanlıqlarının adları, geyim adları, yemək, çörək növləri ilə bağlı sözlər maraq doğurur:

Buxarı qurum oldu,
Od yandı, qurum oldu.
Yetim üzünə baxmaxdan,
Mənə hay zülüm oldu (5, IV, 333).
Dağlarda *sənəy* olmaz,
Əkərsən, yeməy olmaz.
Çoxludu sənin dərdin,
Heş yerdə deməy olmaz (5, IV, 339).

Yapıncın bürüneydim,
Dalıncan sürüneydim,
Sən orda can verəndə
Gözünə görüneydim (5, IV, 341).
Gül əkdim baxçalarda,
Qurutdum *taxça*larda.
Sən çürü qara yerdə
Paltarın *boxça*larda (5, IV, 341).
Paltarı *boxça* saxlar,
Gülü tavaxça saxlar.
Qoy getsin ata yanına,
O bizdən yaxşı saxlar (5, IV, 341)
Sən mənim al *yorğanım*,
Üsdü xal-xal yorğanım.
Gəldi əcəl fərmanı,
Üsdümnən al yorğanım (5, IV, 341).
Dolça dərdi, su dərdi,
Dolça çəkər su dərdi.
Öleydi sənin anan,
Çəkmiyeydi bu dərdi (5, IV, 344).
Arxalıx aldırmışam,
Yan-yaxa saldırmışam.
Çoxlu dərtdər çəhmişəm,
Ürəyim aldırmışam (5, IV, 341).
*Təndir*i sən oddadın,
Sən qoydun, sən oddadın.
Sinəmdə sağ yerim yox,
Qalmışın sən oddadın (5, IV, 342).
Əppəyimiz, aşımız,
Qana dönüf yaşımız.
Hərəmiz bir olkədə,
Dağınıxdı başımız (5, IV, 339).

Arxaizmlər. Nümunələrə əsasən deyək ki, leksikanın bu qatını təşkil edən sözlərə daha çox yaşlıların nitqində rast gəlinir.

Bölgədə rast gəlinən bir sıra arxaizmlər var ki, onlar bu gün ədəbi dildə işlənmir, lakin Qubadlı-Zəngilan şivələrində işləkliyini saxlamaqdadır: Məsələn, Aşığın ağzı quzu küzüdü: kərə də çıxar kürə də (5, IV, 330). Mətn-cümlədə işlənmiş küz sözü bugünkü ədəbi dil üçün işlək-

liyini demək olar ki, itirmişdir. Şivələrdə isə müşahidə edilir. Bəlli olduğu kimi, arxaizmlər ədəbi dilin bugünkü vəziyyətində fəallığını itirsə də, şivələrdə işlədilən söz və ifadələrdir. Bu cəhətdən şivələrin lügət tərkibi ədəbi dilin lüğət tərkibindən fərqlənir. Belə ki, şivələrimiz arxaik sözləri ədəbi dilə nisbətən uzun müddət mühafizə edib saxlayır.

Qubadlı-Zəngilan şivələrində izlərini saxlayan bir sıra arxaizmlərə nəzər salaq:

Dağlar başı tütündü,
Kimin *bağrı* bütündü.
Gəleydin görüşeydıx,
Dünya ölüm-itimdi (5, IV, 334).
Bağda gəzər maralı,
Bağrım əzər maralı.
Tutuf sağlamağ olmaz,
Belə təzən maralı (5, IV, 336).
Mələ, qoyunum, mələ,
Səsin *bağrımı* dələ.
Mən mələdim, gəlmədin,
Sən mələ, bəlkə gələ (5, IV, 338).

Bağır. "Dədə Qorqud" dastanında bağrı yanmaq ifadəsinə rast gəlirik: Yandı bağrım, göynədi içim; Yalnuzca oğul görünməz, bağrım yanar. Ədəbi dildə *bağrına basmaq* ifadəsinin tərkibində bağır sözü işlənir. Bir sıra şivələrdə *bağrı çatdamax, bağrı yarılmax, bağrı qan olmax* ifadələri də işlənir.

Lələyəm, deyənim yox,
Al-yaşıl geyənim yoxdur.
Yüz il gedəm, gəlmiyəm,
Heş gəlmir deyənim yox(5, IV, 339).

Al. Qubadlı-Zəngilan şivələrində "al-dilə tutmax" ifadəsi işlənir. Aydın görünür ki, bu, hiylə mənasını ifadə edir. "Dədə Qorqud" dastanında da "Namərd tayın al eyləmiş" mətn-cümləsində qeyd etdiyimiz mənanı daşıyır. Güz almasına bənzər al yanaqlım - cümləsində qırmızı anlamındadır. Şivələrdə "Al almaya daş atan çox olar" ifadəsindəki al isə yenə də qırmızı rəngi bildirir.

Sağ olun, *irağ* olun,
Göl yerdə bulağ olun.
Yığılın bir- birinizin başına,
Bir birizdən göz-qulağ olun (5, IV, 339).

İrağ. Gözdən uzax, könüldən irax. Nəinki Qubadlı-Zəngilan, bir sıra şivələrimizdə uzaq anlamında bu söz müşahidə olunur. "Dədə Qorqud" dastanında irağ və ırağ fonetik variantında işlənmişdir: Bərə çoban, irağından, yaqınından bərü gəlgil; Gög ıraq, yer qatı.

Könlüm bir əpbəy isdər,
Aş isdər, *əpbəy* isdər.
Qol məndən, gərdan səndən,
Üzündən öpmək isdər (5, IV, 347).

Aş. Göründüyü kimi, burada aş xörək, bişmiş mənasını ifadə edir. "Dədə Qorqud" dastanında da eynilə işlənmişdir: Ayğur atım boğazlayıb aşum versün! Ə.Tanrıverdi qeyd edir ki, "aş" sözü Qərb ləhcəsində müstəqil şəkildə yox, mürəkkəb söz daxilində (aş-daş) hər cür xörək mənasında işlənir. Məsələn, arvat, aşdan-daşdan nəyin var, gət yə:x. Deməli, müasir ədəbi dilimizdə semantik daralma ilə işlənən "aş" sözü dialekt və şivələrimizdə ilkin semantikasını saxlamaqdadır (7, 76-77). Çörək növlərinin doyumluluğu ilə bağlı Qarabağ bölgəsində belə bir deyim də işlənir: Havaya bulut gəlifdi, vay sarının halına, Təhnədən əppəh qurtarıf, vay qaranın halına (3, 300). Bu sözə eyni mənada Nəsimi şeirlərində də təsadüf edilir:

Kimün ki, oldu nəsibi əzəldə həqdən eşq,

Ana nə şərbətü məcun gərək, nə əppəgü aş (6, 87).

Adət- ənənələrlə bağlı sözlər. Bölgədə işlənən dialekt faktları göstərir ki, adət-ənənələrlə bağlı sözlər işləkliyini qoruyub saxlayır. Toy və yas mərasimi ilə bağlı sözlər də bu qəbildəndir:

Gəl gedək bizim yerə,
Saflağı üzüm yerə.
Saralıbdı *kəfən*im,
Düşübdü üzüm yerə (5, IV, 346).
Çoban qoyuna gedər,
Baxar boyuna gedər.
Çobanın ağ toxlusu,
*Nişan toyu*na gedər (5, IV, 348).

Nəticə olaraq deyə bilərik ki, Zəngilan və Qubadlı şivələrində bir sıra türk dillərində işlənən, eləcə də ədəbi dilimizdə və müxtəlif şivələrdə işlənən bir sıra termin səciyyəli sözlər vardır ki, bunlar da dil tarixinin araşdırılmasında əhəmiyyət daşıyacaqdır. Bu sözlərin tədqiqata cəlb edilməsində folklor mətnləri böyük rola malikdir. Nəzərə alsaq ki, yaşlı insanların dünyasını dəyişməsilə şivə faktlarının toplanması işi çətinləşə bilər, buna görə də belə işlərin vaxtında aparılması vacibdir.

QAYNAQLAR

1. Abbasova R. Azərbaycan dilinin Qubadlı şivələri. Bakı, "Çinar-çap", 2006, 204 s.
2. Həkimov M. Azərbaycan aşıq şeir şəkilləri və qaynaqları. Bakı, Maarif, 1999, 376s.
3. Həsənova N. Qarabağ folklor mətnlərində termin səciyyəli sözlər. Qarabağ folkloru: problemlər, perspektivlər mövzusunda II Respublika Elmi konfransının materialları. Bakı, 2013, 372 s.
4. Kitabi-Dədə Qorqud. Bakı, 1988.
5. Qarabağ: folklor da bir tarixdir. IV kitab, Bakı, "Elm və təhsil", 2013, 458 s.; VI kitab, Bakı, "Elm və təhsil", 2014.
6. Qəhrəmanov C. Nəsimi "Divan"ının leksikası. Bakı, Elm, 1970, 568 s.
7. Tanrıverdi Ə. "Kitabi-Dədə Qorqud" və Qərb ləhcəsi. Bakı, 2002, 171s.

M.Hyuseynova

The features of gubadli - zangilan accents'

Summary

Zangilan region is located to the south of the Lesser Caucasus and Gubadli to the south-east of the Lesser Caucasus. Both regions were established in 1930. Gubadli with 18 villages were united with Zangilan, but later separated. The territory of both regions consists of mountains and plains. This also plays an important role in the employment of the population.

On august 31, 1993 Gubadli, and on October 29 Zangilan was occupied as a result of the Armenian aggression. Displaced populations from their hometowns have settled in our different regions. Therefore, it is not so easy to collect accents, to communicate, to write language facts. However, despite the difficulties, it is important to collect and write dialectical facts from the population of our occupied areas. There is a serious need to study the accents of these regions.

The composition of the dictionary of Gubadli-Zangilan accents' are rich in specific words.The words of the accent quickly draw attention to the folklore patterns of the region.

In the article the words belong to the accent are involved in the research. The terminology here is grouped into words, archaisms, and ceremonial expressions.

The words written in the epic "Dede Gorgud" are especially emphasized. Literary language words are also emphasized how well these words can be crafted in the poem. A few of these archaic words such as bağır (lung), al (red), iraq (far), aş (meal) are investigated.

This research will be useful for watching the dictionary of the Azerbaijani language.

Key words: accent, dictionary, archaism, folklore samples, bayats, language history.

М.Гусейнова

Особенности зангилан-губадлинского диалекта

Резюме

Зангиланский район расположен на юге малого Кавказа, а Губадлинский - на юго-востоке малого Кавказа. Оба района были созданы в 1930 году. В 1931 году Губадлинский район с 18 деревнями был объединен с Зангиланом, но позже отделился.Территория обоих регионов состоит из гор и равнин. Это также играет важную роль в занятости населения.

31 августа 1993 года Губадли, а 29 октябрярезультате армянской агрессии был оккупирован Зангилан. Люди вынуждены покинуть свои родные земли и поселились в разных регионах. Поэтому нелегко находить акцент в ресурсах, общаться, писать языковые фактыэто не так просто. Однако, несмотря на трудности, важно собирать и писать диалектические факты от населения наших оккупированных областей. Существует серьезная необходимость в изучении артефактов этих регионов.

Зангилан-Губадлинские словарь богат своеобразеными акцентными словами. Слова учебной программы быстро привлекают внимание к фольклорным образцам региона.

Диалектные слова включенные в статю привлечены в иследоваие. Терминология здесь сгруппирована в слова, архаизмы, церемониальные выражения. Эпопея "Дада Горгуд" особенно подчеркивается. В обьяснении ряда вопросов обращаются к древней письменности и диалектическим материалам. К иследованию привлекаются фольклорные тексты, собранные в области.

Ряд слов, которые считаются архаическими для литературного языка, встречаются в диалектах. Особенно эти слова встречаются в образцах народного творчества и в речи взрослого поколения. Здесь иследуется лексический характер диалекта Зангилан-Губадлинского района.

Отмеченные слова анализируются в сравнении с другими диалектами.

Ключевые слова: акцент, словарь, архаизм, образцы фольклора, баяты, языковая история, сравнение.

Redaksiyaya daxil olma tarixi: 21.02.2019
Çapa qəbul olunma tarixi: 25.03.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Zərifə Məmmədova tərəfindən çapa tövsiyə olunmuşdur

BİLAL HÜSEYNOV,
ADPU Cəlilabad Filialının müəllimi,
filologiya üzrə fəlsəfə doktoru,
e-mail: **bilalalarli58@mail.ru**

LƏTİFƏNİN JANRDAXİLİ DƏYİŞMƏLƏRİ

XÜLASƏ

Məqalədə lətifənin janrdaxili dəyişmələri ilk dəfə elmi ardıcıllıqla araşdırılır. Azərbaycan folklorunda lətifələr çoxçalarlıdır və müxtəlif bölgələrdə müxtəlif adlar daşıyır. Adətən, lətifələrin söyləyicilərə, bölgələrə və ölkələrə görə təyinatı aparılır, janr xüsusiyyətləri öyrənilir. Bu prinsip əsasında lətifələr aşağıdakı şəkildə qruplaşdırılır:

Yayıldığı areala görə: a) beynəlmiləl əhəmiyyətli lətifələr; b) lokal lətifələr, yaxud ümumxalq lətifələri; c) bölgə lətifələri, yaxud regional lətifələr.

Müəllifli olub-olmamasına görə: a) müəllifi olan lətifələr; b) müəllifi olmayan lətifələr.

İfadə formasına görə: a) epik formada olan lətifələr; b) lirik formada olan lətifələr

Lətifələrin janrdaxili dəyişmələri aşağıdakı şəkildə qruplaşdırılır:

-bəzəmə və boyama;
-gülməcə, şəbədə və lağlağı;
-zarafat, dodaqqaçdı, yaxud məzəli əhvalat;
-atmaca, bədyə və öcəşmə;
-qaravəlli və təkərləmə;
-cırnatma;
-məzhəkə;
-yumor və sair.

Məsələn, Borçalıda şəbədə, Qarabağ bölgəsində bəzəmə və boyama, Muğan bölgəsində dodaqqaçdı və atmaca, Naxçıvanda bədyə və öcəşmə geniş yayılmışdır.

Lətifələr məzmununa görə də növlərə bölünür. Buraya daxildir: a) ayrı-ayrı şəxslər haqqında lətifələr; b) ayrı-ayrı bölgələr haqqında lətifələr; c) etnik mənşəli lətifələr; ç) tarixi olaylarla bağlı lətifələr; d) peşə lətifələri.

Açar sözlər: Azərbaycan folkloru, lətifə janrı, lətifənin janrdaxili dəyişmələri.

Məsələnin qoyuluşu: Lətifənin janrdaxili dəyişmələrinin elmi ardıcıllıqla araşdırılması, lətifələrin söyləyicilərə, bölgələrə və ölkələrə görə təyinatının aparılması, janr xüsusiyyətlərinin tədqiqi, yayıldığı areala, ifadə formasına və məzmununa görə növlərinin öyrənilməsi və qruplaşdırılması.

İşin məqsədi: Lətifələrin janr xüsusiyyətləri ilə bağlı araşdırmaların təhlili, lətifələrin bəzəmə, boyama, gülməcə, şəbədə, lağlağı, zarafat, dodaqqaçdı, məzəli əhvalat, atmaca, bədyə, öcəşmə, qaravəlli, təkərləmə, cırnatma, məzhəkə, yumor və başqa janrdaxili dəyişmələrinin elmi təsnifatı, toplanmış və nəşr olunmuş lətifə örnəklərinin təyinatının aparılması.

Elə bir xalq yoxdur ki, onun gülüş səbəti boş olsun. Ən geri qalmış xalqların, hətta ibtidai təsəvvürlərlə yaşayan qəbilələrin və inkişaf etmiş mədəni xalqların özünəməxsus gülüşü, təbəssümü vardır. Folklorun janr ağacında gülüş öz tutumu ilə fərqlənir. Belə güman olunur ki, mifoloji anlayış kimi gülüş bolluqla, firavanlıqla, yeniliklə bağlıdır (**35, 3**). Hər bir dövrə məxsus gülüşün daxilində həm dağıdıcı, həm də yaradıcı başlanğıc mövcuddur. Buna görə də sosioloqlar belə hesab edirlər ki, bəşəriyyət ən faciəli və üzüntülü keçmişindən gülə-gülə ayrılır ki, bu da gələcəkdə belə halların baş verməsinə qarşı düşünülmüş ən yaxşı "bədii" silahdır. Xalq yaradıcılığının geniş yayılmış komik növləri bu məqsədlə yaradılmış, inkişaf edərək çoxjanrlı bir

sahəyə çevrilmişdir. Nəzəri baxımdan gülüş iki yerə bölünür: ciddi gülüş və tənqidi gülüş. Ciddi gülüş sevincdən, qələbədən, fərəhdən, təntənə və müvəffəqiyyətdən doğur, ayrı-ayrı fərdlərin, kollektivlərin, xalqların, ümumilikdə bəşəriyyyətin uğurlarını şən bir ovqatla təsvir edir. Tənqidi gülüşün əsasında aydın ideal, məslək, ictimai-siyasi məna durur, onda yüngül əyləncədən, rişxənddən, lağlağıdan, hırıltıdan çox ciddi fikir və məzmun olur. Lətifə ictimai tənqidi gülüşün əsasında dayanır və həyatdakı, məişətdəki yaramaz, gülünc hadisələri yığcam şəkildə əks etdirən nəsrlə yaradılmış epik əsərdir. T. Fərzəliyev lətifələrin əyləncə üçün, gülmək üçün söylənilən mənalı kiçik əhvalatlar olduğunu yazır (**15, 95**). Əksər xalqlar lətifəni kəsərli və ya məzəli sonluqla bitən qısa hekayə sayır. Epik növün nağıl, əfsanə, rəvayət və digər şəkilləri kimi lətifə də xalq məişətini əks etdirir, lakin gülüşün üstünlüyü, əxlaqi nəticələri və aforistik ifadələri ilə fərqlənir. Lətifələrdə xalq satirası və yumoru qüvvətli şəkildə meydana çıxır.

Avropa ədəbiyyatında tənqid, istehza və məsxərə insan təbiətindəki pis və yaramaz əməllərə qarşı ən yaxşı silah sayılır. Şərq xalqlarında (türk, ərəb, fars və sair) komik folklor materialları ictimai münasibətlərə aydınlıq gətirməyə, antifeodal həqiqətləri açmağa, orta yüzillik feodal istibdadının törətdiyi riyakarlığın səbəblərini üzə çıxarmağa imkan vermiş, ehkamçılığa, tərkidünyalığa, haqsızlığa, anlaşılmazlığa, cəhalətə qarşı olmuşdur. Şərq xalqlarını birləşdirən əsas ideologiya – müsəlman ideologiyası da burada başlıca amildir və təsadüfi deyil ki, haqqında lətifə yaradılan şəxs ya molla, ya da ona qarşı dayanan "divanənin" biri olur. Buna görə də orta yüzillik gülüşünün əsas komponentləri "səfehlik", "axmaqlıq" və "divanəlik" olmuşdur **(35, 3)**. Cəmiyyətin bu adlarla damğaladığı insanlar əslində mürtəce qayda-qanunlara, əxlaqsız "əxlaq" normalarına, adamları buxovlayan adət-ənənələrə qarşı dayanan çox ağıllı, intellektual səviyyəli müdriklərdir. Folklorşünas Təhmasib Fərzəliyev həmin müdrikləri belə xarakterizə edir: "Onlar əsasən incəsənət adamları - nədimlər, nüqtədanlar, paskallar, bir sıra hallarda dərvişlər, dövrün mütərəqqi fikirli ziyalıları, həyatın zövq-səfa üçün yaradılmış olduğunu tərənnüm edən kedonist şairlər, xocalar, xalq içərisindən çıxmış müxtəlif peşə və sənət adamları olmuşlar" (**35, 4**).

Nədim sözü ərəb mənşəlidir, dilimizdə işlənən sirdaş, yaxın adam, dost, həmsöhbət ifadələri onu qismən əvəzləyir. Çünki nədim orta yüzilliklərdə bir vəzifə, sənət, peşə olaraq meydana çıxmış, şahların, xəlifələrin, xanların məclislərində gülməli sözləri və hərəkətləri ilə onları əyləndirən adam olmuşdur. Bəzi hallarda buna təlxək də deyirlər. Nədim bir çox hallarda məsləhətçi rolunda çıxış edir, öz ağıllı fikirləri ilə qulluq göstərdiyi adamları çətin vəziyyətlərdən çıxarır. Şərq xalqlarının böyük nəsihətnamə kitabı olan, şaha şahanə, ağaya ağayana məsləhətlər verən "Qabusnamə" kitabının otuz səkkizinci fəsli "Nədimlik qaydaları haqqında" adlanır və bu ağır peşənin çətinliklərindən söhbət açır. "Qabusnamə" məsləhət görür ki, nədimlik fikrinə düşən şeir yaza bilməsə də, nəzmin qayda-qanunlarını yaxşı bilməli, bir neçə dil öyrənməli, bütün beş hiss üzvü öz ixtiyarında olmalıdır. Hətta nərd və şahmat oynamağı bacarmalıdır. Ağasının məclisini zinətləndirə bilməsə də, korlamamalıdır: "Bundan əlavə, gərək yaxşı danışıq qabiliyyətin olsun. Çoxlu hekayətlər, lətifələr və qəribə rəvayətlər biləsən, çünki nadir hekayətlər bilməyən nədim yarımçıq hesab edilə bilər" **(25, 173-174).** "Qabusnamə" məsləhətlərində deyilir ki, nədimlikdən yalnız çörək yemək, şərab içmək və lətifə danışmağı bacarırsansa, bu, nədimlik üçün bəs deyildir **(25, 175).**. Tarix nədimləri lətifələri ilə yadda saxlasa da, onlar əslində impravizator, aktyor, bəzi hallarda məzhəkəçi və cəmiyyətin simasını özündə cəmləşdirən komik obraz yaradıcısı kimi çıxış edirdilər.

Lətifələrin bir qisminin yaranması nüktədanların adıyla bağlıdır. Belə ki, nüktədan sözünün kökündə bir sözdən, ibarədən, ifadədən dolayısı ilə çıxarılan gizli, incə mənanı bildirən "nüktə" dayanır. Göründüyü kimi, nüktədan sözdən, danışıqdan dərin incə məna çıxara bilən adam anlamına gəlir. Nüktədanlar ilk baxışda digər mənaları başa düşülməyən sözləri izah etmək qüdrətinə malik olurdular. Bu peşə nədimlikdən də çətindir. İkibaşlı, çoxmənalı sözlər, yumor və kinayə ilə deyilmiş ifadələr məhz nüktədanlar tərəfindən asanlıqla qavranılırdı. İçərisində incə və dərin məna olan sözlər nüktəli sözlər adlanır. Bəzi lətifələr məhz belə incə mənalar üzərində qurulmuşdur.

İndi də lətifə sözü haqqında. Bu ifadə "yumşaq, mülayim, xoş" (1), "incə, zərif, qəşəng" (2) mənalarını verən lətif sözündən yaranmışdır və bizim anladığımız anlamda həyatdakı, məişətdəki gülməli və məzəli əhvalatlar haqqında yığcam, qısa hekayəni ifadə edir. Lətifə sözünün digər mənası gözəl, incə, qəşəng qadın anlamındadır. Lətifə söyləməkdə mahir olan, gözəl lətifələr danışan, zarafatcıl adamlara lətifəçi deyirlər. Qaravəlli və lətifələrin janr xüsusiyyətlərini araşdıran Tahir Orucov lətifəni qısa, yığcam, məntiqli və lakonik olan, ictimai həyatdakı qüsurları ifşa edən epik janr kimi xarakterizə edərək belə qərara gəlir ki, mükalimə, məntiq və dialoqlar üstündə qurulmuş bu nümunələr xalq gülüşü, hazırcavablıq, satira, kinayə və sarkazmın güclü olması ilə seçilir **(29, 122-133).** Vaqif Vəliyev ərəb mənşəli lətifə sözünün Azərbaycan folklorşünaslığına sonradan daxil edildiyini, xalq arasında bu sözün yerinə "bəzəmə" işlədildiyini yazmışdır (**37, 289-290**). Nəriman Əbdülrəhmanlı Qaraçöpdən topladığı lətifələri "Şəbədələr" adiyla 1991-ci ildə "Gənclik" nəşriyyatında çap etdirmiş və Balaş Abbaszadə kitaba "sərhədsiz ruhumuzun indi də yaşadığı Gürcüstan elinin" dadlı-duzlu söz sərvəti haqqında yazdığı ön sözdə bu torpağın Molla Qasım, Şair Vəli, Aşıq Musa, Əsli oğlu Məhəmməd, Aşıq Məhəmmədəli, Şair Bəyzadə, Tükəzban Abbasoğlu qızı kimi söz xiridarları olmasından söhbət açmışdır (**33, 3-4**). Toplayıcıların bir qismi lətifələri topladıqları bölgələrdə olduğu kimi "Gülməcələr" adlandırmışlar (**12, 64 s.)** Bu kitaba yazdığı ön sözdə İmamverdi İsmayılov bölgələrin lətifə özəlliklərindən (Kəlbəcər gülməcələrindən, Şəki lətifələrindən, Ordubad bəzəmələrindən və başqalarından) söhbət açır.

Türk folklorunda lətifə gündəlik həyatın məzhəkəli tərəfini əks etdirən və məzəli sonluqla bitən qısa satirik hekayədir. Onu "latife", yaxud "fıkra" adlandırırlar. Türk folklorunun araşdırıcıları belə qərara gəlmişlər ki, lətifə xalqın milli xarakterini təmsil edən qəhrəmanlar haqqında yaradılır. Folklorşünaslar türk lətifələrini beş bölmədə qruplaşdırmışlar: 1) Nəsrəddin Hoca fıkraları; 2) Bektaşi fıkraları; 3) Oflu Hoca fıkraları; 4) Böyük şəhər (İstanbul, Bursa, Ədirnə və sair) fıkraları; 5) Bölgələri və etnik zümrələri xarakterləşdirən fıkralar (**17, 191-192**). Lətifələr insanların həyatı, güzəranı və məişəti ilə bağlı olduğundan müxtəlif hadisələrə şamil edilmiş və bir neçə variantda meydana çıxmışdır. Türklər üçün lətifə gülüşü qüvvətli şəkildə özündə göstərən xalq həcvidir. Türklərdə ən çox Təlxək haqqında lətifələr deniş yayılıb ki, onlarda da təkəbbürlü və amansız hakim təbəqələrin nümayəndələri masqaraya qoyulur, saray poeziyasında mədh olunan Sultan Mahmud Qəznəvi (997-1030) incəliklə ifşa olunur. Təlxək xalq müdrikliyini özündə cəmləşdirən və hadisələrə açıq gözlə baxmağı bacaran tarixi şəxsiyyətdir (**35, 4-5**).

"Kərkük folkloru antologiyası"na (1987) "Folklorumuzun qüdrətli qolu" adlı ön söz yazan Qəzənfər Paşayev İraqda yayılmış Molla Nəsrəddin lətifələrini məzmununa görə "Molla evdə", "Molla və dövlət adamları", "Molla dostları arasında", "Molla və qazılar", "Molla və din xadimləri", "Molla elm və mədəniyyət aləmində", "Molla və qonşuları" və sair bölmələr altında qruplaşdırır ki, bu da Azərbaycanda çap edilən lətifələrin təsnifatına uyğundur (**22, 219**). Türkmənlərdə lətifə "şorta söz" adlanır. Molla Kemine haqqında olan şorta sözlərdə Molla Nəsrəddin uslubu aparıcıdır. "Akılı sizde, qulaqı bizde" şorta sözündə - lətifəsində deyilir: *"Bir vaqt Keminenin qulaqına yara çıkıp, çişip, ep-esli bilup durupdur. Pir onu qörüp:*

-Molla Kemine, eşeqin qulaqını alaydınmı?- diyyər. Kemine xem:

-Xava, taqsır, eşeqin akılını siz alanızsonız, biz xem kem qalmalı diyip qulaqını alaydık- diyyər" (**23, 23**).

Türkmənlərdə Kemine ilə yanaşı, Mirali, Aldarkosa (Yalançı Kosa), Esenpolat, Karrı-ata və Ependi haqqında şorta sözlər də geniş yayılmışdır ki, bunlar da Molla Nəsrəddin lətifələri ilə səsləşir, bəzi hallarda isə onların variantları kimi meydana çıxır. (**36, 134).** Türkmənlər novellavari hekayələri *ərteki* adlandırırlar. Qazaxlarda bu janr *erteqiler* kimi yazılır və əsasən yığcam nağılları əhatə edir (**39, 42-65**). Bir çox hallarda türkmən ərtekileri də nağıllarla eyniləşdirilir **(18, 3-13)** Kitaba yazdığı ön sözdə türkmən ərtekilerinə aydınlıq gətirən, hətta onun növlərindən söhbət açan N. Şükürov bu janrın çoxfunksiyalı olduğunu bildirir. Lakin ərteki daha

çox "olmuş əhvalat" (rusca *qryaduşie, bıloe*) kimi tərcümə olunur. Türkmən folklorşünasları da komik qəhrəmanların prototipi haqqında araşdırma aparmış və belə qənaətə gəlmişlər ki, Mirali haqqında olan lətifələr şəksiz böyük özbək şairi Əlişir Nəvai (1441-1501) ilə bağlıdır. Türkmənlərin arasında Keminenin də prototipi haqqında belə ehtimallar mövcuddur (**36, 9-10**). Lətifələrin tənqid obyektləri isə xanlar, şahlar, baylar, işanlar və mullalardır.

Molla Nəsrəddinin adındakı "molla" sözünün iki mənası var ki, bunlardan biri həqiqi mənada olan din xadiminin rütbəsini ifadə edir, digəri isə məcazi mənada olub, orta yüzilliklər üçün xarakterik sayılan hörmətli insan, nüfuzlu şəxs anlamına gəlir. Molla Nəsrəddin lətifələrində bütün hadisələr bu komik qəhrəmanın özü, arvadı, oğlu, eşşəyi, qonağı, evi, qonşuları, əlaqədə olduğu adamlar ətrafında cərəyan edir və lətifələrdə ümumiləşdirilmiş həm müsbət, həm də mənfi xüsusiyyətlər həmin adamların şəxsində əks olunur. Əgər molla arvadını tənqid hədəfi seçibsə, bu, bütün arvadlarda olan oxşar nöqsanları əhatə edir. Molla Nəsrəddin lətifələrindəki ictimai satiranın obyektini müəyyənləşdirərək, əsasən iki ictimai zümrənin üzərində dayanarlar ki, bunlar da din nümayəndələrindən (qazılar və mollalar) və hakim təbəqəni təmsil edənlərdən (şahlar və sultanlar) ibarətdir. Elmi ədəbiyyatda Molla Nəsrəddinin ictimai-tənqidi hədəfi aşağıdakı kimi qruplaşdırılır: 1) Dövrün zalım, müstəbid və qaniçən hökmdarlarının tənqidi (Teymurləngin simasında); 2) din xadimlərinin ifşası; 3) feodal dünyagörüşünün, dünya və axirət haqqında bəsit mühakimələrin lağa qoyulması; 4) dini etiqadların tənqidi; 5) ailə-məişət və tərbiyə məsələlərinə münasibət (**37, 293**). Demək, Molla Nəsrəddin lətifələrinin əsas tənqid hədəfləri bunlardır:

-Dini fanatizmin, mövhumatın və cəhalətin tənqidi;

-hakim zümrənin və ədalətsizliyin tənqidi;

-ailədə düzgün olmayan tərbiyənin tənqidi.

Molla Nəsrəddin lətifələrini bu şəkildə qruplaşdırıb oxucuya təqdim etməyə ehtiyac olmasa da, lətifələr məzmununa görə asanlıqla seçilir və fərqlənir.

Beləliklə, epik janrın – lətifələrin dünya xalqlarının və azərbaycanlıların folklorundakı yeri barədə qısaca tanışlıq onları elmi şəkildə, çağdaş folklorşünaslığın tələbləri səviyyəsində qruplaşdırmağa imkan verir. Lətifələr əsasən üç qrupa bölünür:

-Beynəlmiləl əhəmiyyətli lətifələr

-Lokal lətifələr, yaxud ümumxalq lətifələri;

-bölgə lətifələri, yaxud regonal lətifələr

Bəzən folklorşünaslar beynəlmiləl əhəmiyyətli lətifələrlə lokal (ümumxalq) lətifələri qarışdırırlar. Lokal latın dilində "yerli əhəmiyyətli", "müəyyən yerə mənsub olan" deməkdir. Göründüyü kimi, lokal lətifələr əslində bir ölkə daxilində yayılan, ayrıca bir xalqa mənsub olan ümumxalq lətifələridir. *Beynəlmiləl əhəmiyyətli lətifələr* bir ölkənin hüdüdlarını aşaraq ətrafdakı bir neçə ölkəni əhatə edir. Molla Nəsrəddin və Bəhlul Danəndə lətifələri yayılma arealına görə beynəlmiləl lətifələrdir. *Ümumxalq lətifələri* hər hansı bir coğrafi məkanda, yəni bütövlükdə bir ölkə ərazisində yayılan lətifələr olduğu üçün bu qrupa bolqarların Qabrovo hazırcavabları, türklərin Təlxək, ərəblərin Cuha və Əbu Nüvas, hindlilərin Birbal, farsların Daho, taciklərin Müşfiq, türklərin Bektaşi, türkmənlərin Kemine, özbəklərin Mirali, qaraqalpaqların Omurbek, Krım tatarlarının Ahmet Akay Ozenbaşlı haqqında lətifələrini daxil etmək olar. Folklorşünaslıqda bölgə lətifələri məhəlli lətifələr, regional lətifələr və digər bu kimi adlar altında qruplaşdırılır. *Bölgə lətifələri* sırasına azərbaycanlıların Hacı dayı, Mirzə Bağı, Əli Cabbar, Molla Tanrıverdi oğlu Hüseyn, Abdal Qasım, Ayrım Tağı, Lotu Salman və başqa bu kimi məhəlli hazırcavablar haqqında olan lətifələr aiddir. Bölgə lətifələri toplanılıb çap edildikcə öz coğrafi arealını genişləndirir və tədricən ümumxalq lətifələri səviyyəsinə qalxır. Buna görə də bölgə lətifələri ilə ümumxalq lətifələri arasındakı fərq nisbidir. Lətifələrin virtual dünyaya daxil olması isə bu fərqlərin arasındakı səddi uçurub-dağıdır. Virtual məkan üçün bölgə söhbəti mövcud deyil. Buna baxmayaraq, belə güman edilir ki, bölgə lətifələri ümumxalq lətifələrinin bazasıdır və zaman keçdikcə onlar ümumxalq lətifələri sırasına daxil edilir. Məsələn,

Azərbaycanın hər hansı bölgəsində yaranan lətifə sonradan ya Molla Nəsrəddin, ya da Bəhlul Danəndə lətifəsi kimi tanınır. Folklorşünaslar belə lətifələri *müəllifi olan və müəllifi olmayan lətifələr* kimi qruplaşdırırlar. Müəllifi olmayan lətifələrin tədricən Molla Nəsrəddin lətifələri sırasıına daxil edilməsi də şifahi söz sənətinin xarakterik xüsusiyyətlərinə uyğundur.

Komik janr ifadə formasına görə də fərqlənir. *Epik formada olan komik janrlar* ətraflı şəkildə öyrənilsə də, *lirik formada olan komik janrlara* az diqqət yetirilmişdir. Lətifələr müxtəlif bölgələrdə müxtəlif cür adlanır. Bəlkə də belə çoxadlılığa fikir verməmək, onları ümumi bir başlıq altında qruplaşdırmaq olar. Lakin lətifə özü bir janr kimi fərqli xüsusiyyətlərə malikdir. Belə ki, bəzi lətifələr uzun və izahedici əhvalatlar üzərində qurulmuşdur, bəziləri isə qısa dialoqdan ibarətdir. Molla Nəsrəddin lətifələri ilə Bəhlul Danəndə lətifələri arasında nəinki üslub, hətta müxtəlif ədəbi ölçü, rakurs, təhkiyə fərqləri mövcuddur. Belə fərq ümumxalq və bölgə lətifələri arasında da mövcuddur. Bu da lətifə janrının özünün növlərə ayrıldığını göstərir. Belə fərqli münasibət bölgələrin özündən kortəbii şəkildə gəlir və tədricən möhkəmlənir. Azərbaycan folklorunda *lətifənin janr xüsusiyyətlərini* təxminən belə qruplaşdırmaq olar:

-bəzəmə və boyama;
-gülməcə;
-şəbədə və lağlağı;
-zarafat;
-dodaqqaçdı, yaxud məzəli əhvalat;
-atmaca, bədyə və öcəşmə;
-cırnatmalar;
-məzhəkə;
-qaravəlli və təkərləmə;
-yumor

Bu bölgüdə verilmiş nümunələr arasında hansı fərqli cəhətlər vardır? Folklorşünaslıqda *bəzəmə və gülməcə* lətifə sözünün sinonimi sayılır, lakin bu lətifə növlərinin özləri arasında da fərqlər mövcuddur. Bəzəmələr müəyyən bir əhvalat üzərində qurulur və nağılvaridir, biq qədər ağır, izahedici uzun satirik hekayəyə bənzəyir. Bunun ən bariz nümunəsi Ayrım bəzəmələridir. Ayrım bəzəmələrinin toplayıcısı V.Vəliyev bu fərqli xüsusiyyətləri onları yazıya alarkən müşahidə etmişdir: "Ayrım bəzəmələrində lətifələrdən başqa xalqın həyatı, məişəti ilə bağlı olan bir neçə hekayət də vardır. Bu nümunələr lətifələrlə nağıllar arasında sanki körpü təşkil edir. Kompozisiya, surətlərin dialoqu, konfliktin gərginliyi məqsədilə istifadə olunan priyomlar onları nağıllara (xüsusilə sehrli nağıllara yaxınlaşdırsa da, komik ünsürlərin tündlüyü, lakoniklik, din xadimlərinin, kəndxudaların, sələmçi tacirlərin kütbeyin, fərsiz kimi təsviri və onların gülünc vəziyyətə salınması bu nümunələri daha çox lətifələrlə bağlayır" (**7, 5**). Ayrım bəzəmələrinin bir qismi Ayrım Tağı haqqındadaır. Lakin burada Keçəllə bağlı bəzəmələrə də rast gəlirik ki, bu da bəzəmə adiyla toplanmış folklor nümunələrinin başqa janrlarla, xüsusilə xalq tamaşaları və oyunlarının qəhrəmanıyla bağlılığını göstərir. Bəzəmələrin içərisində hətta nağıl süjetli "Mən mənəm, sən kimsən?", "Keçəl, Molla Saleh və Razi", "Namaz əhvalatı", "Dad Xanpərinin əlindən" tipli qaravəllilər verilmişdir. Boyama bəzəmə termininin sinonimidir, lakin funksional fərqlərə malikdir. Boyamalar çağdaş lətifələrdir və bəzi hallarda ictimai-siyasi xarakter daşıyır. Vaxtilə "Tək səbir" qəzeti "Kürdəmirli Azərin boyamaları"nı çap edirdi ki, onlarda da əsasən siyasətçilər tənqid olunurdu. (**24**). Toplayıcı İmamverdi İsmayılov lətifələrlə gülməcələr arasında da incə bir fərq görür. Bu fərq ondan ibarətdir ki, lətifələr "qoşulur", gülməcələr isə "düzümlənir": "Elat gülməcələri güldürə-güldürə düşündürür. Fəhmin itiliyini, ağlın zirəkliyini artırır. Uzaqgörənlik, sərrastlıq, dəqiqlik təlqin eləyir. Əslində onların hər birində böyük bir hikmət, müdriklik qərar tapıb: duyğuları saflaşdıran, insanı xoş niyyətli əməllər arxasınca getməyə sövq edən, düşünülməmiş addımlardan yayındıran daxili bir güc gülməcələrin gülüşdən, təbəssümdən, qəhqəhədən sonra gələn gizlin dalğalarıyla həmişə hərəkətdədir" (**12, 3**). H. İsmayılov Göyçə mahalından topladığı lətifələri bu bölgədə adlandığı şəkildə "Gülməcə"

adlandırır (**38, 430-482**). Bəzəmələrdən fərqli olaraq, gülməcələrin əksəriyyətində başlıq, yaxud bunabənzər sərlövhə olmur, süjet, adətən, qısa dialoq üzərində qurulur.

Şəbədələr də gülməcə tiplidir, lakin şəbədələrdə gülməcələrdən fərqli olaraq, ələ salma, lağ etmə meyli güclüdür. Şəbədələrdən birində deyilir ki, Qaraçöpə şəhərli bir qiz gəlin gəlibmiş. Kənddə-kəsəkdə olmadığından ömründə dükanın başıkəsik toyuğundan başqa bir şey görməyibmiş. Bir gün qaynanası xörək bişirirmiş, üzünü gəlinə tutur ki:

-A qızım, - deyir,- get dama bax gör, toyuq yumurtlamayıbmı, gətir xörəyə çalaq.

Gəlin duruxur, sonra təəccüblə soruşur:

-Ay xala, buyün bazar günü döyülmü, toyuq da yumurtlayarmı? **(33, 39).**

Zarafat iki cür olur. Bunlardan birincisi digər folklor janrlarının, xalq tamaşalarının və oyunlarının, dastanların və nağılların tərkibində məclisi şənləndirmək, diqqəti toplamaq, marağı artırmaq, gərginliyi və yorğunluğu aradan götürmək məqsədilə söylənilir. Kosa və Keçəllə bağlı tamaşalarda, aşıq yığnaqlarında əsas mətləbə (kontekstə) bilavasitə dəxli olmayan çoxlu zarafatlar söylənilir. Digər zarafatlar konkret olaylarla və şəxslərlə bağlı olur. Məsələn, Şəki ləhcəsində olan yer-yurd, məhəllə, idarə adları, xüsusilə "Azərbaycanca-Şəkicə lüğət" kimi zarafatyana tərtib olunmuş siyahılar elə lətifələrin özləri qədər gülüş doğurur. B. Vahabzadə haqlı olaraq yazmışdır ki, Şəki zarafatları, xüsusən dialektoloji lüğət və toponimlər təkcə gülüş doğurmaq üçün deyil, həm də elmi baxımdan dəyərlidir (**34, 91-92**). Məsələn, şəkililər bekara "ejgan", arığa "micir" deyirlər. Bu sözlərin tələffüzü isə şəkili olmayanların dodağını qaçırır. Şəkinin məhəllə adları, buradakı soylar və ləqəblər də gülüş doğuracaq səviyyədə təqdim olunur. Maraqlıdır ki, yerli toponimlərə verilən adlarda şəkililərə məxsus bir zarafat var. Çökək məhəllə, Arxüstü məhəllə, Bağbanlar, Oppandılar, Xingallar, Dolmabağçalar, Yeddiəppəklər, Qumbaralar, Şərbaflar, Gumburlar, Dəlləkkərimlər məhəllələri və başqa adlar belə yaranmışdır. Professor Məhərrəm Qasımlı "Şəkidə məhəllə adları, soylar və ləqəblər" kitabının ikinci cldinə yazdığı ön sözdə bildirir ki, bu ulu torpağa, bu sevimli xətrixoş camaata ad-sanı, əsl-nəcabəti onun adamları gətirir: "Peşəsinə, kök-köməcinə, qabiliyyət, davranış və mədəniyyətindən tutmuş boy-buxununa, geyim-keçim tərzinəcən ən müxtəlif əlamətlərinə görə hər məhəllə, hər nəsil-tayfa Şəki nizam-tərəzisindən bir ad alıb, ləqəb qazanıb" (**26, 11**). Bakıətrafı kəndlərdən xeyli zarafatı yazıya alan Əbülqasım Hüseynzadə həmin zarafatları edən adamların adlarını olduğu kimi saxlamışdır. Məhəmmədhaşım, Molla Mirzə Məmməd, Qafar kişi, Seyid Əhməd, Şahsənəm qızı Pərixanım və başqa lətifə qəhrəmanları uydurulmuş personaj və prototip deyillər, real olaraq həyatda mövcud olmuş şəxslərdir. Ə. Hüseynzadə onların başına gələn olayları və özlərinin etdikləri zarafatları "xalq rəvayətləri" adiyla qələmə almışdır. Əslində bunlar zarafatlar üzərində qurulmuş lətifələrdir. Çünki onun "xalq rəvayətlərini" verdiyi "Aşı mollanın, başı mollanın" (1983) adlı kitabda lətifələr (əsasən Molla Nəsrəddin lətifələri) toplanmışdir. Kitabda verilmiş "Aşığınkı haydandır, mollanınki vaydan" adlı lətifədə molla ilə aşıq qarşılaşır. Molla soruşur ki, ay aşıq, haraya belə gedirsən, xeyirdirmi? Aşıq cavab verir: "Molla, əlbəttə, xeyirdir. Xeyirdir ki, mən gedirəm də! Şər olsaydı, sən gedərdin!" **(5, 70).**

Ə. Hüseynzadə "məzəli hekayələr" adlandırdığı xeyli lətifəni toplayaraq "Rəvayətlər" (1974) adıyla çap etdirmişdir. Mollalardan bəhs edən bu folklor nümunələrinin bir qismi həqiqətən rəvayətdir. "İnsan və şeytan", "Çoban və molla", "Atlı və piyada", "Yuxu əhvalatı" bu qəbildən olan nümunələrdir **(32, 44-75).** Rəvayət folklorun tarıxı şəxslər (padşahlar, şairlər, qazilər və sair) və toponimlər haqqında yarıəfsanəvi-yarıreal bir janrıdır. Adətən, rəvayəti baş vermiş olaylardan ibarət şifahi təhkiyə sayırlar. Rəvayətləri kiminsə başına gəlmiş və sonradan ağızlarda dolaşıb cilalanmış nağıla da bənzədirlər. Makedoniyalı İsgəndər haqqında Türkiyədə və Azərbaycanda dolaşan rəvayətlər buna parlaq misaldır. Göründüyü kimi, rəvayətin lətifə ilə ciddi əlaqəsi yoxdur. Ə. Hüseynzadə bəlkə də buna görə topladığı folklor nümunələrinə "məzəli hekayələr" sərlövhəaltı məlumat əlavə etmişdir. Bu isə lətifənin məzəli əhvalat (dodaqqaçdı) növünə uyğundur. Lakin kitabdakı nümunələrin çoxu lətifədir. Belə məzəli hekayə, məzəli əhvalat adətən dodaqqaçdı kimi tanınır. *Dodaqqaçdı* rəvayət şəklində olan məzəli əhvalatdır.

Dodaqqaçdılar kompazisiya və süjet baxımından lirik janrın digər növlərindən fərqlənir və buna görə də folklor toplayıcılarının diqqətini çəkir. Məhərrəm Qasımlı "El düzgüləri, elat söyləmələri" adlı kitabında topladığı lətifələri "Gülməcələr, dodaqqaçdılar" adı altında qruplaşdırır (**11, 99-114**). Dodaqqaçdılar iki qrupa bölünür: *quramalar və olmuş əhvalatlar.* Dodaqqaçdı nümunələrinin ən yaxşı variantlarını Atabala İsmayıloğlu, Xeyrəddin Qoca, Hacıbala Əmir, Məşədi Abbas Şahmarlı və Xəlil Fərəmzoğlu toplayıb qələmə almışdır. Atabala İsmayıloğlu qələmə aldığı lətifələri "Molla Qeybullanın sərgüzəştləri" adıyla ayrıca kitab halında çap etdirmişdir. *"Təsəlli tapacağam" adlı dodaqqaçdıda deyilir ki, ömründə namaz qılmayan bir gənc Molla Qeybulla ilə məzələnmək istəyir. Üzünü Molla Qeybullaya tutub soruşur: "Molla əmi, heç elə gün olub ki, namaz qılmayasan?" Molla Qeybulla deyir ki, oğul, hərdən elə şəraitə düşürəm ki, heç cür mümkün olmayır". Molla ilə gəncin dialoqu belə bitir:*

-Molla əmi, bəs, o dünyada bu əməlinə görə sənə işgəncə verəndə nə edəcəksən?

-Sənə verilən işgəncələrə baxıb, təsəlli tapacağam (**19, 20**).

Atabala İsmayıloğlunun qələmə aldığı dodaqqaçdılar yığcamlığına görə Molla Nəsrəddin lətifələrini xatırladır. Bacarıqda, hazırcavablıqda, qorxmazlıqda, sözü yerində deməkdə ad-san qazanmış Şopi dayının dodaqqaçdıları yazıçı Hacıbala Əmir tərəfindən yazıya alınmış və "Şopi kişinin sərgüzəştləri" adıyla çap olunmuşdur (**14, 5-19**). Alarlı Həzrətqulunun məhəbbəti ilə bağlı dodaqqaçdı quramadır, yəni bu məzəli əhvalat Həzrətqulunu dolamaq, ələ salmaq üçün həqiqətə uyğun şəkildə uydurulmuşdur. Olmuş əhvalat isə satirik hekayət təsiri bağışlayır, əksər hallarda hadisənin şahidi olan birinci şəxs tərəfindən söylənilir. Məşədi Abbas Şahmarlının danışdığı "Arayış" məzəli əhvalatı bitkin bir hekayətdir (**27, 25-26).**

Folklorun maraqlı sahələrindən biri atmaca və öcəşmələrdir. *Atmacalar* dərin mənalı hikmətamiz sözlərdən ibarət olur. Atmacalarda həyatda baş vermiş olaylar təsvir olunur. Onun başlıca səciyyəvi xüsusiyyəti ifadə kəskinliyi, sərrastlıqdır. Satirik ovqatlı atmacada fəlsəfi ümumiləşdirmələr olur. Adətən, atmacalar tarıxi sımalarla bağlı olayların əsl mahiyyətini açır. Qulam Məmmədli toplayıb tərtib etdiyi "Atmacalar"ı bu janrın tələblərinə uyğun şəkildə qruplaşdırmışdır. Kitabda zamanın müxtəlif dövrlərində yaşamış alim və mütəfəkkirlərin, şair və ədiblərin, rəssam və artistlərin, dövlət xadimləri və sərkərdələrin tərbiyəvi əhəmiyyət daşıyan hikmətli sözləri, yəni atmacaları toplanmışdır (**6, 11-41**).

Bədyə nəzm və nəsrlə bədahətən deyilmiş sözdür və əsasən şeirə şamil edilir. Ədəbiyyatşünaslıqda bədyə (bədiyyə) müəyyən bir poetik funksiya daşıyan bədii sözə deyilir. Folklor termini kimi bədyə hazırcavablığı ifadə edir ki, bu da, adətən, atmaca formasında olur, həm bədyə, həm də bədiyyə şəklində tələffüz edilir. Dialektik forması bədihədir. Bədihə ərəb mənşəlidir, fikirləşmədən, qabaqcadan hazırlaşmadan söylənilən söz mənasındadır, adətən, nəzm parçalarından ibarət olur. Aşıq və bədihəçilərin döşdən dedikləri mənzum nümunələr bədihə adlanır. Deməli, hazırcavablığı ilə fərqlənən, qabaqcadan fikirləşmədən mənalı, kəskin söz və ya şeir söyləyən adama bədihəçi deyilir. Cənubi Azərbaycanda hazırlaşmadan sinədən (döşdən) vəziyyətə uyğun söz deyənlər bədihəgu *(-gu* Azərbaycan dilindəki *-çi* isim düzəldən şəkilciyə uyğundur) adlanır. Bədyələrin və digər lətifələrin toplanılmasında "Tək səbir" qəzetinin gördüyü işi yada salmamaq olmur. Qəzet daha çox müasir dövrlə səsləşən lətifələri çap etmişdir. Bu nümunələrin içərisində bədyələr folklorşünaslığımız üçün maraqlı mənbədir. Bədyələr həm də dilinin koloriti və poetizmi ilə seçilir **(30 və 31)**. Nəzm şəklində olan bədihə şifahi xalq ədəbiyyatının meyxana janrının bir növü sayılır və əsasən Bakı kəndlərində və Abşeronda geniş yayılmışdır, satirik, yumoristik məzmunlu olur. Lakin ciddi mövzularda, xüsusən məhəbbət mövzusunda da bədihələr söylənilmişdir **(28, 882-883).**

Cırnatmalar lirik formada olur və qafiyələnir. Cırnatmalarda zarafat ovqatı ilə yanaşı, kiminsə gülüş doğuran hallara düşməsinin lağa qoyulduğunu müşahidə etmək çətin deyil. Bu folklor nümunəsində məqsəd hədəf kimi seçilən şəxsi özündən çıxarmaq, onu ələ salmaq və dolamaqdır. Cırnatmalar iki qrupa bölünür. Birinci qrupa ümumxalq obrazları timsalında gülüş doğuran mənzərə yaradan lirik parçalar daxildir. Belə cırnatmalarda Keçəl, Kosa, Molla kimi

komik surətlərin məziyyətlərinə müraciət olunur, xalq təfəkküründə artıq formalaşmış və xarakter xüsusiyyətləri ilə seçilən obrazlar ayrı-ayrı şəxslərə yamanır. Keçəl haqında olan cırnatmada saçı tökülmüş, yaxud başı təzəcə qırxılmış adamlar belə lağa qoyulur:

Keçəl, keçəl, mərəndə,
Arpa, buğda sərəndə.
Bir arpanı beş eylər,
Yeddi qazan aş eylər.
Gəlin, yığılaq başına,
Zəhər qataq aşına (9, 59).

Cırnatmaların ikinci qrupunu konkret şəxsləri lağa qoyan lirik parçalar təşkil edir. Belə cırnatmalar ayrı-ayrı şəxslərin adı çəkilməklə söylənilir, onların gülüş doğuran əməlləri və görkəmləri hədəf seçilir:

Hədiydi, Hüdüydü,
Sənin yerin gədiydi.
Ala başına, kül başına,
Əttaxtasın vur başına (9, 57).

Məzhəkə və qaravəlli folklorun ayrıca epik janrları kimi öyrənildiyindən burada yalnız onların lətifə ilə bağlılığından söhbət açacağıq. *Məzhəkə* tamaşa ünsürlüdür. Xalq tamaşalarını yaradan və yaşadan məzhəkəçi və mərəkəgirlər müxtəlif məzəli hərəkətləri və gülüş doğuran sözləri ilə adamları əyləndirirdilər. Məzhəkəçi məzhəkə söyləyir, mərəkəçi mərəkə çıxarırdı. Lotu və məsxərəbazlar şit və kobud zarafatlara daha çox yol verirdilər. Elçin Aslanov "El-oba oyunu, xalq tamaşası" (1984) adlı izahlı məlumat kitabında məzhəkənin orta yüzilliklərdə təlxəkliklə məşğul olan Məzhəkin adından götürüldüyünü yazmışdır **(4, 136-137).** Elmi ədəbiyyata görə, məzhəkə yaranışı Dionis mərasimləri ilə bağlı olan komediyanın Şərq variantıdır. Komediya yunanca şən kütlə, avara gənclər şənliyi mənalarını ifadə edən *comos* və nəğmə mənasını verən *ode* sözlərindən yaranmışdır, şən kütlə arasında, yaxud avara gənclər şənliyində ifa olunan nəğmə deməkdir. Dionis nəğmələrinin bir hissəsi müxtəlif ayinlərdən, bir hissəsi isə komediyalardan, yəni nəğmələr, zarafatlar və rəqslər üzərində qurulmuş şənlikdən ibarət olurdu. Şərqdə komediyanı məzhəkələr əvəz edirdi. Məzhəkə ərəb dilindəki *zəhikə* və *zöhk* (gülmək, ələ salıb gülmək), yaxud *zəhhəkə* (güldürmək, lağa qoyub gülüş hədəfinə çevirmək) sözlərindən yaranmışdır. Sonralar komediya və məzhəkə yazılı ədəbiyyata dram janrının növləri kimi daxil olmuşdur. Ədəbiyyatda lətifədən faydalanan və gülüş doğuran vodevil və farslar da mövcuddur. Onlar da kiçik həcmli şən və məzəli komik əsərlər sayılır. Hər iki janrın özülündə folklor dayanır. Əyləndirici və lətifə xarakterli, gözlənilməz nəticə ilə bitən, başdan ayağa zarafat üzərində qurulmuş *vodevil* fransızca Van de Vire (Vandan axan Vir çayı) mənasını ifadə edir ki, bu da onun Normandiyadakı Vir çayı vadisində yaranmasına işarədir. Daha çox xalq mərasimlərini və oyunlarını özündə birləşdirən *fars* latın dilində "başlayıram" (*farcio*) mənasını verir. Fars şit zarafatlardan ibarətdir və qapazlaşma, kötəkləşmə üzərində qurulmuşdur. Fars Azərbaycan xalqının Kosa və Keçəllə bağlı zarafatlarını xatırladır. Məzhəkələrdə gülüş şən, oynaq, bəzən açıq-saçıq boyalar və nalayiq ifadələrlə əlaqəli şəkildə yaranır və tədricən satirik xarakter alırdı. Məzhəkə janrında mollalar, axundlar, hakim sinfin bütün nümayəndələri, cəhalət və kütlük tənqid olunur, ailə-məişət və başqa intim məsələlər səhnəyə çıxarılıb məsxərəyə qoyulurdu **(3, 193).** Məzhəkənin sinonimi olan "Masqara" ifadəsi dünyanın bir çox xalqlarında olduğu kimi, Azərbaycanda da komediyaçı, güldürən, əyləndirən, təlxək və məzhəkəçi mənasını daşımışdır. Məzhəkə ustaları hoqqabaz, kələkbaz və məzğərəçi də adlanırlar. Farslarda məsğərəçiyə təlxək, ruslarda kloun deyilir. Məzhəkəçi həm də məsğərəbaz, yəni məsğərə oyunu

çıxaran da adlanır. E. Aslanov qaravəlli haqqında maraqlı məlumatlar verir. Onun fikrincə, qaravəlli "qaraevli" oğuz qəbiləsinin adının təhrif olunmuş variantıdır və onu orta yüzilliklərdə toy şənliyi və nağıl-dastan gecələri arasında varsaq, sonralar isə aşıq köməkçiləri söyləyərmişlər (**4, 136**). *Qaravəlli* bir və ya bir neçə lətifə üzərində qurulurmuş, əsas məqsədi isə "yorulmuş tamaşaçılarda dastandakı faciəli hadisələrin ağır təsirini yüngülləşdirmək, onların könlünü açmaq və yenidən əsas əsərə qulaq asmaq həvəsi doğurmaq" olmuşdur **(3. 48)**. Ədəbiyyat nəzəriyyəsi isə Azərbaycan folklorunda qaravəllinin yerini "məzəli, yumorlu əsər" kimi müəyyən edir. Əziz Mirəhmədovun yazdığına görə, qaravəllinin məzmun və formasında həm nağıl, həm də lətifə ünsürləri vardır, o, həcmcə də bu iki folklor forması arasında orta yer tutur: "Aşıqlar və nağılçılar həcmcə böyük, hadisələri mürəkkəb olan epik əsərləri (nağıl, dastan) ifaya başlayanda əvvəlcə bir qaravəlli deyir, yaxud dinləyiciləri yormamaq üçün, habelə onların diqqətini özünə cəlb etmək məqsədilə söhbətin ortasında qaravəlli danışır, sonra yenə əsas mətləbə keçirlər. Odur ki, qismən intermediya səciyyəsi daşıyan belə əsərlər məzmunca şən, ürəkaçan, əyləndirici olur" (**13, 40).** T. Orucov qaravəlli ilə lətifənin oxşar və fərqli cəhətlərini təhlil edəndən sonra belə qərara gəlir ki, qaravəlli şifahi xalq ədəbiyyatının epik növünə daxil olan, nağıllarla lətifələrin hüdudunda dayanan, səciyyəvi xüsusiyyətlərinə görə folklorun dramatik növünə yaxın müstəqil bir janrdır. Qaravəlli quruluşuna görə novellavaridir, dastan və nağıl arasında tamaşaçı və dinləyiciləri əyləndirmək məqsədi ilə söylənilir. T. Orucov bu fikri əsaslandırmaq üçün çoxsaylı qaravəlli nümunələrinə və özündən əvvəlki araşdırıcıların bu nümunələr haqqında yazılarına istinad edir **(29, 122-133).** Qaravəllilərin ilk dəfə ayrıca kitab halında nəşrində Əhliman Axundovun xidmətləri böyükdür. O, toplayıb tərtib etdiyi "Qaravəllilər" kitabını 1974-cü ildə "Azərnəşr"də çap etdirmişdir. Bəzən qaravəllinin dili də əyləndirici üslubda olur. "Hadı idi, hudu idi" qaravəllisi məhz başdan ayağa belə gülüş doğuran təhkiyə üzərində qurulub **(17, 174-175).** M. Allahverdiyev qaravəllilərin həcminə və üslubuna görə məzhəkələri xatırlatdığını yazır. Lakin məzhəkə ilə qaravəlli ifadə tərzi, gülüşlərin ciddiyyəti baxımından bir-birindən fərqlənir. Araşdırıcı "Qaravəlli"nin sinkretik xarakter daşıdığını və burada musiqi, rəqs, mahnı, söz, lirik parçalar, kinayəli gülüş, tənqid, mübaliğə yolu ilə ələ salma kimi xüsusiyyətlərin aparıcı olduğunu bildirir. Qaravəllilərdə şərtilik, lakoniklik və nikbinlik üzvi şəkildə birləşmişdir. Burada bədiyə deyilir, gözbağlayıcılıq elementlərindən istifadə olunur **(3, 189-193).**

Cənubi Azərbaycanda qaravəlliyəbənzər deyimlər *pişrovlar* adlanır. Pişrov mətnlərini nəzərdən keçirdikdə bunların əslində qarəvəlli olduğu üzə çıxır. Bəs niyə bu mətnlərə pişrov deyirlər? Pişrov aşıqlar tərəfindən bir havadan digərinə ayaq vermək üçün çalınan musiqi parçasıdır. Pişrovlar üstündə müəyyən mətnlər də oxunur. Folklor mətni kimi isə pişrov gülüş doğuran əhvalatlardan ibarətdir. "Cənubi Azərbaycan ədəbiyyatı antologiyası"nın ikinci cildində verilmiş pişrov mətnlərində belə komik səhnələr təsvir olunur **(10, 551)**.

Türkiyədə qarəvəlli janrının bənzəri *təkərləmə* adlanır. Təkərləmədə də gülüş doğura bilən sitiuasiyalar təsvir olunur, əsasən qafiyələnən, ritmik və ahəngdar sözlərə üstünlük verilir. Onları digər lətifə janrlarından fərqləndirən cəhət sintaktik və melopoetik həmahənglikdir. Təkərləmələrdən biri belə başlayır: *"Yeridim, yüyürdüm, evə çatdım. "Atan doğub" – dedilər. Qucağıma bir yumurta verdilər"*. Digər bir təkərləmə isə mənsur şəkillidir: *"Var varanın, sür sürənin, rizasız bağa girənin zopa yeməsi çox olur. O yalan, bu yalan, fili uddu bir ilan"* **(16, 19).** Təkərləmənin mənzum variantları da möcudur. Təkərləmə şifahi ədəbiyyatda təsnif, heydəri, türkü, mani, varsağı, ilahi, şərqi kimi lirik janrın növlərindən biridir. Təsnifin poetik strukturu dörd hecalı beş misralıdır, dörd misrası həmqafiyə, beşinci misrası qalan bütün bəndlərin beşinci misrası ilə qafiyələnən rədifdir. Heydəri şeir şəklində qoşmanın hər bəndindən sonra məzmuna uyğun olaraq altı misralı bayatı şəkilli şeir parçası verilir ki, bu da müvafiq aşıq havasının tələbi ilə yaradılır. Şərqi, türkü, ilahi və mani isə müxtəlif şəkillidir. Gəraylı formasında olan varsağı şeir növü eyniadlı aşıq havası üstündə oxunur. Bu lirik janrlardan fərqli olaraq, təkərləmə lirik janr kimi sabit şəklə düşməyib, əsasən qulaq qafiyələri üzərində qurulan və hər misrası yeddi hecadan ibarət olan şeirdir. Təkərləmə söyləyən özünü, yaxud haqqında

danışdığı qəhrəmanı yalanları ilə şişirdir. Bu janrın məzmunu lovğalıq, yalançı qürur, şişirtmə və hap-gopdan ibarətdir.

Ə. Mirəhmədov *yumor* haqqında ətraflı məlumat verərək yazır ki, bu forma ədəbiyyatda tənqidi gülüşün bir növü sayılır. Yumor həyatdakı gülünc, komik hadisələri, insanların zəif cəhətlərini və nöqsanlarını əks etdirən, oxucuda, tamaşaçı və dinləyicidə gülüş oyadan əsərdir. Yumor sözünün yunanca mənası "rütubət, yumşaqlıq" deməkdir. Qismən acı gülüş sayılan yumorda tənqid hədəfinə manasibət qəzəbli şəkildə deyil, mülayim, yumşaq formada olur. Yumor həm yazılı, həm də şifahi ədəbiyyatda bədii fikrin ifadə formasıdır. Bir çox hallarda lətifələri yumor adıyla təqdim edirlər. Əslində yumor lətifənin elə şəklidir ki, burada aforistik yekun, lakonik mətləb çox qısa şəkildə, izahat və şərh olunmadan verilir. Qısa dialoqlardan ibarət yumorlar bunun ən bariz nümunələridir. Ədəbi tənqid belə hesab edir ki, əsil yumor hissi üçün estetik idealın olması vacibdir, yoxsa gülüş bayağılaşar, ədəbsiz məsxərəyə çevrilə bilər. Gülüş demokratik mahiyyətə və böyük tənqidi qüvvəyə malik olduğu üçün tərəqqinin qüdrətli vasitəsidir. Əslində fərdlərlə cəmiyyət arasında komik-estetik münasibət iki tipdə - satirik və yumoristik şəkildə olur. Bu mənada yumor satiraya yaxındır, lakin satirada ictimai həyatın və məişətin son dərəcədə eybəcər, "cəmiyyət üçün çox zərərli cəhətləri", nöqsanları ifşa edilir, kəskin gülüş hədəfinə çevrilir. Bu bir həqiqətdir ki, yumor yazılı ədəbiyyata folklordan gəlmədir və buna görə də yumorun dayaqları möhkəm təməl üzərində qurulmuşdur. Yumorla satiranın rakurs fərqləri də var, bu da ondan ibarətdir ki, yumorda həyat hadisələrindəki ciddi, lakin tam mənada həlledici, təhlükəli olmayan ayrı-ayrı nöqsanlar tənqid hədəfi olur və bu nöqsanların səmimi zarafatla aradan qaldırılmasına səy göstərilir. Yazılı ədəbiyyatda yumora olan münasibəti xarakterizə edən Ə. Mirəhmədov yazmışdır ki, satirada çox vaxt tənqid hədəfi yazıçının düşməni, yumorda isə dostu olur **(13, 81-82)**. Yazılı ədəbiyyatda komediya, vodevil, satirik səhnəcik əsasən yumor üzərində qurulur. Yumor, daha doğrusu, lətifə yazılı ədəbiyyatın komediya janrının inkişafında mühüm rol oynayır. Komik və əyləncəli səhnələr lətifələrdən bəhrələnir. Komik janrın yamsılama təzahürləri özünü parodiyalarda göstərir. Folklorda yumordan xalq oyun və tamaşalarında, nağıl və digər janrlarda geniş istifadə olunur. Hətta dini məzmunda da yumorlar mövcuddur **(2, 27-28).** Yumordan yazılı ədəbiyyatın bütün nümayəndələri bəhrələnmiş və yeri gəldikcə ondan istifadə etmişlər.

Lətifələr *məzmununa görə* bir neçə qrupa bölünür: 1) *Ayrı-ayrı şəxslər haqqında lətifələr;* 2) *ayrı-ayrı bölgələr haqqında lətifələr;* 3) *etnik mənşəli lətifələr;* 4) *tarixi olaylarla bağlı lətifələr;* 5) *peşə lətifələri;* 6) *dini lətifələr (hədislər);* 7) *erotik lətifələr.* Bu bölgüyə daxil edilməsi mümkün olmayan, lakin məzmununa görə fərqlənən komik folklor nümunələri də mövcuddur ki, buraya komik nağıl obrazlarını, oyunbazların xalq bayramlarında yaratdıqları obrazları, demonik varlıqları və yalançı pəhləvanları aid etmək olar. Heyvanlar aləmindən bəhs edən nağıllar və təmsillər də komizmi yaşadan janrlardır.

Komizm, gülüş doğuran təzadlar rəngarəng olduğu kimi, onların ifadə formaları da müxtəlifdir. Gülüş emosional boyalarla ortaya çıxan tənqidin estetik forması sayırlar. Cəmiyyətdə fərdlərarası münasibətlərdən doğan təzadlar qəzəb və nifrətlə deyil, mərhəmət, təəssüf və kədərlə birləşmiş gülüşlə ifadə olunur. Gülüşün poetikasını **(21, 13)** və arxaik köklərini **(20, 70-101)** araşdıran M.Kazımoğlu lətifənin bir janr kimi formalaşmasında tarixi inkişaf mərhələlərinə diqqət çəkir. Bu gülüşün adı lətifədir. Onun bəzəmə, gülməcə, şəbədə, yumor və sair adlanmasından asılı olmayaraq məqsədi birdir: komik vəziyyətə gülmək!

Janrın özünün növlərə ayrılması, ümumxalq lətifələri üçün baza rolunu oynayan bölgə lətifələrinin çoxçalarlığı və onun başqa janrlarla əlaqəli şəkildə inkişaf etməsi folklorşünasları zəngin söz dünyası ilə üzbəüz qoyur. Bölgə lətifələri üzərində xüsusi dayanmağa dəyər. Qarabağda Abdal Qasımla, Məşədi Abbasla, Şəkidə Hacı dayı ilə bağlı lətifələr geniş yayılmışdır. *Konkret bir şəxsin adiyla bağlı olmayan bölgə lətifələri* də vardır ki, belə lətifələr müvafiq bölgələrin folklor toplularında özünə yer almışdır. Buraya Dərbənd, Ağbaba, Zəngəzur, Borçalı, Qarabağ, Naxçıvan və başqa bölgələrdən toplanmış lətifələri nümunə göstərmək olar.

Bu lətifələrin bir qismi yazıya alınmış və çap olunmuşdur. Cənub bölgəsinin də özünəməxsus komik obrazları vardır. Səlyanda Mirzə Bağı, Cəlilabadda Lotu Salman, Lotu Süleyman və İxi, Lənkəranda Balaəmi haqqında regional-bölgə lətifələri geniş yayılmışdır **(8, 108-226).** Regional lətifələrin poetik xüsusiyyətlərini öyrənən Sönməz Abbaslı belə bir məsələyə diqqət çəkir ki, obrazın daxili aləmini açmaq, personajların uzaqgörənliyini, qabiliyyətini, bacarığını nümayiş etdirmək baxımından yozmalardan faydalanma lətifələrə poetik kolorit gətirmiş və onların yadda qalmasında mühüm rol oynamışdır. **(1, 54-70)**. Ümumxalq lətifələrinə göstərilən qayğı və diqqət bölgə lətifələrinə də şamil edilməli, toplanılıb nəşr olunmalı, elmi cəhətdən araşdırılmalıdır.

Folklorşünaslıqda lətifə ölməyən bir janr sayılır. Dövrün ictimai-siyasi hadisələri, təbii fəlakətlər və qəzalar, ictimai münasibətlər, tarixi şəxsiyyətlər, ədəbi simalar haqqında ilk yaradılan dahiyanə əsər lətifələrdir. Lətifələr tarixin çiyin yoldaşıdır, insanların gələcəyə inam yeridir. Lətifələr həm də bütöv bir millətin dünyagörüşüdür.

İşin elmi yeniliyi: Lətifələrin janrdaxili dəyişmələri ilk dəfə elmi şəkildə öyrənilir, bu sahədə aparılmış araşdırmalar ümumiləşdirilir.

İşin nəticəsi: Lətifələrin növlərinin (janrdaxili dəyişmələrinin) öyrənilməsi, lətifə örnəklərinin müqayisəli təhlil metodu ilə tədqiq olunması qarşıya bir məqsəd kimi qoyulmuş, toplanmış və nəşr olunmuş lətifələr elmi ardıcıllıqla nəzərdən keçirilmiş, onların düzgün təyinatı aparılmışdır. Lətifələrin janrdaxili dəyişmələrinin folklorşünaslıq elminin müasir tələblərinə uyğun şəkildə araşdırılmasına ehtiyac olduğu qeyd olunmuşdur.

Ədəbiyyat

1.Abbaslı S. Azərbaycan lətifələrinin regional xüsusiyyətləri. Bakı: Nurlan, 2011.
2.Alarlı B. Şeyx Məhəmmədin yumorları // Sözün işığı, 2012, № 107 (iyun), s. 27-28
3.Allahverdiyev M. Azərbaycan xalq teatrı tarixi. Ali məktəblər üçün dərslik. Bakı: Maarif, 1978.
4.Aslanov E. El-oba oyunu, xalq tamaşası: Xalq oyun-tamaşa mədəniyyətimizdə geyim və adların izahlı söz kitabı.- B.: İşıq, 1984.
5. Aşı mollanın, başı mollanın. Toplayıb tərtib edəni və nəşrə hazırlayanı Ə. Hüseynzadə.- B.: Yazıçı, 1983.
6. Atmacalar. Tərtib edəni Qulam Məmmədli.- B.: Uşaqgəncnəşr, 1956.
7. Ayrım bəzəmələri. Toplayanı V. Vəliyev.- B.: Gənclik, 1983.
8.Azərbaycan folkloru antologiyası, VII kitab. Muğan folkloru (Alarların arasından toplanmış folklor nümunələri). Toplayanı Bilal Hüseynov.- B.: Nurlan, 2008.
9.Azərbaycan folkloru. Məktəblilər üçün. Tərtib edəni və ön sözün müəllifi Bəhlul Abdulla. Bakı: Şərq-Qərb, 2005.
10.Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. Üç cilddə, ikinci cild. Bakı: Elm, 1983.
11.El düzgüləri, elat söyləmələri. Toplayıb tərtib edəni Məhərrəm Qasımlı.- B.: Azərnəşr, 1993.
12.El-oba gülməcələri. Toplayanı Arzu Hüseynova.- B.: Azərnəşr, 1993.- 64 s.
13.Ədəbiyyatşünaslıq terminləri lüğəti. Tərtib edəni Ə. Mirəhmədov. B.: Maarif, 1978.
14.Əmir H. Şopi kişinin sərgüzəştləri.- Cəlilabad: Sözün işığı, 2011.
15.Fərzəliyev T. Azərbaycan xalq lətifələri.- B.: Elm, 1971.
16.Gözəllik suyu: Türk ədəbiyyatından seçmələr. Tərtib edənləri, çevirənləri və redaktorları Məmməd Aslan və Hidayətdir.- B.: Gənclik, 1991.
17.Hacıyeva M. və Rıhtım M. Folklor və təsəvvüf ədəbiyyatı sözlüyü.- B.: Nurlan, 2009.
18.Xutdı xumar/ Ərtekiler.- Aşqabat: Türkmenistan, 1980.
19.İsmayıloğlu A. Molla Qeybullanın sərgüzəştləri.- B.: Şirvannəşr, 2002
20.Kazımoğlu (İmanov) M. Gülüşün arxaik kökləri. Bakı: Elm, 2005.
21.Kazımoğlu M. Xalq gülüşünün poetikası. Monoqrafiya. Bakı: Elm, 2006.

22.Kərkük folkloru antologiyası. Toplayanı, tərtib edəni, işləyəni və ön sözün müəllifi Qəzənfər Paşayev.- B.: Azərnəşr, 1987.
23.Kemine bilen pir. Şorta sözler. Yaşlar üçin.- Aşqabat: Maqarıf, 1982.
24.Kürdəmirli Azərin boyamaları.- Tək səbir, 2000, 3-10 mart
25.Qabusnamə. B.: Azərnəşr, 1989.
26.Qasımlı M. Dünəni yaşadan, sabahlara isə soraq aparan kitab.- Mabudoğlu Z., Bəşirqızı U. və Adışirinov K. Şəkidə məhəllə adları, soylar və ləqəblər (II kitab). Bakı Nafta-Press, 2009.
27.Məşədi Abbas Şahmarlı. Bir şirin dilə həsrətəm. Şeirlər və olmuş əhvalatlar.- B.: Araz, 2001.
28.Min beş yüz ilin Oğuz şeiri: Antologiya. Şeir mətnlərinin, müəlliflər və əsərlər haqqında məlumatların, lüğətin tərtibçisi, ön və son sözün müəllifi Anar.- B.: "Azərbaycan" nəşriyyatı, 1999.
29.Orucov T. Qaravəlli və lətifələrin janr xüsusiyyətləri.- Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. On dördüncü kitab.- B.: Səda, 2006, s. 122-133
30.Ordubadlı Azərin bədyələri.- Tək səbir, 1998, 1-10 oktyabr
31.Ordubadlı Azərin bədyələri.- Tək səbir, 1998, mart sayı
32.Rəvayətlər: Din və cəhalət əleyhinə məzəli hekayələr. Toplayanı Ə. Hüseynzadə.- B.: Azərnəşr, 1974.
33.Şəbədələr.Toplayanı N. Əbdülrəhmanlı.- B.: Gənclik, 1991, 48 s.
34.Şəkinin gülüş çələngi. Tərtibçi H. Əbdülhəlimov.- : B.: İşıq, 1987.
35.Şərq xalqlarının lətifələri. Tərtib edəni T. Fərzəliyev.- B.: Yazıçı, 1982.
36.Turkmenskiy yumor. Per. s turkm. O.Dovletovoy, N. Jelninoy, M. Zlobinoy i dr. Predisl. B. Karrıeva.- Aşxabad, Ilım, 1978.
37.Vəliyev V. Ə. Azərbaycan folkloru. Ali məktəblər üçün dərslik.- B.: Maarif, 1985.
38.Vətən qürbətdə qaldı: Göyçə mahalından toplanmış folklor örnəkləri. Toplayanı, tərtib edəni və ön sözün müəllifi H. İsmayılov.- B.: Yazıçı, 1993
39.Zaman zaman içində: Türk xalqlarının nağılları. Tərtib edəni və Azərbaycan türkcəsinə çevirəni F. Gözəlov.- B.: Yazıçı, 1993.

Bilal HUSEYNOV

Intergenre changes of anekdote

In the article the scientific sequence of changes of anekdote is researehed for the first time. In Azerbaijani folklore anecdotes (jokes) have many kind and they are various by names in different regions. Usually anecdotes are determined according to their tellers, regions, countries and genre features are studied.

Bicause of this principle anecdotes (jokes) are grouped as follows:

According to the speading area: a) International significant anecdotes; b) Local anecdotes, or popular anecdotes; c) Regional anecdotes.

For the author: a) anecdotes by author; b) anecdotes without author.

For experession form: a) in the form epic; b) in the form of lyric.

Intergenre changes of anecdotes are grouped as follows:

-bazama and boyama;
-gulmaja, shabada and laglagi;
-zarafat (joke), dodaggachdi, ormazeli ahvalat (funny story);
-atmaja, badya and ojashma;
-garavalli and tekerlama;
-jirnatma;
-mazhaka;
-humor etc.

For example in Borchali shabada, in Garabag region bazama (ornamentation) and boyama (dying), in Mugan region dodaggachdi and atmaja, in Nakhchivan badiya and ojashma are widly spread.

According to their content anecdotes are devided into different kinds (types). Including: a) jokes about individuals (persons); b) jokes about different regions; c) ethnic origin anecdotes; d) anecdotes regarding historical events; e) professional anecdotes.

Key words: Azerbaijani folklore, genre of anecdote, intergenre changes of anecdote.

Билал ГУСЕЙНОВ,

внутрижанровые изменения анекдота

В статье внутрижанровые изменения анекдота впервые исследуется с научной последовательностью. В Азербайджанском фольклоре фнекдоты многообразны и в разных регионах носят разные названия. Обычно назначение анекдотов проводится по рассказчикам, регионам и странам, изучается жанровые особенности. В основе этого принципа анекдоты группируются в таком форме:По ареалу распространения: а) анекдоты интернационального значения; б)локальные анекдоты и анекдоты обшенародного значения; в) анекдоты регионов или анекдоты регионного значения.

По наличии или отсутствии автора: а) авторские анекдоты; б) анекдоты безавтора.

По форме издожения: а) анекдоты в эпической форме; б) анекдоты в лирической форме.

Внутрижанровые изменения группируются следуюшим образом:

- bəzəmə və boyama (расцветка и раскраска);
- gülməcə (насмешка), şəbədə (издевка) də lağlağı (пустословие);
- zarafat (шутка), dodaqqaçdı, yaxud məzəli əhvalat (шутливая история);
- atmaca (реплика), bədyə (импровизация) və öcəşmə (придурка);
-qaravəlli və təkərləmə;
- cırnatma (дрознить);
- məzhəkə (водовиль);
- юмор и др.

Например, в Борчалы şəbədə (издевка), в Карабахском регионе bəzəmə və boyama (расцветка и раскраска), в Муганском регион dodaqqaçdı və atmaca (додаггачды и реплика), в Нахчеване bədyə və öcəşmə (импровизация и придурка) широко распространены.

Анекдоты и по содержанию делятся на виды. Сюда входят: а) анекдоты про отдельных лиц; б) анекдоты про отдельных регионов; в) анекдоты этнического происхождения; г) анекдоты связанные историческими событиями; д) профессиональные анекдоты.

Ключевые слова: Азербайджанский фольклор, анекдотный жанр, внутрижанровые изменения анекдота.

Redaksiyaya daxil olma tarixi: 21.02.2019
Çapa qəbul olunma tarixi: 25.06.2019
Filologiya üzrə fəlsəfə doktoru Elçin Abbasov tərəfindən çapa tövsiyə olunmuşdur

SAHİLƏ MUSTAFAYEVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent
sahilamustafa@yahoo.com
Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134
Azərbaycan Dillər Universiteti

DİSKURSUN FORMALAŞMASINDA RİTMİK STRUKTUR

Xülasə

Hər bir dildə diskurs parçalarının yaranmasında cümlə üzvlərinin aktuallaşması mühüm əhəmiyyət kəsb edir. Aktuallaşma söz sırası, formal qrammatik vasitələr və periodik elementlərlə bağlıdır. Aktuallaşmanın qeyd etdiyimiz elementlərə əsasən bölgüsünü verməyə çalışsaq diskursun strukturunu belə müəyyən edə bilərik:

1. Söz sırasının dəyişməsi yolu ilə yaranan struktur;
2. Formal-qrammatik vasitələrdən istifadə etməklə yaranan struktur;
3. Markerlərdən istifadə etməklə yaranan struktur;
4. Prosodik aktuallaşma yolu ilə yaranan struktur.

Diskursun strukturunun yaranmasında bu bölgünün hər birinin öz rolu vardır. Diskursun təşkilində söz sırası mühüm rol oynayır. Diskursda sözün sıralanmasının semantikaya və cümlənin propozisiyasına təsir etdiyini xüsusi qeyd etmək lazımdır. Məsələn, /Qarşıdakı, ikimərtəbəli, yaraşıqlı, sarı binanın birinci mərtəbəsində onların iqamətgahı yerləşir// cümləsində söz düzümü təsadüfi deyil. Cümlənin niyə belə başlaması kontekstdən asılıdır. Söhbət əsnasında ünsiyyət iştirakçıları müzakirə edirlər və yaxınlıq əlamətini qabağa çəkirlər. Bu da sözün deyktik funksiyasından irəli gəlir. İkinci yerdə gələn söz də yer mənasını bildirir. Lakin sonrakı sifət keyfiyyət mənasını bildirir. Nəhayət, rəng bildirən sifət predmetə daha yaxın olduğu üçün bilavasitə onun qarşısında işlənir. Bu normal söz düzümü sayılır. Bunun əvəzinə rəng bildirəni sözü qabağa çəkmək üçün əlimzdə kifayət qədər kontrastiv-kontekst əsasları olmalıdır (2, s. 81).

Açar sözlər: diskurs, ritmik struktur, ton, intonasiya, eksperiment

Diskursun strukturunun formalaşmasında intonasiya, fasilə, vurğu kimi prosodik vasitələrin rolu danılmazdı. İntonasiya diskursun formal substansional təşkilinin əsas əlaməti hesab edilir. Diskurs daxilində intonasiya konturları bir-biri ilə əlaqəyə girir və onun prosodik strukturunu yaradır (3, s.68). Diskursu təşkil edən elementlər, onların başlanğıcı və sonu intonasiya əlamətlərilə daha tez nəzərə çarpır. Hər bir şifahi diskursda məlumatın ötürülməsi əsas funksiya daşıyır.

Diskurs intonasiyası üzərində işləyən bir qrup alimlər diskursda fasilənin rolunu da xüsusi vurğulayırlar (4, s. 9).

Fasilənin müddəti, fasilə vaxtının seçilməsi danışanın niyyətinə uyğun olaraq dəyişə bilər. Lakin hər bir danışanın özünə məxsus fasiləsi ola bilməz:

a. /but (o.8)//

b. /as (o.3) is well known (1.1)//

c. /it (o.2) very frequently happens that you you'll get a (o.3) co-occurrence of (o.2) an item with (1.o)//

d. /a recognised grammatical class (1.o)//

e. /erm (o.4) say a class of possessives or a class of (o.7)//

f. /erm negatives of one sort or another (o.6)//

g. /so that it is (o.4) erm (1.1)//

h. /we cannot restrict lexical patterning (o.6)//

i. /entirely to items as items (1.1)//
j. /erm (o.6)//
k. /whatever that may mean in itself may mean (1.2)//
(- amma (o/8)
- məlim olduğu kimi (1.1), belə ki, (o.3)
- bəzi qrammatik mövzuların başlıqlarının bərabər istifadə hallarına rast gəlmək mümükündür (1.o)
- ee (o.4) yiyəlik halları, yaxud da bu və ya digər inkar halları (o.6)
- bu da onu ifadə edir ki, (o.4) ee (1.1)
- ee (o.6)
- bu nəyi ifadə edirsə (1.2))

(*Nümunədə göstərilən rəqəmlər bir dəqiqədə fasilənin uzunluğu müdətini göstərir*.) Göründüyü kimi, danışan nəzərdə tutduğu məlumatı verənə kimi bir neçə dəfə fasilə edir.

Mütəxəsislərin fikrincə fasilənin aşağıdakı növləri vardır :

1. Geniş fasilələr: Bu fasilə növü 3.2-dən 16 saniyəyə kimi olan müddəti əhatə edə bilər. Bu hal, danışan dinləyənin məlumatı dərk etməsi üçün, yaxud da deyiləni yazmaq üçün edilən fasilədir. Yazıda bu cür fasilə növünü + + işarəsi ilə göstərirlər.

1. Uzun fasilələr– Bu fasilə növü 1.0 – 1.9 saniyələr arasında olur. Bu fasiləni + işarəsi ilə göstərirlər.

2. Qısa fasilələr. Bu fasilələr 0.1-0.6 saniyələr arasında edilir. Bu fasilə növü isə - işarə ilə göstərilir.

G. Braun və G. Yül informasiya sərhədlərinin müəyyənləşməsində geniş və uzun fasilələrin rolu olduğunu iddia edirlər[1. s, 138]. Bununla belə, qısa fasilələr də vahid-intervalı kimi nəzərdə tutulur:

/And as he's holding onto the handlebars he takes off with them (1.1) Um – (o.7) then (o.4) uh – (2.1) a girl – on a bicycle (1.15) comes riding towards him . . . in the opposite direction. / (O, velosipedin sükanını əlində saxlayır, velosipeddən düşür (1.1) Im - (o.7) sonra – (o.4) ah – (2.1) qız – velosipeddə (1.15) ona tərəf gəlir ... əks istiqamətdən).

U.Çeyf qeyd edir ki, diskurs informasiyasının sərhədlərini müəyyənləşdirməkdə fasilənin rolunu, yazılı diskursda durğu işarələrinin terminal markerlər kimi istifadə olunması ilə müqayisə etmək olar (5, s.18). Qeyd etmək lazımdır ki, U.Çeyf fasilənin uzunluğunu danışanın növbəti nitqə keçid alması üçün planlaşdırdığı vaxt hesab edir:

"....mətndəki fasilə yerlərinə paraqrafın yeni sərhədləri aiddir. Yuxarıdakı nümunədə danışan bir neçə dəfə dayanır və yenidən danışmağa başlayanda artıq digər yeni bir məlumatla sözünə davam edir" (6, s. 16).

Bu nümunədəki /....*Um* - və *uh/* – "fasilə doldurucuları" adlandırılır. Birinci cümlənin sonunda danışanın tərəddüdlə etdiyi fasilə vaxtı və digər cümlənin başlanğıcındakı vaxt 6.25 saniyədir. Burada aydın və məntiqli əqli prosesin nəticəsi aşkar görünür (7, s.62). Göründüyü kimi, diskurs tədqiqatçısının uzun və geniş fasilələri informasiya vahidlərilə əlaqədar olan fonoloji vahidlərin sərhədlərinin müəyyənləşdirməsi üçün istifadə olunur.

Doğrudur diskursun, yaxud da mətnin sərhədlərinin müəyyənləşdirilməsində fasilənin roluna münasibət mübahisəlidir. Mübahisəli məsələ onun diskursun sərhədini müəyyənləşdirməkdə oynadığı roldur. Bəzi dilçilər fasilənin diskursun sərhədlərini müəyyənləşdirməkdə əsas rol oynadığını iddia edirlər. Reformatiski yazır: "Mətni təşkil edən cümlələr müəyyən pauza ilə işlənir. Pauza cümlənin temp və ritmini qaydaya salır. Qaydaya salınmış cümlələr mətni, yaxud da diskursu düzəldir (8, s. 56). /John had dulled himself to Emily, but he would have needed to blind himself to miss the change that came over her now// (Con Emili üçün özünü kütlüyə vurardı, amma o, indi ona üstün qəlmək üçün dəyişmək imkanını da əldən verməzdi) Bu cümlədə intonasiya komponentləri məlumatın çatdırılmasında əsas rol oynayır.

Beləliklə, təhlildən belə nəticəyə gəlirik ki, diskursun formalaşmasında, onun mahiyyətinin açılmasında, sərhədlərinin müəyyənləşməsində prosodik amillər (*intonasiya, vurğu, temp, ritm, fasilə* və s.) aparıcı rola malikdir. Yekunda, yenə də vurğulamaq istərdik ki, danışanın ötürdüyü məlumatın *yeni məlumat* kimi qəbul edilməsi və fonoloji zirvə kimi müəyyən edilməsi, yaxud da məlumatın *verilmiş* olması və fonoloji zirvəilə işarələnməməsi diskursun quruluşundan asılı deyil. Bu danışanın nə demək istəməyi ilə onun dinləyicisinin informasiyanı qəbul etməsi arasındakı əlaqəyə münasibətindən asılıdır.

F.Y.Veysəlliyə görə, dil fərdlərlə, onların toplusu cəmiyyətlə bağlıdır, həm də müəyyən mənada mücərrəd bir varlıqdır. Odur ki, insan dilinin mövcudluğu üçün mühüm aspektlərdən biri kimi çıxış edən danışma və eşitmə məsələlərində dilin rolu böyükdür. Bu da o anlama gəlib çıxır ki, dil ünsiyyət prosesində aparıcı vasitədir. Dil ünsiyyət vasitəsi kimi ona görə fəaliyyət göstərir ki, dil vahidləri insan tərəfindən reallaşır, kodlaşdırılır və insan tərəfindən qəbul edilir. Dil ünsiyyətində danışan qədər dinləyən də aparıcı rol oynayır. Hava dalğaları səsin gücündən və tezliyindən asılı olaraq dinləyənin qulağına daxil olur, mexaniki prosesə çevrilir, sinirlərə çatır, sinirlər isə eyni eşitmə mərkəzində oyanma yaradır. Beləliklə, göndərilən məlumat dərk edilir və dilin kommunikativ funksiyası yerinə yetirilmiş olur. Ünsiyyət modelində 4 komponenti bir-birindən ayırmaq lazımdır: ünsiyyətin linqvistik bazası; ünsiyyətin artikulyator bazası; ünsiyyətin akustik bazası; ünsiyyətin perseptiv bazası (2, s. 96).

Hər bir dialektə və fərdə aid olan dil ayrılıqda tədqiq edilməlidir. Hər bir fərdin danışığındakı müşahidələrimiz vasitəsilə bir-birinə oxşayan və ya fərqlənən akustik obrazlar axtarıb tapmaq mümkündür (3, s. 73).

Akustik baxımdan dil səslərinin strukturu çox mürəkkəbdir. Hər bir səs kiməsə nəsə demək ehtiyacından doğduğundan tələffüz edilməli və həm də eşidilməlidir (2, s. 186). Bunun üçün də onun müəyyən akustik əlamətləri olmalıdır. Akustik strukturda istifadə olunan nitq siqnalları danışığın əsasını təşkil edir. Bu zaman tələffüz edilərək ötürülən səs tellərinin titrəməsindən asılı olaraq yayılır. Yayılan səs o cür tələffüz olunmalıdır ki, informasiyanın göndərildiyi adam onu lazım olan formada eşitsin və qavrasın. Səsin yayılması hava təzyiqinin gücündən, iqlim və məkandan asılı olur. Hesablamalara görə, 11° havada səsin saniyədə sürəti 331 m-dir (4, s.186). Səslənmə zamanı təkrar dalğaların yaratdığı səslər periodik (bura saitlər daxildir), qeyri-mütəmadi dalğaların yaratdığı səslər isə qeyri-periodik (bura sonorlar və cingiltili samitlər daxildir) olur. Birinci qrupa daxil olanlar musiqili və ya tonlu, ikinci qrupa isə tonla küyün qarışığından yaranan səslər aiddir.

Səslərin öyrənilməsi çox diqqət və zəhmət tələb edən bir işdir. Bu zaman dəqiq elm kimi artıq təsdiqini tapmış eksperimental fonetikanın imkanlarından istifadə etmək lazımdır. Qeyd etmək lazımdır ki, dil faktlarının izahında eksperimental fonetikanın rolu artıq uzun illər bundan əvvəl sübutunu tapıb. Eksperimentin üstünlüyünü L.B.Şerba da qeyd etmişdir. O yazır: "Mənə çoxdan qəti məlumdur ki, şəxsi müşahidə yolu ilə, məsələn, rus dilində felin şəxs formasının mənasını açmaq mümkün deyil. Mənim linqvistik fikirlərimin əsasında həmişə eksperimentdən alınan dil materialları, dil faktları dayanır" (3, s. 167).

Hər bir səsin tələffüzünə müəyyən zaman kəsiyi tələb olunur. Danışanın akustik görünüşündə üç parametr əsas götürülür: ton, intensivlik, zaman (3, s. 135). Bu parametrlərin hər biri ünsiyyətin akustik aspektlərini düzgün müəyyən etməyə imkan verir. Eksperiment əsasən sait səslərin akustik aspektlərinin dəqiq təyin olunması ilə uğurlu hesab edilə bilər. İngilis dilindəki /maɪ ˈmʌðə(r) wɑːz tu dr aɪ tə ɑ : n s ə // və /juː ˈɔːlweɪz nou wen hiː iz hæpi// cümlələrinin akustik parametrlərinin qiymətləri əsasında cümlələrin intonasiya konturu müəyyən edilmişdir. Alınan akustik göstəricilər cədvəldə verilmiş və onların əsasında qrafik tərtib edilmişdir.



/m aı ˈmʌðə(r) wɑːz t u d r aı tə α : n s ə//

/ ju: ˈɔːlweɪz nou wen hi: iz hæpi //

Cədvəl 1

saitlər / parametrlər	aı	ʌ	ə	ə	u:	aı	ə	a	ə
f (hs)	145	190	130	126	140	136	130	143	112
i (db)	74	75	72	70	71	60	63	69	59
t (m/san)	124	110	84	80	90	290	60	96	95

Cədvəl 2

saitlər / parametrlər	u:	ɔ	eı	ou	e	i:	i	æ	i
f (hs)	170	168	182	160	143	136	126	134	118
i (db)	71	73	77	71	69	64	63	60	56
t (m/san)	108	100	130	170	90	68	60	106	112

Cümlənin intonasiya konturu və əsas ton tezliyinin qiymətləri bitkinlik intonasiyasının reallaşdığını göstərir. /maı 'mʌð7 w7z tu draı tə α :nsə// cümləsində saitlərin orta ton tezliyi 139 hs-ə bərabər olduğu halda, sonunda əsas ton tezliyinin göstəriciləri orta ton tezliyindən xeyli aşağıdır. Məsələn, cümlənin sonundakı /ə/ saitində əsas ton tezliyi 110hs ölçüsündədir. Cümlədə interval fərqi 29hs kəmiyyətindədir. Halbuki, cümlənin başlanğıcında melodiklik orta ton registirindən nisbətən yüksək 145-190hs kəmiyyətindədir. Cümlədə melodiklik zirvəsi ikinci hecada 190hs ölçüsündə qeydə alınmışdır ki, bu da nəqli cümlələrin intonasiya konturu üçün tam səciyyəvidir (bax: cəd. 1, qr. 1). Zaman parametrinin təhlili onun melodiklik parametrinin qiymətlərindən fərqləndiyini əks etdirir. Mütləq qiymətlər əsasında çıxarılmış orta tələffüz tempi 113 m/san-dir. Lakin cümlənin uzunluq qiymətlərində sona doğru tələffüz tempinin ləngiməsi müşahidə olunur. Söyləmin son hecasında /ə/ saitinin mütləq uzunluğu 95 m/san-dir. Zaman parametrinin qiymətlərinin sonluğa doğru artması bitkinlik intonasiyasından xəbər verir. Cümlənin intensivlik göstəricilərinin təhlili onun zəifləyən istiqamətdə hərəkətini göstərir. Orta intensivlik 68 db-dir. Söyləmin əvvəlində amplitudların göstəriciləri 74-75 db, sonuncu hecada intensivlik 59 db-dir. İntensivlik qiymətlərində interval fərqi 6 db-dir (bax: cəd. 1, qr. 1).

Qrafik 1



Qrafik 2



Təhlil olunan / ju: ˈɔːlweɪz nou wen hi: iz hæpi // cümləsində saitlərin orta ton tezliyi 148 hs-dir. Cümlənin sonunda melodiklik göstəriciləri onun orta ton tezliyindən xeyli aşağıdır. Bu 148 hs: 118 hs nisbətindədir. Melodiklik göstəriciləri arasında interval fərqi 30 hs-dir. Cümlənin başlanğıcında melodiklik orta ton registirindən xeyli yüksəkdir - 170-182 hs.

Cümlədə melodiklik zirvəsi üçüncü hecada 182 hs-dir. Alınan nəticələr nəqli cümlələrin intonasiya konturu üçün tam səciyyəvidir (bax: cədvəl 2, qrafik 2). Temporal göstəricilərin təhlili onun melodiklik parametrinin qiymətlərindən fərqləndiyini üzə çıxarır. Cümlədə orta tələffüz sürəti 104 m/san-dir. Cümlənin sonuna doğru tələffüz tempi ləngiyir ki, bu da nəqli cümlələr üçün təbii haldır. Cümlənin son hecalarında reallaşan /æ/ və /ə/ saitlərinin mütləq uzunluqları 106-112 m/san-dir. Zaman parametrinin qiymətlərinin sonluğa doğru artması bitkinlik intonasiyasının göstəricisidir (bax: cəd. 2, qr. 2). Cümlənin intensivlik göstəriciləri onun zəifləyən istiqamətdə olduğunu göstərir. Təhlil olunan cümlədə orta intensivlik 67 db-dir. Söyləmin əvvəlində intensivlik 73-77 db, sonuncu hecada intensivlik 56 db-dir. İntensivlik qiymətlərində interval fərqi 21 db-dir. Ossilloqrafik təhlilin nəticələrinə əsasən təhlil olunan cümlədə bitkinlik intonasiyasının reallaşmasından xəbər verir.

Ədəbiyyat

1. Abdullayev K.. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı, Maarif, 1998.
2. Вейсалли Ф.Я. и Тарасова Д. В. Проблема дискурса в современном лингвистике. Azərbaycanda xarici dillər. Bakı: Mütərcim, №2/2007.

3. Veysəlli F.Y. Seçilmiş əsərlər. Bakı: Mütərcim, 2009.
4. Brown G., Yule G. Discourse Analysis. Cambridge: Cambridge University Press, 1983.
5. Chafe W. Discourse, consciousness, and time. The flow and displacement of conscious experience in speaking and writing. Chicago: University of Chicago Press, 1994.
6. Brazil D., Coulthard M. and et al. Discourse intonation and language teaching. Harlow: Longman, 1980.
7. Roach P. English Phonetic and Phonology: a practical course. Cambridge University Press, 1991.
8. Thompson S. Teaching Intonation on Questions. "ELT Journal 49(3), pp. 255-245, 1995.
9. D. Brazil. The Communicative Value of Intonation in English. [1st Edition]. Discourse Analysis Monograph №8. Birmingham: English Language Research, The University of Birmingham, 1985.
15. Дюбуа Д. Транскрипция дискурса. М.: Прогресс, 1993.

Mustafayeva S.

Rhythmic structure in the formation of the discourse

Summary

The article deals with the rhythmic structure in the formation of the discourse. It becomes clear that discourse intonation (DI) is an approach to the teaching and analysis of everyday speech. Discourse intonation is meant to be concerned with the speakers' moment-by-moment context-referenced choices. It recognizes four systems of speaker's choice: prominence, tone, etc. It is noteworthy to mention that prosodic features are known to have an important role in the formation of the discourse, and the definition of its boundaries. In conclusion, again, we would like to emphasize that the transmission of the information transmitted by the speaker as new information and the phonological peak, or that the information is presented and not marked by the phonological sum, is not dependent on the structure of the discourse. What this speaker wants to say depends on how the listener relates to his or her communication.Studying the sounds is a work that requires a lot of attention and effort. In this case, it is necessary to take advantage of the already proven experimental phonetics as a science. It should be noted that the role of experimental phonetics in the interpretation of language facts has been proven many years ago. The advantage of the experiment was also noted by L.V. Sherba. He writes he had known that it was not possible to reveal the meaning of the non-finite verb depending on the person's own experience, for example in Russian. 'Based on my linguistic ideas, the language materials and language facts from the experiment are always based on', he added.

Key words: discourse, rhythmic structure, tone, intonation, experiment

Мустафайева С.

Ритмическая структура в формировании дискурса

Резюме

В статье рассматривается ритмическая структура в формировании дискурса. Становится ясно, что дискурсивная интонация (ДИ) - это подход к обучению и анализу повседневной речи. Предполагается, что интонация дискурса связана с мгновенным контекстным выбором докладчиков. Он распознает четыре системы выбора динамика: громкость, тон и т. д.Следует отметить, что просодические особенности, как известно, играют важную роль в формировании дискурса и определении его границ. В заключение,

еще раз, мы хотели бы подчеркнуть, что передача информации, передаваемой говорящим в виде новой информации и фонологического пика, или то, что информация представлена и не помечена фонологической суммой, не зависит от структуры дискурс. То, что хочет сказать этот говорящий, зависит от того, как слушатель относится к своему общению.

Изучение звуков - это работа, которая требует много внимания и усилий. В этом случае необходимо использовать уже доказанную экспериментальную фонетику как науку. Следует отметить, что роль экспериментальной фонетики в интерпретации языковых фактов была доказана много лет назад.

Преимущество эксперимента также отметил Л. Б. Щерба. Он пишет, что знал, что невозможно определить значение неконечного глагола в зависимости от собственного опыта человека, например, на русском языке. «Основываясь на моих лингвистических идеях, языковые материалы и языковые факты из эксперимента всегда основаны на», добавил он.

Ключевые слова: дискурс, ритмическая структура, тон, интонация, эксперимент

Redaksiyaya daxil olma tarixi: 21.02.2019
Çapa qəbul olunma tarixi: 25.03.2019
Rəyçi: Filologiya elmləri doktoru, professor Fəxrəddin Veysəlli
tərəfindən çapa tövsiyə olunmuşdur

VƏFA MƏHƏRRƏMOVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Mingəçevir Dövlət Universiteti
Dilarə Əliyeva 21
mhrrmova.vfa@mail. ru.

THE INFLUENCE OF ENGLISH MULTICULTURALISM TERMS TO THE DEVELOPMENT OF BRITAIN LEXICAL STOCK

SUMMARY

Here is a powerful reminder of the complicated and sometimes perilous existence that foreign-born residents could experience in England.

From the 1440s to the 1480s, parliament continued to impose taxes on aliens, and the Tudor regime included the category in the new, comprehensive subsidies developed from the 1520s. In none of these cases, however, did the numbers of persons assessed reach anything approaching the levels of 1440. This was partly a matter of definition: the Irish and the Gascons successfully made their case for immunity after 1440, and the crown offered a series of exemptions to prominent aliens in later taxes. But it was also a sign of the real tension that the tax created, and of the sharper differences that it set up between the native and foreign-born populations. In the longer term, the 1440 tax experiment stands as a serious reminder of the high risks involved when governments attempt to grapple with the question of immigration, and of the trail of administrative failure and political disillusionment that so often results. A number of authors wrote accounts of different cultures, sometimes including aspects of their own. This rich, contemporary ethnographic literature reveals how people viewed the multicultural world in which they lived. Each country in modern Europe also contains ethnic or religious minorities. So we might look at French multiculturalism and consider the Bretons, now or then. Most medievalists would concede that the history of how people in the United States have studied history and literature foreshadowed in a way the current, global approach to multiculturalism. A century ago Europe meant the law, politics, and literature of the Anglo-Norman kingdom, and only adventurous American scholars studied France after the English left for good. Consider that monument to American medievalism, the essays presented to Charles Homer Haskins in 1929. The story over the last decades has been the opening up of medievalism to the entire continent and its people, or the invention of a multicultural Europe. A multicultural basis for medieval history probably came from French scholars. This long-term revisionism proceeded by fits and starts and .England, we often observe, is a nation of immigrants.

Key words: multiculturalism, stock, immigrant, context.

The standard story is that of a sequence of early invasions by the Romans, Anglo-Saxons, Vikings and Normans, followed by the arrival of the Huguenots as refugees from continental Europe during the Reformation, and then the rich mix of ethnicities and cultures brought on by the legacy of empire in the 19th and 20th centuries. An important part of this story concerns migration within the British Isles and the evidence for the movement and interaction of the English, Welsh, Irish and Scots. Much less appreciated are the individual stories of people like Reynauld Newport who, in every generation, moved to England from all parts of Europe and further afield. It is only in recent years, with the free movement of people within the European Community, that we have begun to consider the possibility that immigration was a constant reality in pre-modern England. The 1440 records also provide a fascinating glimpse of foreigners' family and household structures. If the dependants of alien householders – wives, adult children, apprentices and servants – had been born abroad, they too were assessed for the tax.

Herman Blakke, who came originally from Munster in Westphalia, appears in Huntingdon in 1440 with his wife and a servant, Adrian. And even when the head of the household was English, foreign dependants could still be liable. Sir John Cressy, one of the MPs at the very parliament that granted the new tax on aliens, kept several foreign servants at his residence in Harpenden, Hertfordshire, who had presumably been recruited during Cressy's career as a soldier the French wars. There is also much that can be gleaned about the occupations of England's foreign residents in 1440. In major cities and towns such as London, York, Bristol, Southampton and Norwich, we find high concentrations of foreigners, including prominent merchants from the great trading towns of Flanders and northern Italy. But the foreign influence was not only to be found in metropolitan contexts. At Bildeston in Suffolk there were two Aragonese doctors, perhaps drawn to this corner of East Anglia by the large immigrant workforce in the nearby towns of Lavenham, Sudbury and Hadleigh.The tax records also give us rare glimpses of the influence of foreign artists in England: Henry Phelypp, a Flemish sculptor, was living in the household of John Clopton while carrying out work on the rebuilding of the famous parish church at Long Melford in Suffolk. Across the country we find unskilled laborers from Scotland, Ireland, France and the Low Countries eking out a living in the agricultural economy. Many in this latter category were casual or seasonal workers. In Northumberland, they were actually described as 'vagabonds'. Here lies one of the reasons why so many people assessed for the tax actually managed to avoid paying it. One of the hallmarks of the resident alien population was its mobility. Finding these everyday immigrants is no easy task. The English state had no comprehensive way of regulating immigration in the Middle Ages, and although it often used the labels 'denizen' and 'alien', it had no standard means of defining these categories. In the 14th century, the crown began to develop a formal process known as denization, by which an immigrant of good standing in his or her community could renounce allegiance to their former ruler and be given all the rights of an English-born subject. Denization became quite big business by the Tudor period, but because of the costs involved, it tended only to be sought by relatively prosperous and influential immigrants: craftsmen, merchants, clergymen, wealthy landholders, and so on. The records therefore miss an important part of the story by omitting the little people who were much more numerous, more widely dispersed, and ultimately often more influential in determining popular attitudes to immigration.Britain has a long history of absorbing people from different cultural or ethnic groups. Many people date the beginning of modern Britain back to 1066 when French invaders conquered the "English" king and took over the country. The effects of this invasion can still be felt today in the rules and language used to govern the UK. Indeed, it was only after a Parliamentary decree in 1362 that the English language – itself a mix of native and foreign dialects – came to be seen as the official language of Britain. At about the same time writers, such as Chaucer, started producing works in vernacular English. Even then the language popularized by this writing was really only a dialect spoken by the people in one part of the country. The English spoken today reflects many different roots, and continues to adopt and adapt words and phrases from other languages. The English language's propensity to mould itself to the needs and experiences of its many speakers, may also be what makes it the 'lingua franca' in so many countries around the world. In a similar way the UK itself has long adopted a policy of multiculturalism in relation to immigrants[1,34]. Put in very simple terms this means that the UK allows people from different cultures to live in the UK whilst continuing to practice their own cultural traditions rather than expecting them to adapt to, so-called, "British" ways. Multiculturalism is not manifested in all Western countries with a history of immigration. Sometimes this is the result of official government policy and sometimes it is due to the wishes and actions of the immigrants themselves. Rather than expecting a country to assimilate different cultural systems the immigrant is expected, or expects, to adapt their behavior to the country in which they now live. Immigrants to the United States of America, for example, have traditionally shown a strong desire to become "American". They have

wished to redefine themselves by reference to this new land of opportunity. By contrast, in France there have been increasing government moves in recent years to encourage, or force, immigrants to take on the cultural behavior and values of their new home. They came over, in quite significant numbers, as agricultural labourers, as skilled cloth weavers, and as merchants involved in international trade.By the 1370s, however, they were increasingly seen as abusing their special privileges and enjoying unfair economic advantages over their English-born neighbours and co-workers. Reginald survived the backlash, but the Flemish communities in London and other English towns were to be the butt of particularly violent popular hatred during the Peasants' Revolt of 1381. For modern historians, however, it provides an amazingly detailed survey of the geographical distribution, numbers, social status and occupations of foreigners living and working in England in 1440. Certainly not by the scrutiny of anything akin to passports and official papers. Rather, local juries of English-born men were asked to provide lists of all known aliens living in their communities. In some places, such as London, this was done with great thoroughness; in others, like rural Lancashire, it was hardly applied at all. In general, though, the local jurors were quite assiduous. While the largest number of those identified by place of origin in 1440 came from Scotland, Ireland and the areas directly linked to England by sea routes across the Channel and the North Sea, there were also significant numbers of people from Iberia and Italy and a small number from the eastern Mediterranean.

Interestingly, the labels used by the jurors and enumerators were linguistic and/or geographical, and ethnicity was not explicitly mentioned. We know from other evidence that there were north Africans and Middle Easterners in England in the Middle Ages, so the fact that the 1440s records are 'colour-blind' does not mean that they do not include some members of racial and religious minorities. A husband and wife in London were labelled as coming from "Inde", which could mean anywhere east of the Holy Land. The fact that their names, Benedict and Antonia, were explicitly Christian suggests that, in most cases, original ethnicity was obscured by identities acceptable to English Catholic culture[2,67].

Europe's minorities opted for homelands, even in the extreme case of the Jews, who left Europe to find theirs. Much of Europe's medieval history concerns how cultural homelands were absorbed or obliterated by larger groups seeking more land and power. American students, whose conquered land contains remarkable mixes of peoples and traditions, may wonder about what lessons the multicultural life of Europe has for them. The medieval story is violence, persecution, and forced submersion of some identities-consider the Gypsies, Czechs, Irish, and Catalans for four cases among many. Medieval society repressed many cultures but destroyed few. Centuries later demands for justice and homelands continue to haunt European consciences, there and in the neo-Europes as well. Let us look at some multicultural words that migrants created. Alice Spynner, an Irish woman living and working in England, was assessed for the tax on resident aliens at Narborough in Leicestershire in 1440. Alice's occupation is evident from her surname. She was a spinner of wool, a job that was vital to the prosperity of the emergent English cloth industry. Many of Alice's compatriots made their way into south-western and north-western England, though fewer Irish people are found in the east Midlands. She provides a reminder of the importance of women in England's late medieval economy; indeed, her own trade made the word 'spinster' a synonym for the single, independent woman. William Pulayn was a chaplain working in the rural parish of Sledmere in the East Riding of Yorkshire in 1440, where the local jurors identified him as a Scot. Since Scotland was a separate kingdom, and often at war with England, those born there were consistently treated as aliens by the English state. Chaplains were jobbing priests who made a living by saying masses; other foreign chaplains in the tax records of 1440 included confessors and schoolmasters employed in gentry households. William was among his own kind: Scots were the largest minority group in the north of England. Benedict Nicoll is one of the few people specifically identified in the tax records of 1440 as coming from Sweden. He and five others, including a Magnus and an Olaf, are descri-

bed as staying with the University of Cambridge. Medieval seats of higher learning were always international in their membership and influence, but those who were full members of the universities of Oxford and Cambridge generally enjoyed exemption from taxation[3,90]. Whatever Benedict's status and purpose in Cambridge, he was evidently only a temporary resident, for he had disappeared from the record by the time the second instalment of the 1440 tax was collected.John Danyell was from Holland, in the modern Netherlands, and appeared in England in 1440 as a painter living in the city of Lincoln. The occupation of painter had the same ambiguity in the 15th century as it does today: it could mean a house-painter, or a maker of fine art. John's presence in one of the most important cathedral cities of England is a vital clue to the patronage of artists from the Low Countries and of their influence on the northern Renaissance. Alexander Plaustrell, or Palestrelli, was a prominent Italian merchant living in London in the mid-15th century. Originally from Piacenza, he had trading connections across northern Italy, including in Lucca and Genoa. His house was in the Board Street area of London. In 1456, at a moment of high tension, he was physically assaulted in an affray at Cheapside, and the episode set off a series of attacks on Italians across the city[4,89]. It provides us with one of many examples of the tensions between native Londoners and their international business rivals, as well as showing the readiness with which London mobs could target the foreigners in their midst.

Used Literature

1.James, Furnivall, ed. Originals and Analogues of Some of Chaucer's Canterbury Tales.London: Oxford UP, 1872. Rept. 1928.
2.Langland, William. Piers Plowman. Ed. Derek Pearsall. Berkeley and Los Angeles: U ofCalifornia P, 1979
3.Metlitzky, Dorothee. The Malter ofAraby in Medieval England. New Haven and London: Yale up, 1977.
4. Minnis, A. J. Medieval Theory of Authorship: Scholastic and Literary Attitudes in the Later Middle Ages. London: Scholar 1984.

V. Məhərrəmova

İngilis multikulturalizm terminlərinin Britaniya söz fondunun inkişafına təsiri

Xülasə

Məqalə ingilis multikulturalizm terminlərinin coğrafi şəraitdə reprezentasiyası məsələlərinə həsr olunmuşdur. Müəllif multikulturalizm terminlərinin meydana gəlmə səbəblərini araşdırır. Dilçilikdən götürülmüş faktlara əsaslanır. Eyni zamanda müəllif erstralinqvistik faktorlardan bəhs edir. Tədqiqatçı –alimlərin əsərlərinə istinad edir və multikultural dəyərlərin vacibliyinə diqqət çəkir. Britaniya leksik inkişafında lüğət tərkibinin zənginləşməsində sözlərin yanyana düzülüşü və birləşdirilməsinin də rolu az deyildir. Bu müxtəlif mənşədən ola bilər. Burada multikultural leksikanın da təsiri aydın görünür. Dilin tarixi inkişafında sadə və ya düzəltmə sözlər müxtəlif üsullarla birləşərək, bir çox mürəkkəb sözlər əmələ gətirmişdir.

Deməli, birləşən hər iki söz mənalarına görə qaynayıb-qarışır, qovuşma və ya birləşmə halında işləndiyi zaman hər iki sözün əvvəlki mənaları əsasında onlardan fərqli olaraq ,ümumiləşmiş, vahid yeni anlayış ifadə edir. Bu cür hallar Britaniya multikulturalizmində leksik inkişafa səbəb olmuşdur. Belə qovuşma və ya birləşmələrdə yalnız formanı nəzərə alıb, məna və məzmunu yaddan çıxarmaq, əlbəttə, dilin təfəkkürü ilə bilavasitə əlaqədardır. İnsanın idrak fəaliyyətinin müvəffəqiyyətləri sözlər şəklində və söz birləşmələri vasitəsilə cümlələr şəklində dil-

də qeyd olunur. Dil öz inkişafında sadəcə olaraq, məhdud bir çərçivə dairəsində deyil, aşağıdan yuxarıya, sadədən mürəkkəbə doğru inkişaf edir. Məhz belə bir inkişafın nəticəsidir ki, ingilis multikulturalzmində leksik inkişaf baş vermişdir. Mürəkkəb sözlərin və söz birləşmələrinin miqdarı artmışdır.

Bu mənada Britaniya multikulturalizminin leksik inkişafında sözün məna strukturundakı dəyişmə onun ifadə etdiyi əşya və ya məfhumla bağlı olmuşdur.

Açar sözlər: multikulturalizm, fond, mühacir, kontekst.

В. Магеррамова

Влияние Английских терминов мултикултурализма к развитию Британских лексический фонд

Резюме

В данной статье рассматриваются к вопросу о репрезентации Британских терминов мултикултурализма в географических ситуациях. Течение анализа большое внимание обращено на фактом ,полученные из литератур. Один из важнейщих целей-раскрыть их роль. В статье речь идёт о мултикултурализм. Автор пытается раскрыть роль екстралингвистические факты. Она ссылаясь на работы ученых исследовавших , а также подчеркивает ее важность . Сегодня одна из основных задач подготовки специалистов на языковых факультетах вузов заключается в формировании у них коммуникативных умений на таком уровне, который позволил бы осуществлять контакты на изучаемом иностранном языке в различных сферах и ситуациях, как с носителями языка, так и с людьми, использующими данный язык в качестве коммуникации, но не являющихся его носителями. В подобной ситуации одной из первоочередных задач учителя иностранных языков становится выявление наиболее оптимальных путей, позволяющих студенту овладеть изучаемым языком как деятельностью в максимально короткие строки. Важнейшими проблемами, которые решает современный преподаватель иностранного языка являются: приспособление учебной программы к потребностям и индивидуальным способностям студентов, отбор учебных материалов, подлежащих использованию в данной аудитории, определение наиболее рациональных путей использования информационных- коммуникационных технологий, а также разработка наиболее оптимальных методов, содействующих максимальному ускорению процесса овладения языком как средством общения. Говоря об обучении являющемуся основным языком общения на глобальном уровне английскому языку в условиях языкового вуза следует отметить, что здесь перед преподавателями ставится задача чрезвычайной важности: научить студентов адекватно, использовать английский язык в качестве средства речевого общения в мултикултуралъном мире .

Ключевые слова: мултикултурализм, фонд, иммигрант, контекст.

Redaksiyaya daxil olma tarixi: 21.02.2019
Çapa qəbul olunma tarixi: 25.03.2019
Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru Nuriyyə Əliyeva
tərəfindən çapa tövsiyə olunmuşdur

KÖNÜL ABDULRƏHIMOVA
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası
Filologiya üzrə fəlsəfə doktoru, dosent

INGILIS ATALAR SÖZLƏRINDƏ "TO MAKE" FEILI ILƏ DÜZƏLƏN LEKSIK BIRLƏŞMƏLƏR

Annotasiya

Məqalədə ingilis atalar sözlərində "*to make*" feili vasitəsilə düzələn leksik birləşmələrin təhlili aparılır. Bu feilin təsirliliyi özünü həm bir tamamlığı tələb edən monotranzitiv, həm də 2 tamamlığı tələb edən ditranzitiv feillərdə göstərərək idarə əlaqəsinə girir. Bununla bağlı tamamlıqlar semantik mənasına görə, monotranzitiv feildən ibarət leksik birləşmələr üzərində modelə əsasən təsnif olunur. Bir çox atalar sözlərində leksik birləşmələrin tamamlıqları keyfiyyət bildirən təyinedici sözlə, yəni sifət nitq hissəsi ilə müşayiət olunur.

İngilis atalar sözlərində "*to make*" feilindən düzələn leksik birləşmələrin semantik təhlilini apararkən, ənənəvi dilçilikdə xəbər vəzifəsini yerinə yetirən "*to make*" feilinin leksik birləşməni yaratmaq qabiliyyətini müşahidə etmək olur.

Araşdırma nəticəsində aydın olur ki, birləşmə tərkibində "*to make*" feilinin müxtəlif leksik mənaları özündə birləşdirir.

Tamamlıq kimi leksemlə birləşən feillər təsirlilik kimi leksik-semantik xüsusiyyəti ilə səciyyələnir. Bu xüsusiyyət də dilin leksik sistemində leksik-semantik qruplardan ibarət paradiqmatik sıranın yaranmasına səbəb olur. Ingilis dilində bütün təsirli feillər kimi "to make" feili ilə də həm sözönü, həm də sözönüsüz vasitə ilə birləşmə yaradır. Birləşməni təşkil edən leksik vahidlər konkret modelə əsasən idarə əlaqəsində iştirak edir. Feilin təsirlilik xüsusiyyəti exseperiment yolu ilə yoxlanılır. Eksperimentdə təsirli feilin kökü ilə uyğun olan substantivləşmiş, sifətləşmiş sözə çevrilir. Bu leksemlər də modeldə eyni feilin təsirliliyi işlənməsini tələb edir. Bundan əlavə feilin təsirliliyi bir və ya iki tamamlığı tələb etməsi ilə səciyyələnir.

Açar sözlər: leksik birləşmə, idarə əlaqəsi, leksem, model, monotranzitiv feil, ditranzitiv feil, atributiv əlaqə

Ingilis atalar sözlərində işlədilən feillər içərisində "*to make*" feilinə müxtəlif birləşmələrdə çox rast gəlmək olur. Bu cəhətdən həmin feildən ibarət leksik birləşmələrin dilçilik baxımdan təhlilinə müraciət etmək təsadüfi deyil, çünki "*to make*" feilinin çoxmənalılığı həm məcburiyyət mənasını bildirən to cause, to compel, to force, to induce kimi kauzativ feillərlə birlikdə eyni leksik-semantik qrupda (LSQ) olması, həm də "təhrik etmək, təsir etmək, yaratmaq, etmək, düzəltmək, həvəs oyatmaq " və s. mənalarda digər leksik-semantik qruplara daxil olması ilə səciyyələnir. Buna görə də "*to make*" feilinin müxtəlif leksik birləşmələrdə işlənməsi onun hansı mənada olan tamamlıq, hansı nitq hissəsi vasitəsilə ifadə olunması ilə yanaşı, tamamlığın hansı semantik bölgüyə aid olması feilin leksik mənasını konkretləşdirir.

Bütün xalqların dilində olduğu kimi, şifahi xalq yaradıcılığına aid olan atalar sözlərində də qədim ingilis dilində "macian" feilindən inkişaf edən "to make" feilinin ilkin mənası kauzativliyi müasir dövrə qədər saxlayır. İngilis dilinin izahlı lüğətlərində göstərildiyi mənbəyə əsasən bununla yanaşı "*to make*" feili sonralar "etmək, yerinə yetirmək" mənasında olan qədim ingilis dilində don (müasir forması to do) feilini əvəz etməyə başladı. Bununla bağlı "*to make*" feilinin idarə əlaqəsinin tələbi ilə bağlı tamamlıqlarla işlənməsinə dair ingilis izahlı lüğətlərində verilən misallarda onun müxtəlif mənalarını müşahidə edək:[1]

1) etmək, düzəltmək, yaratmaq, hazırlamaq; to produce; to cause an object, to exist, e.g. by putting the different parts of it together: He *made her a toy horse*.

2) etmək, yerinə yetirmək, icra etmək; to do: used with nouns to say that someone does sth: Anyone can *make a mistake*. I can't *make a decision*.

3) hazırlamaq; to cook or prepare food or drink: When was the last time you *made a cake*?

4) hal və vəziyyətin dəyişilməsinə səbəb olmaq; to cause sth. to happen, or cause a particular state or condition: It was this movie which *made him a star*; I like him because he *makes me laugh*; His attitude *made him* very *unpopular* with colleagues.

5) vadar etmək, təhrik etmək; to force someone to do sth.: make sb do sth. My parents always *make me do* my homework before I go out. I *was made to wait* four hours before I was examined by a doctor.

6) nail olmaq, müvəffəq olmaq: to succeed in getting someone to hear you understand, or know that you are there: I had to shout to *make myself heard* above the music.

7) təqdim etmək: to represent sb/sth as being or doing sth: You have *made my nose big*; He *makes King Lear* a truly tragic *figure*.

8) seçmək, seçilmək: to elect or choose sb as sth: She *made him* her *assistant*.

Göründüyü kimi, "to make" feili "to cause" feili kimi səbəb-nəticə münasibətlərini bildirsə də, bəzən "to cause" feilindən fərqli olaraq, "səbəb olmaq" mənasını vermir.

Təsirli feillər ümumi, yaxud yaxın mənaya malik olub, tamamlıq kimi leksemlə birləşdikdə, təsirlilik qabiliyyətini göstərən və paradiqmatik sıraya daxil olan leksik-semantik qruplar yaradır. Bu xüsusiyyət həmin feillərin məna bildirən meyarı sayılır. Təsirli feillərin formal olaraq distributiv meyarı isə bu və ya digər leksik-semantik qruplarda birləşməsində xüsusi rol oynayır. Həm məna, həm də formal meyar leksik-semantik qrupun təsirli leksemlərinə xas olan idarə əlaqəsinə əsaslanır. Yuxarıdakı misallardan görünür ki, idarə əlaqəsi leksik-sintaktik faktor olmaqla sözönü, sözönsüz və ya variativlik yolu ilə birləşmə yaradan vasitədir. Bu onu bildirir ki, idarə əlaqəsi təsirli feil leksemlərinin aid olduqları leksik-semantik qrupun modelinə əsasən nitqdə reallaşır. Model çərşivəsində feillərin təsirlilik xüsusiyyəti eksperiment yolu ilə yoxlanıla bilər. Eksperiment bir tərəfdən təsirli feilin substantivləşməsi, sifətləşməsi (adyektivləşməsi) kimi transformasiyanı, digər tərəfdən təsirli feil leksemini mənaca eyni (məsələn, sinonim) və ya yaxın mənalı feil ilə əvəzetmə (substitusiya) transformasiyasını tətbiq etməklə təsdiq oluna bilər. Modellərdə əks olunan sözönü və variativlik həmin transformasiyalarda saxlanılır. Modeldə ikinci komponent sayılan komplementar ünsür (yəni leksik birləşməni tamamlayan element) tamamlıq funksiyasını yerinə yetirərək, müəyyən semantik sahə və ya bölgüyə aid olur.

R. Kverk və digər müəlliflər "to make" feilindən ibarət birləşmələrdə onun monotranzitiv və ditranzitiv feil kimi çıxış etməsi ilə sifət ilə ifadə olunan tamamlayıcı adyektiv komplementin (*ing.* adjectival complement) vacib meyar olmasını gostərirlər.[2] "To make" monotranzitiv feil kimi yalnız bir tamamlığı (məsələn: They *make a charming couple*), iki tamamlığı idarə edən ditranzitiv feil kimi (məsələn, She *made him a good husband*) çıxış edir. Feilin təsirliliyini yoxlamaq üçün cümləni feilin məlum növündən məchul növünə çevirmək kimi transformasiyanı tətbiq etmək olur: *She made him a good husband → He was made a good husband.*[3] Bununla yanaşı R.Kverk "*to make*" ditranzitiv feilinin "hazırlamaq" mənasında da işlənməsini göstərir: "to make" feili *She made Paul a meal* və *She made a meal for Paul* cümlələrində tamamlıqların yerdəyişməsi nəticəsində sözönlü birləşməsi vasitəsilə (*for Paul*) idarə etsə də, o, ditranzitiv feil kimi çıxış edir.[4] Qeyd etmək lazımdır ki, iki tamamlıqla işlənən distranzitiv "to make" feilinin yalnız ikinci cümlənin məchul növ transformasiyasına çevrilməsi mümkündür: *She made a meal for Paul → A meal was made for Paul.*[5]

Bu məqalədə araşdırdığımız ingilis atalar sözlərində "*to make*" feili vasitəsilə düzələn leksik birləşmələrin təhlili göstərir ki, bu feilin təsirliliyi həm bir tamamlığı tələb edən monotranzitiv, həm də 2 tamamlığı tələb edən ditranzitiv feil kimi özünü göstərir. Bununla bağlı idarə əlaqəsi-

nə girən tamamlıqlar semantik mənasına görə, monotranzitiv feildən ibarət leksik birləşmələr üzərində modelə əsasən araşdırma aparılır: Məsələn: V_{tr}+C (ing. V_{tr} – verb transitive, təsirli feil; C – complement – tamamlıq).[6] İngilis atalar sözlərində tamamlığın hansı semantik sahəyə aid olmasından asılı olaraq, onu idarə edən "*to make*" feilinin aşağıdakı leksik mənaları aşkar olunur:

1) tamamlıq əşya, ləvazimat bildirən isimlərlə ifadə olunduqda, "to make" monotranzitiv feili "hazırlamaq, düzəltmək" mənasını daşıyır: *Men make houses, women make homes* (≈ Kişi çöl quşudur, ovlayıb gətirər, evi isə arvad tikər); *One man makes a chair, another sits in it* (≈ Kim qazanar, kim yeyər); *You can't make an omelette without breaking the eggs* (≈ Qurbansız fayda, mayasız nəf olmaz); *As you make your bed, so you must lie on it* (≈ Öz cəzandır, çək); *Make hay while the sun shines* (≈ Dəmiri isti ikən döy).[7]

2) tamamlıq mücərrəd mənalı isimlərlə ifadə olunduqda, "to make" feili "yaratmaq, təşkil etmək" mənasında işlənir: *Fools make feast and wise men eat them* (≈ Dəli qazanar, ağıllı yeyər); *A swallow doesn't make the summer* yaxud *One swallow does not make a summer*) (≈ Bir gül ilə bahar olmaz); *Money often unmakes the man who makes it* (≈ Pul adamı ağıldan eylər);

3) tamamlıq şəxs bildirən isimlə ifadə olunduqda, "*to make*" feili bir kəsin formalaşmasına, şəxsiyyətin dəyişməsinə, bir şeyin yaranmasına səbəb olmaq mənasında işlənir: *The tailor makes the man* (≈ Gözəllik ondur, doqquzu dondur); *Prosperity makes friends, and adversity tries them* (≈ Yaxşı günün dostu yaman gündə məlum olar); *Opportunity makes the thief* (≈ İşini möhkəm tut, qonşunu oğru tutma); *Before you make a friend, eat a bushel of salt with him* (≈ Dostluq etmək istəyən onunla bir kisə duz yeməlidir); *Clothes don't make the man* (≈ Dona baxma, içindəki cana bax); *The cowl (or hood) doesn't make the monk* (≈ Hər başı papaqlı kişi olmaz).

Bir çox atalar sözlərində leksik birləşmələrin tamamlıqları keyfiyyət bildirən təyinedici sözlə, yəni sifət nitq hissəsi ilə müşayiət olunur. Bu qəbildən olan ingilis atalar sozlərinin bir neçəsində həmin sifətlər aşağıdakı semantik bölgülərə aiddir:

1) emosional cəhətdən qiymət, xasiyyətin keyfiyyəti: *A good husband makes a <u>good</u> wife* (≈ Pendiri dəri saxlar, arvadı əri); *A miserly father makes a <u>prodigal</u> son* (≈ Xəsisin malı özgəyə qismət olar);

2) həmin modeldə "*to make*" feili ilə işlədilən tamamlıq heyvan adları bildirən isimlə ifadə olunduqda, distributiv xüsusiyyətinə görə atributiv əlaqəsinə girən sifət keyfiyyət mənasını bildirir: *Fine feathers makes <u>fine</u> birds* (≈ Gözəllik ondur, doqquzu dondur); *A ragged coat may make a <u>good</u> horse* (≈ Namuslu adam var-dövlətdən asılı deyil);

3) tamamlıq insana olan münasibətini bildirən sifətlə təyin olunduqda: *Even reckoning makes <u>long</u> friends* (≈ Dostluqda hesabı pak olanın üzü ağ olar); *Short accounts (or reckonings) make <u>long</u> friends* (≈ Dost arası pak gərək);

4) eyni modelli leksik birləşmələrdə "*to make*" feilinin idarə etdiyi tamamlıq bədən üzvləri ilə ifadə olunduqda, onunla atributiv əlaqəsində olan sifət əqli qabiliyyət, hiss orqanları tərəfindən qavranılan əlamətləri bildirir. Məsələn: *A still tongue makes a <u>wise</u> head* (≈ Az danışsan, ağıllı olarsan);

5) "*to make*" feili "yaratmaq" mənasında işləndikdə, tamamlığın qarşısında keyfiyyət bildirən sifət təyin vəzifəsini yerinə yetirir. Məsələn: *A bad beginning makes a <u>bad</u> ending* (≈ Pis başlanğıc pis də nəticə verər); *Empty vessels make <u>the greatest</u> sound* (≈ Boş qazanın səsi bərk çıxar).

6) tamamlığın qarşısında ya kəmiyyət bildirən, ya da inkarlıq bildirən leksem də işlənə bilər. Məsələn: *He who makes <u>no</u> mistakes, makes <u>nothing</u>* (≈ İş olan yerdə səhv olar).

Qeyd etmək lazımdır ki, tamamlıq "*to make*" feili ilə düzələn leksik birləşmələrdə təkcə isimlə deyil, digər nitq hissələri ilə də ifadə oluna bilər. Sayca az da olsa, ingilis atalar sözlərində belə növ birləşmələrə rast gəlmək olur. Məsələn: 1) *One lie makes <u>many</u>* (qeyri-müəyyən

miqdar sayı ilə) (≈ Bir yalan min yalan doğurar); 2) *He knows how many beans make five* (miqdar sayı ilə) (≈ O, itin dilini, cəhənnəmin yolunu bilir).

Biz bu məqalədə ingilis atalar sözlərində "*to make*" feilindən düzələn leksik birləşmələrin semantik təhlilini apararkən, ənənəvi dilçilikdə xəbər vəzifəsini yerinə yetirən "*to make*" feilinin leksik birləşməni yaratmaq qabiliyyətini müşahidə edə bildik. Araşdırma nəticəsində aydın oldu ki, birləşmə tərkibində "*to make*" feili müxtəlif leksik mənaları özündə birləşdirir.

Beləliklə, "*to make*" feilinin çoxmənalılığı leksik birləşmələrin atalar sözlərində formalaşması üzərində apardığımız semantik təhlil praktik olaraq onların öyrənilməsində və düzgün işlədilməsində mühüm rol oynayır.

Istifadə olunan mənbələr

1. Concise Oxford Dictionary of Current English, ed.by H.V.Fowler and F.G.Fowler based on The Oxford Dictionary. Fifth Edition. Oxford at the Clarendon Press.1964. p.736; Oxford Advanced Learner's Dictionary of Current English by A.S.Hornby, 7th edition, 2000, p.775; Longman Exam Dictionary: Longman, 2006, s.922-923.
2. R.Quirk, S.Greenbaum, G.Leech, J.Svartvik. A Comprehensive Grammar of the English Language. Longman. London and New York,1987, p.1197
3. R.Quirk, S.Greenbaum, G.Leech, J.Svartvik. A Comprehensive Grammar of the English Language. Longman. London and New York,1987, p.1200
4. R.Quirk, S.Greenbaum, G.Leech, J.Svartvik. A Comprehensive Grammar of the English Language. Longman. London and New York,1987, p.1200
5. R.Quirk, S.Greenbaum, G.Leech, J.Svartvik. A Comprehensive Grammar of the English Language. Longman. London and New York,1987, p.1211
6. Leksik birləşmələrdə idarə əlaqəsi və feilin təsirliliyinə dair A.M.Muxinin monoqrafiyalarında irəli sürülən nəzəriyyəsinə əsaslanmışıq: Мухин А.М. Лингвистический анализ. Теоретические и методологические проблемы. Изд-во «Наука», Ленинград, 1976; Мухин А.М. Системные отношения переходных глагольных лексем (на материале английского и русского языков). Изд-во «Наука», Ленинград, 1987; Функциональный анализ. Санкт Петербург, 1999
7. Məqalədə təhlil etdiyimiz ingilis atalar sözləri T.Abasquliyev tərəfindən tərtib olunmuş "İngilis atalar sözləri və onların azərbaycanca, rusca qarşılıqları. Bakı,"Elm" nəşriyyatı, 1981" lüğətindən seçilmişdir.

К.Абдулрагимова

Лексические фразы с глаголом «*to make*» в английских пословицах

Резюме

Лексические фразы, образованные глаголом «to make» с различными значениями часто встречаются в структуре английских пословиц. И поэтому рассмотрение употребления глагола «to make» в каузальном значении не случайно. Многозначность глагола «to make» в пословицах позволяет исследователю отнести этот глагол в различные лексико-семантические группы глаголов. По данным словарей можно заметить, что глагол «to make» сохраняет первоначальное значение глагола «macian», наряду с выражением причинно-следственного отношения в пословицах.

Цель исследования - дать лексический анализ фраз, образованных глаголом «to make», выявить семантические признаки компонентов лексических фраз в английских пословицах.

Основываясь на предположения лингвистов автор анализирует способность глагола «to make» в роли однопереходного и двупереходного (монотранзитивного и дитранзитивного) глагола образовывать лексические фразы.

Как однопереходный глагол со значениями - готовить, производить, создавать, организовывать, формировать, составлять выражает действие в сочетании с последующим существительным или прилагательным. «To make» употребляется в лексических фразах по модели V_{tr}+C (комплемент - дополнение).

Как двупереходный (дитранзитивный) глагол он имеет значения заставлять, побуждать, принуждать, вынуждать.

Проведенный лексический анализ фразы подтверждается экспериментом - трансформацией субстантивизации и замены.

Ключевые слова: лексические фразы, управление, лексема, модель, однопереходный глагол, двупереходный глагол, атрибутивная связь

K.Abdulrahimova

Lexical phrases formed by the verb “to make” in English Proverbs

Summary

The constructions with the verb “to make” in different meanings are frequently used in the structure of English proverbs. Therefore the study of the use of “to make” in the causal meaning is not accidental. Polysemantic meaning of the verb “to make” in Engish proverbs permits us to relate it to diverse lexico-semantic groups of verbs. According to English dictionaries, the verb “to make” retains its original causal meaning of “macian” (Old English form) expressing cause and effect relations in English proverbs.

The purpose of the study is to provide a semantic analysis of phrases formed by the verb “to make”, identifying semantic features of the components in English proverbs.

Proceeding on the assumptions of linguists the author demonstrates the ability of the verb “to make” to form lexical phrases functioning as a monotransitive and ditransitive verb.

The verb “to make” is used in lexical phrases according to the model V_{tr}+C (transitive verb+complement) as a monotransitive verb in the meaning “to form, to compose, to draw up, to produce, to arrange, to create, to express an action or quality” in combination with the subsequent noun or adjective which is related to the meaning of the noun or adjective.

As a ditransitive verb it has the meanings “to force, to cause, induce, compel, urge”.

The semantic analysis has been proved by the experiment of transforming or substituting the components of the phrase by the one with the same semantic meaning.

Key words: lexical phrases, government, lexeme, model, monotransitive verb, ditransitive verb, attributive relation

Redaksiyaya daxil olma tarixi: 21.02.2019
Çapa qəbul olunma tarixi: 25.03.2019
Filologiya üzrə fəlsəfə doktoru Nigar Gözəlova tərəfindən çapa tövsiyə olunmuşdur

SEVDA NOVRUZƏLIYEVA
Filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Tibb Universiteti
sevda.novruzaliyeva@mail.ru
NÜŞABƏ ƏLIYEVA
Azərbaycan Tibb Universiteti, baş müəllim
nushabe.aliyeva@bk.ru

NİTQ MƏDƏNİYYƏTİNDƏ MEDİANIN ROLU

Xülasə

Media dilin qrammatik normalarının, nitq mədəniyyətinin düzgün məcrada inkişafına, qorunub saxlanmasına cavabdehlik daşıyır. Medianın cəmiyyət üçün önəmi böyükdür, çünki o, insan təfəkkürünün formalaşmasına təkan verir.

Müasir dövrümüzdə media dilin saflığının qorunmasında, nitq mədəniyyətinin təbliğində böyük rol oynayır. Medianın cəmiyyətdəki önəmi gündən-günə artır, bir an belə önəmini itirmir. Mədəniyyət geniş anlayışdır, onun bir çox qolları var. Qənaətimizcə, mədəniyyətin başında nitq mədəniyyəti dayanır. İnsanı qalan canlılardan üstün edən nitq isə, insanı insandan üstün edən nitq mədəniyyəti sayılır.

Bildiyimiz kimi, medianın canı sözdür, amma hər söz yox, bulaq kimi axıcı, bal kimi şirin, musiqi kimi ahəngdar olan söz. Bu özəlliklərin daşıyıcısı olan söz seyrici və dinləyicini özünə çəkir. Media cəmiyyətin güzgüsü olub, onun görmək və eşitmək istədiklərini ona nümayiş etdirir. Media nitq mədəniyyətinin təbliğatçısı olanda, təmiz güzgü olur. Belə olmadıqda, o, natəmiz güzgü, nitq normalarının pozucusu olur.

Bugünkü media mobil, çevik, dəqiq, sürətli, dolğun olmalıdır. Belə mediası olan xalq və dövlət güclü və yenilməz olur. Mediada çalışan hər kəs – yazar, aparıcı, diktor, dövlət rəsmisi, siyasətçi – Azərbaycan dilini sevməli, ona dərindən bələd olmalı, onu düzgün işlətməlidir. Unutmayaq ki, dilini yaxşı bilməyən yaxşı natiq ola bilmədiyindən yaxşı media işçisi ola bilməz.

Açar sözlər: media, nitq, obrazlı ifadə, diktor, aparıcı, nitq mədəniyyəti, elektron media

Mədəniyyət geniş bir anlayışdır, onun öyrəndiyi sahələr çoxdur. Mədəniyyətin bir qolu da nitq mədəniyyətidir. Nəzərimizcə, mədəniyyətin başında nitq mədəniyyəti durur. İnsanı başqa canlılardan üstün edən nitq isə, nitq mədəniyyəti də insanı insandan üstün edir.

Çağdaş dövrümüzdə insanların elmi, siyasi, mədəni, milli səviyyəsi durmadan artır, media (kütləvi informasiya vasitələri) az qala hər gün yeni-yeni uğurlara imza atır, medianın potensialı, nüfuz etmə dairəsi, təsir bağışlama gücü genişlənir. Artıq insanların yaşamını mediasız təsəvvür etmək olmur, media sosial həyatın ən dərin qatlarına gedib çatır.

Medianın canı sözdür, nitqdir. Hər söz yox, F.Sadıqovun qənaətincə, *"Danışanın danışığı bulaq suyu kimi axıcı, bal kimi şirin, musiqi kimi ahəngdar və dərin məzmunlu olmalıdır ki, həm dinləyiciləri ələ ala biləsən, həm də ofsunlayasan ki, onlar dinləməkdən həzz alsınlar, şüurlarına və davranışlarına təsir etsin" (6,172).*

Azərbaycanda bu gün media azadlığı, ifadə azadlığı, münasibət bildirmə azadlığı göz önündədir, təzyiq altında deyil. Bizim ölkə bu problemi yaşamır. Azərbaycan mediası müstəqildir, buna görə xalqın demək istədiyini, eşitmək istədiyini xalqa çatdırır. Media ilə dünyaya çıxış əldə edirik, dünyanın nəbzini tuturuq, dünyaya informasiya ötürürük və dünyadan informasiya

alırıq. Media xalqın elmi, mədəniyyəti, incəsənəti, dövlətin yürütdüyü daxili və xarici siyasəti ilə bağlı informasiyanı gündəmə çıxarır, işıqlandırır.

Yerinə düşər qeyd edək ki, 2016-cı ilin noyabr ayında "Media və zamanın çağırışları" mövzusunda Dünya Xəbər Agentliklərinin 5-ci Konqresində Azərbaycan Prezidenti İlham Əliyev öz çıxışında müasir medianın prioritetlərini açıqlayarkən vurğulayır ki, *"Biz bu tədbirin Bakıda keçirilməsini həm də müstəqil medianın inkişafı sahəsində Azərbaycanın fəaliyyətinin və nailiyyətlərinin yüksək qiymətləndirilməsinin göstəricisi hesab edirik. Bu, hökümətimiz üçün prioritetlərdən biridir və düşünürəm ki, müstəqilliyimizin 25 ili ərzində nailiyyətlərimiz bizim media azadlığı ilə yanaşı, bütün digər fundamental azadlıqların təmin edilməsinə müvəffəq olduğumuzu nümayiş etdirir" (4,9).*

XXI əsr dünyasında media güclü elmi-mədəni-siyasi-ictimai silah, sonu görünməz informasiya axını deməkdir. Mediası mobil, çevik, dəqiq, sürətli, dolğun, yetərli olan xalq və dövlət qüdrətli və yenilməzdir. Biz öyünə bilərik ki, media ordumuz avanqard (qabaqcıl) medialar sırasında yer tutur. Hazırkı dövürdə ölkəmizdə 40-dan çox gündəlik, 200-dən artıq həftəlik və aylıq qəzetlər dərc olunur. Azərbaycanda 10 milli, 1 peyk, 13 regional və 17 kabel televiziyası yayımlanır. Medianın rolu nəinki gündən-günə, hətta saatbasaat artır, yeni istiqamətlər qazanır. Qənaətimizcə, media düzgün informasiyanı vaxtında verməklə vəzifəsini bitirmiş olmur. Ötürülən informasiya nitq mədəniyyəti süzgəcindən keçməlidir. Başqa sözlə, natiq – alim, şair, yazar, dövlət rəsmisi, siyasətçi, jurnalist, müəllim aldığı təhsilin profilindən asılı olmayaraq Azərbaycan dilini və onun qrammatikasını düzgün bilməlidir. Düzgün nitqin başlanğıcı yalnız budur.

Medianın istənilən növündə yazı yazan ya çıxış edən natiq gərək dili və qələmi ilə nitq mədəniyyətinin yasaqlarını gözləsin, normalarına sayqı bəsləsin, nitqin inkişafına öz töhfəsini versin. Dili və qələmi nitqin gözəlliyinə xələl yetirən natiq cəmiyyətin ziyanlı fərdi olur. Dahi şairimiz M.Füzuli "maarif binası" dedikdə bu gün "nitq mədəniyyəti" dediyimiz anlayışı nəzərdə tutaraq, nitqdə normaları pozanı "əlsiz-ayaqsız adam" adlandırır, beləsinin başının qələm kimi aşağı olmasını istəyir, çünki o, maarif binasını uçurmaq üçün külüngdür, eləsinin yazısı formaca gözəl olsa da, bunun faydası olmaz, səbəb odur ki, məna gözəli üçün yazısının qarası pərdədir:

Sətri tərcümə:

O əlsiz-ayaqsız adamın başı qələm kimi aşağı olsun ki,
Onun qələmi maarif binasını uçurmaq üçün külüngdür.
Ləfzin surətində xətti bəzəkdir, lakin nə fayda,
Məna gözəli üçün yazısının qarası pərdədir (2,9)

Televiziyada, radioda çıxış edənin, internetin sosial şəbəkələrində danışanın nitqi ilə bağlı irəli sürülən qadağalardan biri budur ki, onun dili pəltək olmasın, sözü necə deyilməlisə, eləcə deyə bilsin. Füzulinin düzgün qənaətincə, *"Necə də pəltək dilin ucbatından nəzmin düzülmüş inciləri dağıldı" (2,9).*

Çağdaş mediyada çıxış edən çalışmalıdır ki, söz fəzasında söylədiyi fikirlərin özülləri dağınıq olmasın, bir fikri bitirməmiş digərinə keçməsin, bir fikrin bitməsilə digərinin başlaması arasında məna körpüsü qursun. Bu arada diksiya (sözün düzgün və aydın deyilişi) də diqqət verilməli məsələdir. Mətləb nə qədər dərin olsa da, diksiya pozulsa, natiq dinləyici və tamaşaçı nəzərində ucala bilməz. Başqa sözlə, səslənən önəmli fikir aydın diksiya ilə hədəfə çatır. Bunların poetik açıqlamasını M.Füzuli beləcə ortaya qoyur, həm də çox sərt yanaşma ilə:

Sətri tərcümə:

O dil kəsilsin ki, söz sarayında
Fikir sarayları uçulur.
Onun pis ləhcəsinin dəyişik və çevrilməsindən
İbarə gözəlliyinin varlığı məhv olur. (2,10)

Media daha çox onda önəm kəsb edir ki, verdiyi informasiya doğru-düzgün, qərəzsiz, ədalətli olsun. Bu halda media cəmiyyətdə gərginliyin, qan tökülməsinin, qarşıdurmanın, milli əda-

vətin, dini dözümsüzlüyün yaranmasına səbəb olmaz. Qənaətimizcə, qərəzsiz olmaqla düzgün informasiyanı mediadan alan kəs yuxarıda sadalanan neqativ hallardan uzaq duracaq. Deməli, qərəzsiz-düzgün informasiyanı yayımlayan, çap edən media cəmiyyətin güvəndiyi televiziya, radio, internet resusları, qəzetlər, jurnallar, xəbər agentlikləri olur. Göründüyü kimi, medianın (kütləvi informasiya vasitələrinin) uğuru qərəzsiz-düzgün olan yazılı və şifahi nitqlərdən keçir.

Bu gün medianın ən aparıcı qolu olan dünya internet inqilabından sonra da nitq mədəniyyəti, istənilən elmi və qeyri-elmi sahədə faydalı və düzgün nitqin aktuallığı azalmayıb, tam əksinə, yüksələn templə artmaqdadır. Başqa cür ola bilməz, axı hər tərəqqinin, irəliləyişin başlanğıcı və sonu nitq, daha doğrusu, faydalı-düzgün nitq sayılır. Dərin qənaətimizcə, fayda verməyə və düzgünlüyü yaymağa söykənən media, başqa sözlə, nitq mədəniyyətini gözləməklə bu işləri görən media güvənli informasiyanı ötürəcək, azad düşüncəni ifadə edərək, tərəfsizliyini göstərərək, yalnız media təmsilçisi olmağını ortaya qoyaraq sosial maraqlara qulluq etmiş olur, bu maraqların keşiyində durmuş olur və sonda da, cəmiyyətin sevimlisi və dəyər verdiyi orqan olur.

Televiziyada, internetdə, radioda yayımlanan reportaj, sözsüz ki, etikanı gözləməlidir. Bu isə o deməkdir ki, söylənən nitq sadəcə nitq olmasın, nitq mədəniyyətinin göstəricisi olsun, reportajı aparan və müsahibə verən ulu mücərrəd varlıq olan sözə sayqı duyaraq, özünün insan olduğunu unutmayaraq sözü aydın desin, düzgün söyləsin, təkrarçılığa yol verməsin, sosial məqamından asılı olmayaraq kimsəni aşağılamasın, yersiz əl-üz hərəkətləri etməsin, sözü yüksək tonda ifadə etməsin, bir sözlə, kimsənin ürəyini sındırmamaqla, həm nitqi, həm də ölçülü olan əl-üz jesti seyricidə simpatiya (maraq) oyatsın. Telekanallarda, internet saytlarında belə nitqi seyr edən, dinləyən tamaşaçı mənəvi zövq alacaq, xoş ovqata notlanacaq, vaxtını səmərəli keçirəcək, düzgün informasiyaya yiyələnəcək.

Bugünkü media təmsilçisindən nitq mədəniyyəti tələb edir ki, informasiyanı verməzdən öncə cəmiyyətin sosial dinamikasına bələd olsun, qarşıdurma törədəcək sözlərdən və ifadələrdən yayınsın, bəsit və qızışdırıcı danışığa zəmin yaratmasın və heç zaman unutmasın ki, o, hakim, müstəntiq, vəkil deyil, informasiyadan qaynaqlanan, nitq mədəniyyətinin carçısı olmalı olan natiqdir, informasiya ötürücüsüdür.

Nitq mədəniyyətinə riayət etmək hər bir Azərbaycan vətəndaşının borcu isə, media mənsubunun birbaşa borcudur. Belə ki, media mənsubu üçün ikiqat borc yaranır, həm vətəndaş borcu, həm media mənsubluğunun borcu. Azərbaycan dövlətinin dil siyasəti hər birimizin qarşısına vəzifə qoyur ki, dili qoruyaq, nitq mədəniyyəti çərçivəsində ona qayğı göstərək. Azərbaycan Prezidenti İlham Əliyevin təbirincə, *"Bu gün Azərbaycan dilinin qorunması və qayğı ilə əhatə olunması müstəqil Azərbaycanın hər bir vətəndaşının müqəddəs borcudur" (5,7).*

Media qurumları arasında xəbər agentlikləri aparıcı mövqedə dayanır. Dünyada onlar yüzlərlədir, sayları artmaqda davam edir. Bu agentliklərin yaydığı informasiya ən etibarlı, güvənli informasiya sayılır. Amma bu müsbət tendensiya ilə yanaşı, dəqiq olmayan ya yanlış olan informasiyanın ötürülməsi də geniş yayılıb. Məhz belə sosial mediada ali insani özəllik olan nitq mədəniyyəti kobud pozulur, etik söz və ibarələr yerinə söyüş və təhqirlə müşahidə olunan fikirlər söylənilir. Nəticədə, sosial mediayaya inam azalır. Haqlı qənaətimizcə, nitq mədəniyyətini gözləməyən, onu yaymayan sosial media baxımlı ola bilməz. Cəmiyyətimiz çalışmalıdır ki, sosial medianın düzgün yöndə işini qurmasına kömək etsin.

Daim yeniləşən texnologiyalar həyatımızı elə sürətlə dəyişir ki, hardasa biz onunla ayaqlaşmağa macal tapmırıq. Hər şey dəyişir – cəmiyyətin dünyaya baxışı dəyişir, media qloballaşmağa məruz qalaraq, tematikası böyük bir transformasiyaya uğrayır. Artıq medianın leksikonuna sosial media, rəqəmsal media, multimedia, xəbər sənayesində süni intellekt kimi yeni anlayışlar yol tapır. Dünya düzənini dəyişdiyi üçün, baş verən proseslər medianı arxasınca çəkib aparır. Media ara vermədən prosesləri izləyir, nəhəng qloballaşma axınında milli dəyərləri saxlamaq üçün nitq mədəniyyətimizi qoruyub saxlamalıyıq, onu lüzumsuz, pozucu əcnəbi müdaxilələrdən qorumalıyıq. Şübhə etmirik ki, media yaxın və uzaq gələcəkdə də Azərbaycan xalqının mənəvi həyatında müsbət rolunu saxlayacaq, əgər Azərbaycan xalqının əsrlər boyu kəsb edib

cilalandırdığı nitq mədəniyyətinə sadiq qalarsa. Unutmayaq ki, xəbəri istehsal edən media xəbəri istehlak edən xalqa o zaman doğma və əziz olur ki, media xalqın ruhu olan, qan yaddaşı olan nitqinin, nitq mədəniyyətinin müdafiəçisi olur. Xalqın nitq mədəniyyətinin carçısı və himayədarı olan media ən üstün təşəkkürə layiqdir.

Mediada çıxış edən, rəy söyləyən, mülahizə yürüdən natiq dilimizin normaları çərçivəsində dürüst danışmağı, toxunduğu məsələnin mahiyyətini qısa-lakonik açıqlamağı, eləcə də dürüst yazmağı bacarmalıdır. Televiziya və radio çıxışlarında ədəbi dilimizdə yer almayan vulqarizmləri, əsasən ruscadan keçən vulqarizmləri, varvarizmləri, söyüşə oxşar ifadələri, ikrah doğuran cılız ifadələri, milli mənliyə toxunan ibarələri işlədirlər. Bütün bunlar nitq mədəniyyətini tarmar edən yanaşmalardır. Başqa sözlə, *"Mətbuatda gedən məqalələrdə elə cümlələrə rast gəlinir ki, müəllifin nə demək istədiyi məlum olmur" (3,8).*

Müasir media kanallarında uğurlu nitq söyləmək üçün, bugünkü seyricinin mənəvi tələblərini ödəmək üçün, seyricilərin qınaq obyekti olmamaqdan ötrü mütaliə etmək, düzgün və axıcı oxumaq lazımdır. Kitab oxumayanın dili bəsit olur, təkrarçılıq baş alıb gedir, az fikri çox sözlə ifadə etməli olur. Mütəmadi mütaliə edən diktorun, aparıcının, müsahibə verənin nitqi zəngin olur, səsləndirdiyi sözlər təsir edici olur, könüllərə yol tapır, dinləyicinin sevimlisinə çevrilir. Tanınmış televiziya diktorlarımız və aparıcılarımız Rafiq Hüseynov, Roza Tağıyeva, Ofelya Sənani mətni aramla oxuyur, mətnin məzmununa uyğun üz mimikasını saxlayır, mətndə pauzanın (ara vermənin) yerini tanıyır, mətndə heca vurğusuna və məntiqi vurğuya tam riayət edir, səsləri həzin-eşidici-xoşa gəlimli olduğuna görə hər səsin eşidildiyi tərzdə sözləri tələffüz edirdilər. Bu üç Azərbaycan adamı televiziya verlişlərində sanki nitq mədəniyyətinin dərsini keçirdilər. Onların üzü heç zaman qaşqabaqlı olmurdu, mətnin aorası onların çöhrələrinə çökmürdü, yerli-yerində xəfifcə gülüşləri vardı, yersiz gülüş və laqqırtı onlara yad idi. Yüksək savadları və insani davranışları onlara imkan verirdi ki, mahir aparıcı olsunlar, məsələyə elmi-məntiqi yanaşsınlar, sözlərini, hərəkətlərini Azərbaycan nitq mədəniyyətinin süzgəcindən keçirsinlər. Bu üç diktorun bir özəlliyi də bu idi ki, Azərbaycan türkcəsilə yanaşı rus dilini gözəl bilirdilər, bu dildə sərbəst və səlis danışır, dilin qrammatik normalarını pozmurdular.

Çağdaş medaimızda çalışan gənclər ana dilindən başqa ingilis və rus dillərinə yiyələnməyə borcludurlar. Bu üç dilin birində danışan media mənsubu qalan o ikisinin sözlərini dilinə gətirməməlidir. Əks təqdirdə, hər iki dilə hörmətsizlik olar, nitq mədəniyyətinin prinsipi də pozular. Axı bir dildə danışa-danışa ayrı bir dilin sözlərini yersiz yerə səsləndirmək nitq mədəniyyəti deyil, nitq mədəniyyətsizliyidir.Azərbaycan dili atalar sözləri və frazeolji birləşmələr baxımından dünyanın ən zəngin dilləri sırasında yer alır. Dilimiz bu müstəvidən ingilis, rus, ərəb dilləri ilə başabaş gedir və hətta, dərin qənaətimizcə, onları ötür. Madam belə bir unikal imkanı dilimiz verir, nə üçün mediada çalışanlarımız yazılarında və çıxışlarında məsələnin daha asan anlaşılmasına yardımçı olan doğma atalar sözlərimizi və frazeoloji (idiomatik) birləşmələrini işlətmirlər? Azərbaycan media seyricisi dilimizin axarlı-bulaqli bu iki xəzinəsinə tamarzıdırlar. Danışığında həmin xəzinələrə müraciət edən natiqin dili xalqa bağlanır, xalq leksikonuna bağlılıq da nitq mədəniyyətinin önəm verdiyi faktlardan biri sayılır. Azərbaycan nitq mədəniyyətinin inkişafında Heydər Əliyev fenomeninin rolu böyükdür. Xalqımız müstəqillik qazandıqdan sonra ulu öndər bütün çıxışlarını televiziya kanallarında həyata keçirib. O, 2 fevral 1996-cı il tarixdə Azərbaycan gənclərinin birinci forumunda etdiyi və canlı olaraq televiziyadan yayımlanan çıxışında ana dilini bilməyin önəmindən danışarkən hər bir gəncə tövsiyə edirdi ki, öz tarixini, keçmişini yaxşı bilməsi üçün ana dilini yaxşı bilməli, öz dilini sevməlidir: *"Öz dilini bilməyən, öz dilini sevməyən adam öz tarixini yaxşı bilməz" (8,4)*. Bu sitatdan bu qənaəti alırıq ki, ana dilini yaxşı bilən və onu sevən media işçisi etdiyi çıxışlarda və yazdığı yazılarda nitq mədəniyyətinə sayqı və sevgi duyacaq, bu mədəniyyətin keşiyində olacaq, medianın hörmət qazanmasına öz payını verəcək. Bu məqalədə qeyd etdiyimiz kimi, media cəbhəsində çalışan hər bir gənc ana dili ilə yanaşı, ən azı bir əcnəbi dilə yiyələnməyə borcludur. Bu artıq dünya mediasının irəli sürdüyü tələblərdən biridir. Ulu öndər Heydər Əliyev vurğulayırdı ki, hər bir azərbaycanlı ana di-

lindən başqa ingiliscəni, ruscanı, fransızcanı bilsin. Birləşmiş Millətlər Təşkilatının bu üç aparıcı dili dünya elminə, mediasına çıxmaq üçün əyani vasitələrdir. Ulu öndər bu məsələni belə qabardırdı: *"Biz artıq dünyaya qarışmışıqsa, Dünya Birliyinə daxil olmuşuqsa, gərək insanlarımız bir neçə dil bilsinlər – ingilis dilini də bilsinlər, rus dilini də bilsinlər, fransız dilini də bilsinlər. Bunu yasaq etmək olmaz, bunun qarşısını almaq lazım deyil. Ancaq birinci növbədə ana dilini bilməlidirlər" (1,136).*

Telekanallarda, radio verilişlərində, internet saytlarında, qəzet və jurnallarda çıxış edən, müsahibə verən hər kəs çıxışının, yazısının girişinə və sonluğuna çox diqqət yetirməlidir. Bu intellektual işin girişini və sonluğunu düzgün quran, qarşısına qoyduğu məsələni onların çərçivəsinə sığışdıra bilən natiq media qurumunda uğurlara imza atacaq. Bu baxımdan Heydər Əliyev sayılıb seçilən öndərlərdən biridir. Bu böyük insan hər nitqini xitabla başlayırdı. Rəsmi beynəlxalq məclislərdəki nitqinə "cənablar, xanımlar" xitabı ilə, ölkədaxili ədəbi-mədəni məclislərdəki nitqinə "hörmətli dostlar, xanımlar və cənablar" xitabı ilə, rəsmi diplomatik görüşlərdəki nitqinə "hörmətli cənab Prezident", "hörmətli cənab Baş nazir", "hörmətli cənab səfir" xitabları ilə müraciət edirdi. Sadalanan hər müraciət öz yerində doğru səslənirdi. Belə ki, "cənablar və xanımlar" xitabında duyulur ki, eşidənlər rəsmi şəxslərdir, yaxın dostlar deyillər. "Hörmətli dostlar" xitabından bunu əxz edirik ki, məclisdə yaxın dostlar var. Demək, nitqin girişi rəsmi ifadələr ilə başlanırsa, nitqin süjeti və sonluğu rəsmi fikirlərlə bəzənirdi. Nitqin girişi səmimi ifadələrlə başlanırsa, orada söhbət səmimiyyətdən, qarşılıqlı etibardan gedirdi. Ulu öndərin hər nitqinin sonluğu onun girişinin məntiqi ardı idi. Qənaətimizcə, media dünyasında çalışanlar və çalışmaq istəyənlər nitq mədəniyyətinin incəliklərini, uğurlu alınmasının sirlərini Heydər Əliyevin mənəvi irs qoyub getdiyi nitqlərindən öyrənsinlər. Bu böyük natiqin çıxışlarının təkcə girişləri və sonluqları bir məqaləyə sığmaz.

Media çıxış və yazılarında bədii təsvir vasitələrinin bir qolu olan frazeoloji birləşmələr az rol oynamır. Onlar çıxışlara, yazılara canlılıq verir, müəllifi dinləyici və oxucu gözündə yüksəldir, müəllifin xalq yaradıcılığı və bədii ədəbiyyatdan qaynaqlanmasına şahidlik edirlər. Axı həqiqi mənalı sözlər məcazi mənalı sözlər ilə əvəzlənəndə söylənən fikir, sadə olsa belə, gözəl və poetik görkəm alır, dinləyici və oxucu təfəkküründə ekspressivlik yaradır, zəngin dil vahidinə çevrilir. Elə zamanda yaşayırıq ki, indi kitab oxuyan çox azdır, əvəzində medianın aparıcı hissəsi olan internet resuslarına müraciət edənlərin sayı durmadan artır. Bu da əsas verir deyək ki, frazeoloji vahidlərin bol-bol işləndiyi, geniş təbliğ olunduğu məkan məhz media sayılır. Mediada frazem vahidlərin işlənmə tezliyi artır, danışıq dilindən ədəbi dilə keçmə müddəti qısalır. Yetər ki, xalq bir frazem yaratsın, media onu çox sürətlə yayır, yenidən xalqa qaytarır ki, ya xalq onu qoruyub saxlasın ya da cilalandıraraq, təzədən danışıq prosesinə buraxsın.

Apardığımız müşahidələrdən bu qənaəti alırıq ki, media sistemində somatik (bədən üzvləri ilə bağlı) frazemlər daha çox işləkdir. Bunun aydın nümunəsini Heydər Əliyevin mediada yayımlanan və dərc olunan çıxışlarında görürük. Belə ki, "ürəkdən salamlamaq", "ürəyi getmək", "başına gəlmək", "əlini üzmək", "ayağını kəsmək", "göz gəzdirmək", "əldə etmək", "əl uzatmaq", "əldən vermək", "ələ keçmək", "baş çıxarmaq", "baş tutmaq", "baş qoşmaq", "baş açmaq", "başı ucalmaq", "baş qaldırmaq", "baş ağartmaq" və sair (8,229-235).

Azərbaycan dili Azərbaycan-türk, ərəb, fars, Avropa köklü sözlərdən bazalandığı üçün bu dilin sinonim bazası zəngindir. Sinonimlərin gen-bol işləndiyi nitq cansıxıcı olmur, media auditoriyasını yormur. Dilimizdə elə nitq hissəsi, elə cümlə üzvü yoxdur ki, onun ən azı bir sinonimi olmasın. Dilimiz sinonimlik baxımından zəngin olsa da, media mənsubunun istedadı və peşəkar bacarığı nitqdə təkrarçılığı minimuma endirən sinonimliyi yeri gəldikcə nitq prosesinə qoşur. Çox sevindrici haldır ki, qardaş Türkiyənin tele məkanından, radio proqramlarından, internet saytlarından Azərbaycan dilinə ümumtürk kökənli yeni sözlər daxil olmuş və olmaqdadır. Hər yeni söz yeni nəfəs, yeni canlılıq, yeni ekspressivlik, yeni dünya, yeni yanaşma, yeni sinonim deməkdir. Bu müsbət tendensiyadan dilimiz, eləcə də nitqimiz asan səslənən, dil pərdələrində gərginlik yaratmayan, doğma görünən leksik vahidlər qazanmışdır. Onların sayı yüzlərlə olsa

da, nümunə olaraq, iyirmi altısını veririk: kökən (kök), media (kütləvi informasiya vasitələri), canlı (birbaşa), zirvə toplantısı (dövlət başçılarının görüşü), bağlı olan (idarəçiliyində olan), yetərsay (kvorum), millət vəkili (deputat), olumlu (mümkün), olumsuz (qeyri-mümkün), dizi (çox seriyalı), qazı (müharibə əlili), yatırım (investisiya), dayanıqlı (dinamk), aşırı (həddən çox), yayım (tele veriliş), telefon açmaq (telefon etmək), durum (vəziyyət), doğal (təbii), yön (istiqamət), rəqəmsal (rəqəmli), kimyasal (kimyəvi), kürəsəl (ümumdünya), fiziksal (fiziki), bilgi (məlumat), normalda (adətən), yazıçı (yazar).

Media dilində obrazlılıq, emisionallıq, ekspressivlik kimi özəllikləri saxlayan üslubi fiqurlardan biri təkrar hesab olunur. Var qaydalı təkrar, var qaydasız təkrar. Bədii əsərlərdə olduğu kimi, media mühitində də qaydasız təkrar mediaya başıucalıq gətirmir. Bilikli, dilin incə qatlarını bilən tele-radio aparıcısı, qəzet-jurnal yazarı qaydasız (yersiz) təkrara yol vermir, həmişə qaydalı (yerli-yerində olan) təkrardan bəhrələnir. İstedadlı media mənsubu hansısa sözü təkrar edirsə, demək, həmin təkrarda məntiq var. Dahi Füzuliyə müraciət edək:

Gər çox istərsən, Füzuli, izzətin, az et sözü
Kim, çox olmaqdan qalıbdır çox əzizi xar söz. (2,129)

Bu sitatda "çox" ifadəsi ilk baxışda qaydasız təkrardır. Amma diqqət edilsə, qaydalı (gərəkli) təkrar olur. Belə ki, birincidə qeyri-müəyyən miqdar zərfi, ikincidə səbəb zərfinin ilkin tərəfi, üçüncüdə qeyri-müəyyən miqdar sayıdır. Füzuli hamıya, o sıradan media mənsublarına deyir ki, kim öz izzətini (başıuca olmasını) istəyirsə, az danışmalıdır, çünki başıuca olanların çoxu çox danışmaqdan xar (dəyərsiz) olublar.

Ulu öndər Heydər Əliyevin nitqdə təkrarlara öz baxışı, öz yanaşması var. O, bununla dinləyicilərə, o cümlədən media cəbhəsində işləyənlərə alimanə dərs verirdi ki, auditoriya qarşısında necə danışmaq lazımdır. Sözümüzə qüvvət olaraq qeyd edək ki, *"Heydər Əliyevin nitqində təkrarlar auditoriyanın diqqətini müəyyən bir məsələyə cəlb etmək baxımından mühümdür. Təkrar olunan söz, söz birləşməsi, (8,360) böyük natiq təkrarların köməyi ilə nitqin təsir gücünü artırmış olur".* Media dilinin bir qolu qəzet dilidir. Qəzetin dili rəsmi, ədəbi dildir. Rəsmi dövlət qəzetlərindəki elmi-mədəni-publisistik yazılara alimlər, tədqiqatçılar müraciət edirlər. Qeyri-dövlət qəzetlərində Türkiyə türkcəsindən dilimizə keçən bəzi sözlər dilimizdə vətəndaşlıq qazana bilmir, yad ünsür olaraq qalır. T.Yaqubova haqlı olaraq bunu tənqid edir. Onun sözlərinə görə, "hadisə" anlamında "olay", "müstəqillik" mənasında "bağımsızlıq", "əlaqə" mənasında "ilişgi" bu qəbil sözlərdəndir (7,290-294).

Nitq mədəniyyəti elə bir nöqtədir ki, orada elm və həyat görüşür (9). Elm informasiyanı həyatdan alır, ona elmi biçim verərək, həyata qaytarır. Media elmin və həyatın görüşdüyü nitq mədəniyyəti ilə sıx bağlıdır. Azərbaycan mediasının dili Azərbaycan dilinin, azərbaycanlıların bilik səviyyəsinin yüksəlməsində önəmli rol oynayır. Bu gün ən ucqar kənddə yaşayan adi bir şəxs media ilə dünyanın və ölkənin siyasi-iqtisadi-elmi-mədəni-ictimai informasiyasını əldə edir. Nitq mədniyyətinə verdiyi böyük töhfə ilə yanaşı, media ona hardasa ziyan da vurur. Televiziyada və radioda yayımlanan proqramların, qəzetlərdə və jurnallarda dərc olunan yazıların bəzisində nitq normaları pozulur, aşırı olaraq inversiyalara (cümlə üzvlərinin ardıcıllığının pozulmasına) yol verilir, yersiz yabançı söz və ifadələr işlədilir. Bu neqativ prosesin qarşısı alınmalıdır, yoxsa dil düzgün məcradan çıxar. Burada məsuliyyət sadalanan media qurumlarının rəhbərlərinin üzərinə düşür. Bu məsələ ümummilli xarakter daşıyır, axı dil millətin mənəvi aləminin güzgüsüdür. Elektron mediada nitq daha acınacaqlı durumdadır. Hər kəs internetdə istədiyini yaza bilir. Bu yazıların çoxunda dilin qrammatik norma və qaydaları kobudcasına təhrif olunur, bir başqaları onları oxuyur və onların təsirinə məruz qalırlar. Bu proses azalmağa doğru getmir, tam əksinə, tempini yüksəldir. Dilimizin saflığının pozulmasına, nitq mədəniyyətimizin nüfuzunun azalmasına yönələn elektron medianı başlı-başına buraxmaq olmaz, dövlət bu istiqamətdə müvafiq ölçü götürməlidir.

Yaşadığımız indiki zamanda, qeyd etdiyimiz kimi, oxuyanların sayı azalır, seyircilərin və dinləyicilərin sayı artır. Odur ki, televiziyada və radioda çalışan hər bir diktor və aparıcı natiq

səsinə malik olmalı, sözləri düzgün səsləndirməli, dili dərindən bilməli, nitq mədəniyyətini pozacaq bircə təhrifə də yol verməməlidir. Bu yanaşma medianın tele-radio qurumunda kütləvi hal alarsa, bundan xalqımız udacaq, nitq mədəniyyətimiz udacaq.

Ədəbiyyat siyahısı

Azərbaycan dilində

1. Əliyev H., Müstəqillimiz əbədidir, XIII c., Bakı, "Azərnəşr", 2004, 520 s.
2. Füzuli M., Seçilmiş əsərləri, I c., Bakı, "Şərq-Qərb", 2013, 712 s.
3. Hacıyeva N., Natiq mədəniyyəti. Biblioqrafiya, Bakı, "Elm və təhsil", 2015, 434 s.
4. Media və zamanın çağırışları. Dünya Xəbər Agentliklrinin V Konqresinin çıxışlarına dair toplu, Bakı, "Şərq-Qərb", 2017, 477 s.
5. Rzayeva N. Nitqin inkişafı, Bakı, "Nafta-Press", 2014, 241 s.
6. Sadıqov F, Azərbaycan dili və nitq mədəniyyəti, Bakı, "Bakı Biznes Universiteti", 2017, 217 s.
7. Yaqubova T., Qəzet dilində yersiz türkizmlərin işlənilməsi, "Elmi axtarışlar", 14-cü toplu, Bakı, "Səda", 2005, s. 290-494.
8. Zamanov N., Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti, II kitab, Bakı, "Elm və təhsil", 2014, 496 s.

İnternet saytında

https: \\works.doklad.ru\view\4TcAg2jEg6c\all.html

Novruzaliyeva Sevda Jaid
Aliyeva Nushaba Ajdar

Summary

The role of mass media in speech habits

İn our time mass media plays the great role in the protection of the purity of the language, also the propagandizing of the speech habits.

The importance of the mass media in the society rises day by day and it does not close it even for a moment.

The culture is a large notion, it has got some areas. İn our opinion, speech habits stay in the head of the culture. İf speech rises human over other alives, speech habits rise a man over other men.

As we know, a soul of the mass media is a word, but no every word, only the word which is fluent as a spring, is sweet as a honey, is harmonious as music. The word having these peculiarities attarats audience and listeners.

Mass media as a mirror of the society, shows him what he wants to see and hear. When mass media is a agitator of the speech habits, it is a clean mirror. If mass media does not so, then it is a dirtily mirror and disorder of the speecf norms.

Today`s mass media must be prompt, quick, exactly, speedy and deeply. The people and state which have such mass media being strong and invincible. Every one who work at a mass media – a writer, a announcer, a dictor, a state`s official, a political figure – must love Azerbaijani language, know it deeply, use it directly. We musn`t forget that who does not know his native language, as he can`t be a splendid orator, he can`t be a splendid mass media`s worker.

The urgency of the article is that it disscusses as an importance matter as "The role of mass media in speech habits". The author of the article gives his offers about the matter.

We must note that has no printed any book, any article in Azerbaijani scientific-education area by the title of “The role of mass media in speech habits” yet. We hope that this article is the first for this line.

Key words: mass media, speech, graphic phrase, announcer, reporter, speech habits, electronic mass media

С.Новрузалиева
Н.Алиева

Роль средств массовой информации в культуре речи

Резюме

В настоящее время средства массовой информации играют большую роль в защите чистоты языка и пропаганде культуры речи. Важность средств массовой информации в обществе растет день ото дня, и они не теряют важность ни на один миг.

Культура – большое понятие, у нее разные течения. На наш взгляд, во главе культуры стоит культура речи. Если речь отличает человека от других живых существ, то культура речи возвышает человека над человеком.

Как известно, душой средств массовой информации является не каждое слово, а то, которое течет как источник, сладкое, как мед, созвучное, как музыка. Слово, которое располагает этими качествами, притягивает к себе зрителей и слушателей.

Средства массовой информации есть зеркало общества, они демонстрируют то, что оно хочет видеть и слышать. Пропагандируя культуру речи, средства массовой информации становятся его зеркальным отражением. В противном случае нарушается культура речи.

Сегодня средства массовой информации должны быть мобильными, гибкими, точными, скоростными, укомплектованными. Народ и государство, обладающие такими данными, являются мощными и непобедимыми. Каждый работник средств массовой информации – писатель, теле-радио ведущий, диктор, государственный чиновник, политик – должны любить азербайджанский язык, глубоко знать и правильно употреблять его. Не секрет, что человек нехорошо владеющий азербайджанским языком, не сможет быть достойным представителем средств массовой информации.

Актуальность данной статьи в том, что она затрагивает такой важный вопрос, как роль средств массовой информации в культуре речи. Автор статьи выражает свои личные мнения и замечания по данному вопросу, выдвигает свои предложения с целью повышения роли средств массовой информации в культуре речи.

Необходимо отметить, что до сих пор не опубликована ни одна книга, ни одна статья в азербайджанской научно-образовательной системе на тему “Роль средств массовой информации в культуре речи”. Думаем, что предложенная статья является первой, касающейся данной темы.

Ключевые слова: средства массовой информации, речь, образное выражение, диктор, репортер, культура речи, электронные средства массовой информации

Redaksiyaya daxil olma tarixi: 21.02.2019
Çapa qəbul olunma tarixi: 25.03.2019
Filologiya üzrə fəlsəfə doktoru Sevda Kadıyeva tərəfindən çapa tövsiyə olunmuşdur

RAMİLƏ NƏSİROVA
Filologiya üzrə fəlsəfə doktor
ADPU
Üzeyir Hacıbəyli 68
u

MÜXTƏLİFSİSTEMLİ DİLLƏRDƏ SUFFİKSASİYA, PREFİKSASİYA VƏ İNTERFİKSASİYA MƏSƏLƏSİ

Xülasə

Məqalədə əsasən, müxtəlifsistemli dillərdə, (yəni Azərbaycan, rus və ingilis) suffiksasiya, prefiksasiya və interfikasiya məsələsindən bəhs olunur. Məqalədə göstərilir ki, suffiksasiya morfoloji üsulun bir növüdür. Suffiks dedikdə morfem nəzərdə tutulursa, Azərbaycan dilində yarımsuffikslərdən istifadə olunur. Prefiks söz kökünün semantik həcmində dəyişiklik edən morfemdir. İnterfiksli sözlər predikativ mövqe tutur. Apofanasiya hadisəsi seqment və supra-seqmentlərin fleksiyası hesabına reallaşır.

Azərbaycan dilində bu qəbildən olan fonemlər qismində -n-, -y- və -s- bitişdirici samitləri də çıxış edir. Digər dillərdən fərqli olaraq, dilimizdə saitlə ifadə olunan bitişdirici səslərə təsadüf edilmir və bunları kök, morfem kimi təsnif etmək doğru deyil. Bu saitlərin mövcudluğundan biz, ancaq tarixi aspektdə danışa bilərik. Yuxarıda F.Veysəllinin fikirlərinə istinadən bir məsələni də qeyd etməliyik ki, dilimizdə ahəng qanunu morfemlərin söz kökünə birləşməsi prosesində artıq öz töhvəsini vermiş və Azərbaycan dilində şəkilçilər bu qanuna əsasən iki və dörd cür yazılır (-ə[2], -ı[4]). İnterfikslər sözə artırıldıqda yeni bir məna yaratmağa da xidmət edir. Amma dilimizdən misal gətirdiyimiz -n-, -y- və -s- və eyni zamanda -ə-, -a- bitişdirici fonemləri sözün səs tərkibinin ahəngdar, axıcı olmasına xidmət edir. Buradan belə qənaətə gəlmək olar ki, interfikslər söz yaradıcılığı elementi kimi çıxış edir.

Bəzi tədqiqatçılar, xüsisilə də ispan dili mütəxəssisləri bu dildə interfiksləri üzün müddət inkar edərək, interfikslər əvəzinə müəyyən suffikslərin mürəkkəb formalarından bəhs etməyə üstünlük vermişlər. Lakin Y. Malkielin tədqiqatlarından sonra interfikslərin ispan dilində varlığı qəbul edilməyə başlandı.

Açar sözlər: Avropa, rus, Azərbaycan, suffikslər, morfoloji üsul, prefikslər, interfikslər

Suffiksasiya bir çox dünya dillərində söz yaradıcılığı səviyyəsində aparıcı mövqedə dayanan morfoloji üsul kimi dəyərləndirilir. Qeyd etmək istərdik ki, suffiksasiya söz yaradıcılığı səviyyəsində morfoloji üsulla sözyaratmanın xüsusi bir növü kimi özünü daha fərqli aspektlərdən göstərir. Məsələn, Azərbaycan dilində suffiksasiya ilə, yəni leksik şəkilçilər ilə söz yaradıcılığından bəhs edərkən qeyd etməliyik ki, dilimizdə düzəltmə sözlər üç qrupa ayrılır:

1) Rus və Avropa mənşəli sözlərdən Azərbaycan dili şəkilçiləri vasitəsilə yeni sözün yaradılması;
2) Ərəb-fars mənşəli sözlərdən Azərbaycan dili şəkilçiləri vasitəsilə yeni sözün yaradılması;
3) Rus-Avropa və ərəb-fars dillərinə məxsus şəkilçilər vasitəsilə yeni sözün yaradılması .

Dilimizdəki morfoloji yolla söz yaradıcılığını nəzərdən keçirən dilçi-alim M.Hüseynzadə qeyd edir ki, biz başqa dildən alınma sözü o vaxt düzəltmə söz hesab edə bilərik ki, onun kökü Azərbaycan dilində ayrıca söz kimi mövcud olsun və işlədilsin [1,s. 31].

Qeyd edək ki, isimlərin cəmlənməsində, hallanmasında, sözlərin şəxslər üzrə və ya mənsubiyyət kateqoriyasına görə dəyişməsində müəyyən qanunauyğunluqlar olduğu halda, söz yaradı-

cılığında sözlərə hər hansı bir suffiksin artırılmasında seçim üçün xüsusi bir hal yoxdur. Məsələn, rus dilində feillərdən isim düzəldərkən *летать—летчик, истреблять—истребитель* forması düzəldilir. Buradan belə bir sual doğa bilər ki, bəs nə üçün "*лететель*" və ya "*истребитчик*" deyil, məhz "*летчик*" və "*истребитель*" formaları məqbul sayılır?

Əslində, bu kimi faktların mövcudluğunu nəzərə alan O.D.Meşkov belə hesab edir ki, bu, söz yaradıcılığı prosesinin qrammatika ilə sıx əlaqədə olmasını təkzib edir [4,s. 57].

Bütün dillərdə aqqlütinasiya mexanizminə görə leksik şəkilçilər söz kökünə və ya əsasına əlavə edilərkən ciddi qanunauyğunluğa riayət olunur. N.A.Baskakov öz əsərində bunları bu şəkildə təsnif edir: 1. konversiya edən (конвертирующие) şəkilçilər; 2. şəkil dəyişdirən (модифицирующие) şəkilçilər; 3. leksik-qrammatik söz yaradıcılığının şəkilçiləri; 4. funksional-qrammatik söz yaradıcılığının şəkilçiləri. Müəllif sonuncuları iki qrupa da ayırır: 1) ismi funksional formalar və 2) feili funksional formalar [5,s. 214].

Müqayisə edilən dillərə ümumi nəzər saldıqda, söz yaradıcılığı prosesində suffiksasiyanın aparıcı mövqedə olması gözə çarpır. Məsələn, fransız və ingilis dillərində *-age, -tion, -ment, -ance, -ure* suffiksləri ilə prosesin, hadisənin adını bildirən isimlər formalaşır. Rus dilində isə bu mövqedə *-ние, -тие, -ство*, Azərbaycan dilində isə *-lıq*[4], *-ış*[4], *-ıq*[4] və s. kimi suffikslər çıxış edir. Suffiksasiyanın söz yaradıcılığındakı mövqeyini geniş izləmək üçün isim yaradıcılığı prosesini nəzərdən keçirməyi daha məqsədəuyğun hesab edirik. Çünki əksər dillərdə bir çox hallarda əsasən suffiksasiyadan istifadə olunur. Məsələn, *direct—director, прыгать—прыгание, резать-резба , sınmaq—sınıq, burmaq—buruq* və s.

Müasir alman dilində suffiksasiya dar çərçivədə istifadə olunan az qisim şəkilçilərlə məhdudlaşır. Bu dildə ən məhsuldar feil yaradan şəkilçi *–ier* (*policieren* „sığortalamaq") suffiksidir. Bu suffiks alman dilinə XII əsrdə fransız dilindən gələn fellərin tərkibində keçmiş və bu dildə vətəndaşlıq hüququ qazandıqdan sonra *–isier* (*fotogenisieren* «fotogenik etmək") və *-ifizier* (*diskofizieren* " musiqi parçalarını disko üslubuna uyğunlaşdırmaq") formalarında işlənməyə başlamışdır.

Digər bir dildən alınmış və nominal əsaslar əsasında feil yaratmağa xidmət edən bu şəkilçilər heç də xüsusi semantik məna çaları formalaşdırmaqla fərqlənmir. Maraqlıdır ki, alman dilində qeyd olunan bu suffikslərlə formalaşan feil əsaslarının əksəriyyəti də alınma sözlərdir. Alman dilində suffiksasiyanı tədqiq edən rus tədqiqatçısı M.V.Paşenko bu şəkilçilərin məhsuldarlığı barədə qeyd edir ki, feil yaradan *-el(n)* şəkilçisi qeyri-alınma şəkilçilər arasında daha məhsuldardır (*poeteln* "şeir yazmaq", *grufteln* "dəfn etmək"). *–s(en), -z(en), -tsch(en), -sche(en), -ch(en), -ig(en)* suffiksləri isə qeyri-məhsuldar şəkilçilər kimi tanınır [6,s. 10-11].

Məlumdur ki, suffikslər müxtəlif dillərdə bir-birindən fərqli kateqoriyaların əsas ifadəçisi kimi çıxış edən morfoloji üsullardan biridir. Məsələn, inkarlıq kateqoriyasının göstəricisi kimi ingilis və Azərbaycan dillərində söz yaradıcılığı səviyyəsində inkarlıq məzmunlu leksik şəkilçilərə təsadüf olunduğu halda (ingilis dilində *-less*, Azərbaycan dilində *-sız*[4]), L.L.Zelenskayanın qeyd etdiyi kimi, "rus və osetin dillərində söz yaradıcılığı səviyyəsində inkarlıq ifadə edən suffikslər yoxdur" [7,s. 9].

İngilis dilində suffikslər sistemini geniş araşdıran V.A.Əliyeva isə "İngilis dilində bəzi yarımşəkilçilərin etimologiyasına dair" adlı məqaləsində qeyd edir ki, ingilis dilində şəkilçilər sistemini xarakterizə edərkən aydın olur ki, müasir ingilis dili çoxlu yarımşəkilçilərlə zəngindir. Dildə əvvəllər sərbəst işlənən və müstəqil leksik mənaya malik olan söz başqa söz kökünə birləşərək, yeni mənalı mürəkkəb birləşmə əmələ gətirə bilər və bu model əsasında getdikcə daha çox törəmələr formalaşaraq zaman keçdikcə, sözdüzəldici şəkilçi kimi də qəbul oluna bilər. Məsələn, ingilis dilində *-like, -man, -wise, -worthy, -ship, -wright, -hood, -dom, -proof* və s. elementlər yarımşəkilçilərə misaldır: *countryman (vətəndaş), horseman (atlı), godlike (dini), manlike (kişi kimi), noteworthy (diqqətəlayiq), seaworthy (üzmək üçün yararlı), untrustworthy (etibarsız), clockwise (saatəqrəbi istiqamətində), crosswise (xaçşəkilli), playwright (dramaturq), shipwright (gəmiqayıran), foolproof (asan), fireproof (odadavamlı), brotherhood (qardaşlıq),*

babyhood (uşaqlıq), hardship (ehtiyac, çətinlik), worship (ibadət, pərəstiş) və s. [8].

Müəllifin yarımşəkilçi kimi xarakterizə etdiyi affikslər, göründüyü kimi, əsasən suffikslərə aid edilir və suffikslər sistemində üstünlük təşkil edir. Biz bu qrupa müəyyən dərəcədə -"woman" elementini də əlavə edə bilərik. Çünki "woman" sözü də bəzi söz köklərinə qoşularaq yeni törəmələr əmələ gətirir: *washerwoman (paltaryuyan qadın), kinswoman (qadın qohumu), noblewoman (zadəgan qadın)* və s.

Müəllif daha sonra qeyd edir ki, belə yarımşəkilçilərin hər birinin öz leksik mənası var və birləşmələrdə az və ya çox dərəcədə öz mənalarını qoruyub saxlayır. Bu şəkilçilərə aşağıdakıları misal göstərmək olar:

"proof" ismindən əmələ gələn –proof yarımşəkilçisi ilə aşağıdakı sözlər yaranır. Məsələn; *bomb-proof (bomba keçirməz), bullet-proof (güllə keçirməz), rain-proof (yağış keçirməz), water-proof (su keçirməz), weather-proof (hava keçirməz).* -Proof-la olan bütün bu sözlər ikinci komponent üçün mürəkkəb sözlərlə əmələ gələn elementlərin arasında durur. Bir tərəfdən, ikinci komponent kökün bütün xüsusiyyətlərini saxlayır və müəyyən semantik birləşmələri sərbəst forma olan proof-la saxlayır. Digər tərəfdən, bütün bu tipli sözlərdə "-proof"-un mənası şəkilçi kimi ümumiləşmişdir [8].

Ümumiyyətlə, kök və şəkilçi arasında ortaq mövqedə dayanan "-proof" bəzi alimlər [9] tərəfindən yarımşəkilçilərə aid edilmişdir.

Azərbaycan dilində isə bu kimi yarımsuffikslərə bir cür yazılan *-xana, -saz, -baz* şəkilçilərini misal gətirmək olar. Çünki bu şəkilçilər söz və şəkilçi arasında ortaq mövqedə dayanır. Bunun isbatı kimi qeyd edə bilərik ki, göstərilən hissəciklər eyni semantik yüklə dilimizdə ayrıca leksik vahid kimi də işlənə bilirlər.

Bəzən bir sıra dillərdə suffiksasiyanın kombinə edilmiş formalarına da təsadüf etmək olur. Bu formalar arasında suffiksasiya daha çox preffiksasiya ilə eyni zamanda müşayiət olunur. Amma bu üsul müxtəlif dillərdə müşahidə olunsa da, söz yaradıcılığı prosesində bir o qədər də məhsuldar deyil. Məsələn, alman dilində prefiksasiya və suffiksasiyanın kombinə edilmiş forması kimi *de*-prefiksi ile *–ier-* suffiksinin bir arada feil yaradıcılığında iştirakını misal göstərmək olar: *defibrinieren* "fibrinin kəsmək (təbabətdə)", *depopulieren* "insanları boşaltmaq" [10,s. 12].

Prefiksasiya: Dünya dilçiliyində prefikslər ön şəkilçilər kimi tanınır və bu affikslər indiyə qədər müxtəlif cəhətlərdən elmi araşdırmalara cəlb olunmuşdur. Rus dilində пoprefiksini geniş şəkildə tədqiq edən A.Mustayoki və O.Pussinen qeyd edirlər ki, prefikslərin semantik xüsusiyyətləri bu gün daha çox fellərin aspektual cəhəti ilə bağlı tədqiqata cəlb edilir [11, s.247] və bu prefiks rus dilində yüksək məhsuldarlığı ilə seçilərək hərəkətin daha da intensiv yerinə yetirilməsini ifadə edir: *учить-поучить, летать-полетать* və s.

N.V.Qromova yazır ki, bantu dillərində prefiks özündə tematik və kəmiyyət mənalarını, kök isə maksimal dərəcədə ümumiləşmiş leksik mənanı ifadə edir [12, s.21].

Rus dilində prefikslər aqqlütinativ səciyyəlidir. Ə.Rəcəbli "aqqlütinativ dillərdə isə prefikslər olmur və bu dillərdə bütün prefikslər başqa dillərdən alınmadır və ayrılıqda yox, dominant dildə işləndiyi sözlərlə birgə aqqlütinativ dillərə keçmişdir" fikri ilə razılaşmır [2,s. 71]. Müəllifin fikrincə, prefikslər söz yaradıcılğında geniş potensiala malik affikslərdir.

Flektiv dil sayılan rus dilində prefikslərdən geniş istifadə edilməsi, iltisaqi dillərdə isə onların istənilən halda başqa dillərdən alınması morfoloji səviyyədə derivasiya prosesində prefiksasiyanın müxtəlif dillərdə təzahür etməsindən xəbər verir. Məsələn, alman dilində bu dilin özünə məxsus olan prefikslərdən *ver-, be-, ent-,* eləcə də alınma prefikslər *re-* və *de-* (*entrauchen* "tüstünün çəkilməsi", *verswingen* "1) kimdənsə daha yaxşı oxumaq; 2) yenidən oxumaq (hər hansı bir məhşur mahnını) öz məhsuldarlığı ilə seçilir. [13,s. 10].

İngilis dilindəki prefikslərə misal bunları göstərə bilərik: *mis-, post- (post-impressionism), out- (outlive* (çox yaşamaq)), *over- (overfeed* (çox yemək)), *under- (undertaken* (nəzarətdə saxlanan)), *be- (becloud* (buludla örtülmək)) və s. Bu dildə prefikslər yaratdıqları mənanalarına görə də qruplaşa bilir. Məsələn, *out-, over-, under-* prefiksləri dərəcə mənası bildirdiyi halda, *de-,*

dis-, in-, im-, il-, ir-, un- prefiksləri inkarlıq mənasını bildirən sözlərin formalaşmasında fəal iştirak edir. İngilis dilində inkarlığın böyük əksəriyyəti dis- prefiksi ilə ifadə olunur.

O.F. Kostikova rus dilində prefikslərlə düzələn sözlərin linqvo-üslubi xüsusiyyətlərindən danışarkən qeyd edir ki, *пост-, анти-, про-* , *после-, сверх-*, *не-* prefiksləri müasir dövrdə o qədər də məhsuldar deyil: *пророссийские, антигосударственный.* [14, s.14].

Fikrimizcə, müəllifin qeyd etdiyi bu məqamda prefikslərdən deyil, prefiksoidlərdən danışılsa, daha münasib olar. Çünki ingilis dilində misal gətirdiyimiz *mis-, post-* və ya rus dilindəki *пост-, анти-, про-* hissəcikləri özlərində həm söz əsasının, həm də şəkilçi xüsusiyyətlərini daşıdıqlarından onların prefiks kimi dəyərləndirilməsi bir o qədər də doğru olmazdı. Belə ki, bəzi mənbələrdə prefikslər və prefiksoidlər haqqında izahedici məlumat bu şəkildə təqdim edilir: "Prefiks— sözyaradıcı morfemdir. Bir qayda olaraq, sözyaratma prosesində söz kökünün əvvəlinə qoşulur... Prefiksoid - özündə söz kökünün və morfemin əlamətlərini daşıyan sözyaradan morfemdir. Prefiksoidlər prefikslərə tam oxşasalar da, qeyd edilməlidir ki, onlar törəmələri olduqları söz köklərinin genetik əlaqələrini tam itirməmişdir" [15,s. 8].

Bəzən yarımçıq prefiksasiyaya da təsadüf olunur. Yarımprefikslərə alman dilindəki *ab-, an-, auf-, aus-, durch-, ein-, mit-* prefikslərini misal göstərmək olar. Bu prefikslər feildən feil yaradan şəkilçilərdir və onlar yeni yaranan sözün əsasından cüzi semantik dəyişikliyə uğrayan feillər yaradırlar. (*callen* – „zəng etmək": *ancallen* — „telefonla zəng etmək"). Müasir alman dilində bu kimi şəkilçilər (yarımprefikslər) çoxanlamlığı və söz semantikasına dəqiqlik çaları verdiklərinə görə geniş yayılmışdır [13,s. 10].

Azərbaycan dilində *qeyri-, əks-, super-* və s. bu tipdən olan hissəciklər də prefiksoid kimi qəbul edilə bilər. Məsələn, „qeyri" hissəciyi semantik tutumunu dəyişmədən hissəcik kimi işlənə bildiyi halda ayrılıqda qoşma funksiyası da daşıya bilir və ya super- alınma prefiksi müasir danışıq dilində ayrıca leksik vahid kimi də işlədilir: *qeyri-qanuni* və ya *səndən qeyrisi*; *superfosfat* və ya *super görüntü* və s.

M.V.Paşenko qeyd edir ki, alman dilində yarımprefiksasiya və prefiksasiya ilə verbalizasiya əsasında müxtəlif semantik yükə malik olan yeni feili leksik vahidlər yaranır ki, bunların da məzmun tutumunun formalaşması feil əsasına yarımprefiks və ya tam prefiksin əlavə edilməsindən bilavasitə asılıdır. Belə ki, bu zaman yaranan leksik vahidin ikinci komponenti ayrılıqda işlənə bilmək xüsusiyyıətindən məhrum olur. Tədqiqatçı bu kimi feilləri ad əsaslı və feil əsaslı olmaqla iki yerə ayıraraq bunlardan feil əsaslı olanların alman dilində daha geniş yayıldığını qeyd edir. O, yarımprefikslərlə yaranan sözlərin dildə bir o qədər də intensiv işlənmə tezliyinə malik olmadığını qeyd edərək yarımprefikslərə *ab- və auf-* (*abjacken* "üst geyimi soyunmaq", *aufpeppen* "işə tam başlamaq"), prefikslərə isə *be- və ver-* (*besaucen* "sous əlavə etmək", *sich verpartnern* "evlənmək") affikslərini aid edir [13,s. 12].

E.V.Sinisina isə öz məqaləsində rus dilində işlədilən prefiksləri ön şəkilçilər kimi (приставки) təqdim edir [16]. Rus ədəbi dilində fel düzəldən prefikslər bunlardır: *в-/во-, вз-/взо-, воз-/возо-, вы-, до-, за-, из-/изо-, на-, над-/надо-, о-, об-/обо-, от-/ото-, пере-/, по-, под-/подо-, пре-, пред-/предо-, при-, про-, раз-/разо-, с-/со-, у-.*

Müasir dövrdə rus dilində prefikslər feil yaratma prosesi ilə yanaşı adların da formalaşmasında fəal iştirak edir. Bu zaman ən məhsuldar prefikslər kimi alınma şəkilçilər çıxış edir. Məsələn, *анти-, де-, дез-, квази-, контр-, супер-, ультра-, экс-* və s. ən məhsuldar prefikslər kimi qeyd edilir. Bunlarla bərabər rus dili prefiksləri də isim yaradıcılığında fəal iştirak edir. Məsələn, *летать—полет, ходить—поход* və s.

Kütləvi informasiya vasitələrinin dili əsasında prefiksləri izləyən E.V.Sinisina qeyd edir ki, əslində feil düzəldən prefikslər ad yaradan prefikslərə nisbətən bir o qədər də məhsuldar deyildir. Çünki dilin leksik layında feillərlə bağlı baş verən dəyişikliklər yüzilliklərlə formalaşır [16]. A.A.Şişkina isə öz tədqiqatında prefikslərin adyaratma prosesində standartlara uyğun olub-olmaması haqqında söhbət açır. Müəllif qeyd edir ki, prefikslərlə yaranan bir çox adlar kontekstdə daha çox müsbət və ya mənfi çalar kəsb edir. Məsələn, Кальяном занимается

суперпрофессионал... [17,s.13]. Müəllif standartlara uyğun olmayan prefiksasiya haqqında danışarkən buna misal olaraq prefikslərin abreviatura və ya ixtisarlara əlavə edilməsi kimi faktları nümunə olaraq qeyd edir: *анти-НАТО* və s. [17, 16-17].

Azərbaycan dilində müşahidə olunan prefikslərə gəlincə isə qeyd etməliyik ki, bunlar dilimizə ərəb, fars, ingilis, rus, yunan və latın dillərindən alınmış sözlərlə birgə daxil olmuş, lakin sonralar vətəndaşlıq hüququ qazanaraq bəzi türk mənşəli sözlərə də artırılmışdır. Qeyd edək ki, rus, yunan, ingilis və latın dillərindən alınan prefikslər dilimizdə termin yaradıcılığında geniş şəkildə istifadə edilir.

Ərəb və fars mənşəli prefiksli sözlərə biz daha çox klassik bədii ədəbiyyat nümunələrində rast gəlirik: ***Laməkan*** *seyrinin əzimətin et, Bu xərab olacaq məkandan keç; Nola bulsam zövq göydürdükcə sinəm üzrə dağ, Əhli-dərdə dağ olur,* ***bidərdə*** *zivər tək ləziz* (M.Füzuli) və s.

Beləliklə, prefikslər iltisaqi dillərdə alınma olsalar da, onlar sonralar daxil olduqları dillərdə öz sözyaratma potensialını qoruyub saxlamışdır. Müasir dövrdə dilin söz yaradiciliği səviyyəsində onlardan fəal şəkildə istifadə edilir.

İnterfiksasiya: İnterfiks (inter — daxildə, içində; fixus — bitişdirici) bitişdirici sözyaradıcı (leksik) morfemdir.

A.A.Reformatskinin qeyd etdiyi kimi, "interfiks" terminini rus dilçiliyinə gətirən A.M.Suxotin olmuşdur [18,s. 266]. Rus dilçiliyində interfiks dedikdə, birləşdirici sait və samit səslər nəzərdə tutulur: *лес–о–степь, стал–е–вар, пол–у–круг, пят–и–этажный, суди–л–ище, жи–л–ец, пе–в–ец, африк–ан–ец* və s. Bu kimi sözlərdə birləşdirici morf ilk komponentin qrammatik göstəricilərinə münasib olaraq müəyyən şəkil də ala bilər: *дв–ух–этажный, перекат–и–поле, тр–ех–рублевый.* Eyni zamanda interfiks sıfra da bərabər ola bilər: *вольт–метр.* İnterfikslər sözlərə daha çox analogiya əsasında daxil edilir; müqayisə edək: *будущ–н–ость, настоящ–н–ость; ялт–ин–цы, чит–ин–цы.*

Rus dilində interfiksasiya sözün səs qabığının genişləndirilməsi üçün deyil, suffikslərin söz kökünə fonetik uyğunlaşmasıdır və ya sözyaradıcı əsasa uyğun fleksiyanı şərtləndirərək morfo-semantik analoqların yaradılmasına xidmət edir. Məhz bu baxımdan İzotov V.P. morfoloji üsullardan bəhs edərkən, interfiksləri morfemoid (мофемоид) adlandırır [19,s.11].

İnterfikslərdən müasir ispan dilində də geniş istifadə edilir: *adorm–il–arse* "mürgüləmək" (dormir "yatmaq" felindən), *com–isc–ar* "atışdırmaq" (comer "yemək" felindən), *mull–isc–ar* "qabartmaq, köpdürmək" (mullir "yumşaltmaq" felindən) və s.

Gətirdiyimiz nümunələrdən göründüyü kimi, bu dildə interfikslər hərəkətin dərəcəsini, fəaliyyətin dinamikliyini ifadə edir.

İspan dilində 100-ə (yüzə) yaxın interfiks qeyd edilir. Bu dildə bəzi suffikslər (məsələn -on) 40 (qırx) müxtəlif interfikslərlə sözlərə qoşulur: *mach–ac–ón, corp–ach–ón, mat–al–ón, gat–all–ón, vej–anc–ón, garg–anch–ón, lim–at–ón, grab–az–ón, tem–er–ón, beb–err–ón, com–il–ón* və s. Bəzi interfikslər isə (məsələn -ar) 14 (on dörd) müxtəlif suffikslərlə işlənir: *viv–ar–acho, espumar–ajo, sec–ar–al, hoj–ar–asca, fog–ar–ata, bot–ar–ate, lengu–ar–az, hum–ar–eda, pasm–ar–ote* və s. [20,s. 54].

Bəzən rus dilində sifətin çoxaltma dərəcəsinin formalaşmasında da interfikslərdən istifadə olunur: *длинный – длиннющий, широкий – широченный, толстый – толстущий, высокий – высоченный* və s. Eyni zamanda bunu rus dilində sifətin azaltma dərəcəsinə də şamil etmək olar: *малый – маленький – малюсенький, короткий – коротенький – коротюсенький.* Qeyd edək ki, interfiksasiya Azərbaycan dilinə xas olan morfoloji üsüllar sırasında sadalanmasa da, rus dilində olduğu kimi, sifətin dərəcələrinin formalaşmasında interfiksasiyanın redumentlərinə rast gəlmək olur. Məsələn, *"ağ"* sifətinin çoxaltma dərəcəsindəki ***ağappağ*** formasını buna misal göstərmək olar. Belə hallar dilimizdə məhdud sayda olduğundan Azərbaycan dili materialları əsasında bu hadisəyə hər hansı bir şərh vermək doğru olmazdı.

Bu baxımdan biz F.Veysəllinin Azərbaycan dilində bəzi saitləri interfiks kimi çıxış etməsi fikri ilə razılaşmırıq. F.Veysəlli qeyd edir ki, interfiks iki kök arasında gələn kök morfemdir.

Onun finksiyası birləşdirməkdən ibarətdir. Məsələn, Azərbaycan dilində saitlə qurtaran kök morfemə mənsubiyyət və təsirlik hal şəkilçiləri əlavə etdikdə, -s- və -n- bitişdirici samitləri işlənir: məna-s-ı, məna-n-ı və s. Alman dilində -s-, rus dilində -i- və -a- saitləri bu tipdən olan morfemlərdir. Məsələn, alman dilində *[arbaet+s+ta:k]* (iş günü), rus dilində *[les-a-rub]* (odunçu) və s. sözlər buna misal ola bilər. Müəllif daha sonra qeyd edir ki, formal-struktur və formal bölüşdürücü rolunda çıxış edən affikslər də interfiks adlandırılır. Məsələn, Azərbaycan dilində *gəl+ir+ə+m, al+ır+a+m* sözlərində [ə] və [a] intefikslərə aiddir [1,s.195].

N.D.Arutyunova L.Karreterin fikrini irəli sürərək göstərir ki, interfikslərin sözyaradıcılığındakı yerindən söhbət açarkən L.Karreter onları "stereotipik sözyaradıcılığı" (estereotipía) elementi adlandırır [20,s. 55].

Ümumilikdə götürdükdə, interfikslər daimi semantik və qrammatik funksiyadan məhrumdur. Bu mənada onlar fonemə daha yaxın mövqedə dayanır. Bu səbəbdən də interfiksləri struktur morfem kimi qələmə vermək birmənalı qarşılanmır. İnterfiksasiyaya geniş planda yanaşan Y.Malkiel morfem anlayışını daha da genişləndirərək buraya asemantik və qrammatik cəhətdən fəal olmayan elementləri də daxil edir [21,s.185]. M.Aronoff da interfiksləri morfemlərə aid edir [22,s. 15].

Amma bəzi dilçilər (məsələn, L.Bauer) interfiksləri sözün morfoloji təhlili zamanı müəyyən edilən distributiv seqmentlərə aid edir [23,s. 16–21]. Digər bir qrup mütəxəssislər isə interfiks dedikdə, ona morfonem elementi kimi münasibət bəsləyərək, onun əsas funksiyası kimi sözün səs qabığında ahəngin təmin edilməsini qeyd edirlər. Təbii ki, yuxarıda artıq qeyd etdiyimiz kimi, bu fikrə söykənsək, o zaman bütün bitişdirici fonemləri interfikslər kimi qəbul etmək məcburiyyətində qalacağıq. Odur ki, bu fikri qəbul etmək heç də doğru deyil.

Beləliklə, interfiksləri daha geniş şəkildə tədqiqat obyektinə çevirmiş ispan morfologiyası bu barədə olan fikirlərin təməlini sarsıtdı. N.D.Arutyunova qeyd edir ki, nəticə etibarı ilə bu məsələ ilə araşdırma aparan müəlliflərin əksəriyyəti interfiksləri qrammatik təhlilin minimal "tanınan" və ya "qəbul edilən" vahidi olaraq morfem kimi qəbul etmişlər [20,s. 56].

Bu səpkidə nəzərdən keçirilən tədqiqatlara istinadən deyə bilərik ki, interfikslər kimi qəbul edilən komponentlərə şamil edilən xüsusiyyətlər bunlardır:

1) İnterfiksin forması sözün sintaktik funksiyasından asılı deyil, yəni interfiks sözün digər leksik vahidlərlə olan sintaktik əlaqələrinə və münasibətlərinə təsir etmir.

2) İnterfiks söz əsası ilə suffiks və ya fleksiya arasında olan mövqedə dayanır. Bu baxımdan da bitişdirici saitlər (barb–i–rrubio), perfiksləri söz əsasından ayıran fonemlər və söz daxilində oturmuş fonemlər interfikslər sırasına aid edilmir.

Azərbaycan dilinə gəldikdə isə qeyd etməliyik ki, interfikslərə reduplikativ sözlərdə rast gəlmək olur. Bunu əsasən fel və zərfdən isimlərin yaranması prosesində müşahidə etmək olur. Bu zaman *-ha-, -a-, -ba-* daxili şəkilçilərdən istifadə edilir. Məsələn: qovhaqov, basabas, dalbadal və s.

Bəzi hallarda interfikslər fonemlərə oxşar fəaliyyət göstərir. Lakin bunlar təyin edən və təyin olunan arasındakı müntəzəm əlaqələri ifadə etmir. Bununla belə, interfikslər söz semantikasına müəyyən qədər təsir göstərərək daha çox ekspressiv məzmunlu sözlərin yaranmasına xidmət edir. Buna görə də interfiksli sözlər cümlədə daha çox predikativ qütbə aid olur.

İnterfikslər leksik şəkilçilər olmaqla yanaşı yalnız mürəkkəb sözlərin komponentlərini deyil, eyni zamanda kök və leksik morfem arasında da bitişdirici şəkilçi funksiyası yerinə yetirdiyindən onun iki növə ayırmaq olar: 1) Mürəkkəb söz yaradan interfikslər (məsələn, Azərbaycan dilində: *gəl + ha + gəl*; rus dilində: *пиц + о + ед*; ingilis dilində: *speed + o + meter*) və 2) söz kökü ilə leksik şəkilçini əlaqələndirən interfikslər (rus dilində: *кофе + й + ный, кино + ш + ный* və s.). İnterfiksləri leksik şəkilçilər kimi qiymətləndirdiyimizə rəğmən ikinci qrup morfemləri qrammatik interfikslər kimi də adlandırmaq olar. Lakin qeyd edək ki, bu mövqedə də onlar yenə söz yaradıcılığına xidmət edir.

İnterfikslər sırasına fars dilindəki izafəti də aid etmək olar. Lakin bu dildə izafətin iştirakı

ilə formalaşan vahidlərin söz birləşməsinə daha yaxın olması onun bu statusa nə dərəcədə aid ola bilməsi haqqında şübhə yaradır.

Ədəbiyyat

1. Veysəlli F.Y. Dil. Bakı, "Təhsil", 2007, 291 s.
2. Rəcəbli Ə. Tipoloji dilçilik. Bakı, "Elm və Təhsil", 2010, 100 s.
3.. Hüseynzadə M. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, "Şərq-Qərb", 2007, 280 s.
4. Мешков О.Д. Словосложение в современном английском языке. Москва, «Высшая школа», 1985, 187 с.
5. Баскаков Н.А. Историко-типологическая морфология тюркских языков, Москва, «Наука», 1979, 276 с.
6. Пащенко М.В. Способы пополнения глагольного лексикона в современном немецком языке. АКД. Самара, 2009, 25 с.
7. Зеленская Л.Л. Сопоставительно-типологическое исследование словообразоовательных систем английского, осетинского и русского языков. АКД, Москва, 1984, 24 с.
8. http://yazikiliteratura.narod.ru/lin71.htm
9. Очерки по лексикологии Романо-германских языков. Ростов-на-Дону, «Ростовский-на-Дону педогогический институт», 1976, 82 с.
10. Максимова М. Наименования невзрослых лиц в русском и эстонском языках (словообразование и семантика). Магистерская диссертация. Тарту, 2006, 130 с.
11. Мустайоки А., Пуссинен О.. Об экспансии глагольной приставки По в современном русском языке. В кн: Инструментарий русистики: корпусные подходы, Хельсинки, 2008, с .247-275
12. Громова Н.В. Части речи в языках банту и принципы их разграничения. Москва, «Наука», 1966, 110 с.
13. Пащенко М.В. Способы пополнения глагольного лексикона в современном немецком языке. АКД. Самара, 2009, 25 с.
14. Костикова О.Ф. Лингвостилистическая специфика русской публицистики начала XXI века. АКД, Москва, 2008, 24 с.
15. Оглоблин А.К. Материалы по удвоению в мадурском языке // Языки Юго-Восточной Азии: Проблемы повторов. Москва, 1980, с. 165-177.
16. Пащенко М.В. Способы пополнения глагольного лексикона в современном немецком языке. АКД. Самара, 2009, 25
17. Скорик П.Я. Грамматические категории и структурный тип языка. (на материале инкорпорирующих языков). . В кн: Типология грамматических категорий. Москва, «Наука», Москва, 1975, 220 с., с. 120-139.
18. Шишкина А.А. Именная префиксация в современных деривационных процессах: стуктурно-семантический аспект анализа. АКД, Нижний Новгород, 2010, 23 с.
19. Реформатский, А. А. Введение в языковедение. Москва, «Просвещение», 1967. 542 с.
20. Изотов В.П. Уровневая организация способов словообразования. Орёл, 1996, 29 с.
21. Арутюнова Н.Д. Проблемы морфологии и словобразования (на материале испанского языка). Санкт-Петербург, 2007, 179 с.
22. Основы словообразовательной деятельности. Учебно- методический комплекс. Уральский государственный университет им. А.М.Горького. Екатеринбург, 2008, 26 с.
23. Aronoff M. Morphology by itself: stems and'inflectional classes (Linguistic Inquiry monograph). Cambridge, MA.: MIT Press, 1994, 421 p. 135. Bauer L. English word-formation. Cambridge: Cambridge univ.press, 1983 XIII, 311 p.
24. Bauer L. English word-formation. Cambridge: Cambridge univ.press, 1983 XIII, 311 p.

Р.Насырова

префиксация, суффиксация, интерфиксация в разносистемных языках

Резюме

Статья посвящена суффиксации, префиксации и интерфиксации в разносистемных (Азербайджанский, Русский, Английский) языках. Здесь также рассматривается, чтосуффиксация является одним из видов морфологического способа. Говоря о суффиксе, мы подразумеваем морфему, в то время как в Азербайджанском языке используются полусуффиксы. В азербайджанском языке фонемы этого типа также включают суффиксы -n-, -y- и -s. В отличие от других языков, наш язык не является случайным, и неправильно классифицировать их как корень, морфема. Из существования этих сайтов мы можем говорить только об историческом аспекте. Мы также должны указать на один из вышеупомянутых моментов, основываясь на взглядах Ф. Уизли, что гармоничный закон уже внес свой вклад в процесс морфем в нашем языке, а азербайджанские и русские формулы написаны в двух и четырех типах в соответствии с этот закон (-2, -4). Интерфейсы также служат для создания нового значения, когда оно добавляется к слову. Но фонемы, которые мы используем в нашем языке -n, -y- и -s, и в то же время -a, служат гармоничными, плавными звуковыми компонентами. Из этого можно сделать вывод, что интерфейсы выступают в качестве элемента словарного запаса.

Некоторые исследователи, особенно испанские эксперты, давно отрицают интерфейсы на этом языке, предпочитая говорить о сложных формах определенных суффиксов вместо интерфейсов. Однако после изучения Ю. Малкиэля, присутствие интерфейсов в Испании стало приниматься.

Префикс является морфемой, изменяющая семантическое значение слова. Слова с интерфиксами занимают предикативное положение.

Апофонция происходит за счет флекции сегментов и супрасегментов.

Ключевые слова: Европа, Русский, суффиксы, морфологический способ, префиксы, интерфиксы.

R.Nasirova

Prefix, suffix, interfix in different system languages

Summary

The article is dedicated to the suffxation, prefixation and interfixation in different (Azerbayjan, Russian, English) languages.

In the Azerbaijani language, phonemes of this type also include the suffixes -n-, -y- and -s. Unlike other languages, our language is not coincidental, and it is not right to classify these as root, morpheme. From the existence of these sites, we can only speak about the historical aspect. We should also point out one of the above points, based on the views of F. Weasley, that harmonious law has already contributed to the process of merging morphemes in our language, and Azerbaijani and Russian formulas are written in two and four types according to this law (-2, -4). Interfaces also serve to create a new meaning when it is added to the word. But the phonemes we use in our language -n, -y- and -s, and at the same time, -a, - serve as harmonious, flowing sound components. From this we can conclude that the interfaces act as an element of vocabulary.

Some researchers, especially Spanish experts, have long denied the interfaces in this language, preferring to talk about complex forms of certain suffixes instead of interfaces. However, after the study of Y. Malkiel, the Spanish presence of the interfaces began to be accepted.

There is also discussed, that suffix is one of the types of morphological methods. Spealcing about suffixes, we mean morphem, while in Azerbayjan language half-suffix is used.

Prefix is one the morpheme, changing the semantic meaning of the word. There is also studied interfixes, which take the predicative place.

Ablaut traspires on account of segment and half-senments.

Key words: Europe, Russian, suffixes morphological method, prefixes, interfixes.

Redaksiyaya daxil olma tarixi: 21.02.2019
Çapa qəbul olunma tarixi: 25.03.2019
Filologiya üzrə fəlsəfə doktoru Ramilə Hüseynova tərəfindən çapa tövsiyə olunmuşdur

LALƏ MUSAYEVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Üzeyir Hacıbəyli küçəsi, 68
lalamusayeva

İBTİDAİ SİNİFLƏRİN AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ ELMİ-KÜTLƏVİ MƏTNLƏRİN OXUSU ZAMANI İNTERAKTİV METODLARDAN İSTİFADƏ YOLLARI

Oxu dərsi inteqrativ dərs olduğu üçün burada bir neçə elm sahəsinin qovuşmasını əks etdirən elmi-kütləvi mətnlərə də rast gəlirik. Elmi-kütləvi mətnlər şagirdləri təbiətdəki əşya və hadisələri, qanunları və qanunauyğunluqları, həmçinin ölkəmizdə baş verən ictimai-siyasi hadisələri başa düşməyə doğru aparır. Elmi-kütləvi materiallardan təbiət və cəmiyyət haqqında əldə edilən məlumatlar şagirdlərdə elmi dünyagörüşün, təbiətin tamlığı, bütövlüyü haqqında təsəvvürün yaranmasını təmin edir. Onlar təbiət, coğrafiya, tarix, fizika, astronomiya, kimya, biologiyaya dair ilkin biliklərə yiyələnir, praktik vərdişlər qazanırlar. Elmi-kütləvi mətnlərdə əşya və hadisələr haqqında dəqiq məlumat, düzgün qiymət verilir. Elmi-kütləvi mətnlərin başlıca əhəmiyyəti ondadır ki, haqqında söhbət gedən əşya və hadisənin başqa əşya və hadisələrlə qarşılıqlı əlaqələrini də açır, onları elmi cəhətdən əsaslandırır. Belə mətnlərin yaxşı cəhətlərindən biri də odur ki, bu mətnlər uşaqlarda əşya haqqında obrazlı təsəvvür yaradır. Elə bil haqqında söhbət gedən əşyanın şəkli "sözlərlə" çəkilir. (2, s. 168) Lakin buna baxmayaraq bəzən şagirdlər belə mətnləri oxumaq istəmir, ona az maraq göstərirlər. Elmi-kütləvi mətnləri öyrənmək şagirdlərdə çətinlik yaradır. Buna səbəb bu mətnlərin dilidir. Buradakı elmi üslub, xüsusi terminlər, sözlərin işlədilməsinə verilən ciddi tələb kiçikyaşlı məktəblilər üçün maraqsız, ağır görünür. Belə mətnlər şagirdlərdən diqqətlilik, iradi səy, məntiqi fəaliyyət, müəllimdən isə öyrənilən məsələyə ciddi düşünülmüş münasibət təmin edən metod və priyom seçməyi tələb edir. (3, s. 96) Ona görə də onlar belə mətnlərə birdən-birə öyrənə bilmirlər. Bunun üçün I sinifdən etibarən tədricən uşaqları elmi-kütləvi mətnlərin məzmununu dərk etməyə hazırlamaq lazımdır.

Açar sözlər: oxu, elmi-kütləvi, interaktiv, metod, ibtidai sinif, Azərbaycan dili

Elmi-kütləvi mətnlərdə şagirdlər üçün yeni material şərh olunur. Ona görə də bədii materiallarda olduğu kimi elmi-kütləvi mətni bütöv oxuyub, məzmunun dərk olunmasına ümid bəsləmək olmaz. Bu məzmunun səthi mənimsənilməsi ilə nəticələnir. Belə mətnlər hissə-hissə oxunmalı, hər hissə dərindən təhlil edilib, başa düşüldükdən sonra digərinin təhlil edilməsinə keçmək lazımdır.

Mətn oxunmazdan əvvəl müəllim şagirdlərə hansı biliklərin veriləcəyi, bu biliklərin əvvəllər öyrənilmiş biliklərlə necə əlaqələndiriləcəyi üzərində düşünməlidir.

Elmi-kütləvi mətnlərin bir qisminin başa düşülməsi əyani və praktik hazırlıq tələb edir. Mətnin oxunmasına 1-2 gün qalmış şagirdləri müvafiq obyektlərə ekskursiyalara aparmaq, haqqında söhbət gedəcək əşyaları əldə etmək tələb olunur. Cəmiyyət hadisələri və tarixi məlumatlarla bağlı mətn (xüsusilə III-IV siniflərdə) əyani vəsait, fərdi müsahibələr, gəzinti, kinofilmə, sərgiyə baxış, əmək adamları, müharibə veteranları ilə görüşlərin təşkilini tələb edir.

Elmi-kütləvi mətnlərin məzmunundan, xarakterindən asılı olaraq dərsin quruluşu, gedişi də dəyişə bilər. Bununla belə, onların hamısının oxunmasında ümumi cəhətlər, xüsusilə, biliklərin induktiv yolla mənimsənilməsi, mətnin məzmununun dərk olunmasında xüsusidən ümumiyə doğru gedilməsi mövcuddur.

Elmi-kütləvi mətni yalnız oxutmaq, şagirdləri onun ümumi məzmunu ilə tanış etməklə kifayətlənmək olmaz. Onları şagirdlərə öyrətmək lazımdır. Məhz buna görə də belə mətnlərin oxusu

əksər hallarda induktiv yolla getməlidir. Yəni mətnlər məntiqi cəhətdən tamamlanmış hissələrə ayrılmalı, əvvəlcə hissə-hissə izah olunmalı, hər bir hissə ayrılıqda başa düşüldükdən sonraq mətn bütöv oxunmalıdır. Elmi-kütləvi mətnlərin oxusuna həsr olunmuş dərsin xüsusiyyəti materialın xarakteri ilə müəyyənləşir. Elmi-kütləvi mətnlərin vəzifəsi, əsasən, bilik vermək olduğundan, onun ayrı-ayrı hissələri izah olunmaqla ümumi məzmunu başa salınmalıdır. Başqa sözlə desək, belə mətnlərin mənimsənilməsi hissələrdən bütövə, xüsusidən ümumiyə doğru getməlidir. Elmi-kütləvi mətnlər üzərində işin metodikası məhz onların induktiv yolla mənimsədilməsi ilə müəyyənləşir. (1, s.52)

Məlumdur ki, hər bir fənn (təbiət, coğrafiya, tarix və s.) üzrə elmi-kütləvi mətnlərin oxunması prosesinin özünəməxsus xüsusiyyətləri vardır. Bununla bərabər, onların hamısının oxusunda ümumi cəhətlər də tapmaq mümkündür.

Elmi-kütləvi mətnlərin üzərində iş aşağıdakı mərhələlər üzrə gedir: (5, s.76)

1. Giriş müsahibəsi.
2. Mətnin hissə-hissə oxunması.
3. Mətnin hissələrinin təhlili.
4. Planın tərtib olunması.
5. Təkrar oxu.
6. Mətnin bütöv oxunması.
7. Mətnin məzmununun nağıl edilməsi.
8. Ümumiləşdirmə.
9. Ev tapşırığı.

Bu mərhələlərin hər biri elmi-kütləvi mətnlərin şagirdlərə mənimsədilməsi üçün çox əhəmiyyətli rol oynayır.

Müasir təhsil sistemində interaktiv metodların tətbiqi elmi-kütləvi mətnlərin oxusunda da zəruridir. Çünki çətinlik dərəcəsi yüksək olan elmi-kütləvi mətnləri şagirdlərə öyrətmək üçün interaktiv təlim metodları vasitəsilə mətnə qarşı şagird marağının yüksəlməsinə nail olmaq olar.

Elmi-kütləvi mətnlərin oxusunda interaktiv metodlardan istifadə ilə bağlı dərs nümunəsinə nəzər salsaq, deyilənlərin bir daha şahidi olarıq.

II SİNİF
(OXU)

Mövzu: Heydər Əliyev
Məqsəd:
1. Mövzunun məzmununu açıqlamaq;
2. Mövzudakı obrazın xarakterini müxtəlif metodlarla açmaq – klaster;
3. Audio vasitələrlə Heydər Əliyev fenomenini xatırlamaq;
4. Heydər Əliyev şəxsiyyəti nümunəsində ideal şəxsiyyət kimi yetişmək bacarığının aşılanması.

İnteqrasiya: Azərbaycan dili, təsviri incəsənət, tarix, ədəbiyyat.
İş forması: kiçik qruplarla iş.
İş metodu: Karusel.
Resurslar: dərslik, işçi vərəqləri, şəkillər, mobil telefon, rəngli qələmlər və s.

Motivasiya:



Bundan sonra mobil telefon vasitəsilə Heydər Əliyevin öz səsi ilə "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" sitatı səsləndirilir və tədqiqat sualı verilir.

Tədqiqat sualı: KİMDİR O?

Şagirdlər hamısı Heydər baba deyə cavab verir. Şəkil üzərindəki ağ lövhə qaldırılır və orada Heydər Əliyevin şəkli şagirdlərə göstərilərək onların düz dedikləri nümayiş etdirilir.



Uşaqlar deməli biz bu gün Heydər Əliyev haqqında bildiklərmizi yada salıb, bilmədiklərimizi isə öyrənəcəyik. Bu gün onun 85 illik yubileyidir. Heydər Əliyev haqqında müəllim məlumat verir.

Şagirdlər "Bayraq", "Himn", "Gerb" qruplarına bölünür.

Tədqiqatın aparılması:

Bayraq qrupu.

1. Prezident kimdir? sualına cavab verin.
2. Heydər Əliyevə aid şeir söyləyin.
3. Qrupunuzun adına uyğun şəkil çəkin.

Himn qrupu.

1. Heydər baba kimi olmaq istərdinmi? Nə üçün?
2. Heydər Əliyevə aid şeir söyləyin.
3. Qrupunuzun adına uyğun şəkil çəkin.

Gerb qrupu.

1. Heydər babanı necə təbrik edərdiniz?
2. Heydər Əliyevə aid şeir söyləyin.
3. Qrupunuzun adına uyğun şəkil çəkin.

İnformasiya mübadiləsi: qruplar öz işlərini nümayiş etdirirlər.

İnformasiyanın təşkili və müzakirəsi: Heydər Əliyevin gördüyü işləri əks etdirən tablo şagirdlərə nümayiş etdirilir və sonra onlara aşağıdakı sual verlir:

Heydər Əliyev uşaqlar üçün nələr etmişdir?

1. Bütün uşaqları qayğıyla əhatə etmişdir.
2. Onların təhsil almaları üçün şərait yaratmışdır.
3. Uşaqlar üçün yeni məktəblər tikdirmişdir.
4. Onların valideynlərini işlə təmin etmişdir.

Nəticə və ümumiləşdirmə: Şagirdlərin söylədiyi fikirlər ümumiləşdirilir və onların fikirlərinə əlavələr edilib nəticə çıxarılır.

Yardıcı tətbiqetmə: Uşaqlar H. Əliyevin söylədiyi sitatlardan bir neçəsini söyləyir. Burada cavablar müxtəlif olur və şifahi formada qeyd edilir.

Qiymətləndirmə: şagirdlərin nəticələri diplomlar vaitəsilə qiymətləndirildi.

Refleksiya: Dərsin bütün mərhələləri təhlil edilir.

Ev tapşırığı: Şagirdlərə H.Əliyevə aid şeir və sitatlar öyrənmək tapşırılır.

Dərs nümunəsindən göründüyü kimi, elmi-kütləvi mətnlərin oxusunda interaktiv metodlardan istifadə belə mətnlərin şagirdlərdə daha çox maraq doğurmasına səbəb olur. Bu zaman şagirdlər keçilən mövzu ilə əlaqədar öz fikirlərini söyləyir və söylədikləri fikirlə elə bil məsuliyyətli bir işin öhdəsindən gəlmiş olurlar. Çətinlik dərəcəsi yüksək olan elmi-kütləvi mətnləri interaktiv metodların köməyilə asanlıqla öyrənən şagirdlər gələcək dərslərdə daha çətin mətnləri öyrənməyin öhdəsindən gəlməklə onlarda əzmlə, müstəqil çalışmaq bacarıqları formalaşır. Onlara suallara şifahi və ya yazılı cavab vermək, ayrı-ayrı söz və ifadələri seçib lüğət dəftərinə yazmaq, məzmuna müvafiq şəkil, çertyoj çəkmək, albom, kolleksiya hazırlamaq, müşahidə etmək, başqa kitablardan məlumat toplamaq, mətnə uyğun tapmaca, atalar sözü, bədii parçalar seçmək və s. kimi tapşırıqları yerinə yetirmək tapşırıldıqda qeyd edilən bacarıqların formalaşdırılması daha effektiv nəticə verir.

İstifadə edilmiş ədəbiyyat:

1. Həsənov M., Bəhmənova C. İbtidai siniflərdə fəal və interaktiv metodlardan istifadənin nəzəri – praktik məsələləri. Bakı, 2009.
2. Kərimov Y.Ş. Ana dilinin tədrisi metodikası. “Nasir” nəşriyyyatı, Bakı, 2007
3. Veysova Z. Fəal (interaktiv) təlim: Müəllimlər üçün vəsait, UNİCEF, 2007
4. Cenni L.Stil, Çarlz Templ və Kurtis S.Meredit. Tədris metodları ilə iş. IV kitab. Bakı, Açıq Cəmiyyət İnstitutu – Yardım Fondu, 2000
5. Гузеев В.В. Методы и организационные формы обучения. "Народное образование", Москва, 2001
6. Сакварелидзе Р. Интерактивное обучение и его психологические основы. Тбилиси, Норвежский Совет по беженцам, Шведское Международное Агентство Развития, 2004.

Л.Мусаева

Способы использования интерактивных методов при чтении научно-массовых текстов на уроках азербайджанского языка

Резюме

Основная цель внедрения новых педагогических технологий в начальных классах - поставить интерактивные занятия учащихся на первый план. В контексте использования новых педагогических технологий основная идея обучения - учиться вместе, а не применять их вместе. Это, естественно, требует использования современных методов обучения. Наблюдения показывают, что использование интерактивных методов обучения имеет больший потенциал для повышения качества обучения. Таким образом, каждый учитель начальных классов должен надлежащим образом изучать и использовать современные методы обучения.

Учителя начальных классов в нашей стране также заинтересованы в использовании интерактивных методов обучения, которые в настоящее время находятся в центре внимания учителей со всего мира.

С помощью интерактивных методов обучения он создает среду, способствующую живому общению маленьких школьников. В этом процессе они становятся более активными, мотивированы думать, искать и, таким образом, становятся своего рода «исследователем». В благоприятной среде для рефлексивной деятельности усиливается познавательная активность студентов, развиваются их психические характеристики, особенно их чувства, восприятие, установки и интересы. Использование интерактивных методов обучения также раскрывает творческий потенциал студентов. С помощью интерактивных методов обучения как образовательные, так и развивающие функции обучения становятся более очевидными. Таким образом, их применение создает благоприятные условия для реализации этих функций и гарантирует, что их содержание правильно передается студентам.

Хотя учителя начальных классов, как правило, делают уроки чтения более эффективными, они иногда не могут достичь этой цели. Они позволяют студентам участвовать в интерактивном обучении, потому что они не очень хорошо разбираются в его методологии. Биографии легко доступны для студентов и обычно запоминаются, а также интерпретируются. Это не побуждает студентов думать и произносить текст своими словами. Поэтому, хотя ученики могут запомнить трудный предмет, им трудно анализировать, иллюстрировать его, сравнивать с другими текстами и доказывать свою точку зрения. Студенты часто неактивны в классе, но они слушают учителя и респондента и механически выполняют поставленную задачу. В результате они не могут применять знания, навыки и умения, полученные на уроках чтения.

При использовании интерактивных методов обучения учитель должен уделять особое внимание развитию этих навыков: способность мыслить самостоятельно и свободно выражать свои мысли; умение оценивать работу себя и своих друзей; умение сотрудничать и работать с другими; умение доказать свою точку зрения; уметь определять совместные решения и уметь принимать решения и т. д.

Ключевые слова: чтение, научно-массовая, интерактив, метод, начальный класс, Азербайджанский язык

L. Musayeva

Ways to use interactive methods when reading scientific texts in the lessons of the Azerbaijani language

Summary

The main goal of introducing new pedagogical technologies in elementary grades is to put interactive classes of students at the forefront. In the context of using new pedagogical technologies, the main idea of training is to study together, and not to apply them together. This, of course, requires the use of modern teaching methods. Observations show that the use of interactive teaching methods has greater potential for improving the quality of training. Therefore, every elementary school teacher should properly study and use modern teaching methods.

Primary school teachers in our country are also interested in using interactive teaching methods, which are currently in the center of attention of teachers from all over the world.

Using interactive teaching methods, he creates an environment conducive to lively communication between young students. In this process, they become more active, motivated to think, search, and thus become a kind of "researcher". In a favorable environment for reflective activity, the cognitive activity of students intensifies, their mental characteristics develop, especially their feelings, perceptions, attitudes and interests. Using interactive teaching methods also reveals the creative potential of students. Using interactive teaching methods, both educational and developmental learning functions become more apparent. Thus, their use creates favorable conditions for the implementation of these functions and ensures that their content is correctly transmitted to students.

Although primary school teachers tend to make reading lessons more effective, they sometimes cannot achieve this goal. They allow students to participate in interactive learning, because they are not very well versed in its methodology. Biographies are easily accessible to students and are usually remembered as well as interpreted. This does not encourage students to think and pronounce the text in their own words. Therefore, although students can remember a difficult subject, it is difficult for them to analyze, illustrate it, compare it with other texts, and prove their point of view. Students are often inactive in the classroom, but they listen to the teacher and the respondent and mechanically complete the task. As a result, they cannot apply the knowledge, skills and abilities gained in reading lessons.

When using interactive teaching methods, the teacher should pay special attention to the development of these skills: the ability to think independently and freely express their thoughts; ability to evaluate the work of yourself and your friends; ability to collaborate and work with others; ability to prove one's point of view; be able to determine joint decisions and be able to make decisions, etc.

Keywords: reading, scientific-mass, interactive, method, elementary class, Azerbaijani language

Redaksiyaya daxil olma tarixi: 21.02.2019
Çapa qəbul olunma tarixi:19..08.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Svetlana Məmmədova tərəfindən çapa tövsiyə olunmuşdur

YEGANƏ ƏLƏSGƏROVA
BDU
Zahid Xəlil küç
yegish76@mail.ru

TİPOLOJİ DİLÇİLİYİN ƏSAS İNKİŞAF İSTİQAMƏTLƏRİ

Xülasə

Dillərin morfoloji strukturuna görə tipoloji təsnifi XIX əsrin əvvəllərində özünü göstərir. Müasir tipoloji dilçiliyin banisi Vilhelm fon Humboldt hesab edilir. Humboldt dillərə tam təsnifat verməyin qeyri- mümkünlüyünü qeyd edir və bunu dillərin quruluşunun həddindən artıq müxtəlif olması ilə əlaqələndirir. O, bu məsələnin çətinliyinin əsas səbəbini bütün dillərin hələ tədqiq edilib öyrənilməməsi ilə bağlayır. Cəmiyyət inkişaf etdikcə dilə tələbat da artır. Dilin zərurətdən, yəni birgə fəaliyyət göstərmək tələbatından yarandığı Vilhelm Humbolt da öz əsərlərində sübut etməyə çalışmışdır. Humboldt dillərə tam təsnifat verməyin qeyri- mümkünlüyünü qeyd edir və bunu dillərin quruluşunun həddindən artıq müxtəlif olması ilə əlaqələndirir. O, bu məsələnin çətinliyinin əsas səbəbini bütün dillərin hələ tədqiq edilib öyrənilməməsi ilə bağlayır. İnsan yalnız dilin sayəsində insandır. Dil insanların dünyagörüşünün yaranması üçün zəruridir. Xalqın dili onun ruhudur və xalqın ruhu onun dilidir. Dil yalnız cəmiyyətdə inkişaf edir. Dilə ölü məhsul kimi deyil, yaradıcı bir proses kimi baxmaq lazımdır. Xalqın mədəniyyətinin yaranması onun ifadəçisi olan dilin yaranması ilə əlaqədardır. Buna görə də mədəniyyətin dərk edilməsi, hər şeydən əvvəl, dilin dərk edilməsi deməkdir. Dünya dillərində zaman keçdikcə nitq fəaliyyətindəki intensivliyə müvafiq olaraq struktur dəyişmələri baş verir. Strukturdakı dəyişmələr isə sistemdə dəyişmə əmələ gəlir. Ona görə də müasir dillərin quruluşunda bir-birindən fərqli sistemlərin mövcudluğu müşahidə edilir. Dil insanların ən böyük kəşfi olub, ümumilikdə insan həyatının bütün sahələrini əhatə edir. Dilin tədqiqi zamanı dilçilik sahəsində müxtəlif fikirlər meydana çıxmışdır. Bəzi tədqiqatçılar dili bioloji (A.Şleyxer), bəziləri psixoloji (H.Şteyntal (alman dilçisi) və Potebnya (rus dilçisi)), bəziləri isə fizioloji hadisə kimi qələmə vermişlər. Lakin artıq sübut olunduğu kimi bu fikirlərin heç biri doğru deyildir. A.Babayev bu məsələ ilə bağlı qeyd edir: "Dil fərdi psixoloji hadisə olsa idi, onda adamın danışması üçün heç bir cəmiyyət lazım olmazdı, hər kəs öz-özünə danışardı. Bundan əlavə, dil psixoloji hadisə olsaydı hər kəsin öz dili ola bilərdi. Onda dil ümumi yox, xüsusi olmalı idi..."

Açar sözləri: Humbolt, dünya dilləri, tipoloji dilçilik.

Dil, dilçilik,onun ictimai təbiəti və funksiyaları, daxili quruluşu, funksiyalarının qanunauyğunluqları, tarixi inkişafı və konkret dillərin təsnifatı haqqında elmdir.

Dilçilik elminin hüdudları genişləndikcə onun qarşısında yeni-yeni sahələr açılır. Dilçilik dil haqqında elm olduğu üçün, əlbəttə ki, onun birinci vəzifəsi dil üzərində tədqiqat aparmaqla, qarşıya çıxan problemləri araşdıraraq həllinə çalışmaqdır. Bu baxımdan, dilə yeni yanaşma üsulları meydana gəlir və dilçiliyin fəaliyyət dairəsi genişlənir. F.M.Berezin yazır ki, dil haqqında elmin tarixini öyrənməyin böyük tərbiyəvi və idraki əhəmiyyəti vardır. Xalqın mədəniyyətinin yaranması onun ifadəçisi olan dilin yaranması ilə əlaqədardır. Buna görə də mədəniyyətin dərk edilməsi, hər şeydən əvvəl, dilin dərk edilməsi deməkdir. Bir çox alimlər bu fikri təsdiqləyir. Çünki, həqiqətən, hər bir elmin başlanması, yaranması üçün o sahədə elmi idrak yaranmalı və inkişaf etməlidir. Dil nədir? Necə əmələ gəlmişdir? Bu kimi suallar ilk görünüşdə çox asan görünsə də lap qədimdən insanların diqqətini cəlb etmiş, onları tarix boyu düşündürmüşdür. Onlar bir çox başqa suallar kimi bu sualın da cavabını tapmaqda çətinlik çəkdikdə onun da yaranmasını ilahiyyatla əlaqələndirmişlər. Dil insanların ən böyük kəşfi olub, ümumilikdə insan hə-

yatının bütün sahələrini əhatə edir. Dilin tədqiqi zamanı dilçilik sahəsində müxtəlif fikirlər meydana çıxmışdır. Bəzi tədqiqatçılar dili bioloji (A.Şleyxer), bəziləri psixoloji (H.Şteyntal (alman dilçisi) və Potebnya (rus dilçisi)), bəziləri isə fizioloji hadisə kimi qələmə vermişlər. Lakin artıq sübut olunduğu kimi bu fikirlərin heç biri doğru deyildir. A.Babayev bu məsələ ilə bağlı qeyd edir: "Dil fərdi psixoloji hadisə olsa idi, onda adamın danışması üçün heç bir cəmiyyət lazım olmazdı, hər kəs öz-özünə danışardı. Bundan əlavə, dil psixoloji hadisə olsaydı hər kəsin öz dili ola bilərdi. Onda dil ümumi yox, xüsusi olmalı idi... Dil fizioloji hadisə də deyil. Məlumdur ki, fizioloji faktorlar bütün canlılara irsən keçir. Dil isə irsi-fizioloji faktor deyil. Dil xüsusi ictimai hadisədir. O, fizioloji, bioloji, psixoloji hadisələrdən və bütün başqa ictimai hadisələrdən öz xüsusi əlamətləri ilə ayrılır. Dil ictimai hadisə olaraq cəmiyyətlə bağlıdır. Cəmiyyətlə bağlı olan bütün hadisələr ictimaidir. Dil ictimai hadisə olduğu olduğu üçün insanlar arasında əsas ünsiyyət vasitəsidir. İnsanların dilə olan tələbatı hətta qidaya, havaya, yuxuya olan tələbatla eyniləşdirilir. Cəmiyyət inkişaf etdikcə dilə tələbat da artır. Dilin zərurətdən, yəni birgə fəaliyyət göstərmək tələbatından yarandığı fikrini alman dilçisi Vilhelm Humbolt da öz əsərlərində sübut etməyə çalışmışdır. O, yazırdı: "Dilin ilkin mənbəyi bizim üçün əlçatmaz bir sirdir. Dil şübhəsiz insandan yaranmışdır. İnsan yalnız dilin sayəsində insandır. Dil insanların dünyagörüşünün yaranması üçün zəruridir. Xalqın dili onun ruhudur və xalqın ruhu onun dilidir. Dil yalnız cəmiyyətdə inkişaf edir. Dilə ölü məhsul kimi deyil, yaradıcı bir proses kimi baxmaq lazımdır. Nəzəri dilçilik şərti olaraq ümumi və xüsusi dilçiliklərə bölünür. İngilis və fransız mənbələrində linqvistika işlənsə də o, dilçiliyin sinonimi kimi başà düşülür. Strukturalizmdə daxili və xarici dilçilik fərqləndirilsə də, linqivistika ümumi və nəzəri dilçiliyin bir hissəsi kimi başa düşülür. XX əsrin 50-ci illərindən bu yana linqvistika çağdaş, sinxron, daxili struktura yönəlikli bir elm kimi götürülür və bütün səviyyələrdə dil qanunauyğunluqlarını aydın və formal təsvir metodlarla tədqiq edir

Dünya dillərində zaman keçdikcə nitq fəaliyyətindəki intensivliyə müvafiq olaraq struktur dəyişmələri baş verir. Strukturdakı dəyişmələr isə sistemdə dəyişmə əmel gəlir. Ona görə də müasir dillərin quruluşunda bir-birindən fərqli sistemlərin mövcudluğu müşahidə edilir. Aparılan tədqiqatların nəticəsi olaraq bütün dünya dilləri öz tipoli quruluşuna görə aşağıdakı kimi təsnif edilir: 1. Köksözlü dillər 2. Flektiv dillər 3. Aqlütinativ dillər 4. İnkorpolaşan (polisintetik) dillər

Dünya dilləri iki baxımdan təsnif edilə bilər:

1. Geneoloji təsnif – qohumluğuna görə.

2. Tipoloji təsnif – quruluşunun səciyyəsinə görə.

Dillərin morfoloji strukturuna görə tipoloji təsnifi XIX əsrin əvvəllərində özünü göstərir. 1808-ci ildə alman alimi F.Şlegel "Hindlilərin dili və müdrikliyi haqqında" adlı əsərində dünya dillərini morfoloji quruluşuna görə iki yerə bölmüşdür.

1. Şəkilçili dillər (bu dillərə türk, Polineziya və Çin dillərini daxil etmişdir. Onun fikrincə bu dillərdə sözlər arasında əlaqə sırf mexaniki yolla ifadə olunur).

2. Flektiv dillər (bu dillərə sami, gürcü, fransız dilləri daxil edilmişdir).

F. Şlegel dilləri flektiv və şəkilçili tiplərə ayırarkən kökün dəyişməsi və ya dəyişməməsi amilini əsas götürürdü.

F. Şlegelin "Hindlilərin dili və müdrikliyi haqqında" adlı əsərindən 10 il sonra onun qardaşı Avqust-Vilhelm Şlegel 1818– ci ildə "Provansal dili və ədəbiyyatı haqqında qeydlər" adlı əsərində dilləri üç qrupa bölür:

1. Heç bir qrammatik strukturu olmayan dillər, yəni sözləri dəyişməyən və cümlədə sözlər arasındakı münasibətlərin təkcə söz sırası ilə ifadə olunduğu dillər.

2. Şəkilçili dillər, yəni cümlədəki sözlər arasındakı münasibətlərin şəkilçilər vasitəsilə yarandığı dillər.

3. Flektiv dillər, yəni şəkilçilərdən əlavə daxili fleksiyadan da istifadə edən dillər.

A. Şlegel flektiv dilləri də özlüyündə iki qrupa bölür: sintetik və analitik dillər. Sintetik

dillərdə sözlər arasındakı əlaqələr sözlərin öz formalarının köməyi ilə yaradılır, analitik dillərdə isə bu əlaqə köməkçi sözlər və söz sırası vasitəsilə yaradılır.

Müasir tipoloji dilçiliyin banisi V.fon Humboldt hesab edilir. Humboldt dillərin tipoloji təsnifinə tamamilə başqa mövqedən yanaşaraq Şlegel qardaşlarının təsnifini təkmilləşdirmiş və genişləndirmişdir.

Humboldt dillərə tam təsnifat verməyin qeyri- mümkünlüyünü qeyd edir və bunu dillərin quruluşunun həddindən artıq müxtəlif olması ilə əlaqələndirir. O, bu məsələnin çətinliyinin əsas səbəbini bütün dillərin hələ tədqiq edilib öyrənilməməsi ilə bağlayır.

V. fon Humboldt əsasən A. Şlegelin tipoloji təsnifatı ilə razılaşmış və bütün məlum dilləri 4 qrupa bölmüşdür:

1. Təcrid edilmiş dillər (Çin dili kimi sözdəyişdirici şəkilçisi olmayan dillər);

2. İltisaqi dillər (türk dilləri kimi təkmənalı şəkilçi morfemləri olan dillər);

3. Flektiv dillər (sözlərə çoxmənalı morfemlər əlavə olunan dillər- Hind-Avropa və ya sami dilləri);

4. İnkorporlaşan dillər. O, xüsusi dil qrupu kimi Amerika hindularının dilini ayırmış və belə adlandırmışdı. Burada sözlər xüsusi söz- cümlələrdə birləşmə qabiliyyətinə malik olur.

XIX yüzillik tipoloji dilçiliyinin əsas nümayəndələrindən biri dillərin şəcərəsi nəzəriyyəsinin yaradıcısı olan Avqust Şlayxer hesab olunur. A. Şlayxer dilləri onların inkişafının üç pilləsini təşkil edən üç tipə bölür: təkhecalı, aqqlütinativ və flektiv. Onun fikrincə, dillərin bu tipləri tarixi təşəkkül əsasında yaranmışdır. Təkhecalı dillər inkişafın birinci mərhələsini təşkil edir. Təkhecalı dillər tipindən aqqlütinativ dillər tipi, aqqlütinativ dillər tipindən flektiv dillər əmələ gəlir. Beləliklə flektiv dillər tipi dil inkişafının ən yüksək mərhələsini təşkil edir. A. Şlayxer hətta təbiətdən buna analogiya da göstərir. A. Şlayxer təkhecalı dilləri kristallara, aqqlütinativ dilləri bitkilərə, flektiv dilləri heyvan orqanizminə bənzədir.

Sonralar tipoloqlar Humboldt–Şlayxer ümumiləşdirilmiş təsnifatını təkmilləşdirmək və şəklini dəyişməklə məşğul oldular. Həmin dilçilərdən biri də H. Ştayntaldır. H. Ştayntal, öz təsnifini Humboldtun ideyaları əsasında qurmuşdur. O, təsnifat prinsipi kimi mahiyyətcə sintaktik olan forma anlayışını götürür. O, bütün dilləri iki əsas tipə ayırır: formalı dillər və formasız dillər. Bu iki əsas tipi də öz növbəsində iki yarımqrupa bölür: birləşən dillər və şəklini dəyişən dillər.

XIX yüzilliyin 90- cı illərində H. Ştayntalın tipoloji təsnifi F. Misteli tərəfindən yenidən işlənib hazırlanmışdır. H. Ştayntal kimi F. Misteli də dilləri iki qrupa bölür, lakin onun yarımqrupları fərqlənir. O, formasız və formalı dillər yarımqrupları ilə çarpazlaşan sözsüz dillər, yalançı sözlər və həqiqi sözlər yarımqruplarını tərtib edir. M. Misteli formalı həqiqi sözlü dillərə təkcə flektiv dilləri, yəni sami və Hind- Avropa dillərini, sözü əmələ gətirən ünsürləri sıx birləşməyən aqqlütinativ dilləri formasız yalançı sözlü dillərə aid edir. Formalı sözsüz dillər arasında F. Misteli təcrid olunmuş və birləşdirilən dilləri fərqləndirir. O, tipologiya üçün sintaksisin əhəmiyyətinə diqqəti cəlb edir.

V. Humboldt və A. Şlayxer kimi, H. Ştayntal və F. Misteli də inkişafının ən yüksək mərhələsi kimi Hind-Avropa dillərini göstərmişlər. Bu dillər ideal qrammatik strukturlu dillər kimi qiymətləndirilir.

XIX əsrin tipoloji tədqiqatları F.F.Fortunatovun təsnifi ilə bitir. F.F.Fortunatov V. fon Humboldtun təsnifi sisteminə qayıdır, onu aqqlütinativ və flektiv tiplər arasında mövqe tutan bir tiplə təkmilləşdirir, tamamlayır. Həmin tipi flektiv-aqqlütinativ tip adlandırır və sami dillərini bu tipə aid edir.

XX əsrdə linqvistik tipologiyanın tarixi Amerika dilçisi Edvard Səpirin və alman dilçisi F.N.Finkin təsnifi ilə başlanır.

1909- cu ildə F.N.Fink öz təsnifini irəli sürür. Özü də qeyd etdiyi kimi, Fink dilləri onların strukturunun "doluluğu" və ya "fraqmentliyi" (natamamlığı) dərəcəsi baxımından araşdırır. Doluluq dedikdə o, bir sözün strukturunda ən müxtəlif cinsli münasibətlərin ifadəsini, fraqment-

lik dedikdə isə müxtəlif münasibətlərin ayrı-ayrı sözlərdə ifadəsini nəzərdə tutur.

E. Səpir "Dil" adlı əsəri ilə pilləli tipologiyanın əsasını qoyur. E. Səpir Amerika hindularının dilləri üzrə görkəmli mütəxəssis idi. Onun fikrincə, dil mürəkkəb hadisə olduğu üçün dilləri təsnif edərkən müxtəlif prinsiplərdən istifadə etmək lazımdır. O, öz təsnifini yeni prinsiplər əsasında qurur. Səpir göstərir ki, dillərin tipoloji təsnifini hansısa bir nöqteyi- nəzər əsasında qurmaq olmaz. Bunun üçün bir neçə əsas müəyyənləşdirir və belə hesab edir ki, dillərin hər biri bu əsasların nöqteyi- nəzərindən müəyyənləşdirilməlidir.

Səpir əvvəlcə "anlayışların" təbiətini nəzərdən keçirir və dörd tip fərqləndirir:

I tip- əsas anlayışlar (müstəqil sözlə ifadə olunmuş əşya, hərəkət, keyfiyyət);

II tip- derivasiya (törəmə) anlayışları;

III tip- konkret relyasion anlayışlar (kəmiyyət, cins və s.);

IV tip- mücərrəd relyasion anlayışlar (söyləmin ünsürləri arasında əlaqələrə xidmət Onların hər biri, ya hər ikisi dildə olmaya bilər.

I və IV tip anlayışlar bütün dillərə xasdır. II və III tip anlayışlar zəruri deyil. Onların hər biri, ya hər ikisi dildə olmaya bilər.

Sovet dilçiliyində də dillərin morfoloji təsnifi ilə bağlı təşəbbüslər olmuşdur. Bu məsələ ilə yalnız N. Y. Marr və onun şagirdləri məşğul olmuşlar.

Müasir dilçilikdə morfoloji tipologiyanın bir sıra metodlarından istifadə edilir. Geniş yayılmış metodlardan biri də kvantitativ metod hesab olunur. Amerika dilçisi C. Qrinberq "Dillərin morfoloji tipologiyasına kvantitativ yanaşma" (1960) adlı əsərində bu metodun prinsiplərini əsaslandırır və dillərin yeni tipoloji təsnifini verir. Kvantitativ metodda E. Səpirin təsnifi əsas götürülür və onlar rəqəmlərlə, statistik hesablamalarla əsaslandırılır.

Müasir tipologiyada statistik metodlar da geniş tətbiq olunur. Bu metodda dilin müxtəlif ünsürlərinin, başlıca olaraq, fonetik ünsürlərin əsas tezlikləri müəyyənləşdirilir və onlar dillərin tipoloji səciyyəsi kimi izah olunur.

Bu sahədə geniş istifadə olunan metodlardan biri də xarakteroloji metoddur. Hələ H.Ştayntal bu və ya digər tipi təmsil edən ayrı-ayrı dilləri müfəssəl səciyyələndirməyə çalışırdı. Bu xüsusiyyətə Finkin təsnifində daha qabarıq şəkildə rast gəlinir. Bununla da Fink tipologiyanın yeni şəkildə xarakteroloji konsepsiya kimi dərk edilməsinə yol açdı. Beləliklə tədqiqatçılar öz diqqətlərini ayrıca bir dilin üzərinə, başqa dillərlə müqayisədə konkret bir dilin özünəməxsus xüsusiyyətlərini aydınlaşdırmağa yönəldir. Xarakteroloji konsepsiyanın prinsipləri tipologiyanın təməlinə qoyulmuşdur.

Müasir dilçilikdə morfoloji tipologiyanın metodlarından biri də struktur metoddur. Bu tipologiya dilin ayrı- ayrı xüsusiyyətlərinin qarşılıqlı əlaqəsi əsasında dilə bütöv kimi baxır.

Dilçilk tipologiyasının öyrənilməsini dərinləşdirdikcə dünya dilləri arasında daxili, sirli, gizli, üstü zaman-zaman örtülmüş müştərəkliklərin açılması imkanı əldə edilə bilir.

Ədəbiyyat

1. A. A. Axundov, Ümumi dilçilik. Bakı 1988.
2. A.M.Babayev. Dilçiliyə giriş. Bakı 2004. 511səh.
3. M.İ.Adilov, Z.N.Verdiyeva. İzahlı dilçilik terminləri. Bakı –Maarif 1989, 360 səh. 6.
4. Terminologiya məsələləri. Bakı-Elm 1984, 64 səh. inkişafına təsiri haqqında. Bakı 2008.
6. Ə. Ə. Rəcəbli, Tipoloji dilçilik. Bakı 2010.
7. Ə. Ə. Rəcəbli, Dilçilik metodları. Bakı 2003.
8. Ə. Ə. Rəcəbli Dilçilik tarixi, II cild, Bakı 2006.
9. Ə. Ə. Rəcəbli Nəzəri dilçilik, Bakı 2003.

Е.Алескерова

Основные направления развития типологического языка

Резюме

В начале девятнадцатого века типологическая классификация языков находит свое отражение в морфологической структуре. Основателем современного типологического языкознания считается Вильгельм фон Гумбольдт. Гумбольдт указывает на невозможность категоризации языков и объяснения этого крайними различиями в структуре языков. Он приходит к выводу, что главная причина этой проблемы заключается в том, что не все языки изучаются или изучаются еще. По мере развития общества спрос на язык также растет. Вильгельм Гумбольт также пытался доказать в своих работах, что язык был рожден по необходимости, то есть необходимости сотрудничества. Гумбольдт указывает на невозможность категоризации языков и объяснения этого крайними различиями в структуре языков. Он приходит к выводу, что главная причина этой проблемы заключается в том, что не все языки изучаются или изучаются еще. Человек только человек из-за языка. Язык необходим для возникновения мировоззрения людей. Язык народа - это его дух, а дух народа - это его язык. Язык развивается только в обществе. Язык следует рассматривать как творческий процесс, а не мертвый продукт. Возникновение культуры народа связано с появлением языка ее выражения. Поэтому понимание культуры означает прежде всего язык. В мировых языках со временем происходят структурные изменения в зависимости от интенсивности речевой деятельности. Изменения в структуре происходят в системе. Следовательно, в структуре современных языков существуют разные системы. Язык является величайшим открытием людей и, как правило, охватывает все сферы человеческой жизни. В изучении языка возникли разные взгляды. Некоторые исследователи называют письменный язык биологическим (A. Schleicher), некоторые психологический (H. Steyntal (немецкий лингвист) и Potebnya (русский лингвист)), а некоторые - как физиологические явления. Однако, как уже было доказано, ни одна из этих идей не верна. А.Бабаев отмечает по этому вопросу: «Если бы язык был отдельным психологическим событием, тогда не нужно было бы говорить обществу, каждый говорил бы за себя. Кроме того, если бы язык был психологическим событием, у каждого мог бы быть свой язык. Тогда язык должен был быть особенным, а не особенным… »

Ключевые слова: Гумбольдт, языки мира, лингвистическая типология.

Y.Alaskarova

Main development directions of tipological language

Summary

At the beginning of the nineteenth century, the typological classification of languages is reflected in the morphological structure. The founder of modern typological linguistics is Wilhelm von Humboldt. Humboldt points out the impossibility of categorizing languages and explaining this with extreme differences in the structure of languages. He concludes that the main reason for this problem is that not all languages are studied or are still being studied. As society develops, the demand for language also grows. Wilhelm Humbolt also tried to prove in his works that the language was born out of necessity, that is, the need for co-operation. Humboldt

points out the impossibility of categorizing languages and attributing this to the extreme differences in the structure of languages. He concludes that the main reason for this problem is that not all languages are studied or studied yet. Man is human only by the tongue. Language is essential for the emergence of people's outlook. The tongue of the people is his spirit, and the spirit of the people is his tongue. Language only develops in society. The tongue should be viewed as a creative process, not a dead product. The emergence of the culture of the people is connected with the emergence of the language of its expression. Therefore, understanding culture means, first of all, language. In the world languages, over time, structural changes occur according to the intensity of speech activity. Changes in the structure occur in the system. Therefore, there are distinct systems in the structure of modern languages. Language is the greatest discovery of people and generally covers all areas of human life. Different views have emerged in the language study. Some researchers have written language as biological (A. Schleicher), some psychologically (H. Steyntal (German linguist) and Potebnya (Russian linguist)), and some as physiological phenomena. However, as has already been proved, none of these ideas are true. A. Babayev notes on this issue: "If the language was an individual psychological event, then no society needed to speak, everyone would speak for themselves. In addition, if the language were a psychological event, everyone could have their own language. Then the language had to be special, not common… "

Key words: Humboldt, world languages, linguistic typology.

Redaksiyaya daxil olma tarixi: 21.02.2019
Çapa qəbul olunma tarixi: 25.03.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Gülşən Kərimovca tərəfindən
çapa tövsiyə olunmuşdur

NAİLƏ QULİYEVA
Azadlıq prospekti
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
naila.quliyeva@asoiu.edu.az

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ SOMATİK FRAZEOLOGİZMLƏRİN STRUCTUR- QRAMMATİK XÜSUSİYYƏTLƏRİ

Summary

The article states that some of the linguists investigate the notion of phraseology in a limited sense, the second part consider them as a combination of phrases, the others based on the concept of phraseology, expressing phraseological expressions and expressions, expressive-emotional terminology and so on. are also called objects of phraseology. Controversial approaches to phraseology are related to the broad or narrow use of the term phraseology. Studies show that phrases such as "phraseological", "idioms", "phraseological groups", "phraseological units", and other terms are used. It is said that phrases should be treated as expressions of a complete, stable lexical and syntactical structure, rather than any combination of two or more words.

It is emphasized that the structure of somatic phraseological units in the Azerbaijani and English languages is different. They can be structurally changed, modified. The somatic phraseology of both languages is based on the combination of two or more words. Due to the nature of the components' syntactic relationship, some of them are used in the form of words and some of them are in grammatically formed sentence structure. Somatic phraseological unification of the somatic unit with the characteristic of the structure and the meaning of word combinations. The somatic phraseological unit, which expresses a finite, completed idea, reminiscent of sentence structure in terms of intonation, predicativity and modality, can be called a somatic phraseological sentence. Such facts are not uncommon in the Azerbaijani language. Cases of referring to somatic phraseology can be found not only in proverbs and parables, but also in other somatic phraseologies. By adding a word to the composition of somatic phraseology, certain changes are made in the structure of the new word.

Keywords: phraseological, syntactic, structural-grammatical, somatic phraseological units, fixed lexical content.

Bütün dillərdə oldugu kimi, ingilis və Azərbaycan dillərinin də frazioloji əhatə dairəsi haqqında fikir müxtəlifliyi alimlər arasinda bu gun də davam etməkdədir. Dilcilərin bir qismi yalniz məhdud mənada frazeologizm anlayişindan çixiş edərək idiomlar, digər qismi həm də frzeoloji birləşmələri, ücüncü qismi isə frazeologizm anlayişini geniş mənada götürərək, frazeoloji ifadə və ibarələri, ekspressivlik-emosionalliqla yüklənmiş terminoloji birləşmələri və s. də frazeologiyanin obyekti hesab edirlər. Azərbaycan dilçisi professor H. Bayramov "frazeologiya" anlayişi dar mənada götürsə də, atalar sözləri və zərb–məsələləri də frazeologiyanin zənginləşməsinin mənbələrindən biri hesab etmiş və onları frazeoloji cümlə kimi araşdırmışdır (2,145). S.İ. Ojeqov 1957-ci ildə yazdigi məqaləsində qanadli sözləri, atalar sözləri və zərb məsələləri, aforizmləri, xüsusi klişeləri və s. frazeolji vahidlərin növü kimi qəbul edərək göstərdi ki, onlar öz elementlərinə parcalandiqdan sonra dilin frazeoloji sisteminin sərvətinə çevrilir. (4, 38) Bunu müdafiə edən prof. A.M. Qurbanov da frazeologoyani geniş mənada qəbul edərək, onun "frazeoloji ifadə və ibarələr" şəklində müfəssəl öyrənilməsini təklif edir. (3, 246)

Dilcilik ədəbiyyatinda frazeologiya anlayişi müxtəlif şəkildə tətbiq olunur. Tədqiqatçılar bu barədə diametral əks mövqe tuturlar. Frazeologiya ilə əlaqədar meydana gələn fikir ayrılığı baxımından yanaşmaları, frazeologiya terminini geniş və ya dar mənada işlədilməsi ilə baglıdır.

Tədqiqatlarda frazeologizmlər "frazeloji birləşmələri'', ''idiomlar'', frazeoloji qruplar'', ''frazeoloji tərkiblər", ''frazeoloji vahidlər" və s. terminlərdən istifadə olunur.

Frazeoloji vahidlərin əhatə dairəsi haqqında müxtəlif fikirlərin meydana gəlməsi onların həm frazeoloji qovuşma (idiom) kimi, həm də daha geniş mənada başa düşülməsinə imkan verir. Məsələn, hələ vaxtilə F.de Sössür (5, 261) yazmişdır: "Biz küllü miqdarda ifadələrə rast gəlirik ki, bunları dilə aid etmək lazımdır. Bunlar dildə elə hazır nitq parçalarıdır ki, daxilindəki ayrı-ayrı mənalara malik sözləri dəyişmək məqbul sayılmır. Bunların ənənəyə görə məna, komponentlərinin bütövlükdə mənasindan və sintaktik quruluşundan asılıdır. Belə ifadələr düzəldilmir, bunlardan dildə hazır şəkildə istifadə edilir.

Frazeoloji vahidlərə iki və daha artıq sözün birləşməsindən əmələ gələn hər hansı birləşmə yox, mənaca bütöv, sabit leksik tərkibli və sintaktik strukturlu ifadələr kimi yanaşmaq lazımdır.

Azərbaycan və ingilis dillərində somatik frazeoloji vahidlərin strukturu müxtəlifdir. Onlar strukturca dəyişə bilir, modifikasiyaya uğrayir (formaca dəyişir), başqa şəklə düşür. Hər iki dilin somatik frazeologizmləri iki və daha çox sözlərin birləşməsi əsasında yaranir. Komponentlərin sintaktik əlaqəsinin səciyyəsinə görə bunların bir qismi söz birləşməsi şəkilində, bir qismi isə qrammatik cəhətdən formalaşmış cümlə quruluşunda işlədilir. Quruluş və mənaca söz birləşməsi səciyyəsi daşiyan somatik vahid somatik frazeoloji birləşmə; məzmunca bitmiş, tamamlanmış fikri ifadə edən, intonasiya, predikativlik və modallıq baxımından cümlə strukturunu xatırladan somatik frazeoloji vahidi isə somatik frazeoloji cümlə adlamdirmaq olar. Onların müəyyən qismi öz quruluşlarina görə, hər zaman nitqdə "daşlaşmiş halda qalmır. Somatik frazeoloji vahidlər üslubi məqamlarda müxtəlif somatik frazeologizmlərdə də öz əksini tapır. Somatik frazeologizmlər sərbəst söz birləşmələrindən və cümlələr əsasında yarandığı ücün onların strukturu birləşmələrin və cümlələrin strukturundan fərqlənmir. Daha doğrusu, somatik frazeologizmlərin strukturu birləşmə və cümlələrin sintaktik modelləridir.

Somatik frazeoligizmlərin tərkibi tarix boyunca az dəyişdirilmişdir. Bu proses zamanı baş verən dəyişikliklər əsasən aşağıdakılar:

-somatik frazeologizmlərin komponentlərindən birinin öz sinonimi ilə əvəz edilməsi: gözə çarpmaq-gözə dəymək, bogazından tutmaq –bogazından yapışmaq;

-somatik frazeologizmlərdə köməkçi komponentin yaranmasi: bir ayağı evdə, bir ayağı qəbrdə; bir əli yağda, bir əli balda;

-somatik frazeologizmin strukturunda baş verən ixtisarlar: üst dodağı göy süpürür, alt dodağı yer;

-somatik frazeologizmin ilkin tərkibinə yeni sözün əlavə edilməsi: başını daşdan-daşa vurmaq;

"Ictimai həyatın inkişafı prosesində mövcud olan bir qisim söz birləşməsi dili tərk edir və yeniləri gəlir". Bu müddəa somatik frazeologizmlərdə də öz əksini tapmaya bilməzdi. Bəzi somatik frazeologizmlərin tərkibində işləkliyini itirmiş bir komponentin yenisi ilə əvəzlənməsi də elə bunun nəticəsidir.

Somatik frazeologizmlərdəki struktur dəyişiklik özü də müxtəlif səciyyəli olur:

a) birləşmələr arasında sözlər işlətmək, artırmaq olar,

Məsələn, to hold one's tongue (dilini saxlamaq) somatik frazeologizminin komponentləri arasında istənilən sözü əvəz etmək olar:

to hold one's long (beautiful, sharp, bitter və s.) tongue.

He knows much how to hold his tongue.

Azərbaycan dilində də belə faktlara az təsadüf edilmir. Somatik frazeologizmin tərkibinə söz əlavə edilərək yeni sözün hesabına quruluşda müəyyən dəyişiklik olur. Məsələn, ''Bal tutan barmaq yalar'' atalar sözünü S.Vurgun "Vagif'' pyesində "Şanada bal tutan barmaq yalar'' kimi işlətmişdir. Somatik frazeologizmin tərkibinə söz artirmaq hallarına ancaq atalar sözü və məsəllərdə deyil, həm də başqa somatik frazeologizmlərdə də rast gəlmək olur. Bu cür dəyişikliklərə bədii dildə tez-tez rast gəlmək olur. Bəzən də elə olur ki, frazeologizmin ikinci komponenti təkrarlanir. Məsələn,

On addim kənarda yatmayır təkə, gəzinir, oylağa baş çəkə-çəkə'' (S.Vurgun). Buradakı "baş çəkə-çəkə'' "baş çəkmək" somatik frazeologizmindən olub, ikinci komponentin təkrarlanması ilə müəllif mənanı daha da qüvvətləndirmişdir.

Bu misallarda da somatik frazeolofizmin komponentlərindən biri – somatizm təkrar olmuşdur. ''Natəvan könlüm düşər yayliq misalı əldən-ələ (Xətai), ''Ta düşər əldən-ələ axırı çovkanə dəgər (Vidadi).

Yaxud da, "as plain as the nose on your face" (gün kimi aydın) somatik frazeolgizmindəki komponentləri dəyişərək, ''as plain as your beautiful face" (gözəl sifətin kimi aydın) kimi işlətmək olar.

To be unable to look somebody in the face (üzünə baxmaga utanmaq) frazeologizmini to be unable to look firmly (straightly, frankly və s.) somebody the face (üzünə qəti, düz açıq baxmaga utanmaq) kimi formalara salmaq olar.

b) somatik frazeologizmlərin tərkib hissələri yerini dəyişə bilər:

to laugh in somebody's face (üzünə gülmək) – laugh in the face of somebody ; to look full in the face of somebody (üzünə dik baxmaq) – (I look full in somebody's face) ;

to strengthen smb's hand (kömək əlini uzatmaq// dayaq olmaq) – to strengthen the hand of smb;

Somatik frazeologizmlərin strukturunda az və ya çox dərəcədə dəyişiklik edilərək işlədilməsi bu və ya digər bədii məqsədlərlə də əlaqədardır. Belə ki, bu zaman həmin birləşmələr özündəkindən əlavə olaraq yeni estetik və bədii keyfiyyətlər alır. Bu birləşmələr istər müəllifin istərsə də surətlərin nitqini daha da emisionallaşdirir və onun təsir qüvvəsini qat-qat artırır. A.Qurbanov bu haqda yazır: ''Frazeoloji vahidlərin quruluşunda olan dəyişiklik müxtəlif məqsədlərlə bağlı oldugu ücün eyni formada deyil, çox müxtəlif şəkillərdə olur ''.

Bəzən somatik frazeologizmin ilkin variantı saxlanilir, lakin onun tərkibində olan hər hansı bir vahid bədii ədəbiyyatlarda emosionallığı artırmaq ücün əvəzlənir, ona uyğun başqa sözlə dəyişdirilir:

''Yekə qarın, yekə baş, ara düzəldən dadaş'' ifadəsində ''dadaş'' sözünü daha da təsiredici, yandırıcı etmək ücün :

"Yekə qarın, yekə baş, ara düzəldən oğraş'' kimi işlədilir. Buradakı ''ograş''təhqiramiz sözü emfatikləşdirilmişdir.

Bildiyimiz kimi ''baş cəkmək'' somatik frazeologizmi danışıqda, nitqdə ''yoluxmaq, hal -əhval tutmaq'' mənasındadır, lakin yuxarıdakı beytdə qafiyə xatirinə işlənən ''baş çəkmək'' somatik frazeologizmindəki ''baş'' somatizmi ikinci, ''çəkmək'' feli isə birinci sıraya keçirilmişdir.

Bəzən somatik frazeologizmi təşkil edən sözlərin sırası dəyişdirilir: "Munca kim etdim tamaşa, sözlərə asdım qulaq (Vidadi). "Qulaq as, bir gileyim var sənə, ay Kirpi dayi"(R.Rza). "O gündən ki, bizim Sarvan Kür üstünə ayaq basdı, bu sehrkar maşınların səslərinə qulaq asdı..." (S.Vurgun). Yaxud S.Vurgunun "Bakının dastanı" əsərində oxuyuruq : "Dost–aşına, qohum-qardaş, Zərnigara çəkirdi baş".

Bildiyimiz kimi " baş cəkmək "somatik frazeologizmi danışıqda, nitqdə "yoluxmaq hal- əhval tutmaq" mənasındadır, lakin yuxarıdakı beytdə qafiyə xaririnə işlənən " baş çəkmək "somatik freologizmindəki "baş somatizmi ikinci, "cəkmək feli isə birini sıraya kecirilmişdir. İkidən artiq komponenti olan somatik frazeologizmlərdə sözlərin yerinin dəyişdiilməsi daha fərqlidir. Nəsələn, yenə S .Vurgunun "Vaqif " pyesindəki "Onun nişan almağı, dastan olub dillərdə" misalında "dastan olub dillərdə" somatik frazeologizminin ilkin variantı "dillərdə dastan olmaqdır". Bu frazeologizmlərdə "dillərdə" somatizmi qafiyə xatirinə ücüncü yerə kecirilmişdir. Lakin bu hadisə həmişə qafiyə xatirinə deyil, şeriyyətlə, ahənglə, musiqiliklə baglı olaraq somatik frazeologizmin komponentlərinin yeri dəyişdirilir. Məsələn,

Vidadi nə dedin!-Lap ürəyimdən;
Ömür sürməmisən qoltuqlarda sən (S.Vurgun,"Vaqif").

"Qoltuqlarda ömür sürmək "somatik frazeologizmi ingilis dili ücün səciyyəvi olmayan ifadədir və Azərbaycan dilində isə ya bədii dildə, ya da dialektlərdə işlənən frazeologizmdir. Bu somatik

frazeologizmin birinci komponentinin şerdə ücüncü yerə keçməsi, göründüyü kimi qafiyə xatirinə deyildir.

Somatik frazeologizmləri müəyyən bədii məqsəd ücün strukturunda heç bir dəyişiklik etmədən, oldudu kimi işlətdikdə müəllifin fikiri daha da canlı və təsvirli olur. Məsələn, Azərbaycan dlində "Ustasına kəm baxanın gözlərindən qan damar! atalar sözü bədii əsərdə surətin danışığını fərdiləşdirməyə, onun səciyyəsini yaratmaga kömək edir.

Feli somatik frazeoloji birləşmələrdəki fellər uyuşduğu, qovuşduğu və ya birləşdiyi sözlə birlikdə daşlaşma prosesi keçirmişdir. Əgər feldə bu və ya digər kateqoriyanın şəkli əlaməti varsa, bu o deməkdir ki, somatik frazeoloji birləşmə məhz felin həmin formal əlaməti ilə birlikdə digər sözlə birləşməsi nəticəsində yaranır.

Ədəbiyyat:

1. Axundov A.A. Dil və Ədəbiyyat, 1c., Bakı, 2003, 657 səh.
2. Bayramov H.A. azərbaycan dilinin frazeologiyasının əsasları, Bakı, Maarif, 1978
3. Qurbanov A. M. Ümumi dilçilik, 1 – II cildlər, Bakı, 2014
4. Ожегов С.И. Лексикология. Лексикография. Культура речи, М.: Высшая школа, 1974. — 352 с.
5. Ф. де Соссюр. Курс общей лингвистики (перевод на русском языке), М, 1993

Н.А. Кулиева

Структурно-граммические особенности соматической фразеологии на английском и азербайджанском языках

Резюме

В статье отмечается, что некоторые из лингвистов происходят от понятия фразеологии в ограниченном смысле, вторая часть рассматривает их как сочетание фраз, другие основаны на понятии фразеологии, выражении фразеологических выражений, выразительно-эмоциональной терминологии и так далее. также называют объектами фразеологии. Спорные подходы к фразеологии связаны с широким или узким использованием термина фразеология. Исследования показывают, что такие фразы, как «фразеологические», «идиомы», «фразеологические группы», «фразеологические единицы» и так далее. термины используются. Говорят, что фразы следует трактовать как выражения полной, устойчивой лексической и синтактические структуры, а не как комбинацию двух или более слов.

Подчеркивается, что структура соматических фразеологизмов в азербайджанском и английском языках различна. Они могут быть структурно изменены, модифицированы. Соматическая фразеология обоих языков основана на сочетании двух или более слов. Из-за характера синтаксической взаимосвязи компонентов некоторые из них используются в форме слов, а некоторые - в грамматически сформированной структуре предложения. Соматическая фразеологическая унификация соматической единицы с характеристикой структуры и значения словосочетаний. Соматическая фразеологическая единица, выражающая конечную законченную идею, напоминающую структуру предложения с точки зрения интонации, предсказуемости и модальности, может быть названа соматическим фразеологическим предложением. Такие факты не редкость в азербайджанском языке. Случаи обращения к соматической фразеологии можно найти не только в пословицах и притчах, но и в других соматических фразеологиях. При добавлении слова в состав соматической фразеологии вносятся определенные изменения в структуру нового слова.

Ключевые слова: фразеологические, синтаксические, структурно-грамматические, соматические фразеологизмы, фиксированное лексическое содержание.

N.Ə. Quliyeva

Ingilis və azərbaycan dillərində somatik frazeologizmlərin structur- qrammatik xüsusiyyətləri

Xülasə

Məqalədə qeyd edilir ki, dilcilərin bir qismi yalniz məhdud mənada frazeologizm anlayişindan çixiş edərək idiomlar, digər qismi həm də frzeoloji birləşmələri, ücüncü qismi isə frazeologizm anlayişini geniş mənada götürərək, frazeoloji ifadə və ibarələri, ekspressivlik-emosionalliqla yüklənmiş terminoloji birləşmələri və s. də frazeologiyanin obyekti hesab edirlər. Frazeologiya ilə əlaqədar meydana gələn fikir ayrılığı baxımından yanaşmaları, frazeologiya terminini geniş və ya dar mənada işlədilməsi ilə baglıdır. Tədqiqatlarda frazeologizmlər "frazeloji birləşmələri'', ''idiomlar'', frazeoloji qruplar'', ''frazeoloji tərkiblər", ''frazeoloji vahidlər" və s. terminlərdən istifadə olunur. Frazeoloji vahidlərə iki və daha artıq sözün birləşməsindən əmələ gələn hər hansı birləşmə yox, mənaca bütöv, sabit leksik tərkibli və sintaktik strukturlu ifadələr kimi yanaşmaq lazım olduğu bildirilir.

Azərbaycan və ingilis dillərində somatik frazeoloji vahidlərin strukturu müxtəlif olması vurğulanır. Onlar strukturca dəyişə bilir, modifikasiyaya uğrayir (formaca dəyişir), başqa şəklə düşür. Hər iki dilin somatik frazeologizmləri iki və daha çox sözlərin birləşməsi əsasında yaranir. Komponentlərin sintaktik əlaqəsinin səciyyəsinə görə bunların bir qismi söz birləşməsi şəkilində, bir qismi isə qrammatik cəhətdən formalaşmış cümlə quruluşunda işlədilir. Quruluş və mənaca söz birləşməsi səciyyəsi daşiyan somatik vahid somatik frazeoloji birləşmə; məzmunca bitmiş, tamamlanmış fikri ifadə edən, intonasiya, predikativlik və modallıq baxımından cümlə strukturunu xatırladan somatik frazeoloji vahidi isə somatik frazeoloji cümlə adlamdirmaq olar. Azərbaycan dilində də belə faktlara az təsadüf edilmir. Somatik frazeologizmin tərkibinə söz artirmaq hallarına ancaq atalar sözü və məsəllərdə deyil, həm də başqa somatik frazeologizmlərdə də rast gəlmək olur. Somatik frazeologizmin tərkibinə söz əlavə edilərək yeni sözün hesabına quruluşda müəyyən dəyişiklik edilməsi nəzərə çatdırılır.

Açar sözlər: frazeologizm, sintaktik, structur- qrammatik, somatik frazeoloji vahidlər, sabit leksik tərkib.

Redaksiyaya daxil olma tarixi: 21.02.2019
Çapa qəbul olunma tarixi: 25.03.2019
Filologiya üzrə fəlsəfə doktoru Sevil Əliyeva tərəfindən çapa tövsiyə olunmuşdur

SUGURA MAHARRAMOVA
Associate professor of Ganja State University
H.Aliyecv
sugraibrahim85@gmail.com

THE ROLE OF CONTEXT IN TRANSLATION

Summary

In this article the author speaks about context and the importance of it in the process of translation.As well the difficulties that translators might come across in the translation of the text.
The context has also a decisive role to play in the selection of TL equivalents to the words of the original. We know that in most cases, the meaning of a SL word can be rendered in TL by a number of regular equivalents. Variable equivalents can be found not only to the polysemantic words but also to the *monosemantic words* as well as to a semantic variant of a polysemantic word, that is, to one of its meanings which can be actualized in the course of communication. In such cases after the translator has ascertained what meaning the word has in the original text he still has to choose one of the regular equivalents which fits the context best of all. In other words, the role of the context is even greater for the translator than for an ordinary SL receptor. Various translators may select different ways of translating a new coinage, with several substitutes competing with one another. As a rule, one of them becomes more common and begins to be used predominantly. Similar problems have to be solved by the translator when he deals with equivalent-lacking words referring to various SL realia. As often as not, the translator tries to transfer the name to TL by way of borrowing, loan word or approximate equivalents. Many English words have been introduced into Azeri in this way: *„beyzbol“* (baseball), *„göydələn“* (skyscraper), *„ “* (carpet baggers), etc. Quite a number of equivalent-lacking words of this type, however, still have no established substitutes inAzeri, and the translator has to look for an occasional equivalent each time he comes across such a word in the source text.

Key words: semantic transformation,words without equivalents,political terms,contextual modification,particular context

Abstract

Translation, which involves the transfer of meaning from one language to another, is a complex process. Certain variables influence this transfer of meaning: time, place, text and socio-cultural knowledge of both the source and target audience. These variables sum up the context. Consequently, there is linguistic and social context. Every language has a peculiar way of expression. Some expressions acquire different meanings in different contexts; some also have connotative and denotative meanings. Also in this era of globalization, there are constant shifts in contextual meaning of words and expressions. For a translator to transfer this meaning, the linguistic and extra linguistic aspects of both languages are imperative for understanding. Through translation the meaning of a word, text or an expression is given in the context in which it occurs: a kind of symbiotic situation. In this work, we try to buttress the importance of context in translation by citing copious examples of some expressions, words, and slang which cut across different domains of study.

The meaning of most words in the English vocabulary in any sentence largely depends on the context in which they are used. True, all words have meanings of their own which are defined in dictionaries but the context may specify or modify the word's meaning, neutralize or emphasize some part of its semantics. And before looking for an equivalent, the translator has

to make a careful study of the context to identify the contextual meaning of the word that should be rendered in translation. This meaning is the result of the interaction between the word semantics and the methods of its actualization in the speech act.[5,232]

Most of the words *are polysemantic,* that is, they have several meanings. As a rule, the word is used in the sentence in one of its meanings and the context must show what meaning has been selected by the speaker and cut off all other meanings irrelevant for the particular act of communication. If somebody complains that "*New Europeans speak Mandarin*", the context unequivocally shows that it is the Chinese language that is meant and not a Chinese imperial official or the Chinese fruit. If the same idea is expressed in a more ambiguous way, for instance, "*Few Europeans know the first thing about Mandarin*", the context of the sentence may fail to indicate the relevant meaning beyond any doubt but the rest of the text or the circumstances of communication will certainly do that.

The context has also a decisive role to play in the selection of TL equivalents to the words of the original. We know that in most cases, the meaning of a SL word can be rendered in TL by a number of regular equivalents. Variable equivalents can be found not only to the polysemantic words but also to the *monosemantic words* as well as to a semantic variant of a polysemantic word, that is, to one of its meanings which can be actualized in the course of communication. In such cases after the translator has ascertained what meaning the word has in the original text he still has to choose one of the regular equivalents which fits the context best of all. In other words, the role of the context is even greater for the translator than for an ordinary SL receptor.[1,165] Suppose he is to translate the following English sentence "*This issue of the paper devoted about half of its twenty news columns to the trial of a murderer*". The context enables the translator to understand that the "issue" refers here to a publication, the "paper" is a newspaper and the "column" is a department in that newspaper. But he has also to find additional information in the context which will allow him to choose an equivalent to "issue" among such Azeri words as *"nömrə"*,"nəşr" or to compare the use of the Azeri *"sütun "* as equivalents to *"column"*.

No less important is the role of the context in translating the words with a wide range of reference whose equivalents are too numerous to be listed in any dictionary. For example, the English noun "record" is defined as *"something that records"* or *"the recorded facts about something or someone"* and can refer to any document or any events, past or present. It is clear that the Azeribaijanian names of documents or events cannot be foreseen and the translator has to find the appropriate occasional equivalent in each particular context.

The context may modify the meaning of a word to such an extent that its regular equivalents will not fit TT. In the following sentence: "History has dealt with Hitler; history will deal with all would-be Hitlers", the translator has to do with the verb "to deal" used in the sentence in the meaning which is usually rendered into Azeri as *"cəzasını vermək"* or *„dərs vermək"*. But obviously history has dealt with Hitler as severely as he deserved and the translator will opt for a stronger occasional equivalent like *„tarix hitlerden qisas aldı"*. The ability to render the contextual meanings is an essential element of the translator's professional skill.

The contextual modification may extend to the connotative meaning of the word. The translator is greatly concerned about the adequate reproduction of this part of the word semantics since it has an impact upon the whole text. For example, the English noun *"ambition"* and the adjective *"ambitious"* can contextually assume either a positive or a negative connotation. Accordingly, *"the UN ambitious program of providing food for the people of the earth"* will be translated as „ BM T- nin dünya xalqlarını ərzaqla təmin etmək haqda xoşməramlı proqramı " while the *"ambitious plans of South African racists"* will be rendered as *„Cənubi Afrika irqçilərinin amansız ,qara niyyətləri".*

The English-Azerbaijanian dictionary is the translator's best friend and assistant in finding the appropriate equivalent. Sometimes the context tells the translator that one of the dictionary

equivalents to the given word can be well used in TT. Even if the entry in his dictionary does not provide him with an equivalent that fits his context, the translator can use the dictionary data to facilitate the solution. Suppose he comes across a sentence in ST which runs as follows:

The United States worked out a formula which later came to be known as dollar diplomacy.

None of the equivalents suggested by dictionaries (formula,resept,şablon) fits the context of the sentence which deals with a stage in the US political history. But combining these data with the context the translator will look for the Azerbaijanian substitute for a *"political formula"* and may arrive at such terms as *„siyasi doktirina"* or *„siyasi proqram"*:

The translator should consult the context with special care if his dictionary suggests only one equivalent. He should not be in a hurry to use this equivalent in his text without first ascertaining that the English word really is context-free and is always translated in the same way. In case it is not, the entry is not exhaustive and the translator should look for another way out. The dictionary, for example, treats the English words *"opportunism"* and *"opportunist"* as political terms and gives only one equivalent to each: *„oportunism"* and *„oportunist"*. An English-English dictionary, however, will define *"opportunism"* as *"the art, policy, or practice of taking advantage of opportunities or circumstances"*. And when the word is used as a general term of disapprobation implying little regard for principles or consequences, the equivalents suggested by the dictionary have to be rejected in favor of such Azerbaijani words as „konyuktura" and the like. This is also an illustration of the usefulness of an English-English dictionary to the translator who should always turn to it for more complete information on the word semantics.

Professional skill in using both the dictionary data and the information extracted from the context to solve his translation problems is the hallmark of a good translator.[6,315]

It has been pointed, out that many English words have no regular equivalents, and a number of techniques have been suggested for rendering the meanings of such equivalent-lacking words in TT. Now the practicing translator most often has to resort to such techniques when he comes across some new-coined words in the source text or deals with names of objects or phenomena unknown to the TL community (the so-called *"realia"*).

New words are coined in the language to give names to new objects, or phenomena which become known to the people. This process is going on a considerable scale as shown by the necessity of publishing dictionaries of new words. With the English vocabulary constantly expanding, no dictionary can catch up with the new arrivals and give a more or less complete list of the new words. Moreover there are numerous short-lived lexical units created ad hoc by the English-speaking people in the process of oral or written communication. Such words may never get in common use and will not be registered by the dictionaries but they are well understood by the communicants since they are coined on the familiar structural and semantic models. If someone is ever referred to as a *"Polandologist"*, the meaning will be readily understood against such terms as *"Kremlinologist"* or *"Sovietologist"*. If a politician is called "*a nuclearist*", the new coinage will obviously mean a supporter of nuclear arms race. *"A zero-growther"* would be associated with some zero-growth theory or policy and so on.

When new words come into being to denote new objects or phenomena, they naturally cannot have regular equivalents in another language. Such equivalents may only gradually evolve as the result of extensive contacts between the two nations. Therefore the translator coming across a new coinage has to interpret its meaning and to choose the appropriate way of rendering it in his translation.[5,298] Consider the following sentence: "In many European capitals central streets have been recently pedestrianized."[1] First, the translator will recognize the origin of *"pedestrianize"* which is coined from the word *"pedestrian" — „piyada"* and the verb-forming suffix *-ize.*

As often as not a whole set of new words may enter in common use, all formed on the same model. Thus, the anti-segregation movement in the United States in the 1960's introduced a number of new terms to name various kinds of public demonstrations formed from a verb + *-in*

on the analogy of "sit-in": "ride-in" (in segregated buses), "swim-in" (in segregated swimming pools), "pray-in" (in segregated churches) and many others.

Various translators may select different ways of translating a new coinage, with several substitutes competing with one another. As a rule, one of them becomes more common and begins to be used predominantly. For instance, the new term *"word-processor"* was translated into Azeri as *„ mətn redaktoru"*, the last substitute gaining the upper hand. The translator should carefully watch the development of the usage and follow the predominant trend.

Similar problems have to be solved by the translator when he deals with equivalent-lacking words referring to various SL realia. As often as not, the translator tries to transfer the name to TL by way of borrowing, loan word or approximate equivalents.[4,77] Many English words have been introduced into Azeri in this way: *„beyzbol"* (baseball), *„göydələn"* (skyscraper), *„ "* (carpet baggers), etc. Quite a number of equivalent-lacking words of this type, however, still have no established substitutes inAzeri, and the translator has to look for an occasional equivalent each time he comes across such a word in the source text. Mention can be made here of "filibustering", "baby-sitter", "tinkerer", "know-how", "ladykiller", and many others.

A large group of equivalent-lacking English words includes words of general semantics which may have a great number of substitutes in Azeri which cannot be listed or enumerated.[3,227] These are such words as *"approach, control, corporate, pattern, record, facility"*, etc. Numerous lexical units of this type are created by conversion especially when compound verbs are nominalized. What is *"a fix-up"* for example? It can refer to anything that is fixed up. And *"a set-up"* is anything that is set up, literally or figuratively. The translator is expected to understand the general idea conveyed by the word and to see what referent it is denoting in each particular case.

Special attention should be paid to English conjunctions and prepositions which are often used differently from their apparent equivalents in Azeri and are, in fact, equivalent-lacking. Such common conjunctions as *"when, if, as, once, whichever"* and some others are not infrequently the cause of errors in translation and should be most carefully studied.

Similar pitfalls can be set for the translator by such productive English "semi-suffixes" as *-minded, -conscious, -oriented, -manship, etc.*

In conclusion, let us recall that any word may become equivalent-lacking if the particular context makes it impossible to use its regular equivalent and forces the translator to resort to some semantic transformation.

Translating equivalent-lacking words calls for a good deal of ingenuity and imagination on the part of the translator who should be well trained to use the appropriate semantic transformations, whenever necessary. At the same time he must be prepared to look for new ways of solving his problems whenever the standard methods cannot be applied to the particular context.

References

1. Bruner, Jerome, 1981. The social context of language acquisition. Language and Communication 1, 155–178.
2. Cicourel, Aaron, 1992. In: Duranti, Alessandro, Goodwin, Charles (Eds.), The Interpenetration of Communicative Context: Examples from Medical Encounters. pp. 101–124.
3. Holliday, Adrian, 1999. Small cultures. Applied Linguistics 2 (2), 237–264.
4. House, Juliane, 2000. Linguistic relativity and translation. In: Puetz, Martin, Verspoor, Marjoljn (Eds.), Explorations in Linguistic Relativity. John Benjamins, Amsterdam/Philadelphia, pp. 69–88.
5. Jakobson, Roman, 1966. On linguistic aspects of translation. In: Brower, Reuben (Ed.), On Translation. Oxford University Press, New York, pp. 232–239.

6. Stalnaker, Robert, 1978. Assertion. In: Cole, Peter (Ed.), Syntax and Semantics, vol. 9: Pragmatics. Academic Press, New York, pp. 315–332.

S.Məhərrəmova

Kontekstin tərcümədə rolu

Xülasə

Müəllif məqalədə kontestdən və tərcümə prosesində onun əhəmiyyətindən bəhs edir.Həmçinin mətn tərcüməsində tərcüməçinin rastlaşa biləcəyi çətinliklərdən söz açır.Kontekstin eləcədə hədəf dildə uyğun ekvivalent seçimində həlledici rolu var.Bildiyimiz kimi,bir çox hallarda məxəz dildəki sözün mənası hədəf dilə çox saylı ekvivalentlərlə çatdırıla bilər.Müxtəlif ekvivalentlər yalnız polisemantik sözlərə deyil monosemantik sözlərə də aid ola bilər.Həmçinin polisemantik sözün kommunikasiya ərəfəsində aktivləşən semantic variantına da aid ola bilər. Belə hallarda tərcüməçi sözün orijinal mətndə hansı mənaya daha dəqiq uyğun olduğuna əmin olmalıdır.Kontekstin rolu tərcüməçi üçün məxəz mətnin oxucusundan daha əhəmiyyətlidir.İngilis dili lüğətindəki sözlərin çoxunun mənasının işləndiyi cümlədə kontekstdən asılı olduğunu qeyd edərək göstərir ki, kontekst sözün mənasını müəyyənləşdirə,dəyişdirə,neytrallaşdıra və qüvvətləndirə bilər.Buna görə də tərcüməçi ekvivalent axtarmazdan qabaq konteksti cox diqqətlə öyrənməlidir ki,təcümə olunacaq sözün kontekstual mənasını müəyyənləşdirsin.Bənzər problemləri tərcüməçi müxtəlif MD realiyalarına aid ekvivalent olmayan sözlərlə işləyərkən həll etməlidir. Çox vaxt olmadığı kimi, tərcüməçi, borc, kredit sözü və ya təxmini ekvivalenti ilə adını HD-yə köçürməyə çalışır. İngilis dilində bir çox söz bu şəkildə Azərbaycan dilinə daxil edilmişdir: "beyzbol" (beysbol), "göydələn" ("göydələn"), "(xalça çantası) və s. Bu tip bir sıra ekvivalent olmayan sözlərdən əlavə, yenə də Əzəridə müəyyən edilmiş əvəzedicilər yoxdur və tərcüməçi hər dəfə mənbə mətnində belə bir sözə rast gəldikdə təsadüfi ekvivalent axtarmalı olur. Həmçinin orijinaldakı sözlərə hədəf dildə ekvivalentlər axtarilmasında kontekstin həlledici rolu var.

Açar sözlər:semantik transformasiya,ekvivalenti olmayan sözlər,siyasi terminlər,kontestual modifikasiya,konkret kontexst

С.Магеррамова

Роль контекста в переводе

Резюме

В статье автор, отмечая зависимость значения большого количества слов в английском языке от содержания контекста, показывает, что контекст может определить, изменить, нейтрализовать и усиливать значение слов. Ввиду этого, переводчик, прежде, чем выбирать эквивалент, он должен пристально изучить содержание контекста, чтобы определить контекстуальное значение слова. В поиске эквивалента целевого слова в оригинале, следует отметить решающую роль контекста. Также автор, обосновывая нецелесообразность применения стандартных методов известного текста, обращает внимание на то, что для осуществления соответствующей семантической транспозиции необходимо искать новые пути. В этой статье автор говорит о контексте и важности его в процессе перевода. А также о трудностях, с которыми переводчики могут столкнуться при переводе текста.

Контекст также играет решающую роль в подборе эквивалентов TL словам оригинала. Мы знаем, что в большинстве случаев значение слова SL можно представить в TL с помощью ряда регулярных эквивалентов. Переменные эквиваленты могут быть найдены

не только для многозначных слов, но также и для однозначных слов, а также для семантического варианта многозначного слова, то есть одного из его значений, которые могут быть актуализированы в процессе общения. В таких случаях после того, как переводчик выяснил, какое значение имеет слово в исходном тексте, он все равно должен выбрать один из обычных эквивалентов, который лучше всего соответствует контексту. Другими словами, роль контекста для переводчика даже больше, чем для обычного рецептора SL. Различные переводчики могут выбирать разные способы перевода новой чеканки, при этом несколько заменителей конкурируют друг с другом. Как правило, один из них становится более распространенным и начинает использоваться преимущественно. Подобные проблемы должны быть решены переводчиком, когда он имеет дело с отсутствующими эквивалентными словами, относящимися к различным реалиям SL. Часто переводчик пытается перевести имя в TL с помощью заимствования, заимствования или приблизительных эквивалентов. Многие английские слова были введены в азербайджанский язык таким образом: «beyzbol» (бейсбол), «göydələn» (небоскреб), «« ковровые мешки) и т.д. не имеют установленных заменителей в азери, и переводчик должен искать случайный эквивалент каждый раз, когда он встречает такое слово в исходном тексте.

Ключевые слова: семантическая трансформация, слова не имеющие эквивалентов,политические термины, контекстуальная модификация,конкретный контекст

Redaksiyaya daxil olma tarixi: 12.04.2019
Çapa qəbul olunma tarixi: 13.09.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Zahirə Əliyeva
tərəfindən çapa tövsiyə olunmuşdur

ŞƏLALƏ MAHMUDOVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
shalale.makhmudova@mail.ru

ZAHİD XƏLİLİN UŞAQ ŞEİRLƏRİNİN MÖVZUSU, DİLİ VƏ ÜSLUBU

Xülasə

Məqalədə Zahid Xəlilin poeziyası mövzu, dil-üslub baxımından təhlil edilmişdir. Qeyd olunmuşdur ki, tanınmış uşaq yazarı Z.Xəlil mövzu seçiminə əsl zərgər dəqiqliyi ilə yanaşmış, uşaqların təfəkkürünün formalaşmasında əhəmiyyət daşıyan xüsusiyyətlərə diqqət yetirmişdir. Uşaqların maraq dairəsinə uyğun qələmə aldığı bu şeirlərin hər biri kiçik yaşlı oxucuların təlim-tərbiyəsində mühüm rol oynayır. Ədibin müxtəlif mövzularda yazdığı şeirlər uşaqlara mənəvi dəyərlərlə yanaşı, elmi biliklər də verir ki, bu da onların dünyagörüşünün, zehni qabiliyyətlərinin inkişafına xidmət göstərir. Şair şeirlərində vətənə, insanlara, digər canlılara - bitkilər, quşlar, heyvanlar aləminə məhəbbət hissi təlqin edən, elm, bilik verən mövzulara toxunmaqla uşaqlara müsbət keyfiyyətlər aşılamağa çalışmışdır.

Bu şeirlərin hər biri məzmun rəngarəngliyi, ideya müxtəlifliyi ilə seçilir, həmçinin dilinin sadəliyi, axıcılığı ilə də uşaqları özünə cəlb edir.

Sənətkar dil-üslub məsələlərinə də ustalıqla yanaşmış, onlara poetik çalar qatan məcazlardan, bədii təsvir və ifadə vasitələrindən də yerli-yerində istifadə edərək şeirlərinin oxunaqlığına müvəffəq olmuşdur.

Z.Xəlil şeirlərində yanıltmac, uşaq nəğmələri kimi folklor motivlərinə də müraciət etmişdir. Bu baxımdan ədibin yaratdığı şeirlər şirinliyi, oynaqlığı ilə uşaqlarda böyük maraq doğurur, hafizələrinə hopur.

Açar sözlər: şeir, mövzu, ideya, məzmun, təsvir, üslub, uşaq təfəkkürü

XIX əsrin sonlarında Seyid Əzim Şirvaninin təməlini qoyduğu, XX əsrin əvvəllərində M.Ə.Sabir, A.Səhhət, C.Məmmədquluzadə, R.Əfəndiyev, S.S.Axundov, A.Şaiq, M.Seyidzadə, M.Rzaquluzadə, M.Dilbazi, T.Ellçin kimi sənətkarların inkişaf etdirdiyi Azərbaycan uşaq ədəbiyyatı sonrakı illərdə bu estafeti əlinə alan Zahid Xəlil yaradıcılığı ilə daha da zənginləşdi.

Zahid Xəlil çoxşaxəli yaradıcılığında uşaqlar üçün müxtəlif janr və mövzularda kiçik yaşlı oxucuların maraq dairəsinə uyğun, rəngarəng, dərin məzmunlu əsərlər qələmə almışdır. Bu əsərlərdə uşaqlar bəzən özlərini görür, bəzən sevinir, təsvir edilən obrazın səhvlərindən nəticə çıxarır, onların müsbət hərəkətlərindən özləri üçün nümunə götürürlər. Sənətkar hər bir əsərində tərbiyəvi-əxlaqi mövzulara toxunur, uşaqların əsl vətəndaş kimi formalaşmasına, onların dünyagörüşünün artmasına xidmət edən süjet xəttinə, qəhrəman seçiminə xüsusi diqqət yetirir.

Qara Namazov Z.Xəlilin şeiriyyətini çox yüksək qiymətləndirmiş, şairin "Torağaylar oxuyur" şeirlər kitabı ilə bağlı demişdir: "Zahid Xəlilin şairlik istedadını bütün parlaqlığı ilə üzə çıxaran kitab "Torağaylar oxuyur" (1979) şeirlər toplusudur. İndiyə qədər müxtəlif kitablarda özünü göstərən ayrı-ayrı cəhətlər bu kitabda sanki bir yerə toplanmışdır. Burada həm xalq ədəbiyyatının ənənələrinə, həm klassik şairlərimizin şeir yolunun davamına, həm də müasir rus və Avropa ədəbi ənənələrinə rast gəlirik" [1, s.360].

Z.Xəlil uşaqlar üçün bir-birindən maraqlı şeirlər yazmışdır. Bu əsərlərdə uşaqlara əxlaqi hislər aşılanmaqla yanaşı, onlara elmi məlumatlar da verir ki, bu da uşaqların təfəkkürünün inkişafına xidmət edir. O, müxtəlif məzmunlu şeirlərində bir çox ideyalar irəli sürür, gənc nəsli müsbət amallara səsləyir.

Ədibin şeirlərini mövzusuna görə aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Vətən mövzusunda yazılmış şeirləri;
2. Təbiət mövzusu;
3. Folklor motivli şeirlər;
4. Didaktik, əxlaqi-tərbiyəvi mövzuda yazılmış şeirlər;
5. Məzəli, yumoristik.

Vətən mövzusunda yazdığı "Ay vətən", "Vətən mənə oğul demə", "Bizim Bakı bulvarı", "Şuşanın uşaqları", "Bir az daniş qoca Kəpəz", "Gəncə" və s. şeirlərində elinə, obasına qırılmaz tellərlə bağlı olan Z.Xəlilin vətənpərvərlik duyğularının şahidi oluruq. "Ay vətən" şeirində şair dağları bulaqların oxuduğu kitaba bənzədir, Kürlə Arazın bu yaz da bəlasız-xətasız xoşbəxt axmasından və quşların cəh-cəh vuran şirin avazından söhbət açır. Şair çayların qılınc kimi bərəni bölməsindən danışaraq təşbeh yartmışdır. Bərəni qorxa-qorxa keçən əliyi təsvir edən şair bu mənzərədən heyrətə gəlir. Vətənin gözəlliklərindən vəcdə gələn şair deyir:

Sinəmdə çağlayan sözündür sənin,
Gözümə nur verən gözündür sənin.
Laləli çəmənlər üzündür sənin.
O gözəl üzündən öpüm, ay Vətən [2, s.17].

6 bənd, hər bəndi 4 misradan, 11 hecadan ibarət olan bu şeirin bütün bəndlərinin son misrasında "öpüm, ay Vətən" ifadəsi təkrarlanır ki, bu da, şeirə xüsusi musiqililik gətirir və oynaq ritmikası ilə ona rəng qatır. Vətən aşiqi - şair ona müraciətlə can deyən sözündən, şirin avazından, gözündən, izindən, üzündən öpdüyünü bildirir. Şeir uşaqlarda vətənə bağlılıq, məhəbbət hissi oyadır.

Zahid Xəlilin **təbiət mövzusunda** yazılmış uşaq şeirləri insanı valeh edir. Buradakı rəngarənglik, təbiətin ecazkar təsviri o qədər gözəl əks edilmişdir ki, hətta böyük oxucunu belə cazibəsi ilə özünə cəlb edir. Şairin bu mövzuda yazdığı şeirlər oxucuda müsbət təəssürat oyadır. Şairin təbiətin müxtəlif anlarını təsvir edən "Payız", "May", "Yay", "Qar", "Gün çıxdı", "Dənizə axşam düşür", "Bulaqlar donmur" və digər şeirləri buna misal ola bilər.

"Dənizə axşam düşür" şeirində şair həmin anı elə gözəl təsvir edir ki, insanın gözləri önündə həmin mənzərə canlanır. Şeirdən bir parçaya diqqət yetirək:

İndi neçə min işıq
Suya qızıl səpələr.
Köynəyini dəyişər,
Göy köynəkli ləpələr
Qağayılar rəqs edir,
Qağayılar ötüşür,
Dənizə axşam düşür [3, s.101].

Ümumiyyətlə, təbiət mövzusu Z.Xəlilin uşaq poeziyasından qızıl xətlə keçir. Quşlar, heyvanlar, həşəratlar, güllər, çiçəklər, meyvələr haqqında olan şeirlərin hər birində onların əlamətləri, görünüşləri ilə bağlı məlumatlar verilir, kiçik yaşlı uşaqlar insanların yaxın dostu olan heyvanlarla, digər canlılarla tanış olur, onların xüsusiyyətlərinə dair bilgilərə yiyələnirlər. Eyni zamanda, uşaqlara həmin canlılara qarşı qayğıkeşlik, xeyirxahlıq, sevgi hisləri təlqin olunur. Şair bu şeirlərində kiçik yaşlı oxucularına "təbiəti qorumaq hər birimizin borcudur" mesajını ötürür. Quşlar, heyvanlar, həşəratlar haqqında olan şeirlərə aşağıdakılar aiddir: "Bildirçin", "Qırqovul", "Hacıleylək", "Bülbül", "Kəklik", "Cüllüt", "Qızıl Qaz", "Sərçələr", "Ağacdələn", "Durnalar", "Qartal", "Qurbağa", "Dəvələr", "Fil", "Çəpiş", "At", "Qarışqalar", "Kəpənəklər", "Arılar", "Uçağan böcək" və s.

Şair bülbülü sevgi ilə belə təsvir edir:

Nə qəşəngdir bülbülün
Gözlərinin qarası.
Bapbalaca sinəsi –

Yumurtanın sarısı [3, s.15].

Bitkilər, güllər, çiçəklər, meyvələr haqqında olan şeirlərə isə bunlar daxildir: "Sünbül", "Gicitkan", "Qazayağı", "Quşəppəyi", "Qanqal", "Baldırğan", "İnciçiçəyi", "Günəşin zarafatı", "Qantəpər", "Qırxbuğum", "Göbələk", "Moruq", "Çiyələk", "Alça", "Gilas", "İydə", "Zoğal", və s. Bu şeirlər uşaqlara elmi biliklər verməklə yanaşı, balaca oxucuların dünyagörüşünü, təfəkkürünü formalaşdırır, leksikonlarını zənginləşdirir.

"Günəşin zarafatı" şeirində şair boynu bükük bənövşəni özünəməxsus şəkildə təsvir etmişdir. Şair bənövşənin boynunun əyri olmasını günəşin onunla etdiyi zarafatdan küsməsi ilə əlaqələndirmişdir:

Alatoran çəkildi,
Səhər gözünü açdı.
Bənövşənin boynundan
Bir şeh muncuğu asdı.
Bir azdan doğdu Günəş,
Şeh muncuğu əritdi.
Küsdü körpə bənövşə,
Boynunu əyri tutdu [3, s.123].

Bu şeirlərdə şair uşaq təfəkküründə həm təbiət hadisələri ilə bağlı fikir formalaşdırmağa, həm də onların fantaziyasını gücləndirmək məqsədini həyata keçirməyə nail olmuşdur. Uşaqların təbiətşünaslıq fənnindən öyrəndiklərini şair şeir vasitəsilə onlara çatdırmaq istəmiş, bu yolla uşaqların elmi cümlələrdən çətinliklə anlayacaqları bir hadisəni poeziyanın şirin dili ilə başa salmağa çalışmışdır.

Z.Xəlilin poeziyasında **folklor motivlərindən** istifadə yolu ilə meydana çıxan şeirlərə də rast gəlirik. Şair uşaq nəğmələrindən, yanıltmaclardan istifadə edərək folklora xas olan şirinliyi şeirlərinə gətirmişdir.

"Səbirli ol, səbirli" şeirində şair uşaqlara yanıltmacları sürətlə oxumağı, söyləyərkən çaşmamağı, səbrli olmağı tövsiyə edir. Bunun ardınca yanıltmac-şeirlər təqdim etmişdir. "Kündə" şeirinə diqqət yetirək:

Günəş kəndə
Gün ələdi.
Nənəm kündə
Kündələdi.

"Gün çıxdı" şierinin sonunda isə məlum uşaq nəğməsinə rast gəlirik:

Gündü, çıxdı!
Gündü, çıxdı!
Kəhər ata
Mindi, çıxdı! [3, s.96]

Şairin "Yalan – palan" şeirində də folklorun təsiri duyulur. Bu şeir nağılların əvvəlində işlənən "Hamam, hamam içində, Xəlbir saman içində, Dəvə dəlləklik eylər, Köhnə hamam içində" qaravəllisini xatırladır:

Yalan – yalan içində,
Köhnə palan içində.
Ulağı çək qırağa,
Palanı qoy ulağa.
Çapaq Araz boyunca,
Yalan deyək doyunca [3, s.33] .

Zahid Xəlilin öyrətmək, kiçik oxucusuna yeni bilgilər vermək istəyi **didaktik, əxlaqi-tərbiyəvi mövzuda** yazılmış şeirlərində əsas leytmotiv kimi səslənir. Bu onun şair olmaqla yanaşı səriştəli pedaqoq olmağından, illərin təcrübəsindən xəbər verir. Öyrətmək, anlatmaq arzusu da

məsləyinə, peşəsinə sadiqlikdən, vurğunluqdan irəli gələn bir həvəs, bir istəkdir. Şairin didaktik məzmuna malik "Hesab" şeiri bu baxımdan maraqlıdır. Burada kiçik yaşlı uşağa sadə riyazi əməllər öyrədilir. Şair poetik dillə uşaqlarda riyaziyyat fənninə maraq oyadır, onlara asan yolla hesabı öyrədir.

Qarğanın sayı üçdü:
Altı dənə ləpədən
Hər qarğaya nə düşdü? [3, s.14]

Yaxud, "Hesab dəftəri" şeirindən bir nümunəni nəzərdən keçirək:

Sən birə bax, birə bax,
Uzundraz, yaramaz.
Hansı rəqəmə vursan,
Ona təsiri olmaz [3, s.217].

Şair əksər şeirlərində əxlaqi-tərbiyəvi keyiyyətlər aşılayan mövzulara üstünlük vermişdir. Onun "Çərkəz", "Ay Vüqar", "Yalançı İmran", "Qoy sərbəst böyüsün bizim balalar", "Xor" kimi şeirlərində uşaqların mənəvi inkişafına müsbət təsir göstərən xüsusiyyətlərə diqqət yetirilmişdir. Bu şeirlər kiçik yaşlı uşaqlar üçün maraqlı və faydalıdır.

Məzəli, yumoristik mövzuda yazılmış "Fərruxun dişi", "İsgəndərin işləri", "Küçə mənə dar gəlir", "Orxan", "İki dost" şeirlərini nümunə göstərmək olar.

"İsgəndərin işləri" şeirində tərs bə tənbəl uşaq obrazı təsvir edilib. Dərsdən qaçan İsgəndər ayaqqabısını da, köynəyini dal-qabaq geyinib. İsgəndərdən soruşurlar ki, dərsini yazmamışdın neçə aldın? Cavab verir ki:

- Mən beş aldım tərsinə!

Hər işi tərs görən İsgəndərin cavabı da tərsinədir.

Şairin "Dostlar" adlı şeirində Zahid və Emin adlı iki dostun futbol meydançasında eyni hərəkət etmələrindən, ikisinin də eyni anda qapıçı durmasından, hər ikisinin 9 nömrəli oyunçu olmasından danışır. Rəqib komandanın kapitanı onlara irad tutur ki: "Topa cüt cumursunuz. Biz belə oynamırıq". Zahidlə Emin topu ələ keçirib yalnız bir-birlərinə atır, qalan oyunçularsa, oyundan kənarda qalır. Bunu görən hakim hirslənib ikisini də oyundan kənarlaşdırır. Dostlarsa özlərini sındırmayaraq deyirlər:

Biz daha oynamırıq,
Azarkeşlik edirik [3, s.235].

Göründüyü kimi, şair gündəlik həyatda uşaqların davranışlarını, oyun zamanı onların hərəkətlərini müşahidə etmiş və yumoristik şəkildə bu hadisəni qələmə almışdır. Şeir istər-istəməz oxucunun üzündə təbəssüm oyadır, uşaqlar şairin gözü ilə sanki özlərini görmüş olurlar.

Z.Xəlilin şeirləri **dil və üslub** baxımından diqqəti cəlb edir**.** Şairin lirikası xüsusilə özünün şirinliyi, axıcılığı, qafiyə sistemi ilə seçilir. Sənətkar şeirlərinin oxunaqlığına nail olmaq üçün poetik ifadələrdən, məcazlardan, bədii təsvir və ifadə vasitələrindən, alliterasiya və assonanslardan da məharətlə istifadə etmişdir. Məsələn, "Uzun yol" adlı şeirinə diqqət yetirək:

- Bulaq, hara gedirsən?
- Kür çayına çatmağa.
Bulaq Kürə qovuşdu
Kür də sevindi, coşdu [3, s.3].

Dialoq formasında qurulmuş bu şeirdə şair şəxsləndirmədən istifadə etmişdir. Bununla yanaşı, "Kür də sevindi" kimi insana məxsus olan sevinc əlamətini digər varlığa köçürməklə metafora yaratmışdır. Şeirdə damcının bulağa, bulağın çaya, daha sonra zəmilərə, bağlara yol getdiyi və beləliklə, bir damcının sayəsində ağacın bar verməsi sadə dillə təsvir olunmuşdur.

Şairin "Ulduzlar" şeiri də bədii sual, təkrir və dialoqlardan təşkil olunmuş uşaq fantaziyasının gözəl təcəssümüdür. Şeirdə uşaqlar özləri də ulduzlara bənzədilir. Yerdəki bu ulduz uşaqlar – Yaşar, Vüqar, Şəlalə, Gülnur, Zəlihə və Lalə göydəki ulduzları müzakirə edir, onları də-

nizdəki balıqların gözünə, tonqaldan qopan közə, günəşin səpələdiyi muncuqlara, ayın xəlbirlədiyi buğdaya oxşadırlar. Bununla şair şeirdə təşbehdən ustalıqla faydalanmışdır.

Ulduzların altında
Altı ulduz danışır.
Göyün yeddi qatında
Ağ ulduzlar sayrışır.
Körpələr ulduzlara
Baxır məhəbbət ilə.
Ulduzlar körpələrə
Göz vurur həsrət ilə [3, s.6].

Bu şeir dilinin şirinliyi, axıcılığı ilə də seçilir. Sənətkar məcazlardan istifadə edərək şeiri daha obrazlı çatdırmağa müvəffəq olmuşdur. Şair "Ulduz var düymə-düymə ","Ulduz var damla-damla" kimi təşbehlərdən, "Sınar ulduzlar", "Göz qırpıb söhbət edir" kimi metaforalardan istifadə etmişdir. Şeirdə ulduz sözü 19 dəfə təkrarlanmış, lakin bu şeirin məziyyətnə xələl gətirməmiş, əksinə, daha da şeirin ritmikliyini, oynaqlığını artırmış, rövnəqləndirmişdir.

Şairin "Ley və Yel" şeiri də bədii gözəllik baxımından diqqəti cəlb edir:

Ley uçurdu,
buludlara
Qalxmaq üçün
tələsirdi.
Yel əsirdi,
həmin Leyi
yıxmaq üçün
tələsirdi.
Yel əsdikcə
ley uçurdu.
Ley uçduqca
Yel əsirdi [3, s.108].

Burada diqqət çəkən məqamlardan birincisi ley və yel sözlərindəki səslərin eyniliyindədir. Ley sözünü tərsinə oxuduqda yel sözü ortaya çıxır. Bu da uşaqların marağına səbəb olan cəhətlərdən biridir. Burada Leylə Yel arasında sanki bir savaş gedir. Ley qalxmaq istədikdə Yelin onu yıxmaq istəməsi və Yelin əsməyinə baxmayaraq Leyin yenə səmalara uçması, ucalması bir təzad təşkil edir. Şeirin mətnaltı mənası da maraq doğurur və bir növ Sabirin "Uşaq və buz" şeirini xatırladır. Orada buzun yıxmasına baxmayaraq yoluna davam edən uşaq obrazı, burada isə buludlara qalxmaq istəyən Leyi Yelin yıxmaq istəməsi, lakin buna baxmayaraq, Leyə mane ola bilməməsi, Yelə əhəmiyyət verməyərək Leyin uçması mübarizliyi, qorxmazlığı təbliğ edir. Şair, necə deyərlər, az deyib, saz deyib. Cəmi 12 misradan və hər misrası 4 hecadan ibarət olan bu şeir dolğun məzmuna malikdir, həmçinin sənətkarlıq baxımından da ustalıqla qələmə alınmışdır.

Göründüyü kimi, şairin poeziyası zəngin mündəricata malikdir və bu şeirlərin hər biri kiçik oxucuların estetik zövqünün, təfəkkürünün formalaşmasında mühüm əhəmiyyət kəsb edir. İnanırıq ki, şairin əsərləri hələ uzun illər öz aktuallığını qoruyub saxlayacaq, məktəb dərsliklərinə salınacaq və uşaqların əsl insan kimi yetişməsində əvəzsiz rol oynayacaqdır.

Ədəbiyyat:

1. Qara Namazov. Azərbaycan uşaq ədəbiyyatı. Bakı, 2006
2. Zahid Xəlil. Seçilmiş əsərləri. Bakı, 2008
3. Zahid Xəlil. Ağ leyləklər. Bakı, 2016

Ш.Махмудова

Тема, язык и стили детских стихов захида халила

Резюме

В статье была проанализирована поэзия Захида Халила с точки зрения темы, языка и стиля. Было отмечено, что известный детский писатель З. Халил подошел к выбору тем с ювелирной точностью и обратил внимание на особенности формирования детского мышления. Каждое из этих стихотворений, написанных для детей об их интересующих областях, играл важную роль в воспитании юных читателей. Стихи поэта на разные темы прививает детям моральные ценности, а также научные знания, который способствует развитию их мировоззрения и умственных способностей. Поэт старался привить детям положительные качества, затрагивая темы, которые вдохновляют их любовь к родине, людям и другим существам - растениям, птицам, животным и науке. Каждое из этих стихотворений отличается разнообразием содержания и идей, а также простотой и плавностью своего языка привлекает внимание детей.

Он мастерски также подошел вопросам языка и стиля, удачно добился читаемости своих стихов, используя художественные описания и средств выражения в надлежащей форме.З. Халил также в своих стихах обращался к таким фольклорным мотивам, как загадки и детские напевы. С этой точки зрения созданные поэтом стихи, своей теплотой и игривостью представляют большой интерес для детей, оседает на долго на их память.

Ключевые слова: поэзия, тема, идея, содержание, описание, стиль, детское мышление.

Sh.Makhmudova

Theme, language and styles of children's poems of zakhid khalil

Summary.

The article analysed the poetry of Zahid Khalil in terms of theme, language and style. It was noted that the famous children's writer Z. Khalil approached the choice of topics with jewellery accuracy and drew attention to the features of the formation of children's thinking. Each of these poems, written for children about their areas of interest, played an important role in educating young readers. A poem of the poet on various themes instils in children moral values, as well as scientific knowledge, which contributes to the development of their worldview and mental abilities. The poet tried to instil in children positive qualities, touching on topics that inspire their love for the motherland, people and other creatures - plants, birds, animals and science. Each of these poems is distinguished by a variety of content and ideas, as well as the simplicity and smoothness of its language attracts the attention of children.

He expertly also approached issues of language and style, successfully achieved the readability of his poems, using artistic descriptions and means of expression in proper form.

Z. Khalil also in his poems addressed such folklore motives as riddles and children's tunes. From this point of view, the poetry created by the poet, with its warmth and playfulness is of great interest to children, settles for a long time in their memory.

Key words: poetry, theme, idea, content, description, style, children's thinking.

Redaksiyaya daxil olma tarixi: 21.02.2019

Çapa qəbul olunma tarixi: 25.03.2019

Filologiya üzrə fəlsəfə doktoru Gülsüm Hüseynova tərəfindən çapa tövsiyə olunmuşdur

RƏFİQ CƏFƏROV
Filologiya elmləri namizədi,dosent
GÜLNARƏ İSMAYILOVA
AzTU
H.Cavid pr.25.Bakı.
gulya-refiq.@.gmail.ru.

ÜMUMDİLÇİLİK SİSTEMİNDƏ MÜBTƏDASIZ CÜMLƏLƏR VƏ KƏMİYYƏT-ŞƏXS KATEQORİYASININ BƏZİ MÜHÜM MƏSƏLƏLƏRİNƏ DAİR

Xülasə

Müxtəlif sistemli dillərin qarşılaşdırma-tipoloji yanaşma metodu ilə tədqiqi dünya dillərinin ümumi cəhətlərinin öyrənilməsi, dil universiyaları və indiki mərhələdə dilçilik nəzəriyyəsinin, onun sintaktik strukturunun inkişafı və zənginləşməsi cəhətindən də faydalıdır. İngilis və Azərbaycan dilində şəxssiz cümlələrin quraşdırılma-tipoloji metodu ilə tədqiqi həmin yad dillərin tipoloji eyniliyini üzə çıxarır.

Коррекция дефицита времени при овладении необходимым уровнем владения английским языком возможна только за счет более активного использования заочной деятельности: самостоятельной работы студента и работы над проектом. К сожалению, многие студенты, особенно те, кто владеет языком на более низком уровне, не имеют достаточной мотивации для продолжения обучения. Целью статьи является представление набора методик, используемых для повышения мотивации к изучению английского языка среди студентов неязыкового университета. Используемые методы были частично заимствованы из практики средней и начальной школы и адаптированы к новой демографии. В основе метода лежит идея заставить учащихся использовать язык вне класса в заранее выбранном, но не адаптированном контексте: чтение выдержек из Википедии, декламация, творческие задания. Это далее основано на психологии и основано на чувстве удовлетворения, связывающем это с изучением английского языка. Этот метод применяется к нескольким группам студентов и результаты к некоторому увеличению посещаемости и значительному увеличению попыток выполнения домашних заданий, которые мы интерпретируем как показатели повышенной мотивации. Интенсивное использование различных игр, необычных заданий и заданий позволило ученикам проявить свои творческие способности и фантазию. Использование аутентичных материалов в то время как более сложная задача, естественно, более полезно не только с лингвистической точки зрения, но и с мотивационной точки зрения. Многие студенты, независимо от их уровня английского языка, интересуются технологиями и результатами современных исследований. Этот интерес может и должен быть использован для повышения мотивации.

Ключевые слова: обучение иностранному языку, мотивация, деятельность, профессия, нелингвистический университет, дисциплина, технология

Redaksiyaya daxil olma tarixi: 11.03.2019
Çapa qəbul olunma tarixi: 20.07.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Lalə Məsimova
tərəfindən çapa tövsiyə olunmuşdur

GÜNEL QARAYEVA
ADU
gunel.garayeva@mail.ru

MÜASİR İNGİLİS DİLİNDƏ YİYƏLİK ƏVƏZLİKLƏRİNİN FUNKSİONAL İMKANLARI

Xülasə

Əvəzliklər əşyanın, şəxsin, əlamətin, kəmiyyətin yerində işlənir. Başqa nitq hissələrinə nisbətən əvəzliklər daha çox ümumilik ifadə edir.

Əvəzliklər mücərrəd anlayışları bildirən nitq hissəsi olduğu üçün mətndən və müəyyən şəraitdən xaricdə bu və ya digər əvəzliyin *kimi* və *nəyi* əvəz etdiyini müəyyənləşdirmək çətin olur. Bu yalnız konkret nitq prosesində mümkün olur.

Əvəzliklərlə bağlı problem onların əsas nitq hissəsi olub-olmaması idi və həmçinin də onun mənaca növləri məsələsi idi. Bəzi qrup dilçilər əvəzliyin əsas nitq hissəsi olduğunu iqəbul etmirdi, bəziləri də onun isim, sifət və yaxud zərflərə aid kimi qəbul edirdilər.

Hazırda əksər dilçilər əvəzliklərin əsas müstəqil nitq hissəsi kimi tanınmalarının məqsədəuyğun olduğunu düşünürlər. Bunun kimi düşüncələrə nəzəri, həmçinin praktik qrammatikalarda rast gəlinir. Universal kateqoriya kimi, əvəzliklərin adları qeyd olunan hər iki dildə fərqli işlənmə imkanları vardır. O.Musayev müasir ingilis dilində olan əvəzliklər barədə yazır: "İngilis dilində də şəxsləri, əşyaları və ya onlara aid olan əlamət və keyfiyyətləri adlandırmadan müəyyən edən nitq hissəsi əvəzlik kimi tanınır" (4, s. 78). İngilis dilində əvəzliklə bağlı əsas məsələlərdən biri belədir ki, onlar mənalarına görə fəqli təsnif olunurlar. Vurğulamaq lazımdır ki, mənasına görə əvəzliklərin müxtəlif növləri vardır. Bununla əlaqədar müəyyən olunur ki, hər iki dildə mövcud olan əvəzliklər ayrıca əsas qrup kimi qəbul edilir.

Açar sözlər: qrammatika, dil, əvəzlik, funksiya, kateqoriya

Əvəzliklərlə bağlı əsas məsələlərdən biri də onların leksik mənaya malik olub-olmamasıdır. Bəzi tədqiqat işlərində onlar (əvəzliklər) başqa əsas nitq hissələri kimi müstəqil leksik mənaya malik hesab edilmir. Cümlədə əvəzliyin mənası danışıq vəziyyətindən asılı olaraq dəyişə bilər. L.V.Kauşanskaya yazır ki, əvəzlik konkret danışıq vəziyyətində fərqli obyektləri, situasiyanı, hadisəni, vəziyyəti və s. adlandırır (7, s.78). Bu da o anlamı verir ki, əvəzliklərin hər zaman dəyişməyən leksik mənası mövcud deyildir.Əvzəliklərin tipologiyasının araşdırılması göstərir ki, üçüncü şəxsin təkində diqqətli olmaq lazımdır. Məlum olur ki, üçüncü şəxsin təkində ingilis dilində kişi cinsi, qadın cinsi, orta cins ayrı-ayrı əvəzliklərlə göstərildiyi halda, dilimizdə cinslə göstərilmir. Bunların yerinə dilimizdə *o* əvəzliyi işlədilir. Əlavə edə bilərik ki, oxşar söz olaraq, o işarə əvəzliyi kimi də işlədilə bilir.

Müasir ingilis dilində yiyəlik əvəzlikləri ayrıca bir qrup təşkil edir. A.Hüseynov yiyəlik əvəzliklərini iki qrupa bölür:

1) yiyəlik əvəzliklərinin asılı forması;

2) yiyəlik əvəzliklərinin müstəqil forması (2, s.115).

Yiyəlik əvəzliklərinin asılı forması bir çox mənbələrdə sifət əvəzlik kimi göstərilir. Yəni onlar yalnız aid olduqları isimlə işlənir. Ayrılıqda isə onlar heç bir məna ifadə etmir. Məsələn: his yiyəlik əvəzliyi tək işləndikdə kimə və nəyə aid olduğu bilinmir. Onun mənası sintaqmatik planda özündən sonra gələn isimlə işləndikdə açılır. Məsələn: *my book* (mənim kitabım), *her brother* (onun qardaşı), *their car* (onların avtomobilləri) və s. F.Palmerə istinadən yiyəlik əvəzliklərinin bir sıra semantik komponentlərini müəyyən etmək olur. Məsələn, onlar deyiktik söz

kimi işlənə bilir. Qeyd edək ki, deyiktik söz kimi yiyəlik əvəzlikləri əsasən mənsubluq mənasını ifadə edir. Mənsubluq iki tərəfi ehtiva edir: 1) sahib olan şəxs və 2) mənsub olan tərəf (8, s.112). Məsələn: *his* əvəzliyi *he* əvəzliyinin qarşılığı kimi özünü göstərir. Nümunəyə baxaq:

He spent his time in wasting the money that his father had left for him. (O, atasının ona buraxdığı pulu xərclədi).

Məlumat üçün qeyd edək ki, mənsubluq mənasını yalnız yiyəlik əvəzlikləri yerinə yetirə bilir. Digər əvəzliklərin belə funksiyası yoxdur. A.Hüseynov yazır ki, ümumi mənsubluq mənası yalnız yiyəlik əvəzliklərinə aiddir (2, s. 115). Ən kiçik birləşmədə belə, yiyəlik, sahib olma mənası özünü göstərir. Məsələn: *her brother* (onun qardaşı) birləşmələri aşağıdakı mənaları ifadə edə bilir:

1) qohumluq əlaqəsi;

2) mənsub olduğu obyekt;

3) tək formada olan qadın cinsi.

Yiyəlik əvəzliklərinin mənalarının müəyyənləşdirilməsində sahib şəxsə mənsub əşya arasında olan əlaqə vacib hesab eedilir. Bu zaman yiyəlik əvəzliyinin hansı qrupa mənsub isimlə birləşməsi onun mənasına təsir edir. Birləşmənin ikinci tərəfi isə tək, cəm, şəxsli, şəxssiz və s. formada ola bilər. Müasir ingilis dilində yiyəlik əvəzliklərinin asılı forması mənsubiyyət kateqoriyasının əsas ifadə vasitələrindən biri kimi çıxış edir. Mənsubiyyət kateqoriyasında iki tərəf (iki komponent) olur və bu kateqoriya həmin tərəflər (və ya tərəflərdəki sözlər) arasında münasibətləri, əlaqələri əks etdirir. Mənsubiyyət kateqoriyası yalnız morfoloji üsulla deyil, həm də morfoloji-sintaktik, bəzən tam sintaktik, analitik üsulla da əmələ gəlir. Mənsubiyyət bir anlayış kimi dillərin hamısında öz ifadəsini tapa bilir. Lakin dildə bu anlayışın morfoloji göstəriciləri varsa, bu anlayış həmin şəkilçilərin köməyilə ifadə olursa, bu zaman morfoloji mənsubiyyət kateqoriyasından danışmaq olmaz. İngilis dilində mənsubiyyət kateqoriyası yoxdur, lakin anlayışın ifadə vasitəsi var: my brother (mənim qardaşım) və my book (mənim kitabım) eyni mənanı ifadə edir, yəni mənsubluğu. Ona görə də ingilis dilində bu kateqoriya yalnız sintaktik üsulla (my book) formalaşa bilir. F.Palmer bu mənada düzgün olaraq "kateqoriya" termini əvəzinə "məfhum" sözündən istifadə edir.

Müasir ingilis dilində ismin yiyəlik halı mənsubiyyət kateqoriyasının morfoloji ifadə vasitələrindən biri kimi çıxış edir. Yiyəlik halın, yəni **'s** morfemli sözün mənsubluq bildirməsi faktı dilçilik ədəbiyyatında dəfələrlə qeyd edilmişdir.

Müasir ingilis dilində mənsubiyyət anlayışının əsas ifadə vasitələrindən biri yiyəlik əvəzlikləri hesab edilir.O.Musayev yazır ki, hər bir dildə yiyəlik əvəzlikləri sözün geniş mənasında mənsubiyyətin ifadəsinə bu və ya digər şəkildə xidmət edir (4, s. 82).

Birləşdiyi ismin mənasından və onun aid olduğu qrupdan asılı olaraq yiyəlik əvəzliklərinin məna variantlarını belə sıralamaq olar:

1) yiyəlik əvəzlikləri konkret olaraq mənsubluq ifadə edir. Bu variant iki modeldə özünü göstərir:

a) yiyəlik əvəzliyi bilavasitə heyvan adları bildirən isimlərlə birləşir. Məsələn: canavar, dovşan və s.;

b) yiyəlik əvəzliyi sayıla bilən və sayıla bilməyən müxtəlif növ paltar və şəxsi ləvazimatı göstərən isimlərlə birləşir. Məsələn: *saat, şalvar, köynək, qəlyan* və s.

Nümunələrə baxaq:

His dogs have been looked after.

She took ***his arm*** and put her head over his shoulder.

Her parrot's name is "Sally".

2) Yiyəlik əvəzliyi bədən üzvləri və daxili üzvləri bildirən müxtəlif növ sayıla bilən və sayıla bilməyən isimlərlə birləşərək tamın bir hissəsini bildirir. Həmin isimlərə *saç, ayaq, burun* və s. kimi sözləri nümunə göstərmək olar.

İngilis dilində nümunə təqdim edək:

When I saw ***his mother's face***, I understood that all went wrong.

If the queen raises ***her right hand***, it means that the conversation needs to be over.

Her face went white, when she saw him.

Bu cür birləşmələrin işlənməsi də müəyyən mənada çoxluq təşkil edir.

3) yiyəlik əvəzliyi daxili keyfiyyət bildirir. Bu zaman yiyəlik əvəzliyi sayıla bilən və sayıla bilməyən mücərrəd isimlərlə birləşir. Bu cür isimlərə *təsəvvür, nəzakətlilik, səs, ehtiyac, maraq* və s. daxildir. Məsələn:

I returned ***his look***.

When she spoke ***her voice*** was hoarse and deep.

'It is not ***your fault'***, she said.

I am sure that he knows ***my thoughts***.

4) yiyəlik əvəzliyi birgə iş, təhsil, yaşayış və s. əlaqə növləri bildirən isimlərlə birləşərək mənsubluğun xüsusi bir növünü bildirir. *Dost, rəfiq, qonaq, dostluq* və s. kimi isimlər buraya daxildir. Məsələn:

Your workers are able to do it, are not they?

Your preacher asked as to perform this step.

My God does not allow me to lie!

5) yiyəlik əvəzliyi qohumluq əlaqəsi bildirən isimlərlə birləşərək qohumluq mənası ifadə edir. Bu cür isimlərə *xala, əmi, dayı, oğul* və s. daxildir.

His aunt has just returned from Paris.

When ***your cousin*** comes here, do not forget to congratulate her.

Qeyd edək ki, yiyəlik əvəzliklərinin bu cür işlənmə xüsusiyyətləri universal xarakter daşıyır. Bu onunla izah olunur ki, bu cür isimlərin leksik mənaları başqa şəxslə əlaqəyə girə bilir.6) yiyəlik əvəzliyi "müxtəliflik" bildirən isimlərlə birləşə bilir. Həmin isimlər əqli fəaliyyət və yaxud fizioloji proses bildirir. Həmin isimlərə nümunə təqdim edək:

məktub, plan, qeyd, şəkil, təklif, kömək, məsləhət və s.

I understood everything from ***their talk.***

It has always been ***my wish*** to enter this university.

Her voice interrupted our conversation.

Yiyəlik əvəzliyi bir sıra konkret isimlərlə birləşərək birgəlik mənsubiyyəti bildirir. Həmin isimlərə *ev, mənzil, qapı, pəncərə* və s. nümunə vermək olar. İngilis dilində nümunə təqdim edək:

There are many people who want to defend ***our land*** in ***my country.***

He went to ***his desk*** and took ***his bag.***

I want to return to ***my room*** in the hotel.

Yiyəlik əvəzliyi müxtəlif məna daşıyan mücərrəd isimlərlə birləşərək müvəqqəti xarakter daşıyan mənsubluq bildirir. Həmin isimlərə *qorxu, hirs, qəzəb, nifrət, xəstəlik* və s. isimlər daxildir. Məsələn:

He pushed the play button and heard ***her prayer.***

She went into the transplanted study and suddenly felt a sudden push in ***her heart.***

I worry about ***his health***, you know.

Qeyd edək ki, hər bir birləşmənin mənası konkret olaraq mətn və nitq situasiyasından asılıdır.

Mənsubluq mənası nisbi xarakter daşıyır. Bu vəziyyət özünü its əvəzliyinin işlənməsində daha qabarlıq biruzə verir. Məsələn:

When he returned to his native city, he was shocked by ***its beauty.***

Every legend he knew as a child was connected to this country and ***its owner.***

Gördüyümüz kimi, its yiyəlik əvəzliyinin işlənməsi də ümumi qanunauyğunluğa əsaslanır. Yənin its əvəzliyi, müxtəlif məna daşıyan isimlərlə birləşərək məna ifadə edir.

Müasir ingilis dilində mənsubiyyətin yiyəlik əvəzliyi vasitəsilə ifadəsindən danışarkən bir məsələyə diqqət yetirmək lazımdır. Belə ki, bəzən elə hallar olur ki, yiyəlik əvəzliyinin mənası zəifləmiş olur və bu zaman yiyəlik əvəzliyinin funksiyasını müəyyənlik artiklı yerinə yetirir. Bu vəziyyət aşağıdakı hallarda müşahidə edilir:

1) bədən üzvlərini bildirən isimlə ifadə olunan mənsub əşyanın qarşısında yiyəlik əvəzliyi deyil, müəyyən artikl işlənir. Məsələn:

I took him ***by the hand.***

Mother struck the baby ***in the head.***

b) bir sıra hallarda sahib şəxs məchul feilin obyekti kimi çıxış edir. Məsələn:

Was she wounded ***in the arm***?

How did you hit? – ***in the legs.***

Bu cür əvəzlənmə başqa hallarda da mümkündür. Məsələn:

She dried ***the hair***, didn't she?

He looked down ***the hands***, didn,t he?

Göründüyü kimi, verilən misalların hamısında mənaya xələl gətirmədən müəyyənlik artiklini müvafiq yiyəlik əvəzliyinin yerinə işlətmək olar. Məsələn:

Was she wounded ***in the arm***?

Qeyd edək ki, bəzi hallarda müəyyənlik atriklin işlənməsi yiyəlik əvəzliyinin bir neçə dəfə təkrarlanmasının qarşısını almaq məqsədilə də işlənir. Məsələn:

She suffered from the heart disease as she had pains in the fingers of her left hand; and his niece, who is an orphan, and lives with him, acts as her pains.

Ədəbiyyat

1. Abdullayev Ə. Aktual üzvlənmə və mətn. Bakı: Xəzər Universitəsi nəşriyyatı, 1998.
2. Hüseynov A.R. İngilis dilinin nəzəri qrammatikası üzrə mühazirələr toplusu. Bakı: Mütərcim, 2015.
3. Məmmədov A. Mətn yaranmasında formal əlaqə vasitələrinin sistemi (müqayisəli təhlil təcrübəsi). Bakı: Elm, 2001.
4. Musayev O.İ. İngilis dilinin qrammatikası. Bakı: Qismət, 1997.
5. Барабаш Т.А. Грамматика английского языка. М.: Высшая школа, 1983.
6. Crystal D. Dictionary of Linguistics and Phonetics. USA: Blackpool publishing, 2003.
7. Kaushanskaya V.L., Kovner R.L., Kozhevnikova O.N. et.al. A Grammar of the English Language. L., 1973.
8. Palmer F. Grammar. Cambridge: Cambridge University Press, 1996.

Garayeva G.

The functional opportunities of the possessive pronouns in modern English

Summary

The article deals with the functional opportunities of the possessive pronouns in modern English. It states the definition of the possessive pronouns lists their forms. Pronouns are known to have very general and relative meanings in English. The indication of personal prono-

uns varies depending on the speaker. Possessive pronouns are used to indicate relative possessiveness depending on the actual speaker, and one and the same thing possessed by a certain person may be referred to as *my, his, her,* etc. The article mentions some features that pronouns have in common which distinguish them from other parts of speech. They are the following: a) they do not have determiners; b) they are often used in the objective case; c) most of them have person distinctions; d) they often have gender contrast. The conjoin forms and the absolute forms of the possessive pronouns have been analyzed in the article. The grammatical categories of the possessive pronouns have been explained to in the article. It states that the conjoint forms of the possessive pronouns are used as adjective-pronouns in the function of an attribute in phrases and sentences.

The absolute form of possessive pronouns are not followed by any nouns. They are considered to be used as noun-pronouns.

Key words: grammar, language, pronoun, function, category

Гарайева Г.

Функциональные возможности притяжательных местоимений в современном английском языке

Резюме

В статье рассматриваются функциональные возможности притяжательных местоимений в современном английском языке. В нем содержится определение притяжательных местоимений, перечисляются их формы. Известно, что местоимения в английском языке имеют очень общее и относительное значение. Указание личных местоимений варьируется в зависимости от говорящего. Притяжательные местоимения используются для обозначения относительного собственничества в зависимости от фактического говорящего, и одна и та же вещь, которой обладает определенный человек, может называться *my, his, her* и т. д. В статье упоминаются некоторые общие черты местоимений, которые различают их из других частей речи. Они следующие: а) у них нет определителей; б) они часто используются в объективном случае; в) у большинства из них есть личные различия; г) они часто имеют гендерный контраст.

В статье проанализированы формы смешения и абсолютные формы притяжательных местоимений. Грамматические категории притяжательных местоимений были объяснены в статье. Это заявляет, что объединенные формы притяжательных местоимений используются в качестве прилагательных-местоимений в функции атрибута во фразах и предложениях.

Абсолютная форма притяжательных местоимений не сопровождается какими-либо существительными. Они считаются существительными местоимениями.

Ключевые слова: грамматика, язык, местоимение, функция, категория

Redaksiyaya daxil olma tarixi: 21.02.2019
Çapa qəbul olunma tarixi: 25.03.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Fəridə Allahverdiyeva
tərəfindən çapa tövsiyə olunmuşdur

AFTAB HACIZADƏ
ADU
R.Behbudov 134
afa_hajizade@yahoo.com

LEKSİK ALINMALARIN UYĞUNLAŞMASI

Xülasə

Bütün ünsiyyət növlərinin reallaşması danışıq əsasında qurulur. Danışılan zaman sözlərdən istifadə edilir. Ənənəvi məna nəzəriyyəsi də sözü əsas vahid kimi qəbul edir. Bu nəzəriyyəyə əsasən söz ikitərəfli işarə kimi nəzərdə tutulur. İkitərəfin bir tərəfini forma, yəni sözün forması, digər tərəfini isə məna, yəni sözün mənası təşkil edir. F.de Sössürə əsaslansaq adlarını qeyd etdiyimiz bu iki tərəfi işarələnən və işarələyən kimi müəyyən etmək olar (7, s. 95).

Sözsüz ünsiyyət mümkün deyil. O, insanın dünyagörüşünü müəyyənləşdirir. Sözlərin mənaları dildən kənara deyil, dilə aid hesab edilir. Ənənəvi dilçilikdə sözlərin mənalarını əsas götürərək onları sinonim, omonim, çoxmənalı sözlər və antonimlər kimi təsvir edirlər. Sözlərin mənalarının müəyyən olunmasında forma və mənanın bir-birilə münasibəti əsas götürülməlidir.

L.Vitqenştayn yazır ki, adətən sözün mənası yox, onun necə işlədilməsi insanları düşündürməlidir (1, s.111). Belə olan halda söz nədir? sualı bizi düşündürür. Bu sualın cavabını tapmaq üçün aşağıdakıları yadda saxlamaq lazımdır: 1) söz semantik vahiddir. Onun konkret mənası olmalıdır; 2) söz fonetik cəhətdən formalaşmış bütöv olmalı və onun vahid vurğusu olmalıdır; 3) söz başqa vahidlərdən ayrılıb götürülə bilər. Sadaladığımız üçlükdən belə nəticəyə gələ bilərik ki, bir söz bir deyil, birdən çox məna ifadə edə bilir. Məsələn, ingilis dilində "draw" feilinin mənalarına nəzər salaq: 1) to make a picture of something or someone with a pencil or a pen "qələmlə, yaxud karandaşla kiminsə, yaxud nəyinsə şəklini çəkmək"; 2) to attract attention or interest "diqqət, yaxud maraq cəlb etmək"; 3) make or show comparison between things "əşyalar arasında müqayisə göstərmək"; 4) to consider the facts of a situation and make a decision about what is true, correct, etc. "hər hansı bir şeyin doğru, düz olması barədə qərar qəbul etmək, fikir yürütmək və s.") to move in a particular direction "hər hansı bir yerə hərəkət etmək". İndi isə draw feili ilə işlənən bir neçə idiomu nəzərdən keçirdək: 1) draw a bead on "qətiyyətli addım atmaq"; 2) draw horns "kəmərləri sıxmaq; qənaət etmək" və s. (5). Nümunə üçün verdiyimiz bu feilin söz və idiom kimi mənalarının bir qismini yazdıq, lakin "İngilis dilinin Oksford lüğəti"ndə onun mənaları bir qədər də artıqdır. Dildə işlənən sözlərin demək olar ki, hamısının bu qədər və artıq forma və mənası mövcuddur. Yaxud ingilis dilində tie sözü nümunə kimi verək. Tie isim kimi işləndikdə "qalstuk" mənasını verir, feil kimi işləndikdə isə "bağlamaq" mənasını verir. Qədim ingilis dilində bu söz –ing şəkilçisi qəbul edərək tying formasında "axına qarşı çıxmaq" mənasını da verirdi.

Açar sözlər: leksik, alınma, uyğunluq, söz, məna, forma, söz düzəldilməsi

Sözlərin müəyyən edilməsilə bağlı yunanların tədqiqatı çoxluq təşkil edir. Sözlər arasında məsafənin saxlanması yunanlar tərəfindən irəli sürülmüşdür. İlk əvvəl sözlər arasında məsafə olmamışdır. Yunanlar sözləri ardıcıl olaraq yazırdılar. Daha sonralar Platonun "Kratil" əsəri yaranandan sonra bu məsələ ortadan qalxmışdır. Sözlərin məsafəsiz yazılmasının yanlış anlaşılmaya səbəb olduğunu iddia edən Platon öz əsərində bu məsələni aradan qaldırmış və bununla da sözlər arasında məsafə yazılmışdır (7, s. 290). Sözlərin müəyyən edilməsinə üç yanaşma mövcuddur. Birinci yanaşma sözün semantik vahid, yəni mənalı vahid olması, ikinci yanaşma sözün

fonetik, yaxud fonoloji vahid olması ilə bağlıdır. Üçüncü yanaşma isə sözün bölünməz vahid olmasını iddia edir. Sözün semantik vahid kimi mənasına nəzər salaq. Semantik vahid olan sözün birdən çox məna ifadə etməsi artıq sübutunu tapmışdır. Məsələn, ingilis dilində *sing* "nəğmə" sözünün bir neçə məna ifadə etməsinə nəzər salaq: bu sözə *-er* şəkilçisi artırmaqla *singer* "müğənni" sözü yaranır. Bu sözün keçmiş qeyri müəyyən zaman forması *sang* sözüdür və s. Yaxud ingilis dilində *lamb* "quzu", *ewe* "dişi qoyun", *ram* "qoç" sözlərinin tək mənalarının olmasını iddia etmək düzgün olmaz. Belə ki, bu sözlərin hər üçü "qoyun" anlamını verir. *Elephant* "fil" sözünün söz yaranmasına görə fərqləndirilməsində isə bir qədər başqa forma müşahidə olunur. Məsələn, *körpə, ata* və *ana* filin lüğəvi mənada adlandırılmasında *elephant calf, elephant cow* və *elephant bull* kimi mürəkkəb sözlərdən istifadə olunur. Təbii ki, sözlərin mənalarının fərqləndirilməsi dildən dilə fərqli şəkildə müşahidə edilir. Məsələn, Eskimo dilində *qar* sözü üç formada ifadə edilir. Yaxud bədəvi dilində *camel* "dəvə" sözü çox fərqli sözlərlə dəvənin müxtəlif növlərini göstərmək üçün işlədilə bilir (6, s.10).

Sözün fonetik və fonoloji vahid kimi fərqləndirilməsi də vacibdir. Bəzi dillər var ki, onlarda sözün tanınması həmin sözün tələffüz xüsusiyyətlərindən asılıdır. Belə ki, bəzi dillərdə "məlum vurğu"lar var ki, onlar həmişə həmin sözün xüsusi hecasının üzərinə düşür. Lakin bu ingilis dilində belə deyildir. İngilis dilində vurğu fərqli sözlərdə fərqli hecaların üzərinə düşə bilər. Sözün fonetik vahid kimi müəyyən edilməsində sait harmoniyasının müşahidə edilməsi də rol oynayır. Məsələn, türk, macar, somali, nigeriya kimi dillərdə sait sözlərdə sait harmoniyası müşahidə edilir.

Cəmiyyətin dilə olan ehtiyacını ödəmək üçün dildə sözlər yaranır. Buna görə də dilin söz fondunda daimi olaraq dəyişikliklər baş verir. Sözlər bəzi hallarda dildə yaranır, bəzi hallarda da dildən-dilə keçir, bəziləri köhnəlir, yaxud arxaikləşir. Məsələn, ingilis dilində əsasən idiomların tərkibində işlənən *plough* feilinin mənalarını nəzərdən keçirdək. Məlumdur ki, dilin lüğət tərkibində elə sözlər var ki, onlar artıq bədii mənada işlədilmə hallarını itiriblər və ancaq məcazi mənada işlənirlər. *To plough* "əkmək, biçmək" feili bu cür sözlərdəndir. Bu feil müasir ingilis dilində həqiqi mənada demək olar ki, istifadə olunmur. Biz ona ancaq idiomatik birləşmələrin tərkibində metaforik mənada rast gələ bilərik.

Cümlədə işlədilən hər bir sözün öz mənası vardır. Alimlərin qənaətinə görə, sözün forması ilə mənası arasındakı əlaqə ixtiyaridir. Belə ki, F.de Sössürün təbirincə desək, işarələyənlə işarələnən arasında birbaşa əlaqə müşahidə olunmur. Əks halda, eyni reallıqlar müxtəlif dillərdə müxtəlif cür səslənərdi. Qeyd etmək lazımdır ki, ancaq səs təqlidi ilə yaranan sözlərdə bu bağlılıq müşahidə oluna bilər. Lakin omonim, çoxmənalılıq, polisemiya kimi mənaları olan sözlər də müşahidə etmək mümkündür.

Sözlər və söz formalarının fərqləndirilməsində diqqətli olmaq lazımdır. Ənənəvi qrammatikada sözün formalarının fərqləndirilməsi "şəkilçi" vasitəsilə müəyyən olunur. XIX əsr alimlərindən hesab edilən V.von Humboldt dünyadakı dillərin üç növünü fərqləndirməyi təklif etmişdir (5, s.111). Onlar belə adlanır: "şəkilçili", "aqlyutinativ" və "təcrid olunan" dillər. Məsələn, klassik yunan dilində şəkilçi olduqca çoxdur. Yunan dilində *-o* şəkilçisi ilə beş kateqoriyanı tədqim edə bilən sözlər yarana bilər. İngilis dilində hər üç növə aid olan sözlər mövcuddur. Məsələn, *by, near, to* kimi sözönləri sabit hesab olunduqlarından onlar "təcrid edilmiş" növə, *see/saw* kimi sözlər şəkilçili, *love/loves/loved/loving* kimi sözlər isə aqlyutinativ növə aid hesab edilir.

1976-cı ildən başlayaraq müasir ingilis dilində söz yaradıcılığının tədqiqinə aid işlərə rast gəlinməyə başlandı. C.C.Frays "İngilis dilinin quruluşu" əsərində söz yaradıcılına geniş yer vermişdir (7, s. 90). S.Potter "Dilimiz" kitabında qədim ingilis dilindən başlayaraq ingilis dilində söz yaradıcılığının tədqiqinə bütöv bir fəsli aid etmişdir (3). B.Kaşkinin tədqiqatlarında ingilis dilinin söz yardıcılığı geniş şəkildə araşdırılmış və ingilis dilinin söz düzəldici vasitələri təsvir edilmişdir (3, s. 16). Vurğulamaq lazımdır ki, müasir ingilis dilinin söz yaradıcılığının sistemini öyrənməkdə hər iki əsərin əhəmiyyəti böyükdür. 1972-ci ildə T.A.Rastorquyeva "İngilis

dilinin tarixi ilə bağlı mühazirələr toplusu" əsərində ingilis dilində söz yaradıcılığını geniş şəkildə araşdırmışıdr (4, s. 147).

Söz yaradıcılığı dilçiliyin mühüm sahələrindən biri hesab edilir. Söz yaradıcılığında yeni sözlərin yaranır. Söz yaradıcılığının aşağıdakı üsulları müəyyən edilmişdir:

1.Söz kökünə müxtəlif şəkilçilər artırmaqla söz düzəldilməsi;
2.Söz kökünə söz artırmaqla söz düzəldilməsi;
3.Sözün bir nitq hissəsindən başqa bir nitq hissəsinə keçməsi ilə yeni söz düzəldilməsi;
4.Sözə yeni məna verməklə söz düzəldilməsi (1, s. 111).

Müxtəlif dillərdə müxtəlif şəkilçilər olduğundan söz yaradıcılığı müxtəlif növlərdə müşahidə olunur:

a) öz şəkilçili;
b) son şəkilçili;
c) iç şəkilçili (4, s. 90).

Sözün eyni zamanda müxtəlif şəkilçilərin, məsələn, prefiks, infiks və postfikslərin iştirakı nəticəsində də yarana bilməsi mümkündür. İngilis dili analitik dil quruluşuna malik olmaqla flektiv dil tipinə məxsusdur və söz düzəldilməsinin bu növünə ingilis dilində çox rast gəlinir. Söz kökünə şəkilçi artırmaqla yaranan sözlər düzəltmə sözlər adlanır. Söz kökünə söz artırmaqla söz yaradılması sintaktik yolla yaranan söz yaradıcılığına aiddir. Sintaktik yolla yaranan sözlərin iki növü mövcuddur:

a) iki sözün birləşməsi ilə yaranan söz yaradıcılığı. İngilis dilində isim əmələ gətirən mürəkkəb isimləri nümunə verə bilərik: *plum tree* "gavalı ağacı", (isim+isim); feil əmələ gətirənlər: *browbeat* "qəhvəyi" (feil+feil); b) üç və daha artıq söz sözün birləşməsi ilə yaranan söz yaradıcılığı. Məsələn, *go away* "tərk etmək, çıxıb getmək", *give up* "əl çəkmək, tərgitmək, vaz keçmək" və s. (2, s. 112)

İngilis dilində söz düzəldilməsinin dörd əsas növü müəyyənləşmişdir: prefikslər, suffikslər, konversiya və mürəkkəb sözlərin yaranması.

Prefikslər sözün əvvəlinə artırılan şəkilçilər hesab edilir.

Müasir ingilis dilində aşağıdakı prefikslərə nümunə verə bilərik:

-*mono* "bir" mənasını ifadə edən prefiksin artırılması ilə düzələn sözlər:

Prefikslər	**Nümunələr**
Mono- "tək" mənasında	Monorail "dəmir yolu", *monolingual* "monolinqual" (tək dildə danışan şəxs, yaxud cəmiyyət)
Multi- "çox" mənasında	*Multipurpose* "çox məqsədli", multicultural "çoxmədəniyyətli"
Post- "sonra" mənasında	*Postwar* "davadan sonra", *postgraduate* "aspirant"
Un- inkarlıq əks bildrirən prefiks	*Unusual* "qeyri-adi", *undemocratic* "qeyri-demokratik"

Təbii ki, bu siyahının sayını artıra bilərik. İngilis dili prefikslərlə kifayət qədər zəngin hesab edilir.

Suffikslər isə sözün sonuna artırılan şəkilçilər hesab edilir. C.C.Frayz "İngilis dilinin Quruluşu" əsərində yazır ki, suffikslərin əsas məqsədi sözün hansı sinifə aid olmasını göstərməkdir. Məsələn, isim əmələ gətirən suffukslər, sifət əmələ gətirən siffukslər və s.
Bəzi nitq hissələrinə görə bir neçə suffiksin nümunəsini verək:

Suffikslər	**Nümunələr**
-*ism* (isim əmələ gətirən şəkilçi)	*Terrorism* "terrorizm"
-*dom* (isim əmələ gətirən şəkilçi)	*Freedom* "azadlıq"
-*er* və -*or* isim əmələ gətirən şəkilçilər. Bu şəkilçilər əsasən sənət bildirən sözləri yaradır.	*Employer* "işə götürüən", *actor* "aktyor"
-*en* və -*ify* feil əmələ gətirən şəkilçilər	*Widen* "genişləndirmək", *simplify* "sadələşdirmək"
-*able* sifət əmələ gətirən şəkilçi	*Reasonable* "məqbul", *unprofitable* "zərərsiz"
-*ly* zərf əmələ gətirən məhsuldar şəkilçi	*Unhappily* "bədbəxtlikdən", *naturally* "təbii olaraq"

Söz yaradıcılığının sözün bir nitq hissəsindən başqa növ nitq hissəsinə keçməsi söz düzəldici şəkilçiləri olmayan dillərdə geniş yayılmışdır. Konversiyanı nitq hissələrinin müxtəlif cümlə üzvü vəzifəsində işlənməsi kimi sintaktik hadisə ilə məhdudlaşdırmaq olmaz.

Ədəbiyyat

1. Wittgenstein L. Tractatus Logico-Philosophicus. The German Text of Ludwig Wittgenstein's Logisch-philosophische Abhandlung. London: Routledge and Kegan Paul press, 1961.
2. Veysəlli F.Y. Seçilmiş əsərləri. Bakı: Mütərcim, 2008.
3. Кашкин В.Б. Введение в теории дискурса. Москва: Восточная книга, 2010.
4. Каспранский Р.Р. Интерпретация актов молчания в дискурсе // Язык, дискурс и личность. Тверь,1990.
5. Yule G. Pragmatics. Oxford: OUP, 1996.
6. Quirk R., Greenbaum S. and etal. A University Grammar of English. Moscow: Visshaya shkola, 1982.
7. Fries Ch.C. The Structure of English. New York: York Press, 1952.

Hajizade A.

The adaptation of lexical borrowings

Summary

The article deals with the adaptation of lexical borrowings. It states that the realization of all types of communication is based on negotiation. Words are used when speaking. Traditional meaning theory also accepts the word as the main unit. According to this theory, the word is meant to have a double sign. One side is the form, that is, the form of the word, the other one is the meaning. Based on F.de Saussure, the two names we mention can be identified as *sign* and *signifier.*

It is impossible to communicate without words. It defines a person's outlook. The meanings of the words are understood as belonging to the language, not the language. In traditional linguistics, they use words as synonyms, safeguards, multidimensional words, and antonyms. The form and the relation of meaning to each other must be taken into account in determining the meaning of the words. The article investigates different scientific sources with the adaptation of the words in English. The productive and unproductive word forming have also been touched upon in the article.

Key words: lexical, borrowing, adaptation, word, form, word formation

Гаджизаде А.

Адаптация лексических заимствований

Резюме

В статье рассматривается адаптация лексических заимствований. В нем говорится, что реализация всех видов связи основана на переговорах. Слова используются при разговоре. Традиционная теория значения также принимает слово в качестве основной единицы. Согласно этой теории слово должно иметь двойной знак. Одна сторона - это форма, то есть форма слова, другая - значение. Основываясь на Фердина́нд де Соссю́р, два упомянутых нами имени можно идентифицировать как знак и обозначение.
Невозможно общаться без слов. Это определяет мировоззрение человека. Значения слов понимаются как принадлежащие языку, а не языку. В традиционной лингвистике они используют слова в качестве синонимов, гарантий, многомерных слов и антонимов. Форма и отношение значения друг к другу должны быть приняты во внимание при определении значения слов. В статье исследуются различные научные источники с адаптацией слов на английском языке. Продуктивное и непродуктивное словообразование также было затронуто в статье.

Ключевые слова: лексическое, заимствование, адаптация, слово, форма, словообразование

Redaksiyaya daxil olma tarixi: 21.02.2019
Çapa qəbul olunma tarixi: 11.08.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Şəfaqət Mahmudova
tərəfindən çapa tövsiyə olunmuşdur

ZAHİDƏ İSMAYILOVA
BDU
Zahid Xəlilov küç
mahmudova.1969@mail.ru

FARS DİLİNİN LÜĞƏT TƏRKİBİNİN ZƏNGİNLƏŞMƏSİNDƏ TÜRK MƏNŞƏLİ SÖZLƏRİNİN ROLU

Türk dilləri ailəsinə mənsub olan əllidən artıq dil içərisində Orta Asiya, Volqa boyu, Şimali Qafqaz , Ural ətrafı və Qərbi Sibir ərazisində yaşayan xalqların dili fars dili ilə daha sıx əlaqədə olmuşdur.

Xüsusən də, Azərbaycan xalqı ilə İran xalqı arasında siyasi, ictimai və mədəni əlaqələrin daha sıx olması, vaxtilə Azərbaycan dilinin Səfəvi dövlətinin rəsmi dili olması kimi faktorlar nəticəsində bir çox türkizmlər məhz Azərbaycan dili vasitəsilə fars dilinə keçmişdir. Xüsusən Səfəvilər dövründən sonra digər türk xalqlarının farslarla əlaqəsinin məhdudlaşması nəticəsində fars dilinə keçmiş türkizmlər məhz Azərbaycan sözləri olmuşdur.Fars dilində işlənən Azərbaycan sözlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

Bu sözlərin müasir fars dilində işlənmə dairəsi çox məhduddur.

Azərbaycan dilinin leksik tərkibində həm qonşu, həm də qonşu olmayan xalqların sözləri vardır. Bütün bu sözlər dilimizə təsadüfi olaraq deyil, əsasən aşağıdakı səbəblər nəticəsində daxil olmuşdur:

Açar sözlər: leksikologoya, alınma sözlər, dilin lüğət tərkibi, təsir, sintaktik məna, qramatik məna.

Alınma sözlər bütün dillərdə eyni kəmiyyət təşkil etmir, bunların bəzilərində çox, bəzilərində isə az olur. Alınma sözlərin çoxluğu nə dilin müstəqilliyini inkar edir, nə də onun təsir qüvvəsini azaldır.

Sözlər bir dildən başqasına müxtəlif şərait və zamanlarda,müxtəlif səbəblərdən və bir sıra yollarla keçir.

1.Zəruri və alınma məcburi sözlər. Başqa dillərdən müəyyən tələbatla bağlı olaraq alınan sözlərdir. Bunlar dilin inkişafında xüsusi rol oynayır. Belə ki, xalq öz inkişafı, mədəni yüksəlişi ilə əlaqədar yeni yaranan məfhumları, əsasən bu sözlərin köməyi ilə ifadə edir.

2.Ədəbi və danışıq dili vasitəsilə alınma sözlər. Ədəbi dilin istər yazılı, istərsə də şifahi yolu ilə, əsasən elmi, siyasi və s. terminlər, beynəlmiləl sözlərdir.

3.Vasitəli və vasitəsiz alınma sözlər. Hər bir dil başqa dilin sözlərini ya birbaşa özü, ya da özgə bir dilin vasitəsilə alır. Başqa dilin sözləri bilavasitə mənbə dildən alınmışsa, bunlar vasitəsiz alınma sözlər sayılır (4, 194).Fars xalqı ilə türk xalqları arasında yüz illərlə davam edən qonşuluq, ticarət və mədəni əlaqələr hər iki dilə öz dərin təsirini göstərmişdir.

1.Ev əşyaları, qab-qacaq və s. bildirən sözlər:

Səfəvilər dövründə əl əməyi ilə hazırlanan sənaye malları sahəsində xüsusi yer tutan Azərbaycan fars dilini özünün bu qəbil sözləri ilə zənginləşdirmişdi:

قاب (ğab) qab
بشقاب (boşğab) boşqab
قاشق (ğaşoğ) qaşıq
خالی (xali) xalı
قابلمه (ğableme) qazan
چکمه (çəkme) çəkmə
اجاق (ocağ) ocaq

2.Məişətlə, gündəlik həyatla bağlı sözlər:
دلمه (dolme) dolma
کک لیکـوتی (kəklikoti) kəklikotu
یونجه (yunca) yonca
سرمه (sorme) sürmə
سوقات (souğat) sovqat
بزک (bəzək) bəzək
3.Hərbi terminlər:
Səfəvilər dövründə dövlət hakimiyyətinin azərbaycanlıların əlində toplanması, İran ordusunda tətbiq edilən silahların çoxunun Azərbaycanda hazırlanması nəticəsində fars dilində bir çox hərbi terminlər sabitləşmişdi:
توپ (tup) top
قشون (ğoşun) qoşun
کشیک (kəşik) keşik
قنداق (ğondağ) qundaq
یراق (yərağ) yaraq
چاپار (çapar) çapar
سورسات (sursat) sursat
چخماق (çəxmağ) çaxmaq

Öz fonetik tərkibinə və fonetik quruluşuna görə fars dilindən fərqləndiyi üçün bu dildə işlənən Azərbaycan sözləri müəyyən fonetik dəyişikliyə uğramışdır:
1.Tərkibində fars dilində olmayan [ı], [ö], [ü] saitləri olan sözlərdə aşağıdakı dəyişikliklər baş verir:
a) [ü] saiti u, ya da o saiti ilə əvəz olunur:
[ü] saiti bəzi sözlərdə u, bəzi sözlərdə isə o saiti ilə əvəz olunur.
süpür -سپور (sopur)
sürmə - سرمه (sorme)
tütün- توتون (tutun)
düymə- دگمه (dogme)
b) [ı] saiti e, i o və ya u saiti ilə əvəz olunur:
qatır- قاطر (qater)
qızıl- قزل (qezel)
çadır-چادر (çador)
ilıq- ایلیق (iliğ)
qapı- قاپو (ğapu)
c) [ö] saiti o saiti ilə əvəz olunur:
çöl- چول (çol)
ördək- اردک (ordək)
bölük- بلوک (boluk)
2.Azərbaycan sözlərindəki [a], [i], [u] səsləri ya uzun a, ı, u səsləri ilə, ya da qısa ə,o, e səsləri ilə əvəz olunur:
ağa - آقا
otaq - اتاق
ocaq - اجاق
yüzbaşı- یوزباشی
yağı - یاقی
Fars dilində olan Azərbaycan ünsürləri leksik alınmalar olduğuna görə Azərbaycan dilinin sözdüzəldici şəkilçiləri də fars dilində yeni sözlərin yaradılmasında iştirak etmişdir:

-çı –çi –çu – çü şəkilçisi ilə düzələn sözlər:
شکارچی (şekarçi) ovçu
معدنچی (mədənçi) mədən fəhləsi
درشکه چی (doroşkeçi) faytonçu

جارچی (carçi) carçı
توپچی (tupçi) topçu
کشیکچی (keşikçi) keşikçi
-ça şəkilçisi:
کتابچه (ketabçe) kitabça
دفترچه (dəftərçe) dəftərçə
دریاچه (dəryaçe) göl
Azərbaycan dilində müstəqil söz olan "baş" (باش), "bəy"(بیگ) kimi sözlər fars dilində şəkilçi kimi qəbul edilərək bir sıra sözlərin əmələ gəlməsində iştirak etmişdir:
یوزباشی
باغبان باشی
حمال باشی
قلعه بیگی
دادبیگی
tarixən xalqımız bir sıra istilalara məruz qalmış və bunun nəticəsində dilimizə keçən sözlər

1) xalqımız öz tarixi boyu onu şərqdən, qərbdən, cənub və şimaldan əhatə edən xaıqıarıa qardaşlıq, dostluq münasibətində yaşamış və onlarla mədəni, siyasi əlaqə yaratmışdır. Bu əlaqələr əsasında dilimizə bir sıra sözlər daxil olmuşdur

2) Azərbaycanın coğrafi şəraiti dilimizə söz keçməyə imkan vermişdir. Belə ki, qədimdə ticarət edənlərin çoxu Azərbaycandan keçmiş və bura mərkəz olmuşdur

3) Obyektiv inkişaf qanunları ilə əlaqədar olaraq başqa dilin sözləri dilimizə keçmiş və keçir.

Azərbaycan dilində işlənən farsizmlər həyat və məişətin müxtəlif sahələrinə aid olan sözlərdir:

badə - باده	cəftə - چفته	xiyar- خیار	zinət - زینت	xəkən-
daz - خاک انداز	çovdar چودار			
abqora- آبغوره	astana - آستان	güzəşt گذشت		
sirkə - سرکه	taxt - تخت	büsat- بساط		
plov- پلو	noxud - نخود	viran- ویران		
qəm - غم	çarpayı - چهارپایه	qənd - قند		
şəkər - شکر	şəkərbura - شکربوره	fincan فنجان		
əgər - اگر	nazəndə - نازنده	xanəndə خواننده		
nərd - نرد	səda-صدا	xəndan خندان		
cəngavər -جنگاور	şam- شام	şivə - شیوه		
pərvərdigar – پروردگار				

Farsizmlər dilimizə xas olmayan fonetik xüsusiyyətlərinə görə əsil Azərbaycan sözlərindən fərqlənir:

Sözün sonunda "n" samitindən sonra "g"samiti iştirak edir:

نهنگ، پلنگ، آهنگ، قش

Bir sıra sözlər dilimizə xas olan ahəng qanununa tabe olmur:

بوسه، خواننده، آهسته، خیابان، آسایش، جانشین، آذوق

Ədəbiyyat

1. Шахматов А. А. Синтаксис русского языка. 2-е издание. Ленинград, Учпедгиз, 1941.
2. Грамматика русского языка. Том II. Синтаксис, Москва, 1960.
3. Seyidov Y. Cümlə. Müasir Azərbaycan dili (sintaksis), II kitab, Bakı, 1962.
4. Фортунатов Ф. Ф. Сравнительное языкознание, Москва, 1900.
5. Məmmədov N. Dilçiliyin əsasları. Bakı, 1961.

6. Şirəliyev M., Hüseynzadə M. Azərbaycan dilinin qrammatikası. II hissə, Sintaksis, Bakı, 1983.
7. Рубинчик Ю. А. Современный персидский язык. Москва, 1960.
8. شفائی احمد. مبانی علمی دستور زبانی فارسی. تهران، 1342
9. Abdullayev Ə., Seyidov Y., Həsənov A. Müasir Azərbaycan dili. Sintaksis. Bakı, 1972.
1. صادق هدایت. لاله. منتخبات فارسی. گردآوردهٔ کوبیدزه، تبیلیسی،1967
3. صادق هدایت. آبجی خانم. منتخبات فارسی. گردآوردهٔ کوبیدزه، تبیلیسی، 1967
4. علوی بزرگ. نامه ها و داستان های دیگر. تهران، 1933

З.Исмайылова

Роль и значение персидских слов и терминов при обогащении словарного состава азербайджанского языка

Резюме

Слова для приобретения не составляют одно и то же число на всех языках, некоторые из них более многочисленны, а некоторые меньше. Большинство принятых слов не отрицают независимости языка и не уменьшают его влияния.Слова переходят с одного языка на другой в разных обстоятельствах, а иногда и по разным причинам и разными способами.1. Обязательные и обязательные слова. Это слова, которые получены из других языков в связи с определенным требованием. Они играют особую роль в развитии языка. Таким образом, люди выражают новые идеи о собственном развитии, культурном росте, главным образом, с помощью этих слов.2. Слова, полученные через литературный и разговорный язык. Литературный язык, будь то письменный или устный, в основном научный, политический и т. Д. термины, международные слова.3. Словарь и косвенные слова. Каждый язык получает слова другого языка напрямую или через другой язык. Если слова другого языка взяты непосредственно из исходного языка, они рассматриваются как косвенные слова.Многовековое соседство, торговые и культурные связи между персидским и турецким народами глубоко затронули оба языка. Из более пятидесяти языков, принадлежащих к тюркоязычной семье, языки народов Центральной Азии, Поволжья, Северного Кавказа, Урала и Западной Сибири были более тесно связаны с персидским языком. Особенно в результате таких факторов, как более тесные политические, социальные и культурные связи между азербайджанским народом и иранским народом, официальным языком Сефевидского государства азербайджанского языка, многие тюркские слова перешли на персидский через азербайджанский язык. Особенно после эры Сефевидов тюркские слова, которые перешли на персидский язык в результате ограничения других тюркских народов Персией, были азербайджанскими словами.В статье рассматривается языковые связи персидского языка с другими языками русского происхождения и его этимологические состояния с прошедшего до настоящего времени.

Ключевые слова: лексика, заимствованные слова, словарный состав языка, влияние, синтаксическое значение, грамматическое значение.

Z.İsmayılova

Langual relation of Persian and is etimologie

Summary

Acquisition words do not constitute the same number in all languages, some of them are more numerous and some are less. Most of the words taken do not deny the independence of the language nor diminish its effect.
Words go from one language to another under different circumstances and at times, for different reasons and in a number of ways.
1. Required and mandatory words. These are words that are derived from other languages in relation to a specific requirement. They play a special role in the development of the language. Thus, people express new ideas about their own development, cultural growth, mainly with the help of these words.
2. Words obtained through literary and spoken language. The literary language, whether written or oral, is mainly scientific, political, and so on. terms, international words.
3. Vocabulary and indirect words. Each language receives the words of another language either directly or through another language. If the words of another language are taken directly from the source language, they are regarded as indirect words .
The centuries-old neighborhood, trade and cultural ties between the Persian and Turkish peoples have profoundly affected both languages.

Of more than fifty languages belonging to the Turkic-speaking family, the languages of the peoples of Central Asia, the Volga, the North Caucasus, the Ural suburbs, and Western Siberia were more closely related to the Persian language. Especially as a result of such factors as closer political, social and cultural ties between the people of Azerbaijan and the Iranian people, the official language of the Safavid state of the Azerbaijani language, many Turks have switched to Persian through the Azerbaijani language. Especially after the Safavid era, the Turkic people who converted to Persian as a result of the restriction of other Turkic peoples with Persia were the Azerbaijani words.
This article speak about the historical linguistic relation of Persian and its etimological situation from past till present time.

Key words: leksikal, loan words, vocabulary of the language influence, sintaksis meaninq, qrammatik meaninq.

Redaksiyaya daxil olma tarixi: 21.04.2019
Çapa qəbul olunma tarixi: 24.06.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Nigar Musayeva
tərəfindən çapa tövsiyə olunmuşdur

ŞƏFƏQ RZAYEVA
AYTƏN HÜSEYNOVA
Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi
Naximov küçəsi
shafaq@mail.ru

"HOUSE VƏ HOME" SÖZLƏRİNİN ATALAR SÖZÜ VƏ İDİOMLARDA İŞLƏNMƏSİ

Xülasə

Məqalədə ingilis dilində geniş şəkildə işlənən "Home və house" sözlərindən yaranan ifadələrin əhəmiyyətindən söhbət açılır. Bu ifadələrin dildə işlənməsi fikrin daha aydın, söhbətin daha dolğun olmasına zəmin yaratdığından danışıqda geniş şəkildə istifadəsinin əhəmiyyətindən danışılır. Atalar sözü, deyimlər, idiom və ifadələr xalqın mənəvi irsinin və dil zənginliyinin ayrılmaz hissəsini təşkil edir və ondan istifadə edilməsi dil mədəniyyətinin ən vacib hissəsidir. Məqalədə bir neçə işlənməsi vacib olan idiomlar, atalar sözləri, zərb məsəllər və ifadələrin mənası açıqlanır və azərbaycan dilində qarşılığı verilir. Onlardan "hometown, homesick, homeless, homelessness, home sweet home, housework, homework, on the house, house specialty, house wine, fullhouse, house party və s. kimi söz və ifadələri misal göstərmək olar. Home və house sözlərinin ingiliscə mənası bina, ev deməkdir. Lakin bu sözləri "work" sözü ilə birləşdirsək o zaman tam fərqli mənada yeni sözlər yaranır: housework, homework. Housework ev işləri, homework isə ev tapşırığı deməkdir.

House və home sözləri ilə bağlı çox sayda ifadələr, deyimlər, atalar sözü var. İlk öncə bu sözlərin ilkin mənasını nəzərdən keçirək. Home - place, apartment mənasını verir, yəni insanın yaşadığı hər hansı bir yaşayış yeri, məkanıdır. O hətta condo -kooperativ mənzil, cottage- kənd evi, hut- daxma, igloo-qar ev (eskimosları qardan düzəltdikləri ev), bungalow-bağ evi, caravan - furqon, teepee - alaçıq, tent-çadır, treehouse- ağacev etc. da ola bilər. Yəni hər hara olsa da insanın rahatçılığını tapdığı məkan onun evidir. Home sözü ilə bağlı ingilis dilində bir çox atalar sözü, deyimlər, idiomlar var. Məsələn, "My home is my castle" "Mənim evim mənim qalamdır" çox məşhur ingilis atalar sözüdür. Bu atalar sözünün meydana gəlməsi orta əsrlərə təsadüf edir. Bir çox tədqiqatçılar tərəfindən müxtəlif yozumlarla əsaslandırılan bu kəlam son nəticədə hamı tərəfindən qəbul edilən ümumi bir anlamı verdi. Bu da ondan ibarət oldu ki, mənim evim mənim qalamdır, mənim qalam da mənim Vətənimdir. Digər atalar sözündə deyilir: "Home is where our story begins..." həyat hekayəmizin başladığı yerdir."East or West Home is Best".

Açar sözlər: bağlı, ilkin məna, ev, atalar sözü, qala, meydana gəlmək, məkan.

Atalar sözləri, deyimlər, idiomlar və ifadələr xalqın mənəvi irsinin və dil zənginliyinin ayrılmaz hissəsini təşkil edir və ondan istifadə edilməsi dil mədəniyyətinin ən vacib hissəsidir. İdiomlar, atalar sözləri, zərb məsəllər, ifadələr gündəlik İngilis dilinin əvəzolunmaz hissəsidir. İdiomlar, atalar sözləri, zərb məsəllər, ifadələr iki və daha artıq sözdən yaranan söz birləşmələridir. Onlar həmin dilin daşıyıcısı olan insanlar tərəfindən yaranır və hər hansı başqa bir dilə sözbəsöz deyil, mənaca həmin dildə ekvivalenti vasitəsilə tərcümə olunur. İnsanların yaşadığı həyat şəraitindən doğan bu deyimlər aid olduğu xalqın adət ənənələrindən, mədəniyyətindən xəbər verir. Gündəlik həyatda istifadə olunan bu söz və ifadələri bilmək danışıqdakı çətinliyi aradan qaldırır, insanın fikrini daha da aydın ifadə etməsinə yardım edir. https://www.theidioms.com/ İngilis dilini öyrənənlər dilin qrammatikasını, fonetikasını öyrənməklə yanaşı, həm də zəngin söz ehtiyatına malik olmağa çalışırlar. Dil öyrənənlər adətən bədii nitqdə (literary speech) ma-

Bugün yaradıcılıq aləmində demək olar ki, hər gün yeni fikirlər ortaya çıxır. Digər tərəfdən müəllimin rolu həmişə olduğu kimi dinamik olaraq qalır: mühaziraçi, təlimçi, bələdçi, mentor, hakim və problemi həll edən şəxs arasında saatdan saata, dəqiqədən dəqiqəyə hər zaman fərqli mövqedə dayanır. Texnologiyanın mahiyyəti bundan ibarətdir ki, kiçik meyillər və dəyişikliklər - təhsil / pedaqogikada və ondan kənarda - başqa yerlərdə əhəmiyyətli dərəcədə təsir göstərə bilər. Yerli və qlobal peşəkar öyrənmə icmaları yaradırlar. Təlimləri üçün məsuliyyət və təşəbbüs göstərirlər. Yenilikçi müəllimlər ənənəvi müəllim ifadəsi arasındakı boşluğu da aradan qaldırır, onlar, hər tələbə üçün ən yaxşı nəyin olduğunu müəyyənləşdirə bilərlər. Bundan əlavə, ömür boyu öyrənən tərəf olduqları üçün sahələrindəki dəyişiklikləri və bu yeni dəyişiklikləri təlimatlarında necə təsirli şəkildə tətbiq etmək lazım olduğunu bilirlər. Təhsil əsl sinif yenilikləri üçün mübadilənin vacib və həyati bir sahədir. Müəllimlər problemləri həll etmək və uğurları bölüşmək üçün birlikdə işləyəndə tələbələr daha yaxşı nəticə göstərirlər. Yenilikçi müəllim həmişə digər müəllimlərlə birlikdə öyrəniləck mövzuları axtarır, biliklərini birgə bölüşürlər. Yenilikçi müəllimlərin öz prinsipləri var, güclü dəyərlərə söykənərək həyatı izləyirlər. Müxtəlif metodları bölüşürlər və təlim prosesinə fərqli yanaşırlar. Müəllim olmaq dünyanı yaxşılığa doğru dəyişdirməyin ən yaxşı yoludur və onlar bunu yüksək qiymətləndirirlər. Tələbələri üçün daima nümunə olmağa çalışırlar.

Açar sözlər: fərdiləşdirmə, əməkdaşlıq, vizuallaşdırma, texnologiya vasitələri, texnoloji inkişaf, fəal təlim prosesi

Redaksiyaya daxil olma tarixi: 19.06.2019
Çapa qəbul olunma tarixi: 21.07.2019
Filologiya elmləri doktoru, professor Zenfira Məmmədova tərəfindən çapa tövsiyə olunmuşdur.

ƏFSANƏ YUSİFQIZI
Bakı Avrasiya Universiteti
Həsən Əliyev küçəsi, Bakı 1073
afsana@mail.ru

BÖYÜK BRİTANİYANIN TOPONİMLƏRİNİN YARANMASI XÜSUSİYYƏTLƏRİ

Xülasə

Coğrafi adlar hər şeydən əvvəl dil leksikasının vahidi olan sözlərdir. Hər bir söz dilin qrammatik qanunlarına əməl etdiyi kimi, bu hal coğrafi adlar üçün də belədir. Onıar xüsusi adlar adı altında lüğətdə toplanır. Burada qeyd etmək lazımdır ki, lüğətin bir hissəsini təşkil edən toponimlər xüsusi adlar olmasına baxmayaraq bir sıra xüsusiyyətləri ilə fərqlənir. Yazılı mənbələrdə və cari versiyalarda görünən yer adlarının növləri arasında ciddi fərqlər vardır. Bu fərqləri öyrənmək toponimin mənsub olduğu dilin lüğətində zamanla baş verən dəyişikliklərə baxmağa imkan verəcəkdir. Əslində toponimlər müəyyən bir ərazidə yaşayan insanların tarixini, dilini və mədəniyyətini özündə cəmləşdirən sosial-coğrafi vahidlərdir.

Tədqiqat göstərdi ki, Britaniya yer adlarının mürəkkəbliyi və müxtəlifliyi tarixən ölkədə bir çox xalqların məskunlaşması ilə əlaqədardır. Keltlər, Romalılar, Anglo-Saksonlar, Vikinqlər və Normanlar İngilis mədəniyyətinin və dilinin inkişafına təkcə töhfə verməmiş, eyni zamanda Britaniya adalarının toponimikasının formalaşmasına da təsir etmişlər.

Çox sayda dil mənbəyinin Britaniyadakı toponimlərin öyrənilməsinə mane olduğunu iddia etmək olar. Dil və mədəniyyətdəki dəyişikliklər nəticəsində coğrafi adların bir çox forması və mənaları təhrif edilmiş və ya tamamilə itirilmişdir.

Qeyd etmək lazımdır ki, təqdim olunan təsnifatlar ingilis toponimlərinin bütün spektrini əhatə edir, çünki onları həm təyin etdikləri obyekt tipinə görə, həm də elementlərinin yarandıqları morfoloji quruluşa və dil mənbələrinə görə qruplara bölmək olar. Öyrəndik ki, orijinal, müasir ingilis yer adları başqa beş dil mənbəyindən yaradılıb: Kelt, Latın, Skandinaviya, Qədim İngilis və Fransız. Bəzi hallarda bir İngilis toponimi müəyyən bir dil və tarixi dövrə aid olmayan elementlərdən ibarətdir. Belə hallarda müqayisəli tarixi analiz kimi daha dəqiq tədqiqat metodologiyası tələb olunur.

Açar sözlər: toponim, ingilis, coğrafi, toponomika, dilçilik

Bildiyimiz kimi, bütün növ xüsusi adları, onların inkişafı və işləmə qanunlarını öyrənən dilçilik bölməsi onomastika adlanır. Əvvəla, o, dilçilik elmi sayılır. Ancaq adlar ilə əlaqəli cisimlərin və adət-ənənələrin xüsusiyyətlərini müəyyən etmək üçün tarixi, coğrafi, mədəni, sosioloji və ədəbi komponentləri nəzərə almaq lazımdır. Hər hansı bir coğrafi adda müəyyən bir məzmun mövcud olub və ya mövcuddur. Adlandırma prosesi özünəməxsus milli və dil xüsusiyyətlərinə malik olan xalq sənətkarlığı prosesidir.

Onomastika çərçivəsində ayrıca bir elmi - toponomikanı ayırmaq olar. Toponomika coğrafi obyektlərin adlarını, mənşələrini, inkişaflarını, hazırkı vəziyyətlərini, yazılış və tələffüzünü ifadə edən xüsusi adları araşdırır. Müəyyən bir ərazinin toponimlərinin məcmuəsinə toponomika deyilir.(2, s.65)

Dünyanın xəritəsini diqqətlə öyrənməklə bütün coğrafi obyektlərin adlarının - qitələrin, okeanların, dənizlərin, göllərin, çayların, adaların, dağların, düzənliklərin, ölkələrin, şəhərlərin və s. haqqında heyrətamiz tarixin olduğuna əmin olmaq olar. Hər bir coğrafi ad - toponim müxtəlif, çox mürəkkəb tarixi, etimoloji, etnoqrafik, linqvistik, sosial məlumatlar daşıyır.

Toponimlərin dərk edilməsi problemləri, onları yaradan etnoslarla əlaqələrin müəyyənləşdirilməsi, əlaqəli və əlaqəsiz dillərin onların yaranmasında qarşılıqlı rolunun qiymətləndirilməsi, toponimlərin bir xalqdan digərinə keçid formalarının öyrənilməsi, təbiət həqiqətləri ilə əlaqəli coğrafi terminologiya və lüğətlərin təhlili hazırda ən aktual məsələlərdəndir.

Coğrafi adlar bəşəriyyətin mənəvi mədəniyyətinin ən qiymətli abidələridir. Toponimlərdə tarixi hadisələrin xatirələri qorunur, müəyyən bir dövrün mədəni və mənəvi dəyərləri, xalqların və şəxslərin qəhrəmanlığı əks olunur. "Toponimlər insanların münasibətinin, mədəniyyətinin, həyat tərzinin, adətlərinin, gündəlik mühitinin, psixoloji vəziyyətinin və ünsiyyətinin ifadəsidir" deyə G. Y. Ryliuk yazmışdır. (5, s. 7)

İngilis toponimlərində milli coğrafi terminlərin bütün zənginliyi qeyd olunur və eyni zamanda onlarda ölkələrin təhsil modellərinin müxtəlifliyini və toponimik vahidlərin spesifik quruluşunu müşahidə etmək olur. Bu məqalənin məqsədi toponimləri dil fenomeni kimi nəzərdən keçirmək, toponimlərin tipoloji tədqiqini aparmaq, toponimlərin problemlərini araşdırmaq və Böyük Britaniya toponimlərinin mənbəyinin hansı dilə mənsub olduğunu öyrənməkdir.

Toponim adətən coğrafi obyektin adını ifadə edən xüsusi addır. Dilçilikdə bu anlayış müxtəlif cəhətlərdən öyrənilir: birincisi, digər toponimlərə (V. A. Malışeva, O.T.Molchanova, I.N.Timoşçuk və s.) münasibətdə müəyyən bir toponimik sistemin elementi kimi və ikincisi, bütövlükdə dil sistemində digər dil vahidlərinə münasibətdə. S.İ.Ojeqov toponimi ayrı bir coğrafi yerin (qəsəbə, çay, torpaq və s.) xüsusi adı kimi müəyyənləşdirir. Oksford lüğətinə görə, toponim müəyyən bir coğrafi obyektin adıdır.

Ancaq bir toponimin tərifini bilmək toponimlərin təhlili aparmaq üçün kifayət deyil, buna görə də onların tipoloji təsnifatlarını nəzərə almaq lazımdır.

Böyük Britaniyanın coğrafi adları əsasən də dil və mədəniyyət dəyişiklikləri səbəbindən qeyri-adi dərəcədə zəngin və müxtəlifdir.

Böyük Britaniyanın toponimlərində köklərini ən azı beş fərqli xalqın - Keltlər, Romalılar, Anglo-Saksonlar, Skandinaviyalılar, Fransızların dillərindən götürən elementlər var. Bu xalqların hamısı ölkənin toponomikasına öz töhfələrini vermişlər və ingilis dilində yer adlarını bu günkü kimi formalaşdırmışlar.

Eramızdan əvvəl 400-350-ci illərdə İngilis adalarında Kelt dilləri geniş istifadə edilirdi. Beləliklə, bir çox İngilis yer adının tamamilə olmasa da, qismən Kelt mənşəli olduğuna inanılır. Kelt dilindən gələn toponimlər ilkin sayılır.(1, s.24)

Kelt yer adlarının ən çox sayı Britaniya Adalarının şimalında və qərbində (xüsusilə Uels və Kornvalda) müşahidə olunur. Kornvalda ümumi kelt elementləri *tre-, pen- və lan-* prefiksləridir. Uelsdə isə *llan* prefiksi. Kambriya əyalətində Kelt bölgəsinin adları ərazinin landşaft xüsusiyyətlərini (məsələn, Blencathra və Helvellyn dağları) əks etdirir. Keltlər Ehen və Cocker kimi bir çox çaya da ad vermişlər. Şimali Şotlandiyada toponimlərin elementləri Gael mənşəlidir, məsələn loch (göl təyinatı) və glen. Kelt elementlərinin və mənalarının bəzi nümunələri bunlardır: aber - çay ağzı, çay axını (Aberystwyth, Aberdyfi, Aberdeen, Aberuthven); coombe - aşağı dərə (Woolacombe, Doccombe); glen - dar dərə (Rutherglen, Glenarm, Corby Glen); lan, lhan, llan - kilsə; bir kilsə olduğu bir kənd (Lanteglos, Lhanbryde, Lanercost, Llanbedr Pont Steffan, Llanybydder, Llanwenog, Llannwnen); keth, cheth - meşə (Penketh, Culcheth).

Romalılardan cəmi 300-ə yaxın yer adı qalmışdır. Roma hökmranlığının sona çatmasından sonra Roma yaşayış yerləri dəyişdirilərək caster / chester şəkilçilərini almışlar. Yer adlarının qismən sağ qalan Roma elementi Uelsdə "pont" formasını almış pons (körpü) idi, məsələn Pontypridd, Pontypridd, Pontheugh. İngiltərədə bəzi yer adlarında strata (asfalt yol) latın sözündən əmələ gələn "street" elementi vardır, məsələn, Chester-le-Street, Spittal-in-the-Street, Streatham.

İngilis yer adlarının bəzi latın elementləri orta əsrlərdə mənimsənilmiş və affiks formasına malikdir. Magna və parva great / little əvəzinə istifadə olunur, məsələn, MagnaWigston Magna Appleby Magna, Appleby Parva, Wigston Parva.Digər əsas latın elementləri: colonia (-coln) - hərbi yaşayış məntəqəsi (Linkoln); porta (-port) - qapı (Stockport); fos, foss - kanal, ayaq (River Foss, Fangfoss); cum - "c" ön sözü (Salcott-cum-Virley, Cockshutt-cum-Petton)

Bizim eranın 449-cu ilində Anqlo, Sakson və Cutlar İngilis Adalarına yerləşməyə başladılar. Anglo-Saksonlar yeni ölkələrini Engaland (Anqllar ölkəsi), dillərini isə müasir alimlərin Köhnə İngilis və ya Anglo-Sakson adlandırdıqları Englisc adlandırdılar. Müasir İngilis dili köh-

nə İngilis dilindən birbaşa inkişaf etdiyinə görə, köhnə İngilis mənşəli toponimlər ilkin hesab olunur.(3, s. 91)

Norfolk və Suffolk mahallarında coğrafi xüsusiyyətlərin adlarının əksəriyyəti əvvəlcə Anglo-Saksonlar tərəfindən verilmişdir. Onların istifadə etdikləri köhnə İngilis sözləri çoxdur. Bunlardan ən çox yayılmış köhnə İngilis elementləri: bourne,burn - alov (Ashbourne, Blackburn, Bournemouth, Eastbourne); don, den, dun - təpə (Abingdon, Bredon, Willesden); ham - ferma (Rotherham, Newham, Nottingham); lea, ley, leigh (leah dən) - ağac və kollardan təmizlənmiş bir torpaq sahəsi (Barnsley, Hadleigh, Leigh); tun, ton - hasarlanmış yer, ferma (Tunstead, Brighton, Coniston); well- quyu, bulaq mənbəyi (Elmswell, Bakewell); weald, wold - meşə ilə örtülmüş bir təpə (Wealdstone, Stow-on-theold, Southwold).

Yer adlarının başqa bir mənbəyi Vikinqlərin danışdığı Köhnə Norveç Dili idi. Burada ən çox yayılmış Skandinaviya elementləri: bost - ferma (Leurbost); by - qəsəbə, kənd (Grimsby, Tenby); dalrdan 'm'l' g'lmi. dale - dərə, dərə (Rochdale, Saxondale, Airedale); firth - dar dəniz körfəzi, buxta (Burrafirth, Forth of Forth); gill, ghyll - dərə, dar yarğan (Gillamoor, Garrigill, Dungeon Ghyll); thwaite, twatt - yaşayış üçün kəsilmiş meşə, bir torpaq sahəsi (Huthwaite, Twatt); lundr, lund - meşə, bağ (Lundwood).

Normanlar İngiltərəni fəth etdikdən sonra (1066-cı ildə) bəzi coğrafi adlar, Greys Thurrock və ya Stoke Mandeville, Stanton Lacy və Newport Pagnell kimi yeni sahiblərini ifadə edən şəkilçilər və prefikslər əldə etdilər. Köhnə fransız dilinin Norman ləhcəsinin təsiri altında mövcud yer adları, məsələn, Chapel-en-le-Frith (Fr. Church-in-the, OE. Woods); Chester-le-Street kimi yalançı fransız adlarına çevrildi

Daha əvvəldə dediyimiz kimi, İngilis yer adları zəngin və müxtəlifdir və orijinal yer adları ilə yanaşı bir çoxu alınmadır. Bununla birlikdə, yer adlarının çoxsaylı forma və mənaları illərlə orijinal adların yox olmasına səbəb olan dil və mədəniyyətdəki dəyişikliklər səbəbindən təhrif edilmiş və ya tamamilə itirilmişdir. Bəzi hallarda bölgələrin adı kimi istifadə olunan sözlər dildən yoxa çıxmış və tamamilə istifadədən qalxmış və mənaları bu günə qədər qorunub saxlanılmamışdır.

İngiltərənin hər bölgəsində yer adlarının öz xüsusiyyətləri vardır. Aşağıda hər sahənin toponomikasını ayrıca nəzərdən keçirək.

1. *İngiltərə.*

İngiltərədəki əksər yer adları Köhnə İngilis dilindən gəlir. Toponimlərin tərkibində çox vaxt xüsusi adlar olur. Bunlar, ehtimal ki, adın yarandığı vaxt torpaq sahiblərinin adları idi. Şimal və şərqdə bir çox coğrafi adlar daha çox müvafiq adlar da daxil olmaqla Norveç mənşəlidir. Əsasən, Köhnə İngilis və Norveç yer adları 2 növ quruluşa malikdir: məskunlaşma, təsərrüfat və ya yer tipini göstərən müvafiq ad + affiks; təsərrüfat mənzərəsi + təsərrüfat və ya yaşayış məntəqəsini bildirən affiks. Wich, ton, vetçina, by, thorpe, stoke / stock ilə bitən yer adları bu tiplərə aiddir.(4, s.25)

Kornval əksərən qərb bölgələrindəki toponimlərin çox hissəsini təşkil edir, kornval dilindən gəlmişdir, məsələn Penzance kurort şəhəri, adı "müqəddəs papaq" mənasını verir. Konrvalın şərq hissəsinin toponimlərində köhnə İngilis dilinin daha güclü təsiri vardır.

İngiltərənin şimalında, xüsusən Yorkşir əyalətində ən çox yer adları Skandinaviya mənşəlidir. Beləliklə, Yorkşirin şimalında yerləşən Howe və Greenhow kəndlərinin adları köhnə norveç haugr sözündən götürülmüş, təpə və ya kurqan deməkdir.

2. Uels.

Uelsdəki toponimlərin əsas hissəsi kökünü llan- (kilsə), aber- (çayın ağzı), pen- (kape və ya təpə) və s. elementləri də daxil olmaqla valli dilindən götürür. İngiltərə ilə sərhəd boyunca köhnə İngilis mənşəli toponimlər müşahidə olunur, məsələn Wrexham şəhəri. Tarixən daha geniş İngilis dilində danışan Uelsin cənub sahilləri boyunca, Pontypool şəhərinin adı əvvəlcə Welsh olduğu və Pont-y-Pŵl şəklinə sahib olduğu bir çox yer adları İngilis dilində idi. Uelsdəki bir çox yerlərdə valli adları ilə əlaqəli olmayan alternativ İngilis adları vardır, məsələn, Newport

şəhəri ingilis dilində “yeni liman” adlanır, eni zamanda bu şəhərin valli adı Casnewydd "yeni qala" deməkdir; Swansea şəhərinin ingilis adı köhnə skandinaviyadan gəlir, "Svein adası" mənasını verir, eyni zamanda onun valli adı Abertawe isə "Tawe çayının ağzı" deməkdir.

Valli toponimləri insanlarla müqayisədə daha çox ərazinin təbii xüsusiyyətləri ilə əlaqələndirilir. Buna görə də, onlar əsasən çayları, təpələri, dərələri və s. təyin edən və təsvir edən elementlərlə xarakterizə olunurlar. Prefiks llan-la (kilsə) olan toponimlər bir istisnadır. Daha çox belə toponimlərin tərkibində kilsənin aid olduğu müqəddəsə işarə edən uyğun bir ad vardır. Belə ki, Llanfair şəhərinin mənası "Müqəddəs Mariya Kilsəsi"dir, çünki Mariyanın adı ingilis Mary sözündəndir, lakin valli dilindən Mair'dan bir elementə - fair çevrildi.

3. Şotlandiya.

Şotlandiya sahillərində və Orkney, Shetland və Hebrides ərazilərində toponimlər əsasən Skandinaviya mənşəlidir. Şimal Şotlandiyanın toponimlərinin Kelt kökləri olsa da, buradakı ərazilərin adları təbii xüsusiyyətlərini əks etdirir, glen- ("dərə") və inver- ("estuar, çayın qarışığı") prefiksləri ən çox yayılmışdır. Şotlandiyanın mərkəzi və şərq hissələrində toponimlərin dil mənbələri mənşəyi qarışıqdır. Goidel ailələri dillərinin toponimləri ilə yanaşı ingilis toponimləri də vardır. Xüsusilə qərb ovalığında toponimlərin əhəmiyyətli bir hissəsi, köhnə İngilis dilinin şimal ləhcəsindən gəlmişdir.

Ümumiyyətlə, Böyük Britaniyanın toponimləri müxtəlifdir. Ancaq hər bir bölgə üçün yalnız müəyyən bir əraziyə xas olan müəyyən elementləri ayırd etmək olar.

İstifadə edilmiş ədəbiyat:

1. Margaret Gelling, Keçmişə işarələr. Phillimore, 3-cü nəşr, 1997
2. İngilis antroponimlərinin formalaşması və tədqiqi. AMEA–nın Folklor İnstitutu, elmi axtarışlar № 5, 2009
3. K. Cameron, A Dictionary of British Place Names (2003).
4. A.D. Mills, A Dictionary of British Place Names, Oxford Paperback Reference (2003).
5. Рылюк Г. Я. Истоки географических названий Беларуси с основами общей топонимики: учеб. книга — пособие для преп. и студ. геогр. Минск: Веды, 1999. 247 с.

А. Юсифкизи

Особенности формирования топонимов в великобритании

Резюме

Географические названия - это прежде всего слова, которые являются единицей языковой лексики. Поскольку каждое слово подчиняется грамматическим законам языка, это верно для географических названий. Они собраны под лексикой под особыми именами. Здесь следует отметить, что топонимы, составляющие часть словаря, отличаются своими особенностями, хотя и являются особыми именами. Существуют значительные различия между типами топонимов, фигурирующих в письменных источниках, и текущими версиями. Изучение этих различий позволит нам просмотреть изменения, произошедшие с течением времени, в словаре языка, к которому принадлежит топоним. По сути, это социально-географические единицы, которые содержат историю, язык и культуру людей, живущих в определенной области.

Исследование показало, что сложность и разнообразие британской топонимики связано с тем, что исторически страна была заселена многими народами. Кельты, римляне, англосаксы, викинги и норманны не только способствовали развитию английской культуры и языка, но и повлияли на топонимику Британских островов.

Можно утверждать, что такое большое количество языковых источников препятствует изучению топонимов в Великобритании. В результате изменений в языке и

культуре многие формы и значения географических названий были искажены или полностью утрачены.

Следует отметить, что представленные классификации охватывают весь диапазон английских топонимов, поскольку их можно разделить на группы как по типу обозначаемых ими объектов, так и по морфологической структуре и по источникам языка, из которых происходят их элементы. Мы узнали, что в дополнение к оригинальным, современные английские топонимы были созданы из пяти других языковых источников: кельтский, латинский, скандинавский, древнеанглийский и французский. В некоторых случаях английский топоним состоит из элементов, которые не относятся к определенному языку и историческому периоду. В таких случаях требуется более точная методология исследования, например сравнительный исторический анализ.

Ключевые слова: топоним, английский, география, топономика, лингвистика

A.Yusifqizi

Features of the formation of toponyms in the UK

Summary

Geographical names are primarily words that are a unit of linguistic vocabulary. Since each word obeys the grammatical laws of the language, this is true for geographical names. They are collected under vocabulary under special names. It should be noted here that toponyms that make up part of the dictionary of the dictionary differ in their features, although they are special names. There are significant differences between the types of place names appearing in written sources and current versions. Studying these differences will allow us to view the changes that have occurred over time in the dictionary of the language to which the toponym belongs. In fact, these are socio-geographical units that contain the history, language and culture of people living in a particular area.The study showed that the complexity and diversity of British place names is due to the fact that historically the country was inhabited by many peoples. The Celts, Romans, Anglo-Saxons, Vikings and Normans not only contributed to the development of English culture and language, but also influenced the toponymy of the British Isles.

It can be argued that such a large number of language sources impedes the study of toponyms in the UK. As a result of changes in language and culture, many forms and meanings of geographical names have been distorted or completely lost.It should be noted that the presented classifications cover the entire range of English toponyms, since they can be divided into groups both according to the type of objects designated by them, and according to the morphological structure and language sources from which their elements originate. We learned that in addition to the original, modern English place names were created from five other language sources: Celtic, Latin, Scandinavian, Old English and French. In some cases, an English toponym consists of elements that do not belong to a particular language and historical period. In such cases, a more accurate research methodology, such as comparative historical analysis, is required.

Keywords: toponym, English, geography, toponomics, linguistics

Redaksiyaya daxil olma tarixi: 19.06.2019
Çapa qəbul olunma tarixi: 21.07.2019
Filologiya elmləri doktoru, dosent Svetlana Məmmədova tərəfindən çapa tövsiyə olunmuşdur.

SOLMAZ ƏLİZADƏ
ADU
Rəşid Behbudov, 134, Bakı, Nəsimi, AZ1014
aqaverdi@yandex.ru

DİLDƏ DİFTONQ PROBLEMİ

Xülasə

Məqalədə diftonq məsələsi araşdırılır. Bu məsələ ilə bağlı məşhur linqvistlərin fikirləri məqalədə öz əksini tapır. Məsələnin qoyuluşu göstərir ki, diftonq müxtəlif dillərdə uzun bir tarixə malikdir. Eləcə də məqalədə diftonqa nəzəri baxış araşdırılıb və onun üç tipindən bəhs olunub.

Danışıq səslərinin dildə nə qədər mühüm rol oynadığını nəzərə alaraq dildə diftonq məsələsinin qoyuluşu, onların funksiyası araşdırılmışdır. Araşdırmadan aydın olur ki, diftonq məsələsi dilçilikdə mübahisəlidir. Diftonqlar müxtəlif dillərin materialları əsasında nəzərdən keçirilmişdir. Araşdırmada diftonqların bir sıra problemlərinə aydınlıq gətirilmişdir. Diftonqların tələffüz problemləri də diqqətdə saxlanmışdır. Məqalədə istifadə olunan fikirlər xarici dilin öyrənilməsində diftonqların düzgün tələffüzü üçün əhəmiyyətlidir.

Danışıq səslərinin dildənəqədər mühüm rol oynadığını nəzərəalaraq dildə diftonq məsələsinin qoyuluşu, onların funksiyasını öyrənmək həmişə əhəmiyyət kəsb etmişdir. Diftonq məsələsi dilçilikdəmübahisəlidir, çünki diftonqlar araşdırılarkən diftonqların bir sıra problemlərinə aydınlıq gətirmək zərurəti meydana çıxır.

Açar sözlər: diftonq, fonem, sait inventarı, açıq diftonq, morfem, monoftonq, qapalı diftonq

F.de. Sössür dil (langue) və danışıq (parole) qarşılaşmasından çıxış edərək dili daimi, sistemli vəbir-birinə qarşı qoyulan vahidlərin məcmusu kimi götürür, danışığa isə keçici və daim hərəkətdə olan və dilçiliyin bilavasitəmüşahidəedə bildiyi yeganəgerçəklik kimi yanaşır (8).

Q. Ələkbərli fonemi danışıq səsinin mahiyyəti, danışıq səslərində obyektiv mövcud olan ümuminin, səslərin daxili əsasını təşkil edən, onların daxili əlaqələrini və mövqe dəyişikliklərinin qanunauyğunluqlarının təmsilçisi kimi vermişdir. Bu alimin fikrincə,fonem anlamımızda danışıq səsləri kimi əks olunur və burada o, səsi hecanın,fonemi isə morfemin tərkib hissəsi kimi götürür (12).

L. V. Şerba göstərmişdir ki, diftonqun həqiqi və yalançı deyilən iki növü vardır (9).

M. I. Matuseviç ,,Ümumi fonetikaya giriş"əsərində göstərir ki, diftonqlar mürəkkəb məxrəcli saitlərin xüsusi kateqoriyasıdır,diftonq bir sait birləşməsini əmələgətirərək, başqa sait ünsüründəqurtarır.

M.I.Matuseviç həqiqi diftonqları bu cür izah edir:,, Həqiqi diftonqların hər iki elementi eyni dərəcədəgərgin və heca düzəltməkdəbərabər hüquqlu olurlar. Yalançı diftonqlar isə onunla fərqlənirlər ki, onlar da əsas, yəni heca düzəldən ünsürlərdən biri olur ki, o da beləliklə, hecanın zirvəsində dayanır. İkinci ünsür birinci ünsürləmüqayisədəqeyri-gərgindir vəbərabər hüquqlu deyil, tamamlayıcı kimidir" (11,80-83).

Nəhayət, M. I. Matuseviç yalançı diftonqun da iki növünü göstərir: enən və qalxan diftonqlar. Diftonqun bu növləri də aşağıdakı kimi izah olunur: ,,Enən və yaxud düşən diftonqlar birinci hecadüzəldən ünsürlü diftonqlara deyilir, gərginlik əvvəl güclü olur, sonra isə zəifləyir.

Qalxan diftonqlar ikinci hecadüzəldən ünsürlü diftonqlara deyilir, halbuki, birinci ünsür səsin sanki sürüşkən başlanğıcı olur" (11,79-82).

L. R. Zinderin „Ümumi fonetika" əsərindədətəxminən eyni izahata rast gəlmək mümkündür. Hər iki əsəri nəzərdən keçirdikdəməlum olur ki, diftonqun əsas əlaməti iki müxtəlif cinsli saitin bir heca daxilində tələffüz olunmasıdır (10). Onu da qeyd etmək lazımdır ki, belə fikirlərəE. Sivers, H.Sivit, Y. Vaxek kimi məşhur dilçilərin vətədqiqatçıların araşdırmalarında da rast gəlmək mümkündür (7).

Məşhur Azərbaycan dilçisi Ə.M. DəmirçizadəAzərbaycan dilindəki diftonqlaşma hadisəsinə xüsusiönəm vermişdir. Müəllif göstərmişdir ki, bu hadisəAzərbaycan dilində ‹‹ö"və ‹‹o" saitlərindən sonra gələn‹‹v" samitinin söz ortasında işlənərkən öz samitlik keyfiyyətinin tamamilə itirib saitləşməsi ilə bağlıdır[1]. „V" samitinin saitləşməsi nəticəsindəAzərbaycan dilində iki diftonq, daha doğrusu, diftonqoid yaranır; başqa sözlə, diftonqlaşma hadisəsi baş verir. Diftonqlaşma hadisəsi nəticəsindəAzərbaycan dilində yaranan diftonqlar bunlardır: ‹‹öy, oy". Bunlardan birincisi incə,ikincisi isə qalın saitlərdən ibarətdir və uyğun surətdə incə və qalın saitlərə daxil olurlar."Öy" diftonqunun tələffüzü zamanı dil gərginləşərək, irəli çəkilir, dilin ucu alt ön dişlərin ucuna toxunur. Dodaqlar isədairəviləşərək azca irəli verilir. Danışıq üzvlərinin bu vəziyyətindədeyilən saitin tələffüzü qurtarmamış, dilin ucu alt ön dişlərin yuvaqlarına enir, ön və orta hissəsi sərt damağa doğru qalxır. Dodaqlar da öz növbəsində daha da gərginləşərək irəli çəkilməklə, onların əmələ gətirdiyi boruşəkilli nov daha da daralır. Belə bir mürəkkəb dəyişkən məxrəc şəraitində dodaqların əmələ gətirdiyi novdan çıxan musiqili tonu olan hava axını özü cütavazlı sait kimi səslənir (1,37-40).

Beləliklə,"öy" diftonqu Azərbaycan dilində enən cütavazlı ön sıra saitikimi səciyyələndirilə bilər. "Öu" cütavazlı saitinin birinci komponenti açıq, dodaqlanan, ön sıra saiti, ikinci komponenti isə qapalı, dodaqlanan, ön sıra saitindən ibarətdir. Başqa sözlə, həmin diftonqun komponentləri arasında bircə fərq vardır ki, o da birincinin, yəni nüvə hissəsinin açıq, ikincinin, yəni sürüşkən hissəsinin qapalı olmasından ibarətdir.Beləliklə,dilin şaquli vəziyyətinə görə"öu" diftonqu, eyni zamanda, açıq-qapalı ön sıra saiti kimi izah edilə bilər.

"Öu" diftoqnunun akustik xüsusiyyətlərinə gəldikdə, burada bir sıra maraqlı cəhətlərlə qarşılamaq mümkündür. Məsələn, /növbə/ sözündə işlənən "öu" diftonqu başlanğıcdan sonra getdikcə güclənir. Bundan başqa o "öe" qalın korrelyatı olan "öu" diftonqundan bir qədər böyük olmasına baxmayaraq, ekskursiya mərhələsində xeyli zəifdir. "öv" hərf birləşməsi ilə qurtaran sözlərdə də diftonqlaşma hadisəsi baş verir (4).

F. Veysəlli göstərir ki, Azərbaycan dilinin saitlər, saitlər tərkibi və sistemi barədədanışılarkən Azərbaycan dili üçün səciyyəvi olan qısa saitlərdən bəhs ediləcəkdir. Saitlərin uzun tələffüzü əsasən alınma sözlərdə, həm də bu sözlərin vurğudan əvvəlki hecasında olur. Məs., /n i.z ə/, /ʃ ö.l ə/,/ə.l a/, /e.l a n/, /a.d i l/ və s. (2)

Bu saitlərin heç biri sözdə maksimum fərqlənmə mövqeyində, yəni vurğulu hecada gələ bilmir. Onların təkhecalı sözlərdə işlənməsinə gəlincə (məs. maaş, saat və s. kimi sözlərdə) deməliyik ki, bu sözlərin heç biri adi danışıqda uzun saitlədeyilmir. Digər tərəfdən bu saitlərin heç biri dilimizdə morfem göstəricisi kimi çıxış etmir və eyni morfem daxilində əvəzlənmədə iştirak etmir. Məhz buna görədə biz onları müvafiq fonemlərin uzunlaşan variantları hesab edirik. Fonem isəhəm mövqedən asılı, həm də mövqe ilə bağlı olmayan variantlarda çıxış edən, birbaşa, ya da potensiyada məna daşıyan, söz və söz formalarını fərqləndirməyə xidmət edən müstəqil dil vahididir. Onlar fərqləndirmə funksiyasını öz variantları, bunların canlı danışıqda təmsilçiləri olan səslər vasitəsiləhəyata keçirirlər (2,142-145).

Azərbaycan dilində söz daxilində vurğusuz hecaların, zəifləməsi, reduksiyaya uğraması adi hal olduğundan „sait+samit" və „samit"+sait" ardıcıllığı pozulur və bunun da nəticəsində diftonqa bənzər səs birləşmələrinə (diftonqoidə) təsadüf edilir.Məsələn, /douɤa/, bəzən isə /tüox/, /douʃan/ bəzən isə /doʃʃan/ /gaʃov/ və ya /gasou/ bəzən isə /gaʃo:/ və s.

Məsələnin fonoloji həlli müxtəlif səviyyələr qarışdırıldığından dolaşıqlığa düşür. Müəllif daha sonra qeyd edir ki, Azərbaycan dilində /bəzən/ və /bəzən/+/mək/ və ya /sat/+/maq/ və /sa.t/ cütlərini qarşılaşdırmaqla /ə/ və /ə!/ və ya/a/ və /a!/ saitlərinin müxtəlif fonemlər olduğunu söyləmək ən azı linqivistik naşılıqdır, çünki bu misallar müxtəlif dil yaruslarına aiddir. Birinci halda əmr cümləsindən, ikinci halda isə leksemlərdən söhbət gedir. Dilin təsvirində diatopik/sintopik, diastratik/sinstratik və diafatik/sintaktik qarşılaşmalarını gözləməliyik. Biz sinxronik təsvirlə diaxronik təsviri qarışdıra bilmədiyimiz kimi, bütöv dil sistemini onun ayrı-ayrı layları, eləcə də vahid məkanda ədəbi dili dialektlərləvəyüksək üslubu digər çoxsahəli üslublarla qarışdıra bilmərik (2).

Yuxarıda verilmiş misallar başqa-başqa üslublara aiddir. Birincisi ədəbi dilə /dovʃan, dovɤa/, /qaʃov/, /toujux/), ikincisi danışıq dilinə (/do,ɤa, doʃan, gaʃo, to.ux/), üçüncüsü isə dialekt vəbölgələrə (/douvʃan/ /toux/, /gaʃou, douʃan/) aid olduğundan onları eyni meyarlarla dəyərləndirə bilmərik.

Diftonqları olan alman və ingilis dillərində diftonqlar həmişə bir morfemin daxilində çıxış edir, morfem sərhədilə onlar komponentlərinə parçalanmır, bir morfem daxilində başqa morfem və ya monoftonqla əvəz oluna bilirlər.Müq. et:

İngilis dili	alman dili
“sight” = /s a i t/, /s a i t^{+}s/	“Haus” = /ˈh a͡o s/, /ˈh ɔ͡ø zə ʀ/
“covard” = /k o i a r d/	“heiß” = /ˈh æ s/, /ˈh æ s ə ʀ/
“take” = /t e i k/, /t u k/	“schreiben” = /ˈʃ r æ b ə n/-/ˈʃ r i:p/ və s.

Rus dilində bir söz daxilində iki sait yanbayan gəlsədə, onlar morfoloji sərhədlə bir-birindən ayrılırlar. Məsələn, „nauqad”= /na+ugat/, „na:uʃnik” = /na+uʃ+nik/ və s. Rus dilində “pauza” kimi alınma sözlər etimon dilin tələffüz xüsusiyyətlərini qismən saxlayır, ancaq rus dilində bu iki müxtəlif saitin bir sözdəişlənməsidir.

Yuxarıda söylənənləri nəzərə alaraq dilimizdə diftonqların olması fikrini qəbul etmək mümkün deyildir. Biz dilimizdədiftonqabənzər səs birləşmələrinin və ya diftonqoidlərin reallaşmasını istisna etmirik (2,141-148).

Aydın, anlaşılan artikulasiya və eksplisit səslənmə zamanı hecanın nüvəsi dəqiq bir saitdən ibarət olur. Ancaq bunun əksini təşkil edən formalar da mövcuddur. Heca nüvəsindəvə heca kənarında bəzi səslər də çıxış edəbilir. O,səsləri diftonqoid adlandırırlar. Bu səslər saitlərə çox oxşardırlar vəözlərini diftonq mahiyyətindəsaitlə sıx birləşdirir, bağlayırlar, buna isə alman dilində bəzən qoşa səslər deyilir. Diftonqlar çox zaman saitlər inventarına bir bütöv kimi daxil edilirlər.

Diftonqların iki qrupu fərqləndirilir: qalxan vəenən. Qalxan diftonqlar müstəsna olaraq, öz spesifikliyi ilə seçilir vəəsasən əcnəbi sözlərdəolurlar. Məsələn, Guano, Suada, Region, Union, speziell,sozial və Duell.

Alman dilindəbelə diftonqların nədərəcədəvənəqədər müəyyənləşdirilməsi məsələsi və onların sistemə nədərəcədə daxil edilməsi haqqında qəti qərar vermək çətin məsələdir və bu problem hələmübahisəli olaraq qalmaqdadır.

Aşağıdakı hallarda onlar hecalara bölünməyən, hecalanmayan saitlərin ardıcıllığı kimi təsvir olunur. Məsələn, [u] və yaxud [i] və hecaya bölünən, hecalanan saitlər, məsələn, /a/, /o/ və yaxud /Ɛ/ kimi təsvir olunur.

Transkripsiya təxminən /ˋg u ˊa: n o./ və /R e. ˊg i o: n/ kimi verilir. Enən diftonqlarda hecalanmayan, hecaya bölünməyən saitlər heca nüvəsinin tərkib hissəsi kimi deyil, həm də başlanğıc mərhələ kimi nəzərdən keçirilir, çünki onlar açılır.

Hecaya bölünməyən, hecalanmayan (nicht silbische Vokale) saitləri həm də yarım saitlər (Halbvokale) adlandırırlar. Onlara samit kimi nəzər yetirdikdə, bu zaman onları sürüşkən saitlər (Gleitlaute) və yaxud aproksimantlar adlandırırlar (6).

Alman dilində üç enən diftonq daxili söz ehtiyatının, lüğət fondunun sabit, dəyişməz tərkib hissəsidir. Məsələn, /ˈm æ/, /ˈh ɔ v/, /ˈf ʀa̯o/ (Frau). Onlarda birinci tərkib hissə heca nüvəsini təşkil edir, bu zaman ikinci komponent isəzəif və vurğusuz olur.

Konjunktiv II və Konjunktiv I-in fərqləndirilməsinə misal olaraq qapalı /e/ açıq /e/-dən fərqləndirilməsinədiqqət yetirsək bəzi anlaşılmaz məsələlərə aydınlıq gətirmək olar. Məsələn, /ˈn e: m ə/-/n æ: m ə/ (Sie nehmen, nähme-nähme) eynilə(gabe-gäbe, sehe-sähe) və s. kimi misallar vermək mümkündür.

/æ/ burada /a/-nın umlautlu formasıdır (nahm-nähme). Ardıcıl olaraq [e:] səsi [Ɛ:]-nın umlautu kimi çıxış edir. Məsələn, /ˈf a: t ə ʀ/- /ˈf e: t ə ʀ/ (Vater- Väter). Burada /æ/ /e/-yə opozisiyada olmur, ancaq yalnız [a]- ya opozisiya təşkil edir. Buna görədə standart səslənmədə/e/ ilə /æ/ arasında rəqabət yaranır. Bu ona gətirib çıxarır ki, yarım açıq /Ɛ:/ standart kimi çıxış edir. Son dövrlərdə/f æ: t e/ və/ˈf Ɛ: t ə/ və /ˈf e: t e/ deyiliş formaları Şimali Almaniyada üstünlük təşkil edir.

Alman dilində qalxan diftonqlar məsələsi dədilçiliyin maraqlı məsələlərindəndir.Lüğət fondunda mövcud olmayan (iştirak etməyən) bir sıra qalxan diftonqlar vardır ki, onlar standart səslənməyə inteqrasiya ediliblər. Bunlara hər şeydən əvvəl /e i/ diftonqunu aid etmək olar.

Məsələn, /l a d y/, /l e i d i/,(playoff) [p l e j ɔ c f] və /o u/ [Ş ow] (5).

Enən diftonqlar məsələsi dədiqqətçəkən problemlərdəndir.Enən diftonqlarda elə sürüşkən səslərə rast gəlmək mümkündür ki, onlar heca düzəldən, hecalı (silbige) saitlər kimi təsvir edilirlər. Məsələn, /R e.ˈg i o: n/, /l eˈg u a:n/,

/l e g u a n/ və s. Bu sürüşkən səslər (Gleitlaute) əksərən cingiltili frikativ kimi tələffüz edilir. Məsələn, /R e g i o: n/. Heca düzəldən element və nüvə son səs arasında qarşılıqlı əlaqələr zamanı, heca nüvəsinin yazılışı zamanı meydana gəlir.

Ədəbiyyat

1. Ə. Dəmirçizadə. Müasir Azərbaycan dili. Fonetika, orfoepiya, orfoqrafiya, Şərq-Qərb, 2007
2. F. Y. Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005
3. M. Hüseynzadə. Müasir Azərbaycan dili Bakı, 1954
4. Ə.M.Dəmirçizadə. Azərbaycan dili orfoepiyasının əsasları. Bakı , 1960
5. Studienbuch Linguistik. 3. unveränderte Auflage, Niemeyer Verlag, Tübingen 1996
6. Gabriele Graefen. Germanistische Sprachwissenschaft. 2. Auflage Tübingen, 2012
7. E. Sivers. Grundzüge der Phonetik (zur Einführung indas Studium der Lautlehre der Indogermanischen Sprachen). Leipzig, 5. verbesserte Auflage, 1901
8. F. de. Saussure. Grundfragen der allgemeinen Sprachwissenschaft. 2. Auflage, Berlin, 1967
9. Л. В. Щерба. Языковая система и речевая деятелъностъ. М., 1974
10. Л. Р. Зиндер. Обшая фонетика. М., Высщая школа, 1979
11. М. И. Матусевич. Введение в общую фонетику, М., 1959
12. Г.Алекберли. Ударение в азербайджанском ирусском языках. М., 194.

S.C.Alizade

Some aspects of the diphthongs in the language

Summary

This article deals with the diphthong issue. The opinions of the autstanding linguists on this issue are expressed in this article and these significant thoughts are referred to.

The propounding of the diphthong issue in different system languages is talked about in this article. There the diphfhongization is viewed as a language issue. The falling and rising diphthongs are also mentioned and some interesting information is given about how some diphthongs entered to the language system.

Diphthongs were studied given their importance in speaking. And also their functions were analyzed. From the study it was found that there are many controversial issues in linguistics in connection with diphthongs. Diphthongs were considered on the material of different languages. It turned out some problematic issues diphthongs. The pronunciation diphthong issues were also taken into account. The views used in the article are also useful for the correct pronunciation of diphthongs in the study of foreign languages.

Find out how to play an important role in writing. To be honest, there is a lot of functionality in the image. dir The problem is Diptona - linguistics is used until we find out the differential equations. This is a problem in other areas

С.Дж Ализаде.

Проблема дифтонга в языке

Резюме

В настоящей статъе речъ идет о дифтонгах. В ней находит отражение мнение известных лингивистов. Постановка проблемы дифтонгов в разных языках имеет дилинную историю. В ней также подчеркъвается,что в теоретическом смысле различают три типа дифтонгов: восходящих,насходящий и ровнокомпонентный.

Были изучены дифтонги учитывая их важность в разговорной речи. А так же были анализированы их функции. Из исследования были выяснены, что имеются многие спорные вопросы в лингвистике в связи с дифтонгами. Дифтонги были рассмотрены на материале разных языков.

Выяснились некоторые проблемные вопросы дифтонгов. Так же был во внимание вопросы произношение дифтонгов. Использованные взгляды в статье так же полезны для правильного произношения дифтонгов при изучении иностранных языков.

Важно отметить, что говорящие играют важную роль в языке. Рост, изучение их функциональности имело большое значение. реж. Проблема Диптона - лингвистика, в то время как различные дифтонги исследуются. Это в области прояснения других проблем с глазами

Redaksiyaya daxil olma tarixi: 19.06.2019
Çapa qəbul olunma tarixi: 21.07.2019
Filologiya elmləri doktoru, professor Fəxrəddin Veysəlli tərəfindən çapa tövsiyə olunmuşdur.

GÜNAY MƏHƏRRƏMOVA
Azərbaycan Dövlət Dənizçilik Akademiyası
Zərifə Əliyeva 18.Bakı.
Günay.@.com.ru.

AMERİKA İNGİLİSCƏSİNDƏ NEOLOGİZMLƏRİN LEKSİK-SEMANTİK VƏ ÜSLUBİ XÜSUSİYYƏTLƏRİ

Xülasə

Üç əsrdən daha çox bir müddətdə Amerika lüğət tərkibi Britaniya (İngilis) lüğət fondundan tam və ya qismən asılı olaraq inkişaf etmiş və yaranmış yeni mühitin də bu lüğət fondunun inkişafına böyük təsiri olmuşdur.

İngiltərədə "to advocate" (vəkillik etmək), to placate (plakat çəkmək), "to antogonize" (ziddiyyət yaratmaq) terminlərinə qarşı ədəbiyyatçılar 19-cu əsrdə müharibə elan etmişlər. Çünki bu sözlərin yerli hinduların dilindən götürüldüyü güman edilirdi. Lakin "amerikanizm"ə daxil olan bütün sözləri Amerikanın yerli əhalisi hinduların dilindən hazır şəkildə götürüldüyünü demək də düzgün olmazdı. Elə sözlər var ki, onlar amerikan həyat tərzini və əşyanı adlandırmaq üçün verilən terminlərdir. Məsələn, hamıya tanış olan "telephone" (telefon), "photograph" (fotoqraf) və s.bəzi başqa sözlərin köklərinin "amerikanizm" olduğu bəllidir. Məsələn, "to lunch" (cəzalandırmaq), "jazz" (caz) və s. Bəzən isə yaranmış söz hamı tərəfindən qəbul edilərək, başa düşüldükdən sonra adiləşir. Məsələn, "hue və hue and cry" (hay-küy) sözlərindəki "hue" (rəng) sözünün mənası artıq "hue və cry" sözündəki "hay-küy" mənasını vermir. Yaxud "meat" (ət) sözü "One man`s meat is another man`s posion" atalar sözündə "sweet meat" (yemək) mənasında, yəni "birinin cörəyi-əti o biri üçün zəhərdir" – mənasında işlənir. Bəzən yeni terminlər siyasi məqsədlər üçün yaradılır və dildə də uzun müddət işlədilir. Məsələn, "superdövlətlər" olan Birləşmiş Ştatlar və Sovetlər İttifaqı (dağılmazdan əvvəl) bəzi müstəmləkə zülmündən azad olmuş ölkələri "Third World" (Üçüncü Dünya) ölkələri, yaxud "underdeveloped" (inkişaf etməkdə olan) ölkələr adlandırmışlar. Bu dövrdə "rat-race" (yavaş sürətli yarış), "consolium" (məsləhət, məşvərət), "confrontation" (qarşıdruma), "update" (hazırkı) və s. kimi terminlər yaradılır.

Açar sözlər: amerika ingilis dili, lüğət fondu, yeni sözlər, müqayisə, leksika.

Elə yeni sözlər, terminlər meydana çıxır ki, onların əksəriyyəti demək olar ki, müəyyən şeylərə verilən ad kimi üzə çıxır, yaranır. Məsələn, "a bubble car" (avtomobil) termini maşının yuxarı hissəsi, damı plastmas materialdan düzəldilmişdir, həm də köpüyə bənzədiyi üçün bu maşına həmin ad "a bubble car" köpük maşını adı verilmişdir. Məsələn, "paper pack" (kağız torbacıq) termini də öz mənasını məhz aid olduğu şeydən almışdır. Belə ki, əvvəllər mağazadan kitab alan zaman həmin kitabı kağız torbacıqda bükün verərmişlərmiş, sonralar isə bu hadisə getdikcə yayılmış, təkcə kitab deyil, başqa şeyləri də kağız torbacıqları büküb verirlərmiş ki, həmin termini "kağız torbacıq" mənasını daşımışdır. (1-s.215)

Yeni söz və terminlərin yaranması və məna dəyişiklikləri demək olar ki, 1960-1980-ci illərdə aparılmış statistik məlumatlara əsasən (bu dövrdə çoxlu kitab və jurnallar nəşr olunmuşdur ki, bunlarda da heç şübhəsiz, xeyli sözlər və mənalar öz əksini tapmışdır) tədqiq olunmuşdur.

Hər hansı bir sözün strukturu, yaxud mənası Britaniya ingiliscəsinə oxşamadığı halda, dərhal onu "amerikanizm" adlandırmaq səhv olardı. Bu məsələdə də israfçılıqdan yan keçə bilmə-

yənlər "amerikanizm" hesab olunan sözlərə qarşı müəyyən dövlərdə mübarizə aparmışlar. Ancaq süni vasitə və üsullar dilin təbii inkişafının qarşısını ala bilməmişdir.

Amerikan ingiliscəsində yenis sözlərin yaranmasına təkcə yeni texnika deyil, həmçinin də yeni texnoloji dəyişikliklər zəmin yaratmışdır. Məsələn "gasoline" (benzin), "alcohol" (alkoqol, spirt) terminlərinin yaranması ilə əlaqədar bunlara aid oxlu derivativlər meydana gəlmişdir. Adamların benzinə, yaxud spirtə olan tələbatı ilə də ya da benzinin, spirtin qiymətinin qalxıb-düşməsi ilə əlaqədar terminlər yaranmışdır. Belə texnoloji dəyişikliyə dair terminlər (təyyarə və avtomobillərdə qəza və digər təhlükəsizlik texnikası ilə əlaqədar terminlər, İkinci Dünya Müharibəsi zamanı yaranmış terminlər sə s.) artırmaq da olar.

"Computer" (kompyüter, sayğac) sözü hələ İkinci Dünya Müharibəsindən əvvəl İctimaiyyətə "sayan adam" mənasında "to compute" kimi məlum idi. Hazırda həmin söz "sayan maşın" mənasında istər böyük "mainframe", yaxud kiçik "micro-computer"-lə əlaqədar çoxlu yeni sözlər, ifadələr meydana gəlir. Leksikoqrafların fikrincə, ingilis dilinin lüğət tərkibi öz tarixində heç bir zaman 20-ci əsrdəki kimi çoxlu dəyişikliyə məruz qalmamışdır. Bütün bunların başlıca səbəbi Birləşmiş Ştatlarda yeni sözlərin yaranması, bu ölkədə əsas etibarilə texnologiya və elmin inkişafı ilə bağlıdı. Əlbəttə, Amerikan ingiliscəsində nə qədər təmiz söz olduğunu (yəni Amerikan ingiliscəsinin məhz özünü sözləri) heç kəs deyə bilməz. Hətta onu da demək mümkün deyil ki, Amerikan ingiliscəsində say etibarilə nə qədər söz var. Son zamanlar buraxılmış Amerikan ingiliscəsinə dair bir sıra lüğət kitablarının köməyi ilə sözlərin yaranması ilə əmələ gəlmiş dəyişiklikləri müqayisə edərək aydınlaşdırmaq mümkündür. Amerikan ingiliscəsinin lüğət tərkibindəki sözlərin say etibarilə nə qədər artdığını Veboterin lüğətinə baxdıqda görə bilərik. Amerikan söz və ifadələri artıq dildə hiss olunmaq dərəcəsinə gəldiyi zamandan etibarən "amerikanizm" haqqında mübahisələr başlandı. Əvvəlcə ingilislər amerikanlıları ingilis dilini təkrar etməkdə, on yeddinci əsrdə İngiltərədə işlənmiş sonra isə arxaikləşmiş və dilin lüğət tərkibindən çıxmış sözləri yeni "amerikanizm"-lər adı altında götürülüb nitqdə işlətmələri üstündə tənqid etməyə başlamışlar. (2-s.46-49)

Sonralar ingilis tənqidçiləri sakitləşən kimi amerikalılar özlərini müdafiə etməyə, həm də bütün amerikalıları dillərinin təmizliyi uğrunda mübarizə aparmağa çağırdılar. İngilislərlə amerikalıların bu mübahisəsi bütün on doqquzuncu əsrdən indiyə qədər davam etməkdədir.

Qeyd olunduğu kimi, "Amerikanizm" sözünü ilk dəfə termin kimi işlədən şəxs Con Vinderspun olmuşdur. O, ilk dəfə bu sözü termin kimi ən yuxarı təbəqədə, təhsil sistemində, alimlər arasında ingilis dilindən fərqli bir ifadə kimi işlətmiş və həmin sözün lüğət tərkibində özünə yer tutması üçün yazmışdır: "Amerikanizm" sözü mənim dediyim, tələffüz etdiyim şəkildə, yaranışına, ifadə funksiyasına görə "Skotizm" (Şotlandiya dili) yaranması ilə eynidir. Əgər bir şotland özünün ingilis olmadığını bilirsə və öz dilinin də "şotland dili" olduğunu başa düşürsə, ingilis dilinin qayda-qanunlarını şotland dilininki hesab etmirsə, mən də deyirəm, "amerikanizm" də onun kimidir. Amerika Birləşmiş Ştatlarını o dövrdəki prezidenti Cefferson həmin mübahisə ilə əlaqədar demişdir: "Hər sözdən ötrü hay-küy qaldırmaq lazım deyil. Biz yeni sözlərin yaranmasına, nitqdə işlənməsinə etiraz etmirik. Lakin ingilis dilini, London dilini, onların ayrıca dövlətləri olduğu kimi bizim dilimiz ingilis dilindən tamamilə fərqlənincəyədək işlədəcəyik. Bəli, mən etiraz edirəm, lakim arzum budur ki, bizim dilimizin elə imkanı olsun ki, arxaikləşmiş, lakin bizim başa düşdüyümüz sözlərlər birlikdə yeni ifadələr yaratmağa imkan olsun". Amerika Birləşmiş Ştatlarında ilk "amerikanizmlər" lüğəti 1816-cı ildə Con Fikkerin rəhbərliyi altında Amerika Birləşmiş Ştatlarında çox işlənən söz və ifadələrin lüğəti" adı ilə çap olunmuşdur. Con Fikkerin lüğətin girişində göstərir ki, o, həmvətənlərinə ölkəsinin dilinin saflaşdırmaq arzusu ilə bu lüğəti hazırlayıb. Onun bu təşəbbüsünü bütün dünyada öz "Vebster" lüğəti ilə məşhur olan Noah Vebster onun haqqında bir az geniş danışmaq qərarına gəlir. Noah Vebster deyirdi ki, yeni sözlər (o, "amerikanizm"ləri nəzərdə tuturdu) ingilislərin icazəsi olmadan da yaranacaqdır, çünki artıq mübarizə başlanmışdır.

Daha mükəmməl "amerikanizm"lər lüğəti 1848-ci ildə Con Bartlet tərəfindən çap edildi. Müəllif üç ilə Meksika ərazisi ilə sərhəddə işləmiş və bu müddət ərzində sərhəd həyatından topladığı yeni sözləri lüğətə daxil etmişdir. Bilyam Dnin habelə yazırdı: "Bizim romançılar çalışırlar bütün epizodları amerikanca yazsınlar. Eybi yoxdur, yazsınlar. Çünki onlar da Amerikada doğulublar, indi onların növbəsidir. Amma mən istərdim ki, onların qəhrəmanları düzgün amerikan variantında danışsınlar, yəni tennensiyalı, bostonlu, filadelfiyalı kimi öz dialektlərində danışsınlar, Nyu York aksentində danışsınlar. "Amerikanizm"lərin hətta ayrıca "Amerika dili"nin olması üçün həddindən artıq fəaliyyət gsötərən hazırda bütün dünya ölkələrində məşhur olan "Vebster lüğətləri" –nin yaradıcısı və müəllifi olmuş Noah Vesbterin böyük zəhməti olmuşdur. Xarici dil mütəxəssisləri, daha doğrusu, ingilis dilini öyrədənlər, onun leksikologiya, leksikoqrafiya və eləcə də lüğət ilə məşğul olan hər bir şəxs üçün Noah Vebster haqqında məlumata malik olmaq çox maraqlı olardı. Çünki dünyanın elə bir kitabxanası, kitab mağazası yoxdur ki, orada "Vebster" ingilis dili lüğəti olmasın. Amma həmin lüğətlərdə də Vebsterin şəxsiyyəti, tərcümeyi-halı haqqında heç bir məlumat yoxdur.

İngilis variantologiyası üzrə çalışan ölkəmizin və xarici ölkələrin linqvistləri ərazi variantlarında müxtəlif dil səviyyələrində oxşarlıq və fərqlərin meydana gəlməsi, variyantların birbirinə qarşılıqlı təsiri, ingilisdilli ölkələrdə linqvistik situasiyalar kimi problemlər üzərində çalışırlar.Hər bir ərazi variantı təkcə dilin məkan proyeksiyası deyil, həm də sosial, mədəni və tarixi proyeksiyasıdır. Ona görə də bu faktorların düzgün qiymətləndirilməsi iki müxtəlif dil sisteminin qarışmasının baş verdiyi Yeni Zelandiya və Kanadada linqvistik situasiyanın mürəkkibliyi və orijinallığına işıq sala bilər. Dillərin qarışması <<dil dəyişikliyinin mühüm faktorudur>> və <<iki sosial qrupun toqquşması>>nda təzahür edir (7,328). Dilin əsas xüsusiyyəti onun dili cəmiyyətində onun Yeni Zelandiyada, Kanada və Avstraliyada mövcud olan xüsusi linqvistik situasiya nəticəsi olan bilinqvizim şəraitində işlənməsidir. İngilis dilinin variantları ingilis dilinin rəsmi dil statusu aldığı və bu dilin ikinci dil statusu aldığı və bu dilin ikinci dil olduğu ölkələrdə <<ingilis dilinin yeni variantları>>adlanır. (3-s.123-128)

Kanadanın fransız dili ilə bərabər rəsmi dili sayılan ingilis dili başlanğıcdan kifayət qədər mürəkkəb hadisə olmuşdur. Fransızdilli kanadalılardan fərqli olaraq, ingilisdilli cəmiyyət daim doğma tarixi vətənləri olan Böyük Britaniya və İngilisdilli ABŞ-in hərtərəfli təsiri və emiqrasiyalarının əlaqəsində təşəkkül tapmışdır. Bununla belə ingilisdilli kanadalıların əsasını XIX əsrin sonunda <<loyalistlər>> qoymuşdur. Bəzi alimlərin fikirincə, onların Kanadada ingilis dilinin işlənməsinə təsiri birinci dərəcəli olmuşdur. Həmin dövrdə İngiltərə, İrlandiya, Şotlandiyadan gələn müxtəlif britaniya dialektində danışan mühacirlərin sayı xeyli artmışdır ki, bu da ingilis dilinin kanada variantında öz izini buraxmışdır (Popova L.Q., 1978, 6,75). Beləliklə, iki mühacir axınının təsiri nəticəsində bir tərəfdən ABŞ-ın Şimal rayonlarında yaşayan loyalistlər, digər tərəfdən isə Böyük Britaniyadan gəlmiş mühacirlər Kanadada yaşayan əhalinin dilinə ingilis dilinin müxtəlif dialektlərinin elementlərinin qarışmasına təmin etmşlər. Kanadanın sonrakı inkişaf tarixi göstərdi ki, 1867-ci ildən Böyük Britaniyanın dominionu olmasına baxmayaraq, o hər şeydən əvvəl ABŞ-ın siyasi və iqtisadi təsiri altında idi. Kanadanın ərazi bölgüsünü, həmçinin siyasi, iqtisadi, sosial-mədəni xüsusiyyətlərini nəzərə alaraq demək olar ki, Kanadanın bütün tədqiqatçıları belə fikirdədirlər ki, öz fonetik, leksik və orfoqrafik xüsusiyyətlərinə görə ingilis dilinin Kanada variantı Britaniya (<<Oksford>>) və Amerika variantları arasında orta həddi tutur. Lakin, əsasən General American adlanan tələffüz növü üstünlük təşkil edir. Kanada ingiliscəsinin yayılma ərazisi variantların xüsusiyyətləri qarışmış dəqiq differensiasiyası olmayan ərazi elan edilmişdir. Etiraf etmək lazımdır ki, L.Q.Popovanın ardınca müasir kanada ingiliscəsinin fərqli fonoloji, morfoloji və leksik-semantxüsusiyyətlərinin öyrənilməsi əsasında mümkündür. (6.8).İngilis dilinin kanada variantı bir tərəfdən britaniya variantı, digər tərəfdən isə amerikan ingiliscəsinin təsiri şəraitində yaranmışdır. Buna görə də Kanada ingiliscəsi özündə hər iki tələffüz normasını daşıyır- bəzi hallarda britaniya, bəzi hallarda isə amerika tələffüzü. Lakin əsasən Network English tələffüz növü üstünlük təşkil edir. R.Qreqin fikirincə, tipik Kanada tələffüzün-

Words of animal names in turkmen turkish
and turkey turkish

Summary:

Throughout history, the development of lexical structure of the language is conditioned by both linguistic and linguistic factors.On the one hand, the characterization of vocabulary as a linguistic factor, systematic interactions between lexical-semantic groups, syntactic relationships, and word styles, and on the other, the transfer of new words and terms beyond language as a result of cultural, social and political processes.Thus, as a result of a long historical development, the Oghuz group formed its own vocabulary for each of the Turkish languages. The Oghuz group of Turkish languages includes different words that are different in form and meaning or similar in meaning.These words have arisen in relation to the lifestyle of the population, forms of economy, occupations, household and traditions.Based on the enrichment of the area lexicology, the process of word formation begins.The neologisms that have arisen through the use of various grammatical methods in literary languages are constantly updating and enriching the vocabulary. The basis of the composition of the dictionary of the Turkish languages is the pronoun.Ancient Turkish lexicon is preserved in the dictionary of modern languages with slight modifications.At the same time, as a result of development each language creates new words at the expense of its internal capabilities and differs from other Turkish languages.The Oghuz group also shows some differences in the composition of the Turkish languages, the ancient words differed in various ways, and the newly formed words differed in form and meaning. In this article, 1709 words of the animal names in Turkmen Turkish and Turkey Turkish, which are Turkish languages of Oghuz group, were investigated. This study sought to reveal the rich vocabulary in Turkmen Turkish and Turkey Turkish.

Key Words: Turkmen Turkish, Turkey Turkish, area lexicology, words of animal names.

М.Гунайдын

Слова, выражающие названия животных на
туркменском и турецком языках

Резюме

На протяжении всей истории развитие лексической структуры языка обусловлено как языковыми, так и языковыми факторами. С одной стороны, характеристика словарного запаса как лингвистического фактора, систематическое взаимодействие между лексико-семантическими группами, синтаксическими отношениями и стилями слов, а с другой – как внешние факторы языкового развития приток новых слов и терминов в язык в результате обновления культурных, социальных и политических процессов приобретают большую значимость. Таким образом, в результате длительного исторического развития каждый из огузских тюркских языков имеет свой словарный запас.

Ареальная лексика огузской группы тюркских языков включает в себя разные слова, которые различны или сходны по форме и значению. Эти слова возникли в отношении образа жизни населения, форм экономики, занятий, быта и традиций. На основе обогащения словарного запаса начинается процесс словообразования.

Неологизмы, возникшие благодаря использованию различных грамматических методов в литературных языках, постоянно обновляют и обогащают словарный запас.

Основой композиции словаря тюркских языков являются слова, обозначающие имена. Древнетюркская лексика сохранилась в словаре современных языков с небольшими изменениями. В то же время в результате развития каждый язык создает новые слова за счет своих внутренних возможностей и отличается от других тюркских языков. Огузская группа также показывает некоторые различия в составе тюркских языков, древние слова стали архаизмами, а новообразованные слова различались по форме и значению.

В этой статье было исследовано 1709 слов, выражающих названия животных на туркменском языке тюркских языков огузской группы и на турецком. Это исследование помогает выявить богатый словарный запас на туркменском и турецком языках.

Ключевые слова:_Туркменский язык, турецкий язык, ареальная лексика, слова, выражающие названия животных.

Redaksiyaya daxil olma tarixi: 19.06.2019
Çapa qəbul olunma tarixi: 21.07.2019
Filologiya elmləri doktoru, professor Məhərrəm Məmmədov tərəfindən çapa tövsiyə olunmuşdur.

FƏRQANƏ AĞAYEVA
AMEA Dilçilik İnstitutu
Hüseyn Cavid prospekti
guness@mail.ru

"KİTABİ-DƏDƏ QORQUD" DASTANINDA İŞLƏNƏN QOŞMALARIN LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Xülasə

Məqalədə Azərbaycan xalqının zəngin dil abidəsi sayılan "Kitabi-Dədə Qorqud" dastanında köməkçi nitq hissələrinin, xüsusən də, qoşmaların leksik-semantik xüsusiyyətlərindən bəhs olunur.

Türk dillərində köməkçi nitq hissələrinin tədqiqi uzun illərdir ki, tədqiqat obyektidir. Köməkçi nitq hissələrinin türk dillərində yarandığı dövr və inkişaf dövrünün müəyyənləşməsi, tədqiq olunan yazılı abidələrdə işlənmə tezliyinin konkretləşməsi, zənnimizcə, tarixi qaranlıq olan qədim əlyazmaların yaşını müəyyən etməkdə mühüm rol oynayar. Dastandakı köməkçi nitq hissələrinin tədqiqatına bir neçə qoşma cəlb olunmuşdur. Dünya və milli dilçiliyin görkəmli nümayəndələrinin fikirləri də nəzərə alınaraq qoşmaların mənşəyi, semantik dəyişmə qabiliyyəti tədqiq olunmuşdur.

Türk dillərində işlənmə tezliyinə əsasən ən qədim köməkçi nitq hissəsi qoşma sayıla bilər. Mənşəcə isim və fellərdən əmələ gəlmiş qoşmalar tarix boyu dəyişmiş və öz tarixi kökünə bənzəməyən yeni formalara, mürəkkəb mənalara yiyələnmişdir. Qoşma öz müstəqilliyini itirmiş sözlərdən ibarət olduğu üçün onlar dilin lüğət fondunun ən qədim sözlərindən hesab olunur.

"Kitabi Dədə Qorqud" dastanının dilində qoşmaları təhlil edərkən məlum olur ki, dastanın yazılma vaxtı bəzi qoşmalar hələ tam öz müstəqil mənasından ayrılmamışdır. Çox nadir qoşmalar artıq uzaq dövrlərdən bəri qoşma kimi formalaşmış və öz müstəqil mənasından tam uzaqlaşmışdır.

Açar sözlər: köməkçi nitq hissələri, dastan, qoşma, semantika, leksika.

Söz xəzinəmiz sayılan "Kitabi-Dədə Qorqud" dastanının yazıya köçürülməsi və dastanda baş verən hadisələrin real zamanı həmişə tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Dastanda təsvir edilən oğuzların həyat tərzi, adət-ənənəsi, dilinin zənginliyi çoxsaylı tədqiqatların obyekti olmuşdur. "Kitabi-Dədə Qorqud" dastanının dilinin qrammatikası, fonetik xüsusiyyətləri və rəngarəng leksikası araşdırılmış və gələcək araşdırmalar üçün kifayət qədər zəngin bir mənbə olmuşdur.

Eyni zamanda, türk dillərində köməkçi nitq hissələrinin tədqiqi uzun illərdir ki, tədqiqat obyektidir. Köməkçi nitq hissələrinin türk dillərində yarandığı dövr və inkişaf dövrünün müəyyənləşməsi, tədqiq olunan yazılı abidələrdə işlənmə tezliyinin konkretləşməsi, zənnimizcə, tarixi qaranlıq olan qədim əlyazmaların yaşını müəyyən etməkdə mühüm rol oynayar.

Türk dillərində işlənmə tezliyinə əsasən ən qədim köməkçi nitq hissəsi qoşma sayıla bilər. Mənşəcə isim və fellərdən əmələ gəlmiş qoşmalar tarix boyu dəyişmiş və öz tarixi kökünə bənzəməyən yeni formalara, mürəkkəb mənalara yiyələnmişdir. Qoşma öz müstəqilliyini itirmiş sözlərdən ibarət olduğu üçün onlar dilin lüğət fondunun ən qədim sözlərindən hesab olunur. (4, s. 57) Müstəqil sözlərin tədricən öz leksik mənasından uzaqlaşaraq ismin hallarına uyğun söz sonlarına birləşib yeni qrammatik məna kəsb etməsi, eləcə də, artıq başqa söz qruplarından fərqlənərək paradiqma təşkil etmək qabiliyyəti iltisaqi dillər üçün dilin inkişaf prosesində təbii hadisədir.

H.Mirzəzadə qoşmanın tədqiqinin əhəmiyyəti haqqında yazırdı: "Qoşmanın mənşəyi, daşıdığı vəzifə və ifadə etdiyi məna, tarixi inkişaf nöqteyi-nəzərdən öyrənilməyə ehtiyacı olan məsələlərdəndir. Çünkü bu nitq hissəsi öz söz ehtiyatı azlığı cəhətdən başqa nitq hissələrindən kiçik olsa da, öz əhəmiyyəti etibarıilə demək olar ki, başqalarından geri qalmır. Qoşmalar bütün dövrlərdə öz orijinallığını mühafizə etdiyi kimi, zaman keçdikcə inkişaf edərək, keyfiyyətcə saflaşmış, bir sıra yeni sözlərlə zənginləşmiş, arxaikləşmiş qoşmalardan da təmizlənmişdir." (8, s. 195)

Qoşma qrammatik cəhətdən dəyişməyən, adlardan, bəzən də məsdərdən, feili sifətdən sonra gəlib əşya ilə hərəkət arasında müəyyən münasibət bildirən (qrammatik əlaqə yaradan), lüğəvi mənası olmayan köməkçi nitq hissəsidir. Qoşmaların bəziləri sözlərin sonuna əlavə olunaraq qrammatik məna yaratmaq xüsusiyyətlərinə görə şəkilçilərə çox yaxındır. Hətta Mühərrəm Ergin qoşmaları funksional baxımdan hal şəkilçilərinə bənzətmişdir: "Hal şəkilçiləri ismin nominal hallarını, qoşmalar isə ismin adverbial hallarını, zərf hallarını əmələ gətirirlər." (10, s. 369)

Ə. Şükürov əsli qoşmaların qrammatik xüsusiyyətindən danışarkən onları üç qrupa bölür: "1. Qrammatik əlaqədə olduğu sözü adlıq və ya yiyəlik hal görümü ilə idarə edənlər; 2. Qrammatik əlaqədə olduğu sözü yönlük hal görümü ilə idarə edənlər; 3. Qrammatik əlaqədə olduğu sözü çıxışlıq hal görümü ilə idarə edənlər." (12, s. 22)

Qoşma bir söz qrupu kimi türk dili tarixini araşdıran alimlərin diqqət mərkəzində olmuşdur. J.Deni qoşmaları postpozision termini adı altında öyrənmiş və onu fransız dilindəki prepozision hadisəsinə qarşı qoymuşdur." (2, s. 532)

Bir çox türkoloqlar kimi, J.Deni də qoşmaları ayrıca bir nitq hissəsi kimi qəbul etmir, sadəcə ədatların içində bir qrup söz kimi fərqləndirir. Qeyd edək ki, bu ənənə dünya türkoloqları, eləcə də Türkiyə dilçiləri tərəfindən qəbul edilir. A.V.Qaben də məhz qoşmalardan bəhs edərkən onları son çəkim ədatları adlandırmışdır: "İsimləri, zamirləri və sayları təqib edən, onlarla birbaşa bağlı, mənalarına görə onlara təbii, fəqət qrammatik baxımdan onlara hakim kəlimələrə son çəkim ədatları deyirik." (1, s. 93)

Lakin sovet türkologiyası qoşmaları ayrıca nitq hissəsi kimi qəbul etmiş və bütün tarixi qrammatika kitablarında qoşmalara başqa nitq hissələri kimi yer ayrılmışdır. (14; 15)

"Kitabi-Dədə Qorqud" dastanının dilində işlənən qoşmaların bir qismi müəyyən dövrlərdə tədqiq olunmuşdur. Qoşmalar istər ümumi dil tarixi qrammatikasının bir hissəsi kimi, istər dastan dilinin qrammatik tədqiqinin bir hissəsi kimi araşdırmalarda yer almışdır. (6; 8; 12; 13)

Ə.Tanrıverdi "Azərbaycan dilinin tarixi qrammatikası"nda bir neçə qoşmanın təhlilini vermişdir ki, bunlardan bəziləri məhz dastan dilinə aiddir. (13)

Qoşmanın tədqiqinə həsr edilmiş bir çox elmi araşdırmalar arasında bəzən ziddiyyətli fikirlər mövcuddur. Yazılı abidələrin dilində işlənən qoşmalar daima tədqiqat mövzusudur. Nəsimi adına Dilçilik İnstitutunun hazırladığı "Kitabi-Dədə Qorqud" dastanının qrammatik tədqiqi" əsərində S. Mehdiyeva dastanın dilində işlənmiş bəzi qoşmaları araşdırmaya cəlb etmişdir. (12, s. 335-350)

Hər bir qoşmanın semantikası, ilk növbədə, onun əsas, ilkin mənası ilə bağlıdır. İlkin mənadan törəyən mənalar onunla az və ya cox dərəcədə ümumilik təşkil edir və qoşmanın semantik rəngarəngliyinin yaranmasına xidmət edir. Odur ki, qoşmaların mənasını üzə çıxarmaq üçün onun tarixinə, inkişaf yoluna nəzər salmaq lazımdır. (4, s. 57)

Beləliklə, yuxarıda qeyd olunan fikirləri nəzərə alaraq qoşmaları işləndiyi məqama əsasən semantik-funksional baxımdan fərqləndirdik. Dastanın dilində işlənən qoşmalar bəzən bağlayıcı, bəzən ədat kimi də işləndiyindən çoxfunksiyalıdır.

Zaman və məkan bildirənlər. *Bərlu, bəri* qoşması.

Qeyd edilən qoşma bir çox türk dillərində müxtəlif fonetik şəkillərdə ifadə edilir: türkmən: *bə:ri;* noqay, kumuk, qaraqalpaq, qırğız, altay, özbək, qazax: *beri;* az.: *bəri;* başqırd: *bire;* qaqauz: *be:ri;* tuva: *be:r.*

Bu söz "Kitabi-Dədə Qorqud" dastanının dilində *bərü gəlgil* şəklində 18 yerdə işlənmişdir. Lakin zaman mənası ifadə edən qoşma kimi 3 yerdə vardır:

Bu evi harab olası ərə varaldan *bərü* dəxi karnum doymadı.

Beyrək diri olsa on altı yıldan *bərü* gəlürdi bir yigit.

Şundan bərü.

Heç təsadüfü deyil ki, Mühərrəm Ergin də sözün indeksini göstərərkən onu ayrıca həm zərf, həm də *-dan* hal şəkilçisindən sonra işlənən qoşma kimi ayıraraq vermişdir. (9, s. 43) Müəllif "Türk dil bilgisi" əsərində də *beri* qoşmasından bəhs edir və adı çəkilən qoşmanın çıxışlıq halla işləndiyini qeyd edir .(10, s. 369)

Nümunələrdən göründüyü kimi, Dastan yazıya alındığı dövrdə artıq söz müstəqil mənasından ayrılmağa başlayır və qismən də olsa, qoşma kimi semantik fəaliyyət göstərir.

Sonra qoşması. H.Mirzəzadə *sonra* qoşması haqda yazır: "İki tərkib hissəsindən ibarət (son+ra) əmələ gəlmiş qeyri-sabit qoşmalardandır, çünki həm zaman zərfi, həm də qoşma kimi işlənir. Yazı abidələrinin dilində isə az təsadüf edilir. Məsələn, Ol vaqiədən *sonra* hər gah ki həzrəti Rəsul Hüseyni əlinə alub iltifat edərdi... *Sonra* qoşması özündən əvvəl ismin çıxışlıq halda olmasını tələb edir; iş və ya hərəkətin olandan sonrakı zaman mənasını ifadə edir. *Axır, nəhayət, uc* mənasına uyğun gələn *son* sözünün axırına gələn *–ra* şəkilçisi müxtəlif şəkildə izah edilmişdir. Məsələn, O. Bötlinq *–ra*-nı yer, Radlov isə *ora* kimi izah etmişdir. Bəzi mülahizələrə görə də *-ra* yönlük hal şəkilçisinin ən qədim şəklidir. M.Kaşqarinin və uyğur dili abidələrinin verdiyi faktlardan bu axırıncı fikir həqiqətə uyğundur." (8, s. 196)

Bir çox köməkçi nitq hissəsi kimi, *sonra* qoşmasının da yaranma yolları mübahisə doğurur. Dastan dilində aşağı intensivliklə olsa da, *sonra* sözü işlənmişdir:

Bir neçə müddətdən *sonra* bir oğlan toğurdı; (7, s. 213)

Yad qızı hələlım var, andan mənim iki oğlancığım var, əmanətim var, ismarlaram anlara, andan *sonra* mənim canımı alasan" (7, s. 280)

"Məndən *sonra* alıb ozanlar söyləsin." (7, s. 282)

Müasir Azərbaycan dilində bu söz *sonra* şəklində öz müstəqil leksik mənasını qoruyub saxlamışdır. Ammas s*onra* şəklində də qoşma kimi işləkdir. Bu qoşmanın "Kitabi-Dədə Qorqud" dastanının dilində işlənmə intensivliyi aşağıdır. Heç bir başqa qoşma ilə sinonim cərgə yaratmır.

Ala/ələ qoşması. *Tərəf, doğru* mənasında "Kitabi-Dədə Qorqud" dastanının dilində işlənmişdir. Bu səbəbdən də istiqamət bildirən sözlərlə sinonim cərgəsi yaradır. Tarixçi türkoloqlar da bu sözün qədim semantikasında məhz *tərəf, istiqamət* məzmunu görmüşlər. A.V.Qaben *ala* qoşmasını *tərəf, səmt, alt tərəf* kimi izah etmişdir. (1, s. 128)

Düşünürük ki, burda böyük bir həqiqət vardır. Lakin sözün semantikasında *alt tərəf,* aşağı səmtin olması elmi cəhətdən məntiqli deyil. Belə ki, türk dillərində *ala* sözünün *böyük, uca*, *yuxarı* mənaları türkoloqlar tərəfindən artıq qəbul edilmişdir. Bu elmi nəticəyə əsaslansaq, *ala* sözünün həqiqətən də, sadəcə, məhz *üst tərəf* mənasını ifadə etməsi daha məntiqlidir:

Eger erdir, eger arvatdur kurhusu ağac,

Başun *ala* bakar olsam başsuz ağac,

Dibün *ala* bakar olsam dibsüz ağac.

Başqa bir yerdə isə:

Sağum *ala* bakduğumda kartaşum...

Solum *ala* baktuğumda tayım Aruzu gördüm...

Karşum *ala* bakduğumda seni gördüm.

Başqa bir misalda:

Yanum *ala* bakduğumda komşuma eyü bakdım.

Karşum *ala* yigit menüm...

Dastan dilində bu söz yeddi dəfə qoşma kimi işlənmişdir. Amma dastanın dilində onun rəng bildirdiyi hallara da rast gəlirik. Bununla da *ala* sözünün omonim sırası yaratdığının şahidi oluruq: Ağ yüzlü *ala* gözlü kimi misalda həqiqətən də rəng bildirir.

Taşı qoşması. *Dışarı* mənasında işlənmişdir. Bu fonetik variantda və qoşma semantik funksiyasında Dastanın dilində tək bir yerdə işlənmişdir: Ol məlun dəxi kaladan *taşı* gəlüp bunlara müqabil oldu, ər oldu. *Taşı* və *içrə* qoşamları semantik cəhətdən antonimdirlər. Belə ki, *taşı* dışarı, *içrə* isə içəri mənasını verir.

Içre qoşması. *Iç+re* qoşması içində, arasında mənasını bildirir. Yazılı abidələrdə bunun antonimi kimi *taşı, taşra, daşra* qoşmaları çıxış edir ki, qeyd edilən qoşmaların heç biri halhazırda müasir dilimizdə işlək deyil və arxaizm hesab olunur. J.Deni *içrə* qoşması haqqında yazarkən qeyd edir ki, həmin qoşmaya çağatay və uyğur dillərində rast gəlinir. (2, s. 559)

H.Mirzəzadə də *içrə* qoşmasının *iç* mənası daşıyan müstəqil sözdən yarandığını qəbul edir və qeyd edir ki, tarixi abidələrin dilində nadirən işlənmişdir: "Belə başa düşmək olar ki, *iç* qoşması məzmunca ismin yerlik hal şəkilçisi *–da/də*-nin sinonimi olduğundan, eyni zamanda bunların hər ikisinin işlənməsinə ehtiyac olmamışdır. *iç+rə* qoşmasından əvvəl gələn söz həmin ismin adlıq halında özünü göstərir." (8, s. 207)

Mühərrəm Ergin isə adı çəkilən qoşmanı yer və yön ədatları sırasında təsnif etmişdir. (10)

Qeyd edək ki, *içrə* qoşması dastan dilində tək bir yerdə işlənmişdir:

Karanlu dün *içrə* azsam umum Allah.

Mənası *içində* sözünə tam uyğundur. Qoşma kimi formalaşır, lakin tam öz müstəqil mənasından ayrılmamışdır.

Səbəb-məqsəd bildirənlər. *Üçün/içün* qoşması. *Üçin/için* qoşması səbəb-məqsəd bildirən qoşmalar sırasındadır. Qoşma dil tarixinə həsr edilmiş əsərlərdə təhlil edilsə də, mənşəyi və semantik-funksiyası ilə bağlı qəti fikir söylənilməmişdir.

J.Deni yazır: "Bu ədatın bir neçə semantik anlamı var: 1. Məqsəd mənası. Ağ akça qara gün *üçündür*. Bu məqsədlə işlədildikdə adətən feilin məsdər formasından sonra gəlir: Sizi görmək *üçün* gəlmişəm. 2. Yalvarış, rica məqsədilə işlədilir. Allah rizası *üçün*. 3. Zəifləşmiş məqsəd daşıyanlar: sənin üçün, onun üçün. 4. Səbəb mənası ilə: bu məqsədlə işlədildikdə daha çox işarə əvəzlikləri ilə işlədilir: onun *için,* bunun *üçün* və s." (2, s. 538)

Üçün//için qoşması haqda A.M. Qaben də bəhs etmiş, sözü zərflərdən təcrid olunanlar sırasında vermişdir. (1, s. 92)

Ötrü qoşması. *Üçün* qoşmasının sinonimi kimi çıxış edir. Bir çox türk dillərinin tarixinə dair əsərlərdə qoşma ətraflı təhlil olunmuşdur. Qoşmanın semantik-leksik mənası qrammatik funksiyasına uyğundur. İsmin çıxışlıq halı ilə işlənən qoşma səbəb semantikası daşıyır. Dastan dilində *ötrü, dolayı* mənalarına uyğun işlənmişdir. Bu qoşmaya dastanın dilində dörd yerdə təsadüf edilir. M. Ergin bu qoşmanı səbəb ədatları sırasında təsnif etmişdir. (10, s. 370)

H.Mirzəzadə qeyd olunan qoşmanı təhlil edərkən onu məqsəd bildirən qoşmalar sırasında vermişdir. (8, s. 204)

Başqa dil tarixçilərinin əsərlərində bu qoşmanın semantik-leksik mənası ilə bağlı təzadlı fikirlərə rastlanmır.

Qoşmanın semantik funksiyası səbəb-məqsəd yaratmaqdır: şimdi yigiti atar yıkar serer purtar yıkılsın. Oğuz elleri kırk yigit bir beg oğluyla bir kızdan ötürü ölmək nolur dedilər.

Bir suçdan *ötürü* dərgahdan sürdün.

Bu cümlə eyni ilə başqa bir yerdə də işlədilir.

Beləliklə, göründüyü kimi, artıq Dastan yazıya köçürüldüyü zaman, qoşma səbəb-məqsəd semantikası ilə formalaşmışdır. Dastanın dilində öz semantik funksiyasına uyğun olaraq səbəb-məqsəd qoşması kimi işlədilmişdir. Lakin işlənmə tezliyi intensiv deyildir.

"Kitabi Dədə Qorqud" dastanının dilində qoşmaları təhlil edərkən, məlum olur ki, dastanın yazılma vaxtı bəzi qoşmalar hələ tam öz müstəqil mənasından ayrılmamışdır. Çox nadir

qoşmalar artıq uzaq dövrlərdən bəri qoşma kimi formalaşmış və öz müstəqil mənasından tam uzaqlaşmışdır.

Ədəbiyyat

1. Qaben A.V. Eski Türkcənin qrameri. Türk tarih kurumu basım evi, Ankara: 1988.
2. Deni J. Türk Dil Bilgisi. İstanbul: Kabalçı, 2009.
3. Cemiloğlu İ. Dede Korkut hikayeleri üzerinde söz dizimi bakımından bir inceleme, Ankara: Türk Dil Kurumu Yayınları, 2001, s.127
4. Abdullayeva S. Qoşmaların qrammatik semantikası // Türkologiya, 1999, №1-4, s. 57-63.
5. Kazımov Q. Müasir Azərbaycan dili. Morfologiya. Bakı: "Elm və təhsil", 2010.
6. Kitabi-Dədə Qorqud dastanının qrammatik tədqiqi (fonetik, morfoloji və sintaktik təhlil). Bakı: "Elm", 2018.
7. Kitabi-Dədə Qorqud. Bakı: Teas Press Nəşriyyat evi, 2016.
8. Mirzəzadə H. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı: Azərbaycan Universiteti Nəşriyyatı, 1990.
9. Mühərrəm E. Dede Korkut kitabı. 1-2. Ankara, Türk Dil Qurumu, 2018.
10. Mühərrəm E. Türk Dil Bilgisi. İstanbul: Umut Matbaası, 2013.
11. Əsgər R. Mahmud Kaşğari və onun «Divanü lüğət-it-türk» əsəri. Bakı: MBM, 2009, 532 s.
12. Şükürov Ə. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı: APİ nəşri,1981.
13. Tanrıverdi Ə. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı, 2010.
14. Гаджиева Н.З., Серебренников Б.А. Сравнительно-историческая грамматика тюркских языков. М.: Наука, 1986.
15. Щербак А.М. Очерки по сравнительной морфологии тюркских языков (Наречие, служебные части речи, изобразительные слова). Ленинград: «Наука», 1967.

F.Agaeva

The lexico-semantic features of qoshma (postposition)
in the epic "Book of Dede Gorgud"

Summary

The article deals with the lexico-semantic features of the qoshma (postposition) in the epic "Book of Dede Gorgud", which is a rich language monument of the Azerbaijani people.

The study of auxiliary speech parts in Turkish has been a subject of research for many years. Determining the period of development of the auxiliary speeches in the Turkic languages and the developmental period, the accuracy in the investigated written monuments, in our opinion, play an important role in determining the age of the ancient manuscripts that are historically dark.

Some of the postpositions were involved in this study. Taking into account the views of outstanding scholars of the world and national linguistics, the origin and semantic abilities of postpositions were studied.

According to the processing frequency, the ancient auxiliary part of speech in Turkish can be considered as postposition. Postpositions originating from the nouns and verbs have changed over the course of time and have acquired new forms and complex meanings that do not resemble their historical roots. Since the postpositions consist of words that have lost their independence, they are considered one of the oldest words in the language vocabulary.

When analyzing postpositions in the language of the “Book of Dede Gorgud”, it is clear that at the time of writing the saga some postpositions have not yet completely separated from their independent meaning.

Keywords: epic, postposition, semantics, vocabulary, part of speech

Ф.Агаева

Лексико-семантические особенности постпозиция
в эпосе «Книга Деде Горгуда»

Резюме

В статье рассматриваются лексико-семантические особенности послелогов в эпопее «Книга Деде Горгуда», являющейся богатым языковым памятником азербайджанского народа.Изучение вспомогательных речевых частей на турецком языке было предметом исследований в течение многих лет. Определяя период развития вспомогательных речей на тюркских языках и период развития, точность исследуемых письменных памятников, по нашему мнению, играет важную роль в определении возраста древних рукописей, которые исторически темны.

Некоторые из послелогов были вовлечены в данное исследование. Принимая во внимание взгляды выдающихся ученых мира и национального языкознания, было изучено их происхождение и семантические способности.

По частоте обработки древнюю вспомогательную часть речи на турецком языке можно рассматривать как постпозицию. Постпозиции, происходящие от существительных и глаголов, со временем изменились и приобрели новые формы и сложные значения, которые не напоминают их исторические корни. Поскольку постпозиции состоят из слов, которые потеряли свою независимость, они считаются одним из самых старых слов в словаре языка.

При анализе постпозиций на языке « Книга Деде Горгуда» становится ясно, что на момент написания саги некоторые постпозиции еще не полностью отделены от своего самостоятельного значения.

Ключевые слова: служебные часть речи, эпос, послелоги, семантика, лексика.

Redaksiyaya daxil olma tarixi: 19.06.2019
Çapa qəbul olunma tarixi: 21.07.2019
Filologiya elmləri doktoru, professor Sənubər Abdullayeva
tərəfindən çapa tövsiyə olunmuşdur.

KÖNÜL ABDULLAYEVA
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
Dilarə Əliyeva küç
Abdullazade_konul@mail.ru

DİLİN ZƏNGİNLƏŞMƏ METODLARI

Xülasə

Sözyaradıcılığı (əsasən onun leksik-semantik üsulu) dilin lüğət tərkibini sözün semantik həcminin genişlənməsi yolu ilə zənginləşdirir: dildə mövcud olan sözlər semantik cəhətdən dəyişmələr nəticəsində iki və daha artıq omonimə parçalanır. Bununla da etimoloji cəhətdən sərbəst və müstəqil qəbul olunan yeni sözlər yaranmış olur. Dilin lüğət tərkibinin zənginləşməsinə xidmət edən digər yollardan biri də sözün başqa dildən götürülərək dilin öz fonetik və qrammatik qanunlarına uyğunlaşdırılmasıdır: vedro-vedrə, nomer-nömrə, stakan-stəkan, apteka-aptek, qazeta-qəzet, computer-kompüter və s.

Bununla bərabər qeyd etmək lazımdır ki, dilin zənginləşməsi tempi çox vaxt dilin özünün inkişafı ilə müəyyən olunur: dil nə qədər çox inkişaf etmiş olarsa, orada gedən dəyişikliklərin tempi bir o qədər asta olacaq. Buradan belə nəticə çıxarmaq olar ki, dildəki tərəqqi onun az dəyişilməsindədir. Əgər dilin lüğət tərkibi çox sürətlə dəyişilməyə başlasa , nəsillərarası bağ qırılacaq.

Çünki, əvvəlki nəsillərin tarixi-mədəni və ədəbi-bədii ənənələri gələcək nəsil üçün əlçatmaz olacaq. Odur ki, dilin mühafizəkarlığı əsrləri və nəsilləri bir-birinə bağlayaraq qüdrətli, çoxəsrlik milli ədəbiyyatın meydana gəlməsinə səbəb olur.

Açar sözlər: sözyaradıcılığı, semantika, söz, dil, inkişaf, alınma söz.

Dilin söz bazasının inkişafına, onun zənginləşməsinə və formalaşmasına təsir edən əsas proseslərdən biri dildə yeni sözlərin hesabına leksik qatın böyüməsidir. Xalqın tarixi ilə bağlı olan dilin söz bazası onun həyat tərzini – ictimai-siyasi həyatındakı dəyişiklikləri, istehsalatda, elmdə, texnikada, mədəniyyətdəki inkişafı və s. bütün çalarları ilə əks etdirir. Lüğət tərkibinin genişlənməsi prosesi, əsasən, dərin ictimai-siyasi və sosial-mədəni dəyişikliklər zamanı baş verir. Bu ictimai dəyişikliklərin həyata keçməsi dilin leksikasına aktiv təsir edir.Yeni sözlər (neologizmlər) dildə mövcud olan sözyaratma modelləri əsasında düzəlir. Demək olar ki, bütün inkişaf tarixi boyu dilin lüğət tərkibinin əsas zənginləşmə vasitəsi dilin öz materialı hesabına yeni sözlərin yaradılması hesab olunur. Sözyaradıcılığı bilavasitə dilin leksik tərkibinin fasiləsiz çoxalmasını təmin edir.

Sözyaradıcılığı (əsasən onun leksik-semantik üsulu) dilin lüğət tərkibini sözün semantik həcminin genişlənməsi yolu ilə zənginləşdirir: dildə mövcud olan sözlər semantik cəhətdən dəyişmələr nəticəsində iki və daha artıq omonimə parçalanır. Bununla da etimoloji cəhətdən sərbəst və müstəqil qəbul olunan yeni sözlər yaranmış olur.Məsələn: peyk, qaynaq, zəng, yenidənqurma və s.Dilin lüğət tərkibinin zənginləşməsinə xidmət edən digər yollardan biri də sözün başqa dildən götürülərək dilin öz fonetik və qrammatik qanunlarına uyğunlaşdırılmasıdır: vedro-vedrə, nomer-nömrə, stakan-stəkan, apteka-aptek və s.

Tarix boyu müxtəlif dövrlərdə sözalmanın xarakteri və onların tematik mənsubiyyəti, leksik fonda daxil olma intensivliyi eyni olmamışdır. Rus dilinin etimologiyasına nəzər salaq:

1) XII-XIV əsrlərdə əsasən türk mənşəli sözlər (məişət və atçılıqla bağlı sözlər): денги, казна, карман, сундук, кушак, лошадь, табун, аркан və b.

2) XVIII əsrdə əsasən fransız dilindən sözlərin axını daha intensivdir.

Məişət xarakterli: пальто, кашне, манто

Hərbi terminlər: парламент, шовинизм, батальон, атака

Incəsənət və elmi terminlər: вальс, балет, романс, тире, диссонанс, нюанс və s.

Müasir rus ədəbi dilində iqtisadiyyat və siyasət sferasına isə ingilis və amerikan mənşəli sözlərin sürətli axını diqqəti cəlb edir: дилер, маркетинг, бартер, брифинг, брокер və s. Eyni zamanda sözalmada sözyaradıcılığı da əhəmiyyətli rol oynayır. Çünki sözyaradıcılığı yeni sözün dildə adaptasiyasına kömək edir. Buna misal olaraq "etmək", "olmaq" feilləri ilə yaranan sözləri yaxud "-ist" şəkilçisi ilə yaranan: proqramist, sambist, xokkeist və s. sözləri göstərmək olar. Rus dilindən nümunələr göstərməkdə məqsədimiz ondadır ki, bu qəbildən olan sözlər rus dili vasitəsilə azərbaycan dilinə keçmiş, dilimizi zənginləşdirmişdir.

Maraqlı faktlardan biri də odur ki, dildə bəzən qaytarma alınmalar da olur. Yəni söz bir dildən digər dilə keçir, sonra isə ya fonetik, ya da semantik cəhətdən dəyişikliyə uğrayaraq geri dönüm edir. Fransız dilində belə nümunələr çoxluq təşkil edir. XII-XV əsrlərdə fransız dilindən ingilis dilinə keçən bir çox sözlər XVIII əsrdə yenidən fransız dilinə qayıtmışdır, lakin artıq başqa mənada. Məsələn: jury "juri – münsif", köhnə fransız dilində "juree" sözü "andiçmə" mənasında işlənirdi.

Qeyd etmək lazımdır ki, yalnız sözlər deyil, sözyaratma strukturu da alınma ola bilir. Bu zaman dildə milli dilin materialı əsasında lakin xarici dilin sözyaratma və ya semantik modeli əsasında yaranan kalkalar - əcnəbi sözlərin semantik düzəltmə nüsxəsi meydana gəlmiş olur. Beləliklə, kalkalar gizli sözalmaya aid edilə bilər.

Bəzən sözün semantik strukturu da alınma ola bilir. Məsələn: toucher (fr.) əsas mənadan "əllə toxunmaq"dan başqa məcazi məna (hislərini oyatmaq) da daşıyır. Bu məna rus dilinə və oradan da azərbaycan dilinə keçmişdir (qəlbinə toxunmaq) və s.

Dilə daxil olan əcnəbi söz fonetik və qrammatik adaptasiya dönəmini yaşayır. Sözü qəbul edən dilin fonetik qanunlarına uyğun olmayan cəhətlər ortadan götürülür və söz fonetik cəhətdən həmin dilə uyğunlaşdırılır. Məsələn: yunan dilində işlənən *khoros* sözü qısaldılaraq dilimizə "xor" kimi daxil edilmişdir. Çin dilində isə ümumiyyətlə bütün çoxhecalı alınma sözlər qısaldılaraq qəbul olununr. Bəzən isə alınma söz qonaq gəldiyi dilin xüsusiyyətlərini qəbul etmir, onun nə vaxtsa alınma olduğunu bildirən öz fonetik xüsusiyyətlərini qoruyub saxlayır. Məsələn: iki samitin yanaşı işləndiyi sözlər: komment, klatç, kokteyl, kollagen, kollokvium, liftinq, link, liposaksiya, magistr, makler, manşet, menecment, sprey, stepper, stəndap, şeypinq, şopinq və s.

Hər bir dildə milli sözlərlə alınmalar arasındakı münasibət müxtəlifdir. Əgər azərbaycan, rus, fars dilində alınmaların miqdarı demək olar ki, milli dilin leksik qatının yarısını təşkil edirsə, çin dilində alınmaların sayı cüzi miqdardadır. Onlar hətta avropa dillərindən keçmə ən mürəkkəb elmi terminləri belə öz dillərinin daxili imkanlarından istifadə edərək orijinal hala sala bilirlər. Məsələn: "elektrik" anlayışını onlar *dyan* "ildırım" söz kökündən istifadə edərək ifadə edirlər. Eyni zamanda "tramvay" (*dyaiçe)* və "telefon" (*dyanxua)* sözləri də bu söz kökündən yaranmışdır. Bu hala qədim alman dil qrupundan olan island dilində də rast gəlinir. Bütün avropa dillərində işlənən telefon və radio sözlərinin yerinə *thread* simi "ip", və *utvard* "atmaq", "tullamaq" sözləri istifadə olunur. Ingilis dilində alınmalar dilin lüğət tərkibinin 70%ni təşkil edir, belə yüksək faiz (50%) fars dilində də rast gəlinir.Ümumiyyətlə, qeyd etmək lazımdır ki, alınmalarsız dil yoxdur, çünki heç bir xalq təcrid olunmuş şəkildə yaşamır. Mədəni və elmi əlaqələri olmasa da, mütləq ticarət əlaqələri həmişə olmuşdur.

Dilin lüğət tərkibi dialektlərin və sadə danışıq elementlərinin hesabına da çoxala bilər. Dilə daxili sözalma nəticəsində keçən sözlər dilin bütün qanunlarına uyğunlaşaraq üslubi cə-

hətdən neytrallaşır. Belə sözlərin əksəriyyəti yazıçılar və şairlər tərəfindən ədəbiyyata gətirilir, sonra isə dilə keçir.

Dilin lüğət tərkibinin zənginləşməsində isimlərin mənalarındakı dəyişikliklər də az rol oynamır. Semantik dəyişiklik bir çox faktlardan asılı olsa da, tarixi faktorlar həlledici mövqeyə malikdir.

Tarixizmlərin dirilməsi dilin zənginləşməsinə, əsasən də, alınmalar axınının qarşısının alınmasına əhəmiyyətli təsir edə bilər.

Beləliklə, dilin lüğət tərkibinin inkişafında 2 əsas meyar özünü daha qabarıq şəkildə göstərir:

1) dildə milli elementlərin artması (burda sözyaradıcılığı böyük rol oynayır)

2) dövlətlərarası mədəni və elmi əlaqələrin inkişafı ilə əlaqəli beynəlmiləl sözlərin artması.

Bununla bərabər qeyd etmək lazımdır ki, dilin zənginləşməsi tempi çox vaxt dilin özünün inkişafı ilə müəyyən olunur: dil nə qədər çox inkişaf etmiş olarsa, orada gedən dəyişikliklərin tempi bir o qədər asta olacaq. Buradan belə nəticə çıxarmaq olar ki, dildəki tərəqqi onun az dəyişilməsindədir. Əgər dilin lüğət tərkibi çox sürətlə dəyişilməyə başlasa , nəsillərarası bağ qırılacaq. Çünki, əvvəlki nəsillərin tarixi-mədəni və ədəbi-bədii ənənələri gələcək nəsil üçün əlçatmaz olacaq. Odur ki, dilin mühafizəkarlığı əsrləri və nəsilləri bir-birinə bağlayaraq qüdrətli, çoxəsrlik milli ədəbiyyatın meydana gəlməsinə səbəb olur.

Y.M. Qalkina-Fedoruk sözə belə tərif vermişdir: “Söz tarixən birləşmiş insan kollektivi tərəfindən eyni cür başa düşülən və varlığın ayrı-ayrı hissələrini bildirən, qrammatik cəhətdən formalaşmış nitq vahididir”(5, 7).

Bu tərifdə müsbət cəhət sözün ictimai xarakterinin qeyd olunması və onun qrammatik cəhətdən formalaşmasının nəzərə alınmasıdır. Bu tərif nisbətən daha bitkin olduğu üçün sovet dilçiliyində daha çox yayılmışdı.Sözün ayrılıqda götürülmüş mənasına leksik-semantik variant (semema) deyilir. Hər bir söz müəyyən leksik-semantik mənanı bildirməklə bir dil vahidini digərindən fərqləndirir.Cəmiyyət sürətlə inkişaf edir, dəyişir və yeni görkəm alır. Cəmiyyətdə, həyatda, məişətdə baş verən dəyişikliklər dilin leksik qatında da gedir. İstifadə etdiyimiz sözlərdə müəyyən dəyişmələr: məna genişlənməsi; məna daralması; mənanın məcazi işlənməsi baş verir.Sözün mənasının genişlənməsi dedikdə sözdə baş verən semantik hadisə başa düşülür. Sözlərin məna genişlənməsi halı dilimizdə iki şəkildə özünü göstərir: 1) heç bir fonetik dəyişikliyə uğramadan sözlərin mənasının genişlənməsi, 2) köhnəlmiş sözlərin öz əvvəlki mənalarından uzaqlaşaraq, yeni məna kəsb etməklə öz semantikasını genişləndirməsi (3,146).Müasir Azərbaycan dilində sözlər heç bir fonetik dəyişikliyə uğramadan məna genişlənməsi nəticəsində əvvəlki mənaları ilə yanaşı yeni mənalar qazana bilir. ABANDON is. (fransız mənşəli sözdür. Ingilis dilində abandonment “imtina” deməkdir) Bu söz maliyyə sahəsindən başqa digər peşə sahələrində fərqli mənalarda işlənməkdədir. 1. **maliyyə.** Borc tələbindən imtina, birtərəfli akt: tərəflərdən biri özünün maliyyə qoyuluşunu işdən çıxarmamaqla hüquqlarından imtina edir: 1) Hüquq və mülkiyyətdən könüllü imtina; 2) Cərimə verməklə sövdələşmədən çıxma; 3) İstifadə edilməsindən asılı olmayaraq opision müddətinin bitməsi.

2. **hüquq.** Əməkdaşın icazəsiz və üzrlü səbəb olmadan işdən getməsi ilə, onun işdən azad olunmasına səbəbin yaranması.

3. **sığorta.** Sığorta edilən əmlakdan mülkiyyətçinin imtina hüququ və bununla da sığorta edəndən həmin əmlakın tam sığorta haqqının alınması.

AKSELERASİYA isim. (latın mənşəli sözdür, ingilis dilində *acceleration* “sürətləndirmə” mənasındadır) **iqtisadiyyat**. 1.Sahibkar sövdələşməsinin vaxtından əvvəl bağlanışı.

2. **maliyyə**. Kredit müqaviləsində ödənilməmiş məbləğin dərhal ödənilməsi müddəti üzrə xüsusi qeyd.(1, 22)

Ədəbi dilimizdə yalnız isimlərlə deyil, eləcə də sifətlərlə birgə işlənən (I növ təyini söz birləşməsi) yeni terminlər yaranmışdır. Belə nümunələrin bir neçəsinə nəzər salaq:

AÇIQ sif. 1. Maliyyə. ***Açıq bazar*** – tədavüldə olan pul kütləsinə və kreditlərin həcminə təsir məqsədi ilə mərkəzi bank tərəfindən qiymətli kağızların alışı və satışı əməliyyatları. Bir qayda olaraq açıq bazar qısamüddətli, hərdən də hökumətin orta və uzunmüddətli qiymətli kağızları ilə aparılır.

2. sosiologiya. ***Açıq cəmiyyət*** – dinamik sosial strukturlu cəmiyyət.

3. təhsil. ***Açıq sual*** – test üsulu ilə imtahanda variantsız təqdim edilən sual. (1,13) Bu nümunədə açıq (necə?) sözü bazar, cəmiyyət, sual sözləri ilə yanaşma əlaqəsi vasitəsilə birləşərək birinci növ təyini söz birləşməsi yaratmış və yeni termin kimi dilə daxil olmuşdur.

Sözyaradıcılığında dili zənginləşdirmənin bir yolu da morfoloji üsuldur. Yəni şəkilçilərin köməyi ilə yeni sözlər yaradılır və dildə işləklik qazanır. Bəzən elə terminlərə rast gəlirik ki, bu terminlər müxtəlif sözlərə qoşularaq (sintaktik üsul) söz birləşməsi şəklində yeni mənalı termin kimi işlədilir, eyni zamanda müxtəlif leksik şəkilçilər qəbul edərək yeni sözlərin yaranmasında da iştirak edir. Məsələn:

AKSEPTANT is. **maliyyə.** Hesab, veksel ödənişinə razılıq vermiş hüquqi və fiziki şəxs. –ant şəkilçisi isimdən isim düzəldən şəkilçi kimi burada da öz vəzifəsini yerinə yetirmişdir. ***Akseptant bank*** – hesabın ödənişi öhdəiyini öz üzərinə götürən bank.

AKSEPTLƏNMİŞ f.sif. Aksept ödəniş tələbi blankında "akseptlənmişdir" – yəni "ödəyici (bank) tərəfindən ödənişə razılıq verilmişdir" yazısı şəklində sənədləşdirilir. (1, 22) Burada iki leksik şəkilçi işlənmişdir. Aksept+lən+miş.AKSEPTLƏŞDİRİLMİŞ f.sif. ***Akseptləşdirilmiş çek*** **–** ödəyici – bank tərəfindən alıcının hesabına müvafiq pul köçürməsini təmin edən akseptləşdirilmiş çek. Aksept+ləş+dir+il+miş. Göründüyü kimi dörd leksik şəkilçinin iştirakı ilə yeni termin yaradılmışdır.AKSEPTLƏŞMƏ sözü də aksept sözündən yaranmışdır. Aksept+ləş+mə. (1, 22)Tədqiqatın nəticəsi olaraq qeyd edə bilərik ki, dilin söz bazasının, onun leksik-semantik sisteminin zənginləşməsi müasir dilin inkişafında aktual problemlərdən biridir.Müasir dilçilikdə tədqiqatçılar dilin əsas lüğət fondunun iki zənginləşmə yolu olduğu fikrinin üzərində qərarlıdırlar: 1. Xarici, 2. Daxili. Xarici – xaricdən, yəni digər dillərdən sözalma, daxili – dilin öz resursları (sözdüzəltmə, sözbirləşdirmə) və dialektlər (dildaxili sözalma) hesabına. Daxili metod dilin əsas leksik qatına aid olan sözlərdəki dəyişiklikləri, məna genişlənmələrini, sözlərin özlərinin məna differensiasiyasını özündə birləşdirir.

Hal-hazırda bir çox dünya dillərində sözalma müsbət hal kimi qarşılanmır. Belə ki, alinmaların milli dilin təmizliyinə xələl gətirdiyi hesab olunur. Məsələn, Fransa dövləti rəsmi dairələrdə və KİV (kütləvi informasıya vasitələri) -də ingilis sözlərinin istifadəsini qadağan edən qanun qəbul etmişdir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. AMEA Nəsimi adına Dilçilik İnstitutu . Yeni sözlər və yeni mənalar lüğəti. Bakı, "Elm", 2016, 268 səh.
2. Cəfərov S. Müasir Azərbaycan dili, II hissə, Bakı, "Şərq-Qərb", 2007, 190 səh.
3. Xəlilov B. Müasir Azərbaycan dilinin leksikologiyası, Bakı 2008, 441 səh.
4. Əhədova Sevda, Müasir dünyada mədəniyyətlərarası münasibətlər, Bakı – "Elm", 2014, 347 səh.
5. Verdiyeva Z., Ağayeva F.M., Adilov M.İ., Semasiologiya, "Maarif", 1979, 305 səh.

К.Абдуллаева

Способы обогащения языка

Резюме

Словасоздание (в основном его лексико-семантический метод) обогащает словарный состав языка, расширяя семантический объем слов: слова, присутствующие в языке, разбиваются на двух или более омонимы в результате семантических изменений. Таким образом, этимологические точки зрения, является свободные и независимые новые слова.

Еще один способ обогатить словарный запас языка - адаптировать это слово к своим собственным фонетическим и грамматическим законам, таким как: vedro-vedrə, nomer-nömrə, stakan-stəkan, apteka-aptek, qazeta-qəzet, computer-kompüter и так далее. В то же время следует отметить, что темпы обогащения языка часто определяются развитием самого языка: чем более развит язык, тем медленнее скорость его изменения. Из этого можно сделать вывод, что прогресс в языке в его мало изменение. Если словарный запас языка начинает быстро меняться, связь между поколениями будет нарушена.

Потому что исторические, культурные, литературные и художественные традиции предыдущих поколений не будут доступны будущим поколениям. Следовательно, консервативный язык является связующим звеном между веками и поколениями и появлением мощной многовековой национальной литературы.

K.Abdullayeva

Ways language enrichment

Summary

Key words: vocabulary, semantics, word, language, development, receiving word

Vocabulary (mainly its lexical-semantic method) enriches the vocabulary content of the language by expanding the semantic volume of words: words that are present in the language are broken down into two or more survivors as a result of semantic changes. In this way, new words are emerging freely and independently.

Another way to enrich the vocabulary content of the language is to be adopted the word to its own phonetic and grammatical laws, such as: vedro-booklet, room number, cups, pharmacy, pharmacy, newspapers, computer-computers and so on. However, it should be noted that the development of language enrichment pace is determined by the language of the time: the more sophisticated language, then there will be the pace of change so slow. From this we can conclude that the progress in the language is little changed. If you begin to change very rapidly vocabulary, intergenerational link will be broken.

Because of the historical-cultural and literary traditions of previous generations in the future will be unavailable for the next generation. Therefore, the power of language linking conservatism centuries and generations, centuries-old causes the formation of a national literature.

Redaksiyaya daxil olma tarixi: 19.06.2019
Çapa qəbul olunma tarixi: 21.07.2019
Filologiya elmləri doktoru, professor Vilyət Əliyev
tərəfindən çapa tövsiyə olunmuşdur.

SEVDA AGHAYEVA
ADPU
Üzeyir Hcibeyli 68
seva.ava.17@mail.ru

JAFAR JABBARLI - 120

Summary

A lot of works with new theme and contents appeared during the years of the ADR. Poetry had a great success during that period. Jafar Jabbarli is one of the famous representatives of the Azerbaijan literature of XX century. Jafar Jabbarli played a big role in the development of the national literature. He preserved traditions of classical dramaturgy and Azerbaijan poetry, and served for the development of new poetical school and dramaturgy.

He was brought up on the background of classical literary heritage. The writer protected the brilliant traditions of the national literature. Jabbarli also turned the struggle for innovations and modernity into the main aim of his creation. Jafar Jabbarli founded a new stage in the history of the formation and raising of our dramaturgy. His works were appreciated as a major event in the national theatre and played an irreplaceable role in the formation of aesthetic taste of many generationsof audience. Jafar Jabbarli is one of the active founders of literary-cultural processes. He made an unparalleled contribution to our literary-aesthetic thought treasure due to his strong characters.

Though a period of Jabbarly's creation refers to the Soviet period, he glorified national essence in his works. Jafar Jabbarli preserved fine traditions of our national literature. That is the reason why he got such fame. The struggle for innovations and modernity was the main goal of his creation.

Jabbarli was one of the active builders of the literary-cultural processes. The study and translation of Jabbarli's creation into foreign languages is important from the point of view of preserving the national interests. Jabbarli's literary creation is analyzed in the article. English-speaking readers are informed about his literary qualities, language-stylistic elements.

The article deals with Jafar Jabbarli's life and creation. The extracts from his works are presented.

Key words: influence, manuscript, orient, author, ignorance, drama, playwright, screenwriter, pedagogue, literature, aesthetic, phenomenon, contribution, inauguration, bondage

The great Azerbaijani writer and playwright, poet and translator, screenwriter and director, Jafar Jabbarli (1899-1934), was one of our most talented and productive figures. More than 80 years have passed since his too-early death, but still his works are read with great pleasure, his plays are staged, films based on his works are shown, and all aspects of his broadly creative life are studied.

Jafar Jabbarli was born on the 20th of March in 1899 in the district of Khyzy not far from Baki in a poor family. He was a little child when his father lost his sight and the life of the family became hard. Little Jafar had to help his family from his early ages. But he was fond of reading and wanted to study. After his father's death in 1902, Jabbarli's mother moved to Baki with her four children.

The writer's mother Shahbike khanum was an honest and industrious woman. She had got four sons. The youngest of them was Jafar. 6-7 year old Jafar helped his mother by taking to tradesmen's shop bread cooked by his mother. In 1905 together with other children of the dist-

rict he entered first class of 7th three-class Russian-Tatar school school, opened in Haji Mammadhuseyn Badalov's private estate which was situated in "Pochtovi-25" street. Jafar's first teachers were notable pedagogue-writers Suleyman Sani Akhundov, Abdulla Shaig, Rahim bey Shikhlinski, Alimammad Mustafayev and others. While studying at primary school, under the influence of the writers and teachers as A. Shaig and S. S. Akhundov, his interest in literature increased and by reading works by Azerbaijani and Russian poets Jafar started to write. Among Jafar's manuscripts there are several poems, stories, texts for opera, even novels written by a pupil's handwriting. There are investigators, which prove that Jafar took his works to newspaper offices since 1913. Jabbarli first came to literature with his poems and his poems were first published on November 5, 1911 in the newspaper "Hagigati-afkar".

On May 2, 1915 having finished the school young Jabbarli enterted Electro-Mechanics department of Baki Industrial Polytechnic School and graduated from this school in 1920.

Then he was admitted to medical faculty of Baku State Universty. Here he studied for two years but this profession did not rose interest in J. Jabbarli. So on October 18, 1922 he left that faculty. On September 1923 when the Turkish Theatre School opened in Baku J. Jabbarli began to attend lectures in this school.

J. Jabbarli continued his education at the history faculty of the Orient Department of the Azerbaijan State University in 1924.

Jabbarli's Literary Activity

Jabbarli's creative activity lasted for a short period. He began his literary activity from 1915. On April 3, 1915 the journal "Maktab" on its 6th issue published the writer's poem "Bahar".

He wrote more than 20 plays, as well as poems, essays, short stories, and articles. He is not only one of the best playwrights and talented poets, but also a wonderful story-writer. Some of his stories were "Gular", "Gulzar" (1924) "Dilara" (1924) "Dilbar" (1927), "Firuza". The stories "Gular","Mansur and Sitara" (1916) written before and after the Russian revolution, were dedicated to the problem of freedom and human rights of women in the East. "Firuza" occupies a particular place.

"Vafali Sariyye or Goz yashları ichinde gulush" ("Devoted Sariya") was written on December 30, 1915. The author wrote "Solghun chichekler" ("The Withered Flowers") in 1916 and it was performed at Ismailliya and he wrote the story "Aslan and Farhad" in 1916. In his poems, written in this period, in the dramas young Jabbarli blames social inequality, ignorance. Historical drama "Nasraddin shah" was written in 1915 and first in 1919 was put on the stage in Ashgabad. "Trablis muharibasi" or "Ulduz" (1917) and "Adirna Fathi" (1917) were about Ottoman history. The theme for these works was taken from the nearer past (1911-1913) full of struggle of brother Turkish people. "Ulduz" and "Adirna Fathi"(Conquest of Adirna") (1917) were written in the period of the author's youth (18 year of age),"Bakı müharibəsi" ("Baki War") (1918) by the writer describes the bloody events of 1918. On September 16, 1919 this tragedy by Jabbarli was put on the stage of Azerbaijan State Theatre.

In 1919, at the age of 20, patriotic Jabbarli was writing about the flag of the Azerbaijan Democratic Republic:

Leave me, let me see, think and fondle,
This lovely three-colored, three-meaning flag.
Is it the wing of angels putting shadow over me?
What is it, my God?! Leaf of the fire land!
Is No, no! Flower grows pale, grasses are
trampled down.
But our flag likes to be top,
It is waved higher than stars and the Moon.

***

The lyrical heroes say the following in Jabbrali's famous poem is "Ana" ("Mother"):

There is no power in the world that I have bowed before.
There is no strong or weak being that can make me do that.
I am ready to fall on the ground every day,
And kiss its lcgs with great pleasure.
Who is that? What is that?
Mother! Mother!

His social hero Elkhan (from "Fire Bride"), says the following: "I am the herald of life and happiness in the earth". Another hero Aydin says "I want a world where nations are free, and there is no conquest, gold, luxury, decree..." Another hero Ogtay says:"I am not European and do not want to be."

J. Jabbarli was the most popular playwright of 1920-1930 Azerbaijan dramaturgy. J. Jabbarli's dramaturgy of 1930's begins with "Almaz". The spectacle was a great success.

Almaz is an extreme feminist. Here is the dialogue between Almaz and her fiance: Fuad: Almaz, I am a man, but you are a woman.

Almaz: Forget that. I do not recognize any men or women in the world. For me there is a human.

People should be free and independent in every work.

Fuad: Shouldn't there be a difference a man and a woman?

Almaz: There is. Your society allows men 'to commit crimes, but does not allow women to do it.

Fuad: Shouldn't we obey the rules of society, or not? Our slogan is being collective. Almaz: I fight against your rotten narrow-minded society. It is unfair. I do not have to follow it.

That society should be destroyed".

Almaz shows the right way to women and invites them to a "new world".

In his short life, Jafar Jabbarli has passed through from the melodramatic (and ardent! hot blooded!) world of "Faithful Sariyya" and "Faded Flowers", to the strict realism of "ln 1905", which requires a great deal of creation. Sariyya says "Mother, I don't love Gurban, I don't want to marry him. I love Rustam. Let me marry him. Mother, mercy me!"

Jabbarli is a great playwright, but at the same time, he is a poet, prose writer, critic and translator. Jabbarli's lyrics, his famous poem "Maiden Tower", his satirical works as a representative of the literary school of Sabir, and his stories and other activity as one of the prominent personalities of the Azeri cinema art, created literary criticism that were the fruits and results of the civic faith as a traditional characteristic of the educators and lucid-minded people of the 19th and 20th centuries. The happiness of Jabbarli as an artist and as a citizen was that his talent enhanced those opportunities and made them effective.

Nevertheless, most importantly is that non-native speakers should practice how to use idiomatic expressions. The more a non-native speaker of English is capable of using idiomatic expressions, the closer he or she is to English Language competence. Using idiomatic expressions in an adequate amount, parallel to native speakers brings the non-native speaker closer to English Language proficiency. Lack of idiomatic use and knowledge by non-native speakers equates their lack of English language competence. Idiomatic use and knowledge is not an easy task. That is, learning idioms, their meanings and the ability to use them copiously is not easily attainable. Nevertheless, this is not to be taken as a motive to disregard them. Idiomatic expressions must be included in English Language learning environments, materials, and EFL/ESL classrooms. Teachers of English must inspire their students to become aware of idiomatic expressions.

They should point out to their students the importance of the knowledge and usage of idioms, in order to be in a parallel position to native speakers. Teachers of English should not neglect such an important skill and should make their students realize it.

In Linguistics, it is known that idiomatic expressions carry arbitrary meanings. That is, idioms mean what they mean for no reason other than coincidence. Idiomatic expressions in linguistics are said to randomly carry the meanings that they do (Boers, 2008). However, it has been found by recent research, that many idioms are explainable and carry non-arbitrary meanings. Idiomatic expressions are found to carry meanings due to reasonable causes. Recent research tells us that idioms are non-arbitrary features of a language. Fortunately, teaching students that idioms carry non-arbitrary meanings help them to realize their meanings and memorize them. So, instead of teaching students to memorize idioms by heart, which is difficult, idioms can be taught in a systematic way. In such a way, idiomatic expressions become much easier to understand and remember (Ibid). Idioms mean what they mean for a reason. For example, idiomatic expressions such as "hot under the collar", "breathe fire", and "let off steam" refer to being angry. These three idioms carry the meaning that they do because anger is processed through the image of something hot inside. By being angry, one's body temperature is raised and that is why many people get red in the face when angry. Also, for instance, the idiomatic expressions "lend someone a hand", "try your hand at something" and

"have your hands tied" all refer to the meaning of performing an action. These idioms carry this meaning based on the image that we use our hands usually to perform most activities. Nevertheless, many other types of idioms are derived from specific domains and specific areas of experience.

For example, the idiom "clear the decks" which means “to finish a job completely"; the idiom "a leading light" which means "a good example to follow"; and the idiom "be on an even keel" which means "to make steady progress" are all derived from "sailing". Idioms such as "stick to your guns", which means "to refuse to change your opinion"; "fight a losing battle", which means "to be unlikely to succeed"; and "be in the front line", meaning "to have an important role" are all derived from the domain of "war". Other idioms are derived from other experience domains, such as entertainment, cooking or sports. Even though some of these domains may no longer exist and are uncommon today, learning the original context the idiom was derived from and the original image the idiom is based on will help in understanding its meaning. So, if one recognizes the origin of the idiom, one will be able to work out its meaning. As a result, idioms carry their meanings not by coincidence or chance and not for unexplainable reasons.

Idiomatic expressions are an essential part of every language and are built upon the history, heritage, customs and culture of a nation. Therein, learning the idiomatic expressions of a certain language helps one become more knowledgeable about the history, and social norms of the native speakers of that particular language. According to Ambrose (2008), idioms share cultural and historical information and broadens people’s understanding and manipulation of a language. Native English speakers grow up using idiomatic expressions on a daily basis. This is because they are raised listening to idioms and using them almost every day. Consequently, it might seem a challenge for non-native speakers of English to learn idiomatic expressions, similar to natives, but they can be learned with time and practice (Ambrose, 2008). As mentioned above, idiomatic expressions are culture bound and they carry the cultural beliefs and customs of their native language users. As such, non-native users of English Language may be influenced by his or her culture regarding their realization of the meaning of their idiomatic expressions. Nevertheless, learning idiomatic expressions will enable the English Language learner to become more knowledgeable and better aware of the English culture and customs (Fromkin et al., 2003). The importance of idiomatic Expressions also lies in the fact that it is an everyday routine of the native English speakers' language. Learning idiomatic expressions by non-natives leads them to better English proficiency, help their second or foreign language seem more native-like, and more creative. Thus, learning English idiomatic expressions improves one's second or foreign language skills; helps non-native speakers of a language understand that target language better and therefore should not be taken for granted (Yule, 2006). According to Maisa and Karunakaran (2013) No translator or language teacher can afford to ignore idioms if a natural use of the target language is an aim.

REFERENCES

1. Ambrose J (2008) "Why Idioms Are Important For English Language Learners." Mikolaiv State Pedagogical University.
2. Chen Y, Lai H (2013) "Teaching English Idioms as Metaphors through Cognitive-Oriented Methods: A Case in an AFL Writing Class". Canadian Center of Science and Education, 6(6).
3. Cooper T (1998). Teaching idioms. Foreign language annals, 31(2).
4. Cooper T (1999). Processing of Idioms by L2 Learners of English". TESOL Quarterly. 33(2).

5. Cowie AP, Mackin R, McCgaig IR (1983). Oxford Dictionary of English Idioms. Volume 2.Oxford: Oxford University Press.
6. Boers F (2008). Language Awareness: Understanding Idioms at macmillanddictionaries.com .Fromkin V, Rodman R, Hyms N (2003). An Introduction to Language.

L.Zeynalova

İngilis dili öyrənənlər üçün idiomların əhəmiyyəti

Xülasə

Idiomatik ifadələr və idiomlara ingilis diində tez-tez rast gəlinir.Ingilis dilində təxminən 25,000 yaxın idiomatik ifadələrin olunduğu güman edilir. İdiomatik ifadələr rəsmi və qeyri-rəsmi dildə istifadə olunur. Doğma dili ingilis dili olanlardan fərqli olaraq qeyri ingilis dillilər idiomatik ifadələri lazımı şəkildə başa düşmür və müvafiq şəkildə istifadə edə bilmirlər. Bu faktor qeyri ingilis dillilərin dil bacarıqlarının mənimsənilməsində problem yaradır və onların dil öyrənmə prossesində boşluğa səbəb olur.

İdiomatik ifadələr və idiomlar etinasız qalmamalıdır və hərfi mənası tərkib hissəni təşkil etdiyi kimi də təqdim olunmalıdır.İdiomlar ingilis dilində dil daşıyıcıları tərəfindən hər gün və dəfələrlə istifadə olunur.İdiomatik ifadələr hər bir dilin lüğət tərkibinin əsas hissəsi olub, o dilin tarixinə, irsinə və mədəniyyətinə əsaslanır.Idiomlar ana dili ingilis dili olan dil daşıyıcılarının dili daha səlis və təbii səsləndirməsinə kömək edir.

Bu ifadələrin öyrənilməsi ingilis dilini öyrənənlərin lüğət tərkibini və söz bazasını artırır. Bundan əlavə idiomatik bilik müəyyən bir dilin mədəniyyətini və adətlərini daha yaxşı anlamağa səbəb olur.İngilis dili müəllimləri öz tələbələrinə idiomatik ifadələri öyrətməli və bu vacib məsələni gözdən qaçırmamalıdırlar. Tələbələr idiomatik ifadələrin mənasını anlayır və onları tez-tez dil daşıyıcıları ilə ünsiyyətdə istifadə edirlər.Idiomlar ana dili ingilis dili olan dil daşıyıcıları tərəfindən təkrarən gündəlik olaraq istifadə olunur. İdiomatik ifadələrin öyrənilməsi qeyri-ingilis dilli dil daşıyıcılarının dili daha səlis və təbii səsləndirməsinə kömək edir.

Л.Зейналова

Важность идиоматических выражений для
изучающих английский язык

Резюме

В английском языке часто встречаются идиоматические выражения и идиомы. Предпологается, что английский язык содержит по крайней мере 25.000 идиоматических выражений. Английские идиоматические выражения используются в формальной, так и в неформальной коммуникации. Тем не менее не носители английского языка были признаны неспособными использовать идиоматические выражения. У ненасителях языка нет умения использовать идиоматические выражения и понимать их значения одекватно. Это представляет проблему в изучении для не носителей языка.

Идиоматические выражения или идиомы не должны игнорироватъся и не должны восприниматъся как должное. Идиомы используются ежедневно и неоднократно носителъями английского языка. Идиоматические выражения являются частью лексики каждого языка и основа нные на истории, наследии и культуре этого языка. Идиомы используются ежедневно и неоднократно носителями английского языка. Изучение

идиоматических выражений помогает людям, не являющимся носителями языка, стать более беглыми и звучать более по родному. Изучение идиоматических выражений увеличивает словарный запас и лексику изучающего английский язык. Кроме того, идиоматическое знание приводит к лучшему пониманию кулътуры и обчаев этого конкретного языка.

Преподаватели английского языка должны учитъ своих студентов идиоматическим выражениям и непускатъ из виду такую насущную проблему. Студенти изучая идиоматические выражения,понимая их значения часто используют их в общении носителями языка.Носители языка используют эти вражения ежедневно в своей речи.Изучение идиоматических выражений иностранцами помогает им часто исползоватъ их с носителями английского языка паралелъно.

Redaksiyaya daxil olma tarixi: 21.02.2019
Çapa qəbul olunma tarixi: 25.03.2019
Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru, dosent Tünzalə Əkbərova
tərəfindən çapa tövsiyə olunmuşdur

ƏDƏBİYYATŞÜNASLIQ

SONA VƏLİYEVA
filologiya elmləri doktoru
"Kaspi" Mətbuat və Təhsil Mərkəzinin rəhbəri
sonaveliyeva@gmail.com

HÜSEYN CAVİD VƏ MÜASİRLƏRİ: ABDULLA SUR

Xülasə

Hüseyn Cavidin dünyagörüşünün və bədii düşüncə sisteminin formalaşmasında Türkiyə mühitinin mühüm rolu olmuşdur. İstanbul Universitetində təhsil alan Hüseyn Cavid müəllimlərindən əxz etdikləri bilikləri və ideyaları öz əsərləri vasitəsilə həyata keçirmişdir. Maraqlıdır ki, Hüseyn Cavidin müasiri olan Abdulla Sur da məhz İstanbulda təhsil almış, İstanbul mühiti onları fikir və ideya baxımından bir-birinə xeyli yaxınlaşdırmışdır.

Abdulla Surun Hüseyn Cavidə olan səmimi münasibəti ona həsr etdiyi "Neyçin, nədən?" adlı mənsur şeirdə, Hüseyn Cavidin Abdulla Sura verdiyi dəyər isə onun vəfatı münasibətilə yazdığı məqalədə ifadə olunmuşdur.Abdulla Surun şeirində təbiətin canlı təsviri ilə yanaşı, bir ruh yüksəkliyi də özünü göstərir. Şeirdəki bu xətt H.Cavidin əsərlərindəki ruh yüksəkliyi ilə tamamilə səsləşir.

Hüseyn Cavid Abdulla Surun vəfatı ilə bağlı yazdığı məqalədə onun yaradıcılıq fəaliyyətini ictimai dəyərinə görə qiymətləndirir. Eyni zamanda Abdulla Surun müəllimlik fəaliyyətinin bir nümunə olduğunu diqqətə çatdırır. Bunun ciddi vətəndaşlıq işi olduğunu xüsusi şəkildə qeyd edir.

Açar sözlər: Hüseyn Cavid, Abdulla Sur, Türkiyə, İstanbul, mənsur şeir, təsvir, müəllimlik, vətəndaşlıq

İstər Azərbaycan ədəbiyyatı tarixinin müxtəlif tərəflərinin təhlilində, istər hər hansı bir yazıçının doğulub boya-başa çatdığı dövr və mühitin səciyyəsində, istərsə də bir yazıçının həyat və yaradıcılığının ideya-bədii xüsusiyyətlərinin araşdırılmasında doğru və dürüst nəticələrə gəlmək üçün yazıçıların öz müasirləri ilə münasibətlərinin öyrənilməsi çox faydalıdır. Hələ də bədii yaradıcılıq sirləri kifayət qədər öyrənilməyən, əsərlərinin sənətkarlıq xüsusiyyətləri lazımi səviyyədə araşdırılmayan, hətta əsərlərindəki hər hansı bir obrazın mahiyyətinin bütün tərəfləri ilə dərk edilməsi mümkün olmayan sənətkarlarımız üçün bu məsələ daha aktualdır. Şübhəsiz, bu məqamda görkəmli Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin adının çəkilməsi çox yerinə düşər.Azərbaycan ədəbiyyatşünaslığı Hüseyn Cavidi XX əsrin əvvəllərinin yetişdirdiyi dahi bir şəxsiyyət, azman bir sənətkar olmaqdan savayı, həm də XX əsr Azərbaycan romantizminin aparıcı nümayəndəsi kimi tanımış və ədəbi ictimaiyyətə, oxuculara da tanıtmışdır. Dünya ədəbiyyatının elə klassikləri vardır ki, onlar bir ədəbi cərəyanın sərhədləri daxilinə sığışmır və yaxud da həmin yazıçılarda bir neçə ədəbi cərəyanın təsiri açıqca görünür. Bu baxımdan şübhə yoxdur ki, Hüseyn Cavid əsərləri məzmun baxımından o qədər zəngindir və o qədər geniş ideyalar şəbəkəsinə malikdir ki, onu bir ədəbi cərəyan daxilində təsəvvür etmək də mümkün olmur.

Yaxud da Hüseyn Cavid yaradıcılığı möhtəşəm bir janr-poetika imkanlarına malikdir. Bir janrdan digərinə keçid, müxtəlif janrların sintezi, qeyri-adi dərəcədə forma yenilikləri, eyni zamanda dövrə və zamana sığmayan ideya xüsusiyyətləri Hüseyn Cavid yaradıcılığına həmişə yenidən qayıtmağı zərurətə çevirmişdir. Əslində bir-birinə zidd siyasi rejimlərin hakim olduqları vaxtlarda bir məslək ətrafında toparlanıb nişanlanmış hədəfə doğru tərəddüd etmədən yol almaq Hüseyn Cavid kimi fədakar sənət adamına xas keyfiyyətdir.

Hüseyn Cavid bütün bunları necə bacarmışdı? Şübhəsiz, deyilənlərin hamısı ilk növbədə onun Tanrı bilgisindən və Tanrıya olan sonsuz inamından irəli gəlmişdi. O, belə bir düşüncə və əqidəni hələ uşaq ikən öz ailəsindən əxz etmişdir. Hüseyn Cavidin ata ocağı ruhən Tanrıya bağlı bir müqəddəs məkan idi. Atası Abdulla kişinin qəlbində və beynində formalaşan inanclar ailənin hər bir üzvünə, o cümlədən Hüseyn Cavidə təsirsiz qalmamışdır.

Hüseyn Cavidin dünyagörüşünün və bədii düşüncə sisteminin formalaşmasında Türkiyə mühitinin mühüm rolu olmuşdur. İstanbul Universitetində təhsil alan Hüseyn Cavid müəllimlərindən əxz etdikləri bilikləri və ideyaları öz əsərləri vasitəsilə həyata keçirmişdir. Maraqlıdır ki, Hüseyn Cavidin müasiri olan Abdulla Sur da məhz İstanbulda təhsil almış, İstanbul mühiti onları fikir və ideya baxımından bir-birinə xeyli yaxınlaşdırmışdır. Professor Cəlal Qasımov "İrşad" qəzetində dərc olunan bir məlumatda İstanbulda oxumağa gedən tələbələrin 7 nəfər olduğu məlumatına əsaslanaraq Gəncədən gedən tələbənin məhz Abdulla Sur olduğu qənaətinə gəlir: "Türkiyəyə gedən tələbələrin hamısının şəxsiyyətlərinin müəyyənləşdirilməsi xüsusi tədqiqat tələb edir. Lakin həmin illərin dövri mətbuatı onlardan birinin də müəyyənləşməsinə imkan verir. Bu sahədə "İrşad" qəzeti daha çox gərəklidir. Çünki həmin illərdə bu qəzet Türkiyə həyatı ilə bağlı daha çox material çap edən qəzet idi. Qəzetin mart və iyul nömrələrində çap olunan "Yol məktubları" adlı silsilə yazılar gəncəli tələbənin kimliyini müəyyənləşdirməkdə əsas oldu. Belə ki, həmin məktublar İstanbula yola düşən tələbənin özünün yol qeydləri idi. Yol qeydləri tam aydınlığı ilə göstərir ki, İstanbula oxumaq üçün yola düşən yeddi nəfərdən biri məhz Abdulla Sur olmuşdur" (3, s.8-9). Nəzərə alsaq ki, İstanbulda təhsil alan naxçıvanlı tələbə isə Hüseyn Caviddir, onda bu iki şəxsiyyətin bir-birlərinə yaxın olmaları faktı üzə çıxır.

Hüseyn Cavidlə Abdulla Surun münasibətləri necə qurulmuşdur, onlar arasındakı əlaqələrin yaxınlığı hansı məsələlərdə özünü göstərir, bir-birinə dəyər verən bu şəxsiyyətlər başqalarına nümunə olmaq işində hansı fikiri, ideyanı əsas götürmüşdülər? Bax, bu və buna bənzər suallar hər iki görkəmli sənətkarın bir müasir kimi qarşılıqlı münasibətlərini dəyərləndirməyə, onların qarşılıqlı münasibətlərinin mahiyyətini dərk etməyə geniş imkanlar açır.Bəri başdan qeyd edək ki, Abdulla Sur "Həqiqət" qəzetinin 1 iyun 1910-cu il tarixli sayında dərc etdirdiyi "Neyçin, nədən?" adlı mənsur şeirini Hüseyn Cavidə həsr etmişdir. Eyni zamanda həmin şeirin epiqrafında belə bir cümlə yazmışdır: "Bəradərim şair ruhlu Hüseyn Cavidə". Abdulla Surun Hüseyn Cavidə olna səmimi münasibəti bu epiqrafdan aydınca görünür. Həmin epiqrafda iki cəhət duyulmaqdadır. Birincisi, Abdulla Sur Hüseyn Cavidə "qardaş" deyə müraciət edir və öz doğma, mehriban münasibətini həmin sözün çevrəsində kifayət qədər canlandıra bilir. İkincisi, Abdulla Sur Hüseyn Cavidi şair ruhlu şəxsiyyət kimi qəbul edir və həmin ifadədə Hüseyn Cavidin şairliyindən çox, müqəddəsliyi daha qabarıq formada görünür. Səciyyəvidir ki, Abdulla Sur Hüseyn Cavidi hər şeydən qabaq ruh adamı kimi qavrayır və o, bu qənaətində tam doğrudur. Çünki onun əsərlərində ruhani bir saflıq, ruh aləminin inikası, bir çox obrazlarında ruhların dolaşdığı məkana can atmaq xətləri vardır.

Bu mənada Şeyx Sənan və Sevda obrazlarını xatırlamaq yerinə düşər. "Şeyx Sənan" faciəsində baş qəhrəman kimi Şeyx Sənanın düşüncəsi, hərəkətləri, davranışı deməyə tam əsas verir ki, Şeyx Sənanın öz ruhi aləmi vardır. Şeyx Sənanın röyada ikən buludlar arasında Xumarı görməsi də, əsərin sonunda əl-ələ verib göylərə uçması da onun ruhi aləmi ilə bağlıdır.Yaxud "Xəyyam" əsərində Sevdanın ruhi dünyası pyesin süjet və kompozisiyasının tərkib hissəsinə çevrilmişdir. Yalnız Xəyyam kimi öz ruhi dünyası olan ədəbi qəhrəman Sevdanın ruhi dünyası ilə qarşılaşa bilərdi. Burada bədii yaradıcılığın məntiqi də tamamlanmış olur.

Həm Şeyx Sənanın, həm də Sevdanın ruhin yüksəlişi Hüseyn Cavid tərəfindən elə təqdim olunmuşdur ki, ruhlar dünyasından xəbəri olmayan heç bir sənətkar həmin təqdimatı verə bilməzdi. Yəni obrazlarının ruhi yüksəlişini Hüseyn Cavid ruh yüksəkliyi ilə yaratmağa nail olmuşdur.Çox maraqlıdır ki, Abdulla Surun "Neyçin, nədən?" mənsur şeirində də Hüseyn Cavid əhvali-ruhiyyəsini aydın şəkildə müşahidə etmək mümkündür. Professor Cəlal Qasımov həmin şeir haqqında yazır: "Bizcə bu təsvir son dərəcə sənətkarlıqla yaradılmışdır. Təbiəti hamı görür, onun çaylarını, yağış və yağmurunu hamı müşahidə edir. Çiçəklərin tərpənişi də, axan suların həzin musiqiyə çevrilən şırıltısı da hamının yaddaşında əks-səda verir. Onların sanki bir poeziya olduğunu da adamlar yaxşı duyurlar. Lakin bu adiliyi sənət dilinə çevirmək o qədər də asan deyildir. A.Surun şairlik gücü elə bundadır ki, o, adi həyat həqiqətini yüksək poetik dillə ifadə edə bilmişdir" (3, s.47).

Şeirin "Ağacların çoxu çiçəkləmiş: buludlara sarınmış şəfəqlərə bürünmüş, hər biri rəngin bir pəri olmuşdu" ilk cümləsi real dünya ilə mifik dünyanın vəhdətini əks etdirir. Şübhəsiz, bu cümlədəki poetiklik təbiət təsvirinə əsaslanır, amma bu təsvir ənənəvi deyil, yeni yaradıcılıq xüsusiyyətləri daşımaqla ağacın, buludun, şəfəqlərin və pəri obrazının vəhdətini yaratmışdır. Bir tərəfdə təbiətin reallıqları, digər tərəfdə isə pəri obrazı və xəyal uçuşu aydınca sezilir. Təsadüfi deyildir ki, sonralar Hüseyn Cavid yaradıcılığında, Hüseyn Cavidin romantik düşüncə sistemində mif və reallığın toqquşmasına rast gəlmək mümkün oldu. "İblis" faciəsində İblislə Arifin qarşılaşması mif və reallığın toqquşmasının əyani sübutu oldu.

Abdulla Sur "Neyçin, nədən?" şeirində təbiətə, o cümlədən çaylara canlı bir varlıq kimi baxır, ya da onları elə canlı görür. "Şəfəq yüzlü, sarma saçlı, mavi gözlü səma səfa və əlaviyyətini qaib edib, bənizini atdı" cümləsindəki təsvir gözəl bir qızın təsvirini xatırladır.

Yaxud: "Axırın vadeyi hiça-hiçadır, yaxud əslinə racidir. Yerdə ikən göydə uçarsan... göydə ikən yerdə qaçarsan... Lətif ikən kəsif olursan... Saf ikən bulanırsan... O zümzümən dərin-dərin fəğandır... O qəhqəhən için-için iniltidir... oyanır qıvrılırsan... yılllar ilə inləyir ağlarsan... bağırarsan". Burada isə kədərli bir insanın taleyi görünür. AMEA-nın müxbir üzvü Kamran Əliyev yazır: "Bunlar yağışdan sonrakı təbiətin, çaylar və bulaqların hamıya məlum mənzərəsidir. Lakin şair bu ahəngə, bu təbiiliyə ictimai məzmun verir, milyonlarla insanın qəlbində kök salan əzab və ağrını təbiətin üzərinə endirir" (2, s.146).

Abdulla Surun Hüseyn Cavidə ünvanlanmış "Neyçin, nədən?" mənsur şeiri öz dövrü üçün bir ədəbiyyat hadisəsidir.

Bəs Hüseyn Cavidin Abdulla Sura münasibəti necə olmuşdur? Bu sualın cavabı kədərli bir faktla – Hüseyn Cavidin Abdulla Surun vəfatı münasibəti ilə yazdığı məqalədən bəlli olur. Bu məqalə "İqbal" qəzetinin 1912-ci il 16, 17, 18 may saylarında çap edilmişdir. Həmin məqalənin ümumi bir adı vardır: "Mirzə Məhəmmədzadə, yaxud (A.Sur) – Abdulla Tofiq" və Abdulla Surun vəfatı münasibətilə yazılmışdır. İlk abzasda da onun ölümünün kədərlə qarşılanmasının mənzərəsi yaradılmışdır: "May ayının on birinci günü gündüz saat on birdə Gəncə vağzalının önündə bir qutu (tabut) nəzərə çarpırdı ki, içində (A.Sur), o nakam cavan, o qəyur ədibimiz xabi-əbədisinə varmışdı. On dörd gecəlik ayı əhatə edən yıldızlar kimi mədrəseyi-ruhaniyyə tələbə və müəllimləri cənazənin ətrafını sarmışdı. Hər kəs qeyb olmuş bir fəzilətin, əldən çıxmış bir nemətin yadi-həsrətilə mütəəssir olduğunu göstərirdu. Hazırun, böylə fəal və mütəşəbbüs bir cavanın, böylə natiqəpərdaz bir qəhrəmanın sükuti-həzinini düşündükcə heyrət və təfəkkürdən özünü alamayırdı" (1,s.219). Elə ilk cümlələrdəcə Hüseyn Cavid Abdulla Surun böyüklüyünü nəzərə çarpdırır. Fəal, təşəbbüskar, peşəkar natiq kimi təqdim olunan Abdulla Sur haqqında ilk təəssürat kifayət qədər dolğun və bütövdür. Tələbə və müəllimlərin cənazə ətrafında toplaşmalarını Hüseyn Cavid "On dörd gecəlik ayı əhatə edən yıldızlar" kimi səciyyələndirir. Əslində bu obrazlı cümlə də Abdulla Sura verilən dəyər səviyyəsində qiymətləndirilməlidir.Başqa bir mühüm məqam ondan ibarətdir ki, Abdulla Surun böyük hörmət-izzətə sahib olması təziyə yerinə gələn insanlarla da təyin olunur. Hüseyn Cavid məqalədə yazır ki, mədrəsə müdiri Pişnamazzadə, doktor Həsənbəy Ağayev, Bağbanlar məktəbinin naziri Həsənbəy, şəhər məktəbinin türkcə

müəllimi İsmayılzadə Mirzə Hüseyn cənabları ilə yanaşı, çar çinovnikləri Sisyanov və Voronsov məktəblərinin şagirdləri də dəfndə iştirak etmişdilər.

Dəfn zamanı Hüseyn Cavidin maraqlı müşahidələrindən biri cənazə üzərindəki yazı olmuşdur: "Tabutun üzəri tirmələr, şallar, ipəklərlə bəzənmişdi. Məktəb tələbəsi tərəfindən ilk baharın yeni açmış gül-qönçələrilə süslənmişdi. Cənazənin üzərində mərhumun adilə bərabər Namiq Kamal mərhumun bu beyti də yazılmışdı:

Yüksəl ki, yerin bu yer deyildir,

Dünyayə gəliş hünər deyildir" (1, s.221).

Əslində cənazə üzərində yazılmış bu sözlər iki cəhətdən əhəmiyyətlidir. Birincisi, bu, Abdulla Surun Türkiyədə təhsil almasına, Namiq Kamal kimi türk mütəfəkkirlərinin yaradıcılığına yaxından bələd olmasına, onların əsərlərindəki ideyaları əxz etməsinə işarə idi. İkincisi isə Abdulla Surun bir romantik şair kimi daimə yüksəklərə can atmasına, öz yazılarında romantizmin estetikasına tərəfdar olmasına haqq qazandırılırdı.

Abdulla Surun gördüyü işlərin bəzilərini isə mədrəsənin riyaziyyat müəllimi Rza bəy Qaraşarov dəfn mərasimindəki nitqində söyləyir: "Mərhum İstanbulda ən çox lisan, tarix və ədəbiyyat ilə iştiğal etmişdir. İkmali-təhsil etdikdən sonra doğru Gəncəyə gələrək mədrəseyi-ruhaniyyədə millət yavrularının gözünü, fikrini açmağa başlamışdır. Mərhumun lisana, osmanlı ədəbiyyatına dair tətəbböatı var, eyi əsərlərdir, hənuz təb olunmamışdır. Kərbəla vaqiəsinə dair də tətəbböatı var, qəzetdə nəşr olunmuş. Ruscadan bir coğrafiya kitabı tərcümə etmiş, Şinası mərhumun "Şair evlənməsi" ünvanlı (vodevilini) Azərbaycan türkcəsinə təhvil etmiş və üç cild üzrə şüəranın gözəl mənzumələrini toplayıb müntəxəbat (xrestomatiya) etmək istəyirdi ki, vəfat etdi" (1, s.222-223). Hüseyn Cavidin Rza bəy Qaraşarovun çıxışından bu hissəni verməsinin səbəblərindən biri onun əsərlərini xatırlatmaqdırsa, digər bir mühüm səbəb də Abdulla Surun mədrəsədə dərs deyərkən "millət yavrularının gözünü, fikrini açmağa başlamışı" düşüncəsi olmuşdur. Ona görə ki, Hüseyn Cavid özü də həm müəllim işləyərkən, həm də yaradıcılıqla məşğul olarkən hədəf kimi seçdiyi ideyalardan biri məhz insanların düşüncələrini yeniləşdirmək ibarət olmuşdur.Hüseyn Cavid doktor Həsənbəy Ağayevin çıxışını Abdulla Suru "südü təmiz bir türk oğlu, türk aşiqi, türk məftunu olduğu" baxımından dəyərləndirilməsini təqdir edir. Ona görə ki, bu xüsusiyətlər Abdulla Surun bütün yaradıcılığı boyu hiss edilir. Onun hər şeirində, hər məqaləsində türk düşüncəsi mühüm yer tutur və doktor Həsənbəy Ağayev onu "türk oğlu, türk aşiqi, türk məftunu" adlandırmaqda tam haqlı idi.

Hüseyn Cavid məqalədə 9-10 yaşlı bir uşağın çıxışını isə bütöv verir ki, bizdə onu təkrar etməyi lazım bildik:"Həzərat! Simasından insaniyyət yağan, danışığından ruh aşinalığı məlum olan bu mərhumu bir-iki ildən bəri tanıyırdım. Müəllim olduğundan uşaqlara olan məhəbbətinə görə bəzi vəqtlər olurdu ki, mənim ruhumu tərbiyə etmək üçün, mənə ibrətli hekayələr söylərdi. Ona görə Abdulla əfəndiyə, bu qürbətdə qardaşıma olan məhəbbətim qədər, qəlbimdə bir böyük məhəbbət bəslənmişdi. Bir gün, bir yaz sabahı onun vəfat xəbərini eşidən və onu sevən bir çocuq nə hala düşər? Vəfat xəbərini eşitdikdə tüklərim ürpərdi, kədər qəlbimi sıxdı. Doğrusu heç inanmaq, onun cavanlığına ölüm yaraşdırmaq istəmədim. Heyhat! Getdi... O vücudi-müəzzəm getdi. O namusi-mücəssəm getdi... Ey möhtərəm atalarım! Böylə səyli, millət-dost müəllimin, müəllimlər zümrəsindən adının silinməsi camaatımıza, ələlxüsus biz məktəb çocuqlarına nə böyük müsibətdir. Zira biz uşaqların ruhunu tərbiyə edib məişət və səadət yoluna salik edən böylə qeyrətli müəllimlər deyilmi? Türklük və islamiyyət hisslərini bizim qəlblərimizdə caygir edən, böylə millətpərvər müəllimlər deyilmi?

Böylə ruhani atanın əldən getməsi ümum uşaqların, xüsusən mədrəseyi-ruhaniyyədə oxuyan şagird arxadaşlarımın müsibət günü olduğundan bütün əqrəbasilə bərabər, mütəəllim qardaşlarıma səbri-cəmil əta olunmasını baritəala həzrətlərindən niyaz edərəm" (1, s.223, 224).

Məktəbli Hacı Əmirovun bu çıxışında ən mühüm məqamlar "danışığından ruh aşinalığı məlum olan", "mənim ruhumu tərbiyə etmək üçün mənə ibrətli hekayələr söylərdi", "biz uşaqların ruhunu tərbiyə edib məişət və səadət yoluna salik edən", "Türklük və islamiyyət hisslərini

bizim qəlblərimizdə caygir edən, böylə millətpərvər müəllimlər deyilmi?", "ruhani ata" ifadə və cümlələridir. Əslində bunlar həm də Hüseyn Cavidin özünün ruh adamı olan Abdulla Sura dərin məhəbbəti idi.

Maraqlıdır ki, Hüseyn Cavidin tam şəkildə nümunə gətirdiyi Cavad əfəndinin dəfn mərasimində oxuduğu şeirinin son misraları da Abdulla Surun pak ruhundan bəhs edir:

Ey qardaşlar! Yurdumuza günəş yeni doğmuşdu,
Bir azacıq, demək olar, dostlar deyən olmuşdu.
Ancaq dünən başımıza kölgə salan bir bulut,
Önümüzdə!.. Haqqın varsa, ey daş yürək, gəl unut!..
Yox... Yox... Sizin məzarınız qəlbimizin ən dərin,
Bir yerində saxlanmışdır, sənin o pak ruhunçin.
Bütün dünya alt-üst olsa, mən ki, səni unutmam,
Ay qardaşlar (amin) deyin, Allah bunu əfv etsin (1, s.224-225).

Hüseyn Cavid yazır ki, Sisyanov məktəbinin türk lisanı müəllimi Əli bəy əfəndi "A.Sur mərhumu işıqlı bir elm çırağına bənzətdi. Məktəb çocuqlarını da onun (o çırağın) ətrafında dönüb dolaşan pərvanəyə təşbih etdi" (1, s.225).

Hüseyn Cavid "Mirzə Məhəmmədzadə, yaxud (A.Sur) – Abdulla Tofiq" məqaləsində o məsələlərə üstünlük vermişdir ki, həmin məsələlər Abdulla Surun həyat və yaradıcılıq fəaliyyətinin əhəmiyyətini daha bariz şəkildə diqqətə çatdırır.

Hüseyn Cavid məqalənin üçüncü hissəsində müəllimlik sənətinə yüksək dəyər verir. Müxtəlif Şərq və Qərb ölkələrində müəllimlərə olan münasibətin şərhini verir. Yaponiyanın tərəqqisinin müəllimlərin sayəsində olmasını, Bismarkın Almaniyanın tərəqqisini müəllimlərə bağlamasını, Abbasilər xilafətindən olan Harun ər-Rəşidin hikmət və riyaziyyat müəllimi əldə etmək üçün Bizans hökuməti ilə müharibə eləməsi kimi faktlar diqqətə çatdırılır. Eyni zamanda müəllimlərin çətin vəziyyətdə yaşamalarını da qeyd edir. Bununla yanaşı Hüseyn Cavidin əsas tövsiyyəsi ondan ibarətdir ki, müəllimlər öz vəzifələrini həmişə ləyaqətlə yerinə yetirməlidirlər. O yazır: "Lakin, ey müəllimlər! Ey möhtərəm əfəndilər! Sizlər, sizlər əsla millətimizin, mühitimizin bu etinasızlığına etina etməyiniz. Daima çalışın, çabalayın! Millət, vətən uğrunda canınızdan keçmək belə icab etsə saqınınız! Əsla cəsarətsizlik göstərməyiniz. Mühitimiz sizi təqdir etməyir, edəməyir. Zərəri yox. Lakin əlinizi, qolunuzu qırmadıqlarından, sizi zindanlarda çürütmədiklərindən yana bu millətə darılmaq, küsmək deyil, təşəkkür etməliyiz, həm də minlərcə təşəkkür etməliyiz" (1, s.227-228).Bu istiqamətdə isə Hüseyn Cavid Abdulla Surun da dəyərini yüksək qiymətləndirir: "Əvət, mərhum A.Sur çox çalışqan, çox sahibməslək, çox himmətli bir müəllim idi. Həm də çox durbin, çox münəqqid bir ədib idi. Qafqaz toprağı bir də çox güc öylə cavanlar yetişdirə bilər. Onun haqqında beş-üç sətir deyil, tərcümeyi-hal olmaq üzrə yüzlərcə səhifə yazıb doldurmaq icab edər. Abdulla Tofiq ölmədi, öləməz. O yaşar, tarixin ağuş-səmimiyyətində, millətin qəlbində yaşar" (1, s.228).

Ədəbiyyat

1. Cavid Hüseyn. Əsərləri, 5-ci cild, Bakı, "Lider nəşriyyatı", 2005
2. Əliyev Kamran. Azərbaycan romantizminin poetikası. Bakı, "Elm", 2002
3. Qasımov Cəlal. Abdulla Surun həyat və yaradıcılığı. Bakı,"Təhsil" nəşriyyatı, 2003
4. Sur Abdulla. "Neyçin, nədən?" -"Həqiqət" qəzeti, 1 iyun 1910 № 123

Sona Valiyeva

Huseyn Javid and his contemporaries
Abdulla Sur
Summary

The cultural milieu of Turkey had played an exceptional role in forming the outlook and literary thinking system of Huseyn Javid. Huseyn Javid, who has studied at Istanbul University had implemented the knowledge and ideas mastered by him from his teachers through the poetic texts. It is interesting that Abdulla Sur, one of contemporaries of Huseyn Javid has also studied namely in Istanbul, i.e. the cultural milieu of Istanbul has brought them nearer.

The cordial attitude of Abdulla Sur to Husyen Javid was expressed in duly manner in the poem in prose by him "Why?" It is to be noted that the estimation given by Huseyn Javid to Abdulla Sur was expressed in an article written by H.Javid in connection with his death. As to the poem, written by Abdulla Sur you can see here the alive description of the nature and enthusiasm. This direction in the poem has the same tone as in the H.Javid's works.

In the article written in connection with the death of Abdulla Sur, H.Javid estimates his works by their social value. At the same time, he appreciates his activity as a teacher very highly.

Key words: Huseyn Javid, Abdulla Sur, Turkey, Istanbul, poem in prose, description, profession of a teacher, citizenship

Сона Валиева

Гсейн Джавид и его современники
Абдулла Сур
Резюме

Культурная среда Турции сыграла исключительную роль в формировании мировоззрения и литературного мышления Гусейна Джавида. Гусейн Джавид, который учился в Стамбульском университете, осуществил знания и идеи, полученные им от своих учителей, были позже выражены в его поэтических работах. Интересно, что Абдулла Сур, один из современников Гусейна Джавида, тоже учился именно в Стамбуле, т.е. культурная среда Стамбула приблизила их. Искреннее отношение Абдуллы Сура к Гусейну Джавиду было представлено в стихотворении в прозе «Почему?». Стоит отметить, что оценка, данная Гусейном Джавидом Абдулле Суре, была упомянута в статье, написанной Г. Джавидом в связи с его смертью. Что касается стихотворение, написанное Абдуллой Суром, вы можете увидеть там живое описание природы и энтузиазма. Это направление в стихотворении имеет тот же тон, что и в работах Г. Джавида.

В статье, написанной в связи со смертью Абдуллы Сура, Г. Джавид оценивает его произведения по их социальной значимости. В то же время он ценит высоко его работу в качестве учителя.

Ключевые слова: Гусейн Джавид, Абдулла Сур, Турция, Стамбул, стихи в прозе, описание, профессиональный преподаватель, гражданство.

Redaksiyaya daxil olma tarixi: 19.06.2019
Çapa qəbul olunma tarixi: 21.09.2019
Filologiya elmləri doktoru, professor Kamran Əliyev tərəfindən çapa tövsiyə olunmuşdur.

QƏRƏNFİL RZAYEVA
ADPU-nun Ağcabədi filialı
qerenfilrzayeva40@gmail.com

ANARIN ƏSƏRLƏRINDƏ ZAMAN OBRAZI

Xülasə

Belə bir məşhur deyim vardır: "Həyat su kimi axıb gedir". Bu ifadənin özündə belə "həyat" ifadəsi altında gizlənən zamandır. İnsan ömrünü öz axarında enişə-yoxuşa sürükləyən, onu öz fövqündə əridən həmin zamandır. Nəsillər dəyişir, vaxt gah köhnəlir, gah da təzələnir. Bütün bu zaman axımında insanla bərabər boya-başa yetən zaman həyat səhnəsindən silinməyən əbədi obraza çevrilir.

Odur ki, insan və zaman haqqında düşüncələr daim yaradıcı təfəkkür sahiblərini narahat etmiş, düşündürmüş və bu ayrılmaz ikilinin poetik cizgilərini yaratmağa çalışmışlar. Məqalədə problem olaraq insan və zaman məfhumu götürülmüş və gerçək anlamda bədii həllinə nail olmaq üçün mənbə olaraq xalq yazıçısı Anarın əsərlərinə müraciət edilmişdir.

Aparılan araşdırmalar nəticəsində məlum olmuşdur ki, zaman daim hərəkətdədir. Təbiətin bir parçası olan insan zamanla qoşa addımlamaq, zamanı, hətta anı yaşamaq istəyirsə, o zaman həyatı düzgün dərk etməli, baş verən hadisələrdən vaxtında və düzgün nəticə çıxarmağı bacarmalıdır.

İnsan həyatda o zaman uğur qazanır ki, onu öz axarına salıb aparan zamanın fövqünə varır, onu adi qəbul etmir və daim hərəkətdə olaraq zamanın onu üstələməsinə imkan vermir. Təkcə həyatın insana bəxş etdiklərini deyil, malik olunması ehtimal olunanlar uğrunda belə çarpışır. Doğru bildiyi yoldan əl çəkmir və daim dinamikdir. Çünki həyat dinamikliyi sevir.

Açar sözlər: zaman, insan, həyat, tale, bəxt, xoşbəxtlik, obraz, qəhrəman

İnsan bütün daxili və zahiri əlaməti, iç dünyası, mənəviyyatı, ağlı, dərketməsi və hissi-emosional əhvali-ruhiyyəsi ilə təbiətin bütün digər canlıları içərisində ən ali varlıqdır. Ona görə də insan və insanla bağlı bütün məqamlar daim aktual olmuş və olmaqdadır. Tədqiqata cəlb etdiyimiz insan və zaman problemi bütün sənət adamlarını düşündürən çox vacib bir məsələ olmuşdur. Diqqət yetirsək görərik ki, nə zamansız insanı düşünmək mümkündür, nə də insansız zamanı. Bu iki məfhum bir-biri ilə üzvi surətdə əlaqəli olub, birgə var olmaqdadır.

İnsanın zamandan, yaxud da ki, zamanın insandan asılılığını ayırd etmək üçün konkret olaraq məchulu –zamanı deyil, məlumu – insanı analiz etməyə səy göstərsək, fikrimizi sübuta yetirə bilərik.

İnsanın anadan olma və böyümə prosesinə nəzər salaq. Çağalıq, uşaqlıq, yeniyetməlik, gənclik, orta yaş dövrü və nəhayət, qocalıq. Bütün bu proseslər ayrı-ayrı dövrlərdə baş verir və biz bunu təbii ki, həmin dövrlərə əsasən ayırd edirik. İnsanın böyüməsi, ağla-kamala yetməsi, həyatı dolğun dərk etməsi üçün müəyyən zamana ehtiyac vardır. Məhz bu xüsusiyyətinə görə insanı zaman axımından kənarda düşünmək qeyri-mümkündür.

Zamanın insan həyatında oynadığı rola gəlincə, heç tərəddüd etmədən xəyalımızda onun möhtəşəm obrazını yaratmağa çalışırıq. Əslində gözlə görünməyən, əl ilə toxunulması qeyri-mümkün olan bu obraz nə qədər özünü batində saxlasa da, onun əlamətlərini, hərəkət istiqamətini, axımını, sürətini təyin etmək o qədər də çətin deyil. Belə bir məşhur deyim vardır: "Həyat su kimi axıb gedir". Bu ifadənin özündə belə "həyat" ifadəsi altında gizlənən zamandır. İnsan ömrünü öz axarında enişə-yoxuşa sürükləyən, onu öz fövqündə əridən həmin zamandır. Nəsillər dəyişir, vaxt gah köhnəlir, gah da təzələnir. Bütün bu zaman axımında insanla bərabər boya-başa yetən zaman həyat səhnəsindən silinməyən əbədi obraza çevrilir.

Odur ki, insan və zaman haqqında düşüncələr daim yaradıcı təfəkkür sahiblərini narahat etmiş, düşündürmüş və bu ayrılmaz ikilinin poetik cizgilərini yaratmağa çalışmışlar. Bu məqalədə problem olaraq həllinə çalışdığımız insan və zaman məfhumunun gerçək anlamda bədii həllinə nail olmaq üçün mənbə olaraq xalq yazıçısı Anarın əsərlərinə müraciət etmişik.

Anarın əsərlərini oxuyarkən rast gəlinən mühüm xüsusiyyətlərdən biri, ən başlıcası, yazıçının ömrə, vaxta, zamana böyük dəyər verməsi, onu bütün sirri, müəmması, dolğunluğu ilə açıb göstərməyə çalışmaq əzmidir. Demək olar ki, onun qələmə aldığı əsərlərin əksəriyyətində heç zaman öz rolunu, mövqeyini itirməyən, müxtəlif təzahür formaları ilə yaddaşlara hopan əbədi, əzəli bir obraz yaşayır – vahid Zaman obrazı! Bu obraz əsərlərdəki qəhrəmanlar qədər əhəmiyyətlidir. Çünki hər bir qəhrəman bu zaman çərçivəsində, zamanın hökmünə, bir qədər dərin düşünsək, zamanın iradəsinə uyğun şəraitdə formalaşır, yetkinləşir. Əgər həmin qəhrəman vaxtı, zamanı bütün dəyəri ilə anlaya bilmişsə, o, zamanın fövqünə yüksələ bilir, zamanı qabaqlayır, daha doğrusu, vaxta qalib gəlir.

Qəhrəmanı bilavasitə qəhrəman kimi formalaşdıran, onu reallığın güzgüsündə əks etdirən, tamamlayan, hərtərəfli dərk olunmasına kömək edən, təhlilinə şərait yaradan vasitə kimi zaman məfhumu dərin əhəmiyyətə malikdir. Nə zamansız qəhrəmanı, nə də qəhrəmansız zamanı düşünmək mümkündür. Çünki hər kəs öz dövrünün, öz zamanının qəhrəmanıdır. Əgər həqiqi qəhrəmandırsa və onun bir qəhrəman kimi arzusu, idealları, sözü və əməli zəmanənin tələbinə nəinki uyğundur, həmçinin zəmanədən irəli getməyi bacarırsa, onda həqiqi qəhrəman kimi həməsrlərindən – müasirlərindən seçilir, qəhrəmanlıq simvolu olaraq ədəbiyyata, əbədiyyətə köçür.Anarı düşündürən Vaxt obrazı onun ədəbi-fəlsəfi axtarışlarının mükəmməl bədii həllindən doğan ədəbi fakt kimi qiymətləndirilməlidir. Müəllifin mücərrəd qəhrəmanı olan Vaxt canlı, inandırıcı, həmçinin olduqca düşündürücüdür. İnsan bu qəhrəmanın təhlilinə çalışarkən, müxtəlif buxovlarla cilalanmış, həm aydın, həm mürəkkəb və ziddiyyətli, həm də müəmma, sirr dolu zamanın fövqünə varır, düşünür, vaxtı, anı yaşayır, daxilində yaşadır, özününküləşdirdikdən sonra bu obrazın mahiyyəti öz düyün nöqtəsindən uzaqlaşaraq, get-gedə aydın çalarda dərk olunmağa başlayır.

Yazıçının "Vaxt və baxt haqqında düşüncələr" adlı ədəbi-bədii məqaləsində vaxtilə Rafael Hüseynovun yazdığı "Cavidlər" əsəri haqqında söylədiyi fikirlər qənaətimizə şübhə deyil, dərin inam oyadır: "Amma "Cavidlər" yazısında dörd əsas real və bədii surətdən əlavə bir möhtəşəm obraz da var – Vaxtın obrazı. Vaxtın Baxta çevrilməsi. Vaxtla insanın münasibətləri. İnsanın vaxtdan yüksəyə qalxmaq hünəri... Vaxt obrazını yaratmaq – forma, ifadə vasitələrində də cəsarətli axtarışlar istəyir" (1, 397).

Göründüyü kimi, Anar bu obrazı – gözlə görünməyən, lakin öz axarını, öz ritmini pozmayan, əbədi təkrarsızlığı ilə hökm sürən bu möhtəşəm obrazı tam reallığı ilə dərk etmiş, nəinki öz əsərlərində, hətta yaranmış digər əsərlərdə belə vaxtın mütəmadiliyini, vaxtın insanı üstələməsi, bəzən insanın vaxtdan ucaya yüksəlməsini ayırd edə bilmiş, çoxları üçün qaranlıq olan bu məfhumun tam, bitkin obrazını yarada bilmişdir. Odur ki, Rafael Hüseynovun vaxt duyumunu analiz edən sənətkarın sərrast düşüncələrini onun özünə də şamil etmək doğru olardı.

Anarın "Taksi və vaxt" hekayəsinə diqqət edək. Əsər haqqında nə qədər deyilsə belə, yenə də zamanın, vaxtın qəhrəmanların həyatında oynadığı rolun müxtəlif baxımdan qeydinə ehtiyac duyulur. Əsərdə vaxtın insan ömrünü öz axarına salıb apardığı, daha doğrusu, insan ömrünün su kimi gəlib keçməsi nisgilli bir xatirə kimi yada salınır. Ömür öz axarı ilə gedir. Zaman dəyişir. Vaxt gah köhnəlir, gah da təzələnir. Qəhrəmansa, bu ömür axarında həyatın ona bəxş etdiklərini qazandığı kimi də itirir. O, zamanın axımını sonradan duyur, kədərlənir, həyəcan keçirir, sanki zamanı tutub saxlamağa, gedəni qaytarmağa və itirdiklərinin yerini doldurmağa can atır. O, istədiyi vaxt iradəsinin tələbilə taksini yenidən saxlada bilər, lakin zamanı saxlamaq iqtidarında deyildir. Çünki taksi həminki ola bilər, vaxtsa həmin vaxt deyildir.

Əsərin qəhrəmanı nə qədər ötən xatirələrə meyl etsə də, onları təkrar yaşamaq, əldə etmək ehtiyacı duysa da, vaxt bunun mümkünsüzlüyünü, əlçatmazlığını öz sərtliyi, bənzəri olsa belə,

təkrarsız dönəmi ilə ona dərk etdirir. Vaxt qalib gəlir, qəhrəmanı üstələyir. Qəhrəmansa, vaxtdan yüksəyə qalxmaq hünərini hələ qazanmayıb. Burada Vaxt obrazı bütləşir. Qəhrəmanın taleyi, yaşadıqları zamanın fövqündə əriyib itir. O, yaşadığı xoşbəxt anların təkrarını yaşamaq istədikcə, zaman onu bu səadətdən məhrum edir.

Hər bir insan ya böyük sevincin, ya da nəhayətsiz kədərin təsirindən həyatında, mənəvi aləmində dönüş yaradır. Bu dönüş həm ağla, həm də hissə əsaslana bilər. Müəllifin qəhrəmanı nəhayətsiz kədərinin sonunda uğursuzluğunun səbəbini anlayır, səadətə yetmək üçün təkcə hissin deyil, həm də ağlın gücünə böyük ehtiyac olduğunu, ağılla hərəkət edərək səni tərk etmək istəyən həyatın sənə bəxş etdiklərini bir başqa vaxt geri qaytarmaq deyil, vaxtında əldə edib, onu qorumağın vacibliyini dərk edir: "Bəli, hər şey dəyişilmişdi. Mən indi bilirdim ki, səadət var və insan onun uğrunda döyüşməlidir. Bilirdim ki, əgər səadət üfüqə bənzəyirsə, bu bənzəyiş çatılmazlıqda deyil, ondadır ki, üfüq təki səadətə tərəf gedəndə də biz yeni-yeni aləmlər tapır, təzə-təzə həqiqətlər, doğrular kəşf edirik. Səadət uğrunda, doğru uğrunda çarpışdıqca biz vaxta qalib gəlirik" (2, 35-36).

Lakin göründüyü kimi, qəhrəman həyatın zərbindən silkinib ayılandan, öz hisslərinə hakim olandan sonra, nəhayət, belə desək doğru olar ki, əməli fəaliyyətində olmasa belə, düşüncələrində zamana, vaxta qalib gəlir. Bu isə onun gec olsa da, zamanı anlaması ilə xarakterizə olunur.

Hekayənin sonluğuna diqqət edək. Bu sonluq qəhrəmanın nə qədər ağır olsa da, itən səadəti, boşa gedən ömrü, zamanın qaibanəliyi haqqında acı etiraflarıdır: "Axırıncı pilləni düşənəcən musiqi səsi aydın eşidilirdi. Yorğun ahəngli sərgərdan bir melodiya sanki öz aramını, sakitliyini, sonunu axtarırdı, tapa bilmirdi.

- Küçəyə çıxdım. Taksi getmişdi. Nə fərqi var! Piyada gedə bilərdim, ya da ayrı taksi tuta bilərdim. Bəlkə təsadüfən bayaqkı taksiyə rast gələ bilərdim. Eh! Taksini qaytarmaq çox asandır... (2,43)".

Qəhrəman sonda bütün bu zaman daxilində öz aramını axtaran "sərgərdan melodiya" kimi öz keçmişini, itmiş səadətini axtarırdı, tapa bilmirdi. Düşüncələrin nə zaman ondan əl çəkəcəyi, ötən xatirələrin tamamən solacağı, ehtirasların yatıb, hisslərin boyatlaşacağı, ən axırda isə ölümün bütün hiss-həyəcan bəzəklərini öz qara rəngi ilə malalayacağı anı gözləyirdi bəlkə də... Axırda "Eh! Taksini qaytarmaq çox asandır" deyən qəhrəman ötən günlərin, itən ömrün acımadan onu tərk etdiyini və bir də geri qayıtmayacağını bütün dəhşəti ilə duyur, sonsuz səhrada yolunu azmış, canında illərin ağrı-acısı dünyanı gəzib – dolaşmaqdan bezən qocaman dərvişlər kimi yönünü, səmtini belə unudur.

Əsərdə göründüyü kimi, müəllif vaxtı, zamanın hökmünü, dəyərini, mahiyyətini özü anladığı kimi, qəhrəmanına da anlatmaq, ona səadətin qoynunda süsləndiyi halda xoşbəxtliyi başqa aləmdə deyil, nəyin bahasına olursa-olsun, talenin sənə bəxş etdiklərini zamanında mənimsəyib, dəyərini bilməyi tövsiyə edir. Anarın öz qəhrəmanının dilindən səsləndirdiyi aşağıdakı sözlər müəllif tendensiyasının açıq-aydın bədii ifadəsidir: "Mən indi bilirdim ki, səadət var və insan onun uğrunda döyüşməlidir. Səadət uğrunda, doğru uğrunda çarpışdıqca biz vaxta qalib gəlirik..."

Görkəmli akademikimiz Yaşar Qarayev Anarın "Seçilmiş əsərləri" nin I cildinə yazdığı ön söz – "Ağ limandan başlayan yol" adlı monoqrafiyasında müəllifin yaratdığı zaman obrazını bütün detalları, incəlikləri ilə təhlil edir, oxucu təsəvvürünə zamanın şöləsi ilə aydınlıq çiləyir: "Bu nəsrin dünyasında Vaxt və Mən bəzən qapalı dövrədə hərəkət etsə də, ideyanın, fikrin istiqaməti heç zaman geriyə, "tərsinə" start götürmür. Tarixi-əxlaqi tərəqqinin vahid cizgisi, hərəkətin uçuş əyrisi çevrənin məhvərindən çıxır və əvvəlki nöqtəyə bir daha geri qayıtmır.

Zaman ona etiraf, həqiqət, müdriklik anı, ən qənirsiz münsif, Femidanın sinonimi kimi lazım olur. Sevincin ağırlıq, günahın həcm, tövbənin çəki, yaddaşın həssaslıq ölçüsü – hamısı vaxtdır. Vaxtın axarı və qədəri – bədii-psixoloji, fəlsəfi təhlilin təqvimi, ardıcıllığı, təfsilatıdır. Saat kəfkirinin, günlərin, qərinələrin və min illərin səyahət və səfər yollarında qalan izlərin – əyri və düz xətlərin toxuduğu zolaqlı torun nahamvar məcrası ilə süzülüb axan Zaman – Anarın

demək olar ki, bütün əsərlərində əsas qəhrəmandır. Ünvan, reys, telefon, sürət, təvəllüd, mövsüm tarixləri – bunlar hələ yalnız zahiri detallardır. Bu əsərlərin ruhu, əsəbi, alt qatı "vaxt fəlsəfəsi" ilə dərk olunur" (2,5-6).

Akademik Yaşar Qarayev yazıçının müxtəlif əsərlərinə müraciət edərək əsaslı qənaətlər üzə çıxarır, onun zaman duyumunun geniş manerasını, planetar əhəmiyyətini açıqlayır. "Taksi və vaxt" hekayəsini təhlil edən görkəmli akademikimiz təhlil sonu belə bir ifadə işlədir: "müəllifin zamanı da taksi kimi saxlamaq, anı qaytarmaq arzusu və bunun qeyri-mümkünlüyü hekayəyə sonralar Anarın bütün yaradıcılığı boyu sönməyəcək bir kədər işığı aşılayır" (2,7).

Lakin bizə elə gəlir ki, Yaşar Qarayevin bu son qənaəti Anar yaradıcılığı haqqında bəlkə də bir qədər tez verilmiş bir qərardır. Anarın əsərlərinə yazılmış kədər notları qədər ağır bir tezisdir. Zənnimizcə, Anarın əsərlərinə sonsuz kədər hissi aşılayan yalnız onun şirin, lakin əzabverici xatirələrlə dolu anı – taksini qaytarmaq arzusu deyil, bütövlükdə zamanın özünün gedər-gəlməzliyidir. Çünki bir zamanlar onu doğmalarına bağlayan vaxt, zaman artıq geridədir. Azərbaycan xalqının mənəvi yaddaşında əbədiləşən Rəsul – Nigar tamlığını zaman Anardan həm maddi, həm də mənəvi varlıq olaraq qoparıb aldı. Elə bir varlıq ki, əsrlər keçsə belə, zaman bir daha onları geri qaytarmaq iqtidarında deyildir. Fikrimizcə, Anarın zaman haqqında kədərli düşüncələri məhz buradan – zamanın, talenin, ömrün verdiyi qəddar bir hökmdən sonra daha aydın formalaşdı. Həm müəmma, həm aydın təfərrüat dolu zaman, məhz o andan sənətkarı qəlbən düşündürdü. Çünki yalnız o zaman həyat həqiqəti sənətdə öz böyük, real əksini tapır ki, o, özünü real aləmdə forma və üsulları ilə təsdiq etmiş olsun.

Zaman, vaxt, tale, ömür haqqında bu qədər nisgilli düşüncələr, bilavasitə zamanın qəhrəmanlar yaradan həyat qəhrəmanımıza vurduğu ağır zərbədən sonra formalaşaraq düşüncə mərkəzində dayanmışdır.

Yuxarıda işlətdiyimiz ifadəni belə işlətsək doğru olar ki, talenin Anara vurduğu ağır zərbə, nəinki ona bütün yaradıcılığı boyu, hətta bütün ömrü boyu yaddaşından silinməyəcək "Sizli" dünyasını – "Sizsiz" yaradan qəlbinə sonsuz kədər işığı aşılamışdır. Məhz bunun nnəticəsidir ki, insanın səadətini əlindən alıb gedən və bir daha geri dönməyən zaman öz sərtliyi, təkrarsız dönəmi ilə Anarın əsərlərində əsas obrazlardan biri səviyyəsində canlanmaqdadır.

Yazıçının elə bir əsəri yoxdur ki, orada vaxt probleminə toxunulmasın. "Keçən ilin son gecəsi", "Asılqanda işləyən qadının söhbəti", "Gürcü familiyası", "Mən, sən, o və telefon", "Molla Nəsrəddin-66", "Dantenin yubileyi", "Dədə Qorqud", "Macal", "Əlaqə", "Rabitə", "Beşmərtəbəli evin altıncı mərtəbəsi" və "Ağ liman" kimi əsərlərində vaxt müxtəlif formada öz əksini tapır. Hər bir əsərdə vaxtın insan həyatında ayrı-ayrı rolları tədqiqatçılardan öz analizini və mənalandırılmasını tələb edir.

Anarın Vaxt obrazı təbiətin özündən doğan bir təzadla təsəvvürümüzdə canlanır. Bu obraz bizi həm sevindirir, həm kədərləndirir və həm də düşündürür. "Gürcü familiyası" hekayəsinə diqqət edək. Hekayədə iki gəncin nakam sevgisindən söhbət açılır.

İçərişəhərin sirli-sehirli qala divarları arasında böyüyən hər iki gənc – Oqtay və Əsmər bir-birinə o qədər yaxın dost olurlar ki, onlar ürəklərində baş qaldıran hisslərin məhəbbətmi, yaxud hansısa izaholunmaz bir hiss olduğunu ayırd edə bilmirlər. Bilmirlər ki, bu, sevgidir, yoxsa adi dostluqdan başlayaraq onları bir-birinə bağlayan doğmalıq, əzizlik hissi?

Əsərin baş qəhrəmanlarından olan Əsmər hisslərinin aydınlığından əmindir. O, ümidsizcəsinə sevir və hər zaman, hər an ona cavab verəcək sevgi dolu bir ürəyin pıçıltısını duymaq, səsini eşitmək istəyir. Oqtaysa, belə deyil! O, həm sevir, həm də sevgisindən çəkinir. Daha doğrusu, onu çulğayan bu hissin mahiyyətini anlaya bilmir. Günlər ayları, aylar illəri əvəz etdikcə bu iki gənc daha çox bir-birinə bağlanır. Lakin Oqtayın cəsarətsizliyi, özünə inamsızlığı bu çox yaxın olan iki insanın tale yollarının ayrılmasına gətirib çıxarır. Əsmər Camal müəllimə nişanlanır. Yalnız bundan sonra Oqtay narahat olmağa başlayır. Qəfil baş verən bu hadisə sanki Oqtayı silkələyir, dostununmu, ya sevgilisininmi onu anidən tərk etməsi Oqtaya ağır gəlir.

Artıq gec idi. Əsmər Oqtayın sevgisindən naümid olduğu üçün anasının sözündən çıxmayıb Camal müəllimə ərə gedir. Qonşu arvadın dediyi kimi, əri onu xoş güzəranla yaşadır. Lakin nə qədər xoş gün görsə belə, Əsmərin ürəyi açılmır. Həmişə düşüncələri Oqtaylı günlərin, Oqtaylı illərin sorağına qaçır. Fikir buxovları Bakının, İçərişəhərin doğma divarlarının, tanış məhəllələrinin üzərində cilalanır. Bakıya gəlməyə can atır. Axı nə üçün? Əsməri rahat buraxmayan nədir? Bəlkə Əsmərə ötən sevginin xatirələri ilə yaşamaq əzab verir? O, sevgilisini heç vəchlə unuda bilmir. Bəlkə Bakıya ona görə gəlir ki, təkrar Oqtayın sevgisi ilə buz kəsmiş qəlbini isidə bilsin? Yox, bəlkə başqa bir hiss! Bəlkə özünə o qədər yaxın bildiyi bir insanın bu qədər uzaq olduqdan sonra yaşam tərzini öyrənməyə, onu görmək, heç olmazsa, son dəfə kövrək baxışlarıyla oxşamaq hissidir bu istək?

Anarın bir sənətkar kimi böyüklüyü, yaradıcılıq üslubunun dərinliyi ondadır ki, o, qəhrəmanlarını xarakterindəki bütün təzadları, hiss-həyəcanları, arzuları, istəkləri, əməllərinin ən xırda detallarına qədər təsvir edir. Obrazlarının keçirdiyi hissləri oxucularına məhrəm edir.

Anar obrazlarını heç vaxt bəzək-düzəkli canlandırmır. Necə varsa, eləcə yaradır. Fikrimizin sübutu üçün Oqtay obrazına diqqət edək. O, Əsmər ərə gedəndən sonra özünə yaxın bir adamını itirsə də, həyat amalı, qurub-yaratmaq əzmi onu gələcəyə, işıqlı səhərlərə doğru aparır. O, ali təhsil alır, adlı-sanlı mühəndis olur. Cəmiyyətdə sevilir, tay-tuşlarının hörmətini qazanır. Yeni-yeni layihələr üzərində çalışır və gördüyü hər bir işdən zövq alır. İş-güc o qədər başını qatır ki, ailə qurmaq belə yadına düşmür. Ötən illər, keçirdiyi gənclik çağları ona yalnız şirin bir xatirə kimi gəlir.Əsmər qarşılanması üçün Oqtaya teleqram göndərəndə gələn adamın kim olacağı barədə təsəvvürü belə olmur. Nəhayət, gözlədiyi məchul qonağın kimliyi aydın olur. Təyyarə dayanır, sərnişinlər bir-bir yerə enir. Elə bu vaxt Oqtayın gözləri qəflətən Əsmərə sataşır. Sanki bir anlıq hər şeyi unudub keçmişə qayıdır. Gəncliyi, itən səadəti, əmin olmadığı sevgisi, xoş xatirələrlə dolu günlər, məhz indi yada düşür. İçində qəribə hisslər oyanır. O, Əsməri sevdiyini anlayır və əmin olmaq üçün öz-özünə sual verir: görəsən Əsməri həqiqətən sevmişəmmi?

Lakin indi hisslər aydındır. Bəli, sevirmiş, həm də elə sevirmiş ki, bu sevginin nakamlığından doğan kədər dolu bir qəlb təkrar kimsəni sevə bilməmiş və onun indiyə qədər tənhalığına səbəb olmuşdur. Oqtay bunları bütün acımasızlığı ilə indi anlayır.

Əsmərlə Oqtay görüşdükdən sonra onların qəlbindən şəhəri başdan-başa gəzmək, İçərişəhərlə bağlı bütün unudulmaz anları təkrar yaşamaq istəyi qopur. Sanki Oqtay birdən-birə gəncləşir, hansısa kövrək hisslə Əsməri bağrına basmaq, onu sevdiyini söyləmək, lazım gələrsə, dənizin şaqraq dalğalarına belə hayqırmaq istəyir. Lakin çox gecdir. Artıq tale öz işini görüb, zaman etmək istədiyini çoxdan edib. Hər ikisinin qəlbində közərən ocağı yenidən alovlandırmağa dəyərmi? Əsla! Bütün bunları dərindən duyan Əsmər Oqtayın gənclik hissi ilə ona sarılmasına mane olur. Belə məqamda tez-tez Camal müəllimi yada salır, onun işindən "ürək dolusu" danışır. Əslində bütün bunlar bir növ Oqtayın fikrini yayındırmaq üçün ona lazımdır. Oqtayın ondan soyuması, Əsməri düşünməməsi üçün, özünə əziz bildiyi bu insanın tənhalığına son qoymaq üçün söylənən sözlərdir. O, istəyir ki, Oqtay da ailə qursun, təklik tilsimindən çıxa bilsin. Bəlkə Oqtay tək olmasa, Əsmər daha onu o qədər də düşünməyəcək?

Oqtayın Əsmərlə görüşü onun üçün gözlənilməz olduğu kimi, unudulmaz xatirələrlə də şərtlənir. Nə idi Oqtayda unudulmaz izlər qoyan? Əslinə baxsaq, bunlar yeni deyildi. Əlbəttə ki, Oqtay həyatın bir zaman ona bəxş etdiyi səadəti itirdiyini yalnız indi anlayırdı və buna görə də əzab çəkirdi. Vaxtilə Əsmərdən ayrılmaq onun üçün adicə bir çətinlik idisə, indi belə deyil. Sanki Əsmər gedişi ilə hər şeyi özü ilə aparırdı. Oqtayın keçmişini, bu gününü və gələcəyini...

Görkəmli akademikimiz A. Hüseynovun XX əsrin 70-80-ci illərində yazıb-yaradan yazıçıların əsərlərinə verdiyi təhlillər içərisində Anarın əsərlərinin də təhlilinə, bəzən tənqidinə də rast gəlirik. Tənqidçi ən çox "Beşmərtəbəli evin altıncı mərtəbəsi" əsərini təhlil və müxtəlif baxımdan tənqid etsə də, təhlil arası "Gürcü familiyası"na da istinad edərək fikirlərini əsaslandırmağa çalışır. Təhminədə görmək istəmədiyi hərəkətləri qüsur kimi qiymətləndirən A. Hüseynov Əsmər obrazı haqqında da belə deyir: "Eyni mənzərəni Səriyyə və Əsmər surətlərinin

təsvirində də görürük... Əsmər ərindən gizli keçmiş sevgilisi ilə görüşə gəlir. Bunlar təqdir ediləsi hərəkətlər deyil...” (3,204-205).

Müasir dövr tədqiqatçılarımızdan olan, Anar yaradıcılığını lazımi aspektdə işıqlandırmağa çalışan Sabir Bəşirovun bu barədə qeydlərinə diqqət edək. Tədqiqatçı yazır: “Mənə elə gəlir ki, Əsmərin Oqtayın yanına gəlməsi təqdiredici hadisə olmasa da, qəlbin həqiqətidir. Biz “Gürcü familiyası” hekayəsini oxuyanda bilirdik ki, Camalın bər-bəzəkli, dəbdəbəli evi və bu cah-cəlalın müqabilində “yeddi dənə ucuz kağıza bükülmüş dondurma” Əsmərə heç vaxt xoşbəxtlik gətirməyəcək.” Doğrudan da, Əsmər o bər-bəzəkli evin, aləmin öz yerini tapa bilməyən və heç vaxt tapa bilməyəcək əşyasıdır. Əsmər Təhminənin xələfidir. Şübhə yoxdur ki, Əsmər də bir vaxt Camaldan – Manafdan ayrılacaq və birdəfəlik onunla üzülüşəcək. Heç bir şey, heç nə onu fikrindən döndərə bilməyəcək” (4,65). Hadisələrin sonrakı inkişafı baxımından obrazların yekun təhlilinə qayıdaq. Bəli, Əsmər gedirdi, özü də gedər-gəlməzliyin simvolu olan “kamikadze”lər kimi. Heç olmazsa, indi ürəyi sakit idi. Sanki ona dinclik verməyən hissləri rahatlıq tapmışdı. Oqtay isə bu qısa zaman kəsiyində, Əsmərlə keçirdiyi iyirmi dörd saat müddətində elə bil bütöv bir ömür yaşadı. Həyatının ta əvvəlindən bu günə qədər olan bir ömrü! Bir zamanlar şirin xatirəyə dönüb geridə qalan illər sanki yenidən canlandı, bu günlə bütövləşdi, tamlaşdı. Əsmərin getmək saatı yaxınlaşdıqca həsrət, hicran sanki bütün gücü ilə sinələri göynədir. Təyyarə meydanına gəlirlər. Görüşdükləri kimi də sadə, ayrılığı “dadsızlaşdıran” bir hərəkətlə yollarına davam edirlər. Əsmər Moskvaya, Oqtaysa evinə qayıdır. Bax, beləcə qurtarır məhəbbətin görüşü və ayrılığı!“Taksi və vaxt” hekayəsində olduğu kimi, “Gürcü familiyasında” da zaman, ümumilikdə götürəndə qəhrəmanları üstələyir, vaxt qalib gəlir. Ötən günlər bir daha geri qayıtmır. Oqtay nə qədər çalışsa da, zamanın, vaxtın sərt qanunlarını dəyişə bilmir. Zamanı tutub saxlamağa, gedəni qaytarmağa gücü çatmır. Əsmərə gəldikdə isə heç olmazsa, o, istəyinin arxasınca gedə bilmək bacarığı ilə zamanı qabaqlayır. Sevgilisini görmək istəyini zaman onun əlindən ala bilmir və beləliklə də, nəinki əsərin, hətta zəmanəsinin əsl qəhrəmanına çevrilir. Zamanın axımı ilə bərabər özü də gedər-gəlməzliyə yön alır, zamanla qoşalaşan ömrü onu sonsuzluğa, əbədiyyətə aparır. Nəticə olaraq deyə bilərik ki, zaman daim hərəkətdədir. Təbiətin bir parçası olan insan zamanla qoşa addımlamaq, zamanı, hətta anı yaşamaq istəyirsə, o zaman həyatı düzgün dərk etməli, baş verən hadisələrdən vaxtında və düzgün nəticə çıxarmağı bacarmalıdır.İnsan həyatda o zaman uğur qazanır ki, onu öz axarına salıb aparan zamanın fövqünə varır, onu adi qəbul etmir və daim hərəkətdə olaraq zamanın onu üstələməsinə imkan vermir. Təkcə həyatın insana bəxş etdiklərini deyil, malik olunması ehtimal olunanlar uğrunda belə çarpışır. Doğru bildiyi yoldan əl çəkmir və daim dinamikdir. Çünki həyat dinamikliyi sevir.

Ədəbiyyat:

1. Anar. “Sizsiz”. Vaxt və baxt haqqında düşüncələr. Bakı, 2004
2. Anar. Seçilmiş əsərləri. I cild. Bakı, 1988
3. Arif Hüseynov. Müxtəlifliyin birliyi. Bakı, 1983
4. Sabir Bəşirov. Anar. Bakı, 1994

G.Rzayeva

The image of Time in Anar's works

Summary

There is such a famous saying, "Life flows like water." This is the time when the expression itself is concealed under the phrase "life". It is at this time that man drives his life down to its downfall, and melts it in its own way. The generations are changing, time is running out and

sometimes renewing. It all becomes a lifelong image that is not removed from the stage of life when it is painted alongside human beings.

Therefore, the thoughts of man and time have always disturbed, thoughtful, and tried to create poetic drawings of this inseparable duo. In this article, the concept of human and time is taken as a problem, and the source is referring to the works of folk writer Anar to achieve a true artistic solution.

As a result of the investigations, it became clear that time is always in motion. If a person is a part of nature, he or she should be able to act in a timely manner, even if he or she wants to live in the moment, to properly understand life, and to make timely and accurate results of events.

A person is successful in life when it comes to the excitement of the moment when it comes to its own flow, does not accept it as ordinary, and does not always allow it to surpass time. Not only does life give up on human beings, it also strikes for those who are supposed to have it. He does not give up on the right path and is always dynamic. Because he loves the dynamic of life.

Keywords: time, man, life, fate, happiness, inaccessibility, image, hero

Г.Рзаева

Образ времени в творчестве Анара

Резюме

Есть такая известная поговорка: «Жизнь течет, как вода». Это время, когда само выражение скрывается под фразой «жизнь». Именно в это время человек сводит свою жизнь к падению и тает по-своему. Поколения меняются, время уходит, а иногда и обновляется. Все это становится образом на всю жизнь, который не удаляется со стадии жизни, когда он нарисован рядом с людьми.

Поэтому мысли о человеке и времени всегда беспокоили, задумывались и старались создавать поэтические рисунки этого неразлучного дуэта. В этой статье концепция человека и времени рассматривается как проблема, а источник ссылается на произведения народного писателя Анара для достижения истинного художественного решения.

В результате исследований выяснилось, что время всегда в движении. Если человек является частью природы, он или она должны быть в состоянии действовать своевременно, даже если он или она хочет жить в данный момент, правильно понимать жизнь и делать своевременные и точные результаты событий.

Человек преуспевает в жизни, когда речь заходит о волнении того момента, когда он приходит к своему собственному потоку, не воспринимает его как обычный и не всегда позволяет ему превзойти время. Жизнь не только разочаровывает людей, но и наносит удар по тем, кто должен иметь ее. Он не сдается на верном пути и всегда динамичен. Потому что он любит динамику жизни.

Ключевые слова: время, человек, жизнь, судьба, счастье, недоступность, образ, герой

Redaksiyaya daxil olma tarixi: 21.02.2019
Çapa qəbul olunma tarixi: 25.03.2019
Filologiya elmləri doktoru, professor Nadir Məmmədli tərəfindən çapa tövsiyə olunmuşdur

NİGAR İSAYEVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent
nigar@mail.ru

CƏFƏR CABBARLININ PYESLƏRİNDƏ XALQ ƏDƏBİYYATINDAN İSTİFADƏ ÜSULLARI

XÜLASƏ

Məqalədə Cəfər Cabbarlının dramaturgiyasında, xüsusən pyeslərində xalq ədəbiyyatının zəngin xəzinəsindən yaradıcı şəkildə faydalanma imkanları zəngin ədəbi-bədii nümunələr əsasında üzə çıxarılır, böyük təcrübənin həyati gerçəliklərin nəticəsi kimi ağız ədəbiyyatında geniş istifadə olunan atalar sözlərinin zərbi-məsəllərin idiomatik ifadələrin işlənmə dərəcəsi, obrazların daxili dünyasının açılışında oynadığı rol diqqət mərkəzinə çəkilir.

Ədibin surət və personajların dilində səslənən paremioloji vahidlərdən tipin xarakterinin və psixologiyasının açılışında müstəsna mövqeyinə aydınlıq gətirilir.

Yazıçı andlardan istifadə edərkən hər obrazın öz danışıq üslubuna, dünyagörüşünə diqqət yetirir və hansı məqsədlə işlətməsinə xüsusi önəm verir. Bu andlar bəzən fikri təsdiq, bəzən inkar, bəzən hədə-qorxu, ittiham və s. məna çalarlarını ifadə edir. Məsələn, "Almaz" pyesinin mənfi personajlarından olan İbadın dilindən səsləndirilən and hədələyici xarakterdədir:
Yazıçının hər bir obraza yanaşma tərzində rəngarənglik nəzərə çarpır. Obrazın xarakterinin müəyyənləşməsinə xidmət edən atalar sözlərinin düzgün, dəqiq seçilməsi və məqamında işlədilməsi də dramaturqun uğurlu tapıntısıdır. O, pyesdə Sevillə yanaşı Gülüşün danışıq aktında da atalar sözlərindən yerli-yerində və məqsədəuyğun şəkildə istifadə etmişdir. Lakin Gülüşün dialoqlarında yer alan atalar sözləri Sevilin danışığında əksini tapan sözlərdən fərqlidir.

Açar sözlər: Cəfər Cabbarlı, pyes, folklor, atalar sözləri və məsəllər, xalq mahnıları, laylalar, andlar

XX əsr Azərbaycan ədəbiyyatı və mədəniyyətində böyük xidmətləri olan Cəfər Cabbarlı zəngin və çoxşaxəli yaradıcılığı ilə xalqımızın yaddaşında əbədi iz qoymuşdur. Ədəbiyyatımıza şair, nasir, felyetonçu-jurnalist kimi daxil olan ədibi məşhurlaşdıran onun zəngin dramaturgiyasıdır. Bir yazıçı kimi onu daha çox yeni ictimai-siyasi quruluşun mühüm problemləri, onun real gerçəklikləri maraqlandırmış, Azərbaycan dramaturgiyasının banilərindən biri səviyyəsinə yüksəltmişdir. Cəfər Cabbarlı yaradıcılığının mövzu, ideya zənginliyi, yazıçının sənətkarlıq məharəti özündən sonra ədəbiyyata gələn bir çox yazıçılar, dramaturqlar üçün bir örnək rolunu oynamış və yeni ədəbi məktəbin əsasını qoymuşdur.

Bir sənətkar kimi yaradıcılığının böyüklüyünü, qüdrətini və əbədiliyini təmin edən əsas məsələlərdən biri də onun xalqımızın milli-mənəvi irsinə, zəngin folkloruna, əsrlərin sınağından çıxmış şifahi xalq ədəbiyyatına böyük məhəbbətlə yanaşması və bu qaynaqlardan yaradıcılıqla bəhrələnməsidir. Xüsusilə, yazıçının dramaturgiyasında xalq ədəbiyyatının əfsanə, rəvayət, atalar sözləri və məsəllər, bayatılar, nəğmələr, oxşama və yaxud əzizləmələr, alqış və qarğışlar kimi janrlardan istifadə onun əsərlərinin ideya-bədii xüsusiyyətlərinin zənginləşməsinə, xalq tərəfindən maraqla qarşılanmasına stimul vermişdir. Akademik Bəkir Nəbiyev yazır: "Cabbarlı poeziyada özünü axtardı, nəsrdə onun qələmi püxtələşdi, dramaturgiyada isə təkrarolunmaz bir yaradıcı şəxsiyyət kimi özünü tapdı. Müxtəlif vaxtlarda əsərlərində müəyyən bir janr əlvanlığı müşahidə edilsə də, Cabbarlı yaradıcılığının bütün rəng və çalarları ilə parladığı ən dolğun janr, şübhəsiz, dramaturgiya oldu" (2, 10).

Yazıçının dram əsərlərində işlətdiyi folklor nümunələri hadisə və əhvalatların, obrazların daxili aləminin açılmasında qüvvətli təsirli vasitələrdəndir. Yerli-yerində işlədilən bu sərrast ifadələr əsərdəki personajların dünyagörüşü, həyata baxışı, insanlara münasibəti haqqında dolğun təsəvvür yaradır. Cəfər Cabbarlı "Vəfalı Səriyyə, yaxud göz yaşı içində gülüş" (1915), "Nəsrəddin şah" (1916), "Solğun çiçəklər" (1917), "Ədirnə fəthi" (1917), "Trablis müharibəsi" və ya Ulduz" (1919), "Aydın" (1919-1921), "Oqtay Eloğlu" (1923), "Od gəlini" (1928), "Sevil" (1928), "Almaz" (1930), "1905-ci ildə" (1931), "Yaşar" (1932), "Dönüş" (1933) kimi pyeslərində şifahi xalq ədəbiyyatının bir çox janrlarına müraciət etmişdir. Yazıçının öz əsərlərində folklora bu qədər geniş yer verməsi təsadüfi deyildir. Çünki hər bir obrazın danışıq aktı vasitəsilə onun xarakterinin mənfi və müsbət tərəflərini, həyata və cəmiyyətə baxışlarındakı məhdud, ziddiyyətli məqamları üzə çıxarır. Bəzən isə əksinə, xalqın əsrlərdən bəri böyük ənənələrlə yaşatdığı müdriklik, tədbirlilik, sözübütövlük, alicənablıq, mərdlik kimi keyfiyyətləri məhz bu xalq deyimləri ilə aşkarlayaraq oxucunu sözügedən məsələnin daha asan qavranılmasına, dərk olunmasına sövq edir. Bu mənada Cəfər Cabbarlının təkcə elə "Sevil" pyesində az qala hər obrazın dilində səsləndirdiyi atalar sözləri və məsəllər yazıçının ata-babalarımızın minilliklər boyu yaşatdığı bitib-tükənməyən söz xəzinəmizə sonsuz məhəbbətinin bariz ifadəsidir. Yazıçı el ədəbiyyatından yararlanarkən, hər bir folklor nümunəsini seçərkən fərdin psixologiyasını, onun real hadisələrə subyektiv və yaxud obyektiv münasibətini də nəzərdən qaçırmır. "Sevil" pyesində baş qəhrəmanın dilindən səsləndirilən bir çox atalar sözləri onun daxili aləmini açmağa xidmət edir. Əsərin əvvəlində savadsız, müti, "kişini Allahın yerdəki kölgəsi" hesab edən Sevilin "İvanın arvadı özündən çox məvacib alır. Biz hələ oturmuşuq, gözümüzü dikmişik kişinin əlinə.. "ağa gətirsin navala, xanım doldursun çuvala". Allahın altında əlimdən bir iş gələ idi, gör necə Balaşa kömək edərdim" (3, 176) və yaxud "Arvad nədir oturub saman çuvalı kimi evin bir küncündə "nə ölüyə hay verir, nə diriyə pay" (3, 179) kimi atalar sözlərindən istifadə etməsi onun hələ də yazıq, müti, həyatın və cəmiyyətin ümumi axınından geri qalan savadsız bir insan olması faktını təsdiqləyir. Bu müxtəliflik hər şeydən əvvəl obrazın təfəkkür tərzindən, düşüncə və daxili zənginliyindən xəbər verir. Gülüşün xarakterindəki dinamiklik, aktivlik, mübarizlik və həyata açıq gözlə, aydın təfəkkürlə yanaşma əsərin əvvəlində Sevildə müşahidə olunmur.

Xalqın əsrlərcə əldə etdiyi həyati təcrübəni özündə ehtiva edən atalar sözləri insan zəkasını, onun hikmətini, ruhunu özünə hopdurmuş zəngin mənəvi-estetik xəzinədir. Zaman-zaman şifahi şəkildə nəsildən-nəslə ötürülən bu hikmətamiz incilərin bir çoxu yazıya alınmadığı üçün itib-batmışdır. Lakin folklorun yazılı ədəbiyyata inteqrasiyası sayəsində günümüzə qədər gəlib çatan bu zəngin xəzinənin yaddaşlarda qalan hissəsinin qorunması mümkün olmuş, reallaşmışdır. Belə ki, söz sənətkarlarının öz əsərlərində dönə-dönə folklor örnəklərinə müraciət etməsi hal-hazırda günümüzə qədər gəlib çatan xalq ədəbiyyatı nümunələrinin qorunmasında mühüm əhəmiyyət kəsb etmişdir. Bu mənada C.Cabbarlı xalq hikmətinə müraciət etməklə həm onu yazılı ədəbi fakt kimi funksionallaşdırmış, həm də əsərlərinin ideya və məzmun zənginliyini, bədii ifadə vasitələrinin mükəmməlliyini və orijinallığını təmin etmişdir.

Buna görə də yazıçı hər bir obrazın danışıq sistemini əsərin sonuna qədər ardıcıl izləyir və onların kimliyini danışıq prosesi vasitəsilə oxucuya tanıtdırmağa müvəffəq olur. Məsələn, Gülüşün cəsarəti, uzaqgörənliyi, daxili zənginliyi Dilbər xanımın acı qəhqəhələrlə ona ironiya etdiyi "Gülüş, axır ki, tək qaldın!" tənəsinə cavabında özünü daha qabarıq göstərir. O, əsərin mənfi personajına cavabında "Mən tək deyiləm. Həm də "söz son gülənindir" (3, 208) deməklə xalq danışıq tərzində geniş yer tutan "Əsl gülən sonda güləndir" anlamını xatırlatmış olur. Bununla da, yazıçı əsərin finalına doğru cərəyan edəcək hadisələrin heç də Dilbər xanımın xeyrinə işləməyəcəyini bildirmək istəmişdir.

Yazıçı bəzən bir obrazın danışıq aktında bir neçə folklor janrını təmərküzləşdirərək fikrin daha dolğun, məzmunlu və hikmətamiz formada təzahürünə nail olur. Yenə də müəllif "Sevil" pyesində Dilbərin Sevilə həqarətlə, gerizəkalı, avam, cahil və savadsız bir qadın kimi baxaraq satirik bir eyhamla "...dünən ayaq altında sürünən miskin bir arvad belə bir kitab yaza bil-

məz” etirazına qarşı Gülüşün öz fikrini əsaslandırmaq üçün bir rəvayət söyləməsi və bununla yanaşı atalar sözünə istinad etməsi yazıçının yüksək sənətkarlığının təzahürü kimi ortaya çıxır. Gülüş artıq bütün işgəncələrə, təhqirlərə, əzablara dözərək ayağa qalxmağa cəsarət tapan Sevilin düşdüyü situasiyanı xalq təfəkkürünün yaratdığı rəvayət və atalar sözlərinə istinadən söyləyir: “Deyirlər Hindistanda böyük fillər vardır ki, illər uzunu gücsüz insanları boyunlarında daşıyır və onların bizlərinə dözürlər. Bir gün isə incəlmiş gönlərinə biz çox dərindən sancıldıqda xortumlarını uzadıb boyunlarındakı adamın boynundan yapışır, ayaqları altına salıb, köksünə çıxırlar. Deyirlər ki, “su meymunun boğazına çıxanda öz balasını tapdayıb başına çıxır” (3, 227-228). Göründüyü kimi, eyni mətndə həm rəvayət, həm də atalar sözləri üzvi bir vəhdət halında, sinkretik şəkildə əksini tapmışdır.

C.Cabbarlı pyeslərində sənətkarlıqla, böyük ustalıqla yaradılmış monoloq və dialoqlarda yer almış şifahi xalq ədəbiyyatı nümunələrində obrazın ictimai şüurunu, cəmiyyətin hansı təbəqəsinə mənsubluğunu, təmsil etdiyi zümrənin danışıq tərzini, insanlara münasibətini də çatdırmağa müvəffəq olmuşdur. Bu baxımdan yazıçının sadə, zəhmətkeş, yoxsul təbəqənin nümayəndəsi kimi qələmə aldığı Babakişinin nitqində qərarlaşan “əkdiyim noxud, biçdiyim noxud, bazara girib ləbləbi olub?” (3, 205) və yaxud Atakişinin dilindən söylənən “Ac qarın qılınca gələr” (3, 233) kimi folklor nümunələri həm də bu obrazların təfəkkürü və yaşam tərzi haqqında oxucuda aydın təsəvvür yaradır.

Yazıçı bəzən folklor nümunələrindən, xüsusilə də atalar sözlərindən istifadə zamanı sözün işlənmə məqamını və onu işlədənin məqsəd və məramını aydınlaşdırmaq üçün həmin nümunəni bilərəkdən gah təsdiqdə, gah da inkarda verməklə situasiyanın dəyişmə prosesini nitq faktorunda reallaşdırır. Məsələn, Dilbərin Balaşı mədəniyyətsizlikdə ittihamlandıraraq “Nə haqq ilə sən qapı dalında durub bizim söhbətimizə qulaq asırdın”. Doğru demişlər: “qozbeli qəbir də düzəldə bilməz” fikri süjet boyunca inkişaf etdirilmiş və eyni şəxsin dilindən Sevil haqqında bu sözlər söylənərkən təsdiqdə işlənərək “Yaxşı demişlər: “qozbeli qəbir düzəldər” (3, 235) şəklinə salınmışdır.

C.Cabbarlı pyeslərində atalar sözləri ilə yanaşı məsəllərə də geniş yer vermişdir. Bu iki folklor janrı forma və məzmunca bir-birinə yaxın olsalar da, onları fərqləndirən məqamlar da vardır. Bir çox folklorşünaslar bu oxşar janrların incə ayrıntılarını onların qrammatik, sintaktik quruluşunda, bəzən bu örnəklərin nəzm və nəsr şəklində olmasında, bəzən isə həcminin çoxluğu və yaxud azlığında olduğunun fərqinə varmışlar: “Atalar sözü ilə məsəllərin arasında olan fərqi onların həcmində, quruluşunda, məcazi mənaya malik olub-olmamalarında, mənzum və ya mənsur olmalarında deyil, məzmunlarında axtarmaq lazımdır. Məlumdur ki, həm atalar sözü, həm də məsəl ictimai həyat mübarizəsinin kəşf etdiyi bu və ya digər həqiqəti əks etdirən səlis və hikmətli ifadələrdir. Lakin quruluşca bir-birinə bu qədər yaxın olan atalar sözü və məsəllər arasında mənaca ayrılıq var ki, bu da onların xüsusi ad daşımalarına səbəb olmuşdur” (4, 125). Əlbəttə, atalar sözünün özünəməxsus, spesifik xüsusiyyəti, hər şeydən əvvəl, onun hər hansı bir hökmü və yaxud fikri ümumiləşmiş və tam, bitkin şəkildə ifadə etməsi, eyni zamanda dərin məna yükü, səlis və rəvan dili, orada əksini tapan fikirlərin əhatə dairəsinin genişliyi onları məsəllərdən fərqləndirən başlıca xüsusiyyətlərdəndir.

Cəfər Cabbarlı öz pyeslərində bol-bol istifadə etdiyi, dilin fəal atributu kimi çıxış edən aktiv, dinamik folklor janrları məqamdan-məqama yeni çalarlarla yadda qalır. Hətta yazıçı əsrlərin sınağından çıxmış, qəlibləşmiş xalq deyimlərini varvarizmlərlə, əcnəbi sözlərlə yanaşı işlədir. Şübhəsiz ki, belə məqamlarda oxucunun diqqətini cəlb edən ən önəmli məsələlərdən biri də bu cür paradoksallığın hansı obrazın dilində təzahür etməsi və yazıçının bu gizli məqsədinin nədən ibarət olmasıdır. Məsələn, Edilya xanımın (Dilbər) dilindən səslənən “Niçeqo podobnoqo; özləri min iş görürlər, “karvanı malı ilə yeyirlər, sarvanı şalı ilə (3, 192)” ifadəsi onun Balaşı qanun pozuntusuna sürükləməsi, onu saxtakarlığa sövq edərək sənədlərə qol çəkməyə məcbur etməsi, dövlət əmlakını mənimsəməsi cəhdində üzə çıxır. Mənəvi-əxlaqi dəyərlərini itirmiş, pul

düşkünü olan Dilbərin daxili aləmini yazıçı onun danışıq aktında reallaşdırır və bu prototip iki dilin sintezi vasitəsilə oxucunun qəzəb və nifrəti ilə üz-üzə qalır.

Yazıçı obrazın daxili aləminə yaradıcılıqla nüfuz edir. Onun pyeslərinin çoxsaylı obrazlar qalereyasındakı hər bir şəxsin danışıq üslubu fərdi xüsusiyyətlərinə görə seçilir, bir-birinə bənzəmir. Bu baxımdan Əbdüləli bəyin "Palaza bürün, el ilə sürün" (3, 195) atalar sözünü işlətməsi onun liberal insan olduğunu göstərir, biganəlik, laqeydlik xüsusiyyətlərini öz xarakterində cəmləşdirən mənfi bir obraz kimi oxuculara tanıtdırır.

Cəfər Cabbarlının pyeslərində xarakterlərin dilində rast gəldiyimiz "Allah yazanı pozmaq olmaz", "Qaçanın dizi ağrıyar, ağlayanın gözü" (Almaz, 3, 246); "Allah dəvəyə qanad versəydi, dünyada uçmamış dam qalmazdı" (Mirzə Səməndər, 3, 251), "Bir ağaca minib, min bir budaq gəzir" (Mirzə Səməndər, 3, 254), "Gəlib ayran içməyə, gəlməyib ara açmağa" (Mirzə Səməndər, 3, 259); "Aşından ki yeməyəcəksən, tüstüsündən niyə kor olasan?" (Xanımnaz, 3, 256); "Vur qapazı başına, al çörəyi əlindən" (Şərif, 3, 257), "Qaranlıq quyuya daş atmaq" (Şərif, 3, 264); "Yumruq çəkənin qabağına çomaqnan çıxmasan, deyər qorxdu", "Dişimizə vuraq, bərkini-boşunu biləkə" (Hacı Əhməd, 3, 261), "Əl əli yuyar, əl də üzü" (Hacı Əhməd, 3, 266), "Oğrunun yadına daş salmaq" (Hacı Əhməd, 3, 290), "Bir daş altda, bir daş üstdə" (Hacı Əhməd, 3, 292); "İki eşşəyin arpasını bölə bilmir" (İbad, 3, 262), "İki ayağını bir başmağa təpmək" (İbad, 3, 263), "Heç bilmir harada bişib, elə deyir bir çömçə tök" (İbad, 3, 268), "Aşına-aşına, axırda çıxdı ocaq başına" (İbad, 3, 278); "Dərisinə saman təpmək" (Aftil, 3, 262); "Qismətdən artıq yemək olmaz" (Ocaqqulu, 3, 266); "Yüz dənə qanmaz dostun olunca, bir dənə qanacaqlı düşmənin olsun" (Baloğlan, 3, 288); "Doğru söz acı olar" (Barat, 3, 271); "Eşşəyə gücləri çatmır, palanı döyəcləyir" (Salamov, 3, 389); "Dəvə oynayanda qar yağar" (İmamverdi, 3, 399); "Əski hamam, əski tas" (Surxay, 3, 466) kimi atalar sözü və məsəllərdən yerli-yerində, məqamında istifadə yazıçının yüksək sənətkarlığından xəbər verir, eyni zamanda obrazların daxili aləmini açan bir vasitəyə çevrilir.

Nümunələrdən göründüyü kimi, Cəfər Cabbarlının pyeslərində işlətdiyi atalar sözləri və məsəllər cəmiyyətin, insan həyat və məişətinin, təsərrüfatının bütün sahələrini əhatə edir. Süjet xəttinin inkişafında, hadisələrin düyün nöqtəsinin açılmasında mühüm rol oynayır və obrazların danışığında funksionallaşaraq yazıçıya yardımçı olur. Əsərin əsas fikir yükünün daşıyıcısına çevrilir, milli koloriti, bədii sənətkarlığı yüksəldərək dramaturji materialı zənginləşdirir, oxucu və tamaşaçının diqqətini cəlb edir.

C.Cabbarlı xalq yaradıcılığının kütləvi janrlarından biri olan xalq mahnılarından da öz yaradıcılığında geniş istifadə etmişdir. Yazıçının xalq mahnılarına müraciət etməsi daxili bir ehtiyacdan, zəruri bir tələbatdan irəli gəlmişdir. Əsərdəki surətlərin duyğu və düşüncələrini, istək və arzularını, hiss və həyəcanlarını, daxili yaşantılarını özündə əks etdirən lirik mahiyyətli mahnılar daha çox obrazın öz-özü ilə baş-başa qaldığı məqamlarda ifa etdiyi zümzümələr şəklində verilmişdir: "Xalq mahnıları söz, musiqi və ifa sənəti olmaq etibarilə insanların emosiyalarından doğur. Əsl ifaçılar melodiyanı qanına, canına, ruhuna hopdurur, onlar qəmli, kədərli mövzuya uyğun sarsıntılarını mimika və jestlərlə büruzə verirlər. Bunun əsas səbəbi ondadır ki, folklorun bütün lirik janrları mənşəcə eyni kökə bağlıdır, sinkretikdir və həm ifaçılıqda, həm də şeir yaratmaqda improvizədən faydalanır" (5, 181).

Yazıçı "Sevil" pyesinin əvvəlində Sevilin dilindən səsləndirdiyi

Sənə nə olub, zalım yar?
Qadan, balan alım yar.
Sən ki belə deyildin,
Səni bir öyrədən var.

Aman, ay aman zalım yar (3, 175) mahnısı ilə qəhrəmanın gələcək taleyi arasındakı uyarlığı, onu gözləyəcək bəlaları çatdırmaq istəmiş, bir növ zəmin yaradaraq oxucunu baş verəcək hadisələrə hazırlamışdır. Yazıçı mövcud situasiyada bu mahnını mətnə daxil etməklə xalqın

dilində ümumiləşən "Zalım yar" mahnısını konkretləşdirmiş və beləliklə də, Sevilin Balaşa ünvanlandığı ittiham aktı kimi səsləndirmişdir.

C.Cabbarlı pyeslərində hər bir xalq mahnısından istifadənin məqamını düzgün müəyyənləşdirir, hadisə və əhvalatlara, obrazlara uyğunlaşdırır. O, "1905-ci ildə" pyesinin "Üçüncü şəkli"ndə Qarabağın, Baxşıgilin evinin təsvirini verir. Əsərdə Baxşı ilə Sonanın nakam məhəbbətinə işarət edərək bir nəfərin dilindən aşağıdakı xalq mahnısını səsləndirir:

Tut ağacı boyunca,
Tut yemədim doyunca.
Yarı xəlvətdə gördüm,
Danışmadım doyunca
və yaxud

Araz üstə, buz üstə,
Kabab yanar köz üstə.
Qoy məni öldürsünlər,
Bir ala göz qız üstə (3, 379).

"1905-ci ildə" əsərinin "Başlanğıc"ındakı remarkada deyilir: "Gənc Baxşı şeylərini yığışdırıb yola hazırlaşır. Sona çox tutqun halda çamadanının üstündə oturmuş, düşünür. İçəridə, otaqda kimsə oxuyur. Tar çalınır..." Bu təsvirdən sonra "Sarı gəlin" xalq mahnısı səsləndirilir:

Saçın ucun hörməzlər,
Neynim aman, aman, neynim aman,
aman, sarı gəlin!
Səni mənə verməzlər.
Neynim aman, aman, sarı gəlin!
Sarı gəlin, aman, sarı gəlin,
Boy-boy, sarı gəlin! (3, 366).

C.Cabbarlının məşhur "Sarı gəlin" xalq mahnısını əsərə daxili etməsi çağdaş dövrümüzdə də olduqca aktuallıq kəsb edir. Çünki erməni işğalçıları torpaqlarımızı, cənnət Qarabağımızı yağmalayıb mənimsədikləri kimi mənəvi sərvətlərimizə də sahib çıxırlar. Son dövrlərdə bir çox mahnılarımızı, o cümlədən də, "Sarı gəlin"i özününküləşdirməyə çalışan erməni vandalları bilməlidirlər ki, hələ bir əsr öncə C.Cabbarlının Azərbaycan xalq mahnısı kimi əsərə daxil etdiyi "Sarı gəlin" mahnısının xalqımıza məxsusluğuna heç bir şübhə yeri ola bilməz. C.Cabbarlının böyük xidmətlərindən biri də xalqımızın yaddaşında əsrlərcə qorunub saxlanmış bu cür el ədəbiyyatı incilərini yazılı faktora çevirməsi və gələcək nəsillərə ötürməsidir. Sona xanım Cabbarlı yazır: "Cəfərin bir xasiyyəti var idi: bir pyes yazmağı düşünəndə əvvəl onun qəhrəmanlarından birinin mahnısını fiklirləşirdi. Bəzən bunu xalq mahnılarından götürür, bəzən də özü yeni bir mahnı yaradırdı. Sözlərini yazır, hətta musiqisini də özü bəstələyirdi. Bu mahnını uzun zaman dodaqaltı oxuyur, pianoda çalırdı. Sonra pyesi yazmağa başlayırdı. Məsələn, "Od gəlini"ndə Solmazın "Mən bir solmaz yarpağam ki", "1905-ci ildə" Sonanın "Azad bir quşdum", "Almaz"da Yaxşının "Gərək günəş dağları aşıb sönməyəydi", "Yaşar"da Yaqutun "Sənin dərdindən" mahnıları belə yaranmışdı" (7, 35).

Əlbəttə, yazıçıya məlumdur ki, xalq mahnıları öz məzmunu etibarilə insanların gerçək münasibətlərindən yaranan ən gözəl və tipik təəssüratları bir-birinə ötürməyə qadirdir. Bununla yanaşı, konkret şərait, yaşantı, dolğun həyat epizodları mahnıların ideyasını aydınlaşdıraraq üzə çıxarır. Xalq mahnılarında həyat hadisələrinin yaratdığı hiss və həyəcanlar, emosiyalar üstünlük təşkil edir.

C.Cabbarlı zəngin yaradıcılığında müxtəlif xarakterli və müxtəlif taleli obrazlar silsiləsi yaratmışdır. Yazıçı anaları beşik başında layla çalarkən, körpələrə əzizləmələr, oxşamalar söyləyərkən təsvir edir. C.Cabbarlı əsərlərindəki bu maraqlı və yaddaqalan səhnələri təsvir edərkən uşaq folkloruna müraciət etmişdir. Yazıçı daha çox lirik janra daxil olan layla, oxşama və əziz-

ləmələrə geniş yer vermişdir: "Uşaq folkloru uşaqların yaş səviyyəsinə, zövqünə, biliyinə uyğun özünəməxsus janrlarla zəngindir. Bu janrlar sadəliyi, yığcamlığı, konkretliyi, oyunlarla bağlılığı, melodikliyi ilə bir-birinə yaxın olsa da, poetik sisteminə, uşaq məişətində oynadığı roluna, mövzu rəngarəngliyinə görə fərqlidir" (6, 311).

Bu janrlara əsərlərində xeyli yer verən dramaturq "Almaz" pyesində layla və əzizləmələri əsərin dramatik qəhrəmanlarından biri olan Yaxşının dilindən səsləndirir. Faciəli durumla üzləşən ana öz dərdlərini günahsız körpəsinə layla çalmaqla izhar edir:

Laylay dedim adına,
Allah çatsın dadına,
Məndən ayrı düşəndə,
Laylam düşsün yadına.
Laylay, balam, laylay! (3, 327).

C.Cabbarlı laylalarla yanaşı oxşamalardan da yerli-yerində istifadə etmişdir. Oxşamalarla laylalar arasında az və ya çox dərəcədə mövzu-məzmun yaxınlığı özünü göstərsə də, formaca bu folklor janrları bir-birindən fərqlənir. Yazıçı əsərdə anaların dilindən laylaların verilməsini təsvir edirsə, babaların dilindən isə oxşamaları səsləndirməklə onların nəvələri barədə arzu və istəklərini ifadə edir. Onlar heyvanları, quşları, əşyaları körpələrə qurban deyir:

Balama qurban inəklər,
Balam haçan iməklər?
Balama qurban xalçalar,
Balam nə vaxt əl çalar? (3, 178).

C.Cabbarlı yaradıcılığında arxaik folkor janrlarından, xüsusilə də, andlar, dualar, alqış və qarğışlardan da geniş istifadə etmişdir. "Qədim inam və etiqadlarda, insanların ilkin təsəvvür və düşüncələri ilə bağlı olan, uzun bir formalaşma, təkmilləşmə yolu keçən andlar əsasən, iki yolla yaranır. Birinci yol: insanlar müqəddəs bildikləri varlıqlara and içirlər. Bu cür andlarda dönməzlik, nəzərdə tutulmuş mətləbi, məsələni, işi mütləq yerinə yetirmək, başa vurmaq qətiyyəti və iradəsi bir hökm kimi söylənir. İkinci yol: müəyyən bir iş, əhvalatla bağlı söylənilmiş fikrə, sözə şübhə ilə yanaşıldıqda, deyilənlərin gerçəkliyinə inam yaratmaq üçün and içilir. Hər iki halda andlar təsdiq mahiyyəti daşıyır" (1, 84-85).

C.Cabbarlı pyeslərində qədim zamanlardan Azərbaycanda müqəddəs hesab edilən günəş, su, od, ocaq, torpaq anlamlarına və eləcə də canlı danışıqda dini ehkamlara, ziyarətgahlara, islam müqəddəslərinə, pir-ocaqlara aid andlar da geniş yer tutur. Yazıçının obrazlarının dilində "And olsun Allahın birliyinə", "Həzrət Abbas haqqı", "O bir Allah and olsun", "Siz Allah", "And olsun bir olan Allahın böyüklüyünə", "And olsun bu yanar dağlara", "And olsun bu sönməz odlara" və s. andlara çox rast gəlinir. "Həzrət Abbas haqqı, bu üzü qiblə haqqı, əgər biləm o buraya gəlibdir, onun (Almazın) böyük tikəsini qulağına döndərməsəm, bu papaq olmasın, lap arvad ləçəyi olsun. Onda sən də tamaşa edərsən (3, 260). Əsərdə Baratın dialoqunda yer alan "Vallah" anlamı da eyni səciyyədədir: "Vallah onun gözünün altına elə bir rəngi tünd fənər qoyardım ki, lap yüz prosent işıq verərdi. Hayıf ki, proqramda yoxdur. Vallahı, Almaz xanım, mən hələ durum soyunum, Rüstəmi-Zal kimi girim ortalığa, kənd boyu qışqırım, kim vuruşur, gəlsin!" (3, 330).Yazıçı "1905-ci ildə" əsərində axundun dilindən səsləndirdiyi andda Uca Tanrıdan islam dininə rövnəq diləyir. Bu məqamda dah çox ərəb və fars kəlmələrindən istifadə edən axundun Allaha xitabı təbii görünür: "Xudaya xudavənda, səni and verirəm öz əzəmətü-cəlalına, sən bu cəhəti-mərhumu qəriqi-rəhmət elə. Xudaya xudavənda, sən dini islama rövnəq ver və onun tərəqqisinə çalışan üləmayi-əzəmi, sərvətdar, hümmətdarı və bütün əhli islamı min bir bəladan hifz elə" (3, 414)."Od gəlini" pyesində Aqşinin Elxana müraciətlə söylədiyi anddan onu öz əqidəsindən döndərməyə cəhd etmə vasitəsi kimi istifadə edilir: "Elxan, mən sənə acıyıram. And olsun bir Allahın böyüklüyünə, and olsun ürəyimdə bir od kimi yanan qardaşlıq məhəbbətinə ki, sən sabah öləcəksən. Nicat yolu yoxdur. Vaxt varkən dön, yalvarıram sənə" (3, 572).

C.Cabbarlının dramlarında dini ehkamlara, islam müqəddəslərinə aid andlarla yanaşı, digər müqəddəs hesab edilən varlıqlar haqqında andlar da xüsusi yer tutur. Bu baxımdan "Od gəlini" pyesinin "Dördüncü görüş"ündə Altunbayın dilindən verilən and bu baxımdan səciyyəvidir: "And olsun bu yanar dağlara, and olsun bu sönməz odlara ki, dediklərində doğruya bənzər bir şey görsəm, bu günəşə gülümsər bargahı bayquşlar yuvasına, torpaq üstünü məqbərələrə çevirəcəyəm, bu qiyamətin dəhşətləri içində o da məhv olacaqdır, sən də... mən də!.. Söylə!.." (3, 535).C.Cabbarlı yeni dövr Azərbaycan dramaturgiyasının öndərlərindən biri kimi zəngin və çoxşaxəli yaradıcılığında xalqımızın yaratdığı misilsiz söz xəzinəsinə müraciət etməklə onun qorunması və təbliği sayəsində böyük xidmətlər göstərmiş, milli və bəşəri dəyərlərimizin bugünkü nəslə və gələcəyimizə ötürülməsində əsl vətəndaş yanğısı ilə fədakarlıq göstərmişdir. O dövrünün böyük ziyalısı kimi dərk etmişdir ki, bədii fikrin inkişaf mərhələlərində sənətkarlar həmin inkişafın perspektivini müəyyənləşdirmək üçün keçmiş irsə, folklora müraciət etmiş, ondan nümunə götürmüşlər. Artıq ədəbi-tarixi inkişafın bu təcrübəsi C.Cabbarlıya da məlum idi ki, keçid dövründə, böyük ədəbi çevrilişlərin baş verməsi prosesində folklora istinad etmək yazıçının qarşısında geniş imkanlar açır. Məhz C.Cabbarlının doğma xalqının folkloruna, əvəzsiz söz abidəsinə bu dərəcədə yüksək qiymət verməsi və dram əsərlərində ondan səmərəli şəkildə və yaradıcılıqla bəhrələnməsi də bu mənəvi zərurətdən irəli gəlmişdir. C.Cabbarlının xalq həyatının həqiqi aynası olan folklora bu qədər diqqət və qayğısı onu ölməz və əbədiyaşar bir sənətkara çevirmişdir.

Ədəbiyyat:

1. Bəhlul Abdulla. Arxaik folklor janrları. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə, birinci cild, Bakı, Elm, 2004, s.84-85.
2. Bəkir Nəbiyev. Həmişəyaşar sənətkar. C.Cabbarlının "Ey dan ulduzu" kitabına ön söz. Bakı, Yazıçı, 1979, s.10.
3. Cəfər Cabbarlının "Ey dan ulduzu". Bakı, Yazıçı, 1979.
4. İ.İbrahimov. Atalar sözü və məsəllər. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. I cild, Bakı, 1961, s.125
5. Ramazan Qafarlı. Xalq mahnıları. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə, birinci cild, Bakı, Elm, 2004, s.181.
6. Ramazan Qafarlı. Uşaq folkloru. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə, birinci cild, Bakı, Elm, 2004, s.311
7. Sona xanım Cabbarlı. Onu kim unudar. Bakı, Gənclik, 1979, s.35.

N. Isayeva

Method of utilization from the national literature in the plays by jafar jabbarli

Summary

In the article, using rich literary and artistic images as an example, shows the possibilities of creative use of the rich treasury of folk literature in the dramaturgy of J.Jabbarli, especially in his plays, where proverbs and sayings that are the result of oral folk art of many generations, and revealing the inner world of images idiomatic turns used by an author attract the attention.

With the help of paremiological units, manifested in the character's words, an author reveals the psychology of the type and its character, which also shows the exceptional position of an author.In the Paramyological Thought of the Slavic Persians, the author discovers the psychological type and character of the character, in which the authorship is expressed and the author's position. The author insists on how easy it is to use it, or how to use it from person to person. Meat items are subcutaneously, the contents are discarded, the contents are displayed,

and the contents are explicit. The Nightmare. Unclean, rogatelstvo, prosaicenne Ibadom, oddly retired persona Almaz:The blueprint of the author sets the edges of the image. Dramatic Dramatic Dramatics - The Right, The Most Important, and The Immediate Explosion of Images Ten cabs used to be used in slaves in the form of smiles on the beach in Seville. Odnoko pastures in the dialect are disconnected from Seville.

Keywords: Jafar Jabbarly, play, folklore, proverbs and sayings, folk songs, lullabies, oaths

Н.Исаева

Приемы использования народной литературы в пьесах джафара джаббарлы

Резюме

В статье, на примере богатых литературно-художественных образов показаны возможности творческого использования богатой сокровищницы народной литературы в драматургии Д.Джаббарлы, особенно, в его пьесах, где привлекают внимание пословицы и поговорки, являющиеся результатом устного народного творчества многих поколений, идиоматические обороты, используемые автором при раскрытии внутреннего мира образов. При помощи паремиологических единиц, проявляющихся в словах персонажа, автор раскрывает психологию типа и его характер, в чем проявляется и исключительная позиция автора. Автор обращает особое внимание на то, как он или она использует каждого из персонажей, их собственный стиль общения и их видение. Эти обеты иногда подтверждаются, иногда отвергаются, иногда запугиваются, осуждаются и так далее. значит оттенки. Например, ругательство, произнесенное Ибадом, одним из отрицательных персонажей пьесы Алмаза:Цвет подхода автора к каждому изображению заслуживает внимания. Успешное нахождение драматурга - это правильный, точный выбор и использование пословиц на изображении персонажа.

Ключевые слова: Джафар Джаббарлы, пьеса, фольклор, пословицы и поговорки, народные песни, колыбельные, клятвы

Redaksiyaya daxil olma tarixi: 21.02.2019
Çapa qəbul olunma tarixi: 25.03.2019
Filologiya elmləri doktoru, professor Məhərrəm Qasımlı
tərəfindən çapa tövsiyə olunmuşdur

SAMİRƏ ƏLİYEVA
Filologiya üzrə fəlsəfə doktoru
AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu
samira-1971@yandex.com

ƏBDÜLXALİQ CƏNNƏTİNİN HƏYAT VƏ YARADICILIĞINA BİR NƏZƏR

Xülasə

Məqalədə XIX əsrin II yarısı, XX əsrin əvvəllərində Bakıda yaşamış şair və ədib Əbdülxaliq Cənnətinin həyat və yaradıcılığından söhbət açılır. O, 1885-ci il sentyabr ayının 12-i, yaxud da 13-də Bakı şəhərində dünyaya göz açmışdır. Onun atası Əbdülqafar daşyonan olub. Cənnəti "Tərcümeyi-hal"ında qeyd edir ki, onların nəsli xan zamanında məşhur və böyük imkan sahibləri olmuşlar. Lakin Azərbaycanda çar üsuli-idarəsi qurulduqdan sonra onların hər şeyləri əldən çıxmış, çox kasıb vəziyyətə düşmüşlər, şair doqquz yaşından sonra mədrəsədə təhsil almağa başlamışdır. İki il yarımdan sonra təhsilini yarımçıq qoyub ailəyə kömək məqsədilə fəhləlik etməyə başlamışdır. Sonradan Mirzə Mehdi adlı bir ziyalıdan tibb elmini öyrənir. Əbdülxaliq Cənnəti Bakı şəhərində yeni üsulda məktəb açır, axşam özü tibb təhsili alır, gündüz uşaqlara dərs verirdi. O, tibb sahəsində biliklərini artırdıqdan sonra Bakı şəhərində müalicəxana açır. Bunlarla yanaşı, o, Bakıda o zaman fəaliyyət göstərən "Məcməüş-şüəra" ədəbi məclisinin yığıncaqlarında iştirak edirdi. Azərbaycan və fars dillərində qəzəllər yazır, məclisin ən fəal üzvlərindən biri kimi özünü göstərirdi. Əvvəllər Vasif, Əttar, Həccarzadə, Daşkəsən oğlu təxəllüslərini qəbul etmişdi., sonradan bağ və bostana, gülüstana çox aşiq olduğundan Cənnəti təxəllüsünü qəbul etmişdi.

1905-1907-ci illərdən sonra onun yaradıcılığında ictimai motivlər üstünlük təşkil etməyə başlamışdır. Cənnətinin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda qorunan əsərləri əsasən bu şifrlər altında saxlanılır. M-152 (Fars və Azərbaycan dillərində yazılmış divan); B-1199 (Məsnəviyyat), B-2700 (Azərbaycanca divan), D-750 (Müxtəlif şeirlər), B-1545 (ictimai xarakterli şeirlər), D-752 (qrammatikaya aid kitab), B-7791 (Salman Mümtaza müraciət və şeirlər), B-1530 (qəzəllər. avtoqraf) və s.

Açar sözlər: Əbdülxaliq Cənnəti, əlyazma, ədəbi məclis, təxəllüs, lirika.

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda orta əsr klasssiklərimizin əsərləri ilə yanaşı, XIX əsrin ikinci yarısı, XX əsrin əvvəllərində yaşayıb-yaratmış şair və ədiblərimizin də əlyazma nüsxələri mühafizə edilməkdədir. Bu əlyazmaların bir çoxunun avtoqraf – yəni müəllifin öz dəstxətti ilə yazılmış olması onların əhəmiyyətini bir daha artırmış olur. Belə klassik şairlərimizdən biri də Bakı və Abşeron ədəbi mühitinin görkəmli nümayəndələrindən olan Mirzə Əbdülxaliq Qafarzadə Cənnətidir.

Əbdülxaliq Cənnəti 1272/1855-ci ildə Bakı şəhərində dünyaya gəlmişdir. Bəzi mənbələrdə 1855-ci il iyun ayının 6-da anadan olması qeyd olunub. Lakin nəzərə alsaq ki, hicri 1272-ci il məhərrəm ayının 1-i, yəni ilin əvvəli miladi 1855-ci ilin sentyabr ayının 12-13-nə düşür, o zaman Cənnətinin təvəllüdü təxminən payız-qış aylarına təsadüf etmiş olur:

Ğərəz, tarixi-hicri bin iki yüz,
Dəxi yetmiş iki tarix idi, düz.(1,164)

Cənnətinin atası Əbdülqafar daşyonan olub. Ata tərəfdən babası Həsənqulu sarayda "rikabdar" (üzəngi tutan), ulu babası Səfərəli Soltan isə Bakı xanı Hüseynqulu xanın "əmiri-şikar"ı (ovçubaşı) olub. Cənnəti "Tərcümeyi-hal"ında qeyd edir ki, onların nəsli xan zamanında məş-

hur və böyük imkan sahibləri olmuşlar. Lakin Azərbaycanda çar üsuli-idarəsi qurulduqdan sonra onların hər şeyləri əllərindən çıxmış və maddi durumları çətinləşmişdir:

Böyük bir xandanmış xan zəmanı,
Dağıtmış çar o yüksək xanmanı.

Fəqət bən bir fəqiranə məkanda,
Mühəqqər evdə, kasıb dudmanda...(1,164).

Cənnəti doqquz yaşından sonra mədrəsədə təhsil almağa başlamışdır. O, iki il yarım oxuduqdan sonra təhsilini yarımçıq saxlayır. Buna səbəb bir tərəfdən mədrəsədə tədrisin çox aşağı səviyyədə və yarıtmaz olması idisə, digər tərəfdən ailəsinin maddi durumunun o qədər də ürəkaçan olmaması idi. Cənnəti ailəyə kömək məqsədi ilə on iki yaşından fəhləlik etməyə başlamış, müxtəlif işlərdə çalışmışdır. On səkkiz yaşından etibarən şeirə həvəs göstərmiş, şeir yazmağa başlamışdı. Qazandığı pulları kitab alar, müstəsna bir həvəslə mütaliə edərdi. Gənc Əbdülxaliq ərəb və fars dillərini mükəmməl surətdə öyrənmiş, İslam şəriəti, Qurani-Kərim və həmçinin klassik Şərq şairlərinin əsərlərinə dərindən vaqif olmuşdu.

O zamanlar Cənnətigilin qonşuluğunda Mirzə Mehdi adlı bir alim yenicə təhsilini başa vuraraq vətənə qayıtmışdı:

O dəmlər Mirzə Mehdi əhli-hikmət,
Yeni təhsildən qılmışdı övdət.

Biz ol şeyx ilə vardıq çün mücavir,
Olurdım xidmətində gahi hazir. (1,166)

Cənnətidən başqa tələbələr də Mirzə Mehdinin yanına təhsil almaq üçün gəlib-gedirdilər, lakin onların marağı əsasən fiqh və şəriət elmlərinə idi. Cənnəti isə əsasən tibb elminə maraq göstərirdi. Gündüzlər işləyir, axşamlar isə Mirzə Mehdidən tibb elminin incəliklərini öyrənirdi:

Bu minval ilə keçdi xeyli müddət,
Bənimçin olmadı əsla fərağət.

Dedim, kəsbi buraqsam, keçməz əmrim,
Əgər tərk etsəm elmi, heçdir ömrim.

Münasibdir yenə halimlə məktəb,
Bənim vəz`imlə uyğundır bu mətləb. (1,167).

Əbdülxalıq Cənnəti Bakı şəhərində yeni üsulda məktəb yaratmaq qərarına gəlir. Bunun üçün bütün lazımi sənədləri hazırlayır və fəaliyyət göstərmək üçün hakimiyyət dairələrindən icazə alır. Axşam tibb dərsi alır, gündüz isə uşaqlara dərs verirdi. Bir müddətdən sonra tibb sahəsində müəyyən biliklər əldə edir və Bakı şəhərində müalicəxana açır. Xəstələri müalicə etməklə yanaşı, dostlarından birinin məsləhəti ilə əczaçılıq, yəni dərman hazırlayıb satmaqla da məşğul olmağa başlayır.

Bütün bunlarla yanaşı, Əbdülxaliq Cənnəti vaxt tapıb Bakıda fəaliyyət göstərən "Məcməüş-şüəra" ədəbi məclisinin yığıncaqlarında da iştirak edirdi. O, demək olar ki, məclisin ən fəal üzvlərindən biri idi. Azərbaycan və fars dillərində şeir və qəzəllər yazırdı. Hətta o, bir neçə dəfə şairlər məclisində şeir deməsinə görə üstünlük qazanmışdı. Bir şeiri və ya uzun bir qəsidəni üç dəfə oxuyandan sonra tam əzbər öyrənib deyə bilirmiş.

Əbdülxaliq Cənnəti bir dəfə Hacı Seyid Əzim Şirvaninin də iştirak etdiyi məclisdə imiş. Bəlli bir mövzuda yeddi şair şeirləşirmiş. Bu zaman Cənnəti digər şairlərə qalib gəlmiş, birinciliyi qazanmışdı. Seyid Əzim Şirvani də onun şeirini bəyənmiş və ona belə bir sualla müraciət etmişdi ki: - "Təəccüb edirəm ki, bunlar hamısı məşhur ikən siz nə üçün gümnam qalmısız?". Cənnəti isə öz növbəsində ustada belə bir cavab vermişdi: "Kiminin şöhrəti olur, kiminin hünəri" (4.293).

Əvvəllər Vasif, Əttar, Həccarzadə, Daşkəsən oğlu təxəllüslərini qəbul etmişdi, sonradan bağ və bostana, gülüstana çox aşiq olduğundan təxəllüsünü dəyişib "Cənnəti" qoymuşdu. Hətta bir dəfə bir ruhani dostu ona rişxəndlə belə deyir: "Nə yazırsan, ey Cəhənnəmi?". Cənnəti bu suala farsca belə cavab vermişdi:

من نه آنستم که جمعی پیشوا داند مرا
نه از آنهایم که بعضی با عصا راند مرا
دوستی هرگه بخوشی دوزخی گوید چه باک
هاتف غیبی دمادم جنتی خواند مرا

(*Mən nə anəstəm ke cəm`i pişva danəd məra*
Nə əz anhayəm ke bə`zi ba əsa ranəd məra
Dusti hərgəh bexuşi duzəxi quyəd çe bak
Hatefi-ğeybi dəmadəm Cənnəti xanəd məra)

Tərcüməsi belədir:

Mən hamının başçı bildiyi adam deyiləm,
Nə də bəzilərinin əsa ilə qovacağı adamlardan deyiləm.
Bir dost bəzən zarafatyana mənə "Cəhənnəmi" deyirsə, nə eybi var,
Hatifdən – qeybdən gələn səs (isə) hər zaman məni "Cənnəti" çağırır

Şair gənclik illərindən qəzəl, qəsidə, mərsiyə və sinəzənlər yazardı, lakin heç bir zaman vəzifə və mənsəb sahiblərinə tərif yazmamışdı. O, məşhur Cənubi Azərbaycan ziyalı və yazıçılarından Mirzə Əbdürrəhim Talıbov (1837-1911) ilə yaxın dost olmuş, təxminən on yeddi il onunla sıx əlaqə saxlamış, məktublaşmış, əsər mübadiləsi etmişdir. Cənnəti də Talıbov kimi tərəqqipərvərlik yolunda çox əziyyətlər çəkmiş, çox hadisələr ilə üzləşmişdi. Hətta bir dəfə Cənnətinin gizli məktubu polis tərəfindən tutulmuşdu. Bundan xəbər tutan yaxın dostu Mirzə Əbdürrəhim Talıbov Bakıya gəlmiş, o zaman Talıbov Dağıstanın Teymurxanşura (İndiki Buynaksk şəhərində yaşayırdı, polisdə olan tanışları vasitəsilə məsələni həll etmişdi:

Dutuldı gizli məktubım qəzadən,
Xəbər dutdı Talıbov macəradən.

Gəlüb jandarm əliylə çarə etdi,
Sərəncam eyləyüb, fövrən qayıtdı.(1.170)

1905-1907-ci illərdən sonra Əbdülxalıq Cənnətinin yaradıcılığında əsasən ictimai motivlər üstünlük təşkil etməyə başlayır. Onun yeni ruhda yazdığı şeirləri mətbuat səhifələrində dərc olunurdu və olduqca maraqla qarşılanırdı. O dövr Azərbaycan mətbuatında ən çox nəşr olunan şairlərdən biri də məhz Əbdülxaliq Cənnəti idi:

"Nicat", "Tuti", "Təkamül", ya "Füyuzat",
Kəlamımçın olub manəndi-mir`at.

"Həyat", "İrşad", "Dirilik", həm "Məarif",
Olublar həqqimə filcümlə arif.

"Ədalət", həm "Bəsirət", həm də "İqbal",
Yazardı şe`rimi övraqə dərhal...

..."Ədəb", həm "Tərbiyət", "Hikmət"ü "Əxtər",
Məqalatım edüblər səbti-dəftər.

Neçə imza varımdı ol zəmanlar,
Onı əncaq bilirdi nüktədanlar.

Bana gəh "Daşkəsənoğlı"ydı imza,
Edirdi əsrimiz öylə təqaza.

Yazırdım farsi sözdə "İbni Həccar",
Bunı bilmək degildi çoq da düşvar.

Xülasə, "Mirşikarlı", "Vasif"ü "Əttar",
Bilirdi aşina, bilməzdi əğyar.

Gəhi "Yanşaq"la imza bildirərdim,
Ğərəz ki, gündə bir cildə girərdim (1,169).

Şair müxtəlif mövzulara aid bir çox əsərlər qələmə almışdır. Dini mövzuda yazılmış "Mühəssənati-şər`iyyə" adlı risaləsi, "Təhvili-övzan" adlı əruza dair əsəri, əxlaq elminə dair üçcildlik əsəri, altı min beytdən ibarət "Divan"ı, "Yənbuil-hikmət" adlı bir nəsihətnamnəsi, "Əssəfər fil-həzər" adlı bir romanı və s. Əsərlərin çoxu hələ də əlyazma şəklindədir, bəziləri isə natamamdır(4,294). Təəssüflər olsun ki, araşdırmalarımız zamanı adı çəkilən əsərlərin ("Divan"dan başqa) heç birinə rast gəlmədik. Güman etmək olar ki, mərhum Mir Cəlal bu kitablar haqqında məlumatı biblioqraf, araşdırmaçı, şair, Neyyir təxəllüsü ilə şeirlər yazan mərhum Novruz Ağayevdən (1870-1948) almışdır. Novruz Ağayev Mirzə Əbdülxaliq Cənnəti ilə yaxın dost olmuş, "Məcməüşşüəra" ədəbi məclisinin üzvü olmuşdur. 30-cu illərin axırından SSRİ EA Azərbaycan filialının Ədəbiyyat və Dil İnstitutunun Əlyazmalar şöbəsində çalışıb.

Qeyd etmək lazımdır ki, Əbdülxalıq Cənnəti ərəb dilinin qrammatikasına da dərindən bələd idi. Onun Qurani-Kərimin təcvidinə dair məktəblilər üçün Bakıda çap etdirdiyi "Təcvidülmüntəxəb li ətfalil-məktəb" adlı əsəri uzun müddət Qurani-Kərim təcvidini, qiraət üsullarını öyrənmək üçün dərs vəsaiti kimi istifadə edilmişdir (3).

Cənnətinin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda qorunan əsərləri əsasən bu şifrlər altında saxlanılır: M-152 (Fars və Azərbaycan dillərində yazılmış divan); B-1199 (Məsnəviyyat); B-2700 (Azərbaycanca divan), D-750 (Müxtəlif şeirlər); B-1545 (İctimai xarakterli şeirlər) D-752 (Qrammatikaya aid kitab); B-7791 (Salman Mümtaza müraciət və şeirlər); B-1530 (Qəzəllər, avtoqraf) və s.

Bu sıradan XVIII əsrin sonları və XIX əsrin birinci yarısında adı dillərə düşüb taleyi dastana çevrilən Yəhya bəy Dilqəmin taleyi, bir qüdrətli sənətkar kimi özünəxsusluğu daim Hüseyn Arifi düşündürmüş, onun acılı-şirinli ömür yoluna həsr olunan şeirlərin, ayrıca epik səpkidə qələmə alınan poemanın qələmə alınmasına zəmin yaratmışdır. Dilqəm kimi el-obada məşhurlaşan sənətkarın həyatı, faciəvi taleyi, sənət dünyası haqqında yazılan məqalələr, onun barəsində müəyyən bigilər verir. Mərhum folklorşünas Sədnik Paşayevin Yəhya bəy Dilqəmin həyatı və yetişdiyi mühit haqqında belə bir məlumatı diqqəti cəlb edir: "XVIII əsrin sonu ilə XIX əsrin birinci yarısı arasında yaşayıb yaratmış Yəhya bəy Dilqəm öz lirik-aşiqanə qoşmaları,həsrətli, qübarlı gəraylıları və taleyinə uyğun bəslədiyi məşhur saz havası ilə həm müasirləri, həm də özündən sonrakı nəsillər arasında böyük şöhrət qazanmışdır.Yəhya bəy Dilqəm Şamxor (oxu: Şəmkir- A. Q.) rayonunun Dəllər – Cırdaxan kəndində doğulmuşdur. Köhnə kənd yerində indi də Dilqəmin bir çox nişanələri qalmaqdadır. Dilqəmin evinin yeri, evinin qabağında çinarların kötüyü durur. Evə yaxın yerdə "Dilqəm bulağı" vardır. İndiyə qədər bizə təkcə Ağdabanlı Qurbanın adı ilə bağlı "Qurban bulağı" məlum idi. "Dilqəm bulağı" bir daha sübut edir ki, XIX əsrin əvvəllərindən başlayaraq el sənətkarlarının adı ilə bağlı bulaqlar yaranmışdır ki, o dövrün saz-söz məclisləri də məhz bu bulaqların başında keçmişdir" (6, 24).

Əlbəttə, bu tərcümeyi-hal səciyyəsi daşıyan qeydlərdən də göründüyü kimi, Yəhya bəy Dilqəmin uzun müddət həyat və yaradıcılığı, aşıq sənətindəki müstəsna yeri və mövqeyi barədə yetərincə bir məlumatın olmaması onun şəxsiyyəti, yetişdiyi mühit və çevrəsi haqqında dürüst təsəvvür yaratmağa imkan verməmişdir.

Hüseyn Arifin (o vaxtlar şair daha çox Hüseyn Hüseynzadə kimi tanınırdı – A. Q.) Yəhya bəy Dilqəm şəxsiyyətinə və sənət dünyasına marağı keçən əsrin 70-ci illərinin əvvəllərindən başlayır. Belə ki, o, 1972-ci ildən etibarən "Dilqəm" poeması üzərində işləməyə başlayır, poemadan müəyyən fəsilləri və parçaları mətbuat səhifələrində nəşr etdirir.

Bu poemada adı keçən və əsərin əsas qəhrəmanı olan Dilqəm tanınmış bəy və el şairi olan Yəhya bəyin təxəllüsü olmaqla yanaşı həm də Azərbaycan folklor arealında və aşıq yaradıcılığında həsrət, kədər, ümidsizlik, göynərti və qübarlı eşq obrazının simalarına çevrilmişdir.

Poemanın başlanğıc hissəsində Dilqəmin adına və şəxsiyyətinə hörmət və ehtiramı poetik bir pafosla ifadə edən müəllif böyük el sənətkarının şeirlərində əsas janr kimi aparıcı mövqe qazanan qoşmaya müracət etməsi də təsadüfi deyil, burada hadisə və şəxsiyyətə uyarlı forma və qəlib çərçivəsində münasibət bildirilməsi də özünün diqqət çəkiciliyi ilə əlamətdarlıq qazanmış olur:

Torpağa baxıram, daşa baxıram -
Torpağımda Dilqəm, daşımda Dilqəm.
Xəbərli, xəbərsiz ötür fəsillər,
Baharımda Dilqəm, qışımda Dilqəm.

Axdı qulağıma yanıqlı səsi.
Çoban bayatısı, el şikəstəsi.
Sağımda, solumda isti nəfəsi,
Arxamda Dilqəmdir, qarşımda Dilqəm.

Şeiriyyət qoxulu yayım, payızım,
Başqa bir aləmdən qalxır avazım.
"Dilqəmi" üstündə köklənib sazım,
Qəlbimdə Dilqəmdir, başımda Dilqəm (3, 177).

"Dilqəmi" üstə köklənmək poemanın ayrı-ayrı fəsillərində də özünün qabarıq nümayiş etdirməkdədir. Belə bir məziyyəti nakam taleli aşıq-sənətkarın öz sevgisi yolunda çəkdiyi məşəqqətlərin inandırıcı və təsirli şəkildə ifadəsi zamanı yaxından görmək olur. H.Arif "Dilqəm" obrazının folklordan – aşıq ədəbiyyatından gələn rəmzi səciyyəsini qələmə aldığı poemasının hər bir hissəsində diqqət önündə yoxlamış və əsərin ruhunu bu mahiyyət üzərində qurmuşdur.

Poemanın "Axtarış" adlı hissəsində aşığın ömür və sənət yoluna məxsus ən incə təfərrüatları axtrıb aramaq, onu epik təhkiyənin mərkəzinə çəkmək əsas məqsəd və qayeyə çevrilir.Şair belə bir axtarış sevdasının gözünə el-el, oba-oba, oymaq-oymaq gəzib dolaşdığı yerlərlə dərindən tanışlığından qürurla söz açır və belə səyyahlığın ona yaddaşlardan silinməkdə olan sənətkarların da üzə çıxarılmasında bir vasitə olduğunu inandırıcı şəkildə oxucuya çatdırmağa çalışır:

Saçlarımın qırovunu
Murovdakı,
Qoşqardakı
boz buluddan,
Kəpəzdəki,
Murğuzdakı
çəndən soruş.
Soraqdayam, -
Aşıq Alı sorağında,
aylar,
illər yola düşüb.
Atlı, atsız
Vaxtlı, vaxtsız
Yönüm sağa,
sola düşüb (4, 178).

Gəraylılar, divanilər, bağlamalar, müxəmməslər, zəncirləmələr axtarışında olan lirik qəhrəman şairin özüdür. Belə bir ədəbi üsul heç də fərdi eqonu mütləqləşdirmək səciyyəsi daşımır, əksinə, şairin yaxından bələd olduğu mətləbləri daha dərindən və inandırıcı boyalarla canlandırılması üçün əlverişli zəmin hazırlayır. Abbasları, Əmrahları, Qasımları, Qurbanları, Valehləri, Musaları, Novruzları axtaran qəhrəmanın uzun müddətdən bəri Dilqəm axtarışına rəvac verməsini belə ifadə edir:

Kənd-kənd,
ev-ev,
insan-insan.
Kim axtarar
axtarmasam,
axtarmasan?
Babaları soraqlayıb
sirri dərin
bir aləmi
axtarıram.
Nə müddətdir
Dilqəm məni buraxmayır,
Mən Dilqəmi axtarıram (5, 182).

Axtarmaq, aramaq, itib-batmaqda olan sənət incilərini və onu yaradan şəxsiyyətləri tapıb üzə çıxarmaq ümumən poemanın əsas leytmotivi kimi üzə çıxır. Bu mənada simvolik səciyyə daşıyan "Saz götür" adlı fəsil maraq doğurur. Müəllif "Dilqəmi" havasının kədər və qəm üstə köklənən sədası ilə Yəhya bəyin ruhu-mənəvi aləmi arasında oxşarlıq və uyarlığa diqqəti yönəldir, çoxsaylı insanların qəlb harayını da bu havacatın səsləndirilməsində axtarılması təbii və inandırıcı təsir bağışlayır. Burada bir folklor ruhu daşıyan simvolik şəxsin-aşığın timsalında bütün insanlığın qəm və nisgilini ifadə etmək aparıcı bir məziyyət kimi xüsusi dəyər daşıyır. Maraq doğuran bir əlamətdar cəhət odur ki, Yəhya bəy Dilqəmin başına gələn ağrı-acılı hadisələr elə onun sonralar aşıq sənətinə gələnlərin dilindən səsləndirilməsi və dinləyici auditoriyasının böyük həyəcan və maraqla qarşılaması səhnəsi nəsillər arasında qırılmaz əlaqə və bağların mövcudluğundan xəbər verir. Bu fəsildə Aşıq Mirzənin Dilqəmdən ürək ağrısı və daxili bir həyəcanla bəhs etdiyi hadisələrin özü baş verənlərə müəllif və tamaşaçı mövqeyini də paralel şəkildə izləməyə imkan yaradır. Dilqəmin sevgisi yolunda çəkdiyi iztirablar, Telli xanımın (bəzi tədqiqatçılar onu Dostuxanım kimi də təqdim edirlər – A. Q.) övladının olmaması bəhanə gətirilərək kəbinin geri oxudulmasına etiraz edərək atası evinə getməsi və bir də geri qayıtmaması ilə bağlı epizodlar poemada bir o qədər təfsilatı ilə təsvir edilməsə də, bu hadisəyə işarələrin olması aydın şəkildə özünü göstərməkdədir. Burada Telli xanımın gedişindən dolayı Yəhya bəyin yaxın sirdaşı qədər etibarlı atının kişnərtisi, göz yaşları axıtması baş verən hadisənin bütün mənzərəsi ilə əks etdirilməsinə bir vasitə kimi düşünülməsi özünü göstərməkdədir.

"Ayrılıq" və "Usta bir saz bağla" adlı fəsillərdə yenə də folklor simvolikası səciyyəsi daşıyan hicran və saz anlayışları eyni bir məxrəc altına gətirilir. Sazbənd usta Tünüyə verilən sifariş əslində sinədə yığılb qalan qəm və nisgil dolu yaşantıları səsləndirmək üçün düşünülməsi maraq doğuran bir poetik tapıntı kimi diqqəti cəlb edir.

Hüseyn Arif sonralar nəşr olunan şeir kitablarından birinə - "Ömür deyir..."ə "Dillən Dilqəm eşqinə" adlı fəsildən bir parçanın daxil etməsi poema üzərində uzun müddət yaradıcılıq axtarışlarının aparıldığını əyani surətdə təsdiqləməkdədir. Poemanın onuncu fəslindən bir parça kimi verilən nümunənin əvvəlində verilən bir qeyd şairin başına gələn müsibətli günlərin ağrıaçıları ilə Dilqəm arasındakı kədər və nisgil dolu yaşantılarını dolğun şəkildə əks etdirməkdədir. Haqqında söhbət gedən qeydə nəzər salaq: "Vəfatından bir ay əvvəl Arif gözlərimə baxaraq dalğın, fikirli halda: Ata sən şair kimi özünü Dilqəmdə tapmısan, onu bitirməyə tələs! – dedi." (1, 109).

Şair Dilqəmi dağdan ağır dərd və möhnətini folklor simvolikası kimi seçməsi son dərəcə təsirli bir səhnəni göz önündə canlanırır. Kədər üstə köklənən misralardan məlum olur ki,iki ildir susan şair ilhamı yenə ehtizaza gətirə biləcək iki qüvvə və ünvan var: onlardan biri həyatdan nakam və faciəli surətdə getmiş Arifdir, o birisi isə qəm girdabına düçar olan Dilqəmdir:

Bu gecə də yuxum ərşə çəkilib,
Yaranışdan sehrlidi bu aləm.
Qabağımda bir-birinə qarışan
Ya kitabdı, ya kağızdı, ya qələm.

Fərqi nədi ulduza bax, aya bax.
Çəmənə bax, çiçəyə bax, çaya bax.
Tale verən qismətə bax, paya bax
Ya həsrətdi, ya möhnətdi, ya da qəm.

Məndən ötrü nə sevinc var, nə həvəs,
Küçə qəfəs, həyat qəfəs, ev qəfəs,
Hüseynə ürəyini açan kəs
Ya Arifdi, ya Kərəmdi, ya Dilqəm (1, 109).

Bu kədər simvolik səciyyə daşıyan poema - dastanı həm şəxsi planda, həm də ümumxalq miqyasında yaşanılan rəmzi-məcazi məqamlarının tarixçəsi barədə bir elegiya kimi insan qəlbini böyük sənətkarlıqla riqqətə gətirə bilir.

Ədəbiyyat

1. A. Hüseyn.Dillən Dilqəm eşqinə (10-cu fəsildən parça), Ömür deyir..., Bakı,"Gənclik", 1981.
2. Bu barədə bax:Əhmədov T. XX əsr Azərbaycan yazıçıları, Ensiklopedik məlumat kitabı (Təkmilləşdirilmiş üçüncü nəşri), Bakı, "Nurlar", Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2004.
3. Hüseynzadə H. Dilqəm ("Dilqəm" poemasından parçalar), Seçilmiş əsərləri, İki cilddə, I cild, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1975.
4. Hüseynzadə H. Dilqəm ("Dilqəm" poemasından parçalar), Seçilmiş əsərləri, İki cilddə, I cild, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1975.
5. Hüseynzadə H. Dilqəm ("Dilqəm" poemasından parçalar), Seçilmiş əsərləri, İki cilddə, I cild, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1975.
6. Paşayev S. XIX əsr Azərbaycan aşıq yaradıcılığı. Bakı, 1990.

A.Gasimova

Symbolic folklore in "Dilgam" poem by
Huseyn Arif

Summary

In the scientific article carried out extensive analysis and generalizations about the idea of artistic craftsmanship of the subject of the poem Dilgam by national poet Huseyn Arif, has given more attention to the epic description and points of insistence from the relative path of life, to the deepest trace of the nation's memory as a craftsman Yahya bey Dilgam, who thought lived in the end of 18th and at the beginning of 19th centuries.

As a real manifestation of such interest and attitudes to Ashug Dilgam's fate, life and art, in a written poem to think a matter of meaning of his personal troubles and cares as fateful problems that lead people to take into consideration and all these valued view point of artistic and folk paradigm. The poet expresses his deep conviction that his eternal address will also be deeply embedded in the geography of such searches, saying that he has spent thousands of years in the care of grandparents, breastfeeders, and grandmothers, and grandmothers, who have lived thousands of years of history as the most reliable source of search.

In fact, in the same sense, these elders and cymbals are represented and summarized in the form of folklore symbols like the Dilgam image. It is worth noting that H.R. Arif's own poetic image also becomes a lyric symbol within the system.

Key words: Dilgam, epic narrative, ashug-artist, saz-word master, love story, narration about ashug

А. Гасымова

Символический фольклор в поэме
«Дильгам» Гусейна Арифа

Резюме

В статье анализируется тема поэмы Дильгам народного поэта Гусейна Арифа, а также проводится широкий спектр анализов и обобщений идеи мастерства. Большое внимание уделяется эпическому изображению и повествованию мастерства и жизненного пути Яхйа бека Дильгама, который жил и занимался творческой деятельностью в конце XVIII и певой половине XIX века. Поэма, в которой реально проявляется интерес и отношение к судьбе, образу жизни и искусства Ашуга Дильгама, а также приобретение его личных проблем и забот рокового характера находится в центре внимания и оценивается с профессиональной и народной парадигмы.

Поэт выражает глубокую убежденность в том, что его вечный адрес также будет глубоко укоренен в географии таких поисков, говоря, что он провел тысячи лет на попечении бабушек и дедушек, кормящих грудью, а также бабушек и бабушек, которые прожили тысячи лет истории как самый надежный источник поиска. Фактически, в том же смысле, эти старейшины и тарелки представлены и обобщены в форме фольклорных символов, таких как образ Дилгама. Стоит отметить, что собственный поэтический образ Х.Р. Арифа также становится лирическим символом внутри системы.

Ключевые слова: эпическое повествование, ашуг-профессионал, мастер саз-слова, история любви, слово об ашуге

Redaksiyaya daxil olma tarixi: 21.04.2019
Çapa qəbul olunma tarixi: 25.07.2019
Filologiya elmləri doktoru, professor Məhərrəm Qasımlı
tərəfindən çapa tövsiyə olunmuşdur

TAMARA ATAKİŞİYEVA
Bakı Mühəndislik Universiteti
Xırdalan şəhəri Həsən Əliyev küçəi
tamara.atakishiyeva@gmail.com

AZƏRBAYCAN MEMUAR ƏDƏBİYYATININ TARİXİ QAYNAQLARI VƏ TƏŞƏKKÜLÜ

Xülasə

Məqalə Azərbaycanda memuar ədəbiyyatının yaranması və inkişafına həsr olunmuşdur. XI əsrdən başlayaraq XXI əsrə kimi məşhur şair və yazıçılar tərəfindən memuar janrında əsərlərin yaranması və inkişafı yuxarıda göstərilən işdə verilmişdir. Ayrıca, xatirə sözünün həyat yazma prosesi kimi izahı məqalə boyu kitabların və şeirlərin fraqmentlərində müəyyən edilmişdir. Məqalə memuar janrının tarixindən bəhs etdiyindən məşhur ədəbiyyat nümayəndələrinin də adı çəkilir. Klassiklərdən Nizami Gəncəvi, Məhəmməd Füzuli, Abul Ula Gəncəvinin adları və əsərlərindən bir parça göstərilir. Onlar müstəqil xatirə əsəri yazmamışdılar. Lakin bu sahənin qığılcımları onların yaradıcılığında hiss olunur. Yuxarıda göstərilən elmi iş oxucuya A.Bakıxanov, S.A.Şirvani və s. kimi XVIII əsr ədəbi insanları ilə tanış olmağa imkan verir. Bu dövr janrın ikinci formalaşma dövrü kimi də hesab edilə bilər.

XIX əsr yazıçılarının xatirə əsərləri N.Vəzirov, M.A.Mocuzun yaradıcılığında verilir. XX əsr bizə bu sahənin çiçəklənmə dövrünü nümayiş etdirir. C.Məmmədquluzadə, A.Nəzmi, M.S.Ordubadi bu sahəni zirvəyə çatdıran insanlardır. Müasir əsr Anar, Elçin, M.Süleymanov kimi insanlarla tanınır. Məqalədə müasir memuaristlər haqqında bəzi məlumatlar verilir. Elmi işin sonu xatirə tərifinin açıqlamasını verir.

Açar sözlər: memuar, ədəbiyyat, inkişaf, tarixi, əsər

Azərbaycan ədəbiyyatı dünya inciləri içərisində janr zənginliyi və rəngarəngliyi ilə seçilir və illər keçdikcə şair və yazıçılar gözəl nümunələr yaratmaqla bu sahəni daha da dərinləşdirir. Milli ədəbi irsdə özünəməxusluğu ilə fərqlənən memuar janrı yazarların həyat yazma prosesində onların keçirdiyi hiss-həyəcana arxalanan ömür yollarını öyrənmək cəhətdən çox maraqlıdır. Memuar – şəxsin həyatında baş verən ictimai və ya fərdi hadisə və anılar toplusudur.

Azərbaycan memuar ədəbiyyatı müstəqil olaraq XX əsrdə formalaşsa da onun tarixi qaynaqları XI əsrə gedib çıxır. İlk xatirə janrına aid nümunələr Nizami Gəncəvi, Nəsirəddin Tusi, Əbul ula Gəncəvi, Xaqani Şirvani kimi şəxsiyyətlərin yaradıcılığında rast gəlinir. Məşhur "Töhfül-İraqeyn" poemasının müəllifi Əfzələddin Xaqaninin adı çəkilən əsərdə öz həyatından uşaqlıq xatirələrindən məlumat verib. Tədqiqatçılar Xaqaninin tərcümeyi halını məhz bu əsərə görə müəyyənləşdirə biliblər. Böyük mütəfəkkir oğuz türkü ailəsindən anadan olması haqqında belə qeyd edir: "Bir Əcəm türküyəm dəricə deyən, yalvac tanıyan, Tanrı istəyən".[1,4] Memuar rüşeymlərinə Firdovsinin "Şahnamə" əsərinin "Kitabın əsasının qoyulması" hissəsində da rast gəlinir. Burada Firdovsi bildirir ki, onun "Şahnamə" yazmaq istədiyini dostu alqışlayır. Ümumiyyətlə, klassik şair və yazıçıların həyatı haqqında xüsusi mənbə olmadığı üçün müasir tədqiqatçılar klassiklərin yazıları əsasında onların bioqrafiyalarına hakim olmuşlar. Bele yazarlardan biri də Məhəmməd Füzuli idi. Məlum olduğu kimi Füzuli türk ərəb ve fars dillərində yazardı. Bu barədə farsca divanin müqəddiməsində bele qeyd etmişdir: "Bəzən ərəbcə şer yazdım və ərəb fəsihlərini müxtəlif mənzumələrimlə şadlandırdım. Bu mənim üçün asan idi. Çünki mənim elmi bəhslər dilim ərəbcə idi. Bəzən türkcə şer dünyasında at çapdım və türk zəriflərinə türkcə şerin gözəlliklərinə zövq verdim. Bu da meni bir o qeder təşvişə salmadı, çünki türkcə şer mənim əslimin səliqəsinə uyğundur. Bəzən fars dili sapına inci düzdüm və o budaqdan könül meyvəsi dərdim." [2,17] Şairin "Şikayətnamə" əsəri də avtobioqrafik məzmun daşıyır, məşhur "Sa-

lam verdim –rüşvət deyildir deyə almadılar" [3,7]cümləsi ovqaf idarəsində baş verən ədalətsizliyi təsvir edən ifadədir.

Əsrlər keçdikcə şair və yazıçıların yaradıcılığında avtobioqrafik tipli məzmun daha da çoxalmağa başlayır. Bu məsələ daha çox Abbasqulu ağa Bakıxanovun irsində hiss olunur. Şairin "Təzhibi-Əxlaq" əsərinin müqəddiməsində yazdığı özünə aid xüssusiyyətlər də memuar janrının əlamətləri kimi hesab oluna bilər: "Gənclik çağlarında öz ağlıma inanırdım, nöqsanlı olduğumu heç zaman ürəyimə gətirmirdim. Rəyimə müvafiq olmayan bir işi və ya istəyimin əksinə nəticələnən bir məsələni özgəsindən bilərək zəmanə adamlarını təsdiqləndirirdim. Hərçənd ki, onlar da günahsız deyildilər. Lakin onların günahı mənim düşündüyüm qədər deyildi. Getdikcə təhqiqatım və təcrübəm artdı, öz ağlımın dərəcəsinə şübhə eləməyə başladım. Dərk etmədiyim nöqsanlarım yavaş-yavaş ortaya çıxmağa başladı."[4,21]

Yaradıcılığında xatirələrə yer verən XIX əsrin görkəmli şairi olan Seyid Əzim Şirvanini də göstərmək olar ki, onun Şamaxının vəziyyəti haqqında olan şerdə adı çəkilən ünsürlərə rast gəlmək olar.

Bir tərəfdən zəlzələdən evlərimiz oldu xərab,
Bir tərəf xəlq bahalıqda yanıb oldu kəbab,
Bir tərəf getdi quberna işimiz oldu əzab
Müxtəsər bizdədi aləmdə hər afət görünür.[5,19]

Şair zəlzələ zamanı Şamaxıda baş verən hadisələri qələmə alır.

Öz dövrünün görkəmli nümayəndələrindən sayılan Həsən bəy Zərdabi haqqında həyat yoldaşı Hənifə xanım "Həsən bəy Məlik Zərdabinin" bioqrafiyası adlı kitabında tərcümeyi-halı və xatirələrini qeydə almışdır. Həsən bəy idarələrdə qulluq etməklə yanaşı təsadüfi bazarlarda, evlərdə yeri gəldikcə maarif barəsində təbliğat aparır və cavanları başa sala bilirdi. Məktəb vasitəsilə o maarifçiliyi daha da genişləndirmək istəyirdi. Həsən bəy Bakı gimnaziyasında müəllimliyə girməyə çalışırdı: "Gimnaziyada müsəlman şagird çox az idi. Müsəlmanlar uşaqların ruslaşmasından ehtiyat edərək onları məktəbə buraxmırdılar. Həsən bəy hökümətə sübut etdi ki, gimnaziyada müsəlman müəllim yoxdursa müsəlman şagird də olmayacaq."[6,201] Hənifə xanımın xatirələrindən məlum olur ki, Zərdabi boş vaxtlarında bərbərxanada, dəmirçixanada, çayxanadabir sözlə kasıbların toplaşdığı yerdə oturur, teatrın, məktəbin faydası haqqında saysız-hesabsız söhbətlər aparır, rus dilini başa düşməyən insanlara vətəndaş hüquqlarını qaydaları izah edirdi. . XIX əsrin digər böyük yazıçısı Nəcəf bəy Vəzirovdur. Onun özü haqqında yazdığı tərcümeyi halı xatirə janrına da aid ola bilər. Bu əsərdə Vəzirov ağır uşalıq illərindən, 12 yaşında məktəbə getməsində, pis rəftara dözməyib oradan çıxmasından, sonra Bakıya gəlməsindən bəhs edir: " Mənim yeni müəllimim Mkrtıç adlı bir erməni idi. Bu zalım adət etdiyindən məni haqqa və nahaqqa ya kardon ilə və ya əli ilə döyərdi. Axırda bu işgəncələrə davam etməyib məktəbdən qaçmağa məcbur oldum. Xiş əqvamımdan birisi məni istedadsız bilərək öz yanına alıb rus qəvaidilisaniyyəsinə aşina etməyə çalışdı ki, bəlkə məni kənd Mirzəliyinə qəbul eləsinlər. 1868-ci ildə anamın göz yaşına baxmayıb, dərs oxumaq üçün qaçıb Bakıya gəldim." [7,416]

Öz dövrünün məşhur şəxsiyyətlərindən sayılan Məhəmməd Hadi lirikasında xatirələrə yol vermiş, və memuar janrının rəngarəngliyindən poeziyasında istifadə etmişdir. "Meydani hərb xatirələrimdə" şair bir növ həyatını əks etdirmişdi:

Guya ki, soyuq məqbər içindəydi həyatım
Lakin yaşayırdı qələmimdə nəğəmatım.
Qanuni-mübinində yenə dəhri-kühənsal,
Qış gəldiyiçün etmədədir qarını irsal.[15,271]

Məhəmməd Hadi digər şeri olan "Şair, hücreyi-iştiğalı və düşüncələri" sanki öz həyatına aid anları qeyd etmişdir.

Asılmış əlbisəsi bir tərəfdə divarə,
Şu əskilər yaxışar böylə əski divarə.
O yanda bir çamadan keçmişin nəzirəsidir,

Zavallının bu oda hücreyi-fəqirəsidir.[15,200]

XIX-XX əsrdə Cənubi Azərbaycanda yaşamış şairlərdən Mirzə Əli Möcüzün adını çəkmək olar ki, onun da şer parçalarında ağır həyatı barədə satirik yönümdə məlumat vermişdir. XX əsrin görkəmli yazıçılarından olan Nəriman Nərimanov mükəmməl əsərlər yazmışdır. Onun yaradıcılığında məqalələr də vardır ki, memuar janrının əlamətlərinə rast gəlmək olur : "Axır zamanlar, Zaqafqaziyanın oxumuş müsəlmanlarından bəziləri rus qəzetlərində öz məqalələrini dərc elətdirirlər. Bir tərəfdən bu, əlbəttə, sevincli hadisədir, çünki, görünür müsəlmanlar yavaş-yavaş mətbuat işçiləri ilə maraqlanmağa başlayırlar. O biri tərəfdən isə bu hadisə çox kədərlidir ki, onlar mətbuat işinin əhəmiyyətini pis anlayırlar." [8,245]

Əsrinin daha bir görkəmli memuaristi Yusif Vəzir Çəmənzəminlidir. Onun "Həyatımın 20 ili" xatirə-əsərində Şuşanın tarixi, adət-ənənəsi, coğrafi quruluşu, milliyyəti, iqtisadi vəziyyəti, Novruz bayramı, musiqiçiləri verilir. Xatirələrdən aydın olur ki, Ağdamdan keçərkən Əhməd bəy Ağaoğlu, Haşım bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev kimi dövrün mənsubları Çəmənzəminlinin atasının qonaqları idilər və onun çıxışını böyük məmnuniyyətlə dinləyirdilər. Ümumiyyətlə, müəllif təkcə həyatı və ədəbi fəaliyyəti haqqında deyil, XIX-XX əsrin həkimi, yazıçı, şair və molla, qazi kimi insanları haqqında da yazmışdır. Əsərin ilk səhifələri onun Şuşa şəhərinin təsviri və tarixi haqqındadır. Yazıçının memuarları onun bədii istedad və epistelomojik nəsil haqqında məlumat əldə etmək üçün dəyərli mənbədir. Müəllif ailəsi haqqında da bəzi məlumatları verir. Atasının başqa şəhərdə işlədiyini və evinə ildə 3-4 dəfə gələ biləcəyini və hər gəlişində bir həftə qaldığını yazır. Bu həftələr uşaqlar üçün unudulmaz olardı, amma anaları üçün deyil.

Hüseyn Cavid Azərbaycan ədəbiyyatında "İblis", "Şeyx Sənan", "Peyğəmbər" və s. kimi gözəl əsərlərin müəllifidir. Baxmayaraq ki, o heç bir xatirə yazmayıb, amma doğmaları bu dahi insan haqqında memuarları diqqətə layiqdir. Şairin həyat yoldaşı Müşkinaz Cavidin bəyi haqqında xatirəsi şair və dramaturqun həyat və yaradıcılığını öyrənilməsi cəhətdən əhəmiyyətlidir. İlk tanışlığı haqqında Müşkinaz xanım yazır: "Mən Hüseynin qardaşı qızı ilə ən yaxın dost idim. Həmişə evlənməyimizi arzulayırdı." Oxuyarkən məlum olur ki, Hüseyn evlənməzdən əvvəl iki dəfə onu görüb və bundan sonra nişanlanıblar. Müşkinaz Cavidin təhsili olmadığı üçün cütlük çox çətin bir həyat keçirir. H.Cavid ailədə tək çalışırdı və xanımının müşahidəsinə görə Cavid gecə belə kitabları üzərində işləyirdi.

Memuar janrında əsər yazan yazıçılardan Süleyman Sani Axundovu göstərmək olar. Yazıçının 1938-ci ildə qələmə aldığı "Uşaqlıq həyatımdan xatirələr" adından göründüyü kimi həyatının erkən dövrlərini əhatə edir. Əsər "Kənd məişəti", "Tağı əmi", "Quş tutma", "Məmmədağanın alacəhrəsi", "İlanlarla mübarizə", "Tağt əminin tərlanı", "Axtar və Şəngül", "Çərik səfəri", "Balıq yerinə ilan", "Talesiz quşcığaz", "Qayıbı iti" adlı hissələrdən ibarətdir. Əsərin özü isə belə başlayır: "Atam Rzaqulu deyərmiş ki, mənim üç oğlum, bir qızım olacaqdır. Onlara bu adları qoyacağam: Qəhrəman, Rüstəm, Süleyman, Məhtaban. Atamın bu arzusu əmələ gəlir." [16,427] Ümumiyyətlə, yazıçının uşaqlıq həyatı Ağdamın Seyidli kəndində keçmişdir. S.S.Axundov əsər boyu Seyidlini gözəl duyğularla təsvir edir.

Ümumiyyətlə, XX əsr Azərbaycan memuar ədəbiyyatının daha da çiçəklənən dövrüdür. Bu dövrün parlaq nümayəndəsi 1869-1932-ci illərdə yaşamış Cəlil Məmmədquluzadədir. Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatına muxtəlif janrlara məxsus gözəl nümunələr bəxş etmişdir. Milli ədəbiyyatda memuar janr əsərləri ilk olaraq bu görkəmli şəxsin adı ilə bağlıdır. Onun qələmindən çıxan "Xatiratım" yazıçının memuar ədəbiyyatına töhfə etdiyi qiymətli əsərdir. Əsər Məmmədquluzadənin həyatının uşaqlıq illərindən bəhs edir. "Xatiratım" bu məşhur cümlələrlə başlayır: "Gözümü ömrümdə birinci dəfə açan kimi dünyanı qaranlı görmüşəm. Bu qaranlıqda ilk dəfə eşitdiklərim bunlardır:Allahü Əkbər! Allahü Əkbər!" [9,4] Bu əsərdə əsas məsələ yazıçının fani dünyaya qarşı mübarizəsidir. Hətta o bu ideyanı aşağıdakı parçada belə qeyd etmişdir. "Qaranlıq dünya Cəlil Məmmədquluzadənin kiçik muasirlərinin çoxunu öz dəhşətli qoynunda məhv etmişdir. Onlar qaranlıq muhitə qalib gələ bilməmişlər. Cəlil Məmmədqu-

luzadə isə yalan dünya ilə ardıcıl və cəsarətli vuruşda qalib gələ bilmişdir.” [9,15] Xatiratim əsəri 2 hissədən ibarətdir. Birinci hissə yazıçının uşaqlıq həyatını, ikinci hissə isə gənclik illərini əhatə edir. Memuar əsər Namaz, Meyit Busatı, Şadlıq Namazı, Gecə Namazları, Sövm Orucluq hissələrindən ibarətdir. “Namaz” hissəsində C. Məmmədquluzadə namazın onun ailə və qohumlarına vacibliyindən danışır. Yazıçı namazla bağlı uşaqlığını belə təsvir edir: “Mən o vədələr uşaq idim və yuxum da bu səbəbdən gərək bərk və şirin olaydı və elə indi də. Ancaq o həyəcanla ki dayım namaz qılmağa məşğul olardı, dəxi mümkün deyildi yatmaq və oyanmamaq.” [9,7]Yazıçının xatirələrinə görə dayısı özünü namazdan sonra dünyanın ən xoşbəxt bəndəsi hesab edərdi. C.Məmmədquluzadənin təvir etdiyi namaz səhər namazının ilkini sayılırdı və bu da o demək idi ki, dayısı hələ 16 dəfə namaz qılmalı idi. Xatirədə namaz növlərinin müxtəlifliyi göstərilir: “Rəhmətlik vətəndaşlarım cümə günləri cümə namazına durardılar, ölü öləndə meyit namazına durardılar, göy guruldayanda namaz qılardılar (ayət namazı), ay tutulanda namaz ıqlardılar(xüuf namaz), gün tutulanda namaz qılardılar, qara yel əsəndə namaz qılardılar, qırmızı yel əsəndə namaz qılardılar, and içəndə namaz qılardılar, nbəzr eləyəndə namaz qılardılar, icarə eləyəndə namaz qılardılar.” [9,10]

Azərbaycan ədəbiyyatının digər görkəmli memuaristi, əsasən 1905-ci ildə erməni-azerbaycan soyqırımını təsvir edən O.F.Nemanzadədir. O yazırdı: «Günəş çıxandan gün batana qədər gizlənən insanları xilas etmək üçün təhlükəli yerlərə gedirdik. Üçüncü gün qaçdığımda əşyalarımı itirdim. Gecələr biz dovşan kimi cəmi bir neçə saat yatırdıq, əsasən alov təhlükəsi üzündən səhərə qədər oyaq qalırdıq. Hətta günlər var idi ki, yemək yeməyə vaxt və ya ümumiyyətlə yemək tapa bilmirdik. Palçıqda və soyuqda gəzərkən yorulurduq ".[10,246] "Mənim xatirələrim "adlı əsəri 25 hissədən ibarətdir və hər birinin adı var. Xatirələri 1878-ci ildə baş verən hadisələrdən təsvir edir. Müəllif kəndə gələn rus əsgərləri barədə məlumat verir. Rusların kənddə məskunlaşması yazıçının qarşısında dilemma yaranmasına sğvq edir ki, bu məsələ də memualarda qeyd olunur: o hansı məktəbin seçəcəyini bilmirdi - mədrəsə yoxsa rus məktəbi. Onun “Şəkidə” adlı xatirəsində özünün Tiflisdən Şəkiyə olan səyahətindən söhbət açır: “1894-ün payızı idi. Tiflisdən Yevlaxa, oradan Şəkiyə yollandım. Yevlax-Şəki yolunun palçığı, ətrafındakı çılpaq dağların qəmli görünüşü, ağacsız, kölgəsiz düzlərin “sərabları” məni marağa salmış, bu gedişimə peşman olmuşdum.” [10,305] "Azqur-Batum" hissəsində Nemanzadə Azqurdan başlayan İstanbula etdiyi səyahətdən bəhs edir. Orada qatarla bağlı hisslərini təsvir edən yazıçı ilk dəfə qatar gördüyünü vurğulayır. "Batum-İstanbul" hissəsi Nemanzadənin Batumdan İstanbula səyahətini təsvir edir, şəhərə çatdıqdan sonra anasına bu barədə bir məktub yazdığı, anasının xoşbəxtliyi və oğlu ilə necə fəxr etdiyini məqamını aşkarlayır.

XX əsrin digər görkəmli nümayəndəsi Əli Nəzmidir. Onun “Keçmiş günlər” əsərinin nəzmlə yazılması digər xatirə əsərlər arasında özünəməxsusluğu ilə seçilir. Bu xatirə əsərin “Anamın hekayəsi” adlı hissəsində yazıçı anasının övlad arzusundan söhbət açır. Xatirə ondan əvvəl yazılmış digər əsərlərin davamı hesab olunsa da, bu, Azərbaycan ədəbiyyatı tarixində şeir şəklində nəşr olunan ilk memuar kimi qiymətləndirilməlidir. "Keçmiş gunler" in dili sadə və oxunaqlıdır və mürəkkəb qələmlə 2 nüsxədə yazılmışdır. Əsərin birinci hissəsində A.Nazmi özü haqqında, mədrəsədəki təhsil üsulları, ərəb dilini bilmədən Qurani-Kərim öyrətmək, bu dildə bilmədikləri halda fars dilində “Gülüstan” oxumağa məcbur edir. Memuar əsərin bir hissəsində şair uşaqlıq illərinin kasıblıq içərisində keçdiyini qeyd edir:

Bir yoxsul kulfetde, bu kendde hemen,
Geldim qem cekmekcin bu dunyaya men
Beslendim men nece, boyudum nece?
Bunlar menim ucun qaranliq gece
Lakin men catmamis sekkiz yasima
Bir sual girmisdi korpe basima
Necin bizim evde sud, qatiq yoxdur?
Halbuki her kesde bu sheyler coxdu.[17,390]

XX əsrin daha bir kamil nümayəndəsi Məmməd Səid Ordubadidir. Onun "Həyatım və mühitim" əsəri memuar yaradıcılığının əvəzolunmaz əsərlərindən sayılır. 1872-1920ci illərdə yazılmış əsər yazıçının "Familiyamız" adlı hissəsi ilə başlayır. Müəllif burada ata-anasını soyadı, diyarı haqqında məlumat verir. Onun qeyd etdiyinə görə, 1872ci ildə Ordubadın vəziyyəti bərbad idi. Mühitin pis olması atasının təxəllüs seçiminə təsiri olmuşdur: "Atam belə mühitdə yaşadığı və belə mühitdə şair olduğu üçün təxəllüsünü fəqir qoymuş və şeirlərində mühitinin yoxsul vəziyyətini əks etdirmişdir." [11,23]] "Şeir və ədəbiyyatın qiyməti" hissəsində Ordubadi şəhərin vəziyyətinin nisbətən yaxşılaşdığını qeyd edir: "Atam işdən düşdüyü və ehtiyac içində yaşadığı illərdə (1882-ci ildə) Ordubad şəhərinin vəziyyətin qismən dəyişmişdi. XVIII əsrin ortalarına nisbətən burada müsəlmanlar arasında ticarət əhli və böyük varlılar tapılırdı." [11,26]

Yeni dövrün digər görkəmli nümayəndəsi Manaf Süleymanovdur. Onun "Eşitdiklərim, oxutduqlarım, gördüklərim" əsəri memuar ədəbiyyatına böyük töhfəsi olmuşdur. Əsər ilk başlığı olan hissə "Bakının köhnə məhəllələri və ticarət mərkəzləri" belə başlayır: "Bakı şəhərinin tarixi çox qədimdir, onun adına hələ miladdan qabaq yazılmış əsərlərdə rast gəlinir, burda əl quyuları vasitəsilə neft çıxarmaq, şoranlıqlardan duz istehsal etmək, zəfəran becərmək barədə qədim sənədlərdə də qeydlər var." [12,5] Yazıçı bu hissədə Bakının ticarət mərkəz olmasından, tarixi məkanlarından, əhalisindən söhbət açır. Bu hissədə qeyd olunan məhkəmə prosesləri daha maraqlıdır: "Ən maraqlı məhkəmə prosesi vəkil Qarabəyin iştirak etdiyi mühakimələr olurmuş. Bakılılar ona "Ayını ağladan Qarabəy" ləqəbi qoymuşdu. O, arıq, ucaboydu, geyimi də adi idi: şalvar, arxalıq, üstündən nazik toqqa-təkbənd, çuxa, başında karton ütə mahmud çəkilmiş drabi, yada ki, adi buxra dərisindən papaq olardı." [12,8]

Digər hissə olan "Neft sənayesinin inkişafı"nda müəllif Abşeron yarımadasıdan və digər ərazilərdən çıxarılan neft , onun hansı texnika ilə çıxarılması, ildən-ilə olan artımından danışır. Burada həmçinin insanlar arasında gəzən söhbətlər xüsusilə maraqlıdır. Bu inama görə neft olan yerdə gül-çiçək, ot bitə bilməz. Ona görə də insanlar daş-qayalıq yerləri belləyirdilər. Amma gözəl təbiəti olan Şimali Qafqazda olan ərazidə neft yataqları aşkarlanandan sonra bu iddia yoxa çıxdı. "Birinci dünya müharibəsi" hissəsində müəllif müharibə zamanı Rusiya üçün duru yanacaq mənbəyi olan Bakının vəziyyətindən söhbət açır.

XX əsrin daha bir görkəmli nümayəndəsi Anarın "Sizsiz" və"Həyatım ağrayır" əsərləri xatirə janrının parlaq nümunələri sayılır. "Sizsiz" əsəri yazıçının xatirələrinə əsaslanaraq yazılmışdır. Bu əsərdə yazıçı adının mənası haqqında açıqlama verir: "Oxucularla görüşdə birisi soruşur:

-Adınızın mənasını nədir?

-Anar-anmaq felindəndir, anmaq-yada salmaq, anar-yada salar, Anar-yada salan.

-Bəs deyirlər adınız belə açılır: Anam Nigar, Atam Rəsul.

-Yox, bu uydurmadır, kim uydurubsa maraqlı uydurub. Amma doğru deyil, belə şey heç vaxt atamla anamın ağlına gəlməyib." [13,4]

Eyni əsrin digər görkəmli nümayəndə haqqnda yazan memuarist Elçin "İlyas Əfəniyev: şəxsiyyəti və sənəti" adlı əsər yamışdır. Burada Elçin İlyas Əfəndiyev haqqında dəyərli məlumatlar verir: "Qəribədir, İlyas Əfəndiyev uşaqlıq illərinə, soyuna-kökünə, iti hafizəsinin ötüb keçmiş günlərlə bağlı ömrünün son günlərinədək dəqiq təfərrüatlarıyla qoruyub saxladığı xatirələrə nə qədər bağlıydısa, bir o qədər də şəxi arxivinə fikir verməyən, nəinki mətbuatda çap olunmuş əsərlərini, onun haqqında yazılmış məqalələri, hətta öz kitablarının belə, nüsxələrini özündə saxlamağa əhəmiyyət verməyən bir insan idi." [14,5]

Yuxarida qeyd olunan yazarların verilmiş əsərlərinin müəyyən hissələrinə fikir versək görərik ki, Memuar əhvalatların obyektiv xronologiyası ilə deyil, onların müəllif üçün dəyər və əhəmiyyəti, daxili aləmində mövqeyi, yəni subyektiv psixoloji zamanla müəyyənləşir. Memuarlar obyektiv fakt və qeydlər üzərində qurulmur, bir çox hallarda şəxsi təxəyyülə əsaslanır.

Azərbaycan ədəbiyyatında memuar janrının mühüm yeri vardır. Yazıçı və şairlərimiz memuar janrını Şərq çalarları ilə zənginləşdirmiş, memuarların hətta elmin digər sahələrinə belə töhfəsi

olmuşdur. Memuar Azərbaycan ədəbiyyatında bədii özünəməxsusluğu ilə seçilən janrdır. Bu janr müəllifin həyatının təfərrüatlı və ardıcıl təsvirini tələb etmədiyi üçün və epizod seçimində tam azadlıq verdiyinə görə daha uyğun sayılıb və istifadə edilmişdir.

Ədəbiyyat

1. Xaqani Şirvani. Seçilmiş əsərlər.2003
2. Məhəmməd Füzuli.Əsərləri altı cilddə.2005
3. Məhəmməd Füzuli.Seçilmiş əsərləri.2005
4. Abbasqulu Ağa Bakıxanov Qüdsi.Seçilmiş əsərləri.2005
5. Seyid Əzim Şirvani.Seçilmiş əsərləri.Üç cilddə. 2005
6. Меликова Г.С. Воспоминания об отце. В кн.: Современники о Г.Зардаби, 1985
7. Nəcəf bəy Vəzirov. Seçilmiş əsərləri.Tərcümeyi halım.2005
8. Nəriman Nərimanov. Seçilmiş əsərləri.2004
9. Cəlil Məmmədquluzadə. Əsərləri dörd cilddə.2004
10. Ömər Faiq Nemanzadə.Seçilmiş əsərləri.2006
11. Məmməd Səid Ordubadi.Həyatım və Mühitim.2012
12. Manaf Süleymanov. Eşitdiklərim,oxutduqlarım, gördüklərim.1987
13. Anar.Əsərləri.Sizsiz.2004
14. Elçin.Seçilmiş əsərləri.2005
15. Məhəmməd Hadi. Seçilmiş əsərləri.2005
16. Süleyman Sani Axundov. Seçilmiş əsərləri.2005
17. Əli Nəzmi. Seçilmiş əsərləri.2006

T.Atakishiyeva

Historical sources and formation of Azerbaijani memoir literature

Summary

The article is devoted to the background and development of memoir literature in Azerbaijan. Beginning from the XI to the XXI century the creation and growth of works in the memoir genre by famous poets and writers are given in the above mentioned work. Also, explanation of the word of memoir as the life-writing process is defined in the fragments of books and poems throughout the article. As the work is about the history of the memoir genre, famous literary men of letters are mentioned. From the classics Nizami Ganjavi, Mahammad Fuzuli,Abul Ula Ganjavi's names and piece of their works are shown. They did not write the whole memoir work. But sparks of this field are felt in their creativity. The above mentioned work also gives the reader a chance to get acquainted with the literary people of XVIII century people like A.Bakikhanov, S.A.Shirvani and so on. This period can be considered to be the second formation cycle of the genre. Memoir works by the writers of XIX century are given in the creativity of N.Vaizrov, M.A.Mocuz. XX century shows us the blooming period of this sphere. J.Mammadquluzade, A.Nazmi, M.S.Ordubadi are the people who made this field be in its peak. Modern century is known for people like Anar, Elchin, M.Suleymanov. The article gives some details about modern memoirists. The end of the work gives the explanation of memoir definition.

Key words: memoir, literature, development, historical, work

Т.Атакишиева

Исторические источники и формирование
Азербайджанской мемуарной литературы

Резюме

Статья посвящена истории и развитию мемуарной литературы в Азербайджане. Появление и развитие произведений в жанре мемуаров известными поэтами и писателями с XI по XXI век приведены в вышеупомянутой работе. Кроме того, объяснения слова «мемуары», как процесса описания жизни, определено во фрагментах книг и стихов по всей статье. Также упоминаются известные представители литературы, так как в статье рассказывается об истории мемуарного жанра. Показаны некоторые части произведений великих классиков Низами Гянджеви, Мухаммеда Физули, Абул Ула Гянджеви. Они не писали мемуары. Однако, искры этого литературного жанра отчетливо просматриваются в их творчестве. В научной работе читателю дается возможность познакомиться с такими литераторами восемнадцатого века как А.Бакиханов, С.А.Ширвани и другие. Этот период можно также рассматривать как второй этап формирования и становления этого литературного жанра. В XIX веке мемуарное направление проявляется в творчестве писателей Н.Везирова и М.А.Моджуза. Настоящий расцвет этого жанра наступает в XX веке. Дж.Мамедгулузаде, А.Назми, М.С.Ордубади – это писатели,высоко поднявшие планку этого литературного направления. Нынешний век известен такими писателями, как Анар, Елчин, М.Сулейманов. В статье представлена информация о современных мемуаристах. В заключении научной работы дается краткое определение мемуарного жанра.

Ключевые слова: мемуар, литература, развитие, исторический, произведение

Redaksiyaya daxil olma tarixi:29.06.2019
Çapa qəbul olunma tarixi: 03.08.2019
Filologiya elmləri doktoru, professor Şəfəq Dadaşova
tərəfindən çapa tövsiyə olunmuşdur.

MİNARƏ QULUYEVA
BDU
ŞƏFƏQ BALAYEVA
BDU
Zahid Xəlilov
minaraquliyeva@gmail.c om

VAQİFƏQƏDƏRKİ POEZİYANIN LİRİK QƏHRƏMANI

Xülasə

Məqalədə Vaqifəqədərki poeziyanın lirik qəhrəmanından bəhs olunur. Göstərilir ki, Nizami, Nəsimi, Xətai və Füzuli kimi klassiklərimiz müxtəlif dövrlərdə yaşayıb yaratsalar da, insana olan sevgi, məhəbbət həmin şairlərin yaradıcılığının aparıcı qüvvəsinə çevrilmişdir.

Vaqifəqədərki klassik Azərbaycan poeziyasında da pak məhəbbət həmişə cavandır. Odur ki, M. Fizuli poeziyasında eşq sevdası mübarək sevdadır. Şair təmiz, pak sevgini gözəllərdə alqışlayır.

Klassik şairlər eşqi ilahiləşdirir, hətta onu ərşə belə yüksəldir. Eşq insanın mənəvi dünyasını yüksəldir, ona nur verir.

Klassik poeziyanın lirik qəhrəmanı öz sevgilisini qüvvəyə bənzədir.

M. Fizuli lirik şeirlərində təsvir olunan qəhramanlar öz sevgilisini üstün tutur.Klassik seiriyyatın qəhramanı eşqin cəzasını çəkir. Sevgi də ələ məhz budur.

Məqalədə nümunə olaraq Leyli və Məcnunun aşiqanə həyatından qısa da olsa, bəhs edilir, onların fədakarlığından danışılır.

Beləliklə, Vaqifəqədərki şeiriyyatın təsvir vasitələri qeyri-realdır, həyatilikdən çox uzaqdır. Lakin Vaqifədərki şairlərin poeziya qəhrəmanları ilə Vaqif qoşmalarının qəhrəmanları arasındakı fərq olduqca böyükdür.

Açarsözlər:bəhs etmək, lirik qəhrəman, poeziya, saf məhəbbət, şair, gözəllik

XVIII əsrə qədər Azərbaycan şeiri öz romantizmi ilə seçilirdi. Azərbaycan ədəbiyyatı və bəşəriyyətin mənəvi dünyasını zənginləşdirən Nizami, Xaqani, Nəsimi, Füzuli kimi dahilər əsasən romantik idilər. Əlbəttə, Nizaminin, Nəsiminin, Füzulinin romantizmi XIX əsr Avropa və rus romantizmindən: Bayronun, Hötenin, Puşkinin və Lermontovun bədii ənənələrindən çox fərqlənirdi. Bu orta əsr romatizmi, Şərq romantizmi idi. Bu romantizm Şərq və Azərbaycan ədəbiyyatında uzun müddət davam etmiş ədəbi cərəyan idi. Bu romantizm orta əsr Azərbaycan intibahının məhsulu, Azərbaycan milli və mənəvi təkamülünün təntənəsi idi. O dövr Azərbaycan ədəbiyyatında əsas fikir ideal ümumiləşdirməyə və qlobal simvolikaya yönəlmişdi.

Poeziya konkret insanın ictimai həyatını təsvir etməyi qarşısına məqsəd qoymuşdu. Bu xüsusiyyətlər Avropa və rus ədəbiyyatı üçün daha səciyyəvi idi (245, 112-114; 241, 28-34). Şərq ədəbiyyatında isə poeziyanı daha çox ideal aşiq, ideal sərkərdə, ideal ədalət düşündürürdü (79, 34-36).

Klassik poeziyamız öz həyatiliyi, yüksək əxlaqi və əbədi bəşər sevgisi ilə seçilmişdir. Bu poeziya "yer üzünün əşrəfi sayılan insana" böyük məhəbbət ifadə olunmuşdur. İnsana məhəbbət, yüksək humanizm bu poeziyanın əsas hərəkətverici qüvvəsi olmuşdur, mənəvi istinadgahı sayılmışdır. Nizami, Nəsimi, Xətai, Füzuli kimi şairlərimiz müxtəlif dövrlərdə yaşasalar da, insana məhəbbət bu şairlərin yaradıcılığının aparıcı qüvvəsinə çevrilmişdir.

Əsl şairlər günəşə bənzəyirlər, onlar da günəş kimi yüksək və əlçatmazdılar. Azərbaycan ədəbiyyatında klassik romantizmin nümayəndələri məhz belə sənətkarlar idilər. İncə zövq, böyük istedad sahibi olan bu şairlər hiss və həyəcanların, insan məhəbbətinin özəl ifadə tərzi ilə

fərqləndirirdilər. Lakin lirik təsvir şairin həyatda gördüklərinin fotosurəti deyildir. Lirik şair keçirdiyi hiss və həyəcanların müəyyən bir hissəsini öz əsərində əks etdirir. Onun daxili aləminin təsviri emosional formada ifadə oluna bilər. Bu baxımdan klassik romantizmdə şairin poetik hissləri, təsvirləri real həyatda olduğundan köklü surətdə fərqlənir. Romantik şair öz təxəyyülü ilə elə təsvirlər yaradır ki, bunu real həyatda görmək mümkün deyildir. Vaqifə qədərki klassik Azərbaycan şeirində də ülvi, pak hisslərlə qidalanmış məhəbbət həmişə cavandır, əsrlər, yüzillər keçsə də öz gözəlliyini itirmir. Bu məhəbbət aşiqə əbədi yaşamaq hüququ qazandırır, ona ölməzlik bəxş edir. Bu məhəbbət aşiqi təkcə öz müasirlərinə deyil, gələcək nəsillərə də tanıdır, ona bütün dövrlərdə tanınmaq və sevilmək hüququ bəxş edir.

Eşqində dəyanətli olmayan, məhəbbətin qədrini bilməyib ona əyləncə kimi baxan şəxslərə şairin yazığı gəlir. Şair qeyd edir ki, belə aşiqlərin məhəbbəti həyat sınaqlarına, taleh imtahanlarına davam gətirmir,yaddan çıxır. Eşqsiz ömrün mənası yoxdur, belə ömür heç vaxt, heç kimə lazım deyildir. Vaqifəqədərki klassik Azərbaycan poeziyasında, məsələn, Məhəmməd Füzuli yaradıcılığında "poetik qəhrəman bu fikirdədir ki, eşq sevdası mübarək sevdadır. Onu pisləmək, günah saymaq ağılsız hərəkətdir. Çünki eşq candır, canı isə canana vermək, nisar etmək insan üçün nöqsan yox, baş ucalığıdır. Fələyin özü əsl eşqi, məhəbbəti yüksək tutur, ona günah kimi yox, savab kimi baxır" (137, 79-80).

O, gözəlliyi eşqin yaratdığı füsünkar mələklərin simasında alqışlayır və təqdir edir. Bununla yanaşı eşqin istirabı, möhnəti həm də bəyana gəlməyən bir dərd, insanın qəddini əyən çətin, ağır bir yükdür. Ona meyl edənlərin halı həmişə pərişan, ürəyi qan olur. Eşq girdabında baş saxlamaq, onun ağır istirablarına sinə gərmək hər adamın işi, hünəri deyildir. Bu ancaq sevda yolunda özünü qurban verməyi bacaran cəfakeşlərin, böyük qəhrəmanların meydanıdır. Eşq möhnəti asandır – deyənlər səhv edirlər, mənasız söz danışırlar.

Möhnəti eşq, ey dil, asandır deyib, çox urma bax,
Eşq bir yükdür ki, xəm olmuş onun altında qat.

Böyük Füzuli eşqin yükünün ağırlığını Qaf dağına bənzədir.

"Klassik poeziyada aşiq hicrlə, möhnətlə kamala yetdiyinə, yol aldığına görə bəlayi-eşqin ağırlığından, əzabındanşikayətlənməməlidir, rüsvay olmaqdan qorxmamalıdır. Eşq cəfasına dözmək şərəfli işdir. Insan ancaq bu yolda ucalır, səadətə çatır. Sevdasız, dərdsiz, eşq atəşi ilə çırpınmayan ürək cansız cəsəddən başqa bir şey deyildir. Buna görə də Füzulinin poetik qəhrəmanı eşqində həmişə sabitdir və dəyanətlidir" (79, 262-264).

Vaqifəqədərki Azərbaycan poeziyası eşqi ilahiləşdirir, göylərə qaldırır, əlçatmaz səviyyəyə yüksəldir. Bu poeziyada eşq fəlsəfi məna daşıyır, böyük idraki əhəmiyyətə malikdir. Eşq tükənməz nur mənbəyidir, qeyri-adi işıq selidir, tanrının qüdrətidir. O, insanı gözəl əməllərə sövq edən, onun yolunu işıqlandıran bir məşəldir. Bu məşəlin işığında insan haqq yolunu tapır, mənəvi kamilliyə qovuşur. Belə eşq insanı ucaldır. O, idrakın açarıdır. Eşq himətdir, fəzilətdir, əqidədir, məsləkdir. O, insanın mənəvi dünyasını yüksəldir, nurlandırır. Eşqin bu yüksəkliyini başa düşüb qiymətləndirə bilməyənlər cahil və nadandırlar. Eşqin mənası dərindir, eşq insanın zəkası, daxili aləmi ilə bağlı bir keyfiyyətdir. Eşqin mənasını zahiri gözəllikdə axtaranlar əsl aşiqlər deyildir. Belə aşiqlər eşqin dərin mənasına, fəzilətinə nöqsan gətirir, onu ucuzlaşdırır.

Vaqifəqədərki klassik şeirin poetik qəhrəmanı üçün yarın kuyi-didarından başqa əziz bir şey yoxdur. Bu poetik qəhrəman yarın vüsalını behişt bağlarından üstün tutur. Bu lirik qəhrəmanın sevgilisi qeyri-real xəyallarda olan dilbərdir. Klassik şeirin lirik qəhrəmanı öz sevgilisinin qaşlarını qibləyə bənzədir. Bu aşiqin məhəbbəti platonik bir eşqdir. Bu qəhrəman yarın gül camalını, sərv boyunu qoyub üzünü mehraba döndərmir.

Məhəmməd Füzulinin lirik qəhrəmanı öz xəyali sevgilisini dünyada hər şeydən üstün tutduğunu, riyakarlıqdan, var-dövlət və mənsəb eşqindən uzaq olduğunu söyləyir.

Vaqifəqədərki poeziyada, xüsusən Füzuli lirikasında lirik qəhrəman hər hansı ayüzlünün eşqi üçün hər şeydən üz döndərməyə hazırdır. Bu sevgili canan isə xəyallarda yaşayan, qeyri-real bir gözəldir:

Könlümə xoşdu mənim, sevgili canan, ey Şeyx,
Deyiləm körpə ki, mən aldanam asan, ey Şeyx,
Saxlama gəl məni ayüzlülərin eşqindən,
Vurma yüz tənə mənə, hər zaman, hər an, ey Şeyx
Oldu əhli-nəzərin qibləsi cananın üzü,
Bunu inkar eləməz, məncə müsəlman, ey Şeyx.

Vaqifəqədərki klassik poeziyanın lirik qəhrəmanı eşq cəfakeşidir. Sevmək – onun aləmində cəfa çəkməkdir. Bu lirik qəhrəman ulu Şərqin bütün eşq fədailəri kimi hər cür cəfa çəkməyə hazırdır. O, gecə-gündüz qəm yükü daşıyır, bu yükün ağırlığı altında əzab-əziyyət çəkir. Heç Məcnun da bu aşiqə tay ola bilməz, çünki Məcnunun dərdinin dərmanı vardır. Bu əfsanəvi aşiqin dərdi isə dərmansızdır. Məhəmməd Füzulinin qəhrəmanı olan aşiq öz eşqində Məcnundan da, Fərhaddan da üstündür. Çünki Məcnun səhra ilə, Fərhad isə bir gözəl şəkil ilə təskinlik tapdılar. Bu lirik qəhrəman isə öz əfsanəvi eşqinin yolunda həmişəlik bəladadır. Əgər onun dərdi Fərhadda olsaydı, ahı Bisitunu dağıdardı. Məcnun belə bir eşq bəlasına düçar olsaydı, səhrada quşlar başına yuva sala bilməzdi, ahından hürküb qaçardı.

Vaqifəqədərki klassik poeziyada lirik qəhrəman çox fədakardır. O, xəyalındakı məşuqəsinə üzünü tutub deyir:

Məndə Məcnundan füzun aşiqlik istedadı var,
Aşiqi-sadiq mənəm, Məcnunun ancaq adı var,
Qıl təxafür kim, sənin həmvar mən tək aşiqin,
Leylinin məcnunu, Şirinin əgər Fərhadı var.
Əhli-təmkinəm məni bənzətmə, ey gül, bülbülə,
Dərdə yox səbri onun, hər ləhzə min fəryadı var.(218, 82-83)

Klassik poeziyanın lirik qəhrəmanı çox səbrli, təmkinli aşiqdir. Bu aşiq sevgilisindən xahiş edir ki, onu bülbülə bənzətməsin, çünki bülbül səbrsizdir, dözümsüzdür, hər dəqiqə fəryad edir. Bu fədakar aşiq öz eşqində pərvanəyə bənzəməyi üstün tutur. Çünki pərvanə heç nəyə baxmadan özünü oda atır.

Bu lirik qəhrəman üçün ən böyük mükafat yarının vüsalıdır. O sevgilisini şaha bənzədir və onun yanında canını belə təslim etməyə hazırdır. Bu sədaqətli aşiqin sevgilisi onun canını belə istəsə böyük həvəslə fəda edər. Onun bədəni eşq libasına bürünmüşdür, diri olanda libası, ölləndə də kəfəni budur.

Vaqifəqədərki klassik poeziyanın lirik qəhrəmanı eşq əzabından xilas olmaq istəmir, əksinə əzab içində yanan bədənini sağaltmaqdan qorxur, dərdinə dərman, xəstəliyinə şəfa istəmir. Çünki eşq bir bəladır ki, ona düçar olanlar sağala bilmir, onlar ancaq cəfa çəkməyə, iztirab və dərdə mübtəla olmağa adət ediblər.

Bu lirik qəhrəman eşq dərdinin daha da artmasını, bəlalarının getdikcə çoxalmasını arzu edir.

Yarəb, bəlayi-eşq ilə qıl aşina məni,
Bir dəm bəlayi-eşqdən etmə cüda məni,
Az eyləmə inayətimi əhli-dərddən,
Yəni ki, çox bəlalara qıl aşina məni. (142, 51-54)

Bu lirik qəhrəmanın sevgilisi qeyri-adi, şəhanə, əsrarəngiz bir gözəldir. Onun camalı günəşə, aya bənzəyir. Çünki onun anası Günəş, atası isə Mahitəban (Ay)dır. Bu gözəlin üzündən çıxan oxlar Günəş şüaları kimi yandırıb yaxır.

Vaqifəqədərki lirika nəsrə nisbətən daha yüksək mövqeyə malik idi. O zaman bir çox elmi əsərlər, hətta lüğətlər də şeirlə yazılırdı. Bu şeirə yüksək ehtiram və məhəbbətin göstəricisi idi.

Vaqifəqədərki klassik poeziyamızdan danışarkən bir məsələyə də toxunmaya bilmərik. Bəzi tədqiqatçılar bu dövr poeziyamızı fərqləndirən müəyyən subyektivliyə yol vermişlər. Məsələn, görkəmli dramaturq Cəfər Cabbarlı “Mirzə Fətəli Axundzadə haqqında” adlı məqaləsində

yazırdı: "Məhəmməd Füzulidən sonrakı dövrdə poeziyamız epiqonçu şeirə çevrilmişdi. El ağzından çıxmış ədəbiyyat bir dahinin qələmi ilə yonuldu və birdən-birə klassik bir yüksəkliyə qalxdı. Mühit isə bu yüksəkliyə çıxacaq bir hazırlığa malik deyildi. Azəri ədəbiyyatının Füzuli yüksəkliyində dayanması və mütərəqqi addımlarla yüksəklərə doğru irəliləməsi üçün həyati bir dayağı idi. Odur ki, Füzuli öz əlini ədəbiyyatdan çəkər-çəkməz, ədəbiyyat mütərəqqi gedişi ilə irəliləmək deyil, bəlkə yüksəldiyi yerdə belə dayanmağa və sürətli hərəkətlə enişə doğru yuvarlanmağa başladı.

Cəfər Cabbarlıya görə, Vaqifəqədərki poeiya ona görə tənəzzülə uğramışdı ki, şairlər var qüvvələri ilə Füzuliyə bənzəməyə çalışırdılar.

Əlbəttə, Cəfər Cabbarlının bu dövr ədəbiyyatı barədə fikri onun subyektiv yanaşmasının ifadəsi idi. Bu isə müəllifin əlində o dövr ədəbiyyatı barədə kifayət qədər faktik materialın olması ilə əlaqədar idi.

Vaqifəqədərki şeirdə məhəbbət dərin fəlsəfi məna daşıyır, lirik qəhrəmanın həyatının mənasıdır. Bu poetik obrazlar dostluğu, sədaqəti, ədaləti tərənnüm edir. Bu lirikada şairin yaradıcılığı ilə həyati – estetik mövqeyi arasında bir vəhdət vardır. Lakin bu heç də lirik qəhrəmanı şairin şəxsiyyəti ilə eyniləşdirmək anlamına gəlmir. Lirik qəhrəmanın həyəcanları tam olaraq şairin fikirləri kimi qəbul edilməməlidir. Bu dövr poeziyasında da lirik qəhrəman ümumiləşdirilmiş xarakter daşıyır.

Vaqifəqədərki poeziyanın nümayəndələri olan Qövsi Təbrizinin, Vəhid Qəzvininin, Məczub Təbrizinin lirik qəhrəmanlarının xarakterindəki zənginlik və bütövlük diqqəti cəlb edir. Bu sənətkarların böyük istedadı, həyat təcrübəsi, müasirlərinin fikir və idealları ilə səsləşən lirik qəhrəman obrazları yaratmağa imkan verirdi. Lirik qəhrəman obrazı bu şairlərin yaradıcılığında tam mənası ilə əks oluna bilirdi. Lirik qəhrəman problemi yaradıcılıq prosesində deyil, onun qavranılması zamanı ortaya çıxan bir anlayışdır.

Vaqifəqədərki klassik şeirimizdə lirik qəhrəman yalnız gözəlin həsrəti ilə yaşayan aşiq deyil, o bütün maneələri dəf etməyə hazır olan, haqsızlıqlara və ədalətsizliyə boyun əyməyən, həyat və yaşam barədə fikir söyləyə bilən yüksək idraklı bir insandır. Bu lirik qəhrəman məşəqqətli və çətin eşq yolunu seçdiyini fəxarətlə söyləyir və bu yoldan dönməyəcəyini elan edir. Lirik qəhrəman özünü eşqin şəhidi adlandırır və bununla fəxr etdiyini bildirir.

Vaqifəqədərki klassik poeziyada lirik qəhrəman klassik ədəbiyyatın məşhur aşiq obrazları ilə müqayisə olunur. Qövsi Təbrizinin qəzəllərində lirik qəhrəman özünü klassik ədəbiyyatın məşhur aşiq obrazlarının davamçısı, "Məcnunun tozu" adlandırır, "Gələn Qövsi deyil, Məcnun qubarıdır bu çöllərdə" – deyir. O, Məcnunun varisi olduğunu, onun qəbri üstdə çıraq yandırdığını söyləyir. Bu lirik qəhrəman öz eşqi yolunda hər cür fədakarlıq göstərməyə, çətinliklərə əzmlə dözməyə hazırdır. O, eşqi yolunda hətta ölümə, bu həyatla vidalaşmağa da hazırdır. Eşq onun sağalmaz dərdinin dərmanıdır. Vaqif poeziyasının lirik qəhrəmanı isə öz qəlbinin təmizliyi, fədakarlığı, arzu və mətanəti ilə seçilir. O, hər anı bir ilə bərabər olan hicrana çətinliklə dözür. Bu lirik qəhrəman sevgisi yolunda hətta din-imanından, etiqadından da dönməyə hazırdır.

Vaqifəqədərki poeziyada eşq insanı kamilliyə çağıran qüvvə hesab edilir. Aşiq olub hicran acısı çəkməyən dövrün, zamanın da keşməkeşlərindən xəbərsiz olur.

Bu lirik qəhrəmanın mahiyyətində elə bir aşiqlik vardır ki, o yaşadıqca, düşündükcə, hiss etdikcə məhəbbəti qiymətləndirəcək, eşqi yüksək tutacaqdır. Bu lirik qəhrəman çəkdiyi əzablardan şaddır, onun ürəyi şüşədən də kövrəkdir, lakin sevgilsinin əzabına dözməyə hazırdır. O öz platonik eşqi yolunda çox əzab çəkmişdir. Aşiq öz ürəyini qapısı dağ, bacası isə heyran göz olan evə bənzədir və sevgilisini ora dəvət edir.

Vaqifəqədərki klassik poeziyanın nümayəndələrindən biri Məczub Təbrizinin lirik qəhrəmanının eşqi hər kəsə nəsib olmayan bir duyğudur. Bu təsəvvüfü eşqdir, tanrı vergisidir. Aşiq olan mənən zəngindir, o məhəbbət aləminin sahibidir. Bu eşq elə bir möcüzədir ki, onun qüdrəti ilə cəhənnəm cənnətə çevrilir. Bu eşq insanın bəsirət gözünü açır, aşiqə görünməyən hər şeyi görə bilmək imkanı verir. Buna görə də aşiq qeybdə öz sevgilisini görə bilir.

Vaqifəqədərki klassik poeziyada lirik qəhrəman sevgisində o qədər mətanətlidir ki, eşqin cəfasından səbr, huş, əql onu tərk etmişdir. Yalnız vəfa aşiqi tərk etmir. Şair burada vəfaya insani sifətlər bəxş edir. Vəfa insan kimi dözüm nümayiş etdirərək şairi tərk etmir. Aşiqin könlü şam kimi odda yanaraq əriyir. Eşq möcüzəsi bu odu dirilik suyuna döndərir.

Əsl şairlər günəşə bənzəyirlər, onlar da günəş kimi yüksək və əlçatmazdılar. Azərbaycan ədəbiyyatında klassik romantizmin nümayəndələri məhz belə sənətkarlar idilər. İncə zövq, böyük istedad sahibi olan bu şairlər hiss və həyəcanların, insan məhəbbətinin özəl ifadə tərzi ilə fərqləndirirdilər. Lakin lirik təsvir şairin həyatda gördüklərinin fotosurəti deyildir. Lirik şair keçirdiyi hiss və həyəcanların müəyyən bir hissəsini öz əsərində əks etdirir. Onun daxili aləminin təsviri emosional formada ifadə oluna bilər. Bu baxımdan klassik romantizmdə şairin poetik hissləri, təsvirləri real həyatda olduğundan köklü surətdə fərqlənir. Romantik şair öz təxəyyülü ilə elə təsvirlər yaradır ki, bunu real həyatda görmək mümkün deyildir. Vaqifəqədərki klassik Azərbaycan şeirində də ülvi, pak hisslərlə qidalanmış məhəbbət həmişə cavandır, əsrlər, yüzillər keçsə də öz gözəlliyini itirmir. Bu məhəbbət aşiqə əbədi yaşamaq hüququ qazandırır, ona ölməzlik bəxş edir. Bu məhəbbət aşiqi təkcə öz müasirlərinə deyil, gələcək nəsillərə də tanıdır, ona bütün dövrlərdə tanınmaq və sevilmək hüququ bəxş edir.

İstifadə olunmuş ədəbiyyat

1. Əlimirzəyev X. Klassiklərimizin ideal və poetik sənət dünyası, Bakı"Elm və təhsil", 2009
2. Quliyeva M. Orta əsr bədii təfəkkürü və klassik Azərbaycan ədəbiyyatı. Bakı, 1996.
3. Quluzadə M.Füzulinin lirikası. Bakı, "Elm", 1981

a. Füzuli M. Seçilmiş əsərləri, Bakı, 1992.

М.Гулуева
Ш.Балаева

Лирический герой поэзии до М.П. Вагифа

Резюме

В статье рассматривается лирический герой поэзии до М.П Вагифа. Нужно отметить, несмотря такие классики, как Низами, Насими, Хатаи и Физули жили и творили в разные времена, но великая любовь к людям стала движущей силой творчества этих поэтов.

Чистая любовь всегда молода в классической Азербайджанской поэзии до Вагифа. То есть в поэзии М. Физули любовь всегда любима. Поэт всегда приветствует чистую любовь в красоте.

Классические поэты возвышают свою любовь к божественному. Любовь возвышает и осветляет духовной мир человека.

Лирический герой классической поэзии отождествляет свою любовь как великую силу. Герой, описанные в лирических стихах М. Физули возвышают свою любовь. Героиня классической поэзии наказана любовью. Это и есть любовь.

В статье в качестве примера рассматривается самоотверженная любовь Лейли и Меджнун.Таким образом, до Вагифа средство описание в поэзии далеко за пределами реальной жизни. Для этого лирического героя самая большая награда - половина. Он похож на любовника и готов отдать ему свою душу. Этот верный любовник охотно жертвует своей душой, если пожелает. Его тело одето в одежду любви;

Однако, разница между лирическими героями поэтов до Вагифа и героями поэзии гошма довольно велика.

Ключевые слова: рассматривать, лирический герой, поэзия, чистая любовь, поэт, красота

M.Qulueva.
SH.Balaeva

Lyric hero of poetry pre Vagif

Summary

This article deals with the lyric hero pre Vagif. It is shown that though Nizami, Nasimi and Fizuli lived and created in different times, enormous love to people had become the power of creative work of these poets.

Pure love has always been young in classical Azerbaijan poetry pre Vagif. That's why love has always been beloved in Fizuli's poetry. Poet always appreciates love in beauty.

Classical poets raise love to God. Love raises and li
ghts up the inner world of man. Lyric hero of classical poetry identifies his love with strength.

The heroes described in Fizuli's lyric poets prefer their lovers. the hero of classical poetry has been punished with love. That is real love.

For this lyrical hero, the greatest reward is the half. He looks like a lover and is ready to surrender his soul to him. The lover of this faithful lover willingly sacrifices his soul if he so desires. His body is clothed in a robe of love;

The romantic love and selfless life of Leyli and Madjnun are dealt with in this article.

So, the means of description are unreal and far from life. The difference between lyric heroes of poets pre Vagif and heroes of Vagif's goshmas is big enough.

Key words: to deal with, lyric hero, poetry, pure love, poet, beauty

Redaksiyaya daxil olma tarixi:29.06.2019
Çapa qəbul olunma tarixi: 03.08.2019
Filologiya elmləri doktoru, professor Təhsin Mütəllimov tərəfindən çapa tövsiyə olunmuşdur.

CƏFƏR QASIMOĞLU
matlabm@yandex.ru

RƏBB DƏRGAHINDAKI ANA KİTABIN YARANIŞI VƏ YAXUD RƏHMAN ŞÜURUNUN LÖVHƏ ANATOMİYASI

Xülasə

Məqalədə Rəbb dərgahındakı Ana kitabın yaranışı və ya Rəhman şüurunun lövhə anatomiyasının bəzi aspektlərinə nəzər salınmışdır. Məqalənin əvvəlində nüəllif Misir piramidalarının yaranmasından tutmuş İslam sivilizasiyasının yaranmasına qədər olan bir müddətdə icmalar tərəfində formalaşdırılan müqəddəs kəlamların cəmiyyətin həyatında oynadığı əhəmiyyət nəzər salınır.

Bildirilir ki, gil heykəllər üzərində aparılan tədqiqatlar elmdə müəyyən tapıntılara səbəb olsa da, ona həyat vermək insan imkanları xaricindədir. Belə ki, həyatın başlanması məsələsi insan şüuruna sığmayan *kodların formulu* Yaradanın əlindədir. İnsan yalnız bilik vasitəsi ilə müəyyən uğurlar əldə edə bilər, amma həyatı laboratoriyada yaratmaq mümkün deyil.

Qeyd edilir ki, qədim müqəddəs kitabələrdə olan rəmzlərin də öz şüur həyatı vardır və bu həyatı şüurun ən bəsit fəaliyyət forması ilə, yəni onun ətraf mühitdən enerji almaq, onu istifadə etmək və daha sonra yeniləşdirmək kimi xüsusiyyəti ilə eyniləşdirmək lazım deyildir. Çünki, şüurun bu bəsit fəaliyyət forması rəmzlərin mərkəzi rəb nəsillərinin ən aşağı səviyyəsinə mənsub olan xüsusiyyətdir.

Qeyd edilir ki, Rəhmanın 78 "rəmzləşmiş sözünün" hər biri ayrılıqda onun səma quruluşlu hərfləridirlər. Onların say məzmunlarıyla yüklənməsi səmanın ruh "rəb"-i quruluşunu, saylarla yüklənməsi isə səmanın ruh quruluşunu əmələ gətirir.

Açar sözlər: Rəbb Dərgahı, Ana kitab, Rəhman şüuru, lövhə anatomiyası

1."BİSMİLLAHİR RƏHMANİR RƏHİM"-in YARANIŞI (birinci məqalə)



Misir piramidalarında, qədim dünyanın tərsinə çevrilmiş bu beyinlərinin daş yaddaşlarında Amon, hind vedalarında və upanişadlarında Brahman və islam sivilizasiyasında Rəhman kimi tanınan bir səmavi fenomen vardır. Bizim təsəvvürümüzdəki "hər şey" bu fenomenin yaranış iyerarxiyasında yeddinci sırada qərarlaşır. Halbu ki, "hər şey" dedikdə biz bütün görünən və görünməyən , aşkar və gizli külli reallığı başa düşür,yaranışı O-nun tərkibinə aid edir və O-na bağlayırıq. Müqəddəs Kitabımızın ilk ayəsinin də "Rəhman" sözü ilə başlanması O-na diqqətin zə-

ruriliyini daha da artırır. Hələlik qəbul edək ki, *Rəhman ümumilikdə bilgisəması rəmzləri quruluşunun tam bir lövhə kəlamı sistemidir, Quran ibarəsincə isə səma quruluşlu rəmzlərinin tam bir lövhə "mağarasıdır" və hər tərəfdən bərk quruluşlu kəlam kristalları ilə əhatə olunmuş qapalı bir sistemdir.* O, elə bir sistemdir ki, onun inkişafı kəlamın öz tərkiblərinə ardıcıllıqla bölünməsindədir və bu bölünmə hansı sürətlərdə və həddlərdə davam edirsə, həmin sürətlərdə və həddlərdə də yığıla bilər, başlanğıca qayıda bilərRəhman şüurunun ümumi rəmz sistemi cizgi 1-də, Rəhman şüur zatları "oxusunun" rəmz sistemi cizgi 2-də, Rəhman şüur zatları "yazısının" rəmz sistemi isə cizgi 3-də göstərilmişdir.Bu cizgilərə görə, Rəhman şüuu zatları "rəblərinin" ümumi rəmz sistemi iki sistemə ayrılır. Bunlardan birincisi Rəhman şüur zatları rəbləri "oxusunun", ikincisi isə Rəhmam şüur zatları rəbləri "yazısının" rəmz sistemləridir.Rəhman şüur zatları "rəblərinin" ümumi rəmz sistemi nə deməkdir? Rəhmanın ümumi sayı 78-ə bərabər "rəmzləşmiş söz" hərfləri vardır. Bunlar, on dört müqəttəə hərfin 7 "ha", 17 "mim", 13 "əlif", 13 "ləm", 3 "sad", 2 "yə", 4 "ta", 6 "ra", 1 "kəf", 2 "hə", 2 "ayn", 1 "nun", 2 "qaf" və 5 "sin"-dən ibarət elə birləşməsidir ki, onların əlifba müxtəlifliyinə deyil, forma (rəmz) müxtəlifliyinə malik birliyinin yaratdığıümumi forma (rəmz) sistemi **Rəhmanın səmasıdır.** Başqa sözlə desək, Rəhmanın 78 "rəmzləşmiş sözünün" hər biri ayrılıqda **onun səma quruluşlu hərfləridirlər.** Onların say məzmunlarıyla yüklənməsi səmanın ruh "rəb"-i quruluşunu, saylarla yüklənməsi isə səmanın ruh quruluşunu əmələ gətirir. Rəhman şüur zatları "yazı" rəblərinin rəmz sistemi əsasında ümumi sayı 10-a bərabər 2 "qaf", 2 "ayn", 1 "nun" və 5 "sin" "rəmzləşmiş sözləri", Rəhman şüur zatları "oxu" rəblərinin rəmz sistemi əsasında isə ümumi sayı 68-ə bərabər 7 "ha", 17 "mim", 13 "əlif". 13 "ləm", 3 "sad". 2 "yə", 4 "ta", 6 "ra", 1 "kəf" və 2 "hə" "rəmzləşmiş sözləri" dayanırlar.Quranı öyrədən, yəni insanın başı üstündən keçilmiş dövrün Quran (Namaz) "yaddaş" zatlarının öz Rəhmanını (Zamanını) yaratması yoluna keçilməsini təmin edən, onların qovuşma sərhəddində tərkib etibarilə Qurana məxsus olsa da, eyni zamanda Rəhmana məxsusluğunu da iddə edən insanın yaradılmasını, ona nitq-bəyanın öyrədilməsini, onun hesab-vaxtının aparılmasını, göylərin ucaya qaldırılmasını və hər şey üçün tərəzi-mizan var edilməsini, ulduzların, ağacların baş əydiyi O-nun və bu kimi yetmiş səkkiz tərkibin ehtivasını özündə daşıyan Rəhmanın, *yeni yaradılan dövrün şüur zatlarının* ***yaranış həqiqəti*** onun "Ulu", "Allah", "Dünya" və "Axirət" şüurlarından birincisi olan "Ulu" şüurdan, "Bismillahirrəhmanirrəhim"-dən başlanır. "Ulu" şüur "Bismillahirrəhmanirrəhim"-in bazis üfüqünü təşkil edən Məhfüs nəsillərinin formalaşdırdığı şüur piramidasıdır. "Məhfuz" sözü Buruc surəsində Məhfuz sözü kimi yazılsa və səslənsə də, əslində o "Məhfüs" kimi yazılmalı və səslənməlidir. Çünki, "Füs" makroşüurun "**Fitrət**" kəlam, mikroşüurun "**Ümman**" surə və bu "yaddaş" zatlarının *soy, əsl, dil və din* mənsubiyyətlərini özündə birləşdirən "**Sədd**" ayə ailələrinin birləşməsi kimi ortaya çıxır və təbii ki, onların baş hərfləri "Füs" kimi yazılır və səslənir. "**Füs**", əslində*insanın başı üstündən keçibgetmiş dövr şüurunundəyişməyən, əlavə olunmayan, çıxılmayan və bu səbəbdən də ehkam adlandırılan* "Bismillahirrəhmanirrəhim" yaddaşıdır. Və bu "yaddaş" da öz növbəsində Məhfüsün **yeni yaradılan dövrünün şüur zatlarından** ibarət "**Məh**"-ini, yaradır. "Məhfüs" üfüq formalaşması heç də "insanın başı üstündən keçmiş dövrün şüur zatları" ilə "insanın yeni yaradılan dövrünün şüur zatlarının" birləşmiş ilk "rəb" üfüqü kimi birdən-birə yaradılmamışdır. Mən "yaradılmışdır" sözünü ona görə işlədirəm ki, **əslində, Məhfüs üfüqü "yaradılan şüur zatları" üfüqüdür.** Əgər, nəzərə alsaq ki, "Bismillahirrəhmanirrəhim"-in Məhfüs üfüqündən başqa Məhşər və Məhrəm üfüqlərindən ibarət daha iki üfüq əsası vardır və təbii ki, bu üfüqlərin də özlərinə məxsus fərqləndirici xüsusiyyətləri də diqqət mərkəzindədir, onda biz **Məhşər üfüqünə "doğulan şüur zatları"**, **Məhrəm üfüqünə isə "təkrarlanmaqla çoxaldılan" (şükürləşən) şüur zatları"** üfüqləri kimi baxa bilərik. Məhfüs formalaşması ***Rəhman"günlərinin"*** *(məzhəblərinin) və* ***Rəhman "yollarının"*** *(təriqətlərinin) birləşdiyi iki hissəli bir formalaşmadır.* Onun ədəd canları kəlamından **ibarət*"söz" əsasıRəhman,*** ədəd canları surəsindən ibarət***"hərf"əsası Quran,*** *və* ədəd canları ayəsindən ibarət ***"ədəd" əsası isə İnsandır.***Onun hərf canları kəlamından ibarət ***"kəlam" əsası Nitq-bəyan,*** hərf canları surəsindən ibarət ***"surə" əsası Hesab-vaxt*** və

hərf canları ayəsindən ibarət ***"ayə" əsası da O-dur.*** Məhfüs üfüqünə qədər də Rəhmanın, Quranın, İnsanın, Nitq-Bəyanın, Hesab-vaxtın və O-nun cərgə yaranışı var idi və buradakı bir-birinin əksinə yönəlmiş hər iki üçlüyün hər bir tərkibində 8 sıralı 8"can" olmaq etibarilə ümumilikdə 48 "sıra-can" tərkiblərinin *söz, hərf, ədəd, ayə, surə və kəlam* cərgəsinin yaranışları qüvvədə idi. Bunları kəlamın tərkiblərinə görə cərgəyə düzmək məqsədilə Məhfüs sistemi yaradılmışdır. Qurandan (Namazdan) təşəkkül tapmış "Fitrət" (makroşüur)*kəlam canları,* "Ümman" (mikroşüur) *surə canları,* onların nəsil müxtəlifliyini əks etdirən "Sədd" *ayə canları*Məhfüsün "Füs"-ündə*,* Rəhmandan təşəkkül tapmış Rəhman*söz canları* Quran*hərf canları*və İnsan*ədəd canları* isə Məhfüsün "Məh"*bölmələrində* məskunlaşırlar.

"Bismillahirrəhmanirrəhim"-in insana məxsus *yeni yaradılan dövrünün şüur zatları "Füs" yaddaşlarının güzgü əksi istiqamətində yaradılırlar və bu zaman on beş lövhəli "dövr yaddaşı" iyirmi doqquz lövhəli "Məh"-ə çevrilir.* Bu çevrilmə aşağıdakı ardıcıllıqla aparılır: əvvəlcə "Bismillahirrəhmanirrəhim zamanının **"Səbir"-dən ibarət beş lövhəli "oxu" ailəsi yaradılır.**Onu yaradanlar "Füs"-ün dırd lövhəli "Sədd" ayə ailəsi və "Ümman" surə ailəsinin "Niyyət" lövhələridirlər. "Sədd"-in "D" (din) hərf lövhəsi "Səbir"-in "R" (raqim), "Sədd"-in ikinci "D" (dil) hərf lövhəsi "Səbir"-in "İ" (ilk), "Sədd"-in "Ə" (əsl) lövhəsi "Səbir"-in "B" (başlanğıc), "Sədd"-in "S" (soy) hərf lövhəsi "Səbir"-in "Ə" (əzzəl) və "Ümman"-ın "N" (niyyət) lövhəsi "Səbir"-in "S" (say) oxu lövhələrini yaradırlar.**Səbirin "Raqim" oxu lövhəsi** "Bismillahirrəhmanirrəhim"-in **ilk yazı ailəsi olan"İlə"-nin "Ə" (əvvəl), səbirin "İlk" oxu lövhəsi "İlə"-nin "L" (laxta), səbirin "B" (başlanğıc) oxu lövhəsi isə "İlə"-nin "İ" (insan) hərf yazı lövhələrini, Səbirin "Əzzəl" oxu lövhəsi** "Bismillahirrəhmanirrəhim"-in **"Ad" –dan ibarət ikinci yazı ailəsinin "D" (dünya) və səbirin "Say" oxu lövhəsi isə "Ad" yazı ailəsinin "A" (axirət) hərf yazı lövhələrini yaradırlar. "Səbir" oxu ailəsi özünün "Allah" yazı ailəsini, "İlə" yazı ailəsi özünün "Rəhmət", "Ad" yazı ailəsi isə özünün "Mərhəmət"** ***yazı oxuları ailələrini*** **yaradırlar.** Bu sistemlərin mərkəzində isə Rəhmanın "Yox" lövhəsi qərarlaşmışdır. Təbii ki, bu sistemlərin yaranmasına səbəb olan və bunun müqabilində həm də məsrəf olan Mərkəzi Rəmz-Lövhəsi və Mərkəzi Ruh sıraları Lövhələri olmuşdur. Onların yaranışları və rəmz rəblərinin yaranışlarındakı oynadıqları rol ətraflı nəzərdən keçiriləcəkdir. Rəhman şüur zatları rəbləri "oxusu" **Ulu səmtdə** Rəhman, Quran və İnsan, **Allah səmtində** Göy, Hədd və İnsaf, **Dünya səmtində** İnci-mərcan, Gəmilər və Fani Həyat, **Axirət səmtində** isə Danılan Rəbb neməti və deyilən adı, Bişmiş Gil və Tüstüsüz Od, Rəhman şüur zatları rəbləri "yazısı" isə **"La" səmtində** Tüstüsüz od-Odsuz tüstü, Güc və Hal, **"Ta" səmtində** İki cənnət, Qaynar su- Cəhənnəm odu və Növnöv Ağaclar, **"Müti" səmtində** Gözəl əxlaq-Xoş sifət, Dad və Qərar tutmuş, **"Nəsib" səmtində** isə Yaqut-mərcan, Hurilər və Yaxşılıq təmsil olunmuşlar. Rəhmanın Ulu səmtdəki "oxu" rəblərini Mərkəzi Rəmz Lövhəsinin "nitq-bəyanı" ilə Mərkəzin Ruh Lövhəsinin "hesab-vaxt" nəzər və "O" nəfs ruhları sıraları, Allah səmtindəki "oxu" rəblərini Mərkəzi Rəb Lövhəsinin "Yercan" ilə Mərkəzi Ruh Lövhəsinin "meyvələr, xurma ağacları" nəzər və "Dənli bitgilər , ətirli otlar" nəfs ruhları sıraları, Dünya səmtindəki "oxu" rəblərini Mərkəzi Rəb Lövhəsinin"Cəlal yiyəsikərəm yiyəsi Rəbb" ilə Mərkəzi Ruh Lövhəsinin "kimsələt" nəzər və "insan-cin hesab-vaxtı" nəfs ruhları sıraları, Axirət səmtindəki "oxu" rəblərini isə Mərkəzi Rəb Lövhəsinin"İki şərqin iki qərbin Rəbbi" ilə Mərkəzi Ruh Lövhəsinin "İki dəniz" nəzər və "Maneə" nəfs ruhları sıraları yaradırlar və bu rəmzlərlə ruhlar "rəb"lərin tərkiblərinə daxil olaraq öz mərkəzi lövhəsinin və ruhlarının məqamlarını tərk edirlər.

Rəhman həm də Rəbb dərgahında saxlanılan Ana Kitab olaraq insana bağlı *yaranışın Ana Şüurudur.*O, *zatların* Ulu, *zat nəzərlərinin* Allah, *zat nəfslərinin* Dünya və *zat nəfəslərinin* Axirət şüurlarını özündə birləşdirən Ana Şüurdur. Bu şüur quruluşuna görə üç yaranış əsasının, Mərkəzi Rəmz, Mərkəzi Ruh və Mərkəzi Rəb Lövhələri əsaslarınınnəticədə bir əsasda, Mərkəzi Rəb Lövhəsi əsasında cəmləşməsidir. Rəhmanın 78 "rəmzləşmiş sözündən" 48-i onun *rəmzləşmiş söz rəmzləri,* 8-i onun *rəmzləşmiş söz ruhları,* 22-si isə onun *rəmzləşmiş söz rəblərdirlər (özləri, vücudlarıdırlar).* Rəhmanın **"söz" canları məzhəbinə** Rəhman, Göy, Danılan rəbb

neməti, İnci-mərcan, Güc, Qaynar su-cəhənnəm odu, Hurilər və Cənnətlərdəki dad, **"hərf" canları məzhəbinə** Quran, Hədd, Bişmiş Gil, Gəmilər, Tüstüsüz od-odsuz tüstü, İki cənnət, Yaqut-mərcan və Gözəl əxlaq-xoş sifət, **ədəd canları məzhəbinə isə** İnsan, İnsaf, Tüstüsüz od, Fani həyat, Hal, Növ-növ ağaclar, Yaxşılıq və Qərar tutmuş daxildirlər.

Rəhmanın **"kəlam" canları təriqətinə** Nitq-bəyan, Yer-can, İki şərqin iki qərbin Rəbbi O, Cəlal yiyəsi kərəm yiyəsi Rəbb, Günah, İki bulaq, Daha iki cənnət və Cin-insan nəfəsi, **"surə" canları təriqətinə** Hesab-vaxt, Meyvələr, xurma ağacları, İki dəniz, Kimsələr, Suç, Növ-növ meyvələr, Yamyaşıl və Cənnət əhli, **"ayə" canları təriqətinə isə** O, Ətirli otların, dənli bitgilərin dadı, Maneə, İnsan-cin hesab-vaxtı, Cəhənnəm, Yorğan-döşək, İki fəvvarə və Ucalardan uca Cəlaj yiyəsi Kərəm yiyəsi Rəbb daxildirlər.Rəhman beyni dörd beyindən (hissədən) ibarətdir.O-nun yaddaş şüurunu təmsil edən Quran Ulu şüurun tərkibində olmaqla eyni zamanda yaranışın mütləq və dəyişməyən şüurudur və bu səbəbdən də ehkam adlanır. İnsan şüuru əslində Quran şüur səmasına aid "mehr" şüuru olsa da, yaranışın iddəsi kimi o həmçinin də *yeni yaradılan dövr şüurunun "malına" çevrilərək rəhmanlaşır.*Bəşəriyyət isə 3500 elm sahəsinin və 15000-ə yaxın elmin inteqrasiyası yolu ilə mütləq elmi axtarır. Təbii ki, bu mənasız axtarışdır. Çünki, Quran-i Kərimdəki elm sahələri və bu sahələrdə cəmləşən elmlər yuxarıdakı göstəricilərindən 21 dəfə çoxdur. Buraya onu da əlavə etmək lazımdır ki, fəlsəfə hələ də yaranışın "başlanğıcını" axtarmaqdadır. Halbu ki, Quran rəmz bilgisinə görə "başlanğıc" bu sırada üçüncüdür. Ondan əvvəl "ilk", "ilk"-dən də əvvəl isə qohumluğu hərflərə daha yaxın olan"rəqəm" (Raqim)anlayışları gəlir. Yalnız rəmz bilgisi "Səbir"-in bu tərkiblərini bir-birindən fərqləndirmək qabiliyyətindədir. Ey lövğalığından və təkəbbürlüyündən partlamaq dərəcəsinə çatan dünya elmi, ey maddiyyəti futbol topu kimi qabağına qatıb qovduqca qovan qərb fəlsəfəsi siz mütləq və mütləq əvvəlcə Ulu şüurun *dünya dövrünün laxtalanmış şüur "yaddaşlarından" ibarət Quranının mütləq "Fuz" şüuruna, sonra isə* Ulu şüurun *yeni yaradılan dünya dövrüRəhmanının mütləq "Məh" şüuruna qayıdacaqsınız.* Çünki, *"dövrün əvvəli"* ilə *"vaxtın əvvəlinin"* eyni başlanğıca malik olduqları "dəvə" Səmud qövmünün "zehni" ilə kəsildikdən sonra "dövrün əvvəli" ilahi Rəhman şüurunda, "vaxtın əvvəli" isə İnsan şüurunda qalmaqla bir-birindən ayrılmışlar. Tarixi "dəvənin" bərpası üçün onların birləşdirilməsi Quranla Rəhmanın, Namazla Zamanın, Mehrlə Malın birləşdirilməsi deməkdir. Qəbul etsəniz də, etməsəniz də o yaranışlar bir-birini tamamlamalıdırlar. Bu, ilahi qanundur! İlahi şüurun yaranışını və dövri sistemini əks etdirən Rəhman Rəmz Sisteminin sizə ehtiyacı yoxdur. Sizin ona ehtiyacınız vardır. Bu bəşəri ehtiyacı Dr. Hayman Hartman (Massaçusets Texnologiya institutu) aşağıdakı "Məncə, həyat və canlılıq" atomun və hüceyrəninmaddi tərkibindən daha çox nəsə ayrı bir şeydir. Gil üzərində apardığımız tədqiqatlarla nə qədər qabağa getsək də, ona həyat vermək bizim beyin gücümüz səviyyəsində deyildir. Onun ağlımıza sığdıra bilmədiyimiz *kod formulu* Yaradanın əlindədir. Biz yalnız ağıla qapı aça bilərik, amma həyatı laboratoriyada əldə edə bilmərik" ifadəsilə bir daha qabartmışdır. Təbii ki, **rəmzlərin də öz şüur həyatı vardır** və bu həyatı şüurun ən bəsit fəaliyyət forması ilə, yəni *onun ətraf mühitdən enerji almaq, onu istifadə etmək və daha sonra yeniləşə bilmək xüsusiyyəti ilə* eyniləşdirmək lazım deyildir. Çünki, şüurun bu bəsit fəaliyyət forması rəmzlərin *mərkəzi rəb nəsillərinin ən aşağı səviyyəsinə* mənsub olan xüsusiyyətdir. Bu, *şüurun yeniləşmə enerjisini özündə bərpa etmək qabiliyyətini itirdiyi elə bir soyuma dövrüdür ki,* burada "fəhmin" 7000 dərəcəli od halı onun 37,5 dərəcəli "Üns" halına keçir.Mən yaranışın mütləq elminə dair yazdığım bu əsərimi atamın əziz xatirəsinə və Türk dünyasının milli məfkurəsinə ittıhaf edirəm.

Məhfüs üfüqünün 44 (45) lövhəsinin "dil" və "din" quruluşlarının ardıcıllığını və bu lövhələrdə daşınan yüklərin *say məzmunları* ilə ifadələrini "Fitrət"-dən başlayaraq "Mərhəmət"-lə tamamlanmaya qədər yazmaqda davam edirik. Makroşüurun "yaddaş" zatlarının "Fitrət" kəlam ailəsi 816852 say məzmunlu olmaqla altı lövhəni birləşdirir. Dil təsisatına görə 8 *kəlam kəlamı ədədini* bir lövhədə birləşdirən, din təsisatlı *Fəhm lövhəsi* Şəms surəsinə görə "Günəşin, işığının" ruh rəbi, Qaf surəsinə görə isə *"qaf" rəmzləşmiş sözündən (müqəttəə hərfindən)* ibarət *"**Quran-i Məcid**"* olaraq makroşüur yaddaşının başında durur. Dil təsisatına görə 114 *kəlam su-*

ru hərfini bir lövhədə birləşdirən, din təsisatlı *İdrak lövhəsi*Şəms surəsinə görə"onun ardınca gedən Ayın" ruh rəbi, Qaf surəsinə görə isə *Quran-i Məcidin* ***Peyğəmbəri;*** dil təsisatına görə 6237 *kəlam ayəsi sözünü* bir lövhədə birləşdirən din təsisatlı *Təfəkkür lövhəsi* Şəms surəsinə görə "günəşi ucaya qaldıran Gündüzün" ruh rəbi, Qaf surəsinə görə isə *Quran-i Məcid peyğəmbərinin* ***həyatı;*** dil təsisatına görə 77934 *kəlam sözü ayəsini* bir lövhədə birləşdirən din təsisatlı *Risalə lövhəsi* Şəms surəsinə görə "gündüzü örtüyünə bürüyən Gecənin" ruh rəbi, Qaf surəsinə görə isə *Quran-i Məcid peyğəmbəri həyatının* ***dərgah yazısı (torpağı);*** dil təsisatına görə 323621 *kəlam hərfi surəsini* bir lövhədə cəmləşdirən din təsisatlı *Əql lövhəsi* Şəms surəsinə görə "Göy, göyü quranın" ruh rəbi, Qaf surəsinə görə isə *Quran-i Məcid peyğəmbəri həyatının dərgah yazısının* ***gələn haqqı***və dil təsisatlı 407914 *kəlam ədədi kəlamını* bir lövhədə birləşdirən din təsisatlı *Təxəyyül lövhəsi* Şəms surəsinə görə "Yer, yeri yayanın" ruh rəbi, Qaf surəsinə görə isə*Quran-i Məcid peyğəmbəri həyatının dərgah yazısının gələn haqqının* ***yer ilə ətraf göyüdürlər***.

Mikroşüurun "yaddaş" zatlarının "Ümman" surə ailəsi 992 say məzmununu və Təxəyyül lövhəinin *yer üzü şüuru* kimi tanınan 1024 kəlam ədədi kəlamını bölüşdürürlər. Onu da demək yerinə düşər ki, Təxəyyül lövhəsinin 1024 və 407914 say məzmunları yalnız Məhfüs üfüqündə ayrılıqda təmsil olunurlar. Digər üfüqlərdə isə onlar birləşərək 1024+407914 = 408938 say məzmununa malik olurlar. Mikroşüurun yaranışı isə "Sədd" ayə ailəsinin dil təsisatına məxsus 2 *ayə ədədi kəlamını* bir lövhədə birləşdirən*din lövhəsinin* Şəms surəsinə görə "işin axırından vahiməyə düşməyənindən", Qaf surəsinə görə isə *ilk xilqətindən* başlanır. "İlk xilqət" dedikdə biz din zatları *ucalığı* və *adı səmtlərinin* bir lövhə daxilində mərkəzləşməsini nəzərdə tuturuq. Burada zatların adlaşmasından söhbət gedə bilməz. Burada yalnız zatların səmtləşməsi vardır. "Sədd" ayə ailəsinin ikinci lövhəsi olan 4 *ayə hərfi surunun* bir lövhədə cəmləşdiyi *dil lövhəsində isə* səmtləşmə ilə yanaşı zatların adlaşması da baş verir. Din zatları oxusunun "ucalığı" və "adı" səmtlərilə 45 dərəcə bucaq əmələ gətirən dil zatları yazısının "Əl-Eyk camaatı" və "Tubbə qövmü" adlaşması kvadrat lövhənin dörd bərabər hissəli mərkəzləşməsini başa çatdırır. Din və dilin dörd cütlüyünün arasında qalan digər dörd cütlük onlarla birləşərək 8 *ayə sözü ayəsinin* bir lövhədə cəmləşdiyi səkkiz sayda "Əsl" lokal səmalarının yaranışına meydan verir. "Əslin" mərkəzi lövhəsinin mərkəzində "Firon", birinci dördlüyün "Əsl" səmalarında Ad qövmü, ikinci dördlüyün "Əsl" səmalarında isə "Lut qardaşları" qərarlaşırlar.

30 say məzmunlu "Sədd" ayə ailəsinin dördüncü "yaddaş" lövhəsi 16 *ayə ayəsi sözünün* "Soy" lövhəsidir. Burada, "əslin" səkkiz mərkəzi səmaları səkkiz istiqamətli mərkəzi səmtlərə çevrilərək *soyun Ras camaatından ibarət* ilk mərkəzi rəmz rəbi lövhəsini yaradırlar. Lövhənin səkkiz mərkəzi səmtinin hər biri mərkəzi lövhənin səkkiz mislinə bərabər olmaqla "soya" məxsus *öz son hədd səmtlərini bölgüsüz həyata keçirirlər.* Mərkəzi din (oxu) səmtlərinin həddlərini Nuh qövmü, mərkəzi dil (yazı) səmtlərinin həddlərini isə Səmud qövmü təmsil edirlər. Ümumi say məzmunları 992-yə bərabər yaddaş şüur zatlarının "Ümman" surə ailəsinin 32 *surə ədədi kəlamının* "Niyyət" lövhəsində isə "soyun" hədd səmtlərinin hər biri mərkəzi lövhənin beş mislinə bərabər nəzər rəblərilə, mərkəzi lövhənin üç mislinə bərabər nəfs rəbləri arasında bölünürlər. Biz bunlardan yalnız bir istiqamətin, -*soyun ucalığnın,* -əsasında bu bölgüləri adlaşdıracağıq. Soyun "ulu" və "Allah" səmtlərini mərkəzi lövhə ilə birləşdirən *ucalığının* "Ulunun" din səmtinə məxsus mərkəzi rəmz rəbi yaranışın on yeddi "Mim"indən birincisinin təmsil etdiyi *nitq-bəyan,* "Allahın" din səmtinə məxsus mərkəzi rəmz rəbi isə*candır.* "Ulu" səmtdə *din səmtinin* mərkəzi lövhənin beş mislinə bərabər nəzər rəbləri həddi *hesab-vaxt*, üç mislinə bərabər nəfs rəbləri həddi isə "*O",* "Allah" səmtində isə *din səmtinin* eyni ölçülü nəzər rəbləri həddi *meyvələr, xurma ağacları,* nəfs rəbləri isə *dənli bitgilərin, ətirli otların dadıdırlar.* Eyni qayda ilə, "Ulunun" dil səmtinə məxsus mərkəzi rəmz rəbi yaranışın iki "Qaf"ından birincisinin təmsil etdiyi *günah,* "Allah"ın dil səmtinə məxsus mərkəzi rəmz rəbi isə *iki bulaqdır.* "La" səmtdə *dil səmtinin* mərkəzi lövhənin beş mislinə bərabər nəzər rəbləri həddi *suç,* "Ta" səmtində isə *dil*

səmtinin eyni ölçülü nəzər rəbləri həddi *növ-növ meyvələr,* nəfs rəbləri isə*cəhənnəmdirlər.* Qaf surəsinə görə, "Ümman" sur ailəsinin "niyyət" lövhəsi ***bəndə ruzisidir***.

"Ümman" surə ailəsinin ikinci lövhəsi 64 *surə hərfi surunun* Şəms surəsinə məxsus "Ziyana uğramış artıq nəfsini saxlamayıb günaha batırmış olan"dan ibarət "Arzu", Qaf surəsinə görə isə "***sıx salxımlı uca xurma ağacları***" lövhələri öz əvvəlki sələflərindən onunla fərqlənir ki, bizim hədd adlarını müəyyənləşdirdiyimiz soy *ucalığının* nəzər və nəfs həddləri burada lövhələşməni tamamlayırlar. Biz də verdiyimiz vədə sadiq qalaraq "ucalığın" dinə və dilə məxsus lövhələşməsini adlaşdırmaqda davam edirik. "Ucalığın" din səmtlərini "fatih sur" və "İxlas sur", dil səmtlərini isə "Talaq sur" və "Beyinnə sur" ruh rəbləri təmin edirlər. Ulunun nəzər rəbləri sırasının *"fatih"-ində* "F" (Fəhm) hərfindən ibarət "Yaradan"ıyaranışın on üç "əlif"indən ***mərkəzləşmiş fikrin nəzər rəbi*** olan***1-ci "Əlif"***, "A" (Ağıl) hərfindən ibarət "Rəbb"ı yaranışın on üç "ləm"indən ***səmalaşmış fikrin nəzər rəbi*** olan ***1-ci "Ləm"***, "T" (Təfəkkür) hərfindən ibarət "Ad"ı yaranışın üç "sad"ından ***ucaldılmış fikrin nəzər rəbi*** olan ***1-ci "Sad"***, "İ" (İdrak) hərfindən ibarət "Baş"ı yaranışın iki "yə"sindən ***ardıcıllaşmış fikrin nəzər rəbi*** olan ***1-ci "Yə"***, "H" (Hafizə) hərfindən ibarət "Qiraət"i yaranışın dörd "ta"sından ***yaddaşlaşmış fikrin nəzər rəbi*** olan ***1-ci "Ta"*** ilə yanaşı Ulunun nəfs rəbləri sırasının *"sur"-unda*"S" (Say) hərfindən ibarət "Rəhman və Rəhim"i yaranışın iki "hə"sindən ***saylaşmış fikrin nəfs rəbi*** olan ***1-ci "Hə"***, "U" (Ulu) hərfindən ibarət "Allah adı" yaranışın yeganə "kəf"i kimi ***ululaşmış fikrin nəfs rəbi*** olan ***"Kəf"*** və "R" (Rəhn) hərfindən ibarət "Həmd"i yaranışın altı "ra"sından ***rəqəmləşmiş fikrin nəfs rəbi*** olan ***1-ci "Ra"*** müqəttəə hərfləri yerinə yetirirlər. "Ulu" səmtin dil sırası ümumilikdə onun din səmtinin günahıdır. Belə ki, dilin mərkəzi səmt hərfi olan "Qaf" dinin mərkəzi səmt hərfi olan "Mim"in, 1-ci "Sin"dən ibarət "İnsan"*dərgah (torpaq) yazısı kimi* "Əlif"dən ibarət "Yaradanın" *fəhminin*, 2-ci "Sin"dən ibarət "Qan" *alın yazısı kimi*"Ləm"dən ibarət "Rəbb"in *ağlının,*3-cü "Sin"dən ibarət "Laxta" *laxta yazısı kimi* "Sad"dan ibarət "Ad"ın *təfəkkürünün,* 4-cü "sin"dən ibarət "Yaradan" *azan yazısı kimi* "Yə"dən ibarət "Baş"ın *idrakının.* 5-ci "Sin"dən ibarət "Ad" *qan yazısı kimi* "Ta"dan ibarət "Qiraət"in *hafizəsinin* nəzər rəbləri günahlarıdırlar. Dil nəfs sırası da "Ulu" səmtdə günahlı sıra olduğunu boynuna alır. Belə ki, 1-ci "Ayn"dan ibarət "Tək" *say yazısı kimi* "Hə"dən ibarət "Rəhman və Rəhim"in *sayının,* 2-ci "Ayn"dan ibarət "Sən" *ulu yazı kimi* "Kəf"dən ibarət "Allah adı"nın *ulusunun* və "Nun"dan ibarət "İbadət"in *rəhn yazısı kimi* "Ra"dan ibarət "Həmd"in *rəhninin* günahları olması da Ulu səmtdə din və dil münasibətlərini səciyyələndirir.

"Ucalığın" Allah səmtindəki 2-ci "Qaf"dan ibarət "Yaratmış"ın *biliyi, elmi* 2-ci "Ha"dan ibarət "Həmd" *imanının;*2-ci "Ta"dan ibarət "Yaratdığı"nın" *yiyəsi, insanı* 2-ci "Mim"dən ibarət "Oxu" *xaliqinin;*6-cı "Mim"dən ibarət "Mütənasib"in *nizamı* 2-ci "Əlif"dən ibarət "Ucadan" *laməkanının;* 7-ci "Mim"dən ibarət "Biçim"in *nəzmi* 2-ci "Ləm"dən ibarət "Uca"nın *amininin;* 8-ci "Mim"dən ibarət "Vermiş"in *əhdinin* 2-ci "Sad"dan ibarət "Rəbb"in*sözünün* nəzər yazıları olduğu kimi 5-ci "Ra"dan ibarət "Eləyən" *səmasi* 2-ci "Ra"dan ibarət "Ol"un *səmasının;* 10-cu "Əlif"dən ibarət "Tək"in *ucası* 2-ci "Yə"dən ibarət "Allah" *ucasının* və 10-cu "Ləm"dən ibarət "Sən"inin *rəhməti* isə 2-ci "Hə"dən ibarət "Aləmlər"in *rəhmətinin yazıları olaraq qalırlar.*

Yaddaşın 128 surə sözü ayəsi "Ümman"sur ailəsinin üçüncü lövhəsi onun "Mal" lövhəsidir. Burada, mövzunu dərinləşdirəcək iki xüsusi hal vardır. Bunlardan birincisi, Rəhman "adının", yəni Rəhmanın axirəti və dünyasının Rəhman "ucalığında" olduğu kimi din və dil səmtlərinin nəzər və nəfs lövhələşməsini başa çatdırmaq, ikincisi isə səmanın ilk rəb təsisatının rəmzləşmiş ayələr sırası olan*insan iddə rəbləri sırası* haqqında ətraflı araşdırma aparılması imkanı yaranır. Burada, din səmtlərini Təkəsur və Kausər, dil səmtlərini isə Məun və Mumtəhinə surələri təmsil edirlər. "Dünya"din səmtinin mərkəzi rəmz rəbi funksiyalarını *iki Şərqin, iki Qərbin Rəbbi,*dil səmtinin mərkəzi rəmz rəbi funksiyalarını isə *Cin-insan nəfəsi,* "Axirət" din səmtinin mərkəzi rəmz rəbi funksiyalarını *Cəlal yiyəsi kərəm yiyəsi Rəbb,* dil səmtinin mərkəzi rəb funksiyalarını isə *daha iki cənnət*rəbləri yerinə yetirirlər. Digər şüurlardan fərqli olaraq dünya şüuru-

nun din və dil səmtlərinin nəzər rəbləri dörd lövhə ilə təqdim olunarlar. Bununla da din və dilin səkkiz səmtinin lövhə sayları hər birisində 8 lövhə olmaq hesabilə 64-dən 62-yə endirilir. Bu, ona görə edilir ki, din vı dil səmtləri arasında qalan səkkiz "Əsil" səmasında onların hər birində 28 sayda nəzər və nəfs rəbləri hesabilə daşınan 8*x*28= 224 rəb sayı ilə səmtlərdə daşınan 62 rəbi birləşdirdikdə mərkəzi ruh rəbi lövhəsində daşınan ümumi rəb sayının 224+62 = 286-ya bərabər oluğunu müəyyən edirik. Biz hım də müəyyən edirik ki, Baqara surəsi mərkəzi Quran lövhəsini ruh rəblərilə təmin edən mərkəzi ruh rəbi lövhəsidir.

Dünya səmtində dinin "iki dəniz" səmt həddini bölüşən nəzər ruh rəblərinin 3-cü "Ha"-dan ibarət *"oxu"* lövhəsi dilin "yamyaşıl" həddini bölüşən nəzər ruh rəblərinin 5-ci "Əlif"-dən ibarət "Y"; dinin 3-cü "Mim"-dən ibarət "*Rəbb"* lövhəsi dilin 6-cı "Əlif"-dən ibarət "A"; dinin 3-cü "Əlif"-dən ibarət "*ən böyük"* lövhəsi dilin 7-ci "Əlif"-dən ibarət "Z" və dinin 3-cü "Ləm"-dən ibarət *kərəm yiyəsi* lövhəsi dilin 8-ci "Əlif"-dən ibarət "MAQ" və dinin səmt həddinin "maneəsini" bölüşən nəfs ruh rəblərinin 5-ci "Ha"-dan ibarət *"Rəbb"* lövhəsi dilin "iki fəvvarə" həddini bölüşən nəfs ruh rəblərinin 6-cı "Ra"-dan ibarət *"yardım",* dinin 3-cü "Ta"-dan ibarət *"Rəhman"* lövhəsi dilin 10-cu "Mim"-dən ibarət *"diləyən"* və dinin 5-ci "Ha"-dan ibarət *"Rəhim"* lövhəsi dilin 11-ci "Ləm"-dən ibarət *"doğru"* yazı lövhələrini yaradırlar.

Axirət səmtində isə dinin "kimsələr" səmt həddini bölüşən nəzər ruh rəblərinin 4-cü "Ha"-dan ibarət *"hər şey"* lövhəsi dilin *"cənnət əhli"* səmt həddini bölüşən nəzər ruh rəblərinin 6-cı "Ləm"-dən ibarət *"yaşıl";* dinin 4-cü "Mim"-dən ibarət *"ölçüb-biçmiş"* lövhəsi dilin 6-cı "Ləm"-dən ibarət *"yaşıl";* dinin 4-cü "Əlif"-dən ibarət *"doğru yol"* lövhəsi dilin 7-ci "Ləm"-dən ibarət "*ot";* dinin 4-cü "Ləm"-dən ibarət *"nişan"* lövhəsi dilin 8-ci "Ləm"-dən ibarət*"LAQ"* və dinin 4-cü "Ta"-dan ibarət *"vermiş"* lövhəsi dilin 3-cü "Ləm"-dən ibarət *"bitirmiş"* və dinin səmt həddinin "Cin-insan hesab-vaxtı"-nı bölüşən nəfs ruh rəblərinin 4-cü "Ra"-dan ibarət *"din"*lövhəsi dilin 7-ci "Ha"-dan ibarət *"yol";* dinin 5-ci "Mim"-dən ibarət *"gün"* lövhəsi dilin 9-cu "Mim"-dən ibarət *"yönəldən"* və dinin 6-cı "Ha"-dan ibarət *"yiyə"* lövhəsi dilin 11-ci "Əlif"-dın ibarət *"Biz"* yazı lövhələrini yaradırlar.

"Ümman" surə ailəsinin "Mal" lövhəsinin mərkəzi ruh rəbləri səmti Ulu şüurun *"Mehri" (Quranı)* ilə *"Malını" (Rəhmanını)* bir-birinə bağlayan "İnsan" (İddə) sırasını yaradır. Bu sıra insan yaranışını əks etdirən 30 sayda "rəmzləşmiş ayənin", yəni *ifadəsini sözlərdə deyil, rəmzlərdə tapan ayələr sırasının* insanın "rəhmanlığı" və "quranlığı" arasında elə bölünməsidir ki. burada insanın Rəhman təcəssümü ilə Quran təcəssümü özünü on beş lövhədə biruzə verir.

Məhfüs üfüqündə Rəhmana məxsus "ayn sin qaf" rəmzləşmiş ayəsinin ikicanlılığı bu sıranın ayə sayını 31-ə çatdıraraq onu İnsən surəsinə çevirir. Quran-i Kərimdə "rəmzləşmiş ayələrin" 29-u səpələnərək sıra ardıcıllığını saxlamadan eyni sayda müxtəlif surələrin 1-ci ayələri kimi, yalnız Şura surəsində hətta 2-ci ayə kimi də təzahür edərək ümumi sayı 30-a çatdırsa da sıranın İnsən suruna çevrilməsini "Ayn sin qaf" canının eyni vaxtda həm "Ha mim", həm də "ayn sin qaf" əsaslarına malik olması təmin edir.

Rəhmanı və Quranı əvəzləyən "iddə" haqqı tələb edir ki. insanın Quran-i Kərimdə 29 surə arasında səpələnmış otuz "rəmzləşmiş ayəsini" ciddi ierarxiya ardıcıllığı ilə bir sıraya çevirib insanın özünü tanımasının səbəbkarı olan *insan rəhmanını insan quranından ayırsın.*

Əvvəlcə "iddənin" sıra ardıcıllığını qururuq:

Şura surəsi. ayə 2	*-Ayn sin qaf* 2	1 *Ha mim*	Şura surəsi, ayə 1
Luqmən s., ayə 1	*-Əlif ləm mim* 1	1 *Qaf*	Qaf surəsi, ayə 1
Baqara s., ayə 1	*-Əlif ləm mim* 1	1 *Ha mim*	Əhqaf s., ayə 1
Şuara surəsi, ayə 1	*-Ta sin mim* 1	1 *Əlif ləm mim ra*	Rad surəsi, ayə 1
Əraf surəsi, ayə 1	*-Əlif ləm mimsad* 1	1 *Ha mim*	Cəsiyə s., ayə 1
Əl-i İmran s.,ayə 1	*-Əlif ləm mim* 1	1 *Əlif ləm mim*	Səcdə surəsi ayə 1
Ta-hə surəsi. ayə 1	*-Ta-hə* 1	1 *Nun*	Qaləm s., ayə 1

Hud surəsi. ayə 1	-*Əlif ləm ra* 1	1 *Əlif ləm ra*	İbrahim s., ayə 1
Qasas surəsi ayə 1	-*Ta sin mim* 1	1 *Ha mim*	Fussılət s., ayə 1
Hicr surəsi. ayə 1	-*Əlif ləm ra* 1	1 *Ha mim*	Duxən s., ayə 1
Yusuf surəsi ayə 1	-*Əlif ləm ra* 1	1-*Əlif ləm mim*	Rum surəsi, ayə 1
Yunus s., ayə 1	-*Əlif ləm ra* 1	1 *Əlif ləm mim*	Ankəbut s., ayə 1
Məryəm s., ayə 1	-*Kəf hə yə ayn sad* 1	1 *Ha mim*	Zuxruf s., ayə 1
Nəml surəsi, ayə 1	-*Ta sin* 1	1 *Yə-sin*	Yə-sin s., ayə 1
Sad surəsi, ayə 1	-*Sad* 1	1 *Ha mim*	Ğafir s., ayə 1

16 15

31- İnsən surəsi

İnsən surəsi insanın yaranışı deyil. ***Insanların Rəbbinin*** yaranışıdır. Onun Rəhmana çevrilməsi üçün yuxarıda verilmiş otuz *"rəmzləşmiş ayəni"* onun birinci tərkibinə. Yəni *"rəmzləşmiş söz"* tərkibinə ayrılması tələb olunur. O zaman İnsən surəsinin 30 *rəmzləşmiş ayəsi* Rəhman surəsinin 78 *"rəmzləşmiş sözünə"* çevrilir. Bu miqdar "rəmzləşmiş söz" müqəttəə hərf adlandırılan "hərf-söz" əsasına gətirildikdə Insansırasının on dörd lövhəsində onların payına 7 "Ha", 17 "Mim", 13 "Əlif", 13 "Ləm"-dən ibarər ***Insan nitqi***, 3 "Sad", 2 "Yə", 4 "Ta", 6 "Ra", 1 "Kəf", 2 "Hə", 2 "Ayn", 1 "Nun" və 2 "Qaf"-dan ibarət ***Insan vücudu*** və 5 "Sin"-dən ibarət ***Insannitqinin bəyanı*** düşürlər. Insan nitqinin 7+17+13+13= 50 "rəmzləşmiş sözündən 3(Ha)+9 (Mim)+9(Əlif)+9 (Ləm) =30-u ***insanın Rəhman nitqini***, 4 (Ha)+8(Mim)+4(Əlif)+4(Ləm) = 20- siisə ***insanın Quran nitqini***əmələ gətirirlər.Lövhə-üfüq sistemlərindən və ya lövhə-üfüqlərdən ibarət olmaqla "Ha"-ya məxsus 57-ci, 67-ci, 68-ci və 70-ci, "Mim"-ə məxsus58, 61, 65, 69, 71, 74, 77 və 78-ci, "Əlif"-ə məxsus 59, 63, 72 və 75-ci, "Ləm"-ə məxsus 60, 64, 73 və 76-cı Rəhman tərkiblərriinsanın Quran nitqilə üst-üstə düşürlər.

3 "Sad", 2 "Yə", 4 "Ta", 6 "Ra", 1 "Kəf", 2 "Hə", 2 "Ayn", 1 "Nun" və 2 "Qaf"-dan təşəkkül tapmış *insan vücudunun* 23 sayda bu xromosomlarının 10-u ***insanın Rəhman vücuduna***, ona paralel 13-ü isə ***insanın Quran vücuduna*** məxusdurlar. İnsanın Rəhman vücudu 1 "Sad", 5 "Ra". 1 "Ayn", 1 "Nun" və 2 "Qaf"-dan, insanın Quran vücudu isə 2 "Sad", 2 "Yə", 4 "Ta", 1 "Ra", 1 "Kəf", 2 "Hə" və 1 "Ayn"-dan ibarətdirlər. İnsanın 5 "Sin"-dən ibarət bəyanından 4-ü ***insanın Rəhman bəyanına***, 1-i isə ***insanın Quran bəyanına*** aiddirlər.

Yuxarıda nümayiş etdirdiyimiz İnsən surəsinin 31 "rəmzləşmiş ayə" sırasının yaratdığı ***insanların Rəbbi*** sırası Nəs sur birliyi lövhəsinin yaranış istiqamətində, sağdan sola istiqamətlənmiş üst tərəfidir. Bu sıradan onun ikicanlı yeganə "ayn sin qaf" rəmzləşmiş ayəsinin öz rəmz quruluşu ilə birlikdə ayrılması onu 29 "rəmzləşmiş ayə" sırasına çevirir. Bu ikinci sıra ***insanların Sultanı*** sırası olub, insanların Rəbbi sırasının son lövhəsindən ona perpendikülyar istiqamətdə birləşərək Hadid surəsini, Luqmən surəsinin "Əlif ləm mim" rəmzləşmiş ayəsinin sıradan ayrılması onu ***insanların Tanrısı*** sırasına çevirməklə, həm də bu sıranı əvvəlki iki sıranın qovşağından başlayaraq onlarla 45 dərəcəli bucaq əmələ gətirməklə istiqamətləndirilən 28 rəmzləşmiş ayəli Nuh surəsini əmələ gətirirlər. İnsanların Rəbbi, insanların Sultanı və İnsanların Tanrısı sıraları və həmin ardıcıllıqla onları təmsil edən İnsən, Hadid və Nuh surələri *insanların sığındığı sıra və surələrdir.* Nəs sur birliyinin bu üç sıra qovşağının nüfuz dairəsini əks qütbün nüfuz dairəsindən ayırmaq və həm də Nəsin mərkəzi lövhəsini müəyyənləşdirmək məqsədilə insanların Sultanı sırasının son lövhəsini insanların Rəbbinin başlanğıc lövhəsilə birləşdirən dördüncü sıra yaradılır.Iki hissəli bu sıranın birinci hissəsi başlanğıcını insanların Sultanından götürüb mərkəzi lövhəni də içinə alan və Mumtəhinə surəsilə təmsil olunan***insanlar***,ikinci hissəsi isə başlanğıcını insanların Rəbbindən götürüb mərkəzi lövhəyə qədər davam edən və Saff surəsilə təmsil olunan ***cinlər*** sıralarıdır. İnsanların qaçdığı və sığınmaq istəmədiyi, lakin əvəzləyicilərinin insanların Tanrısı olduğu və bu mənada zəruriliyi və danılmazlığı insanla birgə doğulan və bütün ömrü boyu onunla birgə yaşayan iki şeytandan birincisi başlanğıcını insanların Rəbbindən götürən və insanların Tanrısının son lövhəsində tamamlayan və ***vəsvəsə gətirib yoxa çıxan şeytan***

kimi tanınan ***nitq-bəyan***, ikincisi isə insanların Sultanının son lövhəsini insanların Tanrısının və nitq-bəyanın son lövhələrilə birləşdirən və ***insanların ürəyini vəsvəsə ilə dolduran*** şeytan olaraq ***hesab-vaxtdır.*** Nəs sur birliyinin Nitq-bəyan sırasını 26 rəmzləşmiş ayədən ibarət Ğaşiyə, hesab-vaxt sırasını isə 25 rəmzləşmiş ayədən ibarət İnşiqaq surələri təmsil edirlər. Rəmzləşmiş ayələrin yaratdığı ikinci sur birliyi Fəlaq sur birliyidir. Onun birinci sırası Əl-i İmran surəsinin "Əlif ləm mim" rəmzləşmiş ayəsinin başçılığında 24 belə ayəni birləşdirən Haşr surəsi olaraq özünə məqam yeri olaraq Nıs surəsinin mərkəzi lövhəsini seçirvə ***Qaranlıqdan səhəri yarıb çıxaran Rəbb*** ifadəsilə orada qərarlaşır və bununla da Nəs lövhəsini bundan sonra yaradılacaq lövhələr sisteminin mərkəzi lövhəsi halına gətirir. ***O-nun yaratdıqları*** ifadəsini daşıyan ikinci sıra 23 rəmzləşmiş ayədən ibarətdir. Həmin rəmzləşmiş ayələrdən 8-i Təkəsur surəsi nəsillərindən ibarət *dünyadan,* İxlas surəsi nəsillərindən ibarət *səddən,* Fəlaq surəsi nəsillərindən ibarət *ümmandan* və Nəs surəsi nəsillərindən ibarət *fitrətdən* təşəkkül tapmışlar. Fəlaq sur birliyinin üçüncü sırası22 rəmzləşmiş ayədən ibarət Buruc surəsilə təmsil olunan ***Qatılaşan qaranlığın şəri***, dördüncü sırası 21 rəmzləşmiş ayədən ibarət Leyl surəsilə təmsil olunan ***Düyünlərə üfürən qadınların şəri*** və beşinci sırası isə 20 rəmzləşmiş ayədən ibarət Bələd surəsilə təmsil olunan ***Paxıllığı tutan zaman bir paxılın şəri*** sıralarıdır. Göründüyü kimi Fəlaq sur birliyi təklikdə lövhə formalaşdırmaq imkanına malik deyildir. O, yalnız yeni "oxu" lövhəsinin *mərkəzini və mərkəzi səmtlərini (çarxlarını) formalaşdırmaq imkanındadır*. Köməyə İxlas sur birliyi gəlir. Onun ***O Allahdır, təkdir*** ifadəsindən ibarət *birinci lövhə səmti*19 rəmzləşmiş ayədən ibarət Alaq surəsinin təmsil etdiyi *"*O-nun yaratdıqlarının şəri"sırasının son lövhəsini"düyünlərə üfürən qadınların şəri" sırasının son lövhəsilə birləşdirən sıra,***Allah hər ehtiyacdan ucadadır, əbədidir*** ifadəsindən ibarət *ikinci lövhə səmti* 18 rəmzləşmiş ayədən ibarət Təğabun surəsinin təmsil etdiyi "qatılışan qaranlığın şəri" sırasının son lövhəsini "paxıllığı tutan zaman bir paxılın şəri" sırasının son lövhəsilə birləşdirən sıra, İxlas sur birliyinin ***doğmamış, doğulmamış*** ifadəsindən ibarət *üçüncü llövhə səmti* 17 rəmzləşmiş ayədən ibarət Tariq surəsinin təmsil etdiyi "düyünlərə üfürən qadınların şəri" sırasının son lövhəsini "qatılışan qaranlığın şəri" sırasının son lövhəsilə birləşdirən sıra,***O-nun bənzəri də heç kim olmamış*** ifadəsindən ibarət *dördüncü lövhə səmti*isə "Sad" rəmzləşmiş ayəsinin başçılıq etdiyi yeganə sıradır ki, burada o özünün üç "rəmzləşmiş hərf" tərkiblərinə ayrılaraq ayə sayını yenidən 18-ə çatdırır və Hucurat surəsini əmələ gətirən sıraolaraq Fəlaq və İxlas sur birliklərini bir lövhədə birləşdirməklə rəmzləşmiş ayələrin sonuncu *Şəms sur birliyinin yaranışlarına meydan açır.*

Şəms sur birliyi Nəs sur birliyilə eyni quruluşa malikdir. Hər ikisi rəmzləşmiş ayə toplularının yazılövhəsidir. Fərq yalnız ondan ibarətdir ki, Nəs sur birliyində kvadrat lövhənin tərəf və dioqanalları 1 ayəlik təsisatlara yiyələndikləri halda, Şəms sur birliyində tərəf və dioqanalların hər birisi iki ayə yükü daşıyırlar. Belə ki, Nəs-in *insanların Rəbbi* istiqamətini Şəmsdə ***And olsun günəşə, işığına*** ayəsindən ibarət **Fəhm** sırası və ***And olsun onun ardınca gedən aya*** ayəsindən ibarət **İdrak sırası** əvəz edirlər. "Füs"-də cəmisi bir lövhəylə təmsil olunan *fitrət "fəhmi" və "idrakı"* burada on beş və on dörd lövhəli səmtlərlə təmsil olunmuşlar. On beş lövhəli "Fəhm" səmtinin "rəmzləşmiş ayə" tərkibləri on beş surənin 1-ci ayələridirlər. Bunlar səmtdə sağdan sola aşağıdakı ardıcıllıqla yerləşirlər: *Şura surəsi, 1-**ha mim,** Qaf surəsi, 1-**qaf,** Əhqaf surəsi, 1-**ha mim,** Rad surəsi, 1-**əlif ləm mim ra,** Cəsiyə surəsi, 1-**ha mim,** Səcdə surəsi. 1-**əlif ləm mim,** Qaləm surəsi, 1-**nun,** Ibrahim surəsi, 1-**əlif ləm ra,** Fussılət surəsi, 1-**ha mim,** Duxən surəsi, 1-**ha mim,** Rum surəsi, 1-**əlif ləm mim,** Ankəbut surəsi, 1-**əlif ləm mim.** Zuxruf surəsi, 1-**ha mim,** Yə-sin surəsi, 1-**yə-sin**və Ğafir surəsi, 1-**ha mim;***

Yuxarıdakı "fəhm" səmt rəblərinin sırasından səmtin Ğafir surəsinə məxsus sonuncu "ha mim"i kənarlaşdırmaqla yerdə qalan on dörd "rəmzləşmiş ayə" sırası səmtin Ay rəblərinə çevrilirlər. "İdrak" rəblərinin Yə-sin surəsinə məxsus sonuncu "yə-sin" rəmzləşmiş ayəsinin səmtdən ayrılması*"idrakı" "təfəkkürə", "And olsun onun ardınca gələn ayı""And olsun günəşi ucaldan gündüzə" çevrilmələrinə səbəb olur.* Hər çevrilmədə sıra sonuncu "rəmzləşmiş ayənin ayrılması hesabına bir say azalır. 13 ayəli "Təfəkkür" (gündüz) sırası Zuxruf surəsinə məxsus "ha mim"-i

ayırmaqla 12 ayəli *"And olsun onu örtüyə bürüyən gecəyə",* O da Ankəbut surəsinə məxsus "əlif ləm mim"-i ayırmaqla "insanların Tanrısı" səmtinə paralel olan 11 ayəli "Əql"-ə, yəni "Göy, göyü qurana" və Rum surəsinə məxsus "əlif ləm mim"-i ayırmaqla 10 ayəli "Təxəyyül"-ə, yəni "Yer, yeri yayana" çevrilirlər və bununla da Şəms sur birliyində insanların sığındığı makroşüurun paylanması başa çatır.

İnsan, insanı kamil yaradan-dan ibarət "Üns"-ün *rəmzləşmiş ayə tərkibləri* ***ha mim*** *(Şura),* ***qaf*** *(Qaf),* ***ha mim*** *(Əhqaf),* ***əlif ləm mim ra*** *(Rad),* ***ha mim*** *(Cəsiyə),* ***əlif ləm mim*** *(Səcdə),* ***nun*** *(Qaləm)* və ***əlif ləm ra*** *(İbrahim)* sırasından təşəkkül tapmışlar. Nəs-in nitq-bəyan səmtinə paralel istiqamətdə yaradılan bu rəb ayələri əslində **insanın, insanı kamil yaradanınrəmz (forma) vücudlarıdırlar, insan şüurunun rəmz vücudlarıdırlar.** Bu sıradan Fussılət surəsinin "ha mim" rəmz modul vahidini çıxsaq yerdə qalan səkkiz müxtəlif rəmz modul vahidləri birliyi **insan mehrini (biliyini)** əmələ gətirir. Bu bilik **"insana pis əməllə taqvanı tanıtdırandır".** Əgər, bu bilik sırası tərkiblərindən İbrahim surəsinin "Əlif ləm ra" rəmz modulu vahidini də çıxsaq, onda yerdə qalan yeddi müxtəlif rəmz modul vahiləri birliyi **insan malını (düşüncəsini)** əmələ gətirir. Bu düşüncə ilə isə insan **"artıq uğura uğramış, nəfsini pak etmiş olur".**Əgər, *ha mim, qaf, ha mim, əlif ləm mim ra, ha mim, əlif ləm mim və nun* rəmz modulu vahidləri birliyindən Qaləm surəsinin "Nun" rəmz modulu vahidini çıxsaq, o zaman yerdə qalan altı rəmz modulu vahidləri birliyi **insanın arzusunu (zehnini)** əmələ gətirir. Bu zehin isə **"artıq ziyana uğramış, nəfsini saxlamayıb günaha batırmış olur".**Əgər, *ha mim, qaf, ha mim, əlif ləm mim ra, ha mim və əlif ləm mim* rəmz modulu vahidləri birliyindən Səcdə surəsinin "Əlif ləm mim" rəmz modulu vahidini çıxsaq, o zaman yerdə qalan beş rəmz modulu vahidləri birliyi insan arzusunu (zehnini) **insan niyyətinə (zəkasına)**çevirir. Bu niyyət (zəka) isə **"azğınlığı ucbatından peyğəmbərini danan Səmud qövmüdür.** Əgər, bu "əgərləri" davam etdirsək, "Zəkanın" *ha mim, qaf, ha mim, əlif ləm mim ra, və ha mim* sırasından Cəsiyə surəsinin "Ha mim" rəmz modulu vahidini çıxsaq, o zaman yerdə qalan dörd rəmz modulu vahidləri birliyi insan niyyətini (zəkasını)**insan soyuna (hafizəsinə)** çevirir. Bu soy (hafizə) isə **"içlərindən dəvəni kəsmək istəyən bir zalım kəsi"** çıxardı. Burada, "dəvə" sözü *"dövrün əvvəlini" (Də)"vaxtın əvvəlinə" (Və) bağlayan birlik kimi başa düşülməlidir.* "Dəvə"-ni kəsmək, **dövrün əvvəlini vaxtın əvvəlindən** ayırmaq deməkdir.Ona görə də Əhqaf surəsinin mərkəzi "Elm" lövhəsinə daxil olan birinci "ha mim" rəmz modulu vahidi və onun təmsil etdiyi "**Allahın elçisi dedi onlara: "Bu, Allahın dəvəsidir, onun su payını gözləyin"** ifadəsi Allah "sədd"-inin*soydan* sonrakı *"Əsli"-dir.* "Əsl" isə ondan ibarətdir ki, Allahın *dövr əvvəlinin və vaxt əvvəlinin "su" payı*onların"**sayın ulu" haqqına** varis olduqlarını təsdiq edir. Qaf surəsinin mərkəzi Elm lövhəsinə daxil olan ikinci rəmz modulu vahidi "qaf" və onun təmsil etdiyi **"Dandılar peyğəmbəri, kəsdilər dəvəni. Batdıqları günaha görə gurultulu bir əzab göndərdi, yerlə yeksan elədi onların yurd-yuvasını Rəb-ləri"** ifadəsi Allah sədd"-inin *"əsl"-dən sonra məqama çatan "Dili"-dir.*Mərkəzi "elm" lövhəsinin tərkibinə daxil olan üçüncü rəmz modulu vahidi"ha mim" və onun təmsil etdiyi **"bu işin axırından vahiməyə düşməyən"** ifadəsi isə Allah səddinin *"əsl" və "dil-dən sonra lövhəni qapayan sonuncu təsisçisi "Din"-dir.*

Biz "Bismillahirrəhmanirrəhim"-in məhfüs, məhşər və məhrəmdən ibarət üç yaranış əsasından birincisinin, məhfüsün *Quranını (Namazını)* əks etdirən insanın başı üstündən keçmiş dövrün "yaddaş" zatlarının ehkam halından danışdıq və onu ***Məhfüsün veriləni*** adlandırdıq. ***Məhfüsün yaradılanını*** isə insanın yeni yaradılan dövrünün zatları olaraq irəlidə qismət olursa danışarıq.

Д. Гасымоглу

Создания святой книги аллахом или анатомия табулы сознания рахмана

Резюме

В статье рассматриваются некоторые аспекты создания Святой Книги Аллаха или анатомии сознания Рахмана. В начале статьи автор рассматривает важность священных каламов, образованных общинами в жизни общества от появления египетских пирамид до появления исламской цивилизации.Сооющается, что, не смотря на то, что исследования глиняных скульптур привели к определенным открытиям в науке, но дать ей жизнь выше человеческих возможностей. Таким образом, оживление или дать жизнь находится в руках Творца и формула кодирования не вписывается в человеческое сознание. Человек может достичь определенного успеха только благодаря знаниям, но жизнь нельзя создать в лаборатории.Отмечается, что символы в древних святых клинописах также имеют свое собственное сознание, и их не нужно отождествлять с самой примитивной формой сознания, с его способностью получить энергию, использования этой энергии и ее обновления. Потому, что эта примитивная форма сознания является характеристикой низшего уровня центрального семейства этих святых символов.Каждое из 78 «символизированных слов» Рахмана - это его собственные небесные буквы. Их загрузка количественным содержанием порождает духовного «начала» неба, а загрузка чисел создает духовную структуру неба.

Ключевые слова: Храм Господа, Домашняя Книга, Сострадательное Сознание, Анатомия Мемориальной доски

J.Gasimoglu

Creation of the holy book by allah or anatomy of the rakhman conscious board

Summary

The article discusses some aspects of creating the Holy Book of Allah or the anatomy of Rahman's consciousness. At the beginning of the article, the author considers the importance of sacred Kalam formed by communities in society from the appearance of Egyptian pyramids to the emergence of Islamic civilization.

It is agreed that, despite the fact that studies of clay sculptures led to certain discoveries in science, but to give it life beyond human capabilities. Thus, the revitalization or giving life is in the hands of the Creator and the encoding formula does not fit into human consciousness. A person can achieve certain success only through knowledge, but life cannot be created in the laboratory.

It is noted that the symbols in the ancient holy cuneiform writings also have their own consciousness, and they do not need to be identified with the most primitive form of consciousness, with its ability to receive energy, use this energy and its renewal. Because this primitive form of consciousness is a characteristic of the lower level of the central family of these holy symbols.

Each of Rahman's 78 "symbolized words" is his own heavenly letters. Their loading in quantitative content gives rise to the spiritual "beginning" of heaven, and the loading of numbers creates the spiritual structure of heaven.

Keywords: Temple of the Lord, Home Book, Compassionate Consciousness, Plaque Anatomy

Redaksiyaya daxil olma tarixi: 21.02.2019
Çapa qəbul olunma tarixi: 25.03.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Şəlalə Mahmudova
tərəfindən çapa tövsiyə olunmuşdur

HİCRAN BABAYEVA,
Həsən Əliyev küç 135 a
Bakı Avrasiya Universiteti, müəllim
bshafiqa@mail.ru

BƏHLUL BEHCƏT VƏ AZƏRBAYCAN KLASSİK ƏDƏBİYYATI

XÜLASƏ

Bəhlul Behcətin yaradıcılığı ciddi və zəngin faktura ilə səciyyələnir. Bu zənginlikdə mühüm bir hissəni onun klassik ədəbiyyat sahəsində apardığı təhlillər tutur. N.Gəncəvi, Ə.Nəbati, S.M.H.Nigari və s. ədiblərlə bağlı mülahizələri Şərq ədəbiyyatına dərindən bələdliyinin göstəricisidir. Ə.Nəbati haqqında mülahizələri və müxtəlif illərdə yazdığı məqalələri, eləcə də kitabı sistemli təhlillərin nəticəsi olduğunu düşünməyə əsas verir. XIX əsr Azərbaycan ədəbiyyatının ən parlaq simalarından olan Nəbati yaradıcılığı müxtəlif təhlillərin probleminə çevrilmişdir.

B.Behcətin araşdırmaları həmin təhlillər üçün əsaslı mənbədir. Tədqiqatçı alimin şairin soy-kökü, həyatının müxtəlif tərəfləri ilə bağlı yürütdüyü mülahizələr onun mənbələrə bələdliyini göstərir. "Xançoban" dastanı ilə bağlı mülahizələr və dastanlaşma məsələləri mühüm maraq doğurur.

XIX əsrin Füzulisi və Vaqifi olaraq qiymətləndirilməsinin səbəbi aydınlaşır. Şərq ədəbiyyatının, Şərq mədəniyyətinin bilicilərindən olan B.Behcət geniş dünyagörüşü ilə həmişə ciddi təsəvvür formalaşdırmışdır. Bütün bunlar ədibin yaradıcılığının müxtəlif səviyyələrdə təhlilə gətirilməsini zəruri edir və sistemli yanaşmaları aktuallaşdırır.

Açar sözlər:Bəhlul Behcət, klassik ədəbiyyat, N.Gəncəvi, Seyid Nigari, Əbülqasım Nəbati, "Xançoban" dastanı və s.

Məsələnin qoyuluşu: Bəhlul Behcət araşdırmalarında klassik ədəbiyyat problemləri və onun ümumi sistemi.

İşin məqsədi: Ədəbiyyatşünas alimin klassik ədəbiyyatla bağlı araşdırmalarını sistemli təhlil etmək

Bəhlul Behcətin zəngin yaradıcılığında mühüm bir hissəni onun klassik ədəbiyyatla bağlı olan araşdırmaları tutur. Şərqin zəngin mədəniyyət laylarını, dini-fəlsəfi, tarixi-mədəni təsəvvürlərini, keçib gəldiyi möhtəşəm yolun nələrlə səciyyələndiyini bütün aspektləri ilə mənimsəyən B.Behcət yaradıcılığı ciddi faktura ilə səciyyələnir. Ərəbdilli və farsdilli Azərbaycan ədəbiyyatı, eləcə də anadilli ədəbiyyatın təşəkkülü və inkişafı problemi ilə bağlı söylədiyi qənaətlər onun mənbələrə bələdliyinin və elmi-nəzəri səviyyəsinin yüksəklik göstəricisidir.

Elmi-nəzəri səpkili məqalələrində qaldırılan problemlərin panoraması, paradiqmatik səviyyədə özünü göstərən gerçəklik kodları və onun sintaqmatik mənzərəsi bir bütövü, milli mənsubluq konsepsiyasının dövr və mühit səviyyəsində aktuallaşmasını aydınlaşdırır. Bəhlul Behcətin yaradıcılıq yolunun ehtiva etdiyi məzmun çöxşaxəli və müxtəlif problematik məsələlərin qoyuluşu ilə faktlaşır. Tədqiqatçı alimin klassik ədəbiyyatlabağlı elmi-nəzəri düşüncələri, xüsusilə də Nəbatinin həyatı haqqında yazdığı fikirlər, əsərlərini nəşr etdirməsi sonralar yaranan yeni-yeni ədəbi mübahisələrə zəmin yaratdı. "Sarı Aşığın bayatıları", "Qaçaq Nəbinin tarixi", "Təşrih və mühakimə" və s. əsərlərin ehtiva etdiyi məzmun bütün parametrlərdə sakral-profan (müqəddəs-adi) ortaqlığın stixiyasını aşkarlayır. Milli-mənəvi potensiyanın mövcud şəraitdə məram və məqsədini düşüncə modeli olaraq müəyyənləşir. Ona görə də B.Behcətin ədəbi irsinin müxtəlif səviyyələrdə (sintaqmatik, paradiqmatik, janr) sistemli təhlilə gətirilməsi bütünlükdə mühitin dinamikasını aydınlaşdırmaq üçün əsasa çevrilir.

Məsələn, "Seyid Əbülqasım Nəbati" adlı əsərində Nəbatinin həyatı və yaradıcılığı tədqiq olunmuşdur. H. Araslı və Mir Cəlal kitabın əvvəlinə ön söz yazmışdılar. 1936-cı il "Ədəbiyyat" qəzetində bu kiçik əsər, məqalə şəklində dərc olunmuşdur. "Nəbatinin tərcümeyi halı" adlı digər bir variant əlyazma halında Salman Mümtaz adına ədəbiyyat və incəsənət arxivində bu gün də saxlanılır. Buradan belə məlum olur ki, Bəhlul Behcət Nəbati haqqında bu yazını təsadüfən qələmə almamışdır, Nəbatinin şəxsiyyəti, həyatı, düşüncə tərzi və yaradıcılıq yolu Bəhlul Behcəti yaxından maraqlandırmış, dahi, klassik şair kimi onun tədqiqini məqsədəuyğun hesab etmişdir. Cənubi Azərbaycanın Füzulisi, Vaqifi sayılan Nəbati klassik Azərbaycan ədəbiyyatından və xalq şeirindən ilhamlanaraq orijinal əsərlər yazıb yaratmışdır. O, Nəbatini həm klassik şair, həm də xalq şairi kimi tədqiq etmişdir. Buna səbəb onun xalq şeiri ruhunda yazdığı gəraylıları, qoşmalarıdır.

Ə.Nəbati sənətkar istedadı, güclü yaradıcı qabiliyyəti ilə Füzulidən və Vaqifdən gələn ənənəni uğurlu şəkildə ehtiva edə bilmək gücü ilə nəzər-diqqəti cəlb edir. Əlbəttə buraya təriqətçilik kontekstində Ə.Yasəvidən, Y.Əmrədən, C.Rumidən, B.Nəqşbəndidən gələnləri də əlavə etdikdə mətn, sistem, düşüncə, struktur, model və s. anlamında mahiyyət daha da böyüyür. Ədəbiyyatşünas alimin S.Ə.Nəbati yaradıcılığı timsalında apardığı təhlillər bir neçə istiqamətdə səciyyələnir:

a) S.Ə.Nəbatinin XIX əsrdə Azərbaycan poeziyasında tutduğu yerin aydınlaşdırması bir məqsəd olaraq görünür;

b) klassik ənənənin S.Ə.Nəbati yaradıcılığı timsalında nələrlə səciyyələnməsi fakturasının müəyyənləşməsi faktlaşır;

c) şairin bədii-estetik və ədəbi-mədəni düşüncəsinin (dünyagörüşünün) aşkarlanması və onun təzahür formaları açıqlanır;

ç) xalq şeirinin zənginliklərindən, forma və modellərinin istifadə məqamlarının janr səviyyəsi müəyyənləşir;

d) mühit və sənətkar timsalında ciddi təsəvvür formalaşdırılır və s.

B.Behcət XIX əsrin görkəmli sənətkarlarından olan Nəbatinin həyat və yaradıcılığını sistemli tədqiq edən ilk tədqiqatçılardandır. Burada təkcə onun tərcümeyi halına deyil, həm də yaradıcılığına müxtəlif kontekstlərdə yanaşmalar önəm daşıyır, ədəbi-bədii irsinin daxili fakturasına, mənəvi-ruhani dünyasının nələrlə səciyyələnməsinə tədqiqatçı prizmasından baxılmışdır. Bəhlul Behcətin ən böyük xidmətlərindən biri təkcə Azərbaycanın klassik şairi S.Ə.Nəbatinin həyat və yaradıcılığını tədqiq etmək deyil, həm də bir şair kimi unudulmuşlar cərgəsindən çıxarmaq, yaddan çıxmış bioqrafiyasını, yaradıclığını yenidən işıqlandırmaq, dövrünün polemika obyektinə çevirmək olmuşdur.

"Seyid Əbülqasım Nəbati"də yürüdülən mülahizələr S.Mümtaz, H.Araslı, M.C. Paşayev, F.Qasımzadə, P.Əfəndiyev, M.Osmanoğlu və başqaları üçün əsaslı mənbə olmuşdur. Sonrakı dövrlərdə Nəbati şəxsiyyəti, yaradıcılığının müxtəlif aspektləri təhlil faktına, ayrı-ayrı araşdırmaların problem mövzusuna çevrilmişdir. Dövrün özünün problemləri, S.Ə.Nəbati yanaşmalarında nəzərə çarpan fərqliliklər, dünyagörüşündə olanların təzahür aspektləri və s. həmişə ədəbi-nəzəri fikrin marağında dayanmışdır. Aparılan təhlillər də bir tərəf olaraq B.Behcətin mülahizələrini əsasa çevirmişdir.

Bəhlul Behcətin 1935-ci ildə yazdığına görə, "Nəbati", "Xançobanı" təxəllüsü, "Məcnun" və "Məcnunşah" ləqəbi ilə tanınan Əbülqasım 1812-cil ildə Muğan səhrasında Elat bir ailədə anadan olmuşdur"**(6, 12)**. "Əsasən maldarlıq həyatı keçirir, qışda mal-qara üçün əlverişli olan Muğana gedir, yayda isə Araz çayının sahilindəki Qaracadağ yaylaqlarında qalardı. Sonralar isə "Rusiya ilə İran arasında bağlanan Türkmənçay müqaviləsi şəraitilə Muğana qayıtmaqdan məhrum olmuş və Qaracadağda, Üştibin kəndində yaşamışdır"**(4).** "Nəbati-Xançobanı" adlı məqaləsində isə o, Nəbatinin doğulduğu yer haqqında heç bir fikir yürütmür. "Əbülqasım Nəbati 1812-ci ildə elat bir ailədə anadan olmuşdur. Nəbati ömrünün ilk dövrlərini maldarlıq ilə keçirmişdir. Qış mövsümlərində mal-qara yetişdirmək üçün əlverişli olan Muğan səhrasına

gəlir, yay olcaq, o devrin çoxda əmniyyətli olmayan şəraitinə görə ya Qarabağ dağlarına çıxır və ya Qaracadağ yaylaqlarına köçürdü”**(3).** Nəbati şeirlərində rast gəlinən Üştibin, Muğan toponiminin şairin həyatı, fəaliyyəti, yaddaşının müxtəlif məqamları ilə bağlanan tərəfləri vardır.

1828-ci il Türkmənçay müqaviləsilə Muğan səhrasının bir hissəsi şimali Azərbaycanda bir hissəsi isə cənubda, yəni İran ərazisində qalır. Bu səbəbdən də Nəbati ömrünün sonuna kimi Cənubi Azərbaycan ərazisində yaşayır. Feyzulla Qasımzadə yazır: “Bəzi işarələrdən məlum olur ki, Üştibin onun əsl yurdu deyildir. O buraya sonradan gəlmiş və bu kənddə uzun müddət yaşayıb onu özünün ikinci vətəni saymışdır”.

Üştibin eyləyib məni tati

Şeirimi yaxşı eyləyib mövzun

-deyərək üştibinlilərin “tati” şivəsinin təsiri altında dilinin korlanmasından şikayətlənmişdir. Bu işarələr şairin Üştibinə sonradan gəldiyini göstərir”**(8, 30).** Onu da əlavə edək ki, bütün yanaşmalarda fikir ayrılıqları ilə səciyyələnən məqamlar özünü göstərir və bunlar daha çox onun mənşəyi, anadan olduğu tarix, həyatının müxtəlif məqamları ilə olanlardan tutmuş “Xançoban” imzasına qədər gedib çıxır. Bunların bir bütöv olaraq aydınlığı üçün ən əsaslı mənbə şairin yaradıcılığıdır.

Nəbati ilə bağlı olan bütün bilgilər subyekt informasiyası və mətn informasiyası kontekstində tipoloji yanaşmaları gərəkli edir. Müasir ədəbiyyat dərslikləri və tədqiqat əsərləri də öz təhlillərində məhz bu illəri (1812-1873) əsas götürür. Onu da əlavə edək ki, Nəbati Məhəmməd şahın dövründə yaşamış olsa da, şeirlərində mədhiyyələrə yer verməmişdir.

Klassik ədəbiyyat və onun ayrı-ayrı nümayəndəsi ilə bağlı təhlillərdə B.Behcətin özünəməxsus konsepsual yanaşmaları vardır. Nəbatinin dünyagörüşü, yaradıcılığı, həyat hadisələrinə münasibəti anlamında qənaətləri dövrün və mühitin problemləri baxımından ciddi önəm daşıyır. B.Behcət xüsusi olaraq vurğulayır ki, S.Ə.Nəbatinin formalaşmasında, fikri inkişafında sufizmin böyük rolu olmuşdur. Bu yolda o, Seyid Mir Həmzə Əfəndi Nigaridən mütəəssir olmuşdur. Hər ikisi nəqşibəndi təriqətini izləmişdir. M.Bayramov bu məsələyə belə münasibət bildirir: “Nəbati Mir Həmzə Əfəndidən xeyli əvvəl yaşadığı üçün bu ehtimal o qədər də ağıla batmır. Digər tərəfdən isə Nəbatinin dünyagörüşü Qaradağda geniş yayılmış “əhli-həqq” əqidəsinə bağlandığı halda, Mir Həmzə Əfəndi həmin əqidə ilə “əks cəbhə” təşkil eləyən nəqşbəndi təriqətini təmsil edirdi” **(2, 95).** Əlbəttə görkəmli ədəbiyyatşünas alimin Ə.Nəbati ilə qənaətlərində bir sıra xətt özünü göstərməsi təbii idi və bunlar aşağıdakı istiqamətlərdə sərgilənir:

a) İrandakı siyasi mühitin özündən gələnlər baxımından qiymətləndirmə;

b) Rus və Avropa mühitində olanlardan uzaq düşmə və onlardan yararlana bilməməsinin məhdudluğu;

c) “mənəvi yoxsulluq” səbəbindən coşqun təbini təriqətçilik cəfəngiyyatına həsr etməsi”

ç) fitrən yüksək yaradıcılıq istedadına malik olması və s.

Bütün bunlar Ə.Nəbatinin yaradıcılığı timsalında ədəbiyyatşünas alimin gəldiyi qənaətlərdir. Fikrimizcə, F.Qasımzadənin bu qənaətdə olma səbəbi dövrünün ictimai-siyasi hadisələri, sovet imperiyasının insanların şüuraltına təsiri ilə əlaqədardır. Lakin buna baxmayaraq, F.Qasımzadə Nəbati yaradıcılığına yüksək qiymət vermiş, xüsusən də onun heca vəznində yazdığı şeirlərin aşıq şeirinin inkişafına çox böyük təsiri olduğunu vurğulamışdır.

S.Ə.Nəbatinin yaradıcılığı və onun dünyagörüşündə özünü göstərən problemlər ədəbi-nəzəri fikrin müxtəlif səviyyələrdə təhlilləri üçün mövzuya çevrilmişdir. Məsələn, S.Mümtaz, H.Araslı, Mir Cəlal, Rəfiqə Həmzəyeva, Zaman Əsgərli, Nizami Xudiyev, Məti Osmanoğlu və b. Nəbatinin ədəbi irsi ilə bağlı ciddi təhlillərə yol açacaq fikir və mülahizələr yürütmüşlər. Məti Osmanoğlu (Bayramov) “Nəbatinin lirikası” adlı namizədlik dissertasiyasında Nəbatini təriqət ədəbiyyatının nümayəndəsi kimi tədqiq etmişdir. Onu da əlavə edək ki, M.Osmanoğlunun

yanaşmaları çağdaş elmin konseptual prinsiplərinə əsaslanmaqla tipoloji təhlilə gətirilir və özünəqədərkiləri ümumiləşdirmək gücü ilə faktlaşır.

Görkəmli ədəbiyyatşünas B.Behcətin yanaşmalarından başlayan bu maraq həmişə artan istiqamətdə getmiş, mühit, sənətkar və onun poetik düşüncələrinin janr səviyyəsi anlamında təhlilləri zərurətə çevirmişdir. B.Behcət klassik ədəbiyyat müstəvisində şairin daxili aləminin, onun ruh dünyasının açılışına və eyni zamanda ziddiyətlərlə dolu olduğu məqamlara xüsusi həssaslıq göstərir. Ə.Nəbati yaradıcılığına sufizmin, təsəvvüf düşüncəsinin çox böyük təsirləri olmuşdu. Şair "təsəvvüf ideyalarını Amasiya şəhərində dəfn edilən "Seyid Nigari" təxəllüslü Mir Həmzə Əfəndidən əxz etmişdir. O, Qarabağda Mir Həmzə Əfəndi ilə dəfaat ilə görüşmüş, təsəvvüf yollarında söhbət etmişdir"**(4).** Mir Həmzə Seyid Nigari Qarabaği təkkə-təsəvvüf ədəbiyyatının nümayəndəsi, nəqşibəndi şeyxidir. Qarabağ xanlığının Bərgüşad mahalının (indiki Laçın rayonunun) Cicimli kəndində 1805-ci ildə dünyaya gəlmiş Qarapapaq türklərindəndir. Mir Həmzə Nigari sufi şairdir. Əhməd Yasəvi, Cəlaləddin Rumi, Yunis Əmrə, Mahmud Şəbustəri, Şah Qasım Ənvar, İmadəddin Nəsimi, Yəhya Şirvani, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli və s. kimi şairlərədən ilhamlanaraq şeirlərində təsəvvüfi mövzulara toxunmuşdur. XIX əsrdən sonra Azərbaycanda həm əruzla, həm xalq şeiri şəkilləri ilə heca vəznində təsəvvüfi ruhlu şeir yazan şairlər çoxalmağa başlayır və bu bir tendensiya olaraq özünü göstərir. S.Ə.Nəbati də bu sırada xüsusi çəkisi olan şəxsiyyətlərdəndir. B.Behcətin onun yaradıcılığına olan marağı da öz qaynağını həmin zənginliyi ehtiva edə bilmək gücündən alır.

B. Behcət şairin yaradıcılığındakı müxtəlifliklər, düşüncə fərqliliklərini onun dünyagörüşünün formalaşma mərhələsi ilə bağlayır. Əlbəttə burada ədibin qənaəti bir tərəfdir və sufi ideoloji sisteminin ortaya qoyduğu düşüncə modelləri, siyasi mühitdə olan mədəniyyət formulu, eləcə də yaradıcı axtarışları kimi fərqli (bəlkə də daban-dabana zidd) xətlər özünü göstərir.Ədəbiyyatşünas onun həyatını maddi və mənəvi çətinliklər, daxili iztirablar və tərəddüdlər içərisində keçirdiyini söyləyir. Şair dindar olsa da xurafatı, cəhaləti, din adı altında müftəxorluq edən, xalqın mal-mülkünü alan zahidləri tənqid atəşinə tutmuşdur. Bütün bu təhlillərdən sonra B.Behcət qənaətlərini ümumiləşdirərək onu mütərəqqi azəri şairi adlandırmışdır. Onu da əlavə edək ki, ədibin bu əsəri Nəbati kimi zəngin yaradıcılığa və olduqca mürəkkəb dünyagörüşə malik bir sənətkarın həyat və yaradıcılığını tədqiq etmək üçün əsaslı mənbədir.

Görkəmli ədəbiyyatşünas alimin klassik ədəbiyyatla bağlı apardığı araşdırmalarda xüsusi önəm daşıyan şəxsiyyətlərdən birisi Nizami Gəncəvidir. "Nizami və Qafqaz folkloru" mövzusunda qələmə aldığı tədqiqatı fundamental xarakteri və sistemli təhlil prinsipi ilə səciyyələnməsi ilə bağlı zamanında müxtəlif səpkili fikirlər söylənmişdir. Lakin çox təəssüf ki, bu əsər bizə gəlib çatmamışdır. Bütün bunlar B.Behcətin yaradıcı dünyagörüşünü, klassik ədəbiyyatın problemlərinə marağını və bu müstəvidə gərəkli araşdırmalara üstünlük verdiyini aydınlaşdırır.

İşin elmi nəticələri:B.Behcətin klassik ədəbiyyatla bağlı araşdırmaları fundamental xarakteri, zəngin fakturası ilə ciddi önəm daşıyır. Problemin daha sistemli təhlilini faktlaşdırır.

İşin elmi yeniliyi: B.Behcət yaradıcılığının zənginliyində mühüm bir hissəni klassik ədəbiyyatın ayrı-ayrı problemlərinin təhlili tutur. Bunların çağdaş mərhələdə sistemli şəkildə araşdırma müstəvisinə çıxarılması ciddi faktura ilə müəyyənləşir.

İşin tədqiq əhəmiyyəti: Klassik ədəbiyyatla bağlı B.Behcət araşdırmalarının təhlili ədəbi-mədəni prosesin gedişini və ədibin mənbələrə dərindən bələdliyini aydınlaşdırmaq üçün əsaslı mənbəyə çevrilir.

Ədəbiyyat

1. Araslı H. XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı: Azərbaycan Universiteti, 1956, 325 s.
2. Bayramov M. Nəbatinin lirikası. Dissertasiya(fil. üz. fəlsəfə doktoru), Bakı: BDU, 1995, 155s.
3. Behcət B. Nəbati – Xançobanı. "Ədəbiyyat" qəz., 1936, 18 fevral
4. Behcət B. Seyid Əbülqasim Nəbatinin tərcümeyi halı. əlyazma şək. / Salman Mümtaz adına Ədəbiyyat və İncəsənət arxivi. F.161,siy1, s.v 3.
5. Behcət B.M. El şairi və el şairləri. "Ədəbiyyat" qəz., 1936, 14aprel
6. Behcət B.M. Nəbati, Bakı: Azərnəşr, 1935, 129 s.
7. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı:Maarif, 1956, 553s.
8. Qasımzadə F. Seyid Əbülqasım Nəbati. "Azərbaycan məktəbi" jurnalı,1946, №1 29-33.

Babayeva Hijran

Bahlul Behjat And Azerbaijan Classical Literature

Summary

Bahlul Behjat's creativity is characterized by a serious and rich texture.

An important part of this richness is the analysis he has made in the field of classical literature. His writings about N.Ganjavi, A. Nabati, S.M.H. Nigari and others are an indication of his deep knowledge of Oriental literature. It gives us reason to think that his views, the articles he has written over the years as well as his book are the result of systematic analysis. The creativity of Nabati, one of the most vivid figures of 19th-century Azerbaijani literature, has become a problem of various analysis. B. Behjat's researches are the main sources for those analyzes. The researcher's thoughts about the poet's background and various aspects of his life show that he is aware of the sources.

The considerations and issues of the epoch of Khanchoban epic are of great interest. The reason why the 19th century was evaluated as Fuzuli and Vagif is getting clear. B. Behjat, who is an expert in the Oriental literature and Oriental culture, has always formulated a serious vision with a broad outlook. All of this makes it necessary to analyze the creativity of the writer at different levels and to make systematic approaches.

Key words: Bahlul Behjat, classical literature, N.Ganjavi, A. Nabati, S.M.H. Nigari, "Khanchobani" epos

Х.Бабаева

Бахлул Бехджат и классическая литература

Резюме

Творчество Бахлула Бехджата характеризуется строгой и богатой фактурой. Здесь важное место занимают его исследования в области классической литературы. Взгляды связанные с Н.Гянджеви, А.Набати, С.М.Х.Нигари и другими художниками слова, являются показателем глубоких знаний Восточной литературы. Мысли и статьи а также книга о А. Набати, написанные в разные годы, дает основание для наличия результата системного анализа. Творчество одного из блестящих представителей азербайджанской литературы XIX в. Набати стало предметом различных анализов.

Исследования Бахлула Бехджата являются непоколебимым источником для этих анализов. Идеи, выдвинутые в связи с различными сторонами жизни ученого-поэта, являются показателем знания источников. Мысли связанные с дастаном «Ханчобаны» и вопросы дастановедения вызывают большой интерес. Проясняется причина его ценности, являющегося Физули и Вагифом XIX века.

Бахлул Бехджат, который был знатоком Восточной литературы, Восточной культуры, благодаря широкому кругозору всегда создавал серьезное впечатление. Все это делает важным анализ творчества литература на разных этапах и актуализирует системный подход.

Ключевые слова: Бахлул Бехджат, классическая литература, Низами Гянджави, Сеид Нигари, Набати, «Ханчобаны»

Redaksiyaya daxil olma tarixi: 21.05.2019
Çapa qəbul olunma tarixi: 25.09.2019
Filologiya elmləri doktoru, professor Mahmud Allahmanlı
tərəfindən çapa tövsiyə olunmuşdur

RƏYLƏR

ƏSƏDULLA QURBANOV
BDU-nun İslamşünaslıq Elmi – Tədqiqat Mərkəzinin
rəhbəri, fəlsəfə elmləri doktoru, professor,
Beynəlxalq sülh səfiri Bakı, yanvar, 2019-cu il

QARANLIĞA BOY VERMƏYƏN DÜŞÜNCƏLƏR: KİM QALXAR VƏ SUSAR?!

Zaman heç kəsi qınamır,
sadəcə, əməllərə şahidlik edir....

Göyərçin

«Əsl sevgi qətran kimi saralmışlığa meyilli olsa da, kəhrəba kimi şəffavdır»; «Məna azadlığıdır varlığa görə xislət»; «Təbiət özünə zidd getməz, insan öz təbiətinə zidd getmişdir»; «Məni maddi olan heç nə xoşbəxt edə bilməz, gül və ətirdən savayı...»

Bu cümlələr Göyərçin Kəriminin «Post insan» kitabından seçmələrdir...

Biz qəti olaraq bu fikirdəyik ki, peşəkar meyl mental məxsusluğa geniş imkan və əsl sənət fövqü yaradır. Doğrusu, mental məxsusluqdan keçid edən hər çıxış əks nöqteyi-nəzərləri zəruri proseslər kimi ehtiva edir. Düşüncələri ictimai qənaətlərilə uyğun gəlməyənlər ədəbi dərketmədə nüfuz sahəsi tapa bilmirlər. Necə ki, bəşəri müstəvidə uğur mənəvi dəyəri cilalamaq tərzidir, eləcə də, mental dəyərlərə aludəçilik ictimai ovqatı seyrçi deyil, təfsirçi təsirlə tədqiqə çəkməkdir. Açığı, istedadlı şair, öz fəlsəfi düşüncə tərzilə ciddi maraq doğuran Göyərçin Kəriminin də ədəbiyyat gerçəkləri yuxarıda qeyd olunan səciyyədə yoluna davam edir və diqqətlə nəzər salsaq, görərik ki, şairin sənətkar qətiyyəti məhz bu ampluada – zamanın ləngidilməsi, gerçəkdə baş verən hadisələrin arxa müstəviyə keçirilməsi, ideyanın ötürülməsi istiqamətində cilalanıb. Xoş haldır ki, o öz seyrinin obyektini dünya axınından çıxarıb ayrıca hadisə – təzahür kimi bütövün nümayəndəsinə, zaman və məkan daxilində sonsuz çoxluğun ekvivalentinə çevirir və qəti şəkildə həmin prinsipə söykənir ki, məqsəd tam ödənilməyə nail olmaqdır.

Göyərçin Kəriminin ədəbiyyata peşəkar keçidi üfüq xətti kimi təmizdir. Bu seyretmədə həyat zərurətləri, metafizik – metahissi əhatəli ruhi təcəlla və ən əsası da, milli sevgi aşkar şəkildə diqqətə hakim kəsilir. Eşqanə tipikliklə fövqəladə mərhələ adlamaq qətiyyəti onun gerçəküstü dünya ilə təmasının aydın inikasıdır.

Göyərçin xanımın böyük zamanla kiçik an arasında əks etdirdiyi həqiqətlər, heç şübhəsiz, fəlsəfi-tipik gedişlərdir. Onun həyata bağlılıq çək-çeviri, gerçəklə yalan arasında qurduğu paralel əhatə təkcə öz düşüncəsilə əlaqəli deyil, həm də ilahi sevgisindən irəli gəlir. Biz bu kodeksləri anoloji olaraq şairin əksər kitablarında aşkar müşahidə edə bilirik.

Maraqlıdır ki, Göyərçinin ilk yaradıcılıq nümunələri ilə axır illər çap etdirdiyi kitablar arasında, bu, yaxud digər şəkildə eynilik var; onun ilk düşüncəsi sonrakı mərhələdə inkişaf tapmır, əksinə, ilk keçid sonrakı mərhələlər üçün istiqamət rolunu oynayır, yəni bu bizə belə düşünməyə əsas verir ki, xanım müəllif əlinə qələm alanda mükəmməl duyğu qatlarında olub və zaman-zaman onun ədəbi keçidləri, sadəcə, ilk notlar üzərində geniş zəmin qurub. Məsələn, istedadlı şairin 2009-cu ildə «Nurlan» nəşriyyatında işıq üzü görmüş «Məni məhəbbət çağırır» kitabındakı ədəbi-fəlsəfi fəhm hansı rəngdədirsə, 2012-ci il nəşrinə əlavə və düzəlişlər etməklə 2018-ci ildə «Çaşıoğlu» mətbəəsində çap etdirdiyi «Dünya iradə və təsəvvür kimi» kitabında da bu ideoloji tərz eyni mahiyyəti daşıyır; dəyişən,

sadəcə, xanımın fikir əhatəsinin sərhədləridir, yəni idrak böyüdükcə, insan daha müfəssəl fikirlər əxz etdiyi kimi, o da yaradıcılıq ruhu genişləndikcə, fəlsəfi təkamülünü artırıb.

Göyərçin Kəriminin «Məni məhəbbət çağırır» – 2009-cu il, «Nurlan» nəşriyyatı, «Dənizdən insan doğur» – 2010-cu il, «Nurlan» nəşriyyatı, «Qar gecəsi» – 2010-cu il, «Nurlan» nəşriyyatı, «Düşüncənin torpağına yağış yağır» – 2013-cü il, «Elm və Təhsil» mətbəəsi, «Yanvar qərənfil rəngdədir» – 2015-ci il, «Elm və Təhsil» mətbəəsi, redoktoru olduğum «İdraki vəcd nədir?» – 2015-ci il, «Elm və Təhsil» mətbəəsi və s. kitabları işıq üzü görüb. Bu kitablarda duyğu, rəng, poetik hiss, məna çaları fərqli üsullarda olsa da, idraki vəcd eyni xarakterdədir. Belə deyək, yaradıcılığında, əsasən, fəlsəfi-hissi zəminlər aşılayan şair xanım duyğu sahillərində qayəçi ruhu həyat və tale məsələlərilə qarşı-qarşıya qoyur; öz ənənəçi tərzini həyatın gözəllikləri fonunda qabardır.

Göyərçin xanımın «Məni məhəbbət çağırır» kitabındakı fərdi, fərqli yanaşma tərzi 2009-cu ildən boylanan fəlsəfi təsirlərlə vətən andı, torpaq məhəbbəti, haqqı dərketmə, sevgi ahəngi və s. kimi komponentlərə də həyat-tale fonunda öz təsirini göstərib. «Məqsəd olsa, məqsədə çatmağın yolu da olar. Yetər ki, ardıcıl prinsipial ola biləsən. İnsanın gücü çatmayan iş yoxdur...» deməklə, ideoloji şərh lüzumu yaradıb.

Mənim müqəddəs borcum
Vətəni qorumaqdır.
Ayağım torpaqdadır...
Fikrin qanadlarında xəyallardan üstəyəm.
Azadlıq!!!
Budur mənim son qələbə istəyim!

Əslində, Göyərçin xanım üçün fikir, sadəcə, şərhi olan təcəlla deyil, həm də məqsədi, məramı axtarılan məchuldur. Yuxarıdakı parçada vətəni qorumaq hissi və Qələbə(!) istəyi var, lakin burada axtarılan məchul torpaq azadlığıdır; yəni şeir bütövlükdə dürüst bir məntiqi işarəyə – hələlik tapdaq altında olan torpaqlarımız uğrunda mübarizəyə çağırışdır.

O yerdə ki, Qarabağ cənnətin beşiyidir,
Səngərdə yatan əsgər azadlıq keşiyidir.

Bu sətirlərdə də yurd amili başlıca şərt, keşikçi əsgər sayıqlıq, azadlıq hissi yanğıdır, yəni axtarılan məchul işğalda olan yurd yerlərinin nicatı məsələsidir.

Oxşar olaraq müəllimi S. Xəlilova həsr etdiyi «Səni oxumaq üçün» şeirindəki məchul da axtarılandır:

Sən kimsən? – Qocaman dağ.
Mən kiməm? – Zərif çiçək...

«Qocaman dağ» ilə «Zərif çiçək» arasında təcəlla edən dialoq pərəstiş məhəbbətinin müqəddəslik səviyyəsində ifadə olunmasıdır ki, «qocaman dağ», «zərif çiçək» surətləri özlüyündə insandır... və s.

Müqəddəslərlə şəxsi təcrübədə qarşılaşmaq, əlbəttə ki, çox nadir hallarda mümkün olsa da, onları bizim önümüzə qələmə alınmış həyatları və incəsənətin imzalanmış həqiqətləri çıxarır. Göyərçini şair kimi başqalarından fərqləndirən üstünlük də məhz bu qabiliyyətinə görədir.

Dünyanın ən zəngin dilənçisiyəm,
İnsan dilənirəm... açıb əlimi.

***

Yoxdur səndən yuxarı qəlbimə hakim, yoxdur,
Səndən də Sən yuxarı – kəramət günəşisən!

***

Ürəyimə yağış yağır... qəlbim aşır məcrasını,
Gah sulara qərq oluram, gah qəlb evi qanlı suyam.

«Qar gecəsi» kitabından nümunə gətirdiyimiz bu sətirlərdə də məchul çoxlarının fərqində olmadığı mahiyyətdir. «Səndən yuxarı Sən mövcudsan» qənaəti, demək olar ki, kitabın əsas qayəsidir; «qəlbin yağışa məcra verdiyi vadi də, əks çarpazlıqda təcəlla edən yarı nikbin, yarı bədbin ovqatlı sahillər də», həmçinin, «ən zəngin dilənçi» tipi ilə «insan dilənmək» zərurəti arasındakı zahiri oxşarlıq da «Qar gecəsi» kitabının estetik həzz mənbəyidir və bu baxımdan «Düşüncənin torpağına yağış yağır» kitabının əsas komponentləri də Göyərçin ədəbi fikrinin sürreal miqyaslarıdır:

... Mən kiməm?
Çayın axıb qurtarmasını gözləyən susuz yolçumu?
Yaşayım deyə öldürməli olduğumu
hər gün «öldürdüm» deyən yalançımı?..

***

Rüzgar əsdirir gecənin pərişan tellərini,
Gecə uzadıb qaranlıq əllərini
İşığın yolunu kəsir...

***

... Unuda, unudula bilməyəni
Unutmaq ağrısı yaşayıram.
Bir dolu dünyam var, bir boş dünyam...

Bu parçalardan da göründüyü kimi «Düşüncənin torpağına yağış yağır» kitabında düşüncə sahibinin qovuşmalı olduğu son hədd vəcd halıdır; kitabın poetik üslubu uzaq sahillərə yan alan gəmi təsiri bağışlayır...

Elə «Yanvar qərənfil rəngdədir» kitabında da çevik tərəf ideal sıçrayışlar, müəllifin fərqində olduğu əksliklərdir:

Uzun-uzun qatarların ağır-ağır təkərləri altında
Əzilən insanlar gəlib keçir fikrimdən.
Boyunduruqda su gətirən qadınlarsayağı
Çiyinlərimdə yoxluğumu daşıyıram...

***

İlin zaman başlığı soyuğuyla öyünür,
Rüzgarlar üşüdür günahı.
Daxmalar şüppük uclu qarğıların cil üstü salğarı,
Qovaqlar oyuğu ilə öyünür;
Quşların ümid yeridir axı...

***

Həmişə yaz gələndə təzədən açım deyə,
Çiçəklərin qəlbinə köçərək ölürəm mən.

***

Elə ağrıyıram ki, ana,
Elə tənha, elə qəribəm ki, sənsiz...
Demişdin: «getsəm, yalnızlığı zamana burax...»

Bu sətirlərdə bitkin, məna və ideyaca mühüm, dərin fəlsəfi fikirlər öz poetik ifadəsini tapır. Şeirlərdəki fəlsəfi dərinlik, emosional əhval fenomen həyat sevgisi haqqında yazılmış eşq və ölüm acıları qədər təsirlidir. Müəllifin həqiqətpərəstliyi, dini mövhumata qarşı kəskin üsyankarlığı gördüyü mənzərəni olduğu kimi yox, olmalı olduğu kimi ifadə etmək qabiliyyətilə əks olunur. Diqqət yetirək: «getsəm, yalnızlığı zamana burax...» eyhamında həm vaxtdan asılılıq mövzusu, zamanın bütün yaraları sağaltdığını bildiyimiz halda, həm də zamanla bağlı bilmədiyimiz mənalar çabalayır. Müəllifin «boyunduruqda su gətirən qadın» müqayisəsi, «rüzgarlarda üşüyən günah» təlatümü, «çiçəklərin qəlbinə köçmək» ümidi və s. idraki vəcdlə işıqlanan həyati gerçəklərdir; fəqət özünü əksəriyyətin anlamadığı rənglərlə ifadə edir...

«Dənizdən insan doğur» kitabında ideyanın ötürülməsi prinsipi əvvəlki kitablarda da fəaliyyətdə olan fəlsəfi düşüncə tərzilə, müəllifin özünün də dediyi kimi: «...Əlində qələm tutan insanın hədəfi əvvəldən məlumdur» eyhamında cilalanan təsdiq forması ilə eynidir. Cildin ictimai məğzini insan probleminə elmi-intellektual yanaşma, fəlsəfi ehtivasını bəşəriyyətin «həyat və ideal» olaraq rəng tuta bilməsi təşkil edir. Kitabda əsas obraz kimi səciyyə tapan İNSAN kultu müəllifin ideoloji şüurda üst qata çıxma əzmidir. Bu fikri-ideya Göyərçinin Mənsur Həllacdan sitat gətirdiyi «Qəlbimi səndən başqasında aradım, görmədim, mənim ondan uzaqlığım sənin onunla ünsiyyətin kimidir» fəlsəfi çarpazlığı ilə eyni hüduddadır... Bu mənada, xoş haldır ki, klassik-modern ənənəçilikdə qərar tuta bilmək Göyərçin Kərimiyə də xas keyfiyyətdir və onun adıçəkilən kitabları bu prosesin əyani görüntüləridir.

Şairin «İdraki vəcd nədir?» kitabının struktur quruluşu alman filosofu Şopenhauerin fəlsəfəsi və bu əhatədə var-gəl edən insan-idrak təcəllalarıdır. Fikrimizi kitabdakı aşağıda səsləndirəcəyimiz ruhsal komponentlə aydınlaşdıraq: «...Mənsur Həllac Bağdad bazarlarından birində ucadan deyirmiş: – Ey insanlar, məni Yaradanın əlindən alın! O məni məndən alıb, geri vermir. Bu yaxınlığın ayrılığına dözə bilmirəm, uzaqlaşmaqdan da qorxuram ki, itib məhrum olaram. Bu yaxınlıqdan sonra itənlərin, bu vüsaldan sonra ayrılanların vay halına!» Belə deyək ki, Göyərçinin hadisələrə fəlsəfi baxışını idraki vəcdə doğru meyl, başqa sözlə, Mənsur Həllacın, Şopenhauerin gerçəküstü dünyasına keçid təmin edir. Əlbəttə, a priori olaraq qavranılan ilahi iradə və onunla təmas məsələləri hamı üçün eyni şəkildə əl çatan deyi. Bu mənada müəllifin sətirarası səsləşmə, düşüncədaxili ümumiləşmələri beynin qavrama və təsdiqəcanatma proyeksiyalarını artıraraq , vəcd, idrak və gözəgörünməyənlə təmas barədə müfəssəl fikrin işıqlanmasına rəvac verir, yəni, ağıldan təfəkkürə yol tapan insan anlayır ki, idraki vəcd nədir və Göyərçin Kəriminin qələm məhsulu kimi qavradığımız «Bu, elə bir zirvə ki, yetişdin, enişi yox... qovuşdun, dönüşü yox...» misraları hansı dərinlik, yaxud yüksəklikdən xəbər verir. Adi müşahidə üsulunu kənara qoyaraq ruhunun gücünə yüksələn Göyərçin xanım idraki vəcd deyərkən, hadisələr axını boyu məhz "hara"danı, "niyə"ni, "nə zaman"ı, "nədən ötrü"nü unudur, baş verənləri ancaq mahiyyət nöqteyi-nəzərindən ehtiva etməklə, dünyanın dərk olunmasına vasitəçi olmağa çalışır.

Ən əsası, idraki vəcd prosesinə də «anlamaq» və «anlamamaq» kimi iki tərzdən yanaşmaq lazımdır. Qısası, idraki vəcdin nə olduğunu yaşamaq insani üstünlüyün ali dərəcəsinə yetişmək, gerçəküstü dünyanın sirlərinə vaqif olmaq imkanıdır, anlaya bilməmək isə bu zəminə, sadəcə, bir dəlilik faktı kimi inanmaqdır.

«İdraki vəcd nədir» kitabındakı Füzuli dərki: «Öylə sərməstəm ki, idrak etməzəm dünya nədir, Mən kiməm, saqi olan kimdir, meyi-səhba nədir» ruhsal seçimi də Göyərçin xanımın idraki vəcd məqamını şərtləndirən cəhətlərdən biridir. Idraki vəcdin nə məna kəsb etdiyini bilməyənlər üçün Mənsur Həllacın da, Füzulinin də, Şopenhauerin də, elə Göyərçin Kəriminin də dedikləri, sadəcə, bir nağıldır: bilmək üçün fərdiliyin aradan qaldırılması şərtdir.

«Dünya iradə və təsəvvür kimi» əsərində də, eynən «Post insan» kitabında olduğu kimi, vəcdə gəlmiş idrakın emanasiyası baş verir. Hər iki kitabda fəlsəfi duyğu əsas göstəricidir, həm də vəcd və dərk kodeksləri müəllifin bütün fikirlərinə eyni müstəvidən təsir edir, yəni kitabda elə fikir təqdimatları var ki, dərk olunmuş şəkildə – transendental qavrayış olmadan başa düşülmür. Bu, təkcə o demək deyil ki, Göyərçin xanım Mənsur Həllac, Şopenhauer kimi vəcdin idrak vadisinə ayaq basa bilib, həm də o deməkdir ki, zamanı və məkanı olmayan hadisələri mövzudaxili poetikliklə müəyyən zaman və məkan daxilinə sığışdırmağı bacarıb. Yaradıcılıq qayəsini qarışıq sevgilərin timsalında səciyyələndirən müəllif a priori şəkildə dərk etdiyi hər hansı hadisəni tam aydınlığa çıxara bilir və elə bu cəhətinə görə, oxucunu xoş, anlaşılan ovqatla üz-üzə qoyur, həmçinin, bədii-fəlsəfi fikrə, müasir-ədəbi təcəssümə öz parlaq hədiyyəsini bəxş edir.

Onun dahi alman filosofu Artur Şopenhauerin həyat və yaradıcılığına həsr olunmuş "Dünya iradə və təsəvvür kimi" poemasından aşağıdakı misralara nəzər salaq:

Xoşbəxtlik arzuya çatmaqda deyil,
Bəlkə də arzuya gedən yoldadır.
Zövqün təməlidir arzu elə bil,
Ürəklə birləşib ağlı aldadır.

***

Arzu qurtarmırsa, səadət hanı?
Dalğalar susmasa, durulmaz dəniz.
«İradə» dünyanın arzu sultanı,
O hər nə əmr etsə, baş əyirik biz.

***

Evlilik bir yükdür filosoflara,
Qadına asudə vaxt qalacaqmı?
Borc hara aparır, səadət hara,
Fəlsəfə bizimlə qocalacaqmı?

Fərdiliyini unudan insan – dahi, yaxud filosof dünyanın mahiyyətinə nüfuz etməklə yanaşı, həm də həyat ilə həyat tərzi arasındakı ziddiyyətə uğrayır; yəni, vaxt, elmlə təmas və qayğı kodeksləri onlar üçün o keçilməzliyi yaradır ki, özlərini özlərinə həsr etmək imkanından məhrum olurlar. Açığı, «Dünya iradə və təsəvvür kimi» kitabında bu keçilməzlik öz proyeksiyalarını qəti və qeyri-qəti kodekslərlə cilalayır; yəni, müəllif mümkün olanı mümkün, mümkün olmayanı da qeyri-mümkünlük şəklində xarakterizə etmir, əksinə, onun məqsədi mümkün olmayanı mümkün, mümkün olanı qeyri-mümkün hadisə kimi oxucuya təqdim etməkdir.

«Kəhrəba idim» kitabının əsas daşıyıcı qüvvəsi düha mələyidir. Müəllifin kitabda dəfnə çələngini xatırladan şeirlər toplusu İnsan – Həqiqət münasibətləri, ağıl, nəsihət, tövsiyyə xarakterli öz üzərində yüksəlmə və s. mənada bitkin forma və dürüst məzmunla ehtiva olunur ki, bu da ovqatımızı yüksəldir. Demək ki, xoşovqat yaratma cəhdi Göyərçin Kəriminin yaradıcılığına özəllik verən əsas səciyyələrdəndir və bu cəhətlər oxucunu bir az duyğu selinə batırsa da, bir az da giley-güzara tuş edir, ona ictimai əksiliklərin – halalla haramın, yaxşı ilə pisin, doğru ilə yalanın vadilərini, başqa sözlə, müəllifin ovqatdəyişmə tezliyinin yeknəsəng olmayan amplitudasını göstərir. Ümumiyyətlə, müxtəliflik Göyərçin xanımın bədii dərkində məsuliyyət yüküdür və oxucu ilə hər zəruri təmas ikinciyə əhvalını yüksəltmək üçün bir həyat elementi bağışlayır.

Sənə sevgim ilə əziyyət etdim,
Səni məhəbbətlə gətirdim cana.
Ömrümün, beləcə, sonuna yetdim,
Yolum qalmamışdı səndən o yana.

***

Dedim, yaşadaq sevgini,
Öldürməyə nə var ki...

***

Olum, ya ölüm?
Sevənlərin önündə
Məhəbbət qəti qoyur bu iki məsələni...

«Məni məhəbbət çağırır» kitabında oxucuda sevgi həzzi təsəvvürü aşılayan Göyərçin xanımın ən çox aludə olduğu nəticə zərər verməmək prinsipidir. İnsana sevgi ilə əziyyət vermək, əslində, adi oxucuda təəccüb doğuracaq hadisədir, lakin müəllif demək istəyir ki, sevgi qarşılıqlı deyilsə, istənilən

cəhd qarşı tərəfə təzyiq üsulu kimi başa düşülməlidir. Şekspirsayağı «Olum, ya ölüm?» dilemmasını məhəbbətin əsas sualı kimi dəyərləndirən şair öz qənaətində ona görə haqlıdır ki, düşünülməmiş – keçidi olmayan sevgilərin üçüncü yolu olmur, yəni qarşılıqsız sevgi öz yolunu tapmasa, yaxud özünü ayrı şəkildə təqdim etməyi bacarmasa, aşiq ölməlidir və ən qəribəsi də budur ki, «Post insan» kitabında Göyərçin xanımın bu məsələyə münasibətini fərqli rakursdan dinləyirik: «Elə insanı fəlakətə sürükləyən ürəkdir də, bu gün naturaçı olmaq istəyər, sabah naxırçı, etibarsız orqandır; istəklərinin səbəbi məlum olmadığı kimi davamlılıq müddəti də məlum olmur». Qeyd edək ki, şairin kitab boyu bir sıra öyüd-nəsihət səciyyəli, sevgiartırma qayəli cümlələrdən istifadə etməsi həyat-cəmiyyət qarşıdurmasından irəli gəlir və o, istənilən fikri elə poetik elementlərlə ifadə edir ki, mətləb oxucuya inandırıcı görünür. Göyərçin zərif ifadələrlə işarələnmiş dumanlı sözlərin arxasında gizlənmir, çünki gözəl fikirlərlə zəngin olan ruh öz tənhalığını yüngülləşdirsin deyə düşüncələrini başqalarına çatdırmaq üçün həmişə ən təbii, hiyləsiz, sadə şəkildə ifadə olunmağa çalışır.

Ruhum çiçəkləyib, gəl, şeir yazaq,
Sən mənim, mən sənin gözündə azaq.

***

Əllərim saçlarında həsrət dərirdi...
... Doğum gününə hədiyyə etdiyim yağışları
Pəncərəmdən süzülən gördüm...

«Yanvar qərənfil rəngdədir» adlı şeir çələngindən misal gətirdiyimiz bu misralarda poetik ştrixlər həm ruha rahatlıq, həm də tələtüm bəxş edir. Müəllifin oxucu marağı bu cür fikir və ovqatdəyişən təsirlərlə təbiətin qanunlarına uyğun olaraq aşakara çıxan qüvvələri tarazlaşdırır, üstünlüyü bəşərilik ideyaları təşkil etsə də, tale çək-çevirməsi baxımından həyatın ən geniş meydan olduğunu vurğulayır. Düşündürücü haldır ki, şairin nəzmə çəkdiyi tək bir varlıq daimi yaranan və özlüyündə ötəri-keçici olan varlıqların çoxluğu kimi tərənnüm olunur.

«Düşüncənin torpağına yağış yağır» kitabından aşağıdakı misralara diqqət edək:

Nə fərqi, zaman gözləyir, ya gözləmir?
Nə qədər yaşana, ayyy İşığında,
bitməz bir ömür...

***

... Yoxluğun qəlbimi qanatdığı gün
Varlığın yoluma kəsək düzürdü.

***

Səni gördüm...
Bilirsən, harda?
– Canlılar məzarlığında...

***

Simurq qanadında göylərə baş vur,
Hədiyyəm bir uçuş olsun bu səhər...

Göyərçin xanım sanki zamanın özünü dayandırır; əbədiyyət anlarının zamana sığmadığını bəyan etməklə yanaşı bir baxışın işığında yaşanan əbədi ömürdən, yoxluğuyla öldürən, varlığıyla «gölə qələm sancan» insan xislətindən söhbət açır və nəhayət, «canlılar məzarlığı»... və o məzarlıq ki, mənəviyyatın bütün məhvolma səbəblərinin, o cümlədən, narkomaniyanın... meypərəstliyin beşiyidir... Gerçək dünyanın hadisələrinə seyrçi nöqteyi-nəzərdən tamaşa edən müəllifin intizarında olduğu hədiyyə də materiya formasında deyil, onun ürəyi simurq quşunun uçuşunu – yüksəkdə olanı izləmək təşnəsilə çırpınmaqdadır.

Nümunə gətirdiyimiz bu misralarda ağrı-acı ilə müşaiyət olunan duyğular çoxdur; yəni müəllif öz hisslərinə o qədər yaxınlaşır ki, az qala özü də əriyib onlarda yoxa çıxır. Bu mənada Göyərçinin şeirləri əhatə dairəsi, yaxud mövzu rəngarəngliyi baxımından seçilir. O, oxucuya mübarizə yolu, öz-özü ilə döyüşmək səriştəsi aşılayır.

Müəllif şeirlərində sevincə nə qədər yer ayırırsa, o qədər də kədəri paylaşır və buradan belə bir nəticə hasil edə bilirik ki, sadə intuitiv hissdən ideyanın dərkinə keçidetmə sevinclə yanaşı həm də ağrı-acıdan bəhrələnir, yoxsa tək qanadla «Yerin kölgəsinə daxil olmaq» heç Yuri Qaqarinə də nəsib olmazdı.

«Göylərdən göylərə bir nərdivan qur, Kainat eşq ilə dolsun bu səhər!» – deyə xəyali sevgiliyə ismarıc yollayan şair tərəf-müqabili ilə vəhdətdə olmaq istəyərkən tək özünü düşünmür; sanki bəxtiyarlığını, xoşbəxtliyini kainatda olan bütün canlı-cansız varlıqlarla bölüşməyə hazırdır.

Onun qadın yaradıcılığında öz əksini tapan təkcə, Şopenhauerin təbirincə desək, bir çox əməllərin xarici və daxili əhəmiyyəti, yaxud gerçək dünyanın hadisələrinə münasibətin vacibliyilə bəşəriyyət ideyasına nüfuz etmənin uyğun dərinliyi deyil; Göyərçinin yaradıcı fəlsəfəsi intuitiv qavrayışımızın zaman və məkan forması sayəsində çoxluğa parçalanmış vəhdətinə – ideyaya sarı yön almışdır.

Yazıçı-publisistin sənət istiqaməti oxucunun diqqətini bir neçə vacib məqama – həyata baxış, görünənin görünməyənlə nisbəti, immanent, transsendent qavrama və s. kimi müxtəlif proseslərin dərk olunma şəraitinə doğru çəkir, o cümlədən, idraki vəcd, ruhi təcəlla, zəkaüstü düşüncə, ovqata sirayətetmə xüsusiyyətləri bu səmtin əsas xəttini təşkil edir. Tanrı ilə ünsiyyəti insanın insana dəyərvermə səciyyəsi kimi təqdim edən şairin bütün kitablarının ruhu eynidir; zaman-zaman dəyişikliyə uğrayan isə yazı texnikası, yazıçı üslubunun şaxəli püxtələşmə dərəcəsidir.

Sənin üçün nə fərqi, həyatda varsan, yoxsan...
Sənin üçün nə fərqi?!

***

Qadınlar bayramına çağırmışdılar məni.
Söz anadan gedirdi – «Analar günü» idi.
Məni unutmuşdular...
... Yadıma Bayandurun qara çadırı düşdü.

***

...Onu külək gətirmişdi, ya ürək?
Ya söz verib, söz alırdı baxışı?
Pəncərəmin önündəki yolda tək...
İslanırdı, unutmuşdu yağışı.

Bu misraları həyəcansız oxumaq mümkün deyil: "«Analar günü» idi. Məni unutmuşdular..." Həyat-tale məsələlərini şişirtməyə cəhd etməyən, klassik ənənəyə uyğun fikirlər ifadə edən və bütün hallarda, nə qədər ağrılı olsa belə, xoş ovqat təəssüratı yaradan Göyərçin xanım gerçəklik ilə insan arasındakı bağlılığa özünəməxsus şəkildə önəm verərək, oxucunu elə nikbin əhval-ruhiyəyə kökləyir ki, dürüst şair baxışı ilə anlayışlı oxucu arasındakı ziddiyət öz-özünə çözülüb yox olur.

«İdraki vəcd nədir?» və «Dünya iradə və təsəvvür kimi» kitablarında əsas arqument olaraq yaddaş amilləri mühüm rol oynayır; müəllif bu kitablarda reallığa varid olmağın yolunu fəlsəfi uyarlıqla xarakterizə edir, sapiensi hadisələrə düzgün olmayan yanaşma tərzindən uzaqlaşdırmağa, onu ictimai varlıq qayəsindən özünüdərk məqamına yüksəlmənin mövcudluğuna inandırmağa çalışır. Hərdən o, sanki Şopenhauer fəlsəfəsindən aralanır, «yaradılış və təcəlla» dünyagörüşünə Füzuli dərki, Nəsimi fəhmilə baxış sərgiləyir. Yaradıcılığı boyu şairin dərin-düşündürücü məna kəsb edən fikirlərinin əksəriyyətində, hətta bədii suallarında belə, idrak formasından azad olmuş – dərk olunmuş təsəvvürün və xalis dərkedən subyektin fərdin müşahidə üsulundan fərqlənən, bütöv şəkildə aşkara çıxan pillələrini – ideyaları izləyirik.

Şair oxucu rəğbətini həm də ona görə əldə edir ki, əsərlərində düşmən qazandıracaq münasibətlər və hər hansı mübahisədə qalib gəlmək və s. kimi manevrlər yoxdur. Göyərçin xanım eyni hadisəyə

bütün versiyalardan yanaşmaqla, oxucunun diqqətini əsl olana – mahiyyətə yönəldir və bu yolla müsbət nəticə əldə etmək istəyən şəxs üçün sanki test-baxış keçirir.

Şair poeziyasında hansı predmetd ən istifadə edir-etsin, şeirlərinin poetik sferadan kənara çıxmasına şərait yaratmır və təsvirin əyaniliyi məsələsində oxucu fantaziyasına güvənir.

Bəllidir ki, zərif cinsin nümayəndəsi bütün varlığı ilə şəfqət abidəsidir; bu, qadının təbiətindən qaynaqlanır. Haqqında bəhs etdiyimiz kitabların müəllifi də şəfqətlə dolu qadındır: qeyb aləmlərinə biganə qalmayan, fikir aləminin qapısı yaşıl olan mübarək qadın. Sanki o, mənəvi aləmi işıqlandıran Qütb ulduzu, həmişə məsum olması qənaətində olduğumuz bədrlənmiş Aydır, lakin əhvalı sabit deyil; həm özünün, həm də ustadı Şopenhauerin təbirincə desək, «qucağa adi şar kimi yerləşən» dünyanın məhvərində dolandığı üçün narahatdır.

«Dünya iradə və təsəvvür kimi» kitabından misal gətirdiyimiz aşağıdakı misraları sanki Göyərçin özü haqqında söyləyib:

Heç kimin şəxsi işi ona aid deyildi,
Fikrini gizlədərdi, yüz ölçüb bir biçməsə.
Ədası gənclər kimi, amma yaşı əlliydi,
Sakitliyi sevərdi, həssas idi gur səsə.

Gülümsəyəndə belə, gözlərinin kədəri
İzini itirməzdi – ələ verərdi onu.
Hər gün səhərdən çıxar, axşam dönərdi əri,
Evdə yalqız olardı, əsasən, bütün günü.

Günəş kimi mehriban, ulduz kimi sayrışan,
Yağış kimi deyingən, qar kimi düşüncəli,
Şimşək kimi hay-küylü, bulud kimi pərişan,
Dolu kimi sərt idi, rüzgarlar kimi dəli...

... Biz özümüzü belə yetkin və kamil, «Günəş kimi mehriban, ulduz kimi sayrışan, Yağış kimi deyingən, qar kimi düşüncəli, Şimşək kimi hay-küylü, bulud kimi pərişan, Dolu kimi sərt idi, rüzgarlar kimi dəli...» qadının yaradıcılığı qarşısında hiss edərkən, ruhumuza mərhəmət, şəfqət və gözəlliklə dolu bir dünyanın sirayət etdiyinin şahidi olur və bəzi incə məqamların dərk edilməsi sevincilə titrəyirik. Qadın təbiət nöqteyi-nəzərindən analıq məsumiyyətinə görə səmalar qədər geniş, bəşəri duyğular baxımından ulduzlardan çox, yaşadıqlarına rəğmən məslək kimi aydındır və Göyərçinin «Analar günü idi, məni unutmuşdular» misrasındakı tənhalıq hissi əzabın, həsədin yox, «Bayandurun qara çadır»ı ilə həmahəng olan şəraitə mənfi münasibətin ifadəsidir. Bəlkə də o, Mənsur Həllacı, Şopenhaueri dərk etməsəydi və özü onların idraki vəcd məqamını yaşamasaydı, doğrudan da, «rüzgarlar kimi dəli...» olardı...

Göyərçin xanım zaman reallığının həyat zərurətləri üçün ünvansız keçidlər olduğunu ona görə dəqiq bilir ki, özü də bu keçidlər qarşısında həmişə mümkün çətinliklərlə üz-üzədir.

Əlbəttə, dünyanı dərk etmək müşgül məsələdir; təhlilinə çalışdığımız əsərlərin, xüsusilə də, «Post insan» kitabının doğurduğu təəssüratdan belə nəticə hasil edirik ki, Göyərçin Kərimi üçün uşaq vaxtı ilə indiki zamanın gerçəkləri eynidir, sadəcə, o vaxtlar anlaya bilməyib ki, ömrünün ilk on illiyi onu həyatın çək-çevirindən baş açma – kamil özünüdərkə yiyələnmə səmtinə doğru istiqamətləndirir və yəqin ki, şairin ucalıqlara yol tapacağı hələ ata-anasının himayəsində şəfqət və nəvazişlə böyüdüyü vaxtlardan bəlli idi...

Təkcə uşaq vaxtı deyil, sonrakı illərdə də valideynlərinin mümkün çətinliklər girdabında çabalamaları onun ruhuna təsirsiz ötüşməyib və Kəriminin poetik rəngkarlıqla əta etdiyi piktoqram xarakterli yazılarından belə anlamaq olur ki, o da çoxları kimi daim xoşbəxt olmaq sevdaları ilə aşıb-daşsa da, aradığını tam əldə edə bilməyib, bəzən ümidləri tamamilə puça çıxıb: rüzgar arzu və istəklərini sovurub... Lakin o, ağrı-acısını göz yaşlarını qəlbinə axıtmaqla gizlədərək seyretmə üfüqlərində tamaşasına daldığı gözəllikləri uşaq sevincilə aləmə bağışlamağı bacarır.

«Dünya iradə və təsəvvür kimi», «İdraki vəcd nədir?» adlı kitabların əks etdirdiyi süjet xətlərindən biri də budur ki, müəllifin taledən bəxşiş kimi aldığı ömür troyektoriyası əngəllərlə doludur; onu bu çətinliklərdən müqəddəsliklər vadisində əldə etdiyi idraki-vəcd yüksəkliyi xilas edir.

Tərəf-müqabilin ürək çırpıntılarını, könül təlatümlərini əks etdirən digər kitabları da Həqiqətə canatma meyllərilə yüklüdür; zamandan irəlikeçmə qənaətinin mümkün versiyalarda təşəkkül tapması, taleyə qarşı çıxıb-çıxmamağın sual dolu inikası bizi mükəmməl şair qəlbinin nəhayətsizliyi önündə özünə heyran buraxır.

Göyərçinin yaradıcılıq manevrinin əsasını təşkil edən cəhətlərdən biri də sevdiyi sahillərə can atmamasıdır və yəqin ki, buna səbəb F. Şillerin təbirincə desək, «əsrlər boyu yeganə qocalmayanın heç vaxt heç yerdə baş verməməsi» fikri – münasibətlərə xələl gətirməmək üçün məsafə anlayışının sabitlik prinsipidir. Fikirlərimizə əyani sübut kimi onun müəllifi olduğu «Korlar haqqında pritça» povestindən sonuncu abzastı yada salmaq kifayətdir: «Çəkmələr Şəbnəmin ayağını ağrıtmırdı, yox, o sanki uçurdu... və bir daha geri dönməyəcəyi arxasınca tüstülənən siqaretin qatı dumanından bəlli idi...»

Xanım müəllifin «Kəhraba idim» kitabındakı əsas amillər də istəklərin şiddətindən imtina etməyin vaciblik təntənəsinə köklənib.

"«İradə» var! Odur bütün hadisələr, təzahürlər mənbəyi. Onun özünüdərki və ona əsaslanan özünü təsdiq-inkar özündə hadisədir Yeganə..." Bu cümlələr «Dünya iradə və təsəvvür kimi» adlı poemada iradənin Şopenhauersayağı ifadəsini təşkil etsə də, əsərin ictimai süjet xətti saf sevgi və sevginin asılılıq dərəcələrinin aydın fəlsəfəsidir. Şairin Leyli sevgisindən və ondan daha uca məhəbbətlərin sirrindən xəbərdar olmasının əsasını dərk olunmuş məhəbbət ideyasının ötürülmə qammaları təşki edir. O, yaxşı bilir ki, «istənilən sahədə istedadlı adamlar böyük layihələrə imza ata bilərlər, lakin insanın fikrini, düşüncəsini əvəz etmək, onun baxışını varlığın mahiyyətinə yönəltmək, bir sözlə, onu yenidən yaratmaq bacarığı dahilərə məxsusdur».

«Post insan» onun povestlərindən birinin adını daşıyır və bu əsərdə post insana münasibət F. Nitşenin «Zərdüşt belə demişdir» əsərindəki «ən murdar insanın zamanəsi gəlir, bu insan artıq özünə nifrət edə bilməyəcək» fikrilə uyğunluq təşkil edir, yəni müəllif post insan deyərkən yüksək texnikanın sayəsində robotlaşan, mənəviyyatını rəqəmsallıq dolduran adamı nəzərdə tutur.

Göyərçinin ideyalar vadisi boyu addımlayan obrazları fantaziyaya dayanıqlı olsalar da, lazım olan məqamlarda immanent qavrayışdan transendent qavrayışa keçid etməyi bacaran canlı aşiqlərdir. Yaradıcılığına nüfuz etdikcə hiss edirik ki, o, hissə tez qapılır, lakin burulğanda çox qalmır, bəlkə heç ora düşməmişdi də, çünki ruhunu qeyri-məlum səmtlərə aparan sarsıntılardan yaxa qurtarmağın fəlsəfəsini bilir; hansı yolla getdiyinin fərqindədir.

«Zina elə zinadır, qadın olsun, ya kişi...», «Cəhalət dünyasında çətindir qadın olmaq...», yəni həyati gerçəklərin ağrılı şəkildə qələmə alınması qeyri-bərabər yanaşma tərzinin qadın şüurunda boş buraxılan sətirləridir ki, müəllif doldurulmasını arzulayır.

Bizim düşüncə və xəyal dünyamızda qadın xilqət hadisəsinin ən mühüm çaları, bəşəriyyət aləminin ən bərəkətli və sehirli rüknü, evimizdə Cənnət gözəlliyinin qüsursuz timsalı, varlıq və sonsuzluğumuzun yeganə təminatıdır: O, yaradılmamışdan əvvəl Adəm Peyğəmbər yalqız, ekoloji sistem ruhsuz, bəşəriyyət müsibətlərə təslim, ailə bir ağacın koğuşu, insan öz ömür lampasının məhbusu idi. Fəqət cəhalətin hökm sürdüyü əhatədə bəşər övladının batinlə batili doğru-dürüst qavraya bilməməsi səbəbindən qadın doğulduğuna görə taleyindən narazı qalan o qədər qəlb sahibi var ki... Bütün bunlara baxmayaraq, nə yaxşı ki, dünyaya QADIN gəldi... Nə yaxşı ki, Göyərçin Kərimi dərk olunmuş poeziyanın ötürülmə müstəvisinə varid olmağı bacardı...

«Dənizdən insan doğur» kitabında müəllif, sadəcə, poetik hisslərin deyil, epik mükalimələrin də dolğun ifadəsinə nail olub. Bu kitabın boxçasında – «Kimdən ötrü ölmək olar?», «Sükutun məhəbbəti», «Ondan ötrü yalvarırdı», «Sevgi nədir?», «Günəbaxmayan» və s. başlıqlı yazılarda publisistik tərzin cilalanmış nümunələrini görürük.

Gəlin, ideyaya gedən yolun Göyərçin poeziyasından keçən nümunələrilə tanış olaq:

Qürur da insanın bir düşmənidir,
Həyat baş əyənləri sevir.

***

Milyon dəniz yerləşər insan təxəyyülünə,
amma özünə yükdür,
Hansı daha böyükdür?

***

Sənə bənzəyirdi yolun kənarındakı
tənha küknar ağacı.
Səhər yağışından sonrakı
iynə yarpaqlarının ucu
İnci kimi bərq vururdu...

***

Ya düşmən əlində, ya dost əlində
Güllə hardan bilsin kimə açılır?

***

... Sönən ömür üfürməklə közərən deyil,
Həqiqətin varlıq adlı məkanı yoxdur.

Çoxumuza bəllidir ki, bütün gerçək hadisələr zaman-məkan çərçivəsi daxilində baş verir, həmçinin mahiyyətinə vardığımız, yaxud vara bilmədiyimiz proseslərin ölçü vahidi fərdin idrak sferasına daxil olan zaman-məkan anlayışlarıdır ki, ideyalar bu anlayışların hökmündən azaddır və bu baxımdan istedadlı qələm sahibi Göyərçin Kəriminin ifadə etməyə çalışdığı təsvirlər zaman-məkan amplitudasına sığışmır.

Göründüyü kimi, onun şeirlərindəki mini-traktat təmayüllü qavrayışlar özünüaldatma cəhdinin əmələ gətirdiyi lakonik fikri-ifadələrdən uzaqdır. Müəllifin mahiyyəti ifadə edən bütün fikirləri sadə-mürəkkəb vizuallıqla çırpınan uyğun dərketmənin inikasıdır və bizə elə gəlir ki, bu ardıcıllıq qaranlıqdan başlayıb işığa doğru hərəkət edir və son etibarilə yenə də qaranlığa varid olur, lakin, əksinə, Göyərçinin ədəbi yekun həddi həmişə nikbin əhval-ruhiyyədə təzahür edir və oxucu o qənaətə gəlir ki, «... Həqiqətin varlıq adlı məkanı yoxdur; Zaman qərəzsiz hakim, təbii güzgüdür; Milyon dəniz yerləşər insan təxəyyülünə...» Həmişə xoş ovqatla oxucu qəlbini poetik sığallamağa çalışan müəllif öz dünyası ilə həm idraki, həm də intiutiv yolla əlaqə qurmağı bacarır.

Hər fikir yaradılışı etibarilə məqsəddən başlayır və hər qələm adamı bu ənənəyə xüsusi diqqət yetirməlidirsə, onda Göyərçin xanım sözügedən mövzuda çoxlarını qabaqlayıb. Onun zamana mütabiq əks olunan və daha çox gerçəkliyə söykənən fikir və ifadələrində həyat boyalı şəkildə deyil, olduğu kimi təqdim olunur, əlbəttə, anlayışlı oxucu üçün. Yaşanılmış bütöv ömrü ictimai örnək kimi göstərməyə çalışan müəllif həyatın təbəllüdatlarını özünəməxsus suallarla insanın – fərdin özünə ünvanlayır:

Üz tutub baş aşağı hara gedirsən, insan?
Ətrafına baxmağa macalın yoxmu sənin?
Yuxarı qalxmaqdansa, aşağı enmək asan,
İnsan qovan rüzgara sualın yoxmu sənin?

***

Səadət qara bənzəyir...
Üstünə şəfəq düşsə, bərq vurur,
Gün vursa, əriyir.
Yerində ağrı cücərir.
Ömrü qısa olur anlar... dəqiqələr qədər.
Elə anlar, elə dəqiqələr ki, ardınca sabahlar,
fəsillər, illər daşıya bilir kədər dolu...

***

Səmanın xətkeşi təyyarələrdir,
Eninə, boyuna ölçərlər hər gün.
Könlümdən təyyarə olmaq keçərdi,
Həyatın fövqünə yüksəlmək üçün...

Şair yuxarıdakı misralarda anlayışların mücərrəd və şəffav ümumiliyindən onların birləşdirilməsi sayəsində konkret və fərdi olanı – əyani təsəvvürü çıxarır, çünki ideya yalnız əyani olaraq dərk olunur. Onun poeziyasının çox saylı epitetləri məhz bu məqsədə – anlayışların ümumiliyini daraltmaq yolu ilə əyani olana gətirib çıxarma üslubuna xidmət göstərir. Özlüyündə dərin ovqat və məna kəsb edən bu şeir parçalarında diqqətimizi cəlb edən ikinci cəhət ictimai-ədəbi situasiyaların sürreal-mistik təzahürüdür. «Üz tutub baş aşağı hara gedirsən, insan? Ətrafına baxmağa macalın yoxmu sənin?» ədəbi-fəlsəfi sualı «Səadət qara bənzəyir... Üstünə şəfəq düşsə, bərq vurur...» kimi misralarla yekun nəticəyə gəlir. «Könlümdən təyyarə olmaq keçərdi, Həyatın fövqünə yüksəlmək üçün...» ifadəsi, sadəcə, arzu deyil, dünyanı dərk etmək yolunun vaciblik təntənəsidir ki, bəşəriyyətin xilasına yönəlib.

Göyərçinin lirik "Mən"i öz hisslərinin, duyğularının fövqündə qərar tutub, lakin xanımın bir sıra şeirlərinin süjet xəttində ictimai gerçəklik və çoxumuza məlum tarix, zaman kəsiyi, mövcudluğun təsnifatı və s. üstünlük təşkil edir. Ümumiyyətlə, müasir şeirin klassik şeirlə sintezini yaratmaq baxımından mümkün səy və qabiliyyətini əsirgəməyən şair obrazlara bədiilik səciyyəsinə görə yeni baxış gətirmişdir: onun qəhrəmanları gerçəküstü dünyanı məhz gerçək dünyadan imtina etməklə qazanır.

Müəllifin idrak proseslərinə hesablanan əksər fikrində, eynən upanişadalarda olduğu kimi, insan azadlığa – son sevincə elə bu dünyada qovuşur; sanki cənnəti öz ayağına –Yerə, fərdiliyini yox etmiş subyekti isə göylərə yüksəldir və fəlsəfi dünya görüşün əsası sayılan o düşüncə tərzinə zəmin yaratmış olur ki, insan öz «Mən»inə kənardan baxmaq imkanı qazanır. Heyrət və vahimə ilə müşaiyət olunan öz-görüş müstəvisi hamı üçün əl çatan olmasa da, bu müstəviyə doğru can atmaqda olan hər kəs qeyri-şərtsiz ideyanın idrakına keçid etmənin üsulları ilə tanış olur. Məhz bu kimi üsülların təqdim olunma prosesinə – Göyərçin Kəriminin yaradıcılıq fantaziyasının zənginliyinə heyrətlənməyə bilmirik.

«Post insan» hissi qavrayışların, ədəbi keçidlərin bol olduğu məqalələr, esselər, tərcümələr, povest və hekayələr toplusundan ibarətdir. Müəllif bu kitabda sanki düşüncənin üst qatlarına çıxır, dahiliyin sərhədlərini özünəməxsus qayda ilə təyin etməyə, obrazlar aləmini Pikasso, Kiarustami, Dostoyevski kimi korifeylərin timsalında səciyyələndirməyə çalışır. Onun süjet xətti həyat və cəmiyyət üçün real ekoloji, texnoloji və mədəni təhlükələri, miqyassız fəlakətləri görmək gücündə olan adamlarla yanaşı zamanın nəbzini tutmayan, zehni qabiliyyətinə görə heyvandan seçilməyən post insanlarla doludur; təkcə elə adı çəkilən əsərdə maddi maraqgüdmə, məsləksiz adamların virtual, yaxud qeyri-virtual zorakılıqları əxlaqi tənəzzül təhlükəsinin uyğun dərəcələrinə mütabiqdir. Kitabın məqsədi nəcib duyğuların qəhətliyi üzündən narkomanizmin, neofaşizmin, sadizmin yaranma meyllərinin çoxalmasına müvafiq şərait yaradan nəzarətsizlik intervallarının tənqididir.

«Korlar haqqında pritça», «Drama na more» povestlərində də eyni mənzərənin şahidi oluruq: "işğalçılıq, kolonializm tərəfdarlarına nə cəhənnəm, nə cənnət... yəqin ki, arzular tükənsəydi, insanilik tükənməyəcəkdi..."

Göyərçin Kərimi «Dünya iradə və təsəvvür kimi» poemasında yazır: «Nəzəriyyəsi kimi etikası da yenə, Dünyəvi şəkli idi öz şəxsi məzhəbinin, Zahirən dinə oxşar, amma ondan aralı». Şopenhauerə istinadən söylənən bu, yaxud digər fikirlərdən belə nəticə hasil olur ki, bəşəriyyətin xilası insanlara mərhəmət, faydalılıq naminə iradədən imtinanın bədbəxtlik yox, sakitlik gətirəcəyinə inam hissinin aşılanması ilə mümkündür.

Konfutsi: «Biliyə üç yol aparır: ən asanı təqlid, ən çətini təcrübə, ən şərəflisi düşüncədir», – söyləyir, Göyərçin adı çəkilən poemada: – Düşün, düşünməkdədir bu sualın cavabı, – deməklə, onun fikrini sanki bir növ təsdiqləyir. O, «Post insan» kitabında obrazın sərhəd, ölçü tanımayan sevgi hisslərini ilıq payız üşüntüsü qədər sərin fəlsəfi ruhla cilalayır.

«İdraki vəcd nədir?» o kitabdır ki, « ideyanı dərk etdiyi üçün insanı xoşbəxt edən hissin fərdilik anlarında onu bədbəxt edən hisslə eyniliyindən», «Həllac zirvəsinə yüksəlməyən, Şəhriyarın şeirlərindəki bəşəriliyi anlamayan, Şopenhauer fəlsəfəsində iradəni ideyadan, ideyanı təzahürdən fərqləndirməyən kəslər üçün ariflik məqamının dərk olunmazlığından» bəhs edir.

Vətən – Qarabağ mövzusu şairin həm şeirlərinin, həm dramaturgiyasının, həm də hekayə və povestlərinin ana xəttini, o cümlədən, «Körpəsiz beşiklər» pyesi işğal olunmuş rayonlarımızla həmsərhəd olan rayonlarımızın mövcud şərait baxımından xarakterizəsini təşkil edir.

«Qar gecəsi» kitabında da yaddaşa nüfuzetmə məqamları fərqli mündəricə ilə zahirə çıxır. Müəllif gerçəkliyə varid olmağın yolunu «sözdən pilləkən qurmaqla məqsədə qovuşmanın» fəlsəfi mahiyyətilə eyniləşdirir; «sükutunu kağıza köçürür ki, anlayan oxucu ilə paylaşsın».

«Görünür anadangəlmə sevgilərin intiharı baş verəndə sonradan qazanılanlar suda boğulan adam üçün saman çöpü rolunu oynayırmış», yaxud «təbiətə zidd çıxanların təbiət tərəfindən cəzalandırılması hüququ cəzanı həmişə kölgədə qoyur» cümlələrinin vətəni «Post insan»dır. Şairin ifadəsində anadangəlmə sevgilər ana-bacı məhəbbətini, sonradan qazanılanlar erotik sevgiləri nəzərdə tutur ki, ikincilər heç vəchlə birincilərin yerini tutmaq iddiasında olmamalıdır.

«Dənizdən insan doğur» kitabında da dinamik vəziyyət ruh ucalığına qədər genişlənir. Xoş haldır ki, bu ideoqrafik zəmin oxucunu həyati düşüncələrdən təcrid etmir, əksinə, onu hissi olaraq ikiləşmək qorxusundan azad edir. Daha dəqiqi, kitabda dünya-həyat və tale xətti sadədən mürəkkəbə keçir. Hansı ki, sadə vəziyyətdə insana inandırıcı görünməyən qavrayışlar mistik fəhmə yüksəlmədə sürreal nəticələr hesabına gerçəkləşir.

Göyərçin xanımın vizual əhatə yaratmaq gücündə olan kitablarının hamısında hissi zəminlər ekstremal vəziyyətə işarə vurur, şair öz eyhamını ictimai ovqatla tamamlayır və ikinin birə nisbətini ədəbi hədlə müəyyənləşdirir; çoxluğun azlıq üzərindəki qələbəsini ədəbi-ictimai düsturlar vasitəsilə təşviqə cəlb edir. Bu kimi ədəbi yanaşmalarda müəllif subyektiv varlığın fiziki deformasiyasını deyil, onun xüsusiyyət etibarıyla dəyişikliyə uğramasını təcəssüm etdirir.

«Yanvar qərənfil rəngdədir», «Kəhrəba idim», «Məni məhəbbət çağırır», «Dənizdən insan doğur...», «Düşüncənin torpağına yağış yağır», «Qar gecəsi...» kitablarında zamana sığmamaq, məkansızlaşmaq məfhumları kimi çərçivəsizlikdə pərvaz edən ruh sahibi – Göyərçin Şihabəddin Sührəvərdinin «həzzin qədəri kamillik dərəcəsi ilə ekvivalentdir» kəlamının üfüqlərini eninə-boyuna yaşayır. Onun əksər kitablarının xarakterik cəhəti ikiləşmənin – zəkaüstü dünyaya varid olmanın özəlliyi, insan obrazlarının tələb olunan təqdimə uyğunluğu, «əsl insanın xislətində iki əks qütb birləşmir» qənaətinin möhkəmliyidir.

Göyərçin xanıma görə, eşqdə ağrı-acıya mübtəla olmaq ona nüfuz etmək təqdisidir; şair seyr edilənə qarışıb yox olma məqamını öz-özü ilə tanış olmanın başlanğıcı kimi işarələyir. Onun «Dünya iradə və təsəvvür kimi», «İdraki vəcd nədir?» kitablarında insanı dəyişdirməyin elm yolu ilə mümkünlüyü inkar edilir, amma dünyanın dəyişdirilməsi insanın dəyişməsilə eyni səsləndirilir ki, bu cəhd oxucunun seyretməyə diqqətini artırır:

Iradə dəyişilmir, idrakın əməllərə
Təsiri sayəsində insan inkişaf edir.
Həyatın hər yaş dövrü fərqlidir buna görə,
Yaxşı, ya pis təzahür dəyişən fikirdədir.

Yaxud: «Yerdə əldə olunan bütün yüksəkliklər idraki kəşflərdir».

Göyərçin xanımın tələbəlik illərində dövrü mətbuatda işıq üzü görmüş «Gözlə məni», «Yurdumun səsiyəm», «Şeirin inteqralı», «Ana» şeirləri də «Qar gecəsi» adlı kitabının poeziya bölməsinə əlavə olunub. Şeirin inteqralından bəhs edən müəllif, əslində, inteqralın şeiriyyətini tərənnüm edir; riyaziyyatın poeziyanın taleyindəki rolunu işıqlandırmağa çalışır.

«Qar gecəsi»ndə olduğu kimi «Məni məhəbbət çağırır» kitabında da müəllif fərqli bir qənaət nümayiş etdirərək, insanın öz «mən»i ilə ikili həyatının təkcə daxili gözəllik hesabına deyil, həm də qarşılıqlı anlaşma, ruhi kamillik və təmiz əxlaqi keyfiyyətlərlə tamamlandığını vurğulayır. Bu kitablarda həm də təzad dolu bir yaşantı var; məhz bunun üçün onun adi fikirləri belə tam bəsirət və arxayınlıqla oxucu yaddaşında təcəlla edir və adı çəkilən kitablarda dua kimi səslənən bu sayaq fikirlər cəmiyyət üçün aktuallıq təşkil edən bütün məsələlərdə öz spesifik cəhətlərilə nümayiş olunur. Buna görə də, xanım şairin əksər şeirlərində hiss və düşüncənin "həcm" payı əllinin əlliyə nisbəti kimidir.

Hər tərəf yanırdı,
Kainat yanırdı...
... Məgər od içindən
dünyanı başqa rəngdə görmək olar?

***

Gölməçələr adamlar kimi bəzəyir
Yağışlı payız küçəsini...
Sükutda boğulur qədim şəhər...

***

Qara dəniz!
Çınqıllarla öpüşməkdən
dodaqları yara dəniz.
Xəyalın göyə çəkilib,
Yuxuların dara, dəniz...

Yuxarıdakı nümunələrin ən diqqətçəkən məqamı təsəvvürün vizuallıqdan çıxması, adi idrakdan ideyanın idrakına keçid mərhələsinin baş verməsidir. Misralara nəzər saldıqca göz önündə canlı həyat tablolarının nümayiş olunması insanı düşünməyə vadar etməklə, zaman-məkan ölçüsündən uzaqlaşdırır.

Həyata ülvilik bəxş edən eşqin meyar olaraq bütün dövrlərdə geniş təsbitə uğradığının fərqindəyik və bəzi fəlsəfi cərəyanlar ona ikinci dərəcəli faktor kimi nəzər yetiriblər, lakin həyat ideologiyasını vahid çevrədə sistemləşdirən və tədqiq edən şairlər, eləcə də, Göyərçin məhəbbəti varolmanın nüvəsi hesab edir, yəni iradəsilə ziddiyyət təşkil edən bəzi məqamlar düşüncəsiz itaət təsiri bağışlamır, əksinə, sərt münasibətlərə həlimlik gətirmək üçündür.

Sözsüz, Göyərçin Kərimi nisbilik prinsipinə uyğunlaşdığı üçün özünə qayıtmağı da bacarır və biz onun «Dünya iradə və təsəvvür kimi», «İdraki vəcd nədir?» kitablarında «insan ideyasının oxunduğu» sahilləri dəqiq müşahidə edə bilirik.

Hadisələrə dini-mifoloji aspektdən yanaşanda bizə belə gəlir ki, həyat işığı yananda dövrəsində tale pərvanələri bərq vurmalıdır. İnsanın fitrətində təbii döyüntü yaradan çılğınlıq həyat işığı qədər parıltılı olanda, beynin şüura keçən hüdudlarında da qəribə çırpıntılar yaşanır. Bəzən duyğusal kövrəklik özünü bu ana təslim edir, yəni səcdədə olur. Hissi-xarizmatik yaradıcılığı ilə seçilən Göyərçin xanıma münasiətimiz hörmət və ehtiram çərçivəsi daxilində elə «səcdə» kimi təqdim olunmalıdır. Çünki o, uzun zamandır ədəbiyyat üfüqlərindədir, ancaq özünə çəkilib, ətrafı müqəddəslik hasarı ilə dövrələnib və bu əhatədə boyasız, ütüsüz, lakin ağır yerişli bir QADIN obrazını canlandırmaqdadır.

Göyərçin xanımın yaradıcılığı təkcə poetik məzmun və bədii hissdən ibarət deyil, xüsusən də, poeziyasında bədii dil məsələsi ədəbi baxış və ümumictimai yanaşma tərzləri ilə tam səsləşir. Konkret olaraq o, ədəbi-ictimai müstəviyə təkcə sənətkarlığını və bunun digər mühüm proseslərini çıxarmır, zaman əhatəsində, zamandan kənar sənət manevrlərilə həm də onu zənginləşdirir. Əbəs yerə deyil ki, müəllifin qələm məhsulları müasir filoloji düşüncə və ictimai-fəlsəfi zəminlərə görə zaman intervalını aşmağı bacarır.

İçimdəki boşluğa yıxılmaqdan qorxuram,
Önümdə ilğım kimi titrəyir əndişəsi...

***

Mən keçmişə baxıram,
Fəqət sevginin yolu işıqlı sabahadır.
Qadınlar bayramına açılan bu yaz günü
Xəlvəti otağıma çəkilib darıxıram...

Sənətkar ruhunun vasitəçiliyi sayəsində təzahür edən bu misralar həzin duyğuların kövrək melodiyasıdır. Məsələn, «daxili dünyanın boşluğuna yıxılmaq» – düşüncə selində çabalamaq bir cür dərddirsə, «... qadınlar günündə xəlvəti otağa çəkilib darıxmaq», yaxud «bir yeni səhər üçün bir gecənin

geri dönməsi», «bir kəlmə sözün, bir jetonun bahalığı ilə tutuşdurulması» ayrı cür dərddir. Oxuduğumuz kitablarından, ruhumuzu rənglər çalarıyla bəzəyən munis şeirlərindən aydın görünür ki, şairin bütün obrazları birsifətlidir, çünki özü də «gözə girmək», «mən də varam» xislətindən uzaqdır. Sanki hərdən unudulmaq qorxusu da yaşayır, lakin bütün diqqətini fəlsəfi-yaradıcı zəminlərə kökləyir: bəlkə də həyatdan küsgündür, ancaq ifrata varmır. «Bir kəlmə söz»dənsə, bir Şəxsiyyət adını üstün tutur; daxili dünyası, əməli işi və zahiri fəaliyyətilə bu statusa sahib çıxmağı bacarır. O, yaxşı bilir ki, yaradıcı adam üçün ideyanın ötürülməsi uçurumdan adlamaq qədər məsuliyyətlidir və onu da bilir ki, məqsəd pillə qalxmaq yox, hər keçiddə ortaya məhsul qoymaq məsələsidir. Şeirlərindəki doğmalıq, səmimiyyət, həyata bağlılıq əzmi, yurda məhəbbət tendensiyası «fəlsəfi mənada dünya ilə eyni olmaq» gücündən qaynaqlanır və o, qələmə aldığı hadisəni konkret süjet əsasında cəmləşdirə bilir ki, şair üçün, düşünürəm, bundan vacib heç nə yoxdur.

Əslində, Göyərçin xanımın poeziyası irad, giley, narahatçılıq dolu ifadələrdən xali deyil, lakin həssaslığın təntənəsinə təslim olmamaq üçün nəcib mübarizəni ilhamlandırmaq naminə o, könül aynasını oxucu sevgisinə tərəf rahat şəkildə çevirə bilir...

Bu gün ölkəmizdə qadına böyük yer və dəyər verilməsi müəllifin məmnunluq hissini, dövlətçilik məsuliyyətini bir qədər də artırıb; onun cəmiyyətlə şifahi-yazılı təması oxucuya dövlətə sədaqət hissləri aşılayır və cəmiyyətdə əhəmiyyətli rolu olan bir qadın kimi o, zaman-zaman öz mövqeyini dəyişməyib.

Maraqlıdır ki, Göyərçin Kəriminin şeirlərində zaman gerçəkliyi fiziki dəyişilmə kimi təqdim olunur, lakin zamanın mahiyyət dəyişikliyini onun intuitiv qavrayışlarını vahid anlayışda birləşdirən fəlsəfi zamansızlıq anları təşkil edir. Müəllifin nəcib və mehriban hisslər bağışlayan nikbin poeziyası, əslində, izahedici heroqlif təbiəti, bəşəri fikirlərilə şərtlənir.

Ağ dünyanın qaralma ehtimalının çoxluğu üzündən şair, həyatı qaralığa doğru çəkən meyllərə həmişə ağ tərəfdən boylanır.

Seyretmə sadə ehtimalla nəyəsə baxmaq anlamı kəsb edir, lakin nüfuzetmə varlığın iç dünyasına varid olmanın təminatıdır və biri digərinin davamı olan bu iki proses hadisələrə fəlsəfi baxış nöqteyi-nəzərindən birləşir. Seyretmə nüfuzetmə mərhələsinə qovuşmağı məqsəd kimi nəzərdə tuta da bilər, tutmaya da və bu mənada səmimi deyək ki, Göyərçin Kərimi hər iki vəziyyətin ayrı-ayrılıqda əhəmiyyətlilik dərəcəsinə, birincidən başlayıb ikincidə qurtaran yolçuluğun nəhayətsizlik həddinə, yaxud «təzahürlər dünyasına göz yummadan görünməyən» dünyanın sərhədlərinə yaxşı bələddir. Məsələn:

Şüur bilə bilər həmişə, sözsüz,
Dərrakəyə ancaq seyr etmək qalır.
Idrak təbiətdə qoymasa da iz,
Özü təbiətdən gücünü alır.

Ruhsallıq insani hisslərin idrakla birləşdiyi sahələrdir. Yaradanın böyük ilham və müqəddəs ruh bağışladığı Göyərçinin könül dünyasında da təcəlla edən məhz bu kimi cizgilərdir... Poeziya gerçəkləri səmimiyyət aynasında dolğunluqla əks olunan bu istiqanlı, vətənsevər şairin sədəf damcılarını xatırladan ürək çırpıntılarının əhatə dairəsi çox genişdir. Onun Bakı, 2017, «Elm və Təhsil» nəşriyyatında işıq üzü görmüş «Kəhrəba idim» kitabında «özü ilə zaman yağışı arasında rəngli çətirlər dayanan», başqa sözlə, «... zaman var, zaman yoxdur... » anlayışlarının poetik təsvirini görürük. Açığı, yaddaşında illərin ağrı-acısını daşıyan Göyərçin xanımın, hörmət mücəssəməsi kimi böyük rəğbət mərtəbəsinə qalxmış filiosof-şair Göyərçin Kəriminin bu kitabını köksünə sıxıb, sadəcə, düşünmək istəyirsən: müasirlərin bəyənməsi hesabına əldə olunan fəlsəfi dəyərləndirmə gələcək nəsil tərəfindən bəyənilmənin təminatıdır. Bu baxımdan «Məslək kimi sarıldığım yaşıl-yaşıl xülyaların əflatun bir axşamında qanamışdı ürəyim» misralarındakı şeiriyyət, bədii təsvir metomorfoz hadisəsinin giriş notlarını ifadə edir...

Kitabdan bəzi nümunələrə diqqət yetirək:

Məslək kimi sarıldığım yaşıl-yaşıl xülyaların
əflatun bir axşamında qanamışdı ürəyim.
Sovrulmuşluğun keçmişindəki may böcəklərinin
vida öpüşündə donub qalmışdım...
...Dərinliklərin qətran havasında dəryaların

qulaqbatıran uğultusunu dinləyərkən,
günahkar adamlarıyla rahatlığımı pozmuşdu həyat...

***

... Zaman sayır yerində, hikmətin göylərinə
açdığım əl uzanır,
Zaman var, zaman yoxdur... nə fərqi?
Yol uzanır...

***

Mərmi yarasından ölmürlər, dostum,
dünyanı dəyişirlər, adamlar
yeriyə-yeriyə, gülə-gülə,
sevə-sevə ölürlər...

Bu parçalarda şair nəzmə çəkmək istədiyi lirik obrazları rəmzlərlə ifadə etməyə çalışır. Məsələn, o, cismani ölümlə ölümsüzlüyün, mənəvi ölümlə həyatın qarşılıqlı təzadını yaratmaqla bərabər, «yeriyə-yeriyə, gülə-gülə, sevə-sevə ölürlər... » sözlər ardıcıllığını bədii zəmində hər iki mənada işıqlandırır və biz bu fikri poetik dərkdən üst mərtəbəyə qalxmaqla təhlilə çəksək, sürreal çək-çevirin hansı real sistemlərdən qaynaq götürdüyünün fərqində olarıq. Digər tərəfdən müəllifin tərənnüm etdiyi sanki dastanlaşmış - tarixləşmiş, yaxşı mənada heykələ dönmüş, əbədiyyət əfsanəsinə çevrilmiş obrazlardır... «Kəhrəba idim» kitabındakı metafizik şeirlərin əksəriyyətində qabardılan təsvir insan problemi, «ədalətin pozulmayan ikiüzlü sükutu», «gözlərdən yuxuların oğurlandığı gecələr», «könül işıqlatmağa Ayın qəlbinin dayazlığı», «bataqlıqda yaşayan adamın boğulmaq hissinə etirazı», «yuvasından çıxmaq istəyən tumurcuğun baharı içmək» nəşəsidir.
Bu şeirlərin səciyyəvi xücusiyyəti ondan ibarətdir ki, ötürülən ideyanı gözlə görünən cizgilərlə çözmək olmur, onun materiya formasını ancaq düşüncənin köməyi ilə təsəvvürə gətirmək mümkündür. «Fikrində Cıdır düzü, Torpaq meydan alınar...», «Dəniz əbədi olmur, əbədi nəğməsi var...», «Bayram edəcək deyə ayrılıqlar nəqqaşı gecə-gündüz vaxt yonur...» poetik-ictimai misralarda bir-birindən fərqli əhatədə, amma eyni mənşəli fikirlər cərəyan etməkdədir. «...Dərinliklərin qətran havasında dəryaların qulaqbatıran uğultusunu dinləyərkən, günahkar adamlarıyla rahatlığımı pozmuşdu həyat...» şeir parçasındakı bəşəriyyət ideyasının açılması mənalı stiuasiyaların hesabına əldə olunmuşdur. Bu kimi poeziya incilərinə ədəbi-ictimai ampluadan yanaşanda, hiss edirik ki, sanki zamanın üst qatında ondan asılı olmayan hansısa sehirli kölgələr çırpınır; lakin tam yəqinliklə onların şairəmi, müəllifin vəcd məqamınamı, giley-güzarın əhatə dairəsinəmi aid olduğunu ayırd edə bilmirik, lakin özümüzü həmin əhatədə görür, təlatümlərdən vəcdə gəlirik:

Amma mən kölgənin qəlbindən vədəsi tamamlanmış
tumurcuq kimi çıxmışam
Və görəndə ki, üstümə bahar damıb,
Dodaqlarımı həyatın dodaqlarına sıxmışam,
Qadın təbiətli olduğu üçün oda gözlərini yumub.

Şərhə ehtiyac yoxdur, taledən şikayətin bədii metafizikası... poetik ədalətin şeiriyyət stixiyası...
«Kəhrəba idim» kitabının ən başlıca səciyyəsi insan-dünya qarşılığının dərk olunmasıdır. Kitabın adı ilə eyni adı paylaşan şeirdə kəhrəbanın yaranma prosesinə toxunulur və bu proses fərdiliyini yox edən insanın uyğun əməlilə tutuşdurulur:

...İki əlim min-min əsrlik okeanların üzümə tutduğu
mavi yalnızlığın yaxasında,
Gözə görünməzliyin sehirli çuxasında
var oluşunu gizlətmişdi başlanğıcım...
...Vətən-vətən köç edirkən
gözlərimdə sünbül yetişirdi boyat...

və mən unudulmuşluğun qızılı yataqlarında
artıq kiçicik bir kəhrəba idim...

Adı çəkilən şeirin sonuncu misrasında şair deyir: «Dodaqlarını aldığım son nəfəsin hüzzam buludlarına dayayıb çiçəklərim quruyurdu... » İndiyə qədər, bəlkə də, heç yerdə oxşarı, analoqu olmayan bu təsvirin xammalını iradənin uyğun pilləsində dərk olunmuş ideya təşkil edir ki,
«... mahiyyətini maddiləşdirməkdən çəkinən sevgilər könüldə qətrana yapışmış çiçək... kəpənək misalı uyuyur; çöhrəyə sarılıq versə də, kəhrəba şəffavlığını itirmir».

Şair-dramaturq Göyərçin Kəriminin «Körpəsiz beşiklər» başlıqlı beş pərdəli pyesinin mövzusu Qarabağ savaşından – işğal altında olan torpaqlarımız və bu torpaqlarla həmsərhəd rayonlarımızın düşdüyü ağır vəziyyətdən götürülüb. «Körpəsiz beşiklər» pyesinin süjet xəttini izləməklə bizə aydın olur ki, işğalçı qüvvələr və onların havadarları istisna olmaqla, əsərdə mənfi obraz yoxdur.

Volterin «Məhəmməd» əsərində ölüm ayağında olan Palmira son sözlərində Məhəmmədə belə xitab edir: «Dünya tiranlar üçün yaradılmışdır: yaşa!» «Bu yalanlar» şeirində «Məkrli dövlətlərin istismar arzusuyuq», «Uşaq ölümləri»ndə «Sevinclərini mərmi atəşləri, bayram fişənglərinin səsini güc dövlətləri batırıb» deyə səslənən Göyərçinin də hədəfi tiranlardır:

Mənə söz azadlığı, sülhdən söhbət açmayın!!!
Qəyyum nəyimə gərək öz Ana vətənimdə?!
Sizi tanımam üçün kömək bəhanəsilə
Sərvətini talayıb ac-susuz qoyduğunuz
basılmış ölkələrdə
uşaq ölümlərinin sayını deyin, yetər...

Ümumiyyətlə, «Kəhrəba idim» kitabının müəllifi bütün ədəbi keçidlərində həyat eşqini idrakın işığında çoxalan şiddətlə hiss etdirməkdədir və oxucu ruhunu çox uzaq səmtlərə – idrakın üst qatlarında zahir olan əlamətlərə, vəcd anında yaşanan səssiz hayqırtıya, hənirtisi günəşin istisi qədər yandıran munis dərinliklərə istiqamətləndirir.

Göyərçinin şeir əhatəsi Yerin alt və üst qatı, Göyün ənginliyi kimi genişdir; o, insanı neqativləşdirən bütün proses və hadisələrə qarşı üsyankar mövqedədir: nakomaniyanın, homoseksualizmin, meypərəstliyin cəmiyyətə vurduğu zərəri «İnsandan böyük ideya varmı? Bütün ideyalar varlığın problemini həll etməyi nəzərdə tutursa, bəs varlığın məhvindən keçən yol hara aparır?» – deyə ön plana çəkir.

...Günəşin arxasınca boylanıb deyinirdi:
– Mən sevdalı bir qızam,
Üzünü görməyəcək qədər güclü,
Yolunu gözləyəcək qədər acizəm.

***

Batumidə yay yağışı yağardı,
İslanardım dizəcən,
Amma üşüməzdim heç...

***

... “Gülü sulu dərməzlər”,
Nə qədər biz vətəni, vətən bizi sevməsə,
Haqqımızı verməzlər, verməzlər,
Sarı gəlin...

Nəzərdən keçirilən sonuncu bənddə xalq-hökümət, hökümət-xalq vəhdətinin vacibliyindən söz açan şair demək istəyir ki, dövlət-xalq biriliyi iflasa uğrayarsa, haqqımızı itirərik... Bax, bu tərz, yaxud buna bənzər şeirlərində Göyərçin xanımın ötkəm ruhu, işığına möhtac olduğu idrak günəşi daha aydın şəkildə özünü büruzə verir. O, öz obrazları ilə sanki dialoq qurur: “«Niyə islandığın halda üşümək

yadına düşmür?», yaxud «hansı səbəbdən iki söz yandırıb şeir çəkəndə, qaranlıq işığın, gecə də gündüzün qəsdinə düşür» və ya «nəyə görə sən dodağında çiçək ətri, qulağında gülüş səsi, gözlərində sevgi şəkli gətirdiyin halda, qapını açmırlar?» Müəllif məhz bu kimi sualların cavabını oxucu təxəyyülünün ixtiyarına buraxır.

«Post insan» povestindən epiloqu xatırladan bəzi cümlələrə diqqət yetirək: «Sevilmək nədir, bilirsiniz? Rahatlığını itirməkdir. Çəkdiyin hər nəfəsi əzabla ötürməkdir. Azadlığını məşhər ayağına gətirmək, arzularını məzarlığa götürməkdir... Vay o gündən ki, kəlbətinləşmiş əlləri şair barmağı idarə edə...» Bu sətirlərdə izahı tələb olunan mətləb, əlbəttə ki, əsl sevgi yox, post insanlaşmış adamların yeni məhəbbət «konsepsiya»larıdır ki, heç hansı sevgi meyarına uyğun gəlmir və müəllif bu kimi fikirlərin səsləndirilməsinə rəğmən, sanki özünə bəraət qazandırmaq üçün obrazın dililə deyir: «İnanın, sadaladıqlarımla sevgi hissi arasında hər hansı əlaqənin mövcudluğuna inanacaq qədər duyğusuz deyiləm, amma məni başa salmağa çalışdılar ki, əsl məhəbbət... »

Göyərçin insan əməlləri nümunəsində o fikri inkişaf etdirir ki, bütün əsərin məzmununu həmin fikir təşkil edir və belə qənaət hasil olur ki, müəllifə görə ən yüksək rütbə insanilikdir. «Post insan» kitabında özünə sıra qazanan «Pikasso və mən» adlı məqalədə o, yazır: «Tamaşaçının ruhu rəssamın ruhu ilə o vaxt görüşür ki, dərkolunmuşun təkrar dərki [*iterum discernentes, G.K]* baş verir», yəni istənilən tamaşaçı, yaxud oxucu, bu çox istisnayi hal olsa da, əsərin ideyasını tam qavrayanda yaradıcılıq səviyyəsinə yüksəlir.

Vətənpərvər şair «Əşrəfin qızı, xınalı quzu» povestində işğal altda olan bütün şəhərlərimizin timsalında «üzünü qarşı tərəfdə sıralanan dağlara tutub» sanki ağlayır: «... Şuşa! Müqəddəs torpağına ayaq basmaq mümkün olsaydı, canım bu qədər ağrımazdı, amma yox, can rahatlığını hər yerdə tapmaq olar, vətəni vətəndən başqa heç yerdə...»

Onun əksər bədii surətləri nə zamansa günün günorta çağında əllərinə çıraq alıb adam axtaran işıqlı obrazlar, kitabları isə «şərtsiz borc» barədə mülahizələrdən, mütləq zərurətlər haqqında nəsihətnamələrdən uzaq olan, amma eyni vaxtda da öz vəzifəsini yerinə yetirməyə qabil nəcib insanlardır, yəni insan bütün hallarda etalondur. Göyərçin öz məsləkini kölgə aid olduğu cismi izlədiyi kimi müşaiyət edir.

Müəllifin «İlahi ədalət» hekayəsini oxuyarkən mütəəssir olmaya bilmirik: sözün qurtardığı məqamda anidən yaşıl işıq, əlçatmaz xəyalların gerçəkləşməsi, günahsızlığın «yuyulması», heç bir vasitə ilə əngəllənmyən ilahi ədalətin qələbəsi!

«Dünya iradə və təsəvvür kimi» kitabında şair yazır: «Dinməzlik rəmzi kimi qızılgül əkib anam, İstəyir uşaq kimi hər sözünə inanam». Hannibal Karraççi də nəşələrin saman kimi tezliklə solub-saralacağının rəmzi ifadəsi kimi şəhvətə sarı paltar geyindirmişdi.

Göyərçin məğrur təbiətilə xanımlığını bir araya necə gətirir, bizə məlum deyil, lakin yaradıcılığının qızaran üfüqləri iradəni yalnız vasitəli, yəni dolayı – ideyalar vasitəsilə obyektləşdirərək öz günəşini doğur. Məsələn, «Kapitolidə onlara mükafat verilir» adlı məqaləsində «İnsanın müqəddəs ölmək hüququ var, amma müqəddəs öldürmək hüququ heç kimə verilməyib», yaxud dahi rejissor, sissenarist... Abbas Kiarustamidən bəhs edən «Yollar müəllifi» adlı məqaləsində «Unutmaq lazım deyil ki, yol ən etibarsız yoldaşdır» – deyə səslənən publisistin elə adı çəkilən məqalədə özünün də qeyd etdiyi kimi «yolçuluğu beynəlmiləl, hissləri bəşəridir».

«Düşüncənin torpağına yağış yağır» kitabında «Dodaqlar közərib sevirəm dedi, Ay Allah bu zülmün sonu nə gərək?» – deyə mərhəmətlə əzabın eyniləşdiyi zirvədə qərar tutan müəllif sualına «Post insan» adını daşıyan toplumun «Yadplanetlilər» essesində cavab tapır: "... – Bilməyinə bilirəm, – qadın söylədi: «Amma çox üşüyürəm, o üzdən soruşdum»". Onun «Korlar haqqında pritça» əsərində «İki buludun qarşı-qarşıya gəlməsindən sonra şimşək çaxmaq əvəzinə araya sükut çökür»", «İşığa qərq olmuş qaranlıq şəhər»ində «Nisbi olduğuna görə, həmişə, hamının xeyrinə müfəssəl qanun yaratmaq mümkün olmur», «Drama na more» povestində «... zaman öz balalarını yeyənə qədər onlara keçib gəldikləri yolu xatırlamaq və necə köhnəldiklərini seyr etmək imkanı verir».

Göyərçin Kərimi «Pikasso və mən» başlıqlı məqaləsində rəssamın «Rəqs» əsərini təhlil edərək yazır: "... Bu bir həyat oyunu, ölüm rəqsidir... Qəribədir, dahi Azərbaycan şairi M. Füzulinin «Leyli və Məcnun» əsərində bədbəxtliyə səbəb köləlikdirsə, «Rəqs»də azadlıqdır" və onu da qeyd etməyi özünə borc bilir ki, bəşəriyyət azadlıq yolunu seçməli olsa da, dərk olunmamış azadlıq köləlikdən daha çox fəsadlara yol açır.

Nəzərdən qaçırmaq olmaz ki, publisist şairin bütün kitablarında hökm sürən üstünlüklərdən biri də janr müxtəlifliyidir: Janrı fərqli müstəvidə ictimai çalara bükmək, eyni hadisənin müxtəlif zaman kəsiyindən asılılıq mexanizmini yaratmaq, ədəbi meyllərə fəlsəfi ovqat bəxş edən mənəvi kriteriyaları cəmiyyət reallığı ilə tutuşdurmaq və s. Zənnimizcə, onun bu proseslərə dürüst yanaşmaq tərzi janra hərtərəfli bələdçiliyi hesabına gerçəkləşir.

Göyərçin Kəriminin «Post insan» əsərində böyük bədbəxtliyin təsviri faciə üçün mühüm olan o kateqoriyaya aiddir ki, bədbəxtliyin yaranma səbəbi kimi xüsusiyyət, mümkün olan son həddə qədər qeyri-adi şəkildə gəlib yetişən yamanlıq, pislik nümayiş etdirilir. Faciənin məhz bu növündə amansız tale və dəhşətli kin bizə qorxunc, uzaqdan hədələyən təsiri bağışlasa da, bu qüvvələri onlara tərəf üz çevirmədən də sovuşdurmaq mümkündür.

«Oksigen sevgilər hər iki tərəfi razı salır, karbondan asılılar, yəni inkar olunmuşlar, təsir-əks təsir tarazlığı yaradıb, ruhi xəstələr istisnadır, tədricən ağrısız yoxa çıxırlar. Təəssüf ki, əsl sevgilər qara rəngin işığı udması kimidir: zahirən əks olunmurlar». Bu sətirlər Göyərçinin «Post insan» kitabındandır. «Kəhrəba» idim essesində məhəbbətin növlərindən söz açan müəllif onu oksigen, karbon və əsl sevgi kimi üç kateqoriyaya ayıraraq, özünəməxsus şəkildə təhlil edir.

Publisist-yazıçının fikrinə görə, «insanın dərketmə qabiliyyəti məhdudlaşmır, onun yolunu kəsən təbiətin tam şüursuz olaraq sirrini gizlətməsidir».

«... Varlığını hiss edib varlığımı xatırladığım üçün bir baxışa dərinliyi ölçüyə gəlməyən boşluq...» qazanır, «... sərin külək dumanlaşmış beynini çöküntülərdən təmizləyib, toranlaşmış gözünə işıq çiləyir və özünü rahat hiss etdiyindən kənarı çiçəkli yol ilə məqsədinə doğru irəliləyir...» Göyərçin...

Onun bir çox əsərlərində obrazların taleyi oxşardır; Əsmərin də, Zümrüdün də, Gültacın da təmsil olunduqları cəmiyyət eyni, xarakterik cəhətləri də eynidir.

Göyərçin xanım oxucuya vətəndaşlıq amalı təlqin etməklə, onun öz mənəvi əhatəsində cəmləşməsinə yardımçı olur və şairin bütün kitablarında söylənən fikirlər coğrafiya, tarix və etimologiya baxımından öz dünyasını əks etdirməklə yanaşı transendent qavrayışın əsas leytmotivini təşkil edən incəliklərlə doludur.

Mənsur Həllacdan fərqli olaraq, Göyərçin Kərimi üçün «... rədd edilmiş iradəsilə tərk etdiyi dünyaya qayıtmaq çətin» olmadı, yəni «... heçliyindəki varlığı ilə varlığındakı heçliyini doldura» bildi. Elə bu səbəbdən də Alp dağlarına qalxan səyahətçilərin fikir bildirmələri üçün nəzərdə tutulmuş kitabda Artur Şopenhauerin saxlanılan əl yazısının mətnini «Dünya iradə və təsəvvür kimi» poemanın müəllifinə tuşlamaq məqsədilə bir daha xatırlamaq istəyirik: – Kim qalxar və susar?!

MÜNDƏRİCAT

DİLÇİLİK

NADİR MƏMMƏDLİ
AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN DİL SİYASƏTİ VƏ PARLAMENTİN NİTQ MƏDƏNİYYƏTİ 3
QULU MƏHƏRRƏMLI
RADİO DİLİNİN ÖZƏLLİKLƏRİ VƏ ARAŞDIRILMASININ BƏZİ PROBLEMLƏRİ 13
SVETLANA MƏMMƏDOVA
İNGİLİS DİLİNİN İNKİŞAF TARİXİ 21
GÜNAY RƏFİBƏYLİ
COLORED IDIOMS OF THE ENGLISH LANGUAGE 28
НАРГИЗ СЕИДОВА
ЭКСПРЕССИВНЫЕ РЕЧЕВЫЕ АКТЫ И ГЛАВНЫЕ МИРОВЫЕ ДОСТИЖЕНИЯ В ОБЛАСТИ ИХ ИССЛЕДОВАНИЯ 38
ZƏRİFƏ AVİLOVA,
ZƏRİFƏ MƏMMƏDOVA
TERMİN ANLAYIŞI VƏ AZƏRBAYCAN DİLÇİLİYİNDƏ TERMİNLƏRİN YARANMA YOLLARI 44
MƏFKURƏ HÜSEYNOVA
ZƏNGİLAN - QUBADLI ŞİVƏLƏRİNİN LEKSİK XÜSUSİYYƏTLƏRİ 51
BİLAL HÜSEYNOV
LƏTİFƏNİN JANRDAXİLİ DƏYİŞMƏLƏRİ.....58
SAHİLƏ MUSTAFAYEVA
DİSKURSUN FORMALAŞMASINDA RİTMİK STRUKTUR 71
VƏFA MƏHƏRRƏMOVA
THE INFLUENCE OF ENGLISH MULTICULTURALISM TERMS TO THE DEVELOPMENT OF BRITAIN LEXICAL STOCK 78
KÖNÜL ABDULRƏHIMOVA
INGILIS ATALAR SÖZLƏRINDƏ “TO MAKE” FEILI ILƏ DÜZƏLƏN LEKSIK BIRLƏŞMƏLƏR.....83
SEVDA NOVRUZƏLIYEVA
NÜŞABƏ ƏLIYEVA
NİTQ MƏDƏNİYYƏTİNDƏ MEDİANIN ROLU 88
RAMİLƏ NƏSİROVA
MÜXTƏLİFSİSTEMLİ DİLLƏRDƏ SUFFİKSASİYA, PREFİKSASİYA VƏ İNTERFİKSASİYA MƏSƏLƏS İ96
LALƏ MUSAYEVA
İBTİDAİ SİNİFLƏRİN AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ ELMİ-KÜTLƏVİ MƏTNLƏRİN OXUSU ZAMANI İNTERAKTİV METODLARDAN İSTİFADƏ YOLLARI 105
YEGANƏ ƏLƏSGƏROVA
TİPOLOJİ DİLÇİLİYİN ƏSAS İNKİŞAF İSTİQAMƏTLƏRİ..... 111
NAİLƏ QULİYEVA
İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ SOMATİK FRAZEOLOGİZMLƏRİN STRUCTUR- QRAMMATİK XÜSUSİYYƏTLƏRİ ..117

SUGURA MAHARRAMOVA
THE ROLE OF CONTEXT IN TRANSLATION 122
ŞƏLALƏ MAHMUDOVA
ZAHİD XƏLİLİN UŞAQ ŞEİRLƏRİNİN MÖVZUSU, DİLİ VƏ ÜSLUBU 128
RƏFİQ CƏFƏROV
GÜLNARƏ İSMAYILOVA
ÜMUMDİLÇİLİK SİSTEMİNDƏ MÜBTƏDASIZ CÜMLƏLƏR VƏ KƏMİYYƏT-ŞƏXS KATEQORİYASININ BƏZİ MÜHÜM MƏSƏLƏLƏRİNƏ DAİR 134
RANA SHAMİYEVA
INNOVATIVE METHODS OF TEACHING FOREIGN LANGUAGE IN A NON-LINGUISTIC UNIVERSITY 139
GULNARA RAHIMOVA
INCREASING MOTIVATION TO LEARN FOREIGN LANGUAGES IN A NON-LINGUISTIC UNIVERSITY 144
GÜNEL QARAYEVA
MÜASİR İNGİLİS DİLİNDƏ YİYƏLİK ƏVƏZLİKLƏRİNİN FUNKSİONAL İMKANLARI 149
AFTAB HACIZADƏ
LEKSİK ALINMALARIN UYĞUNLAŞMASI 154
ZAHİDƏ İSMAYILOVA
FARS DİLİNİN LÜĞƏT TƏRKİBİNİN ZƏNGİNLƏŞMƏSİNDƏ TÜRK MƏNŞƏLİ SÖZLƏRİNİN ROLU 160
ŞƏFƏQ RZAYEVA
AYTƏN HÜSEYNOVA
"HOUSE VƏ HOME" SÖZLƏRİNİN ATALAR SÖZÜ VƏ İDİOMLARDA İŞLƏNMƏSİ 164
NAIRƏ MƏMMƏDOVA
GÜLNAR NAĞIYEVA
“GET” FELININ IFADƏLƏRDƏ VERDIYI MƏNALAR 169
PƏRVANƏ QƏDİRLİ
İNGİLİS DİLİNDƏ FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN STRUKTUR-TEMATİK TƏSNİFATI VƏ ONLARIN AZƏRBAYCAN DİLİNDƏ QARŞILIĞI.....174
SEVİL TAĞIZADƏ
TƏRCÜMƏ NƏZƏRİYYƏSİ VƏ TƏCRÜBƏSİ TARİXİNİN TƏDQİQATI , ONUN AZƏRBAYCAN-İNGİLİS DİLLƏRİNDƏ SINAQDAN ÇIXARILMASI VƏ PRAKTİK ƏHƏMİYYƏTİ.....179
NAİLƏ QƏDİMOVA
İNGİLİS DİLİNİN TƏDRİSİ PROSESİNDƏ MÜASİR METOD VƏ ÜSULLARDAN İSTİFADƏ EDİLMƏSİ MƏSƏLƏLƏRİ 184
SOLTANXANIM MUSAYEVA
İNGİLİS DİLİ VƏ BAŞQA RUS VƏ AVROPA MƏNŞƏLİ ALINMA SÖZLƏR HESABINA AZƏRBAYCAN DİLİNDƏ MORFOLOJİ-SİNTAKTİK ÜSULLA HƏRBİ TERMİN YARADICILIĞI 189
BƏNÖVŞƏ ƏSGƏROVA
MÜASİR İNGİLİS DİLINDƏ FEİLİN NÖV KATEQORİYASI 194
NİGAR BAYRAMOVA
HÜQUQŞÜNASLIQ ELMLƏRİ SAHƏSİNDƏ TƏRCÜMƏ PEŞƏSİNİN DÜZGÜN,DƏQİQ YERİNƏ YETİRİLMƏSİ İŞİN ƏSAS AMİLİ KİMİ 200
GÜLNAR ALLAHVERDİYEVA
INNOVATIVE METHODS OF TEACHING AND LEARNING 205

ƏFSANƏ YUSİFQIZI
BÖYÜK BRİTANİYANIN TOPONİMLƏRİNİN YARANMASI
XÜSUSİYYƏTLƏR İ210
SOLMAZ ƏLİZADƏ
DİLDƏ DİFTONQ PROBLEMİ 215
GÜNAY MƏHƏRRƏMOVA
AMERİKA İNGİLİSCƏSİNDƏ NEOLOGİZMLƏRİN LEKSİK-SEMANTİK
VƏ ÜSLUBİ XÜSUSİYYƏTLƏRİ 220
NAİZƏ SALMANOVA,
MEHRİBAN ƏLİYEVA
MODAL FEİLƏRİN İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ
LEKSİK-SEMANTİK VƏ MORFOLOJİ XÜSUSİYYƏTLƏRİ 225
ZÜLEYXA ZEYNALOVA
İNGİLİS DİLİNDƏ CERUNDUN İSMİ - FEİLİ XÜSUSİYYƏTLƏRİ
VƏ AZƏRBAYCAN DİLİNDƏ ONUN MƏQBUL EKVİVALENTLƏRİ 230
TƏRANƏ MƏMMƏDOVA
İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ TERMİN-SÖZ BİRLƏŞMƏLƏRİ
VƏ ONLARIN LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ 235
ŞƏFİZADƏ İRADƏ
İNGİLİS DİLİNDƏ KONVERSİYANIN DERİVASİYA YOLU İLƏ
NEOLOGİZMLƏRİN YARADILMASI VƏ ONUN KOMPYÜTER
VASİTƏSİLƏ MƏNİMSƏNİLMƏSİ 240
ŞƏBNƏM MƏMMƏDOVA
MÜASİR İNGİLİS DİLİNDƏ MÜCƏRRƏD ƏLAQƏLƏR BİLDİRƏN
SÖZÖNLƏRİ VƏ ONLARIN AZƏRBAYCAN DİLİNDƏ İFADƏ
VASİTƏLƏRİ 245
MUSTAFA GÜNAYDIN
TÜRKMƏN TÜRKCƏSİ VƏ TÜRKİYƏ TÜRKCƏSİNDƏKİ HEYVAN
ANLAYIŞI BİLDİRƏN SÖZLƏR 250
FƏRQANƏ AĞAYEVA
"KİTABİ-DƏDƏ QORQUD" DASTANINDA İŞLƏNƏN QOŞMALARIN
LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ.....260
KÖNÜL ABDULLAYEVA
DİLİN ZƏNGİNLƏŞMƏ METODLARI.....266
SEVDA AGHAYEVA
JAFAR JABBARLI - 120 271
FATMA ƏLİYEVA
AZƏRBAYCAN DİLİNDƏ YENİ SÖZ YARADICILIĞI 278
RƏHİMƏ ABBASOVA
THE THEORY OF MEANING IN LINGUISTICS 284
XALİDƏ CƏFƏROVA
NITQ ETİKETLƏRİ NƏZAKƏT KONSEPSİİYASNIN TƏCƏSSÜMÜ
KİMİ.....291
XƏDİCƏ ƏLİYEVA
İNGİLİS DİLİNİN TƏDRİİSİNDƏ LEKSİK AMİLLƏRİN LİNQVİSTİK
VƏ PSIXOLOJİ ƏSASLARI 295
LALƏ ZEYNALOVA
THE IMPORTANCE OF IDIOMS FOR ENGLISH LANGUAGE LEARNERS...300

ƏDƏBİYYATŞÜNASLIQ

SONA VƏLİYEVA
HÜSEYN CAVİD VƏ MÜASİRLƏRİ: ABDULLA SUR 306
QƏRƏNFİL RZAYEVA
ANARIN ƏSƏRLƏRINDƏ ZAMAN OBRAZI 312
NİGAR İSAYEVA
CƏFƏR CABBARLININ PYESLƏRİNDƏ XALQ ƏDƏBİYYATINDAN
İSTİFADƏ ÜSULLARI 319
SAMİRƏ ƏLİYEVA
ƏBDÜLXALİQ CƏNNƏTİNİN HƏYAT VƏ
YARADICILIĞINA BİR NƏZƏR 327
MAHİRƏ HACIYEVA
BƏDİİ ƏDƏBİYYATDA VƏ BƏDİİ KİNODA ALTERNATİV
DÜNYA AXTARIŞI 333
LATIFA AHMADOVA
ABOUT JACK LONDON'S IS LIFE AND CREATIVITY 339
AYGÜN QASIMOVA
HÜSEYN ARİFİN "DİLQƏM" POEMASINDA FOLKLOR SİMVOLİKASI.....344
TAMARA ATAKİŞİYEVA
AZƏRBAYCAN MEMUAR ƏDƏBİYYATININ TARİXİ
QAYNAQLARI VƏ TƏŞƏKKÜLÜ 350
MİNARƏ QULUYEVA
ŞƏFƏQ BALAYEVA
VAQİFƏQƏDƏRKİ POEZİYANIN LİRİK QƏHRƏMANI 357
CƏFƏR QASIMOĞLU
RƏBB DƏRGAHINDAKI ANA KİTABIN YARANIŞI VƏ
YAXUD RƏHMAN ŞÜURUNUN LÖVHƏ ANATOMİYASI.....363
HİCRAN BABAYEVA,
BƏHLUL BEHCƏT VƏ AZƏRBAYCAN KLASSİK ƏDƏBİYYATI 374

RƏYLƏR

ƏSƏDULLA QURBANOV
QARANLIĞA BOY VERMƏYƏN DÜŞÜNCƏLƏR: KİM
QALXAR VƏ SUSAR?! 380

***«Elm və təhsil»* nəşriyyatının direktoru:**
***Filologiya elmləri doktoru, professor* Nadir MƏMMƏDLİ**

Dizayn: Kamran İbrahimov
Texniki redaktor: Yadigar Mirbagırzadə

Çapa imzalanmış 25. 10. 2019.
Şərti çap vərəqi 43,25 Sifariş № 14
Kağız formatı 60x84 1/8. Tiraj 300.

Jurnal "Elm və təhsil nəşriyyat-poliqrafiya" müəssisəsində
elektron nüsxə əsasında çap olunmuşdur.
E-mail: elm. ve. tehsil@mail. ru
Tel: 497-16-32; 055 426 -72-27
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.